AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 1

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2022

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Kamil Bəşirov, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2022, №1

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2022

www. filologiyameseleleri.com

DİLÇİLİK

MUSTAFAYEV FİZULİ NƏCMƏDDİN OĞLU
AMEA Nəsimi adına Dilçilik İnstitutu, Tətbiqi dilçilik şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent
mustafayev.fizuli8@gmail.com

KİNODA SPESİFİKA VƏ DİL ÖZƏLLİKLƏRİ

XÜLASƏ

Məqalə kinonun spesifika və dil özəlliklərinə həsr olunub. Məqalədən aydın olur ki, uzun və dolaşıq ibarələr kinoya yaddır. Təsvirin musiqi və sözlə uyğunsuzluğu nəticəsində "aktyor sözü" tamaşaçıya çatmır və film öz təsirini itirir.

Qeyd edilir ki, uzunçuluq, mürəkkəblik, bəlağətli nitq kinoya yaddır. Ona görə də kino üçün ssenari yazan müəllif bunu dərk etməlidir.

Məqalədən başa düşülür ki, digər sənət növlərində rast gəlmədiyimiz geniş bədiilik imkanları – bütün bunlar məhz kinonun xüsusiyyətindən irəli gəlir.

Təqdim olunan məqalədən anlaşmaq olur ki, kinofilmlərin digər incəsənət növlərindən fərqli və üstün cəhətləri vardır.

Kinofilmlərdə sözün funksional əhəmiyyəti, burada şifahi nitqin rolu və strukturu, ümumiyyətlə, janrın dil xüsusiyyətləri səhnə dili, radio və televiziya dramaturgiyasının dili ilə müqayisədə daha aydın şəkildə üzə çıxır. Məqalədə qeyd edildiyi kimi, belə müqayisəni, həm bu sahələrin estetik təbiətləri və struktur-dramaturji oxşarlıqları, həm də mövcud araşdırmanın məntiqi tələb edir.

Məqalədə yazılan ən maraqlı cəhət odur ki, kinonun təbiəti bir-birilə məntiqə və intonasiyaya görə bağlı olmayan paralel, müstəqil səslənməyə və təsvirə yol vermir, belə ki, eyni zamanda ikisəsli və ikitəsvirli lövhə bir-birinə mane olur.

Açar sözlər: *spesifika, ssenari, şifahi dil, kinorejissor, montaj, pavilyon, dil xüsusiyyətləri, şifahi dil*

Giriş. Yarandığı ilk illərdə bəziləri yanlış olaraq kinoda səs amilinin olmamasını, onun çatışmayan cəhəti, qüsuru, bəziləri isə açıqca onun korluğu kimi qiymətləndirirdilər. Lakin getdikcə aydın oldu ki, bu cəhət kinonun qüsuru deyil, onun şərtiliyidir. Məhz bu şərtilik kino dilinin əsas xüsusiyyətlərini müəyyən edir. Burada tamaşaçı kinoaktyorun səsini eşitməklə onların hiss və həyəcanlarını bütün

dərinliyi ilə qavraya bilir. Aktyorun səsi, onun kamera qarşısında dediyi sözlər tamaşaçılara əsər qəhrəmanının xarakteri, "görünüşü", daxili aləmi haqqında təsəvvür yaradır. Çox vaxt bircə söz, nida, musiqi akkordu böyük bir hüdud, geniş insan kütləsi haqqında təsəvvür oyada bilər.

x x x

Bütün bunları yaratmağa isə kinonun spesifik xüsusiyyətləri imkan verir.

Uzun və dolaşıq ibarələr kinoya yaddır. Təsvirin musiqi və sözlə uyğunsuzluğu nəticəsində aktyor sözü tamaşaçıya çatmır və öz təsirini itirir. Mürəkkəblik, uzunluq, bəlağətli nitq kinoya yaddır. Ona görə də kino üçün ssenari yazan müəllif bunu dərk etməlidir. O, sözün mikrofondan tamaşaçıyadək olan yolunu təsəvvür edib, düşünməlidir.

Digər sənət növlərində rast gəlmədiyimiz, geniş bədiilik imkanları – bütün bunlar məhz kinonun xüsusiyyətindən irəli gəlir. Kinodan fərqli olaraq, teatr tamaşaları və səhnədə oynanılmış əsərlər tamaşaçıdan yaradıcı fantaziya tələb etmir. Tamaşaçının qulaq asdığından və tamaşa etdiyindən onun hissləri daha emosional, dolğun və dərindir. Bu da öz növbəsində kinofilmlərin müəlliflərindən daha məsuliyyətli olmağı tələb edir. Çünki ideyanı dərinləşdirən söz, musiqi və təsvir müqayisəedilməz emosional üstünlüklərə malikdir. Kinonun üstünlüyü, gücü, spesifik cəhəti də məhz bundadır.

Kinofilmlərin üstün cəhətlərindən biri də budur ki, filmlərin digər növlərindən fərqli olaraq burada müəllif vaxt və məkandan daha geniş istifadə edə bilər.

Əlbəttə, kino dili dedikdə, məhz kino üçün yazılmış və şifahi nitq formasında qurulmuş filmlərdə dilin mövcud qanunauyğunluqlarından məqsədyönlü şəkildə istifadə edilməsi, yalnız aktyor nitqi, musiqi və səs effektləri vasitəsi ilə obrazların fəaliyyəti, psixoloji səciyyəsi, həmçinin hadisə, məkan və situasiya haqqında təsəvvür yaradan və sözlü-səsli formada ifadə olunan, bədii emosional-ekspressiv dil nəzərdə tutulur.

Kino dilinin spesifikliyi onun səs, musiqi və təsvir imkanları ilə müəyyən olunur. Buna görə də kino dilini araşdırarkən mütləq kinonun spesifik təbiətindən çıxış etmək lazım gəlir.

Kinofilmlərdə sözün funksional əhəmiyyəti, burada şifahi nitqin rolu və strukturu, ümumiyyətlə, janrın dil xüsusiyyətləri səhnə dili, radio və televiziya dramaturgiyasının dili ilə müqayisədə daha aydın şəkildə üzə çıxır. Belə müqayisəni, həm bu sahələrin estetik təbiətləri və struktur-dramaturji oxşarlıqları, həm də mövcud araşdırmanın məntiqi tələb edir.

Azərbaycan filologiyasında səhnə dili müəyyən qədər öyrənilsə də nə radio dili, nə televiziya, nə kino dili, nə də onların qarşılıqlı əlaqəsi, ümumi və fərqli cəhətləri araşdırılmamışdır. Halbuki şifahi nitq formalarının geniş tətbiq olunduğu bu sahələr nitq mədəniyyəti və funksional linqvistika üçün kifayət qədər zəngin material verir.

Tamaşaçı kinoda aktyorun artikulyasiyasını və onun ifadə etdiyi sözü görür. Lakin radioda söz görünmür, o, yalnız intonasiyada, insanın canlı səsinin ahəngində mövcud olur. Personajların hərəkətləri, onların nəfəsləri və ürək döyüntüləri isə öz əksinmi yalnız bu "görünməyən" sözdə tapır.

Sözün, danışığın səslənməsi və qavranılması ilə bağlı səhnə dili ilə kinofilmlərin dili arasında mühüm fərq mövcuddur. Teatr pyesi tamaşaçının gözü qarşısında, canlı oynanıldığı üçün hadisələri geri qaytarmaq, düzgün tələffüz olunmamış ifadəni yenidən dəyişdirmək mümkün deyil. Lakin eyni zamanda burada teatrın mühüm xüsusiyyəti özünü göstərir. Yəni, tamaşaçının canlı oynanılması zamanı müəyyən spontan elementlərin meydana çıxmasına şərait yaranır. Yəni, tamaşa vaxtı müəllifin əvvəlcədən nəzərdə tutmadığı səhnə şəraiti ilə bağlı əlavə replikalar meydana çıxa bilər.

Kinoda isə belə spontanlıq istisna olunur. Belə bir nitq hadisəsi yalnız hər hansı filmin çəkilməsi anında mümkündür ki, bu da yalnız üslubi məqsəd daşıya bilər.

Kinonun başlıca xüsusiyyəti odur ki, burada əsərin məzmunu sözlü, musiqili və təsviri formada ifadə olunur. Kinofilmlərin "səhnəsi" tamaşaçının öz təfəkkürüdür. Burada əsərin mahiyyəti sözdə və təsvirdə cəmləşir, surətlərcə poetik təsəvvürlər əsasında yaranır.

Kinonun təbiəti bir-biri ilə məntiqə və intonasiyaya görə bağlı olmayan paralel, müstəqil səslənməyə və təsvirə yol vermir, belə ki, eyni zamanda ikisəsli və ikitəsvirli lövhə bir-birinə mane olur. Çalarların növbələşdirilməsi və praktiki olaraq paralel, eyni mənalı səs və təsvir lövhələrinin tamamilə aradan qaldırılması televiziyanın və kinonun xüsusiyyətidir.

Dünyanın ən inkişaf etmiş ölkələrində, o cümlədən Avropa və Amerika ölkələrində kino dili müəyyən sistem üzrə öyrənilir. ABŞ-da bu işlə ölkənin bir neçə universitetində məşğul olurlar. Bu cəhətdən Rusiyanın təcrübəsi daha maraqlıdır. Ölkədə yaradılmış İncəsənət Elmi-tədqiqat İnstitutu ayrı-ayrı filmlərin dil və üslubunu tədqiq edir, eyni zamanda kino dilinin ayrı-ayrı kateqoriyalara mənsub tamaşaçı auditoriyasına təsirini də öyrənir.

Ümumiyyətlə, son 15-20 ilə qədər kino dilinin spesifikasına həsr edilmiş samballı tədqiqatlar meydana çıxana qədər ölkədə kino dilinə aid çap edilmiş ədəbiyyatı şərti olaraq üç qismə bölmək olar:

a) Birinci qrupa aid məqalə və kitabların müəllifləri kino dilinin özünəməxsusluğuna, hər şeydən əvvəl normativ-üslubi planda yanaşırdılar. Onların əsas məqsədi kinofilmlərdə istifadə edilən dil vasitələrinin ədəbi dil normalarına uyğun gəlib-gəlməməsini müəyyən etmək olmuşdur.

b) İkinci qrup müəlliflər kino ilə səslənən şifahi nitqin bəzi spesifik xüsusiyyətlərini göstərir və kino dilinin anlaşıqlı olması üçün onu canlı danışıq dili əsasında qurmağı təklif edirlər.

v) Nəhayət, kino dilindən bəhs edən üçüncü qrup müəlliflər öz peşələri ilə bağlı ümumi sənətkarlıq məsələlərindən danışmaqla yanaşı, dil üzərində apardıqları qiymətli müşahidələrə də toxunur və şifahi formada meydana çıxan kino dilinin özünəməxsusluğundan, onun ümumi prinsiplərindən söhbət açırlar. Bu ədəbiyyatlarda kifayət qədər nəzəri fikir olmasa da, kino dilinin bu və ya digər cəhətlərinə toxunulur, onların praktikada özünü necə göstərməsi şərh olunur.

Lakin bu ədəbiyyatların heç birində kino dilinin dolğun nəzəriyyəsi öz əksini tapmamışdır. Nəhayət, uzun elmi axtarışlardan sonra 50-ci illərin sonunda kinonun özünəməxsus təbiətindən çıxış edərək onun dilinin nəzəri əsaslarını yaradan, ən başlıcası isə danışıq dili ilə kino dili arasındakı mühüm prinsipial fərqləri üzə çıxaran sanballı tədqiqat əsəri meydana gəldi. Bu kino dili üzrə tanınmış mütəxəssis M.Martenin "Язык кино" kitabı oldu.

Kino dili nədir? O hansı xüsusiyyətlərə malikdir? Bu suallara cavab verən M.Marten göstərir ki, kinofilmlər kifayət qədər rəngarəng olsalar da, hər halda buradakı nitqin, insan fəaliyyətinin spesifik sahəsi olan kinonun təbiəti ilə bir sıra xüsusiyyətləri vardır.

M.Martenin tədqiqatında diqqəti cəlb edən başlıca cəhət budur ki, müəllif kino dili ilə bağlı bütün məsələləri əhatə etmiş, onun bəzi mübahisəli problemlərini aydınlaşdırmış, aktyor nitqinin informativ dəqiqliyi, onun strukturunun, sintaktik quruluşunun xüsusiyyətləri, fonetik, leksik və morfoloji vasitələrin funksiyası, həmçinin intonasiya-tələffüz məsələləri, səsli nitqin qavranılması və s. haqqında obyektiv elmi nəticələr çıxarmışdır.

Bəs Azərbaycan dilçiliyində kino dilinin tədqiqinə münasibət necədir? Təəssüf ki, yarandığı vaxtdan indiyədək müasir şifahi dilin mühüm tətbiqinin çevik sahəsi olan kinonun dili indiyə kimi ayrıca elmi tədqiqat obyekti olmamışdır. Yalnız dilçiliyin müxtəlif problemlərindən bəhs edilərkən kino dili mövzusuna da toxunulmuşdur.

Azərbaycan dilçiliyinin inkişafında böyük xidmətləri olan Ə.M.Dəmirçizadə və M.Şirəliyev tədqiqatlarında bilavasitə kino dili haqqında danışmasalar da şifahi nitqin, xüsusən orfoepiya normalarının müəyyənləşdirilməsində xeyli iş görmüşlər,

Şifahi nitqin ayrı-ayrı xüsusiyyətlərinə, orfoepiya normalarına, intonasiyaya, radio, televiziya, səhnə və kino dilinin təbiətinə dair məsələlərə Ə.Əfəndizadə, A.Axudov, F.Ağayeva, Ə.Abdullayev, Q.Məhərrəmli, A.Dadaşov, Ə.Hüseynov, İ.Məmmədli, F.Mustafayev və b. dilçilərin də tədqiqatlarında qismən yer verilmişdir.

Professor Aydın Dadaşov son dövr tədqiqatlarında kino dilinin araşdırılması mühüm yer tutur. O, kino dilinə müasir şifahi ədəbi dilin mühüm rolu kimi yanaşır və belə bir cəhəti qeyd edir ki, "kino, radio və televiziya ədəbi dilimizi nitq mədəniyyəti cəhətdən inkişaf etdirdiyi kimi, "onu tamamilə yeni formalarla da zənginləşdirir" [2; 58].

Ümumiyyətlə, A.Dadaşovun məqalələrini kino dili probleminin öyrənilməsi üçün faydalı başlanğıc hesab etmək olar.

Şifahi nitqin bu və ya digər xüsusiyyətləri ilə bağlı məsələlərə səhnə dilindən bəhs edən əsərlərdə daha tez-tez müraciət edilir. Bu cəhətdən görkəmli səhnə ustası Kazım Ziyanın Azərbaycan aktyorlarının bütöv bir nəsli üçün sorğu kitabına çevrilmiş "Səhnə dili haqqında" [3; 34] əsərinin böyük elmi və praktiki əhəmiyyətini qeyd etməmək olmaz.

Uzun müddət səhnə və onun problemləri ilə məşğul olmuş, ayrı-ayrı dram əsərlərinin dilini tədqiq etmiş, M.Arif, M.Məmmədov, M.Adilov, N.Abbasovanın tədqiqatlarında da şifahi nitqlə bağlı maraqlı elmi fikirlərə rast gəlirik.

İ.Məmmədovun "Ekran, efir və dil" kitabı [4; 39] da bu sahədə mühüm addımdır. O, həmin tədqiqatında həm şifahi nitqin intonasiya, ədəbi tələffüz və sintaqma kimi məsələlərinin, həm bir sıra fonetik hadisələrin təsvirinə, həm də teleradio nitqində mövcud nöqsanlar və onların aradan qaldırılması problemlərinə diqqət yetirmişdir.

Nəticə. Hazırda milyonların sevimlisinə çevrilmiş kino sürətlə inkişaf edir və onun dili şifahi nitqin mühüm bir sahəsi kimi daha da canlanır. Yeni dil hadisələri, maraqlı qrammatik formaların təzahürü, rəngarəng intonasiya-tələffüz çalarları, çevik sintaktik konstruksiyaların tətbiqi, ümumiyyətlə, ədəbi dilin zənginləşməsi və sözlərin leksik-semantik tutumunun genişlənməsi baxımından kino dili də bu prosesdə fəal iştirak edir. Buna görə də kino dilinin tədqiqata cəlb edilməsi şifahi dilin zəngin ifadə vasitələrini, onun kinoda öz əksini tapan bir sıra normativ qaydalarını aşkara çıxarmaq baxımından faydalıdır.

Ədəbiyyat

1. Мартен М. Язык кино. «Искусство». Москва, 1959.
2. Dadaşov A. Azərbaycan kinosu: mövzu, struktur, üslub, janr. Bakı, 2015.
3. K.Ziya. Səhnə dili haqqında. Bakı, 1947.
4. Məmmədov İ. Ekran, efir və dil. Bakı, 1989.

ФИЗУЛИ НАДЖМАДДИН ОГЛЫ МУСТАФАЕВ

СПЕЦИФИКА И ЯЗЫКОВЫЕ ОСОБЕННОСТИ В КИНО

РЕЗЮМЕ

Статья посвящена специфике и языковым особенностям кино. Из статьи видно, что кино длинные и запутанные фразы. В результате несоответствия образа музыке и словам «актерское слово» не доходит до зрителей, и фильм теряет свое влияние.

Отмечается, что кинематографу чужды длина, сложность, красноречие. Поэтому автор сценария к фильму должен это понимать.

Из статьи видно, что широкий спектр художественных возможностей, которых мы не находим в других видах искусства, - все это связано с природой кино.

Из представленной статьи ясно, что фильмы имеют отличные от других видов искусства особенности и превосходят их.

В фильмах функциональное значение слова, где роль и структура устной речи, в целом лингвистические особенности жанра выражены сильнее, чем в языке сценической, радио- и телевизионной драмы. Как отмечается в статье, такое сравнение требует как эстетической природы, так и структурно-драматического сходства этих направлений, а также логики проводимых исследований.

Самое интересное в статье заключается в том, что природа кино не допускает параллельного, независимого звука и описания, которые не связаны между собой логикой и интонацией, так как и двухцветная, и двухкартинная доски мешают друг другу.

Ключевые слова: *специфика, сценарий, устная речь, режиссер, монтаж, павильон, языковые особенности, устная речь*

FIZULI MUSTAFAYEV

SPECIFICITY AND LANGUAGE FEATURES IN CINEMA

SUMMARY

The article is devoted to the specifics and linguistic features of cinema. From the article it is clear that the cinema is alien to long and confusing phrases. As a result of the discrepancy between the image and the music and the words "the actor's word" does not reach the audience, and the film loses its influence.

It is noted that length, complexity, eloquence are alien to cinema. Therefore, the scriptwriter for the film must understand this.

It can be seen from the article that a wide range of artistic possibilities, which we do not find in other forms of art, are all related to the nature of cinema.

From the presented article it is clear that films have features that are different from other types of art and surpass them.

In films, the functional meaning of the word, where the role and structure of oral speech, in general, the linguistic features of the genre are more pronounced than in the language of stage, radio and television drama. As noted in the article, such a comparison requires both an aesthetic nature and a structural and dramatic similarity of these directions, as well as the logic of the research being carried out.

The most interesting thing about the article is that the nature of cinema does not allow for parallel, independent sound and description, which are not connected

by logic and intonation, since both two-color and two-picture boards interfere with each other.

Key words: *specifics, script, native speech, director, montage, pavilion, linguistic features, native speech*

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: ***filologiya elmləri doktoru, professor İsmayıl Məmmədli***
tərəfindən çapa tövsiyə olunmuşdur

RZAYEVA NURİYYƏ ƏSGƏR QIZI
AzTU, Xarici Dillər kafedrası
Filologiya üzrə fəlsəfə doktoru,dosent
H.Cavid pr.25
nuriyarzaeva@gmail.ru

İNGİLİS DİLİNİN AMERİKAN VARİANTININ FORMALAŞMASINDA DİLXARİCİ DİLDAXİLİ AMİLLƏRİN ROLU VƏ DİALEKTLƏRİN YARANMASI

XÜLASƏ

Bu gün ingilis dil dünyada ən geniş yayılmış dillərdən biridir. Görkəmli ingilis publististi və germanisti D.Kristal 2000-ci ildə çıxan kitabında yazırdı ki, ingilis dili dünyada ən geniş yayılmış dil olsa da, bu dildə danışanların sayına görə o, mandarin (Çin) dilindən sonra ikinci yerdə gəlir. Hazırda ingilis dilində 427 milyon insan danışır. Qeyd edək ki, bu rəqəm çox nisbidir. Çünki burada məsələnin bir sıra cəhətləri nəzəər alınmayıb. İngilis dili haqqında danışılanda üç cəhətə xüssui fiikr verilməlidir: ingilis dilini birinci dil kimi danışanların sayı; ingilis dilini ikinci dil kimi danışanlar; nəhayət, ingilis dilini müxtəlif məqsədlər üçün öyrənənlər.

İngilis dilinin Amerikada intişar tapması təkcə ingilislərin, məşhur ingilis alimi D.Kristal demişkən, yeni dünyaya ilk ekspedisiya ilə izah edilə bilməz. V.Reylayfın komissiyası Roanoyk adası yaxınlığında məskunlaşmış ingilislərin taleyi ilə maraqlanmışlar. Mütəxəssislərin fikrincə, ingilislərin qitədə daimi məskunlaşmasını 1607-ci ildən götürmək olardı. S.Potter 1620-ci ildə isə Plimouz Atalarının Masaçusetə gətirdiyi dil «Şekspirin və Spenserin ingilis dilidir» deməklə tamam başqa tarixi faktı əsas götürür. D.Kristal qeyd edir ki, gəlmələrlə yerli əhali arasında münaqişələr olub və 1590-cı ildə yeni qrupların gəlməsilə vəziyyət bir qədər yaxşılaşmağa başlayıb.

XVIII əsrdə Amerikaya gələnlərin əksəriyyəti mənşəcə Şimali İrlandiyadan idilər. Bu dövrdə İrlandiyadan və Şotlandiyadan çoxlu miqdarda irlandiyaalı gəldi. 1776-cı ildə Amerika müstəqilliyini elan edəndə ölkə əhalisinin $\frac{1}{7}$ -i şotland irlandiyalısı idi. Onlarn çoxu sahil boyu və Filadelfiyada məskunlaşdısa, digərləri ölkənin içərilərinə getmişdi. Onlarda geniş aksenti müşahidə olunurdu. D.Kristal yazır ki, bu gün Virginadan cənubi Kaliforniyaya qədər ərazidə danışılan aksenti amerikan aksenti adlandırırlar.

Açar sözlər:amerikan variantı,Britaniya ingiliscəsi,standart dil, ekstra- və intralinqvistik amillər

Elmi-nəzəri ədəbiyyatın təhlili göstərir ki, ingilis dilinin amerikan variantı həm ayrı-ayrı fonemlərin reallaşmasında, həm də intonasiya və prosodiyanın işlənməsində getdikcə Britaniya ingiliscəsindən ayrılır. Bu ayrılığa rəvac verən amillər bunlardır:

1. Amerikaya köçüb gələn iminqrantlar öz dillərini də özlərilə gətirmişdilər. Ancaq yerli əhali ilə ünsiyyət yaratmaq üçün onlar yerli əhalinin də dillərinin təsirini hiss etməyə bilməzdilər. İlk vaxtlarda bir növ picin və ya kreol dildən istifadə etməli olurdular.

2. XIX və XX əsrlərdə Amerikaya Avropa, Afrika və Asiyadan gələn imiqrantların heç də hamısı ingilicə təmiz danışa bilmirdi və bu amil də ingilis dilinin işlənməsində öz izlərini buraxmaya bilməzdi.

3. Amerikan variantının tam şəkildə formalaşması bütün ölkə boyunca gedən iqtisadi, ticari, siyasi təmərküzləşmənin nəticəsi kimi götürülməlidir.

4. İngilis dilinin amerikan variantının tezliklə Britaniya ingiliscəsini üstələməsi dünyada gedən qloballaşma ilə bağlıdır.

Crystal D. English as a Global Language. Cambridge University "Bütün bu linqvistik amillər ingilis dilinin amerikan variantının vahid bir ünsiyyət vasitəsi kimi formalaşmasını şərtləndirir. Bu gün ingilis dilinin amerikan linqvistik şərhi saitlərin fərqli şəkildə tələffüz olunaraq dilin parçalanmasını şərtləndirən amil kimi təzahür kdir. Amerikan alimləri Treycer və N.Smit daha az sait inventarından çıxış edirlər. Onların sait inventarını P.Leydfogedin və D.Jounzun inventarları ilə müqayisə etdikdə fərqlərin nədən ibarət olduğunu aydın görmək olar**."(2.p.123)**

Treycer və Smit daha çox yarımsaitlərdən (semivowels) istifadə edir. P.Ledfoged isə bunları diftonqlar adlandırır. Treycer və Smitdə beat və boat sözlərində sadə saitdən sonra keyfiyyətcə dəyişkən, saitə bənzər element gəlir. Bu da onunla izah oluna bilər ki. bu müəlliflər ABŞ-ın şərqindədirlər. Orada yuxarıda verdiyimiz nümunələrdə diftonqoid tələffüz olunur. Orta və Uzaq Qərbdə və Britaniyada monoftonq kimi səslənir. Treycer və Smit bu və ya bu kimi diftonqları sait+ 1 və w ilə transkripsiya edirlər. Belə olduqda bu diftonqların ikinci elementi yes və we sözlərindəki samit keçid səsinə (qlayd) oxşayır, ancaq əks istiqamətdə. Bu Treycer və Smitdə transkripsiyasında ay (şey) və yes (yes) sözlərinin əksi kimi alınır.

Bu transkripsiyaların D.Jounz konsepsiyası ilə müqayisəsi belə nəticə çıxatmağa imkan verir ki, D.Jounzda beat və boat sözlərində saitlər bit və put sözlərindəkindən uzundur. D.Jounzda Britaniya ingiliscəsində saitlərin sayı çoxdur. D.Jounzda Britaniya ingiliscəsində 4 diftonq və 12 monoftonq olduğunu qeyd edir. ABŞ-da şərqdə və cənubda (Virciniya, Karolina, Corcia, habelə Luizana və Texas) işlənən tələffüz variantında isə saitlər aşağıdakı kimi ümumiləşdirilə bilər:

İngilis ədəbi dilində saitlərin inventarı

Saitlər	Qapalı heca	Açıq heca	Saitlər	Qapalı heca	Açıq heca
i	beat, seem	bea, tea	o	bought	shaw, paw
c	bit, pil	yoxdur	α	cot, don	yoxdur
e	bait, pale	bay, tay	Aı	bite, pile	shy, buy
ε	bet, den	yoxdur	aʊ	bout, down	cow, now
a	bart, darn	shah, bra	oı	noise, voice	coy, boy
a	bat, dan	yoxdur	ıə	beard, fieree	beer, idea
u	boot, pool	shoe, coo	εə	laird,scarce	bear, fare
ʊ	put, pull	yoxdur	ʊə	gourd	pure, tour
o	boat, poll	show	Z	bird, heard	burr, fur
λ	butt, some	yoxdur	Ə	bottom	butter

İki sistemin müqayisəli təhlili göstərir ki, amerikan variantında (ıə), (ə) və (a) saitləri yoxdur. Bunun da nəticəsində biz ingilis dilinin amerikan variantında cəmi 16 saitin olduğunu görürük. Bu saitləri cütlər şəklində qruplaşdıraraq təsvir edirlər. Qarşılaşmaları müəyyənləşdirmək üçün əlamətlər tapırlar ki, bunlara da fərqləndirici əlamətlər deyirlər.

Göründüyü kimi, saitlərin qarşılaşmalarını müəyyənləşdirəndə onların vurğulu və ya vurğusuz mövqedə gəlməsini də nəzərə alırlar. Məsələn, yuxarıdakı cədvəldən göründüyü kimi, i saiti açıq və qapalı hecalarda gələ bilir. Ancaq onun qısa qarşılığı açıq hesada gələ bilmir. Digər tərəfdən, sait açıq hecada qapalıdakından uzun tələffüz olunur. Məsələn (bi:t), ancaq(bıt). İngilis dilinin amerikan variantının saitlərini belə qarşılaşdıra bilərik.

Beləliklə, bütün ekstralinqvistik və dildaxili amillərin təhlili göstərir ki, ingilis dilinin amerikan variantı vahid bir ünsiyyət vasitəsi kimi o qədər uzun tarixə malik olmasa da, onun standart Britaniya ingiliscəsindən ayrılaraq formalaşması prosesi çox ciddi şəkildə getməkdədir.

Qeyd edək ki, Amerikada müşahidə olunan heç də bütün hadisələr normadan kənar hesab edilməlidir və onlar öz təbiətinə görə dialekt qrupuna aid deyil. Məsələn, “either” və “neither” sözlərindəki birinci hesadakı [i] səsi ABŞ-ın ədəbi dil normasına uyğun gəlir. Lakin “theatre” sözündəki ikinci hecada [ei] dialekt kimi xarakterizə edilir. Başqa misallarla da müraciət edə bilərik. Məsələn, “gotton” felinin qrammatik forması amerikanlılar tərəfindən adi nitqdə geniş şəkildə işlənir. Lakin “ought not” əvəzinə “hadnt ought” işlədilir və bu da dialekt hesab edilir. Aşağıda göstərəcəyimiz misal da maraq doğurur:

“Candy” sözü (konfet) ədəbi dilə aiddir və dilin lüğət fondunda da belə formalaşmışdır. Lakin “piece” sözü “yüngül qəlyanaltı” mənasında dialekt kimi qəbul edilir.

Şimalı Amerikanın məskunlaşması ilə əlaqədar mühacirlər arasında da fərqli nitqlər duyulmağa başlayır.

Şimalı Amerikada məskunlaşan ilk müstəmləkəçilər Şeksprin, Spenserin, Miltonun müasirləri idilər. Onlar ingilis dilinin inkişaf etdiyi bir dövrdə, dahi yazıçıların ölməz əsərlər yaratdığı bir vaxtda Şimalı Amerikada ingilis dilinin daşıyıcıları funksiyasını yerinə yetirirdilər.

Giegeric H.J. English Phonology. An Introduction. Cambridge University."London dialekti əsasında ingilis milli dilinin formalaşması prosesi XV əsrdə başlamışdır. Lakin XVI əsrdə bu dialekt artıq möhkəmlənmiş və ingilis ziyalıları tərəfindən qəbul edilmişdi. Lakin bu proses o qədər də tez qurtarmadı. Çünki yerli dialektlər öz qüvvəsini hələ itirməmişdi və bu dialektlərdə hələ Spenser kimi yazıçılar yazıb yaradırdılar. Lakin bütün bu fərqli xüsusiyyətlər tədricən bir səmtə yönəlir, ingilis ədəbi dil norması möhkəmlənir və Standart English dili formalaşmağa başlayır**.(4.p.156)** Məhz buna görə də Şimali Amerikada məskunlaşan ilk ingilis dilinin məhz bu formasında danışırdılar. Buna görə də Şimali Amerikada danışılan ingilis dili İngiltərədə XVII əsrdə qəbul edilmiş normaya uyğun gəlirdi. Lakin bununla yanaşı, Böyük Britaniya və Amerika arasında mövcud olan dialektlərdə inkişaf edirdi. Bu da ondan irəli gəlir ki, Britaniya və İngiltərə variantları da inkişaf edir, tədricən oxşar olmayan cəhətlər özünü göstərirdi. Elə bununla əlaqədar ingilis dilinin Britaniya və Amerika variantlarında olan fərqlər də maraqlı görünür. Məsələn;

Amerika variantı	**Ingilis variantı**
Subway train	underground train
Furniture store	furnishing store
Newspaper clipping	newspaper cutting
From the ground up	down to the last detail
Elevator-boy	lift-boy
It wasnt-picnic	it wasnt a bean-feast
Phonograph records	grammophone records
It was nearly six oclock	it was getting on for six oclock

Göründüyü kimi ingilis dilinin Amerika və Britaniya variantları arasında fərq olduğu kimi, dialektləri arasında da fərq vardır. Buradan da aydın olur ki, hər iki variantın mövcud olması, onların yaranması tarixi zərurətdən doğur.

Beləliklə, deyilənlərdən aydın olur ki, Amerika Birləşmiş Ştatlarında ingilis dilinin yeni variantı yaranmaqla bərabər yeni dialektlərin yaranması da qanunauyğun hal hesab olunur. Məhz buna görə də bir sıra Amerika dilçiləri belə təklif edirlər ki, elə lüğətlər yaradılmalıdır ki, onlar təkcə bədii dili deyil, eyni zamanda danışıq dilini ə dialektləri də əhatə etsin.

Üç əsrdən daha çox bir müddətdə Amerika lüğət tərkibi Britaniya (İngilis) lüğət fondundan tam və ya qismən asılı olaraq inkişaf etmiş və yaranmış yeni mühitin də bu lüğət fondunun inkişafına böyük təsiri olmuşdur. İngiltərədə "to advocate"

(vəkillik etmək), to placate (plakat çəkmək), "to antogonize" (ziddiyyət yaratmaq) terminlərinə qarşı ədəbiyyatçılar 19-cu əsrdə müharibə elan etmişlər. Çünki bu sözlərin yerli hinduların dilindən götürüldüyü güman edilirdi. Lakin "amerikanizm"ə daxil olan bütün sözləri Amerikanın yerli əhalisi hinduların dilindən hazır şəkildə götürüldüyünü demək də düzgün olmazdı. Elə sözlər var ki, onlar amerikan həyat tərzini və əşyanı adlandırmaq üçün verilən terminlərdir. Məsələn, hamıya tanış olan "telephone" (telefon), "photograph" (fotoqraf) və s.bəzi başqa sözlərin köklərinin "amerikanizm" olduğu bəllidir. Məsələn, "to lunch" (cəzalandırmaq), "jazz" (caz) və s. Bəzən isə yaranmış söz hamı tərəfindən qəbul edilərək, başa düşüldükdən sonra adiləşir. Məsələn, "hue və hue and cry" (hay-küy) sözlərindəki "hue" (rəng) sözünün mənası artıq "hue və cry" sözündəki "hay-küy" mənasını vermir. Yaxud "meat" (ət) sözü "One man`s meat is another man`s posion" atalar sözündə "sweet meat" (yemək) mənasında, yəni "birinin cörəyi-əti o biri üçün zəhərdir" – mənasında işlənir. Bəzən yeni terminlər siyasi məqsədlər üçün yaradılır və dildə də uzun müddət işlədilir. Məsələn, "superdövlətlər" olan Birləşmiş Ştatlar və Sovetlər İttifaqı (dağılmazdan əvvəl) bəzi müstəmləkə zülmündən azad olmuş ölkələri "Third World" (Üçüncü Dünya) ölkələri, yaxud "underdeveloped" (inkişaf etməkdə olan) ölkələr adlandırmışlar. Bu dövrdə "rat-race" (yavaşsürətli yarış), "consolium" (məsləhət, məşvərət), "confrontation" (qarşıdruma), "update" (hazırkı) və s. kimi terminlər yaradılır. Elə yeni sözlər, terminlər meydana çıxır ki, onların əksəriyyəti demək olar ki, müəyyən şeylərə verilən ad kimi üzə çıxır, yaranır. Məsələn, "a bubble car" (avtomobil) termini maşının yuxarı hissəsi, damı plastmas materialdan düzəldilmişdir, həm də köpüyə bənzədiyi üçün bu maşına həmin ad "a bubble car" köpük maşını adı verilmişdir. Məsələn, "paper pack" (kağız torbacıq) termini də öz mənasını məhz aid olduğu şeydən almışdır. Belə ki, əvvəllər mağazadan kitab alan zaman həmin kitabı kağız torbacıqda bükün verərmişlərmiş, sonralar isə bu hadisə getdikcə yayılmış, təkcə kitab deyil, başqa şeyləri də kağız torbacıqları büküb verirlərmiş ki, həmin termini "kağız torbacıq" mənasını daşımışdır. Yeni söz və terminlərin yaranması və məna dəyişiklikləri demək olar ki, 1960-1980-ci illərdə aparılmış statistik məlumatlara əsasən (bu dövrdə çoxlu kitab və jurnallar nəşr olunmuşdur ki, bunlarda da heç şübhəsiz, xeyli sözlər və mənalar öz əksini tapmışdır) tədqiq olunmuşdur. Hər hansı bir sözün strukturu, yaxud mənası Britaniya ingiliscəsinə oxşamadığı halda, dərhal onu "amerikanizm" adlandırmaq səhv olardı. Bu məsələdə də israfçılıqdan yan keçə bilməyənlər "amerikanizm" hesab olunan sözlərə qarşı müəyyən dövlərdə mübarizə aparmışlar. Ancaq süni vasitə və üsullar dilin təbii inkişafının qarşısını ala bilməmişdir. Amerikan ingiliscəsində yenis sözlərin yaranmasına təkcə yeni texnika deyil, həmçinin də yeni texnoloji dəyişikliklər zəmin yaratmışdır. Məsələn "gasoline" (benzin), "alcohol" (alkoqol, spirt) terminlərinin yaranması ilə əlaqədar bunlara aid oxlu derivativlər meydana gəlmişdir. Adamların benzinə, yaxud spirtə olan tələbatı ilə də ya da benzinin, spirtin qiymətinin qalxıb-düşməsi ilə əlaqədar terminlər yaranmışdır. Belə texnoloji

dəyişikliyə dair terminlər (təyyarə və avtomobillərdə qəza və digər təhlükəsizlik texnikası ilə əlaqədar terminlər, İkinci Dünya Müharibəsi zamanı yaranmış terminlər sə s.) artırmaq da olar. "Computer" (kompyüter, sayğac) sözü hələ İkinci Dünya Müharibəsindən əvvəl İctimaiyyətə "sayan adam" mənasında "to compute" kimi məlum idi.

ƏDƏBİYYAT

1. Crystal D. The Cambridge Encyclopedia of Language. 2000.p.46
2. Crystal D. English as a Global Language. Cambridge University Press, 2002.p.123
3. Potter S. Our Language. Penguin Books, 1990.p.36-38.
4. Giegeric H.J. English Phonology. An Introduction. Cambridge University, 2003.p.156

N. RZAEVA

EXTRA- AND INTRALINGUISTIC FACTORS OF BUILDING AMERICAN ENGLISH AND FORMATION OF DIALECTICS

SUMMARY

This article deals with the faktors which differ the American variant from the British English. The author throws light on the extralinguistic factors which refet to the teritorial remoteness and socio-political independence characteristic for the modern America and the intralinguistic factors which are observed in all levels of the language system.

The article deals with semantic features of the regional variants of the English language. Specially Australian version. Analysis of words are held on the bases of interesting examples and their semantic features are stressed.

Over three centuries, the American vocabulary has evolved entirely or partially from the British (English) word stock and has created a great impact on the development of this word stock. It was supposed that most words were taken from the native Hindu language.

But all the words included in "Americanism' would not be right to say to have been taken out of the Indian language. There are words that these are the terms used to call the American lifestyle and items.

It would be a mistake to call it "Americanism" immediately, unless the structure or meaning of any word resembles the British one. In this case, those who could not overcome wastefulness fought in certain situations against the word "Americanism". However, artificial means and methods could not prevent the natural development of language.

Key words: American English, British English, standart English, extra- and intralinguisic factors

Н.РЗАЕВА

ВНЕШНЕ- И ВНУТРИЛИНГВИСТИЧЕСКИЕ ФАКТОРЫ ФОРМИРОВАНИЯ АМЕРИКАНСКОГО ВАРИАНТА АНГЛИЙСКОГО ЯЗЫКА И РОЛЬ ДИАЛЕКТИКИ

РЕЗЮМЕ

В настоящей статье рассматриваются факторы, обуславливающие отделение американского варианта от британского варианта английского языка. Автор выделяет внешнелингвистические факторы, к котором относятся территориальная отдаленность и социально-политическая самостоятельность, которые характерны для современной Америки и внутриязыковые факторы, которые наблюдаются во всех уровнях системы языка.

В статье рассматриваются также семантические особенности региональных вариантов английского языка. Специально австралийская версии. Анализ слов проводится на основании интересные примеры и их семантические особенности подчеркнул он.

Более трех веков американский словарь полностью или частично эволюционировал от английского (английского) словарного запаса и оказал большое влияние на развитие этого слова. Предполагалось, что большинство слов было взято из родного индусского языка. Но все слова, включенные в «американизм», не были бы прав, если бы они были выведены из индийского языка. Есть слова, что это термины, используемые для обозначения американского образа жизни и предметов. Было бы ошибкой назвать это «американизмом» сразу, если структура или значение какого-либо слова не будет напоминать британский. В этом случае те, кто не мог преодолеть расточительность, сражались в определенных ситуациях против слова «американизм». Однако искусственные средства и методы не могли помешать естественному развитию языка.

Ключевые слова: американский английский язык, стандартный язык, экстра- и интралингвистические факторы.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru,dosent Rəfiq Cəfərov tərəfindən çapa tövsiyə olunmuşdur

SƏİDƏ QƏMƏRLİ
UKLEYN DIANA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
saida.qamarli@mail.ru **andreyukl@mail.ru**

XARİCİ DİLİN TƏDRİSİNDƏ DİNLƏMƏ BACARIĞININ İNKİŞAF EDİRİLMƏSİ

XÜLASƏ

Xarici dil tədrisi prosesinin hazırkı mərhələsində 4 dil bacarığının vəhdət şəkildə öyrədilməsi prioritet hesab olunur. Bu prosesdə müəllimin vəzifəsi pedaqoji təcrübəsində xarici dil öyrənmə prosesində tələbələrin tədris və idrak fəaliyyətini aktivləşdirən müxtəlif metodlardan və tədris vasitələrindən mümkün qədər geniş istifadə etməkdir; tədris olunan mövzuya və materiala marağın artırılmasında metod və vasitələrin istifadəsi bir çox amillərdən asılı olacaqdır. Ənənəvi təlim metodlarından və sistemlərindən daim istifadə etmək effektiv deyil, günümüzün tələbləri nəzərə alınmaqla təcrübələr aparmaq, yeni texnika və metodları sınaqdan keçirmək arzu edilir. Məqalədə xarici dil müəllimləri tərəfindən təhsil prosesində tələbələrin dinləmə bacarığının formalaşması ilə bağlı istifadə olunan inkişaf etmiş forma və metodların istifadəsini təhlil etməyə cəhd edilir.

Bununla bağlı, ali təhsil müəssisələrində xarici dil tədrisində dinləmə bacarığının inkişaf etdirilməsi üçün interaktiv metodlardan istifadənin xüsusiyyətləri və spesifikliyi nəzərdən keçirilir. Tələbələrə nitq müstəqilliyini nümayiş etdirmək, ünsiyyət vərdişlərini və danışıq vərdişlərini həyata keçirmək imkanı verən dinləmə bacarığının yaxşılaşdırılması ilə bağlı fəaliyyətlərin (activity) köməyilə dərsləri daha fərqli keçirməyə imkan yaradan interaktiv metodlardan istifadənin məqsədəuyğunluğu nəzərdən keçirilir. Tələbələrin yaradıcı təfəkkürünü genişləndirməyə yönəlmiş interaktiv metodlardan istifadənin məqsədəuyğunluğu göstərilir.

Yeni nəsil müəlliminin öz bilik sahəsində səriştəli olması kifayət deyil; təhsil prosesində bu gün interaktiv tədris metodlarının tətbiqi ilə əlaqəli metodiki yeniliklərdən istifadə etmək lazımdır. İnteraktiv metodların tətbiqi qarşıya qoyulmuş məqsədə nail olmağa kömək edəcəkdir. Bu metodların təhsil prosesinin səmərəliliyinin artırılması, bütün tələbələr tərəfindən yüksək göstəricilər əldə edilməsində rolu böyükdür.

Açar sözlər: xarici dil, metod, dinləmə bacarığı, inkişaf etdirmək, fəaliyyət, strategiya

Aydındır ki, dil insanın ideya, düşüncə və hisslərinin digər insanlara çatdırılmasında bir silahdır. Bir dili öyrənmək üçün insanlardan həmin dilin bacarıqlarını öyrənmələri tələb olunur. İngilis dili kimi xarici və ya ikinci dili

öyrənərkən, dil öyrənənlər arzu olunan şəkildə ünsiyyət bacarığını əldə etmək üçün onun bütün dörd bacarığını öyrənməlidirlər. Bu dörd bacarıq iki kateqoriyaya bölünür: reseptiv və ya passiv bacarıqlar və məhsuldar və ya aktiv bacarıqlar. Dinləmə və oxu reseptiv bacarıqlardır ki, burada dil öyrənənlər sadəcə bu bacarıqları qəbul edir və başa düşürlər və dil öyrənənlərin bu halda dil yaratmasına ehtiyac yoxdur. Digər tərəfdən, danışıq və yazı bacarıqları məhsuldar bacarıqlardır ki, burada öyrənənlər bu bacarıqlardan istifadə edərək dil yaratmalıdırlar. Lakin onları ümumiləşdirən əsas amil həqiqətən vacib olan dəqiqlikdir. Xarici dilin tədrisi və öyrənilməsi zamanı onların heç biri kənarda qalmamalı və diqqət yetirilmə baxımından fərqləndirilməməlidirlər. Bu dörd bacarıq arasında dinləmə ingilis dili öyrənənlərin əvvəlcə əldə etdikləri ilk bacarıqdır. Dinləmə "eşidə biləcəyiniz kiməsə/nəyəsə diqqət yetirmək" deməkdir. Ancaq dinləmək və eşitmək arasında fərq var. Eşitmə, qulaqlarınızın qəbul etdiyi səslərə aiddir və bu, bir insanın eşitmə probleminin olmaması şərti ilə fiziki bir prosesdir. Əksinə, dinləmə bundan daha çox şey tələb edir, həm zehni, həm də bir növ fiziki diqqət və cəmlənmiş səy tələb edir. Bəzi dil öyrənənlər var ki, danışmaqdan daha çox dinləməyi üstün tuturlar, onlara yaxşı dinləyici deyilir. Dr. Rachel Naomi Remenin qeyd etdiyi kimi "Başqa bir insanla əlaqə qurmağın ən əsas və güclü yolu dinləməkdir. Sadəcə qulaq asın. Bəlkə də bir-birimizə verdiyimiz ən vacib şey diqqətimizdir."

Xarici dilin mənimsənilməsində dinləyib-anlama qabiliyyətinin inkişafı mühüm rol oynayır. Dinləyib-anlama bacarıqlarına yiyələnmək üçün bir sıra maraqlı üsullar mövcuddur ki, onlar da dil öyrənənlər üçün maraqlıdır. Xarici dil dərslərində oxu bacarıqlarının dinləyib-anlama bacarıqlarından daha önəmli olduğunu bilirik və ya oxu bacarıqlarının xarici dilə daha yaxşı yiyələnməyimizə kömək edə biləcəyini deyə bilərik. Bununla belə, oxuyub-anlama bacarıqlarında dinləyib-anlama bacarıqları mühüm rol oynayır. Ona görə də deyə bilərik ki, dinləyib-anlama bacarıqları dil öyrənmənin əsasını təşkil edir. Əgər dil öyrənənlər dinləyib anlamaqda çətinlik çəkirlərsə, dil bacarıqlarını öyrənməkdə bir sıra çətinliklər ola bilər. Dinləmə prosesi daha çox hisslərə və ya səslərə və tona diqqət yetirir. Görmə oxumağın əsasını təşkil edir. Bu o deməkdir ki, oxumaq və dinləyib anlama bacarıqları arasında uyğunsuzluq var. Oxu bacarıqlarını dolayı ünsiyyət adlandırsaq, dinləməni birbaşa ünsiyyət kimi tətbiq edirik. Dinləmə prosesində hansı problemlərlə qarşılaşırıq? Danışığı necə başa düşürük? Kimsə bir şey haqqında danışanda biz onu dinləyirik və məlumatları təhlil edirik. Eyni zamanda cümlənin quruluşuna da diqqət yetiririk. Naməlum sözləri başa düşmək, diqqəti cəmləmək lazımdır. Amma biz mesajı hərfi anlamağa çalışmırıq. Təbii ki, dinləmə prosesində çətinliklər olur. Bunu medianın və zamanın timsalında görmək olar. Müxtəlif sürətlərdə nitqdə problemlər və çətinliklər müşahidə olunur. Dinləyici natiqin nitq sürətinə fikir verməlidir. Bundan əlavə, dialektlərin başa düşülməsində problemlərə rast gəlinir. müəllimlər həmişə ədəbi dildən istifadə edirlər. Dinlədiyini başa düşməyi məşq etmək üçün istifadə olunan bir çox texnika var. Dinləyib-anlamada istifadə olunan üsullar təkcə dinləmə prosesi

üçün deyil. Onlar digər bacarıqlarda da istifadə olunur, çünki hər bir bacarıq ayrıca tətbiq olunur. Dinləyib-anlama üçün istifadə olunan mətn işlənib hazırlandıqdan sonra, təbii ki, nitq bacarıqlarını müzakirə etmək olar. İlk illərdə dil öyrənənlər üçün bu, daha çətin ola bilər, baxmayaraq ki, müəllim daha çox bacarıq tətbiq etməyə çalışacaq. [1,2]

Bir çox tələbələr xüsusilə ingilis dilində dinləməni öyrənməkdə çətinlik çəkirlər. Bu prosesdə multimediadan tədris vasitəsi kimi istifadə etmək vacibdir. Bu, tələbələrin diqqətini dərsə cəlb edə bilər.

Yuxarıda təsvir olunduğu kimi, qeydə alınmış səsə xarici dildə qulaq asmaq çətindir, çünki dəstək sistemləri yoxdur – dinləmə materialının mənasını deşifrə etməyə kömək edəcək heç bir üz ifadəsi və ya bədən dili yoxdur. Müəllim bu çatışmayan dəstəyi kompensasiya etməlidir. Bunu etməyin bir yolu, dinləmə mətnini dəstəkləmək üçün tələbələrə təyin edilən fəaliyyətləri aşağıdakı kimi müəyyən etməkdir:

• dinləmədən əvvəlki fəaliyyət;
• dinləmə zamanı fəaliyyət;
• dinləmədən sonrakı fəaliyyət.

Dinləmədən əvvəlki fəaliyyət – tələbələri qarşıda duran vəzifəyə hazırlamaq

Bu, tələbələrə mətnin nə haqqında olduğunu söyləmək, başlıq və xülasə vermək, onlara qarşılaşacaqları əsas dili xatırlatmaq, mətnin forması haqqında müəyyən təsəvvürü olmaqdan ibarətdir - məsələn, dialoq, monoloq və ya elan. Vizuallar burada faydalı ola bilər; lazım olduqda müvafiq məlumatları verən sözlər və ya fotoşəkillər vermək olar. Dinləmədən əvvəlki fəaliyyət həm də dil öyrənənlər dinləyərkən nə etməli olduqlarını başa düşmələri üçün tapşırığı modelləşdirməyi və ya nümayiş etdirməyi də əhatə edir. Onların mətni neçə dəfə eşidə biləcəklərini, yazmaq və ya düşünmək üçün kifayət qədər vaxt ayırmaqla səsni dayandırılıb dayandırılmayacağını bilmələri də vacibdir. [3]

Dinləmə zamanı fəaliyyət– dinləyib-anlama zamanı tələbələrə dəstək verən fəaliyyət

Dinləmə zamanı dil öyrənənlərə dəstək verən fəaliyyətlər onların diqqətini mətnin mühüm aspektlərinə yönəltmək məqsədinə xidmət edir. Fəaliyyət təlimatının oxunması və tamamlanması sadə olmalıdır, məsələn, "doğru və ya yanlış (True/False)" qutularını işarələmək, verilmiş elementləri və ya variantları qeyd etmək, qeyd olunmayan elementi tapmaq, şəkilləri işarələmək, boşluqları müvafiq sözlə doldurmaq, faktiki təfərrüatların düzəldilməsi, uyğunlaşdırma tapşırıqları v s. Əsas fikir dinləyicinin diqqətini danışılan sözdən yayındırmamaqdır.

Diqqət yetirmək lazımdır ki, diaqram tələbələri şəbəkədə asanlıqla əldə edilə bilən tək faktlara qulaq asmağa necə istiqamətləndirir. Hər sütunun başlıqları tələbələrin tanış olduğu tək, sadə sözlərdən ibarətdir. Onlar diqqətlərini dinləmə mətninə cəmləyəcəklər, halbuki şəbəkə onların dinləmələrinə diqqət yetirmək və nəyə qulaq asmalı olduqlarını göstərmək üçün nəzərdə tutulub.

Dinləmədən sonrakı fəaliyyət – dinləməni izləmək üçün fəaliyyəti (tapşırığı) təyin etmək

Dinləmədən sonrakı fəaliyyət tələbələrin tamamladığı şəbəkəyə diqqət yetirə və sinfin çətin hesab etdiyi sözlərin müzakirəsini əhatə edə bilər. O, həmçinin mətnin nə haqqında olduğu barədə müzakirəni, müəyyən sözlər üçün sinfin etdiyi təxminlərə baxmağı, başa düşmə yoxlamasını, qeydləri müqayisə etməyi və müəllimin çətin məqamlarla bağlı verdiyi izahı əldə etməyi, faydalı ifadələr və konstruksiyaları yazmağı əhatə etməlidir. Bu, həm də tələbələrin özləri üçün, lakin yazılı şəkildə oxşar mətn hazırlamalarını təmin etməklə mətni inkişaf etdirməyi də əhatə edə bilər.

İngilis dilini öyrənənlər üçün dinləmə çox vacibdir, çünki onlar söz ehtiyatı, qrammatika, tələffüz, şifahi söz sırası, həmçinin sözlərin, ifadələrin və cümlələrin vurğu nümunələri haqqında məlumatı məhz bu mənada alırlar. Bunlara əlavə olaraq, müxtəlif vurğuların, səs tonunun aşağı olması və yüksəkliyi onların mesajı başa düşməsinə təsir göstərə bilər.

Dinləmə təkcə dil öyrənənin dili necə öyrənəcəyini, məsələn, sinifdə təlimatlar və ya audio cihazları vasitəsilə başa düşməsi üçün vacib deyil, həm də əsas həyat bacarığıdır. Bəzən bu, Aktiv Dinləmə adlanır, bu, təkcə eşitmə hissini deyil, həm də ötürülən mesajın düzgün qəbul edilməsini təmin etmək üçün bədən dilindən xəbərdar olmağı və danışanla empatiya qurmağı da əhatə edir.

Effektiv dil müəllimləri tələbələrə müxtəlif vəziyyətlər, giriş növləri və dinləmə məqsədləri ilə məşğul olmaq üçün dinləmə davranışlarını necə tənzimləyə biləcəklərini göstərir. Onlar tələbələrə bir sıra dinləmə strategiyaları hazırlamağa və hər bir dinləmə vəziyyətinə uyğun strategiyaları uyğunlaşdırmağa kömək edir. [4]

Dinləmə strategiyaları birbaşa dinləmə məlumatının başa düşülməsinə və xatırlanmasına kömək edən texnika və ya fəaliyyətlərdir. Dinləmə strategiyaları dinləyicinin girişi necə emal etdiyinə görə təsnif edilə bilər.

Şifahi ünsiyyətin tərkib hissəsi kimi dinləməni və təhsil dinləmə növü kimi interaktiv dinləmə fərqləndirilir. İnteraktiv dinləmə ikitərəfli əməkdaşlığa əsaslanan kommunikativ tapşırıqların həyata keçirilməsini nəzərdə tutur. Bu tip tapşırıqlar ilk növbədə linqvistik forma deyil, səs mesajının məzmununu qavramaq və anlamaq bacarıqlarını inkişaf etdirməyə yönəldilmişdir. Əməkdaşlığı əhatə edən tapşırıqlar təkcə tapşırığın birbaşa icrasını deyil, şifahi ünsiyyət prosesini və müvafiq olaraq yeni biliklərin mənimsənilməsini stimullaşdırmalıdır. Bu cür tapşırıqlara misal olaraq nitq qarşılıqlı əlaqəsi nəticəsində ***informasiya boşluğunun bərpası*** və ya cüt və ya qrup işində mətnin ***məntiqi ardıcıllıqla düzülməsini*** göstərmək olar. [5]

İstənilən növ dinləmə tələbə tərəfindən müstəqil həyata keçirilə bilər, bu halda bu, müəllimin birbaşa rəhbərliyini nəzərdə tutmur. Tələbələr səs materialının seçimində, eşitmə bacarıqlarının inkişafı üçün tapşırıqlarda, şifahi ünsiyyətin digər iştirakçıları ilə qarşılıqlı əlaqə dərəcəsində müstəqillik nümayiş etdirirlər. Müstəqil dinləmə bütün dinləmə növlərini əhatə edir - intensiv, geniş, interaktiv, seçmə və tənqidi dinləmə. Tələbələr öz dinləmə strategiyalarını seçirlər və eşitmə

bacarıqlarının inkişafında öz proqreslərini izləyirlər. Müstəqil dinləmə dilin təbii mühitdə qavranılmasıdır ki, bu da müəllimin nəzarəti və birbaşa yardımı, sinifdə öyrənmə və ya onlayn distant tədris deyildir. Bununla belə, müəllim tələbələrə müxtəlif dinləmə üsulları və strategiyaları təklif etməklə dolayı nəzarət həyata keçirə bilər. Səs materialı seçmək, tapşırığı yerinə yetirmək və özünü qiymətləndirmək müstəqil dinləmənin vacib aspektləridir. Bundan əlavə, dil öyrənənlər xüsusi idrak üslubuna uyğun olaraq öz dinləmə strategiyasını seçirlər. Strategiya seçmək üçün əsas meyar məqsədə çatmaqda audio mesajı başa düşməkdir. Müstəqil dinləmədə istifadə olunan dinləmə strategiyalarını vurğulamaq lazımdır:

• danışıq mətninə qulaq asmazdan əvvəl səsli mesajın gözlənilən məzmununun proqnozlaşdırılması;

• audio mesajın məzmununu başa düşmək üçün əsas bilik və şəxsi təcrübədən istifadə etmək;

• əvvəldən sonuna kimi audio mesajın məzmununa diqqət yetirmək;

• audio mesajı dinləyərkən yaranan çətinliklərin müəyyən edilməsi.

Beləliklə, müəllimin dolayı köməyi müstəqil işləyən tələbənin metodik təminatına qədər azalır. Beləliklə, dinləmənin hər bir növü konkret dinləmə məqsədinə, səslənən mətnin başa düşülmə səviyyəsinə, diqqətin cəmləşmə dərəcəsinə və ehtimal proqnozlaşdırma və yaddaş mexanizmlərinin aktivləşdirilməsinə uyğundur.

Bundan əlavə, müasir pedaqogikada dinləmənin məhsuldar və özünəməxsus üsulları interaktiv məşqlərdən tutmuş multimedia resurslarına qədər hər şeyi əhatə edir. Dinləmə bacarıqları ən yaxşı şəkildə son məhsuldan daha çox öyrənmə prosesinə yönəlmiş sadə, cəlbedici fəaliyyətlər vasitəsilə öyrənilir. Buna görə də, ESL və EFL müəllimlərinin dərsləri onlarla tərtib etmələri gözlənilir və bəzi metodların tətbiqi aşağıdakı qaydada nəzərdə tutulur:

1. Qeyri-orijinal müsahibə. Bu, tələbələrin şəxsiyyətlərarası fəaliyyətlər arasında daha güclü bacarıqları inkişaf etdirmələri üçün təsirli və çətin olmayan yol hesab olunur. Təlimata tələbələri iki və ya üç nəfərdən ibarət kiçik qruplara təyin etmək, sonra isə yerinə yetirmək üçün onlara xüsusi dinləmə fəaliyyəti (tapşırığı) vermək daxildir. Məsələn, müəllim şirkətdə işləmək və ya qəzetdəki məqalə üçün bir tələbədən digəri ilə müsahibə verə bilər.

2. Orijinallıq. “Orijinal dinləmə materialları tələbələrin gündəlik həyatlarında qarşılaşdıqları ünvanların dəyişdirilməsi formaları, iş müraciətləri, menyular, səsli poçt mesajları, radio proqramları və videolar kimi çap, video və audio materiallardır. Orijinal materiallar xüsusi olaraq sinifdə istifadə edilmək üçün yaradılmayıb, lakin onlar orijinal olduqları üçün tələbələr üçün mükəmməl öyrənmə vasitələri yaradırlar”. Xüsusilə, orijinal audio və video resursları ən yaxşı nümunədir.

Onlar informasiya texnologiyalarının köməyi ilə müəllimlər tərəfindən fərqli şəkildə istifadə edilə bilər: radio proqramlarının audio materialları, onlayn podkastlar, təlimat mühazirələri və digər audio mesajlar. Müəllimlər bu interaktiv

dinləmə prosesini sinifdə tələbələrlə modelləşdirməli və sonra onlara məşqi təkbaşına təkrar etməyi tapşırmalıdırlar. Birincisi, müəllim tələbələrə audionun məzmunundan öyrənmək niyyətində olduqları hər şeyi nəzərə alaraq dinləməyə hazırlaşmağı tapşırır. Onlar bu təlimatı yazdıqdan və ya paylaşdıqdan sonra, tələbələrə faydalı olarsa qeydlər aparmağa imkan verən audio materialı səsləndirir. Onlar müəyyən qədər məlumat əldə etdikdən sonra müəllim bu işi təkrarlayacaq, lakin bu zaman audio tamamlanana qədər qeydlər aparmağa icazə verilmir. Materiallar daha qısa və ya daha uzun ola bilər, həmçinin bu məşq növü üçün daha asan və ya daha çətin material seçilə bilər.

Bundan əlavə, dinləmə bacarıqlarını öyrətmək üçün digər faydalı mənbə qısa eskizlər, xəbər proqramları, sənədli filmlər, müsahibə seqmentləri, dramatik və komediya materialları da daxil olmaqla video alətlərdir. Audio materiallarda olduğu kimi videomaterialların da hissəsinin və uzunluğunun tələbələrin bacarıq səviyyəsinə uyğun seçilməsi vacibdir.

Əvvəlcə tələbələr videoya heç bir səs vermədən baxır və birlikdə müzakirə edirlər. Bu zaman müəllim tələbələri alətin məzmununun nə olacağını düşündüklərini müəyyən etməyə təşviq etməlidir. Sonra onlar video materiala yenidən baxırlar, bu dəfə səslə, tələbələrə bacarıq səviyyələri üçün faydalı olarsa qeydlər aparmağa imkan verilir. Videonu tamamladıqdan sonra müəllim tələbələrdən videonun qısa xülasəsini yazmağı tapşıra bilər və ya videonun tələbələrin gözləntiləri ilə necə müqayisə olunduğunu qrup şəklində müzakirə etmək üçün vaxt ayıra bilər.

Nəticə olaraq, məqalədən aydın olur ki, yaxşı dinləyici və mükəmməl ünsiyyətçi olmaq üçün dinləmə həqiqətən vacib olduğundan, dərslər həm müəllimlər, həm də tələbələr üçün vacib addımlar olan dinləmədən əvvəl, dinləmə zamanı və dinləmədən sonrakı fəaliyyətləri əhatə etməlidir. Bundan əlavə, orijinal nitqi təqdim etmək üçün orijinallıqla əlaqəli bəzi öyrədici və maraqlı üsullardan istifadə etmək bu sahədə böyük fayda verə bilər.

Ədəbiyyat

1. Rivers, W. 1968.Teaching foreign-language skills. Chicago: University of Chicago Press
2. Harmer, Jeremy. (2007) How to teach English. Pearson Education Limited. Essex, England.
3. Harmer, Jeremy. (2007) The Practice of English Language Teaching. Pearson Education Limited. Essex, England.
4. Richards, Jack C. and Renandya, Willy A. (2002) Methodology: Language Teaching, An Anthology of Current Practice. Cambridge University Press. Cambridge, United Kingdom.
5. Ur, Penny. (1996) A Course in Language Teaching, Practice and Theory. Cambridge University Press. Cambridge, UK.

S.GAMARLI
D.Ukleyn

DEVELOPMENT OF LISTENING SKILLS IN FOREIGN LANGUAGE TEACHING

SUMMARY

At the current stage of the foreign language teaching process, the integrated teaching of 4 language skills is a priority. In this process, the teacher's task is to use as widely as possible in his pedagogical practice various methods and teaching aids that activate the teaching and cognitive activity of students in the process of learning a foreign language; The use of methods and tools to increase interest in the topic and material taught will depend on many factors. It is not always effective to use traditional teaching methods and systems, it is desirable to conduct experiments and test new techniques and methods, taking into account today's requirements. The article tries to analyze the use of advanced forms and methods used by foreign language teachers in the educational process to develop students' listening skills.

In this regard, the features and specificity of the use of interactive methods for the development of listening skills in foreign language teaching in higher education institutions are considered. Consideration is given to the use of interactive methods that allow students to demonstrate their independence of speech, communication skills and speaking skills through activities to improve their listening skills. The expediency of using interactive methods aimed at expanding students' creative thinking is shown.

It is not enough for a new generation of teachers to be competent in their field of knowledge; In the educational process today, it is necessary to use methodological innovations related to the application of interactive teaching methods. The use of interactive methods will help to achieve the set goal. The role of these methods in increasing the efficiency of the educational process and achieving high results by all students is great.

Keywords: foreign language, method, listening skills, development, activity, strategy

С.ГАМАРЛИ
Д.УКЛЕЙН

РАЗВИТИЕ НАВЫКОВ СЛУШАНИЯ ПРИ ПРЕПОДАВАНИИ ИНОСТРАННОГО ЯЗЫКА

РЕЗЮМЕ

На современном этапе процесса обучения иностранному языку приоритетным является комплексное обучение 4 языковым навыкам. При этом задача учителя - как можно шире использовать в своей педагогической практике различные методики и учебные пособия, активизирующие учебно-познавательную деятельность учащихся в процессе изучения иностранного языка; Использование методов и инструментов для повышения интереса к изучаемой теме и материалу будет зависеть от многих факторов. Использование традиционных методов и систем обучения не всегда эффективно, желательно проводить эксперименты и апробировать новые приемы и методы с учетом требований сегодняшнего дня. В статье предпринята попытка проанализировать использование в учебном процессе передовых форм и методов преподавателей иностранного языка для развития у студентов навыков аудирования.В связи с этим рассматриваются особенности и специфика использования интерактивных методов развития навыков аудирования при обучении иностранному языку в высших учебных заведениях. Рассматривается использование интерактивных методов, которые позволяют учащимся продемонстрировать свою независимость речи, коммуникативные навыки и разговорные навыки с помощью мероприятий, направленных на улучшение их навыков слушания. Показана целесообразность использования интерактивных методов, направленных на расширение творческого мышления студентов. Новому поколению учителей недостаточно быть компетентным в своей области знаний; В образовательном процессе сегодня необходимо использовать методические новшества, связанные с применением интерактивных методов обучения. Использование интерактивных методов поможет достичь поставленной цели. Роль этих методов в повышении эффективности учебного процесса и достижении всеми учащимися высоких результатов велика.

Ключевые слова: иностранный язык, метод, аудирование, развитие, деятельность, стратегия.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Sevil Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

MƏMMƏDZADƏ PAKİZƏ DADAŞ QIZI
Azərbaycan Texniki Universiteti
"Xarici Dillər" kafedrası,b/m
H.Cavid pr.25
pakizamamedzade@ com.ru

İNGİLİS DİLİNDƏ FEILİN PARTİCİPLE I VƏ PARTİCİPLE II FORMASININ AZƏRBAYCAN DİLİNDƏ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ

XÜLASƏ

Müxtəlif sistemli dillərdə feili sifətin müqayisəli tipoloji tədqiqi olduqca mürəkkəb, lakin maraqlıdır. Tədqiqat zamanı belə nəticəyə gəldik ki, müqayisə edilən dillərdə feili sifətin müəyyən oxşarlıqları ilə yanaşı, həm də böyük fərqlər də vardır. Bu da feili sifətin bir dildən başqa bir dilə tərcüməsi zamanı qarşıya müəyyən prolblemlər çıxardır. Bu elmi-tədqiqat işində məhz bu problemə diqqət yetirilib, onu araşdırıb müəyyən fikirlər irəli sürməyə çalıdıq.

Beləliklə, müasir ingilis dilində feili sifətin iki növü qeyd olunur: indiki zaman feili sifət – Participle I və keçmiş zaman feili sifət – Praticiple II. Azərbaycan dilində isə feili sifətin üç növü var: indiki zaman feili sifəti, keçmiş zaman feili sifəti, gələcək zaman feili sifəti.

Feili sifətin hər iki növü – indiki və keçmiş zaman feili sifətləri adları şərti xaraktert daşıyır, yəni nə Participle I bütövlükdə indiki zamana, nə də ki, Participle II bütbövlükdə keçmiş zamana ail deyildir.

Azərbaycan dilində isə demək olar ki, feili sifətin hər üç forması özünəməxsus müəyyən şəkilçilər vasitəsilə düzəlir. Bəzən, məsələn, indiki zaman feili sifət şəkilçisi gələcək zamanı ifadə edə bilsə də, ingilis dilindən fərqli olaraq, Azərbaycan dilində zaman adları şərti xarakter daşımır.

İngilis dilində indiik zaman feili sifəti feilin sonuna **ing** suffiksi artırmaqla düzəlir, məsələn, to read – reading, to dance – dancing, to work – working və s.

Azərbaycan dilində isə indiki zaman feili sifəti sözlərin sonuna müvafiq –an, -ən, -yan, -yən şəkilçisi artırmaqla düzəlir. Məsələn: yazan şagird, oxuyan sənətçi, işləyən fəhlə, yuyulan dəsmal və s.

İngilis dilində keçmiş zaman feili sifəti aşağıdakı yollarla düzəlir: qaydalı feillərin sonuna **-ed** suffiksi əlavə olununr, qaydasız feillərdə isə kök dəyişikliyi baş verir, məsələn, to work – worked, to walk – walked, to live – lived, to listen – listened, to like – liked və s. Qaydasız feillərdə to write – written, to speak – spoken, to sell – sold,to spend spent, to send – sent və s.

Açar sözlər: feili sifət,İngilis dili, növləri,Azərbaycan dili, ikili xüsusiyyət

Abdullayev N. "Müasir Azərbaycan dili, Morfologiya" əsərində qeyd edir ki, "Azərbaycan dilində də keçmiş zaman feili sifəti mış, miş, muş,müş və dıq, dik, duq, dük şəkilçilərinə məsubiyyət bildirən ım, im, um, üm, ın, in, un, ün, ı, intensivli u, ü, ımız, umuz, umuz, ümüz, ınız. iniz, unuz, ünüz, ları, ləri şəkilçiləri artırmaqla dığım, dığın, dığı, dığımız, dığınız, dıqları kimi feili sifət şəkilçiləri artırılması ilə düzəlir, məsələn, görmüş insan, oxumuş adam, gəlmiş qonaq, yazdığım yazı, oxuduğum kitab, aldığım meyvə, vurduğum zərbə, qaldığı hava və s**."(1.s.46-49)**

Əlavə olaraq, ingilis dilində bəzi diçilər feili sifətinü çüncü bir növü kimi bitmiş zaman feili sifətini də göstərirlər və ingilis dilində indiki və keçmiş zaman feili sifəti ilə yanaşı bitmiş zaman feili sifətin düzəltmə qaydasını da qeyd edirlər. Bitmiş zaman feili sifəti having+Participle II, yəni having və keçmiş zaman feili sifəti ilə ifadə edilir. Məsələn, having worked spent, having spoken. having written və s.

Azərbaycan dilində isə indiki və keçmiş zaman feili sifəti ilə yanaşı gələcək zaman feili sifəti vardır.

Gələcək zaman feili sifəti də indiki və keçmiş zaman feili sifətlərində olduğu kimi sözün sonuna müəyyən gələcək zaman ar, ər. acaq, əcək, yacaq, yəcək, ası, əsi, malı, məli şəkilçilərini artırmaqla düzəlir, məsələn, görüləcək iş, oxunacaq kitab, hazırlanmalı proqram, yazılası dissertasiya və s.

Müqayisə edilən hər iki dildə feili sifətin ikili xüsusiyyətə – həm feili, həm də sifət xüsusiyyətinə maik olması və müxtəlif cümlə üzvləri vəzifəsinəd çıxış edə bilməsi və s. uzun müddət onun tədqiqi işini çətinləşdirmiş, ayrı-ayrı mülahmzələrin meydana gəlməsinə səbəb olmuşşdur. Elə bunun nəticəsidir ki, feili sifət həm germanistikda, həm də türkologiyada, o cümlədən ingilis və Azərbaycan dilçiliyində bəzən ayrıca nitq hissəsi kimi götürülmüş, bəzən feil, bəzən də sifət kateqoriyasına aid edilmiş, müxtəlif terminlərlə izah olunmuş və beləliklə, tədris işini çətinləşdirmişdir. Demək olar ki, Azərbaycan dilində 1839-cu ildə 1924-cü ilədək feil, 1924-cü ildən 1936-cı ilədək sifət, 1936-cı ildən 1938-ci ilədək feil, 1938-ci ildən 1959-1960-cı illərədək sifət. Bundan sonra isə feil bəhsinə daxil edilmişşdir.

Müasir ingilis dilində feilin şəxssiz formalarından biri olan feili sifət,feili xüsusiyyətlərlə bircə sifət və zərf xüsusiyyətlərinə də malikdir.

Feili sifətin sifətə aid xüsusiyyəti onun ismi təyin etməsidir. Feili sifətin bu funksiyası Azərbaycan dilinin feili sifətinə uyğundur.

Azərbaycan dilində də feili sifətlər bütün sifətlər kimi çox asanlıqla isimləşir və cümlənin müxtəlif üzvü vəzifəsində işlənir.

Feili sifətin zərfə aid xüsusiyyəti isə zərflə təyin edilmiş hərəkətə, zərflə ifadə olunmuş xəbərə xidmət etməsidir.

Axundov A.A., Veysəlov F.Y., Aslanov T.Ə. Azərbaycan dilçiliyi, Morfologiya, Fonetika, Sintaksis. Tədqiqat zamanı belə nəticəyə gəldik ki,

müqayisə olunan hər iki dildə feili sifət feildəki hərəkət məzmununun saxlayır. Feil əşyanın hüquqini hökm yolu ilə bildirdiyi halda, feili sifət bunu əlamətləndirmək yolu ilə bildirir. Elə buna görə də feillər cümlədə xəbər, feili sifətlər isə əsasən təyin olur. Feili sifətin hərəkət məzmununa malik olması onda feili sifətə məxsus digər əlamətlərin də meydana çıxmasına səbəb olur, çünki hərəkət məzmunu olmadan təsirlik, növ, inkarlıq, zaman. tərz və digər xüsusiyyətlər də ola bilməz.**(2.s.123)**

Feili sifət felə məxsus zaman məzmunana da malikdir. Lakin feili sifət zamanı feil kimi konkret şəkildə ifadə edə bilmir, çünki feili sifət zamanı konkret şəkildə bildirməyə deyil, aid olduğu sözü zamanla bağlı olaraq əlamətləndirməyə xidmət edir. Elə buna görədir ki, zaman anlayışı feili sifətlərdə feilə nisbətən ümumi şəkildə özünü göstərir. Bu cəhətdən feili sifətləri də eyniləşdirmək olmaz, çünki feili sifəti əmələ gətirən formal əlamətlərdən asılı olaraq, bunların bir qismində zaman anlayışı qabarıq, digər qismində isə zəif şəkildə özünü göstərir, hətta bəzisində zaman elə ümumiləşir ki, onun hansı zamanı ifadə etdiyini müəyyənləşdirmək olmur. Belə feili sifətlər məzmun etibarilə feildən düzələn sifətlərə yaxınlaşır.

Feili sifət felə məxsus təsir kateqoriyasını da ifadə edir. Feili sifətlərdə bu kateqoriyanın ifadəsi feillərdə olduğu kimidir, yəni əmələ gəldiyi feilin məzmunundan asılı olaraq feili sifət həm təsirli, həm də təsirsiz olur. Müasir Azərbaycan dilində feili sifətin təsirli olub-olmaması işində onun formal əlamətlərinin rolu yoxdur.Feili sifət feilin növ kateqoriyasını da mühafizə edib saxlayır və bu cəhətdən, başlıca olaraq iki qrupa ayrılır: (y)an, ən, mış, miş, muş, müş, dıq dik, duq, dük, (y)acaq, əcək, şəkilçili feili sifətlər bütün növlərini, qalanları isə bəzi növlərini, yəni (y)ası, əsi, malı, məli, maz, məz şəkilçiləri ilə düzələnlər, əsasən məlum və məchul ar, ər, r şəkilçisi ilə əmələ gələnlər isə məlum növü ifadə edir.

Feili sifətdə inkarlıq kateqoriyasının ifadəsi, əsasən, feillərdə olduğu kimidir, çünki feili sifət şəkilçiləri ya təsliq, ya da inkar feillərə qoşulur. İnkarlığın ifadəsində y(an), ən, mış, miq, muş, müş, dıq, dik, duq, dük şəkilçili feili sifətlər daha geniş imkanlara malikdir. Əmələ gəldiyi şəkilçinin məzmunundan və işlənmə yerindən asılı olaraq bəzi feili sifətlərdə inkarlıq məzmunu ma, mə ilə deyil, digər vasitə ilə, yəni sintaktik üsulla əmələ gətirilir. mış, miş şəkilçili feili sifət inkar fornmada işlənərkən forma etibarilə onunla bir mənbədən təşəkkül tapan ma (mış), mə (miş) feli bağlamasına oxşasa da, bu həm morfoloji, həm də sintaktik cəhətdən əsaslı surətdə ondan fərqlənir.

Feili sifət özündən əvvəl gələn isimləri, əsasən feil kimi idarə edir. Təsirlik halda olan isimlər yalnız təsirli, yönlük, yerlik, çıxışlıq halda olan isimlər isə həm təsirli, həm də təsirsiz feili sifətlərdə idarə olunur.

Feili sifət feilin tərz kateqoriyasını da mühafizə edib saxlayır və bu, feillərdə olduğu kimi, həm analitik, həm də morfoloji yolla ifadə olunur.

Feili sifət felə məxsus şəxs kateqoriyasını da ifadə edir. Lakin bu cəhətdən feili sifət məhdud imkanlara malikdir, ona görə də, feillərin hamısı şəxs şəkilçiləri ilə işləndiyi halda, feili sifətlərin hamısı şəxs məzmununu ifadə edən mənsubiyyət

şəkilçiləri ilə işlənmir. Müasir Azərbaycan dilində yalnız dıq və acaq şəkilçili feili sifətlər şəxsi ifadə edir və ayrı-ayrı şəxslər üzrə dəyişir,başqa şəkilçilərlə düzələn feili sifətlər substansivləşdikdən sonra mənsubiyyət şəkilçisi qəbul edir.

Əliyev V. "Azərbaycan dilində feilin təsriflənməyən formaları, Məsdər"kitabında yazır:"Müasir Azərbaycan dilində feillərdə olduğu kimi, feili sifətlərdən də əvvəl zərf işlənə bilir, çünki l, feilə xas olan hərəkət məzmununu saxlayır. Məhz buna görə də həmin hərəkəti əlamətləndirən sözlərin (zərflərin) işlənməsini tələb edir. Zərf fellərlə işlənərkən yalnız hərəkətin əlamətini, feili sifətlərlə işlənərkən isə həm hərəkətin, həm də bu hərəkətlə bağlı olan əlamətin əlamətini bildirməyə xidmət edir**.(3.s.86)**

Beləliklə, müasir ingilis dilində feili sifətin feilə aid xüsusiyyəti növ, zaman və tərz formasına malik olmasıdır.

Müasir Azərbaycan dilində də feili sifətin aşağıdakı xüsusiyyətləri var: hərəkət, zaman, təsirlilik və təsirsizlik, növ, inkarlıq, şəxs bildirir.

Ümumiyyətlə, istər ingilis dilində, istərsə də Azərbaycan dilində olan feili sifətləri araşdırarkən belə nəticə çıxarmaq olar ki, ingilis dilində feili sifətin iki zaman forması, ingilis dilindən fərqli olaraq Azərbaycan dilində isə feili sifətin üç zaman forması var. Onu da qeyd edək ki, ingilis dilində feili sifətin formaları (indiki və keçmiş zaman forması) formaca indiki və keçmiş zamanı göstərsə də, diqqətlə fikir verdikdə görürük ki, indiik zaman feili sifəti (Participle I) həm indiki, həm də gələcək zamanı ifadə edir. Keçmiş zaman feili sifəti (Participle II) isə keçmiş zaman və keçmiş zaman formalarını ifadə edir.

İngilis dilində zaman kateqoriyası şərti xarakter daşıyır (nisbidir), belə ki, feili sifətin hansı zamanda işlənməsindən asılı olmayaraq budaq cümlə hansı zamanda işlənirsə, feili sifət də həmin zamanı bildirir, məsələn:

1. When reading The Picwick Papers, one can′t help laughing.
2. When reading The Picwick Papers, one couldn′t help laughing
3. When reading The Picwick Papers, you will roar with laughing.

yaxud:

1. The patient is lying with closed eyes.
2. The patient lay with closed eyes.
3. The patient will lie with closed eyes.

Azərbaycan dilində isə feili sifətin zaman formaları özünəməxsus şəkilçilər vasitəsi ilə düzəlir. Ancaq inkar etmək olmaz ki, Azərbaycan dilində də bəzən, məsələn, gələcək zaman şəkilçisi ilə düzələn feili sifəti cümlə daxilində gələcək və keçmiş zamanı ifadə edir. Məsələn:

O gələn atlı bizim dəstədəndir.

Anasını axtaran ceyranın ətrafa baxışı onu kədərləndirdi.

Qucaqlaşmış ana və oğul hələ də bir-birindən arılmamışdılar.

Leyla deyəcəyi fikri dəfələrlə ürəyindən keçirirdi.

Vəliyev N.Ç. Dil tipologiyasının aktual problemləri. Actual problems of language typology. Tədqiqatın ən əsas yenilkilərindən biri də odur ki, ingilis dilində indiki və keçmiş zaman feili sifətləri qeyd olunsa da, onların tərkibində bitmiş zaman feili sifəti də göstərilir və hətta onun ayrıca düzəltmə qaydası da izah olunur. Bu əsərdə onun, yəni bitmiş zaman feili sifətin (the Perfect Participle-ın) düzəltmə qaydasına, cümlədəki funksiyalarına, Azərbaycan dilində tərcümə olunması üsullarına da aydınlıq gətirilir və onun feili sifətin ayrıca üçüncü bir forması kimi göstərilə bilmə imkanlarının olmasını əsaslandırmağa diqqət yetirilib) **.(4.s.512)**

Feili sifətlərin hər ikisi cümlədə təiyn, predikativ rolunda işlənir.

İndiki zaman feili sifəti cümlədə zaman, tərzi-hərəkət, səbəb, zərfliyi rolunda işlənir.

Keçmiş zaman feili sifəti cümlədə zaman, müqayisə, güzəşt zərfliyi rolunda işlənir.

1. Present və Past Participle təyin vəzifəsində işləndiyi zaman isimdən əvvəl gəlir, feilin mənası xeyli zəifləyir, keyfiyyət bildirir və mənaca sifətə yaxınlaşır. Məsələn:

He sent me come illustrated catalogues – O, mənə bir rneçə şəkillər verilən kataloq göndərdi.

A broken plate lay on the table – Sınmış nimçə stolun üstündüdəir.

2. Present və Past Praticiple adətən keyfiyyəti bildirmədkdə, ancaq feili məna daşıdıqda təiyn etdiyi isimdən sonra gəlir. Belə feili sifətlər təyin budaq cümləsini əvəz edə bilir, məsələn

They showed us a list of tze goods cold (= which had been sold).

Onlar satılan malların siyahısını bizə göndərdi.

The captain informerd us of the quantity of wheat loaded (= which had been loaded).

Kapitan yüklənən buğdanın miqdarı barədə bizə məlumat verdi.

3. Feili sifət dən başqa aydınlaşdığı söz olduqda, onlar ancaq təyin edilən isimdən sonra gələ bilər. Azərbaycan dilində isə aydınlaşdığı sözlərlə, feili sifət təyin edilən isimdən əvvəl də, sonra da gələ bilir, məsələn:

They showed us a list of the goods sold at the auction.

Onlar bizə hərracda satılan malların siyahısı göstərdi.

The captain informed us of the quantity of wheat loaded in Odessa.

Kapitan bizə Odessada yüklənən buğdanan kəmiyyəti haqda məlumat verdi.

We have sent invitations to the parties participating in the agreement.

Biz razılıqda iştirak edən partiya iştirakçılarına dəvətnamə göndərmişik.

Feli sifətin sifətə aid xüsusiyyətləri: əlamət və keyfiyyət bildirir;təyin vəzifəsində işlənir;isimləşir;sifətə məxsus suallara cavab olur.

ƏDƏBİYYAT

1. Abdullayev N. Müasir Azərbaycan dili, Morfologiya. B, 2000.səh.46-49
2. Axundov A.A., Veysəlov F.Y., Aslanov T.Ə. Azərbaycan dilçiliyi, Morfologiya, Fonetika, Sintaksis. Bakı, 2002.səh:123
3. Əliyev V. Azərbaycan dilində feilin təsriflənməyən formaları, Məsdər. Bakı, APİ, 1986, 86 s.
- Vəliyev N.Ç. Dil tipologiyasının aktual problemləri. Actual problems of language typology. Elm və Təhsil. Bakı, 2011, 512 s.

P.Mammadzade

ANALYSIS OF LEXICO-SEMANTICAL FEATURES OF PARTICIPLE I AND PARTICIPLE II FORMS IN ENGLISH IN AZERBAIJANI LANGUAGE

SUMMARY

This article is devoted to the learning of the specific characteristic features of the praticiple in the modern English and Azerabijani languages. As it is known, participle is one of tşe non-finite forms of the verb which has a verbal, an adjectival or an adverbial character. There fore the scientific investigation represented to your attention is very important from the practical point fo view as it written for Azerbaijani audience, which learns modern English, with the purpose to help the learning of the resemblant and dissimilar structural-semantic and using′ features of the participle in non-cognate languages.

The article explores the means of Future Tenses expression in modern English and Azerbaijani languages. Existing resources on the subject in both languages have been studied$ opinions of various authors were considered. The article discusses historically established special means of Future Tense expression that are presented both in English and Azerbaijani language she category of Modality in English language as in many other ones is expressed by various means with modal verbs reckon in. Modern English allows expressing Future by means of modal verbs. However, both languages provide more tools expression of actions referring to the Future. At the same time, modern English an Azerbaijani languages use modal verbs to express not Future Tense only, but wishes, hopes, permissions, orders and the article covers only few aspects of the topic; further studies will be devoted to exploring more approaches and arguments.

Key words: the participle,Englis, types,Azerbaydjanais, double nature

П.Маммадзаде

АНАЛИЗ ЛЕКСИКО-СЕМАНТИЧЕСКИХ ОСОБЕННОСТЕЙ ФОРМ ПРИЧАСТИЯ I И ПРИЧАСТИЯ II В АНГЛИЙСКОМ ЯЗЫКЕ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Данная статья посвящена изучению специфических характерных черт причастия в современном английском и азербайджанском языках. Как известно, причастие является одной из безличных форм глагола, которое имеет характерные черты глагола, прилагательного и наречия. Поскольку проводимые типологические исследования тех или иных языковых явлений очень важны для изучения иностранного языка, данная исследовательская работа имеет также и практическое значение, так как написана для азербайджано-язычной аудитории, с целью выявления схожих и отличительных характерных структурно-семантических особенностей в разносистемных языках, что поможет при процессе освоения предоставляемого материала.

В этой статье были исследованы средства выражения будущего времени в современных английском и азербайджанском языках. Была изучена литература на эту теме на обоих языках, было рассмотрено мнение разных авторов. Как в английском, так и в азербайджанском языке имеются исторически сформированные специальные средства выражения будущего времени. В статье этому было уделено место. На английском языке, как и во многих языках мира, категория модальности выражается различными средствами, к числу которых относятся модальные глаголы. В современном английском языке модальными глаголами можно выражать будущие действия. Но для выражения действий совершаемых в будущем в обоих языках кроме этих средств используются и другие средства. В современном английском и азербайджанском языках модальными глаголами может выражаться не только будущее время, но и желание, надежда, разрешение, приказ и др.

Ключевые слова: причастие,Английский язык,типы причастие, Азербайджанский язык,двойная черта.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: f*ilologiya üzrə fəlsəfə doktoru,dosent Adilə Zeynalova*
tərəfindən çapa tövsiyə olunmuşdur

CƏFƏROV RƏFİQ CƏFƏR OĞLU
AzTU,"Humanitar fənnlər" kafedrasının dosenti,
filologiya üzrə fəlsəfə doktoru
AXUNDOVA LƏMAN PƏRVİZ QIZI
AzTU "Xarici dillər" kafedrasının baş müəllimi
H.Cavid 25.
lamanrefig@com.ru

. MÜASİR DÜNYA SİVİLİZASİYASINDA XALQLARIN MƏDƏNİYYƏTLƏRARASI ƏLAQƏLƏRİNDƏ EKSTRALİNQVİSTİK AMİLLƏRİN ROLU

XÜLASƏ

Respublikamız müstəqillik əldə etdikdən sonra daha da inkişaf etmişdir. Hazırda müxtəlif dünya dövlətlərilə hərtərəfli əlaqələr qurulmağa başlanıb. Mədəniyyət sahəsində də illərdən bəri formalaşmış əlaqələr daha da inkişaf etdirilir və genişləndirilir. Milli mədəniyyətimiz qlobal mədəni sferaya inteqrasiya etməklə yanaşı müasir dünyada formalaşmış müxtəlif mədəniyyət nümunələri, ədəbiyyat və incəsənət işləri də Azərbaycanda tanınır, milli mədəni prosesin inkişafına müsbət təsir göstərir.

Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin tarixi I hissə kitabında yazır: "Mədəniyyət nədir sualına indiyə kimi müxtəlif şəkildə izahlar verilmişdir. Bu sahədə ilk addımlar – Adolf Bastian (alman), edvard Teylor (ingilis), Frans Boas (amerikalı) və s. kimi bir neçə antropoloq tərəfindən hələ XIX əsrdə atılmışdır. Məsələn, E.Teylor (1897-ci ildə) "mədəniyyət" anlayışını birbaşa insan fəaliyyəti ilə əlaqələndirərək belə bir tərif verirdi: "Mədəniyyət və ya sivilizasiya, geniş-etnoqrafik mənada götürüldükdə, bilik, inam, incəsənət, mənəviyyat, qanun, adət-ənənə və vərdişlərindən ibarət bir tamlıqdır**".(1.s.156)**

Açar sözlər: sosial-kultutaloji amillər, mədəniyyət, ədəbiyyət, incəsənət

Mədəniyyətlərarası əlaqələr - Müasir dövrümüzdə, "mədəniyyət" anlayışının müxtəlif mənbələrdə açıqlamasını görmək olar. Məsələn, Vikipedia internet ensiklopediyası "mədəniyyət" sözünün əsasən 3 mənada işləndiyini qeyd edir:

1) təsviri incəsənət və humanitar elmlər sahəsində əlaə zövq;
2) simvoloik fikir və sosial tədqiqatların həcmindən asılı olan bilik, inam və davranışın birləşmiş modeli;
3) hər hansı təşkilatı və ya qrupu xarakterizə edən rəy, dəyər, məqsəd və təcrübələrin toplusu.

"Azərbaycan dilinin izahlı lüğəti" də bu sözü 3 mənada şərh edir:

1. İnsan cəmiyyətinin istehsal sahəsində ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlərin məcmusu.

2. Hər hansı bir xalqın və ya sinfin müəyyən dövrdə əldə etdiyi belə nailiyyətlərin səviyyəsi; təsərrüfat və ya zehni fəaliyyətin hər hansı birisinin inkişaf səviyyəsi;
3. Savadlılıq, elmlilik, biliklilik; cəmiyyətdə özünü apara bilmə, tərbiyəlilik; mədəni adamın tələblərinə uyğun olan həyat şəraitinin məcmusu.

Mədəniyyət dəyişən, təkmilləşən tarixi kateqoriyadır. Buna görə mədəniyyət də başqa ictimai hadisələr kimi inkişaf edir, şaxələnir, yeni-yeni keyfiyyətlər qazanır. Mədəniyyətin inkişafı üçün insan fəaliyyəti əsas vasitədir. Bəşəri mədəniyyət insanın fiziki və zehni, xarici və daxili fəaliyyətinin nəticəsində tərəqqi edir. Hər yeni nəslin fiziki və zehni nailiyyətləri mədəniyyətin inkişafı üçün mənbədir. Bu nailiyyətlər keçmiş nəslin təcrübəsi əsasında, ona istinad olunaraq əldə edilir. Yəni, hər bir insan dünyaya göz açdığı gündən etibarən doğulduğu yerin, etnik tərkibin və aid olduğu sosial sistemin mədəniyyətinin təsirinə məruz qalır, bu təsir altında böyüyüb inkişaf edir, həmin cəmiyyətin tərkib hissəsini təşkil edir.

Dilçilik sahəsində mədəniyyət və dil arasında əlaqələr əsasən XX əsrdən başlayaraq tədqiq edilməyə başlanıb. Məsələyə tam aydınlıq gətirmək üçün 3 əsas sualı cavablandırmağa çalışaq:

1) Dil mədəniyyətin tərkib hissəsi hesab edilə bilərmi?
2) Bəs mədəniyyət necə, dilin tərkib hissəsidirmi?
3) Əgər mədəniyyət və dil bir-birinin tərkib elementini təşkil edirsə, onlar arasında nə kimi əlaqələr var? Biri digərinə təsir edirmi?

Pennycook A. The cultural Politics of English as an International Language. Harlow, Essex əsərində qeyd edir ki,"Birinci sual belə bir cavabla izah olunur ki, dil özü yalnız insan müəyyən qədər özünü dərk edəndən sonra yarana bilərdi. Dil işarələr sistemidir, bu isə birbaşa mədəniyyətin predmetidir. Bu işarələr sistemini yalnız mədəni baxımdan inkişaf etmiş insan dərk edib tətbiq edə bilər. Buradan da belə nəticə çıxarmaq olar ki, dil birbaşa olaraq mədəniyyətin tərkib hissəsi deyil, burada insan faktoru var. Yəni dil yalnız insan vasitəsilə mədəniyyətin tərkib hissəsinə çevrilir, insan inkişaf etdikcə mədəniyyət də, dil də nəsillərdən-nəsillərə ötürülür**."(p.123-132)**

İkinci suala aydınlıq gətirən cavab ondan ibarətdir ki, mədəniyyət haqqında dilçilərin qəbul etdiyi əsas fikir onun tam şəkildə dildə əks olunmasıdır. Heç də təəccüblü deyil ki, tədqiqatçıların əksəriyyəti dili hətta mədəniyyətin güzgüsü adlandırırlar. "Dünyanın mədəniyyət xəritəsi özünəməxsus olub, müxtəlif xalqlarda fərqlənir. Buna bir neçə amil təsir edir: coğrafiya, iqlim, tarix, sosial vəziyyət, adət-ənənələr, həyat tərzi və s. Dil bütün bunları özündə əks etdirir". Dünya xalqlarının hər birinin özünəməxsus mədəniyyəti olsa da, bu mədəniyyət milli çərçivə ilə məhdudlaşmır, mədəniyyətlər bir-birinə təsir edir. Bu proses tarixi proseslərin, beynəlxalq əlaqələrin təsiri altında baş verir. Bütün bunlar isə mütləq hər bir xalqın dilində öz əksini tapır.

Üçüncü sual dil və mədəniyyət arasında əlaqələri araşdırmaqda kömək edir. Yuxarıda qeyd edilənlərdən belə bir nəticə əldə etmək olar ki, dil və mədəniyyət bir-birilə qarşılıqlı asılılıq vəziyyətindədir. Dil mədəniyyətin, mədəniyyət isə öz növbəsində dilin inkişafına imkan və şərait yaradır. Dünya ədəbi dillərinin meydana gəlməsi, formalaşması, inkişaf edib zənginləşməsi mədəniyyətlə sıx bağlıdır. Millətin əsas əlamətlərindən olan dil, o dildə danışan xalqın milli mədəniyyətini ifadə edir.

XIX əsr alman dilçisi Vilhelm Humbolt qeyd edirdi: "Nəsillər bir-birini əvəz edir, amma dil qalır, hər nəsil dili ondan əvvəlkilərin qoyduğu formada gəlib görür, amma dil həmin nəsildən daha güclü və qüdrətrlıi olur. Nəsillərdən heç biri dilin tam dərinliyinə varmır və onu gələcək nəsillərə ötürür. Dilin xarakteri, özünəməxsusluğu isə yalnız bir neçə nəsil dəyişdikdən sonra bilinir, amma dil bütün bu nəsilləri bir-birinə bağlayır, onlar da öz növbəsində özlərini məhz dildə biruzə verirlər... çünki dil millətin özünü əks etdirir və onu təmsil edir". Həmçinin hər bir dil ayrılıqda öz istifadəçilərinin məxsusi cəhətlərinin daşıyıcısı olsa da, digər dünya dillərilə daim kontaktdadır. Dillər arasında əlaqələrin olması dillərin inkişafında başlıca amillərdən biridir. Hər bir dil özündə dünya tarixinin bir hissəsini yaşadır, əvvəlki dövrləri araşdırmaqda əvəzolunmaz rol oynayır və ən əsası, ondan istifadə edən xalqların, tayfaların tarixini, mədəniyyətini, inkişafını özündə əks etdirir. Məhz buna görə, dil – mədəniyyətin güzgüsüdür. "Yer üzündə dünya xalqları bir-birilə çoxcəhətli əlaqələrə malik olduğuna görə onların dilləri də qarşılıqlı şəkildə bir-birinə təsir göstərir və bir-birini zənginləşdirir. Dilin lüğət tərkibinin inkişafı prosesi xalqın tarixi inkişafı ilə vəhdət təşkil edir". Dilçilərin əksəriyyəti dünyada kontaktlaşmayan dilin olmadığı fikrindədir. Görkəmli rus dilçisi Boduen de Kurtene öz məqaləsində bu məsələyə toxunaraq qeyd edirdi ki, "Dillərin bir-birinə qaynayıb-qarışması məsələsinə baxsaq, razılaşmalı olacağıq ki, saf və digər dillərə qarışmayan dil yoxdur və ola da bilməz". Dillərin bu şəkildə kontaktlaşmasının əsas səbəbi kimi mədəniyyətlərarası əlaqəni və digər mədəniyyətli onsanlarla ünsiyyətə olan tələbatı göstərmək olar. E.Sepir bununla bağlı yazırdı: "Ünsiyyətə olan tələbat, hər hansı bir dildə danışanların qonşu və ya mədəniyyət baxımından dominant dillər ilə vasitəsiz və ya vasitəli kontaktına səbəb olur...İzolyasiya edilmiş hər hansı bir dil və ya dialekt göstərmək çətin olardı". Buna əsasən müxtəlif mədəniyyətlərə aid materialların tərcüməsi də təsir edir. Mədəniyyətlərarası əlaqələrin yaranmasında tərcümələr mühüm rol oynayır. Əgər əvvəlki dövrlərdə fars və ərəb dillərindən tərcümələr Şərq dilləri və mədəniyyəti ilə əlaqələrimizi sıxlaşdırmış və nəticədə dillərin zənginləşməsinə səbəb olmuşdusa, XIX əsrdən başlayaraq bölgədə rus dilinin aparıcı rol oynaması ilə əlaqədar rus dilindən edilən tərcümələr artmışdır. Müxtəlif sənədlər, həmçinin rus klassiklərinin əsərləri dilimizə tərcümə edilməklə həm dilin lüğət tərkibini zənginləşdirmiş, həm də müxtəlif üslubları inkişaf etdirərək cümlə quruluşlarında yeniliklərə səbəb olmuşdur.

Пенфильд В., Робертс Л. Речь и мозговые механизмы. Л.: Медицина

"Dünyanın ən qədim xalqlarından biri olan Azərbaycanlılar çox qədim mədəniyyətə malikdir. Azərbaycan mədəniyyət və incəsənətindən olan nümunələr ABŞ, Britaniya,

Fransa, İran, İtaliya, Misir, Türkiyə və s. kimi dünyanın bir çox ölklərində muzeylərdə qorunub saxlanılır. Mədəniyyət incilərinin belə rəngarəng olmasına isə təbii ki, Azərbaycan xalqının yüksək zövqə malik olması, yaşayış tərzi və inkişaf tarixi təsir göstərmişdir**.(3.c.166)** Arxeoloji qazıntılar zamanı tapılan nümunələr bir daha sübut edir ki, Azərbaycan xalqı qədim dövrlərdən bəri müxtəlif sahələrini nəzərdən keçirsək görərik ki, hər bir sahə özünəməxsus gözəlliyi, orijinallığı və milliliyi ilə fərqlənir. Bu, dövrümüzə qədər gəlib çatmış nümunələrdə hərtərəfli öz əksini tapmışdır. Misal olaraq, qədimi xalçalar, ziynət əşyaları, gündəlik istifadə qabları, alətlər, heykəllər, şəkillər, ədəbiyyat və musiqi nümunələrini və s. göstərmək olar. Nəsillərdən-nəsillərə ötürülən *musiqimiz* çox qədim tarixə malik olmaqla yanaşı, ürəkləri fəth etmə xüsusiyyəti ilə də yalnız xalqımızın deyil, bütün dünya xalqlarının zövqünü oxşamışdır. Heç də əbəs yerə deyil ki, muğamlarımız və aşıq sənəti BMT təşkilatı olan UNESCO tərəfindən dünya mədəniyyəti irsinə daxil edilmişdir. Azərbaycan musiqisi təkcə muğamlarla məhdudlaşmasa da (burada xalq mahnıları, aşıq sənəti, rəqslər, bəstəkar musiqilərini və s. yaddan çıxarmaq olmaz) onlar Azərbaycan mədəniyyətini dünyaya tanıdan fəxrimizdir. Həmçinin *arxitektura* sahəsində dövrümüzə qədər gəlib çatmış, öz əzəməti ilə insanları heyran edən tarixi abidələrimiz var. Qədim insanların həyat tərzini təsvir edən – 500 illik yaşı olan Qobustan qaya rəsmləri, eləcə də paytaxtımız Bakının simvolu sayılan Qız qalası, İçəri şəhər, Şirvanşahlar sarayı, Memar Əcəminin müəllifi olduğu Möminə xatun türbəsi, şimali və cənubi Azərbaycanı birləşdirən Xudafərin körpüsü və s. milli arxitekturanın parlaq nümunələri hesab edilir.Eynilə *ədəbiyyat* sahəsində olan inciləri göstərmək olar. Nizami Gəncəvi, M.Füzuli, İ.Nəsimi, M.P.Vaqif, M.F. Axundov, C.Məmmədquluzadə, S.Vurğun, İ.Əfəndiyev, B.Vahabzadə və s. kimi dahilərin ədəbiyyatımıza verdiyi töhfələr əvəzolunmaz dəyərə malikdir. Bu kimi nümunələri rəssamlıq, kino, teatr və s. mədəniyyət sahələrində də qeyd etmək olar. Bütün bunlar xalq yaradıcılığının parlaq inciləridir.Hazırda Azərbaycan müstəqilliyini və dövlətçiliyini möhkəmlədirərək, sosial-siyasi və iqtisadi dəyişikliklər həyata keçirərək, milli maraqları əsas götürərək dünyada sivil, demokratik cəmiyyət quran bir dövlət kimi tanınır. Bu gün əminliklə demək olar ki, Azərbaycan qloballaşan dünyada dinamik və sabit inkişaf edən dövlətlər sırasındadır. Qeyd etmək lazımdır ki, son 10 ildə ölkəmizdə çox dəyişikliklər getmişdir. Bu dəyişikliklərə gedən yol təbii ki, uzaq tarixi proseslərdən keçmişdir. Əvvəlki bölmələrdə qeyd edildiyi kimi, XX əsrdən başlayaraq Azərbaycan əhalisinin kütləvi şəkildə maariflənməsi geniş vüsət alır. Əhali tərəfindən çətin qəbul edilən ərəb əlifbasının dəyişdirilməsi və 1879-cu ildə Qori müəllimlər seminariyasında Azərbaycan şöbəsinin təşkil edilməsi yüksək ixtisaslı müəllim kadrlarının hazırlanması və yeni tipli güclü ziyalı təbəqənin yaranması, formalaşması ilə nəticələndi. Bu dövrdən etibarən Bakı şəhəri kapitalist tipli inkişafında mədəniyyət mərkəzinə çevrildi və başlıca ziyalı qüvvə burada cəmlənməyə başladı. Bədii ədəbiyyatın (xüsusilə də dramaturgiya kimi xalq dilinə yaxın janrların) inkişafı öz arxası ilə teatr, opera sənəti və s. ilə yanaşı incəsənəti də

inkişaf etdirdi (1873-cü ildə "Hacı Qara" komediyası tamaşaya qoyuldu, 1875-ci ildə ilk qəzet-"Əkinçi" nəşr edildi, 1883-cü ildə teatr binası istifadəyə verildi, 1906-cı ildə ilk satirik jurnal – "Molla Nəsrəddin" dərc edildi, 1908-ci ildə ilk opera yazıldı, 1910-cu ildə Opera və balet teatrının binası inşa edildi və s.) 1918-ci ildə Şərqdə ilk Demokratik Respublikanın qurulması faktı özü də siyasi və mədəniyyətlərarası əlaqələrin təsirinin nəticəsi idi. Qərb tipli parlamentin, Demokratik respublika strukturunun təşkili, ilk ali təhsil ocağının (Bakı Dövlət Universitetinin) açılışı kimi addımlar buna misal ola bilər. Sovet Sosialist Respublikasının qurulması ilə atılmış ilk addımdır daha da əhətələndi, xalqın kütləvi şəkildə maarifləndirilməsinə xüsusi diqqət yetirildi. Kitabların nəşrinə, tərcüməsinə xüsusi yer ayrılması elmi sahələri inkişaf etdirdi, bununla dilimizdə də zənginləşmə prosesi sürətlənmiş oldu. Artıq yuxarıdakı bölmədə qeyd edildiyi kimi, rus dilindən və rus dili vasitəsilə müxtəlif dillərdən alınan sözlər dilin müxtəlif elm sahələrinin inkişafına xidmət etdi.

Тер-Минасова С.Г. Язык и межкультурная коммуникация. М.: Слово Sovetlər birliyinin dağılması insanların şüurunda inqilaba səbəb olaraq cəmiyyətdə azad fikrin formalaşmasına təkan verdi. İnsanlar sovet sosialist ölklərindən kənara – bütün dünyaya çıxış əldə etdilər. Tamam fərqli mədəniyyətlərlə tanış oldular nəticədə, dövlətimiz mədəniyyətin yeni yönümdə inkişaf etdirilməsi üçün 2001-ci ildə "Azərbaycan mədəniyyətinin dövlət inkişaf proqramı"nı işləyib hazırladı ki, bu da bir sıra məsələləri ön plana çəkir: mədəni və tarixi irsin mühafizəsi; yaradıcılığın dəstəklənməsi; sahənin hüquqi, elmi, informativ inkişafı; kadr hazırlığı və gənc istedadların dəstəklənməsi; milli kinematoqrafiyanın dirçəlişi və inkişafı, mədəniyyət turizmi infrastrukturunun yaradılması və inkişafı, kitab nəşrinin inkişafı**.(4.c.88-102)** Həmçinin mədəniyyəti birbaşa əks etdirən kitabxanalar və muzeylər yenidən bərpa edilir, modernləşdirilir. (Onu da qeyd etmək lazımdır ki, Ermənistanın hərbi təcavüzü zamanı zəbt olunmuş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır.) BMT, UNESCO (1992-ci ildən), Avropa Şurası (2001-ci ildən) və s. beynəlxalq təşkilatlara üzv olaraq Azərbaycan digər sahələrlə yanaşı öz mədəniyyətinin də beynəlxalq arenada təmsil olunmasına, dünyada inkişaf istiqamətində gedən proseslərdən geri qalmamağa, müxtəlif ölkələrlə beynəlxalq əməkdaşlığa nail olmuşdur. Mövzu ilə əlaqədar olaraq ingilis dilli mədəniyyətlərə və onlarla əlaqələrimizə nəzər salaq.Dünyanın super qüdrətli dövləti sayılan Amerika, əslində məlum olduğu kimi 300 ildən də az bir tarixə malikdir. O da məlumdur ki, bu dövlətin irəli getməsində əslən digər ölkələrdən olan və sonradan Amerikada məskunlaşmış əhali böyük rol oynamışdır. Amerikan mədəniyyətinin irəli getməsinin səbəbi məhz digər dövlətlərdən olan ən qabaqcıl insanların bu ölkəyə cəlb olunmasıdır. Hətta amerikalılar özləri belə bunu çox gözəl dərk edərək öz fikirlərini belə bir atalar sözü ilə ifadə edirlər: "As American as apple pie" (məlumdur ki, alma piroqu da amerikan mətbəzi nümunəsinə aid edilsə də bu piroqun tarixi heç də

Amerika ilə bağlı deyil). Koloniyalar dövrü və immiqrasiya nəticəsində Avropa (əsasən Britaniya) və yerli xalqların qarışığı olan amerikan mədəniyyəti, hazırda kütləvi mədəniyyət siması daşıyaraq digər ölkələrə də yayılır. Amerikan mədəniyyətinin daşıyıcıları keçmiş və indini deyil, gələcəyi düşünən; qrup və ümumiyyətlə, cəmiyyətin deyil, fərdin və istədiyini ön plana çəkən insanlardır.

Ədəbiyyat:

1. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin tarixi. I hissə, Bakı: Maarif, 1979.s.156.
2.Pennycook A. The cultural Politics of English as an International Language. Harlow, Essex, UK: Longman Group Ltd, 1994.p.123-132.
3Пенфильд В., Робертс Л. Речь и мозговые механизмы. Л.: Медицина, 1964.с166.
4.Тер-Минасова С.Г. Язык и межкультурная коммуникация. М.: Слово, 2000.с.88-102

L.Akhundova,R.Djafarov

THE ROLE OF EXTRALINGUVISTIC FACTORS IN INTERCULTURAL RELATIONS OF PEOPLES IN THE MODERN WORLD CIVILIZATION

Summary

The goal of the article is to consider the effect of social and cultural factors on the enrichment of English and Azerbaijani Languages. My argument is based on the assuption that communication is a form of social interaction and thus the role of social factors on language and the usage can and should not be ignored. In other words, the interpretation of meaning in all communication is dependent on context, which includes social and cultural factors. To illustrate this position, examples are presented including a discussion of cross-cultural research on value system, as well as reserch on thanking, requesting and greeting behavior in Azerbaijani and English.Culture is a changing, evolving historical category.Therefore, culture, like other social events, develops, diversifies and acquires new qualities. Human activity is the main tool for the development of culture. Human culture develops as a result of human physical and mental, external and internal activities. The physical and mental achievements of each new generation are a source for the development of culture. These achievements are based on the experience of the previous generation.

That is, from the day a person is born, he or she is exposed to the culture of the place of birth, ethnicity, and social system to which he or she belongs, grows and develops under that influence, and is an integral part of that society.

Key words: social-cultural factors, culture, literature, art.

Л.Ахундова,Р.Джафаров

РОЛЬ ВНЕЯЗЫКОВЫХ ФАКТОРОВ В МЕЖКУЛЬТУРНЫХ ОТНОШЕНИЯХ НАРОДОВ СОВРЕМЕННОЙ МИРОВОЙ ЦИВИЛИЗАЦИИ

Резюме

Цель статьи - рассмотреть влияние социальных и культурных факторов на обогащение английского и азербайджанского языков. Мой аргумент основан на предположении, что коммуникация является формой социального взаимодействия и, следовательно, роль социальных факторов в языке и его использовании может и не должна игнорироваться. Другими словами, интерпретация значения во всех коммуникациях зависит от контекста, который включает социальные и культурные факторы. Чтобы проиллюстрировать эту позицию, представлены примеры, в том числе обсуждение кросс-культурных исследований системы ценностей, а также исследования поведения благодарности, просьбы и приветствия на азербайджанском и английском языках.. Культура — меняющаяся, развивающаяся историческая категория. Поэтому культура, как и другие общественные явления, развивается, разнообразится и приобретает новые качества. Человеческая деятельность является основным инструментом развития культуры. Культура человека развивается в результате его физической и психической, внешней и внутренней деятельности.Физические и умственные достижения каждого нового поколения являются источником развития культуры. Эти достижения основаны на опыте предыдущего поколения. То есть со дня рождения человек подвергается воздействию культуры места рождения, этноса и социальной системы, к которой он принадлежит, растет и развивается под этим влиянием и является неотъемлемой частью это общество.

Ключевые слова: Социальных и культурных факторов, культура, литература, искусство.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya elmləri doktoru,dosent Yusif Süleymanov tərəfindən çapa tövsiyə olunmuşdur

SEVİNC BAĞIROVA AĞADİN QIZI
Azərbaycan Dövlət İqtisad Universiteti
"Xarici Dillər" kafedrası
Həsən Əliyev 92.
sevincbagirova@gmail.ru

İNGİLİS DİLİNİN ANTROPONİMİYASINDA ŞƏXS ADLARININ SEMANTİK TƏHLİLİ VƏ ONUN LÜĞƏT TƏRKİBİNDƏ TUTDUĞU MÖVQE

XÜLASƏ

Antroponomiya-yunan mənşəli olub-anthropos (insan.adam, şəxs) və onoma (ad) sözlərindən ibarətdir. Antroponomiya insan adlarını öyrənən sahədir.Azərbaycan dilçiliyində bu termin insan adları (Xurman, Sevda,Elşad, Samir və s.) ingilis dilində isə "Personal names" (Tom, Elizabeht, Hamlet Laura və s.) kimi ifadə olunur. Antroponimlər ünsiyyətlə bağlı meydana gəlmişdir. Qədim latınlar insanın adını özünə bərabər tutmuş " Homen nomen" demişlər. Ada belə bir münasibə elə bizim də bir sıra xalq ifadələr təzahür edir: " İgid ölər, adı qalar", Adın çıxmaqdansa, canın çıxsamyaxşıdır", və s. Ad həmişə san, nüfuz, reputasiya hesab olunmuşdur. Tanınmış adama " adlı-sanlı", pis əməl edənə isə " heç adına-sanına yaraşmır" deyilməsi təsadüfi deyildir. Adlar ilk insan qrupları, ailə yaranandan meydana gəlmişdir.

Tayfa, nəsil, yaxud ailə içində adamların sayı artdıqca onların fərqləndirmək, fərdləşdirmək lazım gəlirdi. Adlar məhz bu zəruri tələbdən törənmişdir.Tədqqatçı alimlərimizdən A.axundov, A.Qurbanov, M. Adilov, A.Əliyev, Ə.Cavadov və başqaları antroponomikaya aid məqalələr, elmi işlərlə çıxış etmişlər.Bir-birindən köklü şəkildə fərqlənən tarixi yol inkiçaf yolu keçməsinə baxmayaraq ingilis və Azərbaycan xalqlarının antroponimik sistemlərində semantik baxımdan oxşar yaxud eyni adlara rast gəlmək mümkündür.

Bu oxşarlıq hər iki xalq üçün ümümi olan bəzi qanunauyğunluqlara əsaslanır.Fərqli mədəniyyətlərə malik olan xalqlar arasında oxçar və ya eyni semantik əsaslara söykənən antroponimik vahidlərin meydana gəlməsi bir sıra tarixi hadisələrlə izah olunur.Fikrimizcə ingilis və Azərbaycan antroponimiyasında fonetik cəhətdən oxşar olması ya onların eyni dil ailəsini təmsil edən xalqların dillərindən yayılması ikə ya da təsadüfən fonetik paralel yaratması ilə bağlıdır.Adlar haqqında Pulqramın və Con Stüart milin tədqiqatları daha qiymətli sayılır. Milli qeyd edir ki xüsusi adlar şəxsə ancaq adlandırılmaq və çağırılmaq üçün verilir lakin şəxsi fərdi səciyyələndirmir. Şəxs adlarının əsas əlaməti ondan ibarətdir ki onlar əslində heç bir məna vermir.

Açar sözlər: dil, tarix, məna, inkişaf,İngilis dili,antroponomiya.

Valideynlər uşağa adı öz gələcək arzularına uyğun verirlər.Adı verən valideyn ümid edir ki onun verdiyi ad gələcəkdə də özünü doğruldacaq. Şəxs adının insana fərdilik gətirə biləcəyinə də inanmaq olar lakin bu bir o qədər də əsaslı fakt hesab olunmur. Bununla yanaçı adın başqaları tərəfindən necə qəbul edilməsi şəxsiyyətin özünəhörmətinə təsir edir.

Campbelle R.Proper "Names, oxford"əsərində yazır:" Qədim dövrlərdən müşahidə edilən adın mistikləşdirilməsi böyük bir tarixi dövr ərzində xalqların advermə adət və ənənələrində mühüm rol oynamışdır. Təkcə ləqəbləri deyil hətta yeni doğulan uşağa birinci adı seçərkən də valideynlər onun öz adını doğruldacağını düşünür və buna görə də öz arzularına müvafiq ad verirlər. Elm bunu inkar etsə də uşağın böyüyərək ona verilmiş adı doğrultduğu haqqında bir sıra faktlar məlumdur**.(1-p.123)** Məsələn almanlarda Herr Gross cənab Böyük Nəhəng adlı şəxsin özündən müştəbehlik mərəzinə tutulduöu Herr Klemer cənab Kiçik adlı şəxsin natamamlıq kompleksinə mübtəla olduğu qeydə alınmışdır.İngilis soy adlarının meydana gəlməsində ləqəblər əsas mənbələrdən biri olmuşdur. 12 əsrədək İngiltərədə soy adları hələ formalaşmamışdır. Həmin əsrədək ləqəblər geniş şəkildə istifadə edilirdi. Lakin onlar ailə üzvlərinə aid edilmirdi. Norman işğalından sonra yəni 11-14 əsrlərdə İngilis antroponomiyasında əsaslı dəyişişliklər baş verdi. Fransız dilli normanların təsiri altında ingilis soy adları yaranmağa başladı.

Cottle B. – the Penguin Dictionary of Surnames. Baltimore,kitabında qeyd edir ki, "Dünyanın bütün antroponimik sistemləri universaldır eləcə də ingilis və Azərbaycan xalqlarının adseçmə ənənəsi bir-birinə uyğun gəlir. Həm ingilis həm də Azərbaycan insanı ad seçimində ülviliyə xoşbəxtliyə gözəlliyə yüksəkliyə can atır ən bəşəri hisslərini əks etdirir. Bununla yanaşı hər iki xalqın adlar sistemində tarixən formalaşmış və hazırda sıradan çıxmış ad yaradıcılıqlarının qalıqlarına rast gəlirik. İngilis dilində bəzi adlar insanın xarici fiziki nöqsanını əks etdirir. Mücərrəd təfəkkürün hələ formalaşmadığı qədim dövrlərdə insanlar özlərini təbiətin bir parçası kimi təsəvvür edir ad seçərkən ətraf mühitdəki əşyaların adından istifadə edir yalnız müəyyən müddətdən sonra uşaq böyüyüb ərsəyə gəldikdə göstərdiyi şücayətə özünü tanıtdığı hansısa bir hərəkətə görə ikinci bir adla adlandırıldı. Bu cür ibtidai advermənin izlərinə günümüzdə də rast gəlmək mümkündür**.(2.s.42-44)**

Ş.Şədiyev yazır ki xalqımızın tarixində övlada ad verilməsində nikbin münasibət bəsləmişdir. O zamanlar bu hadisə şadlıq və təntənə ilə qeyd olunardı. Həmin vaxtlarda ad məsələsi valideyinlər deyil ancaq ad vermə peşəsinə görə xalq arasında tanınmış hörmətli şəxslər həll edərdilər. Onlar da xoşagələn bir ad seçib uşağa həmin adın verilməsini məsləhət görərdilər.Qədim Azərbaycanlılar Zərdüşt dininə və ayinlərinə sitayiş edib göyə günəşə aya oda suya torpağa dəmirə daşa ruhlara və ətraf aləmdəki canlılara pərəstiş edirdilər.1.Totemlərə sitayişlə əlaqədər olan şəxs adları-Laçın Tərlan Aslan Qaplan və s.

Semantik əlamətinə görə ingilis ləqəbləri yer adları ilə (Richard de Cesterir, Aelfweard aet Lanqadune) şəxs adları ilə (Richard le Fitz Joan, Robet Jhons)

ümümi isimlərlə (Alwine Vierd, Geoffrey Le Braun, Henry Le Wilde) və s bağlı olurdu. Başqa xalqlarda olduğu kimi ingilislərdə də soyadların böyük bir qismi ləqəblərdən törəmişdi. Ləqəblər mənaca rəngarəng olur. Onlar çox zaman aid olduğu şəxsin görkəmini ifadə edirdi.Thomas Blac (qara), John Le Brade (enli), Geoffrey Bunch (donqar), Richard Fat (kök), William Short (qısaboylu) və s.

Məişətdə rənglər xüsusi önəm daşıyır, geyim, dekorasiya və dizayn mədəniyyətində onlardan geniş şəkildə istifadə olunur. Rənglərlə bəzənən əşyalardan biri də xalçalardır. Azərbaycan xalçaları rənglərin harmoniya və zənginliyi ilə seçilən sənət inciləridir ki, uzaq tarixi dövrlərdən indiyə qədər məişətimizin ayrılmaz elementi olmuş, maddi mədəniyyət sərvətimiz kimi məşhurlasmışdır.

Azərbaycan xalçalarında rənglər içərisində fəallığı ilə seçilən qara və qırmızını əsas yer tutur. Yaşlı nəslin nümayəndələri indi də üzərində qara və qırmızı rəng olan xalçalara üstünlük verirlər. Maraqlıdır ki, qırmızının parlaq gül rəngindəki tonu övlad və yurd-yuva məhəbbətini təmsil edir. Qırmızı rəngin anlamları zəngin və müxtəlifdir. Onun həyəcan, qüvvət, əzəmət, qan, hərəkət və s. kimi mənalar ifadə etməsi haqqında fikirlər formalaşmışdır. Bu rəng diqqətçəkiciliyi ilə də seçilir. Təsadüfi deyildir ki, qırmızı rəngli paltar insanın ruhunu yüksəldir. Qırmızı rəng özündə böyük bir enerji yaşadır. Fikrimizcə, xalçalarımızdakı qırmızı rəng, gözəl əhval-ruhiyyəni və ailə, yurd sevgisini ifadə edir. Və diqqətədəyər faktdır ki, xalçalarımızın əksəriyyətində qırmızı aktiv mövqeli rənglərdəndir. Qırmızı rəngin müsbət mənasından həm maddi, həm də mənəvi mədəniyyətimizdə geniş istifadə olunmuşdur. Hələ XII yüzillikdə Nizami Gəncəvi "Xəmsə"yə daxil olan dördüncü poemasında – "Yeddi gözəl" əsərində qırmızı rəngin anlamını bədii boyalarla mükəmməl şəkildə təsvir və tərənnüm etmişdir. Poemanın "Bəhramın çərşənbə günü qırmızı günbədə getməsi və dördüncü iqlim padşahı qızının hekayə söyləməsi" hissəsində şah slavyan qızı ilə görüşə gedərkən qırmızı, yəni al rəngdə paltar geyinir:

Al geyimlə yetib kama o cavan,
Al rəng oldu ona xeyirdən nişan.
Al geyib zülmətdən çıxdı bu minval,
Bu gündən bəzəyi onun oldu al.
Geyindi qırmızı, yaşadı gümrah,
Ona ad verdilər: Al geyimli şah (2, 199).

Şair qırmızı rəngi ürəyin bəzəyi kimi dəyərləndirir, məhz qırmızı rənginə görə yaqutun bahalı olduğunu göstərir. O, bir tərəfdən də qırmızını qanın rəngini bildirdiyi üçün qiymətli hesab edir:

Qan ki ruhumuza qarışıb yaşar,
Canın bu lütfündə qırmızılıq var.
Ey insan oğlunda yaxşılıq gəzən,
Əsl yaxşılığı al rəngdə bil sən.
Qızılgül olmasa qırmızı hərgah,
Güllərin içində sayılmazdı şah (2, 199).

Yəqin ki, qırmızı rəngə uzun müddət baxıldıqda sinir gərginliyi yarandığındandır ki, xalçalarımızda bu rəng tək deyil, o, digər rənglərlə əhatə olunur.

Hər bir rəng müsbət və mənfi çalarlara malikdir. Sözsüz ki, Azərbaycan xalçalarında qırmızının müsbət mənaları qorunub saxlanır. Maraqlıdır ki, Azərbaycanın toy və yas mərasimlərində xalçalar mühüm yer tutur. Toy üçün hazırlanmış çadırların divarına xalça vurulur və bu xalça səbəbkarı təbrik edən sözlərlə bəzənir. Və ya əksinə, dünyasını dəyişən adamı evdən son mənzilə yola salarkən onu xalçaya bükürlər. Həmin adam cavan olduqda xalçaların ən əlvanı, daha çox qırmızılısı seçilir. Bu, rəngbərəng xalçalarımızın mənəvi anlamını göstərir.

Azərbaycan folklorunu xalçalarsız təsəvvür etmək olmur. Nağıllarımızdakı qədim insanın təsəvvürlərini, arzu və ümidlərini yaşadan uçan xalçalar nə qədər igidi dardan qurtarır. Xalqımızın ağız ədəbiyyatındakı nağılların biri aşağıdakı məzmuna malikdir: Bir padşah vəziri ilə seyrə çıxır. O, bir bulağın başında gözəl bir qızla qarşılaşır və məlum olur ki, bu qız buralarda çobanlıq edən bir kişinin qızıdır. Padşah geri qayıdıb adamlarını qızın yanına göndərib onunla evlənmək istədiyini bildirir. Qızın cavabı hamını heyrətə gətirir: mən sənəti olmayan adama getmərəm. Deyirlər ki, adam padşahdır, padşah neynir sənəti? Qız cavab verir ki, kim olur-olsun, mən getdiyim adam hər hansı bir sənətə yiyələnməlidir. Padşahın adamları geri qayıdıb məsələni hökmdara bildirirlər və gedib qızı zorla gətirmək istəyirlər. Lakin padşah qızın könlünə dəymək istəmir, onunla razılaşıb xalça toxumaq sənətini öyrənməyə başlayır. Padşahın toxuduğu xalça hazır olanda qıza göndərir və bir faha evlənmək təklif edir. Qız razılaşır və onlar evlənirlər. Aradan bir qədər keçir. Xəbər yayılır ki, şəhərə adamyeyənlər dəstəsi gəlib və onlar gecələr gizlicə küçələrə çıxır, adamları tutub aparırlar. Bir gün axşam yeməyindən sonra padşah şahlıq tacını yerə qoyub rəiyyət paltarı geyinərək şəhərə çıxır ki, adamyeyənlər haqqında məlumatın düzgünlüyünü öyrənsin. Qaranlıq küçələrin birində adamyeyənlər padşahı tutub aparır və yemək istəyirlər. Onlardan biri deyir ki, bu çox arıqdır, qalsın bir az kökəlsin, sonra yeyək. Bu zaman padşah onlara deyir ki, məni yeməyin, sizə çoxlu faydam toxunar. Mən yaxşı xalça tuxuyuram, toxuyum, aparın, satın, çoxlu pul qazanın. Adamyeyənlər bu fikirlə razılaşırlar. Padşah xalçanı tuxuyub qurtarır və deyir ki, bunu aparıb padşahın xanımına satın, o, sizə çox pul verər, çünki xalça onun sevdiyi əşyadır. Xalçanı gətirirlər və padşahın xanımını görmək istədiklərini

bildirirlər. Xanım xalçanı alır və açıb baxanda onun üzərindəki rəngli naxışlardan padşahın yerini müəyyənləşdirir. Padşah xalçaya vurduğu naxışlarla danışmış, dustaq olduğu yerin ünvanını bildirmişdir. Çoban qızı qoşun göndərib həyat yoldaşını xilas edir və padşah onu sənət öyrənməyə vadar edən qızın nə qədər ağılı olduğunu anlayır. Nağıllarımızdakı belə hadisələr təsdiq edir ki, rənglərin də dili vardır və bu dili öyrənməyə dəyər. Və maraqlı faktlardan biri də budur ki, Şah Təhmasib məşhur xalça toxuyan olub və onun toxuduğu üç xalça hazırda Tehran muzeyində saxlanılır.

Azərbaycan xalçalarının çoxunda qara rəng ön yerlərdən birini tutur. Bu rəngin vəfa, sədaqət, güvən bildirməsi məqamları vardır. "Kitabi-Dədə Qorqud" dastanında adlarında "qara" sözü olan Qaraca Çoban, Qaragünə, Qarabudaq kimi müsbət surətlər olduğu halda, Qara Məlik kimi mənfi obrazlar da vardır. Ümumiyyətlə, qara mübahisəli rənglərdən biridir. Bəzi ölkələrdə matəm rəngi hesab edilir. Yaponiyada isə o, xoşbəxtlik simvolu kimi dəyərləndirilir. Xalqımızın qarğışlarında mühüm yer tutan qara rənglə bağlı çoxlu ifadələrlə qarşılaşırıq: "Üzün qara olsun!", "Qarayaylıq qalasan", "Qarayara çıxarasan!" və s. Lakin qara, bir tərəfdən də, romantik gecələrin rəngidir. İnsanların içərisində qara rəngli geyimə üstünlük verənlər az deyil. Bu rəng insana güclü və ciddi görünüş verir. Bundan başqa, qara rəng insanı şux və zərif göstərir. Xalçalarımızda qara rəngin qırmızı rənglə təması estetik zövqlə bağlıdır.

Ümumiyyətlə, xalçalarımızda rəng məhdudluğu yoxdur, bütün rənglərdən və onların çox sayda çalarlarından yaranmış gözəllik xalçalarımızın əsas göstəricisidir. Bu mənada, yaşıl rəngin öz yeri vardır. Yaşıl qəlbə rahatlıq gətirən rəngdir. Ümumiyyətlə, spektrin ilk üç rəngindən, yəni qırmızı, narıncı və sarı rəngdən sonra gələn rənglər, yəni yaşıl, mavi, göy, bənövşəyi məmnunluq yaradan rənglər hesab olunur. El arasında göy qurşağına "Fatma nənənin hanası" deyilir. "Hana" xalçaçılıqla bağlı sözlərədn biridir. Yataq otaqlarında yaşıl rəngə üstünlük verilməsi yuxunu normaya salmağın bir vasitəsidir. Professor Qulu Xəlilov "Yaşamaq istəyirəm" əsərində Moskva xəstəxanalarının palatalarında yuxusu zəif olan xəstələr üçün pərdələrin yaşıl rəngdə olduğunu göstərmişdir.

Təbiətin oyanması simvolu kimi yaşıl rəngin xalçalarımızda müəyyən qədər mövqeyi vardır. Yaşılın insanın görmə qabiliyyətini artırması, əsəbləri sakitləşdirməsi haqqındakı fikirlər reallığa əsaslanır. Dünya ölkələrində həyəcanlı insanların televiziya verilişlərinə çıxmazdan öncə yaşıl otaqlara alınması təcrübəsi məlumdur. Təbiətin əsas rəngi və baharın simvolu olaraq dinclik yaradan yaşıl rəng xalçalarımızın bəzəyidir. Bundan başqa, yaşıl rəng ilham mənbəyi hesab olunur. Azərbaycanın ilk Xalq şairi S.Vurğun "Muğan" poemasında yazırdı:

Yenə də yamyaşıl geyinir dağlar,
Göz kimi durulur qaynar bulaqlar,
Əriyir günrylər döşündəki qar.
Yağış da isladır o göy çəməni,
Təbiət ilhama çağırır məni.

Xalçalarımızda qırmızı, qara və yaşılla müqayisədə xalçalarımızda nisbətən az işlənən rənglərdən biri sarı rəngdir. Bəlkə də bunun səbəbi sarının gözü yorma xüsusiyyətidir. O, bir tərəfdən də, günəşin rəngidir. Bundan başqa, bir sıra dinlərdə sarı ilahi varlığı ifadə edir. Azərbaycanda sarı rəng uzun müddət ayrılıq, hətta ölüm rəmzi kimi tanınmışdır. Bir zamanlar Türkiyədə xırdavat satanlar həyətləri gəzər və satdıqları əşyaların adlarını ucadan deyərdilər. Hansı evin pəncərəsində sarı çiçək qoyulsaydı, o evdə xəstə olduğunu bilər və səssiz-küysüz oradan uzaqlaşardılar. Lakin təbiət, həyat, bədii dil, o cümlədən xalçalarımız sarı rəngsiz də təsəvvür edilmir. Sarı rəng fərqli tonlara malikdir ki, bu rəngi seçmək diqqət və bacarıq tələb edir. Sarı rəngin qəm-kədər bildirməsi məqamları da az deyil. Xalq bayatılarının birində deyilir:

Bağçamızda sarı gül,
Yarı qönçə, yarı gül.
Gec açıldın, tez soldun,
Olmayaydın barı, gül.

Maraqlıdır ki, xalçalarımızdakı sarı rəng yorucu deyil. Bu, bəlkə də ona görədir ki, xalçalarda sarı rəng başqa rənglərlə təmasdadır və bu, sarı rəngin təsirini fərqləndirir. Həm təbiətdə, həm də xalçalarda təsvir edilən payız fəslini sarı rəngsiz düşünmək olmur.

Dünya ölkələrinin çoxunda taksilərin sarı rəngdə olması bu rəngin diqqətçəkiciliyini və keçiciliyini bildirir. Maşınlarla bağlı şirkətlərdə sarı rəngdən bol-bol istifadə edilir. Lakin dünyada heç bir bankın emblem və loqolarında bu rəng işlədilmir. Bu, yəqin ki, pulun qalıcı olması arzusundan irəli gəlir. Sevincli və günəşli ovqat təsiri bağışlayan saf sarı rəngə xalçalarımızda daha çox rast gəlirik. Sözsüz ki, günəşi hamı sevir, lakin heç kəs günəşin gözünə düşməsini istəmir. Bu mənada, sarının çeşidli mənaları vardır. Xalçalarımızdakı bir qədər tündləşdirilmiş sara rəng daha çox ruh yüksəkliyi yarada bilir.

Xalçalarımızda mavi rəngdən də istifadə olunur. Tibb elmi insanların sakitləşməsi və sıxıntıdan xilas olması üçün mavi səmanı və ya dənizi seyr etməyi məsləhət görürlər. M.Müşfiq "Yenə o bağ olaydı" əsərində "mavi şerə dalmaq" ifadəsini işlətmişdir:

Nə gözəldir səhərlər bizim böyük ruhumuz,
Aşıb-daşan duyğumuz,
Şəklindəki sulardan baxaraq ilham almaq,
Bu mavi şerə dalmaq.

Əslində, şerin rəngi olmur, ona məna verən sözlər rənglidir, "mavi şeir" ürəyə rahatlıq gətirən maraqlı bir bədii ifadədir. Araşdırmalar tələbələrin mavi otaqlarda çalışarkən daha çox elmi uğur qazandıqlarını göstərir. "Oğuz Kağan" dastanında qəhrəmanın üzünün mavi rəngdə olduğu göstərilir. Əsərdə onun xanımının mavi işıqdan çıxması inamı möhkəmdir. Ümumiyyətlə, mavi rəngin müsbət təsirləri çoxdur. Və xalçalardakı mavi rəng müsbət mənaları qoruyub saxlaya bilir.

Azərbaycan xalçalarındakı rənglər bir-birini tənzimləmək qüdrətinə malikdir. Məsələn, mavi qırmızının əksinə olaraq sinir sistemini qaydaya salır. Bu iki rəngin bir araya gəlməsi qırmızının sinirləri oyatmaq qabiliyyətini zəiflədir.

Araşdırmalar işlənmə səviyyəsinə görə ağ və qaranın roluna daha çox üstünlük verir. Azərbaycan xalçalarında saflıq və məsumluğu ifadə edən ağ rəngdən də istifadə olunur. Bu rəng sərinlik və canlılıq bildirir. Xalça istilik verən və əsasən qış aylarında istifadə olunan əşyadır. Onun naxışlarında ağ rəng olduqda ürəyə sərinlik yayılır.

Azərbaycan xalçalarında göy rəngdən də istifadə halları məlumdur. Təbiətin rəngləri xalçalara köçürülüb, onların tonlarından bol-bol istifadə olunub. Türk xalqlarında bütün rənglərə maraq göstərilib və onlara münasibət bildirilib. "Lakin bu rənglərdən fərqli olaraq göy rəng türklər üçün təkcə rəng deyil, həm də göyün, dünyanın və türk varlığının rəmzidir" (1, 14). Bədii dildə göy rəng dünyaya nur verən rəng kimi dəyərləndirilir. Qədim türk eposlarında göy rənglə tez-tez qarşılaşmaq mümkündür. Göy rəng, həm də türkçülüyün rəmzidir ki, hazırda Azərbaycan bayrağındakı ilk rəng kimi ucalarda dalğalanır.

Xalçalarımızdakı rənglərin işlənmə səbəbi və məqsədi vardır. Bu rənglər insanın daxili nitqidir, arzu-istəkləri, ümidləri və saf duyğularıdır. Rənglər insana nə isə deyir, onların da sevinci-dərdi var. Təbiətin bizə verdiyi rənglər çox zəngindir və rənglər təbiətdə sərbəst şəkildə yerləşiblər. Sənət əsərlərində isə insanlar rəngləri öz məqsədlərinə uyğunlaşdıraraq sanki onların sərbəstliyinə mane olurlar. Bəzən mənaca əkslik təşkil edən rənglər xalçalarda bir-birinə yaxınlaşdırılır. Və diqqətədəyər faktdır ki, müxtəlif rənglərin bir araya gəlməsi xalçalarımıza fərqli bir dəyər verir. İnsanın rəngli xalçalara marağı təbiəti sevmək, onu sənətə köçürmək və yamsılamaq bacarığı ilə bağlıdır.

Beləliklə, xalçalarımızdakı rənglərin gizli və oxunmasına ehtiyac duyulan dili vardır. Rənglərin dilinin açılması onların semantikasının nə qədər zəngin olduğunu üzə çıxarır. Bu mənada, Azərbaycan xalçalarındakı rənglərin bizə nə demək istədiyini anlamaq üçün onların dərindən araşdırılması zəruridir.

ƏDƏBİYYAT

1. Mədətoğlu A. Türklərdə rənglər və rəng anlayışı / Türküstan, 24 fevral-02 mart 2013, s. 14.
2. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, Lider, 2004, 336 s.

Парвин Абдуллабекова

Семантика цветов в азербайджанских коврах

Резюме

Как известно, азербайджанский ковёр – это настоящее произведение искусства. С древних времен до современности ковры являются важной частью истории, культуры и быта азербайджанского народа. В статье речь идёт о семантике цветов, используемых в азербайджанских коврах. Отмечается, что перенос различных цветов в ковры связан с отношением людей к природе. В статье раскрываются причины и цели использования того или иного цвета в азербайджанских коврах. В этих цветах отражается внутренний мир, внутренняя речь, желания, надежды, чистые помыслы людей. Выявляются положительные и отрицательные значения цветов, используемых в ковроткачестве. В азербайджанских коврах нет цветового ограничения: красота, создаваемая палитрой всех цветов и их многочисленных оттенков ,- основной показатель и характерная особенность азербайджанских ковров. В статье особо отмечается белый цвет, выражающий чистоту и невинность в азербайджанских коврах. Кроме того, данный цвет символизирует прохладу и живость. Известно, что ковёр - это предмет, дающий тепло и используемый в основном зимой. Наличие белого цвета в узоре ковра как бы создаёт эффект прохлады. Основное внимание в статье уделяется чёрному и красному цветам, широко используемым в азербайджанских коврах. Представители пожилого поколения и по сей день отдают предпочтение коврам, в которых преобладают красный и черный цвета и их оттенки. Примечательно, что блестящий цветочный оттенок красного олицетворяет любовь к детям и семейному очагу. В статье подчёркивается богатство и многообразие красного цвета. Одно из ведущих мест в азербайджанских коврах занимает чёрный цвет, символизирующий преданность, верность, надёжность. Зелёный цвет является символом пробуждения природы. Мнение о том, что зелёный цвет улучшает зрение, действует успокаивающе, исходит из реальности. В статье указывается, что по сравнению с красным, чёрным и зелёным цветами жёлтый цвет менее используем в азербайджанском ковроткачестве. Возможно, причиной этого является то, что данный цвет утомляет глаза. В статье высказываются интересные научные мысли относительно восприятия и понимания различных цветов.

Ключевые слова: ковёр, цвет, значение, природа, язык, красота

Parvin Abdullabeyova

Semantics of colors in Azerbaijani carpets

Summary

It is known that the Azerbaijani carpet is a real work of art. From ancient times to the present, carpets are an important part of the history, culture and life of the Azerbaijani people. The article deals with the semantics of colors used in Azerbaijani carpets. It is noted that the transfer of various colors to carpets is associated with people's attitude to nature. The article reveals the reasons and goals for the use of one or another color in Azerbaijani carpets. These colors reflect the inner world, inner speech, desires, hopes, pure thoughts of people. The positive and negative values of the colors used in carpet weaving are revealed. There are no color restrictions in Azerbaijani carpets: the beauty created by the palette of all colors and their numerous shades is the main indicator and characteristic feature of Azerbaijani carpets. The article highlights the white color which expresses purity and innocence in Azerbaijani carpets. In addition, this color symbolizes coolness and liveliness. It is known that the carpet is an object that gives warmth and is used mainly in winter. The presence of white color in the pattern of the carpet as if creates the effect of coolness. The focus of the article is on the black and red colors widely used in Azerbaijani carpets .Representatives of the elderly generation still prefer carpets in which red and black colors and their shades predominate. It is noteworthy that the brilliant floral shade of red color represents love for children and the family hearth. The article emphasizes the richness and diversity of the red color. One of the leading places in Azerbaijani carpets is occupied by the black color which symbolizes devotion, fidelity and reliability. Green is a symbol of the awakening of nature. The opinion that the green color improves eyesight, has a calming effect is based on reality. The article points out that in comparison with the red, black and green colors, yellow color is less used in Azerbaijani carpet weaving. Perhaps the reason for this is that this color tires the eyes. The article expresses the interesting scientific thoughts regarding the perception and understanding of various colors.

Keywords: carpet, color, meaning, nature, language, beauty

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: professor Sədaqət Həsənova
tərəfindən çapa tövsiyə olunmuşdur

QURBANOVA GÜLNARƏ QORXMAZ QIZI
Azərbaycan Dillər Universiteti
Mingəçevir Dövlət Universiteti
Email: mirzoyeva_86@mail.ru

AMERİKAN BƏDİİ ƏDƏBİYYATINDA İSTİFADƏ OLUNAN SLƏNQLƏRİN SOSİOLİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Gənclərin istifadə etdikləri slənqlər cəmiyyətimizin bütün sahələrində formalaşır. Bu slənqlər tez bir zamanda digəri ilə əvəzlənir. Yeni slənlərlə əvəzlənən köhnə slənqlər qısa müddət ərzində unudulur. Digər slənqlər illərlə danışıq dilində istifadə olunduğu halda, son 10 ildə yüzlərlə gənclərin istifadə etdikləri slənqlər yaranmış və yoxa çıxmışdır. Gənclərin istifadə etdiyi slənqlər həm də amerikan cəmiyyətinin sosial və sosial –psixoloji vəziyyətini əks elətdirir.

Bədii ədəbiyyatın həmişə leksik vahidlər seçimində müəyyən azadlığı olub, ona görə də nəsrdə biz kollokvializmlər, jarqon və slənqlərə aid olan söz və ifadələrdən istifadə olunur. Çoxlu sayda amerikan yazıçıları qəhrəmanların dialoqlarını canlılığını göstərmək, yazılı mətni danışıq dilinə maksimum dərəcədə yaxınlaşdırmaq üçün öz əsərlərində gənclərin danışıq dilində istifadə etdikləri slənqlərdən istifadə edirlər.

Bu onunla izah olunur ki, slənq funsional-üslubi, ekspressiv və emosional mənaya malik olur. Bundan əlavə slənqizmlərin üslubi funksiyaları fərqləndirici və təsviri funksiyaya malik olur. Ən çox onlar əşyanın və ya varlığın daha parlaq xüsusiyyətini, həmçinin personajların danışıq tərzini göstərmək üçün istifadə olunur.

Açar sözlər: slənq, leksikologiya, ədəbiyyat, gənclər, sosial qrup

Giriş

Leksikologiya və leksikoqrafiya elmində “slənq” (slang), “jarqon”(jargon) və “arqo” (argo) terminləri sinonim olaraq işlənir. Müasir dilçilər dəfələrlə bu terminləri bir-birindən fərqləndirməyə çalışmışlar.

Son zamanlar “arqo” termini daha kiçik peşə və sosial qruplarda gizli fikirləri ifadə etmək üçün istifadə olunan leksik vahidlərdir. Məsələn, oğrular arasında istifadə olunan və ya söhbətlərini gizlin saxlamaq üçün şagirdlər tərəfindən yaradılmış bir dildir.

“Jarqon”termini daha geniş mənalı anlayışdır. Ümumxalq dilindən spesifik söz və ifadələri ilə fərqlənən, yalnız müəyyən ictimai və peşə qrupuna mənsub adamların öz aralarında danışdığı bir dildir. Jarqonizmlər həmişə ekspressiv sözlərdir, arqotizmlər isə ekspressiv sözlər deyil, Jaronizmlərin ədəbi dildə semantik paralelləri var, lakin arqotizmlərin bu kimi xüsusiyyəti yoxdu, məhz bu xüsusiyyəti onları jarqonlardan fərqləndirir.

"Slənq" termini ilk dəfə ədəbiyyatda 1756-cı ildə " aşağı və vulqar təbəqənin dili" kimi qeyd olunmuşdur. Slənq dildə olan hər hansı ümumişlək söz və ifadə də ola bilər, lakin onlar kontekst daxilində yeni mənaya yiyələnməlidirlər, yeni söz və ifadə də ola bilər, iki və daha artıq sözün birləşməsi ola bilər. Bu sözlər ətrafdakıları yanılda, çaşdıra bilər [4]. Özünün ilkin təsdiqolunmuş variantlarında slənq aşağı və hörmətsiz insanların leksikonu kimi tanınırdı. Slənqin araşdırılması ilə E.Partric, S.B.Fleksir, V.Firman, M.M.Makovski, A.Barrere, Ç.Leland, İ.R.Qalperin, V.C.Burk, V.A.Xomyakov, İ.V.Arnold, O.Esperson, C. Qrinok, K.İ.Kittric, C.Layter və s. məşhur dilçilər məşğul olmuşlar. Dünyanın ən böyük slənq tədqiqatçısı haqlı olaraq Erik Partric (1894-1979) hesab olunur. Ömrü boyu o faktiki materiallar toplamış və bir sıra əsərlər, o cümlədən, lüğətlər çap etdirmişdir. E.Partric və onun davamçıları (C.Qrinok və K.İ.Kitric) slənqə bu cür tərif verirlər: Slənq müəyyən sosial və ya peşə-sənət qruplarına aid olan, insanların ictimai baxışlarını əks etdirən, şifahi nitqdə mövcud olan, dəyişkən, müvəqqəti, qətiyyən sistemə salınmamış, nizamsız və təsadüfi leksemlər toplusudur[6].

Hal-hazırda ingilis dili beynəlxalq kommunikasiya dilidir, 400 milyondan çox adam bu dildə danışır. Məlumdur ki, ingilis dili bir sıra ölkələrin, o cümlədən BMT-nin rəsmi dillərindən biridir. Buna görə də, ingilis dili və onun variantları müasir dilçiliyin maraq dairəsindədir. İngilis dilinin müxtəlif variantları mövcuddur, ən geniş variantı isə britaniya və amerikan ingilis dilidir. Bu variantlar bir-birindən fərqlənir. Məlumdur ki, ingilis dilinin amerikan variantı internet, kino və bədii əsərlər vasitəsilə müxtəlif ölkələrin mədəniyyətlərinə təsir edir.

İngilis yazıçısı, filosofu Oskar Uayld "Kentervil ruhu" adlı hekayəsində belə yazmışdır: "Bizim Amerika ilə dil istisna olmaq şərti ilə, bir çox ortaq cəhətlərimiz var". Britaniyalı siasətçi U.Çörçil dəfələrlə öz nitqində bu ifadədən istifadə etmişdir: "Amerika və İngiltərə ortaq dillə ayrılmış iki millətdir."[1]

Mədəni- tarixi şəraitlə əlaqədar yaranan yeni əşyaları, fikirləri ifadə etmək üçün dildə yeni sözlər yaranır. XIX əsrdə yaranmış slənqlər əsasən ölkənin siyasi, dövlət və ictimai həyatı ilə əlaqəli idi: slush money-rüşvət, wildcat strike- həmkarlar ittifaqının icazəsi olmadan keçirilən tətil, downsizing- işçilərin sayının azaldılması, hash-house- ucuz restoran, deadbeat- tənbəl.

XX əsrdə amerikan ingilis dili amerikanlıların həyat tərzini əks etdirən gənclərin istifadə etdikləri slənqlər hesabına genişlənir. Məsələn, dopehead-narkoman, dude-dost, drive- həyəcan, drayv (narkotiklərin təsiri ilə), cool-əla, bling-bahalı zinət əşyaları.

I hissə(İngilis dilində işlənən slənqlərin tərcüməsi)

Hal-hazırda ingilis dilinin amerikan variantında slənqlər danışıq dilin 1/3 hissəsini təşkil edir. Bir-birini yaxşı tanıyan insanlar söhbət zamanı slənqlərdən istifadə edirlər. Slənqlər rəsmi ünsiyyət zamanı istifadə olunmurlar. Gənclərin istifadə etdikləri slənqlər bədii dildə istifadə olunan sözlərin əvəzləyiciləridir.

Roaddog, dude, boogerhead- fellow, chum, mate, friend, associate-yoldaş, dost

Bank, duckets, spent, bones, loot-money-pul

Buttons-remote control device for TV- pult

Bae-baby-körpə

Posse, dogpack, tribe, crew- one's circle of friends- dostlar əhatəsi

To bum- to ask- xahiş etmək

To jack- to steal- oğurlamaq

To jet, to jam- to leave, to go-tərk etmək

To lunch-to go crazy- dəli olmaq

Janky-unattractive-çirkin

Qeyd etmək lazımdır ki, ironik məna çaları olan gənclərin istifadə etdikləri slənqlərin əksəriyyəti metoforik köçürülmə hesabına yaranırlar:

Beef-problem-problem

Bacon- police-polislər

Buffalo chick-fat female-kök qadın

Mule with a broom- a very ugly girl- çox çirkin qız

Dark side- the student neighborhood-tələbə şəhərciyi

Death Star- Social Science Building at UCD — Devisdə Kaliforniya universitetində ictimai elmlərin binası

Gənclərin istifadə etdikləri slənqlərin çox hissəsi əyləncə, narkomaniya və alkoqol içkilərlə əlaqəlidir: to chill out-rahatlamaq, goofin-narkotik vasitənin təsiri altında olmaq, to step on a roach- narkotik vasitə aludəçisi olmaq, booze-içki, to ave a bun on- içkili vəziyyətdə olmaq

Gənclərin istifadə etdikləri slənqlər arasında tabu sözlər 30 faiz, təhsillə əlaqəli ola sözlər 1 faiz təşkil edir.

Gənclərin istifadə etdikləri slənqlər arasında müxtəlif hissləri ifadə edən nidalar xüsusi yer tuturlar:

Təəccüb- Bonk!Eesh!Oh my goshness!

Razılıq-Bet!Dude!Shoots for real!

Narazılıq- Bet!Dude!Negotary!Ta huh!

Təsdiq-Dig that!Cool!Score!Damn right!

Utancaqlıq-Sqeebs!Erf!

Həyəcan- Squish! Woopty- woo!

Diqqət cəlb etmək üsulu-Yo!

Gənclərin istifadə etdikləri müasir slənqlər arasında nidalardan başqa, gənc nəslin nitqini daha təsirli edən qiymətləndirici konnatasiyalı sifətlərdən də istifadə olunur. Müsbət konnatasiyalı sifətlər bunlardır[5]:

awesome (əla)

boomy (möhtəşəm)

doke (yaxşı)

dope (yaxşı).
Mənfi konnotasiyalı sifətlər:
bunk (mənasız)
bogus (saxta)
shady (şübhəli)
crumby (yazıq).

Gənclərin istifadə etdikləri slənqlər cəmiyyətimizin bütün sahələrində formalaşır. Bu slənqlər tez bir zamanda digəri ilə əvəzlənir. Yeni slənqlərlə əvəzlənən köhnə slənqlər qısa müddət ərzində unudulur. Digər slənqlər illərlə danışıq dilində istifadə olunduğu halda, son 10 ildə yüzlərlə gənclərin istifadə etdikləri slənqlər yaranmış və yoxa çıxmışdır. Yaxın keçmişdə ABŞ-da slənq kimi işlənən of course, to take care, OK, to get up, lunch sözləri hal-hazırda ədəbi dildə istifadə olunurlar. Slənqlərin sürətlə yaranmasına səbəb həm də gənc nəslin özündən yaşca böyük nəsildən fərqlənmək üçün ümumi qəbul olunan anlayışları yeni sözlərlə əvəzlənməsidir. Məsələn,

airhead-a stupid person
antifreeze- alcohol
ball- a fun time
bang- a powerful thing
beans or bread- money
bummer- bad experience
couch potato- a person who watches too much television
foxy- sexy, goof- fool, hip-shooter- a person, who always talk without thinking
to be a chicken-to be a coward
to cream- to beat
to down- to drink quickly.

Bir söz və ya ifadənin emosional çalarına görə fərqlənən bir nechə sinonim slənqləri ola bilər. Amerikan ingilis dilində bu cür sinonimlərin sayı əlliyə qədər ola bilər. Məsələn, gənclərin danışıq dilindı to get angry - əsəbləşmək ifadəsinin qırx dənə sinonimi var.

Beləliklə, sənaye cəhətdən inkişaf edən cəmiyyətlər çox dinamikdirlər, onlar çox tez-tez dəyişirlər, ona görə də, gənclərin dili, daha doğrusu bu cəmiyyətlərin söz ehtiyatları yalnız həcmcə artıb və ya azalmır, həm də bütöv söz və ya ifadələr digər söz və ifadələrlə əvəz olunur.

Gənclərin istifadə etdiyi slənqlər həm də amerikan cəmiyyətinin sosial və sosial –psixoloji vəziyyətini əks elətdirir.

Bədii ədəbiyyatın həmişə leksik vahidlər seçimində müəyyən azadlığı olub, ona görə də nəsrdə biz kollokvializmlər, jarqon və slənqlərə aid olan söz və ifadələrdən istifadə olunur.

Çoxlu sayda amerikan yazıçıları qəhrəmanların dialoqlarını canlılığını göstərmək, yazılı mətni danışıq dilinə maksimum dərəcədə yaxınlaşdırmaq üçün öz əsərlərində gənclərin danışıq dilində istifadə etdikləri slənqlərdən istifadə edirlər. Bu onunla izah olunur ki, slənq funsional-üslubi, ekspressiv və emosional mənaya malik olur. Bundan əlavə slənqizmlərin üslubi funksiyaları fərqləndirici və təsviri funksiyaya malik olur. Ən çox onlar əşyanın və ya varlığın daha parlaq xüsusiyyətini, həmçinin personajların danışıq tərzini göstərmək üçün istifadə olunur.

II hissə (Bədii ədəbiyyatda işlənən slənqlər)

Məşhur amerikan yazıçısı, jurnalist və XIX əsrin ictimai xadimi Mark Tven dəfələrlə öz bədii əsərlərində gənclərin istifadə etdikləri slənqlərdən işlətmişdir. Məsələn, "Tom Soyerin macəraları" adlı əsərində tərkibində slənq olan cümlə işlətmişdir:

"Nothing! Look at your mouth. What IS that truck?

" He'll play hookey this evening"

"Siddy, I'll lick you for that" [8, s. 11]

Birinci cümlədə cəfəngiyyat mənasında işlənən "truck" sözü narahatlıq hissinin ekspressivliyini gücləndirmək məqsədilə işlənmişdir. Yazıçı ikinci və üçüncü cümlələrdə "dərslərə girməmək" mənasında işlənən " to play hookey" və "vurmaq" mənasında işlənən "to lick" slənqləri ilə əsərin baş qəhrəmanının danışıq tərzini, həmçinin onun yaşını və məktəbdə öz yaşıdları ilə münasibətini oxucunun diqqətinə çatdırır.

Mark Tvenin əsərlərinə görə söylənilən fikirlər göstərir ki, onun üslubu və dili çox uğurlu idi. U.Folkner yazırdı ki, Mark Tven "əsl amerikan yazıçısı idi, və biz o vaxtdan bəri onun varisləriyik". E. Heminqvey isə hesab edirdi ki, müasir amerikan ədəbiyyatı Mark Tvenin "Qeklberri Finnin macəraları" adlı kitabından törəmişdir. Belə nəticəyə gəlmək olar ki, artıq XIX əsrdə amerikan ədəbiyyatında gənclərin istifadə etdikləri slənqlərdən işlənirdi.

XX əsrin nüfuzlu yazıçılarından biri də Cerom Selincer olmuşdur. Onun ən məşhur əsəri 1951-ci ildə çap olunan və tənqidçilərin müsbət rəyini alan "The catcher in the Rye" (Çovdarlıqdan uçarkən) əsəridir. Roman müxtəlif yaş təbəqəsindən olan oxucular arasında məşhurlaşmış və XX əsr amerikan mədəniyyətinə birbaşa təsir göstərmişdir, çünki bu əsərdə amerika həqiqətləri və müasir cəmiyyətin əxlaqını əks etdirir. Məsələn, yuxarı sinif şagirdi olan baş qəhrəman öz emosional vəziyyətini bu cür ifadə edir:

"The catcher in the Rye"romanında çoxlu sayda gənclərin istifadə etdikləri slənqlər işlənmişdir. Məsələn, I'd have the damn gloves right in my hand and all , but I'd feel I ought to sock the guy in the jaw or something - break his goddam jaw. Only, I wouldn't have the guts to do it. I'd just stand there, trying to look tough. What I might do, I might say something very cutting and snotty, to rile him up - instead of socking him in the jaw. Anyway if I did say something very cutting and snotty, he'd probably get up and come over to me and say, "Listen, Caulfield. Are

you calling me a crook?" Then, instead of saying, "You're goddam right I am, you dirty crooked bastard!" all I probably would've said would be, "All I know is my goddam gloves were in your goddam galoshes."[6, s. 16]

Bu monoloqda mənfi konnotasiyalı slənqlər olan damn (lənətə gəlmiş), to sock (vurmaq), to have the guts (cəsarətlənmək), snotty (pis, əsəbi), to rile up (hirsləndirmək), crook (dələduz, fırıldaqçı), bastard (əclaf) kimi sözlər baş vermiş hadisəyə qarşı öz qəzəbini və narazılığını ifadə etmək üçün kömək edir.

XX əsrin sonlarında Amerikan ədəbiyyatı xəzinəsinə yazıçı Erik Siqal ("Love Story", Oliver's Story", "Man, Woman and Child") və Nikolas Sparks ("The Notebook, " A Walk to Remember", "A last song") əsərləri ilə öz töhfələrini vermişlər. Bu əsərlərində yazıçılar gənc nəslin sevgisindən və onların ailələri və cəmiyyətlə olan qarşılıqlı münasibətlərini işıqlandırır. Erik Siqal və Nikolas Sparks əsərlərində obrazların xarakterlərinin təsvirinə böyük yer ayırdığı üçün öz əsərlərində gənclərin istifadə etdikləri slənqlərdən fəal istifadə ediblər.

Müasir amerikan yazıçılarından danışarkən Stiven Kinq yaradıcılığını vurğulamamaq mümkün deyil. Stiven Kinq çox məşhurlaşmış və dünyada ən çox oxunulan yazıçılardan biridir. Bir qrup tədqiqatçı qeyd edirlər ki, Stiven Kin Mark Tven, Uilyam Folkner ənənələrini davam etdirir ki, məhz bu xüsusiyyəti onun əsərlərinin dəyərini dünya mədəniyyətində fərqləndirir.

Stiven Kinqin əsərlərinin xarakterik xüsusiyyətlərindən biri slənqlərdən isifadə etməklə dialoqların daha canlı olması və danışıq dilinə daha yaxın olmasıdır. Məsələn,

"That's right, buddy. But I don't think it's ever gonna be, you know, completely right. And don't tell me that John screwed up again".[5, s. 586]

Əsərin təsir gücünü artırmaq, obrazların müəyyən bir yaş və ya social qrupa aid olduğunu göstərmək üçün müəllif dialoqlarda, obrazların təsvirində gənclərin istifadə etdikləri slənqlərdən istifadə edir. Məsələn,

"We used to say Coach, Coach, step on a roach". Coach Borman looked puzzled. "Really?" "Nah, just goofin witcha"[5, s. 602]

Bu nümunədən aydın olur ki, müəllim şagirdlərlə söhbət edir. Sonuncu cümlədə gənclərin istifadə etdiyi slənqlərdən ikisi istifadə olunmuşdur. Bunlardan biri nida "nah" slənqidir. Bu slənq narazılıq ifadə edən slənqdir. "goofin" slənqi isə "zarafat etmək" mənasındadır. "Witcha" slənqi isə əvəzlik və sözönün birləşməsindən (with you) yaranan slənqdir.

Nəticə

Bununla da, gənclərin istifadə etdikləri slənqlər amerikan ədəbiyyatında geniş yayıldı. Bir çox müəlliflər gənclərin istifadə etdikləri slənqlərin seçilməsi və istifadəsinə ciddi yanaşırlar, çünki onlar obrazları nitq kontekstinin xüsusiyyətlərini müəyyənləşdirir və müxtəlif üslubi funksiya daşıyır: emosional-ekspressiv funksiyanın gücləndirilməsi funksiya, təsviri funksiya. Belə nəticəyə gəlmək olar ki, gənclərin istifadə etdikləri slənqlər bədii ədəbiyyatda mühüm rol oynayır, belə ki,

onlar bədii əsəri yeni çalarlarla doldurur, onu daha canlı edir, mətndə müasir cəmiyyətin real həyatının xüsusiyyətlərini oxucuya ötürməyə imkan verir.

İstifadə edilmiş ədəbiyyat:

1.Антрушина Г.Б., Афанасьева О.В., Морозова Н.Н. Лексикология английского языка. М.: Дрофа,2001. 288 с.
2. Гальперин, И.Р. О термине сленг//Вопросы языкознания, 2012, №6,107-114 с. (107 с.)
3. Вилюман, В. Г. О способах образования слов сленга в современном английском языке//Вопросы языкознания/В. Г. Вилюман. -1960. №6- с.137-140
4. Хомяков В. А. Введение в изучение сленга –основного компонента английского просторечия. –Вологда: Министерство просвещения ОСФСР Вологодского гос. пед. ин-та, 1971. -381 с.
5. Adam Makkai, M.T. Boatner and J.E. Gates. A dictionary of American idioms. Barron's Educational Series; 3rd edition, 1995 455p
6.Mark Twain. The adventures of Tom Sawyer. (Collins classics). HarperCollins Publishers, 2012, 288p
7. Partridge E. Slang Today and Yesterday. London: Routledge and Kegan Paul, 1979. 190 p
8. Salinger J.D. The Catcher in the Rye, Back Bay books, 2001 277p
9.Stiven K. 11/22/63: A Novel. New York: Pocket Books; Reissue edition, 2016. 1120p
10.Wilde O. The Canterville Ghost: The Graphic Novel, Heinle Cengage Learning, 2011, 144p

Gulnara Gorkhmaz Gurbanova
Azerbaijan University of Languages, PhD student
Mingachevir State University, lecturer

Summary

The slang used by young people is formed in all spheres of our society. These slangs are quickly replaced by another. Old slangs, which are replaced by new ones, are soon forgotten. While other slangs have been used in colloquial language for years, the slangs used by hundreds of young people have emerged and disappeared in the last 10 years. The slang used by young people also reflects the social and socio-psychological state of American society. Fiction has always had a certain freedom in the choice of lexical units, so in prose we use words and expressions related to colloquialisms, slang and slang. Many American writers use the slang used by young people in their works to show the vitality of the dialogues of the heroes, to bring the

written text as close as possible to the spoken language. This is explained by the fact that slang has a functional-stylistic, expressive and emotional meaning. In addition, the stylistic functions of slangism have a distinctive and descriptive function. Most often, they are used to show a brighter feature of an object or being, as well as the way the characters speak.
Key words: slang, lexicology, literature, the young, social group

Гульнара Гурбанова Горхмаз гызы
Диссертант Азербайджанского Университета Языков
Мингячевирский государственный университет, учительница

Резюме

Сленг, используемый молодыми людьми, сформирован во всех сферах нашего общества. Эти сленги быстро заменяются другими. Старые сленги, которые заменяются новыми, быстро забываются. В то время как другие сленги использовались в разговорной речи в течение многих лет, сленги, используемые сотнями молодых людей, появлялись и исчезали за последние 10 лет. Сленг, используемый молодыми людьми, также отражает социальное и социально-психологическое состояние американского общества. Художественная литература всегда имела определенную свободу в выборе лексических единиц, поэтому в прозе мы используем слова и выражения, относящиеся к разговорной речи, сленгу и сленгу. Многие американские писатели используют жаргон молодежи в своих произведениях, чтобы показать живость диалогов героев, максимально приблизить письменный текст к разговорной речи. Объясняется это тем, что сленг имеет функционально-стилистическое, выразительное и эмоциональное значение. Кроме того, стилистические функции сленгизма имеют отличительную и описательную функцию. Чаще всего они используются, чтобы показать более яркую особенность объекта или существа, а также то, как говорят персонажи.

Ключевые слова: сленг, лексикология, литература, молодежь, социальная группа

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: professor Çingiz Qaraşarlı
tərəfindən çapa tövsiyə olunmuşdur

NİGAR MİRZƏLİYEVA
pedaqogika üzrə fəlsəfə doktoru
ADİU
İstiqlaliyyət küç., 6
e-mail: Nigar-aliyeva-adiu@mail.ru

ALİ MƏKTƏBLƏRDƏ İŞGÜZAR İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN KOMMUNİKATİV FƏALİYYƏTLƏR

Xülasə

Bu gün müasir dünyada qlobal ünsiyyət dili statusunu qazanmış ingilis dilindən kommunikativ məqsədlərə nail olmaq üçün istifadə etmək qabiliyyətinə malik olan gənclərin hazırlanması qarşıya qoyulan əsas vəzifələrdən biridir. Hər hansı kadr ixtisas profilindən asılı olmayaraq müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə müxtəlif sahələrdə bilik səviyyələrini artırmalı, ixtisasları ilə bağlı olan dünya təcrübəsindən faydalanmaq və ondan istifadə etmək qabiliyyətinə malik olmalıdır. Qeyd edək ki, dildə ifadə olunan fikrin qlobal obrazı dil ifadəsinin üsul və stereotiplərinə uyğun olaraq, üzvləşməli, strukturlaşdırılmalı və xətti nəql imkanlarına maksimum yaxınlaşdırılmalıdır. Meydana gələn çalarlar dil strukturları və dil vahidləri ilə əlaqələndirilməli, onların ümumi məcmusu müəyyən nümunə və ya sxemlə yekunlaşdırılmalıdır. Məzmunun dil formasının bu cür yaxınlaşdırılması ona görə asanlaşır ki, məlumatın müəyyən fraqmentinin qavranılmasında, həmçinin stereotiplər, yaxud sxemlər fəaliyyət göstərir. Şifahi nitqin aşılanmasına kommunikativ yanaşma tədris edilən xarici dil sahəsində biliklərin hazır şəkildə təqdim edilməsi deyil, əldə edilmiş bilik və bacarıqların təbii kommunikativ fəaliyyət prosesində təkmilləşdirilməsini nəzərdə tutur. Bunun da həyata keçirilməsində tədrisdə istifadə olunan kommunikativ fəaliyyətlərin rolu danılmazdır. Beləliklə, işgüzar ingilis dilinin tədrisini elə təşkil etmək lazımdır ki, bu zaman linqvistik vahidləri və nitq modellərini konkret situasıyalarla əlaqələndirmək bacarığının inkişaf etdirilməsi təmin edilsin və eyni zamanda onlarda müxtəlif kommunikativ situasiyalara nitq vasitəsilə reaksiya formaları inkişaf etdirilsin. İngilis dilinin tədrisinin əsas məqsədlərindən biri dialoji və monoloji nitq bacarıqlarının formalaşdırılmasıdır. Bu da linqvistik materialların kompleks şəkildə təşkil edilməsi və tədris edilən ingilis dilinin kommunikativ-yönümlü öyrədilməsini nəzərdə tutur. Şifahi nitq vərdişlərinin səmərəli şəkildə inkişaf etdirilməsində xüsusi çalışmalar kompleksinin hazırlanması əsas şərtlərdən biridir. İşin məhz bu istiqamətdə qurulması dilöyrənənlərə lazımı nəzəri bilikləri mənimsəməyə və mükəmməl şəkildə mənimsənilmiş nəzəri biliklərdən praktik məqsədlərlə istifadə etmək üçün səmərəli şərait yaradır.

Açar sözlər: strategiya, şifahi nitq, dil, ünsiyyət, yazı

Hal-hazırda işgüzar ingilis dilinin tədrisi məsələsinə xüsusi diqqət yetirilir. Bu sahəyə innovasiyaların tətbiq edilməsi, kadrların ixtisaslaşdırılması və təkmilləşdirilməsi, günün tələblərinə cavab verən mütəxəssislərin hazırlanması və digər məsələlər xüsust əhəmiyyət kəsb etmiş olur. Qeyd edək ki, ingilis dilinin tədrisində kommunikativ fəaliyyətlər keyfiyyətin əldə edilməsində mühüm rola malikdir. Kommunikativ fəaliyyətlər dilöyrənənlə -dilöyrənən, dilöyrənən –müəllim arasındakı şifahi ünsiyyətin təmin edilməsini dəstəkləyir. Bu zaman işgüzar mövzuda dialoji nitqə qoşulmaq lazımdır. Bunlar internet üzərindən də mümkündür.

İngilis dilinin tədrisində fəaliyyətlər şərti olaraq, aşağıdakı kateqoriyalara ayrılırlar. Bunlar aşağıdakılardır:

Müzakirələr;
Göstərişlər;
Kommunikativ oyunlar;
Problem həlli;
Özün haqqında danışmaq;
Simulyasiya
Rollu oyunlar

Onu da qeyd edək ki, bu fəaliyyətlər azad fikir söyləmə və spontan nitq vərdişlərinin inkişafında müvəffəqiyyətli hesab olunur.

Müzakirələr dərs müddətində spontan şəkildə də təşkil edilə bilər. Biri deyilənə reaksiya verir, digəri ona qoşulur. Belə müzakirələr müəllim və dilöyrənənləri bir araya gətirir. Məlumdur ki, müzakirələrin baş verdiyi yerlərdə təhsilalanlar öz fikirlərini söyləməyə ehtiyac duyurlar. Əgər onlar işgüzar münasibətləri müzakirə edirlərsə, bu zaman dilöyrənənlər öz fikirlərini müdafiə etməlidirlər. Bu xüsusilə, debatlar üçün də xarakterikdir. Müzakirələrə cəlb etmənin bir yolu da müzakirə prosesinin tərkib hissəsi kimi onlara tapşırıq verməkdir.

Bundan əlavə, üç növ fəaliyyətlər də mövcuddur ki, onları təqdim edirik:

The buzz qroup

Bu fəaliyyətlərə həvəsləndirmək üçün bir yol da yuxarıda adı çəkilən qruplardır. Burada onlar 3-4 nəfər olmaqla yerləşdirilir və mətnin ətrafında düşünmək tapşırılır. Müəllim bacardıqca daha çox fikir söyləməyi tələb edir.

Controversial topics

Bu texnika fəaliyyətlərə cəlb edilmək üçün kiçik tapşırıqlar əsasında əla nümunədir.

The debate

Debatlar tədris prosesində faydalı fəaliyyət növlərindən hesab olunur.

Kommunikativ fəaliyyətlər bir çox dərslərin əsas tərkib hissəsi olmalıdır. Burada əsas məsələ onların uğurlarına aparan fəaliyyətin xüsusi olaraq təşkilidir.

İKT ilə bağlı tapşırıqlardan biri də kommunikativ oyunlardır. Kommunikativ fəaliyyətlər “information gap” prinsipləri üzərində qurulur. Dilöyrənənlər tapşırıqlar yerinə yetirirlər.

Bu fəaliyyətlərə aşağıdakılar da daxil edilir:
Information gap
Letter writing
Bu zaman dilöyrənənlər işgüzar mövzuda məktublar yaza bilərlər.
Note taking etc.
Ümumiyyətlə, kommunikativ səriştənin formalaşdırılmasında aşağıdakı fəaliyyətlər ön plana çəkilir:
Communicative activities
Information –gap activities
Task-completion activities
Information-gathering activities
Opinion- sharing activities
Information-transfer activities
Reasoning-gap activities
Jigsaw activities
Role plays
Qeyd edək ki, kompüterlərin auditoriyalara inteqrasiyası dil tədrisi üçün böyük töhvə oldu. Bu cür informasiya kommunikasiya texnologiyalarına söykənən fəaliyyətlər dilöyrənənləri həvəsləndirir. Kommunikativ fəaliyyətlər həyata keçirilən zaman ən mühüm vasitələrdən biri ünsiyyətdə qarşılıqlı təsir prosesinin yaradılması, yəni interaktivliyin təmin olunmasıdır. Dil öyrənmədə ünsiyyətə girən insan sual, xahiş, əmr, izahat və s. vasitələrlə qarşı tərəfə təsir etməyi nəzərdə tutur. Bu zaman o qarşısındakından lazımi informasiyanı əldə edə bilər. Ünsiyyət prosesində nəzərdə tutulan məqsəd hər iki iştirakçının birgə fəaliyyətinə və qarşılıqlı münasibətinə əsaslanır. Belə qarşılıqlı təsir müzakirələrə zəmin yaradır. Bu prosesdə verilən motivasiya və sərbəstlik birbaşa ünsiyyət zamanı özünəinamın artmasına, xarici dildən daha çox istifadəyə və nəticədə təqdim olunan materialı şüurlu öyrənməyə səbəb olur. Bu zaman müzakirələrin təşkili bu işi daha da səmərəli edir. Kommunikativ fəaliyyətlər təhsilalanların tənqidi təfəkkürünün formalaşmasına, şəxsi nəticələrə gəlməsinə dəstəkləyən fəaliyyətdir. İşgüzar mövzularda açıq, əməkdaşlıq fonunda ideyaların bölüşdürülməsi xarakterik hesab olunur. Bu zaman tərəflərin ünsiyyət fəaliyyətləri baş verir. Bu fəaliyyətlər təfəkkürün inkişafına, anlaşmaya, problem həllinə, qiymətləndirməyə yönəldilir [3,45]. Beləliklə, bu fəaliyyətlər işgüzar ingilis dilinin tədrisində diskursiv bacarıqların inkişafını dəstəkləməklə qalmır, həm də vaxtın maraqlı təşkilini təmin edir. İndi tədris prosesində dərsin infrastrukturu onun məqsədləri ilə səsləşir və təlimin forma və məzmununa müvafiq olaraq, dərsin məqsədlərinin miqyası da konseptual ölçülərlə genişlənir.

Kommunikativ fəaliyyətlər həyata keçirilən zaman şəraitin yaradılması vacib sayılır.

Buraya aşağıdakılar daxildir:

Hər kəs özünü aid olduğu qrupa təqdim etsin;

Qruplar kəmiyyət baxımından böyükdürsə, bu zaman altqruplar yaratmaq məsləhətdir;

Açıq fikirli olmaq və dinləmələrə hörmətlə yanaşmaq lazımdır;

Bir-birlərinin fikirlərinə münasibət bildirmək vacibdir;

Sakit mühitin təmin edilməsi işgüzar müzakirələri produktiv edir;

Təhsilalanlara zamanın verilməsi zəngin məzmunlu söhbətlərlə nəticələnir;

Onlara öz fikirlərini yazmağa şərait yaradılmalıdır. Bunu xüsusilə, "full" qruplarda iştirakdan əvvəl, kiçik və cütlərlə qruplarda etmək lazımdır;

Danışıqdan əvvəl onların fikirlərini cəmləşdirmələri daha reflektivdir, bu onları sakit edir;

Planlaşdırma zamanı əsas məsələlər haqqında dərs ərzində qərar vermək məsləhətdir. Üç mövzu yetərlidir;

Kommunikativ fəaliyyətlərə başlamazdan əvvəl, kağızda onları qeyd etmək, relevant sitatlar hazırlamaq lazımdır;

Tez- tez məzmun dəyişdirilməlidir;

Debatlar, təqdimatlar, fərdi yazılar, kiçik işgüzar mövzularda qrup müzakirələri təşkil edilməlidir;

Kommunikativ fəaliyyətlərə cəlb etmənin iki yolu vardır:

Uyğun məsələləri müzakirəyə qoymaq;

Düzgün istiqamətləndirmə.

Sual soruşmaq asan görünə bilər. Lakin maraqlı, cəlbedici və motivasiyaedici suallar hazırlamaq kifayət qədər çətindir.

Bundan başqa, bir neçə işgüzar mövzularda fəaliyyət strategiyaları mövcuddur.

Bunlar aşağıdakılardır:

Questions;

Reflective writing;

Qroup work;

Suallar da seçim baxımından müxtəlif ola bilir:

İnstructor- designed question

Sualları plan üzrə paylaşdırmaq;

Qapalı suallar hazırlamaq;

Cavabları hər qrupda üç nəfərdən soruşmaq;

Student-designed questions

2 sual təqdim etməyi tapşırmaq məqsədəuyğundur. Onlar bunu "online" vasitəsilə də həyata keçirə bilərlər;

İstiqamətlər verin;

Sualları qiymətləndirin və fidbək verin.

Təcrübə göstərir ki, dilöyrənənlərin ünsiyyət prosesinə artan ehtiyaclarının ödənilməsi məqsədilə dil və nitq materiallarının məqsədyönlü şəkildə birləşdirilərək əlaqələndirilməsi sözü gedən fəaliyyətlərin əsasını təşkil edir.

Beləliklə, kommunikativ fəaliyyətlər işgüzar ingilis dilinin tədrisində müstəqil düşünmək, sərbəst rəy söyləmək, hər hansı problem barədə başqasının fikrinə münasibət bildirmək, digər fərdi nöqteyi-nəzəri təsdiq etmək, yaxud öz qərarının üstündə durmaq və başqa xüsusiyyətlərin formalaşmasına bilavasitə kömək göstərməklə təfəkkürün inkişafına zəmin yaradır[1,219]. Sözü gedən fəaliyyətlərin tətbiqi şifahi nitqi intensivləşdirir, qoyulmuş mövzuya dair fəallığı artırır. Bu mənada dərslər də demokratik üsullara istiqamətlənir. Yuxarıda qeyd etdik ki, bu fəaliyyətlərin ən mühüm və mürəkkəb mərhələlərindən biri motivasiyadır. Dərsin bütün sonrakı gedişi məhz motivasiyanın nə dərəcədə uğurlu yaradılması və həyata keçirilməsindən asılıdır. Motivasiya fəaliyyətin hərəkətverici qüvvəsidir. Bu zaman təfəkkür prosesini hərəkətə gətirən və idrak fəallığını artıran məhz motivasiyadır.

İşgüzar mövzularla bağlı motivasiyanın yaradılmasının mümkün üsullarını şərti olaraq bir neçə qrupa bölmək olar:

verilmiş materiallara şərh.

sual verməyə həvəsləndirmə.

Bu baxımdan xüsusi yeri olan doqquz koqnitiv komponent vardır ki, onlar aşağıdakılardır:

1. Cəldlik (fluency);
2. Lüğət (vocabulary);
3. Elmi dünyagörüş (world knowledge);
4. Motivasiya (motivation);
5. Məqsədlər və hədəflər (purposes, goals);
6. Koqnitiv və meta-koqnitiv strategiyalar (cognitive and meta-cognitive strategies);
7. Dil bilikləri (linguistic knowledge);
8. Diskursa dair biliklərin formalaşdırılması (discourse knowledge formation);
9. Mətnin özündə ehtiva etdiyi məlumatlara inteqrasiya (integrating non-print information with text).

Ali məktəb tələbəsinin hər hansı tələbatına cavab verən və onun fəaliyyətini istiqamətləndirən şərtlərdən ən önəmlisi onlarda dilin öyrənilməsinə olan həvəsdir.

Dillərin tədrisində motivasiya mənimsənilməli olan linqvistik materialların öyrənilməsinin zəruriyyətini və tələbələrin yerinə yetirilənən müxtəlif fəaliyyət növlərinin məqsədəuyğunluğunu dərk etməsini təmin etməlidir. Beləliklə, təhsilalanların yaşı, zəkası, bilik, məntiqi səviyyəsini nəzərə alaraq, uyğun olan müxtəlif tədbirlərin təşkili, tədrisə uyğun oyunların və yarışların keçirilməsi, şəkillər, əşyalar, video və müasir texnologiyalarla dərsin tədrisi daha təqdirə layiq hesab olunur. Burada da müəllimin pedaqoji ustalığı önə çəkilir. Bir sözlə, müəllim mövzu ilə əlaqədar olan müvafiq resursları əldə etməlidir ki, bu resursların da rəngarəng olması dərsin maraqlı olmasına, qarşıya qoyulan məqsədə nail olmağa imkan yaratsın. Bu cür dərslərdə həmçinin başqa texniki təminatların olması da dərsin səmərəliliyinə müsbət təsir göstərir.Müəllim dərsi təşkil edərkən yaradıcı olmalıdır, dərsin məqsədini müəyyən et-

məlidir. Bu zaman öyrədici, inkişafetdirici, tətbiqedici funksiyalar işlək olmalıdır. Qoyulmuş problemin dərk edilməsi, onların təqdim olunan materiallara münasibəti təfəkkür prosesini stimullaşdırır.Təlimin interaktiv xarakteri daha qabarıq formada təzahür edir. Bu da öz növbəsində, təhsilalanların təlim prosesində öz bacarıqlarını həyata keçirməsi, özlərinə inamın artması, özlərini şəxsiyyət kimi dərk etməsi, problemin həlli üçün vacib olan fərdin və qrupun qarşılıqlı surətdə bir-birini tamamlaması prinsipini mənimsəməsini və inkişafını təmin edir[2,12]. Burada qeyd etmək lazımdır ki, fasilitator vəzifəsini yerinə yetirən müəllim hər bir tələbəyə şəxsiyyət kimi yanaşmalı, onlarla səmimi münasibət yaratmalıdır. Müasir təlimin müəllimdən tələbi odur ki, onun təqdim etdiyi təlim metodları və vasitələri dövrün tələbləri ilə uyğunlaşsın. Bu zaman onlar öz fikirlərini sərbəst bildirir, oxuduqlarını və ya eşitdiklərini bölüşməyə həvəsli olurlar, söhbətlərə tez qoşulurlar, qrup dairəsində aparılan fəaliyyətlərdə daha fəal olmağa çalışırlar. Beləliklə, dilöyrənənlərin kommunikativ bacarıqları onları mənalı, real həyatla səsləşən tapşırıqların yerinə yetirilməsi prosesinə cəlb etməklə inkişaf etdirilməlidir. Tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi onlarda məmnunluq, razılıq, əminlik hissi yaradır. Kommunikativ təlim tələbələrdə niyyətlərinin kommunikativ həyata keçirilməsi üçün öyrənilən xarici dildən düzgün və adekvat şəkildə istifadə etmək bacarıq və arzusunu inkişaf etdirilməsini əsas kimi irəli sürür. Burada anlama, danışıq, fikir və ideya mübadiləsinə üstünlük verilir, qrammatik struktur, leksik vahidlər və s. bu məqsədlərə nail olmaq üçün öyrənilir.

Ədəbiyyat

Selinker, L. Interlanguage, IRAZ, 10, 1992, pp. 219-231.

Tannen, D. Oral and Literate Strategies in Spoken and Written Narrative, Language // 58, 1999, pp. 11-21.

Ullman S. Language and meaning. London: Word, 1996, Vol.2 №2, 190 p.

N. MIRZALIYEVA

THE COMMUNICATIVE ACTIVITIES USED IN TEACHING BUSINESS ENGLISH AT HIGH SCHOOLS

Summary

Although most writing texts lay out elaborate formats for topic and sentence outlines, your purpose in outlining is to arrange main and supporting ideas in a visible framework that permits you to see and test your logic on paper. Then, if some ideas do not fit together or flow naturally, you can rearrange them before you get under way with your big job.

There are no “absolutes” for organizing. Every writer has his or her own mental approach to the task. Your next step is to select a structure or pattern that enables you

and your readers to move systematically and logically through your ideas from a beginning to a conclusion. Topical pattern is a commonly used pattern to present general statements followed by numbered listing of subtopics to support, explain, or expand the statements. For example, if you make a general statement you could use the topic pattern to list and briefly describe typical activities. At times, however, the list should follow some logical order, depending on the nature of your material and the purpose of your communication. Some material flows more logically if you arrange it from the simple to the complex, the known to the unknown, the general to the specific, the specific to the general, and so on. The best approach in using this pattern is to experiment with the arrangements that will best help your readers understand what you are saying. When you use pattern, you discuss events, problems, or processes in the sequence of time in which they take place or should take place (past to present, present to past, or present to future).

This pattern is the simplest and most commonly used approach in writing because you frequently encounter situations based on time sequences. Of course, you must be careful to select facts that support the purpose of your communication. In most cases, this pattern is used in writing histories, tracing the evolution of processes, recording problem conditions and solutions, and dealing with other situations that develop over extended periods.

For example, in discussing an opinion or point of view that, you think, would lead to a solution to a problem, your approach might be to write a complete statement of the opinion or point of view and then discuss each reason for the idea in a series of numbered paragraphs. After you have chosen a specific subject heading, identified your main and supporting points, and selected an appropriate organizational pattern, your next step is to outline your material in the framework as it will appear in your letter, book report, research paper, etc. Even exceptional writers need an outline for their ideas to appear as if they were naturally arranged from the beginning of the message or report to the end.

Key words : strategy, oral speech, language, communication, writing

Н. МИРЗАЛИЕВА

КОММУНИКАТИВНЫЕ ДЕЯТЕЛЬНОСТИ ПОЛЬЗОВАННЫЕ ПРИ ПРЕПОДАВАНИИ ДЕЛОВОГО АНГЛИЙСКОГО ЯЗЫКА НА ВЫСШИХ ВУЗАХ

Резюме

Речевую коммуникацию понимают как ряд систематических речевых актов, совершаемых для достижения определенных целей. Обучаемые должны понимать цель речевой коммуникации и знать пути достижения этой цели посредством использования лингвистических средств. Учитель должен непременно знать потребности своих студентов, и разрабатывать систему обучения языку, ориентируясь на эти потребности. Он должен знать, в каких

целях они изучают иностранный язык, с тем, чтобы разрабатывать наиболее оптимальные методы, способствующие достижению этих целей. Коммуникативное преподавание языка предполагает обучение языку в определенном контексте для обмена мыслями.

Наиболее эффективным путем формирования речевой компетенции обучаемых является систематическое сочетание основных компонентов языка (произношение, лексическая система и структура), когда контекст обеспечивается темами и ситуациями, а структура усваивается исключительно в функциональных целях. Для того, чтобы система обучения тому или иному иностранному языку наиболее целесообразным образом содействовала успешному обучению языкам и их усвоению, следует непременно дифференцированно подходить к наличию у людей интереса к обучению и межличностным контактам, потребности в обмене информацией и мыслями. Также существуют личные интересы и потребность делиться знаниями и культурой с другими людьми, а также потребность в самореализации.

Относительно коммуникативного подхода к обучению иностранному языку, многие авторы поддерживают идею, согласно которой коммуникативные потребности как внутренние осознанные потребности, требуют самого серьезного рассмотрения.

Чрезвычайно актуальной является проблема автономии учащихся. Предоставление самостоятельности обучаемым предполагает осознание ими собственной ответственности за процесс обучения языку, что является неотъемлемым компонентом обучения, сфокусированного, в первую очередь, на личности обучаемого, его потребностях и интересах.

Ключевые слова: стратегия, устная речь, язык, коммуникация, письмо

Redaksiyaya daxil olma tarixi: 14.12.2021
Çapa qəbul olunma tarixi: 15.01.22
Filologiya üzrə fəlsəfə doktoru Şəhla Kərimova
tərəfindən çapa tövsiyə olunmuşdur

ÜLKƏR BALAHÜSEYN QIZI XANLAROVA
Müəllim
Azərbaycan Dillər Universiteti
Təbriz küçəsi, 81
Email: ulkar.khanlar@gmail.com

TÜRK DİLLƏRİNDƏ QRAMMATİK CİNSİN İZLƏRİ

Xülasə

Türk dillərində hal-hazırda qrammatik cinsin mövcud olmamasına baxmayaraq, bəzi dilçilər onun bir zamanlar bu dillərdə özünü göstərdiyini iddia etmiş və bununla bağlı bir sıra nümunələr təqdim etmişlər. Bəziləri bunun fonetik üsulla yarandığını, digərləri isə qrammatik şəkilçilərin köməyilə həyata keçirildiyini söyləmişlər. Məqalədə bir sıra türk dillərindəki həm alınma, həm də qədim sözlərdə qadın cinsi yaradan şəkilçilərə dair nümunələr yer almış və onların bəzilərinin öz ilkin formalarını dəyişərək müasir dildə mövcud olduğu göstərilmişdir. Cins bildirən şəkilçilərə əsasən insan adlarında, qohumluq əlaqələri və sənət bildirən sözlərdə rast gəlindiyi iddia edilmiş və bu, nümunələrlə əsaslandırılmışdır. Bəzi mütəxəssislər isə türk dillərində cins yarada biləcək şəkilçilərin hal-hazırda öz funksiyasını yerinə yetirmədiyini əsas gətirərək onların qədim zamanlarda çox məhdud sayda və adətən təkvariantlı olduğunu vurğulamışdır.

Açar sözlər: qrammatik cins, qadın cinsi bildirən şəkilçilər, alınma sözlərdə qrammatik cins, insan adlarında qrammatik cins.

Cins kateqoriyası və cins şəkilçilərinin uzun müddətdir araşdırılan bir mövzu olmasına baxmayaraq, o müasir dövrdə də öz əhəmiyyətini itirməmiş və mövzu ilə bağlı daim yeni və maraqlı fikirlər irəli sürülmüşdür. Bu baxımdan, xüsusilə bəzi dillərdə cins kateqoriyasının mövcud olmaması diqqət mərkəzində olmuş, bu məsələnin səbəbləri araşdırılmış və bəzi cins bildirən xüsusiyyətlərin bir zamanlar özünü göstərdiyi sübuta yetirilmişdir.

Aqqlütinativ dillərdə çoxlu sayda şəkilçilərin mövcud olmasına baxmayaraq, məhz cins yaradan şəkilçilərə az rast gəlinməsi və yaxud onların olmaması heç də dilin cinsi ifadə etmə qabiliyyətinin zəif olduğunu iddia etməyə əsas vermir. Bunun üçün dildə mütləq şəkildə cins kateqoriyasının olmasına gərək yoxdur. Bu o deməkdir ki, cinsin ifadə vasitələri arasında qrammatik xüsusiyyətlərin böyük rolu vardır. Cins kateqoriyasının mövcud olmamasının səbəbini hər zaman onun aqqlütinativ dil olması ilə bağlamamalı, bunun məhz türk dillərinə xas bir xüsusiyyət olduğu zənn edilməlidir. Bununla belə, türk dillərinin analitik xüsusiyyəti, onun cins bildirən sözlərə ekvivalent tapılmasını təmin etməsi nəzərdən qaçmamalıdır.

Bəzi mütəxəssislər iddia edir ki, qədim türk dillərində fonetik quruluşa əsasən sözləri cinslərə ayırmaq mümkün olmuşdur. A. *Rəhimov buva (baba), buvi (nənə), bibi (nənə)* və *bobo (baba)* sözlərinin misal çəksə də, bunlar istisna hallardır və müasir türk dillərində cinsi fərqləndirmək üçün fonetik üsulun mövcud olduğunu söyləməyə əsas vermir. Fonetik dəyişikliklərə misal olaraq eči (qardaş) – ečä (bacı), qart (qoca kişi) – qurt-qa (qoca qarı) sözlərini də qeyd etmək olar. [bax:1,s.24]. Mancur dilində də cinsin ifadə olunmasında əsas rolu sinharmonizm oynayır: *амака (qaynata) – эмэкэ (qaynana), арсалан (erkək aslan) – эрсэлэн (dişi aslan), амила (erkək) – эмилэ (dişi)* [bax:1, s. 24]. Yuxarıda qeyd olunduğu kimi, bunlar istisna hallardır.

Türkoloji ədəbiyyatlarda fonetik üsulla yanaşı, cins bildirən şəkilçilər barədə də maraqlı fikirlərə rast gəlinir. Məsələn, N.K. Dmitriyev və V.M. Çistyakov ərəb dilindən gəlmə -a, -ə şəkilçilərinə diqqət çəkərək tatar dilində işlənən *Zakir-Zakirə*, *Nasix-Nasixə* adlarını nümunə göstərirlər. [bax:1, s. 24] Bu hal özbək və Azərbaycan dilində də *müəllim-müəllimə*, *şair-şairə* kimi sözlərdə özünü göstərir. Bu şəkilçilər məhz qadın cinsi yaratmağa xidmət edir və onları sözün sonundan götürdükdə, konkret cins bildirməyən sözlərə çevrilirlər. Təccüblü hal ondan ibarətdir ki, eyni mənbəyə görə, cinsin bu formada ifadəsi türk mənşəli *Sevər-Sevərə (Севар – Севара)*, fars mənşəli *Feruz-Feruzə (Феруз – Феруза)* adlarında da özünü göstərir [1, s. 24]

Bəzən sifətlərin sonuna şəkilçi əlavə etməklə qadın cinsi bildirən isimlər düzəltmək mümkündür. Zəif, gücsüz mənasını verən *заифа, ожиза* sifətləri -a affiksi qəbul etməklə substantivləşərək hal-hazırda qadın məfhumunu ifadə edir. L. Reşotova və K. Umurov morfoloji üsulla cins yaradılmasını yalnız bu iki şəkilçi ilə məhdudlaşdırmır, qədim türk dillərində kifayət qədər məhsuldar şəkilçi olan -im şəkilçisini də qeyd edirlər (*özbək dilində xonim, türkmən və tatarca xanım, çuvaş*

dilində xuzam). [bax:1 s. 25]. N.K.Dmitriyev göstərir ki, xan və bəy sözlərinə birinci şəxsin təkinə aid mənsubiyyət şəkilçisi artırmaqla, mənim xanım, mənim bəyim deyil, *xanım* və *bəyim* kimi qadın cinsi ifadə edən sözlər əmələ gəlmişdir. Bununla belə, özbək və Azərbaycan dillərində bu nümunələr, xana və bəyə əzizləmə məqsədilə müraciət forması hesab edilir.

N.K.Dmitriyevə görə, Azərbaycan dilində bildirçin, göyərçin və (siqirçin) sığırçın sözlərinin tərkibindəki -çin də şəkilçisi qadın cinsi yaratmağa xidmət etmiş və bu sözlər müasir dövrdən fərqli olaraq yalnız dişi quşları bildirmişlər. Türk dillərindəki armud növü bildirən *mələrçin* sözü məhz qadın adı kimi işlənir və ya *məkərçin* məhz dişi çöldonuzu deməkdir.[bax:1, s 26] Professor E.A.Beqmatov N.K.Dmitriyevin fikirlərinə əsaslanaraq *barçin* sözündəki -çin şəkilçisini qadın cinsinin arxaik göstəricisi hesab edir. Qəhrəmanlıq eposu olan "Alpamış"-da *Barçin* obrazı *dişi ördək* mənasını verir, çünki *bar – ördək*, *çin* - qadın cinsi ifadə edən suffiksdir. [bax:1 s. 26]. Bu nümunə belə bir qənaətə gəlməyə əsas verir ki, Xarəzm dialektində işlənən və gözəl qız mənasını verən *balçın* sözü *bal* kökü və *-çın* şəkilçisindən təşkil olunmuşdur. Qadınlar adətən şirin, dadlı və gözəl varlıqlara bənzədildiyi üçün bu sözün kökü də arı balı deməkdir, -çin şəkilçisi isə qadın cinsi bildirən şəkilçidir [1 s. 26].

Həm Azərbaycan, həm də müasir özbək dilində -ça/-çə şəkilçiləri cins yaratmaq qabiliyyətinə malikdir. N.K.Dmitriyev buna nümunə olaraq Azərbaycan dilinin dialektlərində işlənən *qulan-qulança* sözünü misal gətirmişdir [bax:1 s. 26]. Özbək dilində isə *kudaça* (молодая сватья - quda), *kiroliça* (kraliça), *oğaça* (1.kəniz, qadın qulluqçu 2. varlı uyğurlarda nüfuzlu qadın). Bu şəkilçinin iki funksiyasını bir-birindən fərqləndirmək lazımdır. Məsələn, *бувчə, тувча, əбəчə, айча, ойимча, хонимча* sözlərində -ça, -çə affiksləri kiçiltmə, əzizləmə ifadə edir, çünki sözügedən şəkilçilər əlavə olunana kimi bu sözlərdə artıq qadın cinsi əlamətləri mövcuddur. Bunun əksinə olaraq, *kudaça, kiroliça, bekaça* və *oğaça* sözlərində -ça, -çə şəkilçiləri birbaşa cins əlaməti bildirərək, *bek-bekaça*, *oğa-oğaça*, *kuda-kudaça* və *kirol-kiroliça* kimi cinsi qarşılıqların yaranmasına səbəb olmuşdur [1 s. 27].

F.T.Musayevanın "Türk dillərində feminizasiya şəkilçiləri" adlı məqaləsində bildirilir ki, türk dillərində cins kateqoriyasının mövcud olmamasını dilin quruluşu ilə əlaqələndirmək düzgün deyildir, çünki bu dillərdə söz sonuna çoxlu sayda şəkilçi əlavə etmək mümkündür. Bir çox mütəxəssislər türk dillərinin aqqlütinativ olması xüsusiyyətinin önə çəkərək onların analitik olması keyfiyyətini nəzərə almır. Halbuki, analitiklik dildə söz yaradıcılığı və onun qrammatik quruluşuna əhəmiyyətli dərəcədə təsir edir. Cins ifadə edən leksik vahidlərin yarıdan çoxu analitik sözlər və bir çox qrammatik formalar analitik formalar ilə ifadə olunur.[1, s.24]

Y.Nemet, A. Zayançkovski, M. Rəsənen, O. Pritsak, G. Doerfer, A. N. Kononov kimi türkoloqlar türk dilində -ça, -çık, -ka, -m qadın cinsi bildirən şəkilçilərin mövcudluğunu iddia etmişlər [bax:2, s. 151]. Ən çox mübahisəyə səbəb olan *tanrıça, begüm "bəyin həyat yoldaşı*", *hanım, kösem, bike* "*xan qızı ve ya xanın*

həyat yoldaşı", *biçe "bəyin həyat yoldaşı*", *ağaça "xanım*" sözləridir. Bununla belə, daha fərqli fikirlərə də rast gəlmək olar. Məsələn, F. Braun *hocanım* sözünün hanım hissəsindəki -anım şəkilçisini cins şəkilçisi qəbul edərək *hocanım, müdiranım, hemşiranım* sözlərini nümunə göstərmişdir. [bax:2, s. 151]

Türk dilində xüsusilə *tanrı – tanrıça* sözləri arasındakı cinsiyyət fərqini yaradan -ça şəkilçisi diqqəti cəlb edir. Bu şəkilçinin slavyan mənşəli -içe şəkilçisinin təsiri ilə yarandığı ehtimal edilir. Leksik cins yaradan sözlər zamanla dəyişərək şəkilçilərə çevrilir və qrammatik cinsin meydana gəlməsinə səbəb olur. Türk dilində, xüsusilə qadınlar üçün istifadə olunan xitabların sonradan sözə şəkilçi kimi qoşularaq qadın cinsi bildirən söz yaratmasının şahidi oluruq (məsələn, *beg emesi > begüm*), lakin bu şəkilçilər təkvariantlı olduğu üçün sözügedən dildə cins düzəldən şəkilçilərin geniş yayıldığını söyləməyə imkan vermir [bax:2, s. 151].

Türk dilindəki alınma sözlər qrammatik cinsə bariz nümunədir. Ərəb dilindən alınmış sözlərdə -t, -a suffiksləri cins yaradan şəkilçilərdir. Bu baxımdan, *müdire, muallime, emânet, kübrâ, sevdâ, beyzâ qadın* cinsi bildirir [2, s.150]. Qərb dillərindən gələn-*es, -ör, -öz* şəkilçiləri *prens-prenses, host-hostes, kont-kontes, şantör-şantöz, dansör-dansöz* kimi sözlərin cins bildirməsinə yol açmışdır [2, s.150]. *Ballet* sözündən əmələ gəlmiş *balet "balet oynayan kişi"* ve *balerin "balet oynayan qadın"* sözləri də qrammatik cinsə dair misaldır [2, s.150]. *İmparatoriçə, patroniçə, kraliçə, tanrıça* sözlərinin cins bildirməsinə səbəb olmuş -içə və -ça şəkilçiləri slavyan dilindən alınmadır. [2, s.151]

A.C.Emre Hind-Avropa dillərində olduğu kimi, türk dillərində də cins morfemlərinin mövcud olduğu fikrini irəli sürmüş və bununla bağlı nümunələr sadalamışdır. "Divani-lüğətit-türk"-də adı çəkilən *kunaçın* "gənc dişi at" sözündəki -çın şəkilçisi qadın cinsi bildirən bir morfem olub -çe / -çi şəkilçisinin -n ile uzadılmış formasıdır [3, s.91]. S.Çağatay isə türk dilində qrammatik cinsin mövcud olmadığını iddia etmiş, *hanım* və *begum* nümunələrindəki -m-in mənsubiyyət şəkilçisi olduğunu və hanım kelmesinin farsca *hânumân* kəlməsindən gəldiyini söyləmişdir [3, s.91]. T.N.Gencan türk dilində kişi və ya qadın cinsini ifadə edəcək suffikslərin olmadığını, sadəcə buna aid çox qədim dövrdə azsaylı nümunələr görə biləcəyimizi iddia etmişdir (*han-hanım, beğ-begüm/bike, ağa-ağaça, kağan-katun*) [3, s.91].

A.N.Kononov bir sıra kiçiltmə ifadə edən şəkilçilərin qadın cinsini yaratmış olduğu sözləri aşağıdakı kimi sıralamışdır [bax:3, s.91]:

1. +m / +ım han+ım 'küçük han > hanın zevcesi', bek+im / beg+üm 'küçük bey > beyin zevcesi', täñri+m 'prenses', ar-ãm" 'Çuv. küçük koca > zevce'.

2. +A (< +Ak), +kA (< +kAy) kuda+ga 'görücü', bik+e / bek+e 'hanın kızı veya zevcesi', han+i+ke 'hanın zevcesi veya kızı'.

3. +çı / +çü, +çA (< +çik; +çak) bi-çe, be-çe 'beyin zevcesi veya kızı', aa-ça 'hanım'

4. +oç ~ +o bik+eç 'hanın zevcesi veya kızı', han-i 'hanın zevcesi'

5. +cık kar-cık 3 'Tat. ihtiyar kadın'

6. +kAn täñri-ken ‘Uyg. imparatoriçe’
7. +ey
ög-ey ‘üvey’
8. ka / -kay ana+ka ‘Tel. büyük anne’, ana+kay ‘Kaz. süt anne’

G.Karaağaçın söylədiyinə görə, xüsusilə qohumluq əlaqələrini ifadə edən sözlər əvvəlcə söz birləşməsi kimi çıxış etmiş, sonra isə onlar bir söz şəklində birləşmişdir [bax:3, s.92]. Nümunə olaraq, bik eçe(si) ‘bey hanımı’ > bikeç ~ biyçe > biçe; kan / han eşi ve ya kan/han eçe(si) ‘bey hanımı’ > kaniç > hani / kani; han eme(si) > hanum > hanım; beg eme(si) > begüm > begim; aga + beg > ağabey > abi, göstərmək olar. Onun fikrincə, bunlar sadəcə iki sözün birləşməsindən yaranan sözlər olsa da, G. Nemet, A. Zayançkovski, M. Rəsənen, O. Pritsak, G. Doerfer, A. N. Kononov kimi türkoloqlar “-ça, -çık, -ka, -kan, -m” şəkilçilərini cins yaradan və kiçiltmə ifadə edən şəkilçilər kimi dəyərləndirmişlər. Karaağaç bu fikrin tamamilə yanlış olduğunu və Ural və Altay dillərində cinsi bildirmək üçün heç bir morfemin mövcud olmadığı fikrini dilə gətirmişdir. O, türk dilində slavyan mənşəli cins yaradan şəkilçinin mövcudluğunu isə qətiyyətlə inkar etmişdir. Göründüyü kimi, alimlər arasında bu məsələ barədə böyük bir fikir ayrılığı vardır.

V.Hatiboğlu isə müqayisə aparmaq məqsədilə cins yaradan deyil, başqa funksiya yerinə yetirən şəkilçilərin türk dilində necə formalaşdığını göstərmişdir. *Eli ile > eliyle, gelmiş idi > gelmişti, seğ men, köle men, koca man, şiş man > seğmen, kölemen, kocaman, şişman* kimi sözlər də əvvəlcə iki sözün yanaşı işlənməsi ilə yaranmış, sonra iki söz birləşərək bir söz olmuş və bu zaman əvvəl müstəqil söz olmuş ikinci hissə şəkilçiyə çevrilmişdir [bax:3,s. 93]. Əgər bu proses digər şəkilçilərin yaranmasına gətirib çıxarırsa, eyni qayda ilə cins şəkilçiləri də meydana gələ bilər. V.Hatiboğlu türk dillərində cins yaradan şəkilçilərin meydana gəlməsini türk dillərinin bu morfemlerin mövcud olduğu digər dillər ilə əlaqədə olması və dillərin bir-birinə söz alib-verməsi kimi təbii səbəbin nəticəsi olaraq qəbul edir. Odur ki, franız dilindən alınma *patron* və italyan dilindən alınma *imparator* sözlərindən *patroniçe* və *imparatoriçe* düzeldilməsi türk dilində cins kateqoriyası yaratmasa da, cinsiyyət məntiqini birbaşa formalaşdırmışdır.

Altay dil ailəsinin türk qrupunun uyğur yarımqrupuna mənsub olan Tuva dilində *oğlan, gənc oğlan* mənasını verən *ool* suffiksi bəzən kişi adlarına əlavə olunur və cins bildirən şəkilçi kimi çıxış edir (*Altın-ool* - qızıl oğlan, *Kara-ool* - tünd saçlı oğlan, qaraşın oğlan). Qadın adlarına isə qız, gənc qadın kimi tərcümə olunan kıs suffiksi əlavə olunur (*Aldın-kıs* - qızıl qız) [4, s.298].

1960-cı illərdən etibarən, Tuva dilində rus dilindən alınmış *-a* suffiksi kişi adlarına əlavə olunmağa başlanmışdır. Bacarıq, qabiliyyət mənasını verən *Çayaan* kişi adından *Çayaana* qadın adı, Sayan dağlarından yaranmış *Sayan* kişi adından isə *Sayana* qadın adı yaranmışdır [bax:4, s.298]. Bundan başqa, Monqol dilindən alınmış *-maa* şəkilçisindən *Ajıkmaa, Aylanmaa, Belekmaa, -baa* şəkilçisindən *Sevilbaa, -aa* şəkilçisindən *Handıvaa, Denzivaa* qadın adları formalaşmışdır. İslam dininin qəbul

edilməsindən sonra Tuva dilində ərəb dilindəki kimi kişi adlarına şəkilçi artırılaraq qadın adları düzəldilmişdir (məs., *Emin – Emine*) [bax:4, s.298].

Aparılmış araşdırmadan belə bir nəticəyə gəlmək olar ki, qrammatik cinsin əsasən mövcud olmadığı iddia edilən türk dillərində məhz qrammatik cinsə dair üzə çıxan maraqlı nümunələr ilə təqdqiqatçıları təəccübləndirməkdədir. Həm dilçilər arasındakı fikir ayrılığı, həm də mövzu ilə bağlı aparılmış ən yeni araşdırmalar yeni faktların üzə çıxarılmasına səbəb olmaqdadır. Müasir dövrümüzdə türk dillərində qrammatik cins mövcud olmasa da, yuxarıda sadalanan nümunələr onun əvvəl mövcud olduğunu və müəyyən səbəblərə görə mövcudluğunu itirdiyini deməyə əsas verdiyindən, sözügedən səbəblərin araşdırılması zərurəti yaranır.

ƏDƏBİYYAT:

1. Теория и практика гендерных исследований в мировой науке: материалы II международной научно-практической конференции 5–6 мая 2011 года. – Пенза – Махачкала – Ереван: Научно-издательский центр «Социосфера», 2011. – 110 с. Суффиксы феминизазации в тюркских языках, Ф. Т. Мусаева, Институт языка и литературы имени Алишера Навои Академии Наук Узбекистана, г. Ташкент, Узбекистан, с 23-27
2. Doç. Dr. Caner Kerimoğlu, Gökçe Doğan, Türkçede cinsiyet görünümleri ve çağrışımsal zihniyet, TÜBAR-XXXVIII / 2015-Güz, s.143-178
3. Doğan, E. (2011). “Türkçede Cinsiyet Kategorisinin İzleri”. Uluslararası Sosyal Araştırmalar Dergisi, 4, 17, s. 89-98
4. Zeynel Ödemiş, Tuva türkçesi ve Türkiye türkçesinde isimlerde (adlarda) karşılaştırmalı gramatik cinsiyet kategorisine bir bakış, Turkish Studies International Periodical for the Languages, Literature and History of Turkish or Turkic Volume 12/5, p. 295-306

Ханларова Улькяр

СЛЕДЫ ГРАММАТИЧЕСКОГО РОДА В ТЮРКСКИХ ЯЗЫКАХ

Резюме

Несмотря на отсутствие грамматического рода в современных тюркских языках, некоторые языковеды настаивают на его присутствии в прошлом и в связи с этим приводят ряд примеров. Одни утверждают, что это образовалось фонетическим путём, а другие - с помощью грамматических суффиксов. В данной статье даны примеры суффиксов, образующих женский род и в заимствованных, и в архаических словах ряда тюркских языков и показано существование и употребление некоторых из них в современном языке в измененной форме. Утверждается, что родовые суффиксы, в основном,

встречаются в именах людей, словах, выражающих родственные связи и профессии, и это обосновывается примерами. А некоторые специалисты на основе того, что родовые суффиксы не выполняют свою функцию в современном языке, указывают на их ограниченное количество и однозначное применение в прошлом.

Ключевые слова: : грамматический род, суффиксы феминизации, грамматический род в заимствованных словах, грамматический род в именах людей (insan adlarında qrammatik cins).

Ulkar Khanlarova

MARKS OF THE GRAMMATICAL GENDER IN TURKIC LANGUAGES

Summary

Although grammatical gender does not currently exist in the Turkish languages, suggesting a great number of examples on the topic, some linguists claim that in the past, it was definitely observed in these languages. Some hold the opinion that it was caused by some phonological processes, while others believe it was realized with the help of grammatical suffixes. A range of the Turkic languages were analyzed in order to define the feminine suffixes which are particularly witnessed in borrowed and archaic words; furthermore, it is mentioned that whereas some of these suffixes have altered their initial structures, they continue to exist in the languages. Feminine suffixes are frequently observed in people's names, in the words denoting professions and relatives. However, taking into account the fact that grammatical gender has lost its significance in the modern languages, opponents claim that they played a major role in the old languages, yet suffixes were in small numbers and mostly had only one version.

Key words: grammatical gender, feminine suffixes, grammatical gender in borrowed words, grammatical gender in personal names.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Teyyub Quliyev

GÜNAY MƏHƏRRƏMOVA
Azərbaycan Dövlət Dəniz Akademiyası
"İngilis dili" kafedrası, baş müəllim
Zərifə Əliyeva 18.
gunaymageramova@com.ru

AZARBAYCAN DİLİNİN ÇOXDİLLİ TERMİNOLOJİ VƏ İZAHLI LÜĞƏTLƏRİNDƏ İNGİLİS DİLİ MƏNŞƏLİ SÖZLƏRİN İŞLƏNMƏ PRİNSİPLƏRİ

XÜLASƏ

Müasir dövrdə elə bir dil təsəvvür etmək mümkün deyildir ki, o başqa dillərlə qarışıqlı əlaqə və ünsiyyətdə olmasın. Dillərin qarşılıqlı münasibətində həmin dillərin bir- birinə söz alıb verməsi sözü özününkiləşdirilməsi və yaxud onu qəbul etməməsi və s. faktorlar meydana çıxır ki, bütün bunlar dilçi alimlərimizin daim nəzər-diqqətini cəlb etmiş və tədqiqatçılarımız bu sahədə geniş elmi işlər aparmışlar.

Məlumdur ki, müasir Azərbaycan ədəbi dilində şərq vaə qərb mənşəli bir çox alınma söz və terminlər işlənməkdədir və onların əhatə dairəsi daha da genişlənməkdədir. Azərbaycan dilində alınma sözlər haqqında çoxlu elmi əsərlər, məqalələr və dissertasiyalar meydana çıxsa da, mövcud prosesin anlaşılmasında müxtəlif baxışlar meydana çıxmışdır. Belə ki, başqa dillərə mənsub sözlərin alındığı dildə mənimsənilmə dərəcəsini ümumxalq xarakterinə malik olub-olmaması keyfiyyətini əsas meyar götürərək başqa dillərə məxsus sözləri «əcnəbi sözlər» adlandıraraq, onlarm 2 qrupa bölmək olar:

1. Azərbaycan dilinə daxil olmuş və ümumxalq xarakteri daşıyan müxtəlif sahələrə aid acnəbi sözlər:
2. Ümumxalq xarakteri daşımayan və istifadəsi üslubi maqsədilə bədii dildə istifadədə olan acnəbi sözlər:

Məlumdur ki, keçən əsrin axırlarına qədər dilimizdə şərq məişəli ərəb və fars dillərinə məxsus söz və terminlər hökmranlıq sürürdü. Lakin XX əsrin əvvəllərindan başlayaraq dilimizdə Qərbi Avropa dillərinə (latın, yunan, fransız, ingilis, alman, İtalyan, holland va s.) məxsus alınma sözlər daha üstünlük taşkil etmiş və bu proses zaman ötdükcə daha qabarıq şəkildə özünü göstərmişdir. Azərbaycan dilində Qərbi Avropa dillərinə məxsus sözlərdən ən çox işlənəni latın və yunan dilləridir. Sonrakı yerləri fransız və ingilis dillərinə məxsus sözlər tutur. Bu dilə məxsus sözlər xüsuslə də, son zamanlar, elm və texnikanın sürətlə inkişaf etməsi nəticəsində dilimizdə daha çox işlənməyə başlamış və öz fəaliyyət dairəsini daha da təkmilləşdirməkdədir. Qeyd etmək lazımdır ki, dilimizə keçən sözlərin əksəriyyəti rus dili vəsitəsilə daxil olmuş

və dilimizdə rus dilinin fonetik və qrammatik xüsusiyyətləri özünü qabarıq şakildə büruzə verir.

Acar sözlər: Çox dilli, lüğət, terminologiya, prinsiplər,İngilis dili.

Azərbaycan dilinin lüğət tarkibində rus dili vasitəsilə keçmiş sözlər dilimizin bütün sahələrində işlənir.

1. **Alınma sözlər və onların struktur - semantik xüsusiyyətləri.**

İçtimai hadisə olmaq etibarilə dil daim inkişaf edir və zənginləşir. Qrammatikadan fərqli olaraq lüğət tərkibi dəyişməyə daha çox meyllidir. Həm də hər bir canlı dilin leksikası kəmiyyətcə çox sürətlə artır, yeni anlayışlar, yeni məfhumlar, sözlər tələb edir, halbuki,köhnə sözlər isə bir qayda olaraq yeni sözlərlə birlikdə qalır, onların yalnız az bir hissasi dildə istifadədən çıxaraq arxaizmlərə çevrilirlər. Burada artma prosesi azalma prosesini əhəmiyyətli dərəcədə ötüb keçir, say daim artır. Məsələn, ingilis dilinə məxsus «dok»
sözü dilimizə təzəcə daxil olmuş,Azərbaycan izahlı lüğətində «gəminin temir olunduğu karxana» kimi verilmişdir. Bu alınma sözün altenativi olaraq dilimizde «gəmi tərsanesi» söz birləşməsi şəklində işlənmiş və bunların əsasında elə bir mənə fərqləri olmasa da, hər ikisi dilimizdə işlənməkdədir.

.L.Bloomfield, Langage.London " Dilin lüğət tarkibini zənginləşdirən vasitələrindən biri ingilis dilinə məxsus alınma sözlər təşkil edir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, ingilis dilinə məxsus söz və terminlər dilimizə zoraki yolla deyil, zərurət nəticəsində qəbul edilmişdir və dildə ana dili elementlari ilə ünsiyyətdə işlənmiş, onlarla qaynayıb qarışmış, dildə bir növ özünə vətəndaşlıq hüququ qazanmışdır**.(1.p.36)**

Həqiqətən də əksər hallarda, hamı tərəfindən qəbul edilmiş elmi - texniki terminlərdən ibarət olan zəruri əcnəbi sözlər tərcümə edilsəydi, onların işlətmək lazım gəlməzdi. Deməli bunların tərcüməsi yalnız mənasını təhrif edir, sözün düzgün başa düşülməsini dolaşdırır. Doğrudan da, yeni anlayışları ifada etmək üçün dilin öz daxili imkanları məhduddursa, zərurət nəticəsində söz alınması vacibdir. Təsadüfi deyil ki, müasir dövrdə beynəlxalq miqyaslı çox zəngin hesab olunan ingilis dilində kanar dil elementlari, alınmalar xüsusi lay taşkil edir va bu dilin tadqiqatçıları həmin cəhəti dili zənginləşdirən, əlvanlaşdıran, ünsiyyət üçün daha yararlı edən hal kimi qiymətləndirirlər. Bunun səbəblərindən biri və əsas alınma sözlərin daxil olduğu dilin fonetik - qrammatik qayda - qanunlarına uyğunlaşmasıdır. Ona görə də çox zaman alınma sözlərin alınma xarakteri zahirən bilinmir. N.M.Şanski alınma sözlərin bu xüsusiyyətindən bəhs edərək yazır ki, «...əcnəbi sözlərin çoxunun əcnəbi söz olduğu, kənardan gəlmə olduğu açıq-aşkar hiss edilir, lakin mənşə etibarilə ad sözlərin alınma olduğu heç də həmişə hiss edilmir. Bir çox yad sözlarin alınma olduğunu sübut etmək üçün xüsusi araşdırmalar lazım gəlir».

Alınma sözlərin mənimsənilməsində sözü alan dilin spesifikası nəzərə alınmazsa, bu dilin fonetik va qrammatik normaları gözlənilməzsə, hamin alınma öz dildə vatandaşlıq hüququ qazana bilməyəcək və gec-tez dildən çıxacaqdır. Bu özü də onu göstərir ki, başqa dildə sözlər mexaniki olaraq alınır. Digər tərəfdən isə əcnəbi dillərdən xüsusilə də ingilis dilindən sözlərin alınması prosesi iki tərəfli prosesdir. Bu ancaq bu dilin hazır elementlərinin sadəcə olaraq başqa bir dilin ixtiyarına verilməsi demək deyildir. Bu həm də həmin elementləri üzvi şəkildə alan dilin sistemi tərəfindən mənimsənilməsi deməkdir, yeni sistem şaraitinda forma va semantik baxımdan dəyişməsi deməkdir. «Əgər alınma prosesi qeyri-müəyyən əcnəbi sözlər yığımının başqa nitq stixiyasına mexaniki köçürülməsi deyilsə, onda bu proses haqqında demək olar ki, bu əsəsən, yaradıcı fəal iştirakin ən yüksək mərhələsidir».

2.Alınma sözlərin Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində rolu. Azərbaycan dili dünyanın ən qədim dillərindən olub, geniş və zəngin imkanlara malikdir. Buna baxmayaraq, bütün digər dillər kimi, Azərbaycan dili də, yad təsirlərdən kanarda qalmamış, dünyanın bir sıra yaxın və uzaq dilləri bilavasitə və yaxud dolayısı yolla bu və ya digər dərəcədə Azərbaycan dilinə öz təsirini göstərmişdir. Dünyanın başqa xalqları kimi, Azərbaycan xalqı da tarix boyu müxtəlif xalqlarla yaxın və uzaq bir şəkildə əlaqə və münasibətdə olduğundan həmin xalqların dillərindən Azərbaycan dilinə minlərlə söz keçmişdir. Bu proses dilin leksikasmı zənginləşdirən əsas amil olaraq indikinin özündə belə, fəal bir surətdə dəvam etməkdədir.

Azarbaycan dilində alınmalar mövzusu, xüsusilə də Qərbi Avropa dillərindən (ingilis, fransız, yunan va s.) keçən söz və terminlər dilçilərimizin xüsusi tədqiqat obyekti olub,

onun etrafında bir cox elmi əsərlər,məqalələr,dissertasiyalar yazmışdır.İngilis dili və digər Qərbi Avropa dillərindən alınma söz və terminlər hesabına Azərbaycan dilinin lüğət terkibi xeyli zənginləşmiş və bu proses 70 il sovet dövründə daha da intensiv şəkil almış və bütün bunları təbii ki, bir neçə dissertasiya ilə əhatə etmək olmaz.

Dilçilik əsərlərində dəfələrlə qeyd olunduğu kimi, əgər inqilabdan əvvəl dilimizin lüğət tərkibinə ərəb və fars dillərinin təsiri daha güçlü idisə, inqilabdan sonra ingilis, rus, fransız vs başqa Avropa dillərindən keçən sözlər daha qabarıq şəkildə özünü biruzə verdi. **3.MÜASİR İNGİLİS DƏBİ DİLİNİN LÜĞƏT TƏRKİBİNƏ ƏCNƏBİ SÖZLƏRİN DAXİL OLMA YOLLARI**

.“Sea” “İngilis dilinin lüğət tərkibinin zənginləşməsində, dilin daxili imkanlarından əlavə, başqa dillərdən alınma sözlər də əhəmiyyətli yer tutur. Alınma sözlə hər hansı bir dildə müxtəlif səbəbdən zərurət nəticəsində meydana çıxmışdır və onlar dilin lüğət tərkibində özünəməxsus yer tuturlar”**.(2.p.210**)

Bir dilə başqa dillərdən söz alınması dilçilikdə «alınmalar», «alınma sözlər» əcnəbi «terminlər» və s. kimi adlandınlmışdır. Alınma sözlər dilə iki yolla daxil ola bilər:

1) iki dilin bir-birinə birləşməsi nəticəsində;

2) qonşu xalqların bir-birilə mədəni-tarixi, iqtisadi-mədəni yaxmlığı nəticəsində.

Məsələn, ingilis dili öz tarixi inkişafı boyu başqa xalqlarla əlaqədə, ünsiyyətdə olmuş və istər-istəməz latın, yunan, İtalyan vs skandinaviya xalqlarınm dilindsn bir çox sözlsr msnimssmiş, onları öz fonetik və qrammatik qayda-qanunlanna uyğun olaraq işlətmişdir. İstər iki dilin tarixi zərurət nəticəsində bir-biri ilə qovuşması, istərsə də xalqlann mədəni-iqtisadi ünsiyyətdə olması, sözlərin alınması prosesində bir dilin o biri dilə təsiri nəticəsində meydana çıxır və həmin dilin sözləri istər-istəməz o biri dildə qəbul edilmssi ilə başa çatır. Alınma sözlərin miqdarı və xarakteri bir dilin başqa dilə təsiri prosesində konkret tarixi şəraitdən asılı olur. Məsələn, ingilis dilində skandinaviya dillərindən alınma sözlər dillərin bir-birilə qovuşması prosesi nəticəsində meydana çıxmışdır. Bu sözlərin miqdarı müəyyən içtimai, iqtisadi, mədəni əlaqəsi nəticəsində ingilis dilinə keçən fransız dili sözlərindən sayca azlıq tsşkil edir. İngilis dilinə keçən fransız dili mənşəli sözlər həcmcə və keyfiyyətcə başqa dillərdən keçən sözlərdən xeyli üstünlük təşkil edir və onların ana dili sözlərilə qovuşması da təbii xarakter almışdır.

İngilis dilinə keçən sözlərin əksəriyyəti cəmiyyətin inkişafı prosesində və həmçinin elm və texnikanın sürətlə irəli getməsi nəticəsində yaranan yeni məfhum və anlayışları ifadə etmək zərurətindən meydana çıxmış və həmçinin ingilis xalqının başqa qonşu xalqlarla daim ünsiyyətdə olması bu prosesi daha da sürətləndirmişdir.

Ancaq ingilis dilində elə alınma sözlərə də rast gəlmək olar ki, onlar həmin məfhum və anlayışları ifadə edən ana dili mənşəli sözlərlə sinonimlik edir və bir növ bunlar arasında dildə yaşamaq uğrunda mübarizə gedir və hansının - alınma sözünmü, yoxsa ana dili mənşəli sözün qalib çıxmasımn tarix özü göstərir və bu prosesdə heç vaxt zorakılıq, məcburiyyət və yaxud puristlik cəhdlər göstərmək doğru olmazdı. Qərbi Avropa dillərindən ingilis dilinə keçən bir çox sözlər dildə özünə möhkəm yer etmiş, bir növ özünə vətəndaşlıq hüququ qazanmış və dilin abu-havasına uyğunlaşmış, onun fonetik və qrammatik qanunlarına riayət etmiş və ingilis dilin daha da zənginləşməsinə və dolğunlaşmasına xidmət etmişdir.

Biz aşağıdakı ingilis dilində tam assimliyasiyaya uğramış əcnəbi sözləri özününküləşdirərək, onlara heç da alınma sözlər kimi baxılmaması və əksinə, bəzi yad elementlərin varvarizm nəticəsində dilə qəbul edilməsi məsələləri ətrafında söhbət edəcəyik.

İngilis dilində işlənən alınma sözlrin bir çoxu dildə assimilyasiyaya uğrayaraq öz əvvəlki manasını itirə bilər. Bu terminlər tabii ki, sırf ingilis dili mənşəli sözlərə qaynayıb qarışır, dilin təkmilləşməsində mühüm rol oynayır, dilin leksik və semantik qanunlarına uyğunlaşaraq əlavə məna çalarları yaratmaq imkanına malik olurlar. Bu tip alınmalar ingilis dilində sayca az olsalar da kifayət qədərdir.

İngilis dilində Qərbi Avropa dillərindən alınma sözlərin taleyi, onların ana dilində yeni söz yaradıcılığı qabiliyyətindən və həmçinin yeni məfhum və anlayış və yaxud heç olmazsa müəyyən çalarları əmələ gətirmə bacarığından asılıdır. İngilis

dilinə, əgər alınma söz çoxşaxəli, geniş anlayışlı şəkildə daxil olursa, o alınma söz hətta ana dili mənşəli sözü belə
dildən çıxarmaq imkanına malikdir və dildə öz törəmələrini əmələ gətirməklə dilin bütün fonetikasına, qrammatikasına assimilyasiya edilərək, dilin öz əvvəlki sözünü dildən çıxarır.

Məsələn, skandinaviya dillərinə mənsub ***«take»*** termini qədim ingilis dili mənşəli ***«nıman»*** terminini aradan çıxarmışdır.

.“Sea” E.O.Naida, Morphology.Hu Descriptive analysis of words ann arbor Həmçinin, fransız dili mənşəli ***«people»*** alınma sözü ingilis dilinə ***«folk»*** termini ilə məna baxımında müxtəliflik təşkil etmişdir. Başqa dillərdə olduğu kimi ingilis dilində də alınma sözlər də puristlər tərəfindən həmişə müqavimətə rast gəlmiş və təbii ki,öz ana dillərinin təmizliyi uğurunda çalışdıqlarını iddia etmişlər**. (3.p.81)**

Onlar hər bir alınma sözə yad element kimi baxmışlar və həmçinin onlarm dildə nə dərəcədə əhəmiyyətli olub- olmamalarına əhəmiyyət verməyərək həmin əcnəbi sözlərə «müharib» elan etmişlər və onları ana dili mənşəli sözlərlə əvəz etməyə çalışmışlar. Bu barədə V.Q.Belinskinin çox maraqlı fikirləri vardır. O, yazırdı ki, bir çoxlan dildə işlənən alınma sözləri məmuniyyətlə qəbul edir, bəzi dilçilər, ədəbiyyatşünaslar ilə əcnəbi terminlərə nöqteyi-nəzərdən yanaşır və onların dildə işlənməsinin tam əleyhinə olmuşlar. Məsələn, puristlər rus dilində işlənən «литература» sözünün tam əleyhinə olmuşlar, onu rus dilində artıq söz hesab etmişlər. Lakin onların bu mənasız cəhdləri heçə enmişdir. Tarix göstərmişdir ki, bu sözü başqa rus sözü ilə əvəz etmək mənasızdır və onu qondarma rus sözləri ilə eyni tutmaq dilə ağırlıq gətirir və dil beis eyniliyi qəbul etmir. Hamı «литературный журнал», «литературная газета» terminlərini işlədir.

Qeyd etmək lazımdır ki, ingilis dilinə məxsus söz və terminlər Azərbaycan dilinin istər elmi-texniki, istərsə də humanitar sahələrində işlənərkən onlarm mənimsənilməsi aşağıdaki kimi sistemləşdirilir:

1) Azərbaycan dilinin lüğətlərində işlənən ingilis dilinə məxsus sözlərin seçilməsi prinsipləri;
2) Lüğətlərdə əks olunan ingilis dili mənşəli alınma sözlərin quruluşu;
3) Lüğətlərdə əks olunan ingilis dilinə mənsub sözlərin mənaca xarakteristikasi;
4) İngilis dili mənşəli alınma sözlərin qrammatik xüsusiyyətləri;
5) Elmi-texniki və humanitar yönümlü lüğətlərdə əks olunan ingilis dili mənşəli alınmaların üslubi xarakteristikasi.

Hər hansı bir dilin lüğət tərkibinin zənginləşməsində alınma sözlərin əhəmiyyəti böyükdür, bu inkar edilməzdir. Lakin, onlar dilin zənginləşməsində bəzi dillərdə böyük rol oynamışlar.

.**B.JT. Крайчер: Англо-русский радиотехничечкий словара**. Belə ki, elə dilləri misal göstərmək olar ki, alınma sözlər onların lüğət tərkibinin zənginləşməsində o qədər də böyük fəaliyyəti olmamışdır. Lakin dünya dillərinin

əksəriyyətində başqa dillərdən alınma sözlər o dilin hayatında böyük rol oynamış, dilin lüğət tarkibinin zanginlaşməsində və təkmilləşməsində çoxşaxəli əhəmiyyətə malik olmuş və dilin hərtərəfli inkişafına təkan vermişdir**.(4.c.123)**

Ədəbiyyat:

1.L.Bloomfield, Langage.London.1935.p.36.
2.“Sea” page 210
3.“Sea” E.O.Naida, Morphology.Hu Descriptive analysis of words ann arbor p.81
4.B.JT. Крайчер: Англо-русский радиотехничечкий словара. M. 1960.c.123

Г.Магеррамова

ПРИНЦИПЫ УПОТРЕБЛЕНИЕ СЛОВ АНГЛИЙСКОГО ЯЗЫКА В МНОГОЯЗЫЧНЫХ ТЕРМИНОЛОГИЧЕСКИХ И ТОЛКОВЫХ СЛОВАРЯХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Резюме

В статье рассматриваются принципы составления многоязыковых терминологических словарей, о методах их использования о структуре терминов и некоторых особенностей их значений. Здесь также изложены мысли различных ученых. Отмечены различия между лингвистами французской и англ-осаксонской школ. В ней также отмечено, что Французская лингвис-тическая школа, которая занимается анализом дискурса, базирована на лингвистике, в то время как англо-саксонская школа базирована на антропологии..В статье исследуются факты параллелизмов между лексическими системами азербайджанского и английского языков. Автор исследует данную группу языковых явлений в свете проблемы дублетности и семантической корреляции. Автор на основе исследований приходит к тому выводу что, некоторых случях лексические параллели между азербайджанским и английским языками приводят к дублетности. Так как заимствующиеся интерлексемы в некоторых случаях проявляют полную семантическую адекватность к уже имеющимся в языке лексическим единицам.

.В статье названия растений анализируются в соответствии с лексическими ссмантическими особенностями. Лучший способ изучить язык - изучить его тсматические 1руппы. Названия растений являются активной частью языка. В аглийской лексике преобладают многоязычные слова, некоторые из которых являются названиями растении.

Ключевые слова: Многоязычный, словарь, терминология, принципы, англ. язык.

G.Magerramova

PRINCIPLES OF WORKING WORDS OF ENGLISH LANGUAGE OF ORIGIN IN THE MULTILINGUAL TERMINOLOGICAL AND EXPLANATORY DICTIONARIES OF THE AZERBAIJANI LANGUAGE

Summary

This article deals wilh the composition principles of multi languages terminological dictionaries, the using methads of multilanguages tenninological dictionnaries also the rules of terms styles and some mean specialities.

This article deals with the difficulties of scientific-technical translation and devolopement of technique. Problem arising during the translation and elimination methods of these matiers have been reflected in this article, too important terms of the translation are those that the text should be rich in content idea should be fully clear and locanic and should keep the norms of the literary scientific-technical literature in Azerbaijani an English has got some ways of training. The article gives the wall analise of their learing.

In this scientific article we have given the definition of phraseological units, enumerated their types, and paid much attention to the problems arising during their translation. We have singled out the following methods of translation phraseological units: equivalent, analogue, descriptive translation, antonymic translation, combined translation.

In the article the problem of discourse theory in French linguistics is analyzed. The article is of more theoretical importance. Here different ideas connected with discourse, which are divided into historical periods, have been studied. The thoughts of different scientists are highlighted in the article. Also, the differences between French school and English-saxon schools have been pointed out. It has been mentioned that the French linguistic school, which is engaged in the analysis of discourse is grouped intointentional, adequate and informative features.

Key words: Multilingual, dictionary, terminology, principles, English.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Natella Axundzadə tərəfindən çapa tövsiyə olunmuşdur

YEGANƏ QURBANOVA
ŞƏFİQƏ ƏLİYEVA
Azərbaycan Texniki Universiteti
"Xarici Dillər"kafedrasının baş müəllimləri
H.Cavid pr.25
shafigayegana@com.ru

MÜASİR İNGİLİS DİLİNDƏ SÖZÖNLÜ FRAZEOLOGIZMLƏRİN LEKSİK SEMANTİK XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ MÜQABİL EKVİVALENTLƏRİ

XÜLASƏ

Məlumdur ki, frazeologiyanın bir diçilik problemi kimi geniş şəkildə ilk dəfə tədqiq edən V.V.Vinoqradov olmuşdur. Dilçilik tarixində frazeologiyanın tam bir müstəqil problem kimi formalaşmasında V.V.Vinoqradovun xidmətləri böyükdür. O, rus dilinin dil material əsasında frazeologizmləri üç semantik qrupa bölmüşdür, bu da frazeologizmlərin ətraflı tədqiq olunmasına böyük təkan vermişdir. 1950-1960-cı illərdə frazeologiya sahəsində ciddi tədqiqatlar aparılmış və frazeologiya dilçiliyinin xüsusi şöbəsi kimi elmi aspektdə şərh edilmişdir.

Qeyd etmək lazımdır ki, son illərdə frazeologiyanın inkişafı tam yeni istiqamət almışdır, frazeologiya sahəsində böyük işlər görülmüşdür. Azərbaycan diçiliyində də bir sıra əsərlər yaranmış, frazeologiyanın xüsusi və ümumi məsələləri aydınlaşdırılmışdır.

Azərbaycan dilçiliyində ilk dəfə **B.Çobanzadə və F.Ağazadə «Türk, grameri» dərsliyində** «idiomatizm» terminini işlətmişdir. Hər bir dil mürəkkəb frazeoloji sistemə malikdir. Dildə frazeologizmdər tiplərə ayırmaq üçün əsas meyar həmin birləşmələrdəki sözlərin bir-birinə yanaşma və qovuşma dərəcəsidir. Frazeoloji vahidlərin komponentlərinin bir-birinə qovuşma dərəcəsi olduqca müxtəlifdir. S.Balli frazeoloji vahidlərin xarici cəhətinin xüsusiyyətindən bəhs edərək onları əlamətinə görə üç qrupa bölmüşdür:

1. onların tərkibindəki sözlər ayrı yazılır (break up);
2. bu birləşmələrin tərkibindəki sözlər sabit sırada olur və onların komponentləri arasında başqa söz daxil etmək qeyri-mümkündür (to break out, to break off etc.);
3. bu tip birləşmələrin heç birin başqa sözlə əvəz etmək olmur (to break through, to break down etc.**(1.s.32-34)**

Bu ifadələr müəyyən bir morfoloji vahid yaratdıqlarından bu birləşmələr frazeoloji birləşmələr hesab edilir. Məlumdur ki, fel+sözönü tipli frazeoloji

birləşmələr müasir ingilis dilində geniş yayılmış ifadələrdir, bu birləşmələrdə ciddi struktur modeli hökm sürür, birinci yerdə feil, ikinci yerdə sözönü.

Açar sözlər: İngilis dili,frazeologiya,semantika,struktura,sözönü.

N.Məmmədov, A.Axundov. «Dilçiliyə giriş» əsərində qeyd edirlər ki**,**feilin şəxsiz formasının feilin şəxsli forması ilə birləşib bir leksik vahid kimi işlənməsi frazeoloji birləşmələrə məxsus olan spesifik xüsusiyyət kimi xarakterizə edilir. Buradan belə aydın olur ki, sözlər sadəcə olaraq lüğət tərkibini təşkil edən vahid deyil, onlar lüğət tərkibində işlənərək özlərinə məxsus olan müəyyən qrammatik qanun daşıyıcısı və simvolu kimi çıxış edir. Məsələn, to break feili, feilin məlum və məchul növündə (breaks, is broken), feilin müxtəlif zaman formalarında (breaks, is breaking, has broken və s.), feilin şəxsli və şəxssiz formalarınd (She is breaking the cup, It is broken və s.). To break feili müxtəlif sözönləri ilə işlənərək dilin lüğət tərkibini zənginləşdirir və yeni semantik çalarlıqlar yaradır**. (2.s.166-168)**

Müasir ingilis dilində feil+sözönü tipli frazeoloji birləşmələr geniş yayılmışdır. Bu cür birləşmələrdə ciddi struktur, model hökm sürür, yəni birinci yerdə feil, ikinci yerdə isə sözönü dayanır. Məsələn:

To break up – 1. (insan haqqında) – zəifləmək;
2. (məktəb haqqında) – tətilə getmək;
3. (əlaqə haqqında) – əlaqəni kəsmək.
To break in – içəri soxulmaq;
Syn. To break into – içəri soxulmaq.
To break off – sözünü kəsmək, danışmamaq.
To break out – peyda olmaq, təzahür etmək.

To break+sözönü tərkibli birləşmələrin iki müxtəlif Oksford və Kolinz Koybiod lüğətlərindəki mənalarını nəzərdən keçirək.

1. to break down (Oksford)
1. to collapse (of health) – səhhəti zəifləmək;
2. (of Engine) – sınmaq;
3. (of a man mentally) – zəifləmək.

Koylinz Koybiod lüğətində
To break down
1. (of machine or vehicle) – sınmaq, işləməmək;
2. (of plan, system, discussion) – məğlubiyyətə uğramaq, baş tutmamaq;
3. (of a substance) – tərkibini formasını dəyişmək;
4. (of a person) – lazımsız yerə gülmək;
5. (of a door or barrur) – sındırmaq.

Bu misallardan göründüyü kimi, break down birləşməsi çoxmənalıdır. Araşdırma göstərmişdir ki, to break in, to break off, to break out, to break up birləşmələri də çoxmənalı birləşmələrdir.

To break+sözönü tərkibli birləşmələr arasında sinonim ifadələrin olması nitqi daha obrazlı ifadə etməyə imkan verir. Məsələn,

1. to break in – zorla içəri soxulmaq.

Syn. to break into

2. to break up

to break down – zəifləmək

3. to break away – əlaqəni kəsmək, tərgitmək

Syn. to break off – üz döndərmək

Gördüyümüz kimi, bu sinonim ifadələrin birinci elementi eyni feildir (to break), dəyişən isə ikinci elementdir, yəni sözönləridir. Deməli, to break+sözönlü birləşmələr arasında struktur sinonim cərgəsi yaradan ifadələr mövcuddur, bunlar da dilin lüğət tərkibində bir lay təşkil edirlər.

Bu birləşmələrdə sözönləri (in, into, up, down, away, off, with) fel tərəfindən icra edilən işi dəqiqləşdir ir və feillə cümlənin başqa üzvləri arasında əlaqəni aydınlaşdırır.

To break+sözönü tərkibli birləşmələr həm canlılara, həm də cansızlara aid edilə bilir.

Yalnız cansızlara aid olan birləşmələr:

1. to break away – to give up habits or helief thought – adət-ənənədən üz çevirmək, tərgitmək.

Can′t you break awpy from old habits?

Məgər köhnə adətlərdən əl çəkə bilmirsiniz?

2. to break in – binaya soxulmaq, ev oğurlamaq.

The house was brokenq in – Evə giriblər (oğurlayıblar).

3. to break off (conservation, engagement) – söhbəti yarımçıq kəsmək, nişanı qaytarmaq

Let′s break off and have some tea – Gəlin çay içmək üçnü fasilə edək və s.

Yalnız canlılara ail olan birləşmələr:

1. to break out – qəzəblənmək.

He broke out in a rage – O, qəzəbləndi.

2. to break in – zorla içəri soxulmaq.

Pleask don′t in on our conversation – Xahiş edirəm söhbətimizə qarışmayın.

3. to break up – tətilə getmək.

When do you break up for Christmas – Nə vaxt Milad bayramı tətilinə çıxırsınız?

В.Н.Жигадло и др. «Современный английский язык». Bu cümlələrdə to break+sözönü+sözönü tərkibli birləşmələr diqqəti cəlb edir, deməli, to break feili birləşmələr arasında iki müxtəlif sözönlərinin (to break away from, to break out in, to break in on və s.) işlənməsi ingilis dili üçün xarakterik xüsusiyyətdir. Araşdırmalar göstərir ki, to break feilindən sonra gələn ikinci sözönü, özündən sonra gələn cümlə üzvünə aiddir və bu iki müxtəlif sözönləri, (from+away), (in+on), (off+for), (up+for)

Belə söz əmələ gətirən sözlərin cüt sözlərin hər ikisinin alınması zamanı onların arasında derivasiya əlaqəsi digər dildə də qorunub saxlanılır. Məsələn, "glossa, haşiyə, kənarlarda qeydlər, sərhlər" – glossary "qlossari, lüğət", dynasty "sülalə" – dynastic "sülalə (sif.) və s. Bu və ya digər tip yanaşma ilə qarşılıqlı əlaqədə olan alınma sözlər qrup xarakterli və çox saylı olması nəticəsində, ingilis sadə və törəmə sözlər sisteminin artmasında rol oynayır. Xeyli sayda morfoloji üzv vahidləri əmələ gəlir ki, bunun kompleksliyi ingilis dilində danışanlar tərəfindən daha çox hiss olunur, bunun da nəticəsində yeni söz yaradıcı modellərin formalaşması baş verir. Beləliklə, İngilis dilinin təkcə morfem tərkibi deyil, həm də derivasiya imkanları genişlənir.

Alınma sözlərin keçdiyi dildə "taleyi" də maraqlıdır. Alınma sözlər çoxu daxil olduğu sistemin təsiri ilə mühüm fonetik, qramatik və hətta semantic dəyişiklərə uğrayaraq həmin sistemin fonetik, qramatik, semantic qanunlara uyğunlaşırlar.

Ginzburg R.S., Khidekel S.S., Knyazeva G.Y.A Course in Modern English lexicology "Assimilyasiya prosesi o dərəcədə dərin olur ki, həmin sözlərin xarici dil mənşəli olması ingilis dilində danışanlar tərəfindən hiss olunmur, yalnız etimoloji təhlil vasitəsilə müəyyən olunur. Bu, skandinaviya və latın dilindən erkən alınma sözlər üçün, xüsusilə, uyğundur, məsələn: get "almaq", skill "bacarıq", sky "səma", skirt "ətək", skin "dəri", they "onlar", street "küçə" və s. Tam assimilyasiya olunmuş və mənimsənilmiş alınma sözlərdən fərqli olaraq, qismən assimilyasiya olunmuş xarici dil vahidləri özlərinin fonetik (məs. (garage) chaise – longue chic), qramatik (məs. tək datum, nucleus, antenna – cəm datd, nuclei, antennae) və semantik (məs. taiga, tundraŞ rouble və s. rus dilindən alınma, ingilislər üçün başqa məna verən sözlər) xüsusiyyətlər kimi xarici mənşəli izlərini saxlayır. Bunların ingilis dilinin izahlı lüğətlərində adekvant təsvirini vermək üçün leksikoqraflar ensiklopedik məlumatdan chox istifadə edir, verilən obyekt və hadisənin yayılma yerləri, mövcud olduğu formalar, istifade etmə üsulları və s. barədə məlumat verirlər**".(2.p.156)**

Rayevskaya N.M. English Lexicology. Etimoloji nöqteyi-nəzərdən, leksikanin alınması xalqların iqtisadi, siyasi, elmi və mədəni əlaqələr zəminində yaxınlaşmasının nəticəsidir. Çox vaxt alınma sözlər dilə yeni əşyaların adlandırılması və əvvəllər məlum olmayan məfhumların ifadə edilməsi vasitəsi kimi gəlir. Alınma sözlər artıq məlum olan əşya və hadisələrin ikinci dəfə adlandırmaq üçün də istifadə

oluna bilər. Bu o zaman baş very ki, alınma söz predmentin hər hansı başqa xüsusiyyətini bildirmək üçün istifadə olunur , o, ümumi qəbul olunmuş beynəlxaıq termindir və ya (hərbiişğal zamanı) xarici sözlər dilə məcburi səkildə tətbiq olunur. Çoxmənalı sözlər adətən öz mənalarından birində götürülür və alınma zamanı sözün məna həcmi daralır.**(3.p.45-48)**

İngilis dilinin lüğət tərkibinin inkişafında latın dilindən alınma sözlər böyük rol oynayır və latın leksikasının daxil olması əsasən ingilis xalqının tarixində üç hadisə ilə əlaqədar olmuşdur: Roma hakimiyyəti (), İngiltərədə xristianlığın yayılma () və İntibah dövründə mədəniyyətin inkişafı Hələ german tayfaları, anqllar, sakslar və yutlar Britaniya adalarında məskunlaşmamişdan bu tayfalarla romalılar arasında dillərində də öz izlərini buraxan ticarət əlaqələri var idi. Latın dilindən birinci mərhələdə alınma sözıər roma və german tayfalarının mədəni-iqtisadi və hərbi münasibətlərinin xarakterini əks etdirir. Yeni sözlər adətən bu mərhələdə Roma xalqının daha yüksək mədəniyyətə qoşulması ilə əlaqədar əmələ gələn yeni məfhumları ifadə edir. Bu alınma sözlərə bunlar aiddir: (lat.portus), cycene kitvhen (lat. Coquina), piper pepper (lat. Piper) və s.

Bu sözlərin anql-sakslar tərəfindən Britaniya adalarına köçməmişdən öncə qəbul edilməsi ehtimalı müqayisəli tarixi təhlilin göstəricilərinə əsaslanır. Müxtəlif german dilləri və dialektlərinin leksik tərkibini müqayisə edərkən, müqayisəli – tarixi dilçilik bu dillərdə çoxlu latın mənşəli sözlərin ümumiliyini müəyyən etmişlər. Təbii ki, bu sözlərin anql-sakslar tərəfindən gətirildiyi də zənn olunmuşdu. Bu sözlərin çoxunun anql-saksların adalarda üzləşdiyi keltlərin dilində də mövcud olması, abidələrin yoxluğu üzündən, bu sözlərin qədim ingilis dilinə bilavasitə latın dilindən keçdiyi və ya artiq Britaniya ərazisində kelt dilindən alındığını dəqiq təyin etmək olmur.

Ворно Е.Ф. Лексикология английского языка. «Latın dilindən alınma sözlərin əsas hissəsi 597-ci ildə xristianlığın yayılması ilə əlaqədar olmuşdur. Bu sölərin əksəriyyəti kilsə-dini məfhumları ifadə edir. Xristianlığın gəlişi ilə mədəniyyətin ümumi yüksəlişi dildə də müvafiq şəkildə formalaşmalı olan yeni məfhumların yranmasına səbəb olmuşdur. Mədəniyyət və məişət sferasında latın dilindən yeni sözlər dacil olmuşdur. Qədim ingilis dilinə daxil olan, müasir ingilis dilində də qorunub saxlanmış latın sözlərindən nümunələr göstərək:

1)Ev əşyaları, alətlər: ancor (anchor) lar.ancora; box (box) lat.buxus; cealc (chalk) lat.calcem; paper (paper) lat.paryrus; pyle (pillow) lat. pulvinus; post (post) lat. postis; purs (purse) lat.bursa; sicol (sikel) lat.secula.

2) Geyim əşyaları: cappe (cap) lat.cappa; socc (sock) lat.secula.

3)Çəki və uzunluq vahidləri: circul (circle) Latınca circulus sözündən, pund (pound) Latınca pondo sözündən, ynce (inch) Latınca incia sözündən.

4) Heyvan, quş və balıq adları: assa (ass) Latınca asinus sözündən, camel (camel) Latınca camelus sözündən, turtle (turtle) Latınca turtur sözündən, truht (trout) Latınca tructa sözündən.

5) Birki adları: palm (palm) Latınca palma sözündən, pere (pear) Latınca pirum sözündən, rose (rose) Latınca rosa səzündən, lilie (lily) Latınca lilium sözündən, palnte (plant) Lantınca planta sözündən.

6) Dini anlayışlarla əlaqəli sözlər: engel (angel) Latınca angelus sözündən, biscop (bishop) Latınca episcopus sözündən, cyrice (church) Latınca cyriaca sözündən, munuk (monk) Latınca monachus sözündən, nunne (nun) Latınca nonna sözündən, papa (pope) Latınca papa sözündən.**(4.c.72-78)**

İngilis dilşünası Bonun gəldiyi nəticəyə görə, qədim ingilis dili mərhələsinin sonlarında törəmə sözlər və xüsusi isimləri nəzərə almasaq, təxminən 450 latın dilindən alınma söz olduğu müəyyən olunmuşdur. 11-ci_13-cü əsrlərdə, normanların dövründə ingilis dilində xeyli sayda latın sözləri var idi. Belə ki, latın dilindən alınan bu sözlərin əksəriyyəti atıq fransız dilinin normand dialektində az-çox fonetik, qramatik, semantik dəyişiklərə məruz qalmışdı.

İngilis dilində latın dilindən alınma sözlərin əksəriyyəti "kitab" sözləri təşkil edir. B sözlər dilə xalqlar arasında bilavasitə canlı ünsiyyət nəticəsində deyil, yazılı sənədlər, kitablar və s. Vasitəsilə keçmişdir. Kitab alınma sözləri keyfiyyətcə digər alınma sözlərdən fərqlənir. Hər şeydən öncə, bu sözlər dəyişiklərə, xüsusilə də semantik dəyişiklərə az məruz qalmışlar. Bunun məntiqi izahı ondan ibarərdir ki, kitab alınma sözləri uzun illər boyunca məhdud sferada- bu dilin ədəbi formasında istifadə olunmuşdur. Daha sonra bu alınma sözlər əsasən mücərrəd, abstrakt və ya terminoloji xarakter daşıyır.

İngilis dilində latın alınma kitab sözləri 16-cı əsr, həmçinin 15-16-cı əsrlərə, yəni İngiltərədə İntibah dövrünə təsadüf edir. Uiklif, Lenqland və Çoserin əsərlərində mindən artıq əvvəlcə ingilis dilində rast gəlinməyən latın dilindən alınma sözlər işlənmişdir. İntibah dövründə tibb, ədəbiyyat, ilahiyyat sahələrində sözlər, texniki terminlər və s. Yaranır. Bu sözlərin sıyahısını qısa fəsil çərçivəsində vermeək mümkün deyil. Bunun üçün xüsusi lüğət tərtib etmək lazımdır.

Nəhayət, müasir ingilis dilində elə alınma sözlər də vardır ki, onlar bütünlükdə öz latın "simasını" saxlamışdır, yəni, hech bir assimilyasiyaya uğramamış və hal-hazırda da uğramır. Bu söz və ifadələr dildə latın dilindən sitat kimi işlənir. Onların istifadə olunma sferası məhduddur: onlar adətən elmi nəsr üslubunda, işgüzar sənədlərdə, yüksək natiqlik üslubunda işlənir. Belə alınma sözlərə aiddir: alma mater, bina fide, ex officio, condito, sine qua non və s.

Alınma sözlərin daxil edilməsinin nəticələrindən biri də etimoloji dubletlərin yaranmasıdır. Etimoloji dubletlər – etimoloji cəhətdən eyni kökə aid olan, lakin dildə müxtəlif məna, tələffüz və yazılışa malik sözlərdir. Məsələn: channel və canal.

Etimoloji dubletlərin yaranması müxtəlif konkret səbəblərlə izah olunur. Eyni söz müxtəlif zamanlarda, müxtəlif mənbələrdən alına bilər.

Məsələn: latınca canalis “kanal” ingilis dilində mərkəzi Fransa dialekti vasitəsilə “channel” formasında və şimali Fransa dialekti vasitəsilə “canal” formasında gəlib və bu formalar mənasına görə ayrılır.

Latınca quies, quietus “sakitlik, istirahət” bilavasitə ingilis dilinə daxil olmuş, quiet formasına malikdir, fransız dilindən keçən həmin söz dildə quite kimi möcuddur.

Beləliklə, latın dili ingilis dilinin yeni sözlərlə zənginləşməsinə böyük təsir göstərmişdir. Bu onunla izah olunur ki, İngiltərənin normand işğalı ilə dilə çoxlu fransız sözləri gəlmiş, bu da etimoloji cəhətdən yaxın olan latın sözlərinin nisbətən sərbəst axını üçün zəmin hazırlamışdır. Tarixi leksikologiyada bəzən bu və ya digər sözün ingilis dilinə fransız və ya latın dilindən keçdiyini teyin etmək çətinlik törədir.

Latın dilindən alınma sözlər arasında bir qrup sözlər vardır ki, onlara səs formasına, qramatik şəklinə, məna mahiyyətinə görə beynəlxalq sözlər sırasında rast gəlinir. Məhz latın dili xeyli miqdarda belə sözlər bəxş edib. Bu, onunla izah olunur ki, feodalizm dövründə latın dili Qərbi Avropanın bir çox ölkələri üçün beynəlxalq elmi dil, bəzi ölkələrdə isə ümumiyyətlə, ədəbi dil hesab olunurdu. Latın dilinin elmi dil olması 17-ci 18-ci əsrlərə kimi davam etmişdir. Müasirtəbabət, kimya, botanika, zoologiya, fəlsəfə, siyasət elmlərində indiyə kimi latın sözlərindən istifadə olunur.

Latın dilindən ingilis dilinə keçən beynəlxalq sözlərdən aşağıdakıları qeyd etmək olar: obligation, constitution, alibi, agriculture, microscope, modern, laboatory, program, system, socialism, communism, capitalism, climate, radius, tardition və s.

İngilis dilinin müasir lüğəti dəyişir və uzun əsrlər boyu təkmilləsdirilərək, indi də ehtiyatda çox sayda sözləri var ki, onun vokabulasının formalaşmasına öz çoxmənalı təsirini göstərir. Bütün bunlara baxmayaraq, ingilis dili öz orijinalığını itirib “hibrid” dilinə çevrilməmişdir. Əksinə, öz tarixi boyu, o özünü ən gözəl dil elementləri ilə zənginləşdirib.

İngilis dili heç bir məhdudiyyət çərcivəsində olmadığına baxmayaraq öz “simasını” itirməmişdir: o alman dili qrupunda, inkişafın bütün dövrlərində, öz səciyyəvi xüsusiyyəti ilə qalır və alınma sözlər onun söz tərkibinin daha da zəngin olmasına xidmət edirlər1.Arnold I.V. The English Word Moscow, 1973.p.123.

ƏDƏBİYYAT:

1.Arnold I.V. The English Word Moscow, 1973.p.123.

2.Ginzburg R.S., Khidekel S.S., Knyazeva G.Y.A Course in Modern English lexicology. M, 1966.p.156

3.Rayevskaya N.M. English Lexicology. Kiev, 1961.p.45-48

4.Ворно Е.Ф. Лексикология английского языка. Ленинград, 1955.стр:72-78.

Ш .Гейдарова
,Г.Севиндж

РОЛЬ ЛАТИНСКИХ СЛОВ И ТЕРМИНОВ В ОБОГАЩЕНИИ АНГЛИЙСКОГО СЛОВАРЯ

Резюме

Данная статья посвящена исследованию путей причин внедрения заимствованных слов латинского языка в английский язык.

Латинский язык — язык Древнего Рима, государства, занимавшего огромную территорию. Славу Рима составили политические деятели и ораторы (Цезарь, Цицерон), поэты (Вергилий, Гораций, Овидий), историки (Ливий, Тацит), юристы (Гай, Павел, Ульпиан, Папиниан, Модестин).

Латинский язык получил своё название от племени латинов, которые жили в Италии, в местности Latium Лаций, где в 753 году до н.э. был основан город Roma Рим. Латинский язык стал языком Рима, а потом и огромнейшей Римской империи, простиравшейся от Британии до Африки, от Пиренейского полуострова до Азии. Это пространство объединялось не только силой римского оружия, но и силой римского права и латинского языка. Латинский язык распространился по всей Империи, особенно на землях Западной Европы.После гибели Римской империи в 476 г н.э. латинский язык не прекратил своего— у них общий язык-предоксуществования, он оставался в Европе в Средние века и эпоху Возрождения основным письменным литературным языком, постепенно уступая функции разговорного языка новым языкам. Самыми близкими к латинскому языку являются возникшие на его основе итальянский, испанский, португальский, каталанский, французский, румынский, ретороманский. Эти языки называются романскими языками. Романские языки наряду с латинским в свою очередь входят в После гибели Римской империи в 476 г н.э. латинский язык не прекратил своего— у них общий язык-предок.Часто латинский называют «мёртвым» языком«. Это выражение не совсем верно. Латинский язык «мёртвый» лишь в том отношении, что уже давно нет его «носителей», то есть тех, для кого он был бы родным языком.Почему латинский язык нельзя назвать «мёртвым»? индоевропейскую семью языков вместе со славянскими, германскими, балтийскими и другими. Таким образом, латинский родственен и русскому, немецкому, английскому, греческому языкам многих стран мира, ей следует изложение материала в большинстве современных учебников гражданского и римского права.

Ключевые слова: латынь, производные слова, словарный запас, развитие, английский язык.

SH.Geydarova,S.Gadjieva

THE ROLE OF LATIN WORDS AND TERMS IN THE ENRICHMENT OF ENGLISH DICTIONARY

Summary

Ways and reasons penetration of loan words into the English language.

This article investigates the reasons and ways of entrance of borrowings into the English language.

Latin (*latīnum*, [laˈt̪iːnõ] or *lingua latīna*, [ˈlɪŋgʷa laˈt̪iːna]) is a classical language belonging to the Italic branch of the Indo-European languages. Latin was originally spoken in the area around Rome, known as Latium.[2] Through the power of the Roman Republic, it became the dominant language in Italy, and subsequently throughout the western Roman Empire, before eventually becoming a dead language in the modern linguistic definition. Latin has contributed many words to the English language. In particular, Latin (and Ancient Greek) roots are used in English descriptions of theology, the sciences, medicine, and law.

suchas: Italian, Sardinian, Venetian, Neapolitan, Sicilian, Piedmontese, Lombard, French, FrancoProvençal, Occitan, Corsican, Ladin, Friulan, Romansh, Catalan/Valencian, Aragonese, Spanish, Asturian, Galician, Portuguese and Romanian. Medieval Latin was used as a literary language from the 9th century to the Renaissance which used Renaissance Latin. Later, Early Modern Latin and New Latin evolved. Latin was the language of international communication, scholarship and science until well into the 18th century, when vernaculars (including the Romancelanguages) supplanted it. Ecclesiastical Latin remains the official language of the Holy See and the Roman Rite of the Catholic Church.

Keywords: Latin, derived words, vocabulary, development, English

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru,dosent Nuriyyə Rzayeva tərəfindən çapa tövsiyə olunmuşdur

SƏİDƏ QURBANOVA
ADU
Rəşid Behbudov 134

Elmveinnovasiya@yandex.com

SOSİAL ŞƏBƏKƏLƏRDƏ İNGİLİSDİLLİ YAZIŞMALARDA COVİD-19 MÖVZUSUNDA YARANAN YENİ LEKSİK VAHİDLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Bu gün ölkəmizdə ingilis dilini xüsusi məqsədlərlə öyrənənlərin sayı gündən-günə artmaqdadır. Bu da dünyada və ölkə daxilində baş verən dəyişikliklərlə bilavasitə bağlıdır. Belə ki, davam edən proseslər bir çox biznes və sənaye müəssisələrinin, eləcə də işgüzar yazışmaların beynəlmiləlləşməsi ilə müşayiət edilir. Bu da öz növbəsində çalışan insanların xarici dillərə, ilk növbədə qloballaşan dünyada dominant rol oynayan ingilis dilinə yiyələnmək zərurətini gündəlikdə olan ən vacib məsələlərdən birinə çevirmişdir.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ölkəmizin beynəlxalq əlaqələri gündən-günə artır. Əvvəllər müxtəlif sahələrdə çalışan, peşələrinə yüksək səviyyədə yiyələnmiş, lakin ingilis dilinə xüsusi ehtiyacı olmayan mütəxəssislərin böyük əksəriyyəti bu gün ingilis dilinə yiyələnmədən xarici ölkələrdə yaşayan həmkarları ilə əlaqələrin qurulmasının mümkün olmadığını başa düşür, ingilis dilinə yüksək səviyyədə yiyələnməyi qarşılarına bir məqsəd kimi qoyurlar.

Onu da qeyd etmək lazımdır ki, müəssisə rəhbərləri, müəssisə başçıları rəhbərlik etdikləri qurumlarda çalışan mütəxəssislərin ingilis dilinə mükəmməl şəkildə yiyələnməyin vacibliyini dərk edərək, bu istiqamətdə də ciddi tədbirlər görürlər.

İlk növbədə, mütəxəssislərə ingiliscə sənədləşmə prosesinə uyğun dilində ünsiyyət qurmaq bacarığı aşılanmalıdır.

Növbəti pillədə müxtəlif peşə sahiblərinə çalışdıqları sahələrdə mövcud olan tələbləri ödəyə bilən xüsusi dil bilikləri aşılanmalıdır. Belə ki, ingilis dilində keçiriləcək diskussiyalarda iştirakçı qismində çıxış etmək üçün müvafiq sahədə çalışan mütəxəssis xüsusi bilik və bacarıqlara yiyələnməlidir.

Müəssisə və təşkilatlara başçılıq edən şəxslər və aparıcı mütəxəssislər dünyanın müxtəlif ölkələrindən olan tərəfdaşları ilə bərabər müxtəlif xarakterli müzakirələrdə fəal iştirak etməli, professional maraqları ilə əlaqədar ünsiyyət qurmalıdır.

Bu gün dünyada mövcud olan tendensiyalara uyğun olaraq, müxtəlif sahələrdə fəaliyyət göstərən mütəxəssislər və müəssisə başçıları partnyor və həmkarları ilə işgüzar əlaqələri vasitəçilərdən istifadə etmədən, bilavasitə ünsiyyət qurmağı üstün tuturlar. Bu da onlarda ingilis dilində ünsiyyət vərdişlərinin kifayət qədər yüksək səviyyədə inkişaf etdirilməsini nəzərdə tutur.

Beləliklə, ingilis dilində yazının inkişaf etdirilməsinə nail olurlar. Həmçinin, informasiya-kommunikasiya texnologiyalarından geniş şəkildə istifadə edilən dövrdə, müxtəlif sahələrdə çalışan mütəxəssislərin elektron vasitələrdən günün tələblərinə uyğun şəkildə istifadə etməklə məqsədlərinə nail olmaq qabiliyyətinin inkişaf etdirilməsi vacib məsələlərdən biridir.

Digər məsələ isə onların verbal və qeyri-verbal davranışları ilə bağlıdır. Bu gün qloballaşan dünya iştirakçılar arasında işgüzar münasibətlərin hörmət, qarşılıqlı anlaşma, nəzakət prinsipləri əsasında həyata keçirilməsini arzulayır.

Bu mənada "Conjoint Co-Constituting Model of Communication" nəzakət tədqiqatları üçün məhsuldar freymlər təklif edir. Bu bilavasitə iştirakçıların hiss və anlamlarına fokuslanır[1,119].

Buradan aydın olur ki, yazı texnikasına yaxşı bələd olmaq üçün dilin leksik fonduna daxil olan söz və ifadələrdən xəbərdar olmaq vacib sayılır.

Açar sözlər: strategiya, şifahi nitq, dil, kontekst, yazı

Yuxarıda qeyd etdiyimiz kimi, dilin leksik fondu zamanın tələbinə uyğun olaraq dəyişikliklərlə səciyyələnir. Belə ki, zamanın diktə etdiyi vəziyyətdən asılı olaraq, dilə yeni söz və ifadələr daxil olur [3,45].

İngilis dilin lüğət fonduna pandemiya da xeyli söz və ifadələr daxil etməsi ilə şərtləndi. "Oxford English Dictionary" (OED) siyahısında 2019-cu il dekabr ayında koronavirusla bağlı 0.03 milyon token daxil olduğu halda, rəsmi şəkildə pandemiya elan edilməsindən sonra sosial şəbəkələrdə 1.750 milyon token yarandı.

Onlardan ən aktual olanı *Covid-19* sözüdür. Dünya Səhiyyə Təşkilatı virus haqqında geniş məlumatlar verməyə başladı və pandemiya elan etdi.

Bundan əlavə, Covid-19 mövzusunda "coronacoinages" yaranmağa başladı. Məsələn, alman dilində *coronaspeck* Covid-19 mövzusunda işlədilir, "evdə qalmaq" mənasında işlədilir. İspan dilində *covidiota və coronaburro* sözləri meydana gəldi. Burada *burro* meymunlarla bağlı əyləncəli oyun növüdür. *Doomscrolling* sözü isə internetdə müntəzəm olaraq yenilikləri izləyənləri nəzərdə tutur. Onlar tematik cəhətdən qruplaşdırılarkən hiss-həyəcan, qorxu və s. kimi təsnifatla qarşılaşırıq. Məsələn, *fobia* sözü hiss və həyəcan ifadə edərək, məcazi mənada işlədilir. *Panic attack* söz birləşməsi də eyni tematik qrupa aid edilir.

Təhlükə bildirən söz və ifadələrdən bəhs edərkən aşağıdakıları nəzərdən keçirmək olar:

1.*Two real financial dangers that the pandemic has flamed;*
2. *Time of peril;*
3. *Virus hysteria;*
4. *The virus scare of 2020 does create financial risks;*
5. *The second is an economic down turn.*

Qeyd edək ki, bu ifadələr qorxu, təhlükə bildirərək, neqativ konnotasiya nümayiş etdirirlər.

Bundan əlavə, *social distance (sosial məsafə)* söz birləşməsi də dilin lüğət fonduna daxil olaraq, işlək sözlər sırasında yer almaqdadır.

Digər leksik vahidlərə nəzər salaq:

1.Covidiot (someone ignoring public health advice);
2. Covidio party (someones online parties via on ZOOM or Skype);
3. Covexit (the strategy for exiting lock down);
4. Pandemic;
5. Lockdown,
6. Key Workers;
7. WFH (working from home),
8. ZOOMbombing (hijacking a ZOOM video call),
9. Quaranteams (online teams created during lockdown).

Bəzi dilçilərə görə, *Zoombombing* ifadəsi ehtimallara əsasən, gələcəkdə çox işlək olan ümumi terminə çevrilə bilər. Bu *hoovering up a mess* ifadəsinin alternativi olaraq da işlənə bilər. ZOOM şirkəti dominanatlığını itirsə belə bu ifadənin hələ uzun illər fəal olacağı haqqında dilçilkdə proqnoz verən tədqiqatçılar az deyildir.

Pandemiya dövründə metaforalar da yaranmağa başladı. Məsələn, brifinqdə belə bir fikir söylənilmişdir: "*This enemy can be deadly, but also beatable"- to sports, storms, monsters, natural disasters, and more.*

Yeri gəlmişkən qeyd edək ki, *briefing* sözü də məkan bildirən leksik vahid olaraq səciyyələnir. Eyni zamanda pandemiya dövrünün ən işlək, hiss və həyəcan motivini özündə ehtiva edən anlayışı kimi səciyyələnir.

Covid-19 çox qısa vaxtda həyatımızda bədbinlik yaradan dəyişikliklərlə səciyyələndi. Çoxlu iş yerləri bağlanaraq, iqtisadiyyatın zəifləməsinə şərait yaratdı. Ölkələr arasında səfərlər ləğv olundu. Bütün bunlar dilin lüğət fonduna təsirsiz ötüşmədi. Bu vəziyyət, eyni zamanda, dillərin lüğət fondunda zənginləşməyə səbəb oldu.

Beləliklə, yeni leksik vahidlər dildə yaranmağa başladı ki, bunlar həm tibb, həm də digər sahələrdə işlək hala çevrildilər. Bəzi leksik vahidlər arasında yiyəlik halda işlədilənlər də vardır. Belə ki, *Covid-19's obliteration of demand, Covid-19's spread* kimi ifadələr sosial şəbəkələrdə yer aldı.

Bundan əlavə, nominativ səciyyə daşıyan leksik vahidlər yaranmağa başladı.

Bunlar aşağıdakılardır:

1.*The coronavirus situation;*
2. Virus factories;
3. A Covid -19 hospital;
4. Covid-19 words;
5. Covid-19 Data;
6. Covid -19 news;
7. Covid-19 committee;

8. A virus outlier ;
9. Covid-19 patients;
10. Covid-19 hotspot;
11. Corona law[4,11].

Aşağıdakı cümləyə nəzər salaq:

But the government is confident enough to have closed its last Covid-19 hospital and to promote flying (the Economist, World News Politics, Economist Business and Finance 2020).

Bunlardan əlavə, yeni rezonans yaradan söz və ifadələr də az olmadı. Onlardan "*Stay at home order (evdə qal)* (Malaziya) *və ya "enhanced community quarantin*e (Filippin) variantları yarandı.

Beləliklə, sadaladığımız bu ifadələr sosial şəbəkələrdə geniş şəkildə istifadə edilərək, reallığı əks etdirir.

Buradan aydın olur ki, leksik vahidlər hər bir dildə yeniliyə söykənir. Hər gün yeni söz yaranır[2,45]. İngilis dilində isə yeni sözlər sürətlə çoxalır. Buna görə də dildə yeni yaranan leksik vahidlərin səbəblərinin təhlili vacib sayılır. Sosial şəbəkələrin yeni leksik vahidlərin yaranmasında və yayılmasındakı rolu danılmazdır. Belə sözlərin necə yaranmasını öyrənmək vacibdir. Çünki yeni yaranan leksik vahidlər müəyyən linqvistik proseslərin təsirinə məruz qalır. Onların hansı struktur- semantik növlərə aid olması, həyatın hansı sahəsində daha cox istifadə edilməsi müəyyənləşməlidir. Pandemiya ilə əlaqədar cəmiyyətdə terminlərlə bağlı ehtiyac var idi və sözügedən sözlər, ifadələr yarandı. Bu bir daha sübut edir ki, ingilis dilində leksik vahidlər hər il artır. Pandemiya dövründə də dildə yeni yaranan sözlərlə qarşılaşmalı olduq.

Covid-19 mövzusunda yeni yaranan leksik vahidlərin praqmatik məzmunu onun istifadə olunduğu şəraitin xüsusiyyətlərini özündə əks etdirir.

Bundan başqa, prefiks və suffikslər də bu leksik vahidlərin yaranmasında məhsuldarlıq nümayiş etdirdilər. Belə ki, Covid-19 mövzusunda tematik qrupda sözü gedən prefiks və suffikslər konnotativ məna çalarları yaradırlar.

Bir neçə prefiksi buna misal göstərmək olar. *-Un-, dis-, in-* prefiksləri neqativ, əks mənalarında işlədilirlər. Məsələn, *unmitigated calamity, unexciting, unhappy, disagree, dislike, inarticulate, inactive, undo, unblock* və s.

Prefikslərə və suffikslərə aid bu nümunələr yeni sözlərin yaradılmasında istifadə olunan ən məhsuldar formalardır. Sözlərlə birlikdə onların mənasını asanlıqla başa düşmək olur. Bunlardan bəziləri pandemiya dövründə fəal və məhsuldarlıqları ilə seçildilər. Misal olaraq, pandemiya dövründə *corona* sözü prefiks kimi işlənməyə başladı. Məsələn, *coronababies (Pandemya dövründə doğulan körpələr).*

Lakin Covid -19 mövzusunda bəzi söz və ifadələrin yaranmasında fəal iştirak edən prefikslər vardır ki, *-pre, -post, after* söz önünü misal göstərmək olar.

Onlardan aşağıdakıları nümunə kimi təqdim etmək olar:

1. *Pre-coronavirus,*

2. *Post-coronavirus,*
3. *Pre-virus,*
4. *Pre-covid,*
5. *Post- covid.*

Yeni sözə verilən mənanı tapmaq üçün onun etimologiyasını, sözün hansı sosial və mədəni muhitlə bağlı olduğunu araşdırmaq lazımdır. Məsələn, Covid-19 mövzusunda yaranan yeni leksik vahidlər də bu qəbildəndir.

Beləliklə, dildə çoxlu Covid-19 mövzusunda sözlər yaranmışdır. Onlardan bəziləri obrazlılığı, az obrazlılığı və ya ifadəliliyinin olmaması ilə şərtlənir.

Onlardan bəzilərini təqdim edirik:

2. *Vaccine ,*
3. *Pandemy ,*
4. *İnjection etc.*

Qeyd edək ki, mənfi çalara malik, neqativ konnotasiya yükünü özündə daşıyan leksik vahid və ya ifadələrin işlədilməsi pandemiya dövrü üçün xarakterik haldır. Covid-19 sözü özü-özlüyündə neqativ konnotasiyaya malikdir.

Bununla bağlı yaranan aşağıdakı ifadələr buna misal ola bilər:

1. *Killer or threat;*
2. *A nasty blast;*
3. *A natural disaster;*
4. *A major threat;*
5. *Punishment;*
6. *An anmitigated calamity;*
7. *A health emergency;*
8. *Known enemy;*
9. *Quarantine and chill;*
10. *Virtual happy hour etc.*

Bu mövzuda “collocations” da geniş istifadə olunmağa başladı.

Məsələn:

1. *Letting the virus out of the bag;*
2. *Covid dries up a cash now;*
3. *The ill wind of Covid-19;*
4. *The sting of Covid-19.*

Bundan əlavə, Covid-19 mövzusunda xeyli söz birləşmələri meydana gəldi.

Onlardan bəzilərini aşağıda təqdim edirik:

1. *Covid-19 deaths;*
2. *Virus-related;*
3. *Covid strikes (firms);*
4. *Virus control;*
5. *Virus-induced.*

Qısaltmaların yaranması da pandemiyada fəal oldu. Məsələn, *PPE* qısaltması *həyatqurtaran* mənasında işlək oldu. *Quaz quarantine, sanny sanister* sözlərinin qısaltması kimi nəzərə çarpdı.

Onu da qeyd edək ki, elə söz birləşmələri vardır ki, isim-isim(noun-noun type) birləşməsindən əmələ gəlir və nominativ səciyyə daşıyır.

Məsələn:

1. *Outbreak;*
2. *Shock;*
3. *Crisis;*
4. *Pandemic;*
5. *Cases;*
6. *Hit* kimi sözləri göstərə bilərik.

Qeyd edək ki, bəzi söz və ifadələr səbəb əlaqəsi ilə bağlanır.

1. *The coronavirus recession;*
2. *The Covid-19 catastrophe;*
3. *The Covid-19 shutdown;*
4. *The Covid-19 lockdown;*
5. *The Covid-19 calamity;*
6. *The Covid-19 deaths;*
7. *The Covid-19 restrictions;*
8. *Corona holiday*[4,2].

Yuxarıda verilmiş *coronavirus shutdown* birləşməsini özündə ehtiva edən aşağıdakı cümləni nəzərdən keçirək:

*It also happens to be a good description for the governments approach to bringing the economy back from the coronavirus shutdown (*The Economist, World News Politics, Economist Business and Finance 2020*).*

Beləliklə, Covid-19 mövzusunda yaranan yeni leksik vahidlərlə tanışlıq sosial şəbəkələrdə başladı və davam edir. Davam etdikcə isə dilin leksik fondunda zənginləşmə ilə səciyyələnir. Bütün bunların ingilis dilinin tədrisi prosesində lügətin, leksik bacarıqların mənimsədilməsi zamanı nəzərə alınması vacib hesab edilir. Belə ki, ingilis dilində mükəmməl yazı qaydalarına yiyələnmiş kadrların hazırlanması günün tələbinə çevrilmişdir.

Ədəbiyyat

1. Arundale, Robert B. An Alternative Model and ideology of communication for an alternative to politeness theory. Pragmatics. 9(1):, 1999, p. 119.
2. Bloomfield J. Language, New York: George Allen, Unwin LTD, 1933, 553 p.
3. Ewer, J.R. Hughes-Davies, E. “Further notes on Developing an English Programme for Students of Science and Technology” in Swalls (ed., 1985), pp.34-45

4. Miskin Evelina. The language of COVİD-19 -comparison between collocations in popular and scientific articles // ReThink, vol.9, 2020, p.1-15

S. Qurbanova

The usage characteristics of new lexical units on the theme of Covid-19 in English correspondence in social media

Summary

The article deals with the linguistic characteristics of business writings. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants.

Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output.

Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. While analyzing great attention was given to the lexical units taken from the social media. One of the important goals of the article is to detect and find out the reasons of writing. The author emphasizes its role. Since its emergence this notion caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly. Many times, your material will dictate the pattern you use; but, unless the pattern is suited to your purpose and audience, do not hesitate to try another one. Try to choose a pattern that permits you to move from the familiar to the unfamiliar or from the simple to the complex. Even exceptional writers need an outline for their ideas to appear as if they were naturally arranged from the beginning of the message or report to the end. Thus, this blueprint is a time-saver rather than a time-waster. If you plan to write a short letter, message, or report, your list of main points may be all you need. Even so, you will find it helpful to arrange them according to their order of importance. Which idea or ideas will you use in the main part of your discussion? Which will you use at the end?

As a minimum, write down your main points in some kind of orderly arrangement before you begin to write. For longer papers and reports, you will find a detailed outline is usually a better aid in organizing your material. Even though developing the outline can be a difficult process, it forces you to align your main and supporting ideas in logical order before you begin writing. Otherwise, distractions of all kinds can confuse you and make your writing job much more difficult than it should. Several factors influence a reader's interaction: how easy the text is to read,

how accurately it follows the conventions of its genre or structure, the language it is written in, and even the type and the size of font. Reading is thinking cued by written language. Effective readers locate the basic information from the text. Literal comprehension is needed when reading fiction as well as when reading nonfiction. In fiction, a reader has to identify the characters and follow the events of the story. In non-fiction, a reader needs to comprehend the topic, learn new facts related to it, and be able to find and remember important information. However, mature comprehension includes generalisation beyond the characters and the events of the story to the people and the events in real life.

Key words : strategy, oral speech, language, context, writing

С. Гурбанова

Особенности использования новых лексических единиц на тему covid-19 в англоязычной переписке в социальных сетях

Резюме

В данной статье рассматриваются вопросы лингвистические характеристики деловых писем. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами.

Говоря знания преподавателей языка должны носить активный характер. Они должны быть готовы применить их, интерпретировать и адаптировать их применительно к конкретным ситуациям обучения и согласно интересам и потребностям своих студентов. Учителя языка должны знать, как язык функционирует в процессе речевой коммуникации, и как успешно использовать его, чтобы быть понятыми как носителями языка, так и людьми, которые таковыми не являются. Студенты изучающие иностранный язык, используют различные справочники, словари, книги для чтения, аудио и видеоматериалы, компьютерные программы и т.д. Комплексный подход к использованию учебных материалов в значительной степени содействует повышению уровню учебников. С другой стороны, на другом уровне существует коммуникативная потребность обучаемого как индивидуума, т.е. индивидуальная потребность в речевой коммуникации. Эта внутренняя потребность является субъективной. Основной движущей силой, основным мотивом, лежащим в основе всего процесса обучения иностранному языку и его изучения, несомненно, является интерес, любознательность со стороны изучающих язык. Для того, чтобы система обучения тому или иному иностранному языку наиболее целесообразным образом содействовала успешному обучению языкам и их усвоению, следует непременно дифференцированно подходить к наличию у людей интереса к обучению и

межличностным контактам, потребности в обмене информацией и мыслями. Также существуют личные интересы и потребность делиться знаниями и культурой с другими людьми, а также потребность в самореализации. Относительно коммуникативного подхода к обучению иностранному языку, многие авторы поддерживают идею, согласно которой коммуникативные потребности как внутренние осознанные потребности, требуют самого серьезного рассмотрения. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов. К примеру, в действительности сегодня практически в любом обществе существует потребность в знании языков. Роль и задачи обучения, в частности, чтению как в существующей системе образования , так однако практически в любом контексте существует потребность в знании получении информации и в коммуникативной компетентности людей, изучающих те или иные иностранные языки.

Далее, современные учителя иностранного языка должны уметь видеть себя глазами других и быть готовы считаться с тем, как они их видят. Также они должны быть готовы к экспериментам, должны быть готовы и способны делиться опытом и эмоциями с носителями других культур и своими студентами; должны находиться в постоянном поиске того, какими средствами современные языки могут содействовать пониманию на глобальном уровне. Учителя не должны ограничиваться передачей знаний своим студентам и сообщением тех или иных данных, они должны уметь организовать занятия таким образом, чтобы студенты были вовлечены в процесс обсуждения, дискуссий в качестве активных, инициативных участников.

Ключевые слова: стратегия, устная речь, язык, контекст, письмо

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya elmləri doktoru, professor Əfqan Abdullayev tərəfindən çapa tövsiyə olunmuşdur

ZEMFİRA ƏHMƏDOVA
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Respublikası Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
Azərbaycan, Bakı, Lermontov küç., 74 AZ1001
zemfira.ahmadova@teams.dia.edu.az

MÜASİR İNGİLİS DİLİNDƏ EVFEMİZMLƏRİN FUNKSİONAL ASPEKTLƏRİ

Xülasə

Hər hansı bir dilin inkişaf tarixində bəzi sözlər bu və ya digər səbəbdən qadağan, hətta, bəzi hallarda haram kimi qəbul edilə bilir. Onların istifadə dairəsi daralır və bəzən şifahi ünsiyyətdən tamamilə silinir və məhv olmaq təhlükəsi altına düşür. Bununla belə, insanın düşüncələrini ifadə etmək, obyektləri və hadisələri adlandırmaq bacarığı hemin ifadələrin yenilərinn meydana çıxmasına səbəb olur. Beləliklə, evfemizlər nitqdə istifadəsi qadağan olunmuş sözləri əvəz edən deməkdir. Yəni, icazə verilən və layiqli adlar.

Tədqiqatın aktuallığı ondan ibarətdir ki, haqqında danışdığımız evfemizmlərin funksional baxımdan öyrənilməsi dilçiliyin ən mühüm problemlərindən biri hesab olunur. Tədqiqat xəbərlər, siyasət və biznes kimi ictimai həyatın müxtəlif sahələrində frazeoloji evfemizmlərin üslub imkanlarını açır və ingilis dilinin ekspressiv resurslarının dərindən dərk edilməsinə zəmin yaradır. İngilis dilində müxtəlif sosial təbəqələrin nitqində evfemizmlərin leksik və üslubi cəhətləri hələ tam öyrənilməmişdir. Bundan əlavə, evfemizasiya hadisəsi insanların və cəmiyyətin ictimai həyatının müxtəlif sahələrində müşahidə olunur.

Vurğulamaq lazımdır ki, müasir şəraitdə sosial əhəmiyyətli mövzulara, insanın fəaliyyət sahələrinə, onun başqa insanlara, cəmiyyətə, hakimiyyətə münasibətinə təsir edən evfemizmin üsul və vasitələrinə daha çox rast gəlinir. Beləliklə, evfemizm fenomeni müasir dil və mədəniyyətdə ünsiyyətin məcburi universal komponentidir və münaqişəsiz və uğurlu ünsiyyətin əsas vasitələrindən biri kimi xidmət edir. Müasir insan şüurunda dini və əxlaqi, mədəni münasibətlərin olması (müəyyən hallarda) psixoloji reallıqdır və evfemizmləri təkmilləşdirən yeni, evfemistik lüğətin yaranmasına gətirib çıxarır.

Ümumiyyətlə, evfemizlərin bütün funksiyaları informasiyanın praqmatik funksiyasına xidmət edir və ona yönəlir. Bu ünsiyyətin uğuruna töhfə vermək məqsədilə nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, evfemizmin praqmatik funksiyası müəyyən kontekstdə uyğun həyata keçirilir. Burada evfemizmin seçimi danışanın praqmatik münasibətinə əasən şüurlu şəkildə diktə olunur. Odur ki, araşdırmamızı bu məsələdə aktual hesab etmək olar.

Açar sözlər: funksional aspekt, evfemizm, ingilis dili, psixoloji reallıq, sosial əhəmiyyətlilik.

Dilçilikdə dilin ifadə vasitələri, ifadə və üslub vasitələri, troplar, nitq fiqurlarından geniş istifadə olunur. Müxtəlif üslublarda bəzən bu terminlər sinonim kimi də hesab oluna bilir. İ.R.Qalperinin təsnifatına görə dilin ifadə və üslub vasitələri üç böyük qrupa bölünür: "fonetik, leksik və qrammatik (sintaktik)" (2, səh. 28). Fonetik üslubi vasitələrə alliterasiya, assonans, təkrar(ritm), intonasiya və s. daxildir. Leksik-üslubi vasitələrə epitetlər, məcazlar, müqayisələr, ironiya, evfemizmlər və s. daxildir. Qrammatik (sintaktik) üslubi vasitələrə isə cümlədə söz sırası, qeyri-adi cümlə strukturları, elliptik cümlələr daxildir. Bununla belə, bizim diqqətimiz evfemizmlərin öyrənilməsinə, xüsusilə onların insan fəaliyyətinin müxtəlif sosial təbəqələrinin nitqində işlənməsi və tətbiqinə yönəlib.

Evfemizm "eu" yaxşı, "pheme" danışmaq mənasını verən yunan sözündəndir. Evfemizm termin olaraq çox gözəl danışmaq, hər hansı naxoş mənanı yumşaltmaq, vulqar mənadan qaçmaq deməkdir. Dilə ədəbi baxımdan yanaşsaq, vulqarizm-tabu-evfemizm xətti asanlıqla müəyyənləşir. Müasir mədəniyyətin inkişafı ilə dildə çoxlu evfemizmlər yaranmışdır. Məsələn, "yalan" sözünün yerinə "doğru deyil" və s. Hətta,"ölüm" və ya "öl" sözünün əvəzinə bir neçə ekvivalent işlənir: o dünyaya getmək, həyatını itirmək və s.

Dilçilik ədəbiyyatında "evfemizm" anlayışının çoxlu tərifləri var. Evfemizmlərin mənasını daha yaxşı başa düşmək üçün tədqiq olunan tərifər təhlil edilərək üç böyük qrupa bölünmüşdür. Baxılan tərifərdə verilmiş evfemik funksional növlər cüsusi meyar rolunu oynaya bilər.

Birinci qrupa ədəbsiz və xoşagəlməz sözlərin mənasını yumşaldan evfemizmlərin tərifləri daxildir: O.S. Axmanova evfemizmlərə belə tərif verir: "evfemizm hər hansı bir şeyi və ya hadisəni bildirən törəmə, yumşaldıcı, nəzakətli tropdur" (1, səh. 52). Vebsterə görə, "evfemizmlər nəzakətsiz sözün və ya ifadənin nəzakətli sözlə və ya ifadə ilə əvəzlənməsidir" (15). K.Kapu yazır: "Evfemizm xoşagəlməz, alçaldıcı və ya hədələyici söz və ya ifadəni törəmə və ya yüngülləşdirici mənalı sözlə əvəz edən söz birləşməsidir" (9, səh. 5). İ.R.Qalperin belə tərif verir: "evfemizm ədəbsiz və ya kobud söz və ya ifadəni uyğun söz və ya söz birləşməsi ilə əvəz etmək üçün işlənən söz və ya söz birləşməsidir" (8, səh. 73). A.Spirs evfemizmə bağlı belə tərif verir: "evfemizm kobud ifadənin daha yumşaq və ya daha uyğun ifadə ilə əvəzlənməsidir" (13, səh. 11).

İkinci qrup tərifərə əsas funksiyalarla yanaşı, sosial motivlərin əhəmiyyəti də daxildir: E.Partrik bunu belə müəyyən edir: "evfemizm dinləyicidə xoşagəlməz təəssürat və ya danışan üçün nəzakətsiz ifaadə kimi qəbul edilə biləcək nəticəni yumşaltmaq üçün işlədilən ifadədir. Əgər birinci xoş təəssürat yaratmaq istəyirsə» (12, səh. 96). A. Katsev aşağıdakı tərifləri müəyyənləşdirir: "evfemizm insanın həyatında dini və əxlaqi motivlərin hər hansı təsirli yumşaldıcı və ya hər hansı təhdidedici adının törəmə əvəzidir" (3, səh. 5). K.Allan və K.Berik evfemizmə belə tərif vermişlər: "Evfemizm şəxsə, auditoriyaya və ya üçüncü şəxsə qarşı hörmətsizlikdən qaçmağa yönəlmiş, mümkün alternativ kimi işlənən ifadədir" (7, səh. 42). L.Krisin yazır: "evfemik əvəzetmə üçüncü şəxsin kommunikativ konfliktindən və ya uğursuzluq və kommunikativ diskomfortundan qaçmaq üçün nəzərdə tutulmuş bir çıxış yoludur" (4, səh. 391). E.Turina qeyd edir: "evfemizm sosial cəhətdən düzgün olmayan əvvəlki və ya yüngülləşdirici söz əvəzinə işlədilən, lakin tematik sintaqmanın qəbul etdiyi bir sıra səbəblərə görə qadağan edilmiş, nəzakətsiz və ya sadəcə olaraq kobud, nəzakətsiz sözün və ya ifadənin əvəzlənməsidir" (5, səhəh. 7).

Üçüncü qrup tərifərə əsas funksiyalardan biri kimi reallığın gizlədilməsi daxildir. Məsələn, S.Lorens evfemizmə belə tərif verir: "evfemizm (hər hansı bir səbəbdən) yumşalma və ya gizlətmə və ya daha nəzakətli fikri ifadə edən söz formasıdır" (10, səh. 81). C.Nyuman və K.Silver isə bunu belə tərif edirlər: "evfemizm alçaldıcı, uyğun olmayan termin əvəzinə təhqiredici və ya xoş bir terminlə deyil, reallığın gizlədilməsi ilə əvəzlənən ifadədir" (11, səh. 15).

Yuxarıda deyilənləri yekunlaşdıraraq belə nəticəyə gəlirik ki, evfemizmin üç funksiyası vardır:

1. Danışan üçün xoşagəlməz və ya kobud sözü və ya ifadəni əvəzləyərək yumşaltmaq. Beləliklə, danışan nitq mövzusunu qiymətləndirir və səhv ifadə onun tərəfindən kobudluq, sərtlik və ya tərbiyəsizlik kimi qəbul edilir.

2. Həmsöhbət üçün kobud və ya xoşagəlməz adı yumşaltmaq. Bu kontekst və ya nitq şərtləri əsasında yaranır.

3. Reallığın gizlədilməsi.

Evfemizmlərdən bütün dillərdə geniş istifadə olunur. Onlar təkcə ədəbsiz və kobud sözləri deyil, həm də söhbət zamanı xoşagəlməz vəziyyəti aradan qaldırmaq üçün istifadə olunan əvəzlənmədir. Beləliklə, bütün mediada geniş istifadə olunan "siyasi cəhətdən düzgün" (siyasi korrektlik) ifadəsini nəzərdən keçirin. Əslində bu ifadə evfemizm sayılmır, amma mənasının arxasında duran şey evfemizm elə evfemizmin özüdür.

Kütləvi informasiya vasitələrində (KİV) çoxlu kobud və ədəbsiz söz və ifadələrdən istifadə olunur. Bunun əvəzinə, xəbər mətninin tərkib hissəsini təşkil edən evfemik söz və ifadələrdən istifadə olunur. Məsələn, həyatı məhv etmək – can almaq; nəzarətsiz bazar qiymətləri - qiymətin sərbəst buraxılması və s.. Oxşar vəziyyətə tez-tez ingilisdilli mediada rast gəlinir: aclıq - qidalanma (evfemizm); müharibə - münaqişə (evfemizm); böhran - depressiya (evfemizm).

Bundan əlavə, evfemizm lüğətin və ya dil sisteminin bir hissəsi hesab olunur ki, bu da həmişə praqmatizm üçün doğma dil daşıyıcıları tərəfindən həyata keçirilir və lüğətlərdə qeyd olunur. Müasir dövrdə belə hesab olunur ki, evfemizmi konkret leksik qrup kimi qəbul etmək düzgün deyil. Evfemizm nitqin xüsusiyyəti deyil, ona görə də xüsusi lüğət kimi evfemizm və ya disfemizmdən danışmaq çətindir. A.D.Şvayzer "bu, daha geniş kommunikativ strategiyanın tərkib hissəsi olan sözlərin xüsusi metodu və ya strategiyasıdır" deyərkən daha dürüst və məqsədyönlüdür (6, səh. 47).

Praqmatik xassələrin tədqiqi göstərdi ki, evfemizmlərdən istifadə aşağıdakı praqmatik prinsiplərə əsaslanır:

- nəzakət prinsipi;
- tabu prinsipi;
- həlledici təsir prinsipi;
- praqmatik struktur baxımından müəyyən hərəkətlərin məxfiliyi prinsipi.

K. Allan və K. Berik qeyd edirlər: "Potensial təhqiredici hərəkətləri başa düşmək və yumşaltmaq incə evfemizmlərin istifadəsinə səbəb ola bilər və bu ismarıc müəlliflərindən birinin nitqinə zərər vermək zərurəti disfemiyadan istifadəni nəzərdə tutur"(7, səh. 250).

Qəzetlərdə istifadə olunan disfemizmlərin ümumi semantik mahiyyətinin təhlili onların mənfi hesab edildiyini sübut edir. Yunanıstanın borcunu ödəmək üçün Aİ prezidentin vəzifədən azad edilməsi ilə bağlı BBC xəbərlərinə nəzər salaq: "Yunanıstan borcla bağlı danışıqlar aparır: AB rəhbəri özünü "xəyanət edilmiş" hiss edir (16). Xəbər mətnində bir neçə növ neytral disfemiya var. Lakin dünya iqtisadiyyatı və siyasəti ilə bağlı qeyd etməliyik ki, hər iki tərəfin işlətdiyi ifadələr sərt, gərgin və demək olar ki, kobuddur. Məsələn, xəbər lentində belə ifadəyə rast gəlirik: "Aİ rəhbəri özünü "xəyanət edilmiş" hesab edir (16) – Avropa İttifaqının prezidenti Jan-Klod Yunkerin yunanların bu hərəkətini "yalan" adlandırması və özünü "aldanmış hiss edir" ifadəsi ziddiyyət təşkil edir.

Ümumiyyətlə, bir insanın və ya sosial qrupların şüuruna, davranışına təsir göstərir, müxtəlif məna dərəcələri və birgə manipulyatorun mövcudluğu ilə xarakterizə olunur. "Manipulasiya" termini daha dar mənaya malikdir, yəni manipulyator üçün əlverişli olan dəyərlər, davranış və inanclarda dəyişikliklərə nail olmaq üçün potensial obyektə (fərdə) ağıllı və məqsədyönlü diskursiv təsir göstərir: Devid Kemeron deyir ki, "Aİ sammiti islahatlar üçün "dönüş nöqtəsidir". Devid Kemeronun yenidən baxış planlarına dair "əhəmiyyətli mərhələ" (əhəmiyyətli dönüş nöqtəsi) (17) fikri "Aİ sammitinin əhəmiyyətini və bütün problemlərin həlli yolunu metaforik şəkildə əks etdirir. Bu cür gizli evfemistik ifadə onu göstərir ki, Britaniya Avropanın həyatında mühüm rol oynayır və bütün problemlərin həlli yolunu bilir.

Evfemizmlərin manipulyasiya effekti iki mexanizmdən ibarətdir:

- "assosiasiya" - mexanizmi xəbərin emosional aspektini dəyişir, ünvanı qəbul edəni qadağan olunmuş mənadan təcrid edir;

- “bufer” mexanizmi isə mübahisəli söz və şüuru birləşdirir.

Yekun olaraq qeyd edək ki, linqvistik ünsiyyətin tərkib elementləri aşağıdakılardır:

- ideologiya;
- təbliğat;
- manipulyasiya;
- stereotip;
- təfəkkürün manipulyasiyası;
- eləcə də bir-biri ilə sıx bağlı olan, bir-birini tamamlayan informasiya və psixoloji qarşılıqlı əlaqələr.

Obyektiv reallıq potensial alıcı üçün fərqli nöqteyi-nəzərdən nəzərə alınır və informasiyanı olduğu kimi qəbul etdiyi üçün mediadan alınan məlumatı düzgün qiymətləndirmək imkanı yoxdur. O, həm də dil ünsiyyətinin yuxarıda qeyd olunan elementlərini oyadır.

Bundan əlavə, evfemizasiya hadisəsi insanların və cəmiyyətin ictimai həyatının müxtəlif sahələrində müşahidə olunur. Vurğulamaq lazımdır ki, müasir şəraitdə sosial əhəmiyyətli mövzulara, insanın fəaliyyət sahələrinə, onun başqa insanlara, cəmiyyətə, hakimiyyətə münasibətinə təsir edən evfemizmin üsul və vasitələrinə daha çox rast gəlinir.

Təbabətdə evfemizmlərdən istifadə də ənənəvi xarakter daşıyır. Məsələn, qədim dövrlərdə xəstəlik və ölüm haqqında hər hansı bir ifadənin qeyd olunması qadağan idi. Bundan əlavə, tibbi praktikada bu fenomen tez-tez tibb praktikasında müzakirə olunur. Bu isə cəmiyyətdə qəbuledilməzdir və beləliklə insan təbiəti və insan fiziologiyası xoşagəlməz hisslərlə xarakterizə olunur (müqayisə edin: ingilis dilində "yeniləmələr və şişlər" əvəzinə böyümə) "(" əvəzinə. xərçəng")).

Kəşfiyyatçıların və hərbi qulluqçuların nitqində kriptlərə tez-tez rast gəlmək olar, lakin onları evfemizmlərlə qarışdırmaq olmaz, çünki, onların müxtəlif funksiyaları və məqsədləri vardır. Məsələn, ingilis dilində xəstə pasient sözün əsl mənasını açmaq və peşəkar kriptoqraf kimi görünmək üçün istifadə olunur. Beləliklə, peşəkar ünsiyyətdə istifadə olunan evfemizmləri öyrənməklə bu hadisəni oxşar hadisələrdən ayırmaq vacibdir. Ortofillərin görünüşü və istifadəsi çox vaxt xüsusi bilik sahəsindən, peşəkar sahədə məqsəd və vəzifələrdən asılıdır.

Beləliklə, evfemizm fenomeni müasir dil və mədəniyyətdə ünsiyyətin məcburi universal komponentidir və münaqişəsiz və uğurlu ünsiyyətin əsas vasitələrindən biri kimi xidmət edir. Müasir insan şüurunda dini və əxlaqi, mədəni münasibətlərin olması (müəyyən hallarda) psixoloji reallıqdır və evfemizmləri təkmilləşdirən yeni, evfemistik lüğətin yaranmasına gətirib çıxarır.

Ədəbiyyat

1. Арутюнова Н.Д. Дискурс. М.: Просвещение, 1990, 284 с.
2. Гальперин И.Р. Стилистика английского языка. М.: Высшая школа, 1981, 334 с.
3. Карпов. В.А. Язык как система. Мн: Выш. Шк., 1991, 302 с.
4. Крысин Л.П. Эвфемизмы в современной русской речи / Русский язык конца XX столетия (1985-1995) М.: 1996, с. 384-408.
5. Тер-Минасова С.Г. Язык и межкультурная коммуникация. М.: Слово/Slovo, 2000, 624 с.
6. Швейцер А.Д. Социальная дифференциация английского языка в США. М.: Наука, 1983, 250 с.

Литература на английском языке:

7. Allan K., Burridge, K., & Mazal Holocaust Collection. (1991). Euphemism & dysphemism: Language used as shield and weapon. New York: Oxford University Press, 1991, 350 p.
8. Galperin I. R. Stylistics. Moscow: Higher School, 1981, 335 p.
9. Kapu C.E. American-Spanish euphemisms. Berkely, Los Angeles: University of California, 1960, 249 p.
10. Lawrence J. Unmentionables and other euphemisms. London: Gentry Books, 1973, 84 p.
11. Neaman J.S., Silver C.G. A Thesaurus of Euphemisms. L.: McGraw-Hill, 1985, 320 p.
12. Partridge E. Usage and abusage. New York: Penguin Books, 1964, 379 p.
13. Spears A.R. Slang and Euphemism. 3rd revised ed. USA: Mass Market Paperback, 2001, 350 p.

Интернет ресурсы

14. http://soz6.com/nedir/10394/evfemizm
15. http://www.bbc.com/news/blogs-trending-33313807
16. http://en.wikipedia.org/wiki/Doublespeak
17. http://www.bbc.com/news/uk-politics-33259566
18. Lingvistics_dictionary.academic.ru Словарь лингвистических терминов Т.В.Жеребило). http://www.dic.academic.ru

З.АХМЕДОВА

ФУНКЦИОНАЛЬНЫЕ АСПЕКТЫ ЭВФЕМИЗМОВ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Резюме

В истории развития любого языка некоторые слова могли быть запрещены по тем или иным причинам, а в некоторых случаях даже считаться харамом. Сфера их употребления сужается, а иногда они и вовсе удаляются из устного общения и подвергаются опасности. Однако умение выражать свои мысли, называть предметы и события приводит к возникновению новых. Таким образом, эвфемизмы – это слова, заменяющие слова, запрещенные к употреблению в речи. Новые, разрешенные и достойные имена.

Актуальность исследования заключается в том, что исследование эвфемизмов с функциональной точки зрения считается одной из важнейших проблем лингвистики. Исследование раскрывает стилистические возможности фразеологических эвфемизмов в различных сферах общественной жизни, таких как новости, политика и бизнес, и создает основу для глубокого понимания выразительных ресурсов английского языка. В английском языке в речи различных социальных слоев лексические и стилистические аспекты эвфемизмов еще не до конца изучены. Явление эвфемизации наблюдается в различных сферах общественной жизни людей и общества. Следует подчеркнуть, что в современных условиях более распространены способы и средства эвфемизмов, затрагивающие социально значимые темы, сферы человеческой деятельности, ее отношение к другим людям, обществу, власти. Следовательно, феномен эвфемизма является обязательным универсальным компонентом общения в современном языке и культуре и служит одним из основных средств бесконфликтного и успешного общения. В современном человеческом сознании наличие религиозных, моральных и этических установок (в некоторых случаях) является психологической реальностью и приводит к появлению нового, эвфемистического словаря, который улучшает предшествующий, то есть эвфемизм. В целом все функции наших эвфемизмов служат и ориентируются на прагматическую функцию информации. Он призван способствовать успешному общению. Следует отметить, что прагматическая функ ция эвфемизма реализуется в определенном контексте. Здесь выбор эвфемизма сознательно продиктован прагматической позицией говорящего.

Поэтому наше исследование можно считать актуальным в этом вопросе.

Ключевые слова: функциональный аспект, эвфемизм, английский язык, психологическая реальность, социальная значимость.

Z.AHMEDOVA

FUNCTIONAL ASPECTS OF EUPHEMISMS IN MODERN ENGLISH

Summary

In the history of the development of any language some words may be forbidden for some reasoms. Their scope of use is narrowing and sometimes they are completely removed from communication and endangered. However, the ability to express one's thoughts, to name objects and events, leads to the creation of new ones. Thus, euphemisms are words that replace words that are forbidden to be used in speech. The relevance of the study lies in the fact that the study of euphemisms from a functional point of view is considered one of the most important problems in linguistics. The study reveals the stylistic possibilities of phraseological euphemisms in various areas of public life, such as news, politics and business, and creates the basis for a deep understanding of the expressive resources of the English language. In English, in the speech of various social strata, the lexical and stylistic aspects of euphemisms are not yet fully understood. The phenomenon of euphemism is observed in various spheres of public life of people and society. It should be noted that in modern life, the methods and means of euphemism that affect socially important issues, areas of human activity, his attitude to other people, society and government are more common. Thus, the phenomenon of euphemism is a mandatory universal component of communication in modern language and culture and serves as one of the main means of conflict-free and successful communication. The existence of religious, moral, and cultural relations in the modern human mind (in some cases) is a psychological reality and leads to the emergence of a new, euphemistic dictionary that improves euphemisms. In general, all the functions of euphemisms serve and focus on the pragmatic function of information. It is designed to contribute to the success of communication. It should be noted that the pragmatic function of euphemism is realized in a certain context. Here the choice of euphemism is consciously dictated by the pragmatic attitude of the speaker.

Therefore, our study can be considered relevant in this matter.

Key words: functional aspect, euphemism, the English language, psychological reality, social significance.

Redaksiyaya daxil olma tarixi: 07.08.2021
Çapa qəbul olunma tarixi: 01.001.2022
Filologiya üzrə fəlsəfə doktoru,
Osmanova Məlahət Nazim qızı
tərəfindən çapa tövsiyə olunmuşdur

RƏHİMƏ ABBASOVA
Bakı Slavyan Universiteti
Süleyman Rüstəm, 30
E-mail:rakhima_abbasova@mail.ru

MÜASİR AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ İDİOMLAR VƏ ONLARIN BƏZİ ÜSLUBİ KEYFİYYƏTLƏRİ

Xülasə

Dilçilik ədəbiyyatında çox zəngin və mürəkkəb dilçilik sahələrindən biri olan frazeologiyanın tədqiqat obyektlərindən bəhs edən müəlliflər iki qrupa bölünür:

1) frazeologiyanı "geniş mənada" qəbul edərək dildə hazır şəkildə işlədilən bütün söz birləşmələrini frazeologiya hesab edənlər; 2) dildə hazır şəkildə işlədilən, komponentləri məna və quruluşca parçalanmayan söz birləşmələrini frazeologiya hesab edərək frazeologiyanı "dar" mənada qəbul edənlər. Bu sahədə aparılan tədqiqatlar və irəli sürülən fərziyyələr bir faktı aydın göstərir ki, məhz frazeologiyanın "geniş" mənada qəbul edilməsi uzun müddət bu sahədə yekdil bir fikrə gəlməyə imkan verməmişdir. Lakin son illərdə müxtəlif dillərin frazeologiyasının dərindən öyrənilməsi tədqiqatçıları belə bir fikir ətrafında birləşdirmişdir ki,dilçilik fənlərindən biri kimi frazeologiyanın "dar" mənada götürülməsi tamamilə məqsədəuyğundur. Məhz bu fikrin bir çox görkəmli alimlər tərəfindən dəstəklənməsi frazeologiyanın tədqiqat obyektinin müəyyənləşməsinə təkan vermişdir və bu gün frazeologiya frazeoloji vahidlərin formalaşması və onların əsas xüsusiyyəti olan sabitlik məsələsini, idiomatikliyin mahiyyətini, frazeoloji vahidlərin mənbələrini, bütövlükdə, dilin frazeoloji sistemini tədqiq edən müstəqil dilçilik sahələrindən biri kimi inkişaf etməkdədir.

Dilin frazeologiyası müxtəlif mənbələrdən olan sabit söz birləşmələri hesabına zənginləşir. Bu mənbələr içərisində idiomlar öz quruluş və semantikasına görə sabit söz birləşmələrinin ən maraqlı qrupunu təşkil edir. Müasir ingilis dili də zəngin idiomatik sistemə malikdir. Bu dili işlədən hər bir şəxs bu və ya digər şəkildə idiomatik ifadələrlə qarşılaşır. Amma məlum olduğu kimi, dilin lüğət tərkibini təşkil edən sözlərin həqiqi mənaları ilə yanaşı, məcazi mənaları da çoxluq təşkil edir. Hətta vurğulamaq istərdik ki, hal-hazırda dilin lüğət tərkibində bir sıra sözlər öz həqiqi mənalarını itirib, məcazi mənada daha çox istifadə olunur. Elə bu səbəbdən də bəzən dili öyrənənlər rast gəldikləri sözün və ya birləşmənin idiomatik ifadə olduğunu bilmədiklərindən çaşıb qalır, idiomlu ifadə ilə desək, mürəkkəb vəziyyətə düşürlər.

İdiomlar danışıq zamanı mətnə xüsusi çalarlıq, rəngarənglik versə də, məna və qrammatikanın vəhdəti ilə onların tədqiqində çətinlik törədir. Sabit söz birləşmələri

və frazeoloji vahidlərin üzərində aparılan tədqiqatlar göstərir ki, onlar dili zənginləşdirir, nitqi daha cəlbedici edir. Mövzunun aktuallığı ondan irəli gəlir ki, idiomların təhlilinə bir sıra nəzəri və praktik məsələlər, yeniliklər cəlb olunmuşdur. İdiomların digər frazeoloji birləşmələrdən fərqləndirilməsi, onların səciyyəvi cəhətlərinə görə təsnifatı, tərkibində idiom olan mətnin anlaşılması, idiomlarda baş verən leksik və qrammatik dəyişikliklərin səbəbləri, sintaksis və semantikanın qarşılıqlı əlaqəsi çərçivəsində dəyişikliklərin izahı, konseptual metaforalar və metonimiyalar, insanın dünyəvi bilikləri nəzdində bir çox idiomların yaranma səbəblərini, habelə onların mənasını əsaslandırmaq, başqa sözlə hərfi məna ilə idiomatik məna arasındakı əlaqəni araşdırmaq kimi məsələlər məqalənin aktuallığını göstərir. Bu xüsusiyyətlərin hər birinin əsaslı tədqiqə ehtiyacı vardır və onların bir-biri ilə qarşılıqlı əlaqəsi idiomların ətraflı şəkildə öyrənilməsini daha səmərəli edə bilər. Araşdırma zamanı sintaktik, semantik xüsusiyyətlər, eləcə də anlama prosesləri ayrı-ayrılıqda tədqiq edilir, idiomlar təkcə dilçilik nöqteyi-nəzərindən deyil, eyni zamanda psixoloji-koqnitiv baxımdan da tədqiqata cəlb olunur. Problemin araşdırılması səviyyəsini nəzərdən keçirdikdə frazeologiya ilə bağlı həm ümumi dilçilik, həm müqayisəli dilçilik, eləcə də qrammatika sahələrində müxtəlif fikirlərin mövcudluğunu görürük. Ş.Balli, A.Kunin, V.Vinoqradov, N.Amosova, B.Freyzer frazeologiyanın bir elm kimi formalaşmasında mühüm rol oynamışlar və idiomlaırın təhlili ilə bağlı aparılan çoxsaylı tədqiqatların təməlini qoymuşlar.

Açar sözlər: dil, qrammatika, tədqiqat,frazeologiya, dəyişikliklər.

İdiomların əsil (xalis) və leksik idiomlar kimi qruplaşdırılması onların səciyyəvi xüsusiyyətlərini ayırd etmək üçün əhəmiyyətli hesab oluna bilər. İdiomların tərkib hissələri əsasında təhlilini vermək və onlarda baş verən bəzi qrammatik dəyişikliklərin səbəbini aydınlaşdırmaq məqalənin əsas istiqamətini təşkil edir. İdiomlara psixoloji aspektdən yanaşıldıqda struktur cəhətdən bir biri ilə əlaqəsi olmayan sözlər toplusu kimi deyil, daxili sintaktik və semantik struktura malik məna bildirən birləşmələr kimi qəbul edilir. (1, 55)

İngilis dilində çoxlu sayda idiomların diskursda geniş şəkildə işlənməsi onların öyrənilməsinin əhəmiyyətini bildirir. İdiomların semantik, morfoloji, sintaktik xüsusiyyətləri ilə əlaqədar bir sıra araşdırmalar aparılsa da, deyilən fikirlər bir-birindən fərqlənir. Məsələn, Ç.Hokket hesab edirdi ki, "İdiom mənanın mövcud strukturu əsasında müəyyən edilməsi mümkün olmayan tək morfem və ya mürəkkəb formadan ibarət qrammatik formadır." O, iki və ya daha artıq morfemdən ibarət vahidləri idiom hesab edir. A.Makkai idiomatik ifadələri qruplaşdıraraq, idiomları "frazeoloji idiomlar" ("phraseological idioms") adlandırırdı .O, göstərirdi ki, bu növ birləşmələrdə tərkib hissələrin mənası ilə bütöv konstruksiya arasında az əlaqə vardır və mənanın aydın olmaması onun idiomatikliyinin yüksək göstəricisidir. Ona görə də frazeoloji birləşmələrdən fərqli olaraq onların öyrənilməsi daha mürəkkəbdir.

Belə birləşmələr həm hərfi, həm də idiomatik mənada anlaşıla bilər. İdiomlarda məna bütövlüyü, semantik, leksik və sintaktik sabitlik əsas şərtlərdəndir. Leksik sabitlik komponentlərin daimiliyinə, sintaktik sabitlik isə tərkib üzvlərin sırasına görə dəyişilməz qalmasına əsaslanır. İdiomlar mənanın qüvvətlənməsi üçün müəllifin istifadə etdiyi ən təsirli vasitələrdəndir. İdiomlar mətndə konkret mövzuya ifadəlilik verir. Onlar dilin leksik vahidlərindən fərqli olaraq daha mürəkkəb kommunikativ vahidlərdir. Semantik cəhətdən idiomlar öz bütövlüyü ilə səciyyələnir, sintaktik cəhətdən isə bir-birinə uyğun olmayan müxtəlif sözlərin qovuşmasına görə fərqlənir. Hər bir idiomun özünəməxsus yaranma tarixi vardır. **(2, 318).** Onlar xalqın həyat və yaşayış tərzi, dini və etiqad mövhumati təsəvvürləri, dünyagörüşləri, sənət və peşələri ilə əlaqəli yaranmış və müasir dövrümüzdə belə yaranmaqdadır. Hər hansı idiomun tarixinə nəzər saldıqda onun ilkin olaraq hərfi mənada işlətmək üçün yarandığını, zaman keçdikcə məcazi və ya idiomatik məna kəsb etdiyini görmək olar. Məsələn: dressed to a tea – idiom kimi "geyiminə xüsusi diqqət yetirən şəxs" mənasını bildirir. Qədim dövrlərdə (Victorian era) rəsmi çay mərasimləri təşkil edildiyi zamanlarda dəvət olunan şəxslər öz geyimlərinə xüsusi diqqət yetirərdilər və bu idiom ilkin zamanlarda` dressed for a tea` və ya `dressed to go to a tea` kimi hərfi mənada işlənirdi. Müasir dövrdə isə sonuncu variant işlənir: Beware any salesman that is dressed to a tea, smiles too much, and talks fast. İdiomları mənşəyinə görə iki qrupa ayırmaq olar: xalis idiomlar və alınma idiomlar. Xalis (əsil) idiomlar milli səciyyəli olub, tərkib hissələri həmin dilin sözlərindən ibarətdir. Belə idiomlar xalqın qədim və zəngin söz xəzinəsinə əsaslanır. Mifik rəvayətlər və əfsanələr, nağıllar, xristianların müqəddəs kitabı olan "İncil", bədii ədəbiyyat nümunələri və s. dilin idiomatik ifadələrlə zənginləşməsində əsas mənbələrdəndir. Alınma idiomlarda tərkib hissələrdən biri və ya bütov hissəsi başqa dillərdən götürülə bilər. Bir çox hallarda xalqların bir-biri ilə əlaqəsi və sıx əməkdaşlığı sayəsində bir söz, frazeoloji birləşmə və ya idiom digər dilə keçib tədricən beynəlxalq səviyyədə işlədilərək dilin lüğət tərkibinə daxil olur. **(3,16)** Məsələn: feel like a million dollars "özünü xoşbəxt hiss etmə", run amok "özündə olmamaq, qəzəbdən ağlını itirmək, qəzəbindən nə etdiyini bilməmək" və s. Mənşə baxımından digər frazeoloji birləşmələr kimi ingilis dilindəki idiomların böyük bir qismi "İncil" dini kitabı, latın və fransız dilindən kalka yolu ilə tərcümə olunmuş və V.Şekspirin əsərlərindən seçilmişdir. Qeyd etmək lazımdır ki, qrammatik cəhətdən özünəməxsus xüsusiyyətə malik idiomun tərkibindəki sözlər həm morfoloji, həm də sintaktik səviyyələrdə öz qeyri-adiliyi ilə fərqlənir. Məsələn, bəzi hallarda forma etibarilə sifət, feil, sözönləri isim kimi işlənə bilər: at large – "azadlıqda olmaq; ümumi mənada", on the cheap – "ucuz qiymətə", make merry – "şənlənmək", on the loose – "həbsxanadan qaçan, azadlıqda olan", through thick and thin – "manelərə baxamayaraq" idiomlarında sifət isim kimi; in the know – "xəbəri olmaq", on the mend – "sağalmaq, yaxşılaşmaq", the haves and the have-nots – "varlılar və yoxsullar", the do's and don'ts – "qaydalar" idiomlarında feil isim kimi; the back of beyond – "uzaq və tənha yer", the ins and outs –

"xırdalıqlarla" idiomlarında sözönü isim kimi işlənir. Belə idiomlar omonim konstruksiyası olmayan idiomlardır. Onlar dilin qrammatik qanunlarına tabe olmayan sabit söz birləşmələridir və dildə qrammatik cəhətdən bir nizamsızlıq yaradır. Bundan başqa idiom daxilində sayılmayan isimlər sayılan (the shifting sands – "dəyişkən vəziyyət", split hairs – "lüzumsuz şeylərə diqqət yetirən", in deep waters – "çətinlikdə", in all weathers – "hər cür havada", beat/scare the daylights out of somebody – "kimi isə əzişdirmək, kimi isə bərk vurmaq və ya qorxutmaq" və s.) və ya əksinə sayılan isimlər sayılmayan isimlər kimi (play ball with somebody – "başqalarına yardım etmək", be no good to man or beast – "yararsız olmaq", man to man – "dürüst və ciddi şəkildə, kişi kimi", put pen to paper – "yazmaq və ya nəyi isə yazmağa başlamaq", the light of day – "ortaya çıxmaq" və s.) işlənə bilər**. (4,48)** Məlum olduğu kimi, ingilis dili idiomatik birləşmələrlə zəngin bir dildir. Amma bir qrup idiomlar var ki, onlar kifayət qədər köhnəlmiş və dilin lüğət tərkibindən çıxmışdır. Bu səbəbdən də bu gün onlara ancaq klassik ingilis ədəbiyyatında rast gəlmək mümkündür. Məqalədə verilmiş idiomlar və idiomatik birləşmələr müasir ingilis dilində ünsiyyət prosesində daha çox istifadə olunan birləşmələrdir. Biz bu idiomlara adi məişət dilində, qəzetlərdə, müasir və həmçinin klassik ingilis ədəbiyyatında, həm də həyatda rast gələ bilirik. İstifadə edilmiş misallar gündəlik həyatda daha çox işlənən danışıq üslubunda verilmişdir. Hər bir dil üçün əsas material sözdür və dil öyrənmək istəyən hər kəs gündəlik olaraq yeni söz və söz birləşmələri öyrənir. Həmin söz birləşmələrinin tərkibində idiomlar xüsusi yer tutur. İngilis dili idiom və idiomatik birləşmələrlə zəngin bir dildir. İdiomlara bütün üslublarda rast gəlmək mümkündür: yazıda, danışıqda, bədii ədəbiyyatda və s. Hətta qəzetlər belə idiomatik ifadələrlə zəngindir. **(5, 55)**

İdiomların öyrənilməsi nə üçün zəruridir? İlk əvvəl «idiom nədir?» sualına cavab tapmaq lazımdır. İdiomları təşkil edən sözlər bir yerdə öz əvvəlki mənalarını itirir və birləşmə tərkibində yeni məna çalarlığı yaradır. Məsələn:

I could **eat a horse.** Dəhşətli dərəcədə acam. *məc**. Acından ölürəm. **Money doesn't grow on trees**. Pulun qədrini bilmək lazımdır. *məc.* Pul yerdən yığılmır. (Pul özünə hörmət istər).

We are **all at sixes and sevens**. Biz tamamilə çaş-baş qalmışıq.

I got there **in the nick of time**. Mən ora ən son anda çatdım.

İdiomları təşkil edən sözlərin çoxu məcazi məna daşıyır. Müasir ingilis dilində sözlərin həqiqi mənalarına nisbətən, məcazi mənalarından daha çox istifadə olunur. Məsələn: **"to catch"** feili həqiqi mənadan daha çox, məcazi mənada işlədilir. Misallara nəzər salaq:

Həqiqi məna	**Məcazi məna**
I have been fishing, but **caught** absolutely nothing!	**1.** Yesterday **I caught the bus**.
	2. Try **to catch his eye.**
	3. You'll **catch your death of cold.**
	4. Wait while **I catch my breathe.**

Dilin lüğət tərkibində elə sözlər də var ki, onlar artıq öz bədii mənada işlədilmə halını itiriblər və ancaq məcazi mənada işlənirlər. Məsələn, **"to plough"** (əkmək, biçmək) feili. Bu fel müasir ingilis dilində həqiqi mənada demək olar ki, istifadə olunmur. Biz ona ancaq idiomatik birləşmələrin tərkibində məcazi mənada rast gələ bilərik.Məsələn:

1. He had to **plough through** hundreds of pages of American history to get ready for his test. O, Amerika tarixindən testi vermək üçün yorulmadan çalışırdı/O, Amerika tarixindən testi vermək üçün kağızların arasında itib-batmışdı.
2. You can **plough money into** a business. Sən bu işə sərmayə yatıra bilərsən.
3. Profits can be **ploughed back**. Qoyulan sərmayə qazanc gətirə bilər.

Bu siyahını artırmaq da mümkündür. Misalların təhlilindən belə nəticəyə gəlirik ki, biz sözlərin həqiqi istifadəsi ilə yanaşı, məcazi istifadəsini də bilməliyik. Əks təqdirdə, cümlə tərkibində rast gəldiyimiz sözün məcazi istifadəsini bilmiriksə, onun tərcüməsində çətinlik çəkəcəyik və tərcümə düzgün olmayacaq. Buna görə də idiomları və onları təşkil edən sözlərin həm həqiqi, həm də məcazi mənalarını öyrənmək zəruridir. **(6, 78)**

Ədəbiyyat

1. Babayeva E. İngilis və Azərbaycan dillərində sintaktik yolla yaranan idiomlar. 2000, s. 76-108
2. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyəti. Bakı, 1962, s.168
3. İngilis dilində idiomlar və onların mənşəyi. Dil və ədəbiyyat. Bakı, 2011, s.103-105
4. Mustafayeva S. Everyday English Idioms. Bakı, Letterpress, 2008, s.334
5. Sürek M. B. Müasir ingilis dilində frazeoloji vahidlərin leksik xüsusiyyətləri. Bakı, 2015, s.76-108
6. Yusifova G. İngilis dili idiomlarının sintaktik, semantik və koqnitiv xüsusiyyətləri. Bakı, 2015, s.12-19

R. Abbasova

IDIOMS IN MODERN AZERBAİJAN AND ENGLISH LANGUAGES AND THEIR SOME STYLİSTİC CHARACTERİSTİCS.

Summary

The authors of the research objects of phraseology, which is one of the richest and most complex fields of linguistics in linguistic literature, are divided into two groups:

1) those who accept phraseology in the "broad sense" and consider all phrases used in the language as phraseology; 2) those who take phraseology in a "narrow" sense, considering phraseologies that are used in the language in a ready-made way, the components of which are not divided into meaning and structure. Research and hypotheses in this area clearly show the fact that the adoption of phraseology in the "broad" sense has not for a long time allowed to reach a consensus in this area. However, in recent years, the in-depth study of the phraseology of different languages has united researchers around the idea that it is entirely appropriate to take phraseology in the "narrow" sense as one of the disciplines of linguistics. It is the support of this idea by many eminent scholars that has led to the definition of the object of study of phraseology, and today phraseology has developed as one of the independent fields of linguistics that studies the formation of phraseological units and their main feature of stability, idiomatics, sources of phraseological units and the phraseological system of language.

The phraseology of the language is enriched by stable word combinations from different sources. Among these sources, idioms are the most interesting group of fixed word combinations due to their structure and semantics. Modern English also has a rich idiomatic system. Everyone who uses this language is confronted with idiomatic expressions in one way or another. But as we know, in addition to the real meanings of the words that make up the vocabulary of the language, there are also many figurative meanings. We would even like to emphasize that a number of words in the vocabulary of the language have lost their real meaning and are used more figuratively. For this reason, language learners are sometimes confused by the fact that they do not know that the word or combination they come across is an idiomatic expression.

Although idioms give the text a special tone and color during speech, they are difficult to study due to the unity of meaning and grammar. Research on fixed word combinations and phraseological units shows that they enrich the language and make speech more attractive. The urgency of the topic stems from the fact that a number of theoretical and practical issues and innovations are involved in the analysis of idioms. Distinguish idioms from other phraseological combinations, their classification according to their characteristics, comprehension of the text containing

idioms, reasons of lexical and grammatical changes in idioms, explanation of changes in syntax and semantics, conceptual metaphors and metonyms, many worldly knowledge of human idioms. , as well as to substantiate their meaning, in other words, to investigate the relationship between literal meaning and idiomatic meaning, show the relevance of the article. Each of these features needs to be thoroughly researched, and their interrelationships can make the study of idioms more detailed. Here, semantics and syntax merge in the cognitive aspect, giving priority to the study of cognitive processes in the understanding of idiomatic expressions in the psychological context. S.Balli, A.Kunin, V.Vinogradov, N.Amosova, B.Fraser played an important role in the formation of phraseology as a science and laid the foundation of numerous researches on the analysis of idioms.

Keywords: language, grammar, research, phraseology, changes.

Р. Аббасова

СОВРЕМЕННЫЕ АЗЕРБАЙДЖАНСКИЕ И АНГЛИЙСКИЕ ИДИОМЫ И ИХ НЕКОТОРЫЕ СТИЛЬНЫЕ КАЧЕСТВА.

Резюме

Авторы объектов исследования фразеологии, которая является одной из самых богатых и сложных областей языкознания в лингвистической литературе, делятся на две группы:

1) те, кто принимает фразеологию в «широком смысле» и считает фразеологией все употребляемые в языке словосочетания; 2) те, кто берет фразеологизмы в «узком» смысле, рассматривая фразеологизмы, употребляемые в языке в готовом виде, компоненты которых не разделяются на значение и структуру. Исследования и гипотезы в этой области ясно показывают тот факт, что принятие фразеологии в «широком» смысле уже давно не позволяет достичь консенсуса в этой области. Однако в последние годы углубленное изучение фразеологии разных языков объединило исследователей вокруг мысли о том, что вполне уместно рассматривать фразеологию в «узком» смысле как одну из дисциплин языкознания. Именно поддержка этой идеи многими видными учеными привела к определению объекта изучения фразеологии, и сегодня фразеология сложилась как одна из самостоятельных областей языкознания, изучающая образование фразеологических единиц и их основную особенность устойчивость, идиоматика, источники фразеологизмов и фразеологический строй языка.

Фразеология языка обогащается устойчивыми словосочетаниями из разных источников. Среди этих источников идиомы представляют собой наиболее интересную группу устойчивых словосочетаний благодаря своей структуре и семантике. Современный английский также имеет богатую идиоматическую систему. Каждый, кто использует этот язык, так или иначе

сталкивается с идиоматическими выражениями. Но, как известно, кроме реальных значений слов, составляющих словарный запас языка, существует еще множество переносных значений. Мы хотели бы даже подчеркнуть, что ряд слов в лексике языка утратили свое реальное значение и употребляются более образно. По этой причине изучающих язык иногда сбивает с толку тот факт, что они не знают, что слово или комбинация, с которыми они сталкиваются, являются идиоматическим выражением.

Хотя идиомы придают тексту особый тон и окраску во время речи, они сложны для изучения из-за единства смысла и грамматики. Исследования устойчивых словосочетаний и фразеологизмов показывают, что они обогащают язык и делают речь более привлекательной. Актуальность темы обусловлена тем, что в анализ фразеологизмов вовлечен ряд теоретических и практических вопросов и нововведений. Отличие фразеологических сочетаний от других фразеологических сочетаний, их классификация по характеристикам, понимание текста, содержащего фразеологизмы, причины лексических и грамматических изменений фразеологизмов, объяснение изменений синтаксиса и семантики, понятийных метафор и метонимов, многие житейские знания человеческих фразеологизмов, а также обосновать их значение, иными словами, исследовать соотношение между буквальным значением и идиоматическим значением, показать актуальность статьи. Каждый из этих признаков нуждается в тщательном исследовании, а их взаимосвязь может сделать изучение идиом более детальным. В ходе исследования отдельно изучаются синтаксические, семантические особенности, а также процессы понимания, идиомы изучаются не только с лингвистической точки зрения, но и с психолого-когнитивной. С. Балли, А. Кунин, В. Виноградов, Н. Амосова, Б. Фрейзер сыграли важную роль в становлении фразеологии как науки и положили начало многочисленным исследованиям по анализу фразеологизмов.

Ключевые слова: язык, грамматика, исследование, фразеология, изменения.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün İsayeva tərəfindən çapa tövsiyə olunmuşdur

AYBƏNİZ HƏSƏNOVA
Azərbaycan Texniki Universiteti
"Xarici dillər" kafedrasının baş müəllimi
H.Cavid pr.25
aybenizgasanova@com.ru
NAİLƏ QƏDİMOVA
Azərbaycan Dövlət İqtisadiyyat Universiteti
Xariuci dillər kafedrasının baş müəllimi

İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ FRANSIZ MƏNŞƏLİ ALINMA SÖZLƏRİN ROLU

XÜLASƏ

Norman dialekti vasitəsi ilə fransız mənşəli sözlər ingilis dilinin lüğət tərkibinə müxtəlif vaxtlarda daxil olublar. 1066-cı ildə Hastinqs döyüşü Anqlo-saksonlann məğlubiyyəti ilə nəticələndi. Bu döyüş Böyük Britaniyanın tarixində ən mühüm hadisələrdən biridir. Norman işğalçıları ölkədə uzun müddət hökmranlıq etdilər ki, bu da özünün dərin təsirini ingilis dilində, xüsusilə onun lüğət tərkibinin dəyişilməsində, inkişafında, zənginləşməsində göstərdi. Norman işğalı nəticəsində dövlətin mühüm idarə aparatları, məhkəmə zalları, kilsələr fransız işğalçıları tərəfindən idarə olunmağa başladı. Yuxan təbəqənin nümayəndələri İngiltərədə fransız dilində danışmağa başladılar. Əlbəttə ki, feodalların heç də hamısı fransız dilində danışmırdı. Fransız dili ingilis cəmiyyətinin yuxan təbəqəli nümayəndələri tərəfindən danışılırdı. Bunun da nəticəsində ingilis dilinin lüğət tərkibinə çoxlu sayda fransız mənşəli sözlər daxil olmağa başladı. Bəzi mənbələrə görə fransız mənşəli sözlərin ingilis dilinin lüğət tərkibinə daxil olduğu erkən dövr XII-XIV əsrləri, daha sonrakı dövr isə XVI əsrdən başlayaraq bu günə qədər olan vaxtı əhatə edir. Digər bir mənbəyə istinadən fransız mənşəli sözlərin ingilis dilinin lüğət tərkibinə daxil olduğu dövrləri aşağıdakı kimi qruplaşdırmaq olan

1.Böyük Britaniyanın 1066-cı ildə normanlar tərəfindən işğalı zamanı ingilis dilinin lüğət tərkibinə daxil olmuş fransız mənşəli sözlər.

2.XIV əsrdən başlayaraq bu günə qədər ingilis dilinin lüğət tərkibinə daxil olmuş fransız mənşəli sözlər.

Açar sözlər: ***söz yaradıcılığı, lüğət fondu , İngilis dili,dilin lüğət tərkibi,Fransız dili.***

Antrushina G.S. English Lexicology əsərində qeyd edir:"sYuxanda qeyd olunan dövrlərdə alınmış sözlərin özünəməxsus xüsusiyyətləri var. Onlar bir-birlərindən fərqlidirlər. Birinci dövrdə alınmış fransız mənşəli sözlər fonetik cəhətdən ingilis dilinin normalarına uyğunlaşıb. Bu dövrdə alınmış fransız mənşəli

sözlər tamamilə ingilis dilində təbiiləşib. Həmin sözlər ingilis dilinin tələffüzünə uyğunlaşıblar erkən dövrlərdə alınan fransız mənşəli sözlər sadə və təkhecalı sözlərdir**."(1.p.34-38)**

Məsələn: age, air, arm, both brace, breeze, brush, cage, calm, cape, car, case, cause, cease, cell, chain, chance, change, chase, chief chaise, claim, ciear, close, coıpse, course, court, crime, cry və s.

İkinci dövrdə alınmış fransız mənşəli sözlər heç bir dəyişikliyə uğramadan ingilis dilinin lüğət tərkibinə daxil olub. Həmin sözlər öz məna çalarlanm və formalarım qoruyub saxlaya biliblər.

Məsələn: toilette, hotel, regime, royalism, tyrany, aristokrat və s

Həmçinin fransız dilindən alınmış sözlər müasir ingilis dilinin lüğət tərkibində həm feil kimi, həm də isim kimi işlənir.

Məsələn: arm, blame, change, charge, cry və s.

Fransız dili yazılı nitq zamanı latın dili ilə birlikdə də istifadə olunub. İngilis dilinin tərkibinə daxil olmuş fransız mənşəli sözlərin bir qismi hakim sinfin həyatını əks etdirən sözlərdir. Həmçinin bu sözlərin içərisində idarəetmə və dövlətlə bağlı olan sözlər də vardır. Bunlar aşağıdakılardır: to govem, country, coıınty, State, power, parliamen, council, nation və s. Müasir ingilis dilinin lüğət tərkibində çoxlu sayda fransız mənşəli hərbi sahəyə aid olan terminlər vardır. Məsələn: army, armour, battle, war, peace, siege, defence, retreat, defeat:, conquest, victory, navy, officer, solider, sergant, guard, arms, admiral, assault, dart, dragoon, ensign, lance, mail, troops, vessel, aid, chalange, danger, escapc, spy enemy, gallant, mareh, prison və s.

Fransız dili Böyük Britaniyada rəsmi dövlət dili olduğundan həmin dövrdə məhkəmə zallarında da istifadə olunub. Bu səbəbdən də ingilis dilinin lüğət tərkibi fransız mənşəli hüququ terminlərlə zənginləşib. Məsələn: court, judge, justice, jury, to accuse, crime, felony, battery, droud, libel, slander, larcency, fee, guile, heritage, justify, penalty, priviliege, plaintiff, session, suit və s.

Norman işğalı zamanı ingilis dilinin lüğət tərkibinə həmçinin fransız mənşəli dini sözlər də daxil olub.Məsələn: religion, parish, saint, pray, blame, seımon, chapel elergy, vice, lesson, virtue, to tempt, Service və s.

Müasir ingilis dilinin lüğət tərkibində rast gəldiyimiz aşağıdakı elm və incəsənətə aid olan terminlər də fransız dilindən alınıb.

Məsələn: literature, art, Science, college, colour, architecture, to paint, volumc, poet, chapter, tower, palace, castle, novelist, publisher, magazine, editor və s.

Çoxsaylı ticarətlə bağlı olan sözlərə müasir ingilis dilinin lüğət tərkibində təsadüf olunur ki, onların da böyük bir hissəsi fransız mənşəlidir. Məsələn: merehant, money, puchase,value **və** s.Bir sıra fransız mənşəli mücərrəd anlayışlar Norman işğalı vaxtı (X1-X1V əsrlər) ingilis dilinin lüğət tərkibinə daxil olub.

Məsələn, despair, imagination, imaginc, spirit, instance, cause, adore, pray, honour, desire və s. Müasir ingilis dilinin lüğət tərkibində fransız mənşəli təbiət sahəsinə aid olan sözlər də vardır. Məsələn: autumn, river, to catch, to tum, to use, to

cry, to cover və s. Müasir ingilis dilinin lüğət tərkibində olan ev heyvanlarının adlannın bir hissəsi ingilis mənşəlidir. Lakin onlardan alınan ən məhsuldarlarının adlan fransız dilindən alınmış sözlərdir. Məsələn: **cow-beef, sheep-mıtton, swine-pork** və s.

Çox hallarda ingilislər aldığı fransız mənşəli sözlərə suffikslər əlavə etməklə həmin söz vasitəsilə onun məna çalarlannı genişləndirirlər. Məsələn: "mütin" sözünün fransız dilində yalnız 2 forması var (mutiner, mutmerie). Lakin müasir ingilis dilinin lüğət tərkibində bu sözün 4 formasına təsadüf olunur (mutincer, mutinoııs, mutinously, mutinousness).

Ginzburg R.S. A Course in Modern English Lexicology.kitabında yazırlar:" XVI-XV1I əsrdə alınmış fransız mənşəli sözlərin əksəriyyəti öz məna və formalarını qoruyub saxlayıblar. Həmin sözlərin yazılışı və tələffüzü ingilislər üçün təbiiləşib. Bu sözlərdə'fransız dilindəki sözlərə uyğun olaraq vurğu axırıncı hecanın üzərinə düşür. Məsələn: cravat [krə'vət], finance [taı'naens], fınesse [fı'nes], supreme [sju:'pri:m], machine [Tə'ji.n], prestige [pres't^J, regime [reı'3İ:m**]".(2.p.179)**

Müasir ingilis dilinin lüğət tərkibində bir sıra fransız mənşəli sözlər var ki, onlann tələffüzü standart deyil. Məsələn, garage [ga'ra^, 'gaendş] naive [na:i:v, neıv], naive [neıv] naivete [nai':v'teı], naivery [ııa: i, vty] naivety [neıvtı] vase [va:z, veıs, veız] rcstaurant [restərənt; restəro:i]].

Son dövrlərdə fransız dilindən alınmış sözlər XVI-XVII əsrləri əhatə edir. Bu dövrdə fransız dilindən alınmış sözlər Norman dialektindən deyil, Mərkəzi Paris dialektindən müasir ingilis dilinin lüğət tərkibinə daxil olmuş sözlərdir. Bu sözlərin alınmasına səbəb iki ölkə arasında olan siyasi, mədəni, iqtisadi əlaqələrin genişlənməsidir.1204-cü ildə Ölkədə hökmranlıq edən fransız dili öz üstünlüyünü ingilis dilinə verdi. Məhz bu dövrdə Böyük Britaniyada fransız dilinin işlənmə dairəsi məhdudlaşaraq sadəcə, rəsmi dövlət dili kimi qalmaqda davam etdi. XIII əsrin sonları XIV əsrin əvvəllərində isə ingilis xalqı fransız dilindən tamamilə imtina etdi. Bu səbəbdən də XIX əsrin II yansında Böyük Britaniyada dövlətin rəsmi dili yenidən ingilis dili elan olundu. Qeyd olunmuş dövrlərdə ingilis dilinin alınma sözlərə böyük ehtiyacı olduğundan onun lüğət tərkibi fransız mənşəli sözləri asanlıqla qəbul edərək zənginləşdi. Fransız mənşəli sözlər ilk dəfə ingilis dilinin lüğət tərkibinə fransız dilinin Norman dialcktİndəa sonralar isə bu sözlərin böyük bir qismi fransız dilinin Mərkəzi Paris dialektindən daxil olmuşdur. Dil - insanların müxtəlif yaradıcılıq sahələri ilə əlaqədar olan cəmiyyət məfhumudur. Dilin lüğət tərkibində bütün insan fəaliyyəti ilə bağlı olan (elm, mədəniyyət, istehsalat və s.) sahələrdə dil ictimai hadisədir və onun inkişafı daim dilin lüğət tərkibində öz əksini tapır. Dilin lüğət tərkibi daim yeni sözlər və ifadələrlə zənginləşərək, dil tərkibinə müxtəlif yollarla daxil olur. Dilin lüğət tərkibi daim inkişafdadır və daim dəyişir. Lakin bütün lüğət fondu eyni dərəcədə dəyişmir. Əsas lüğət fondu tərkibində dəyişikliklər gec-gec olur. Dünyada baş verən dəyişikliklər həmçinin dilin lcksikasında da öz əksini tapır, inkişaf hər sahədə getdiyi kimi, dilin leksikasmda da dəyişikliklər edir. Belə ki, dilin

leksikasmda köhnəlmiş sözlər öz yerlərini yeni sözlərə verməklə, dilin lüğət tərkibində də dəyişikliklər edirlər. Dilə daxil olan sözlər, dildən çıxan sözlərdən çox olduğundan dili daim zənginləşdirir, dilin zəngin məna çalarlığım itirməyə imkan vermir.

Söz yaradıcılığı bir tərəfdən leksika ilə çox sıx əlaqədardırsa, digər tərəfdən qrammatika ilə bağlıdır. Söz yaradıcılığının leksika ilə əlaqəsi ondadır ki, hər yenidən yaranan söz dilin lüğət tərkibində tək olur. Eyni zamanda yeni sözlərin yaranma prosesi həmin dilin modelinə, formasına uyğun olaraq yaranır. Bundan başqa hər yenidən yaranan söz bu və ya digər leksik - qrammatik söz tərkibinə daxil olur ki, bu da nitq hissələri adlandırılır. Bununla söz yaradıcılığı qrammatika ilə sıx əlaqəyə daxil olur.

Söz yaradıcılığının yolları. Müasir ingilis dilində söz yaradıcılığının məhsuldar növləri aşağıdakılardır: 1. Affikslər, 2. Konversiya, 3. Mürəkkəbləşmə, 4. Feillərin sonuna sözyaradıcı elementlərin qoşulması yolu ilə əmələ gəlməsi, 5. Qısaltmalar.

Koenin H. English Lexicology kitabında yazırlar**:"** Müasir ingilis dilində söz yaradıcılığının qeyri-məhsuldar növləri aşağıdakılardır: 1. Sait köklərin bir-birini əvəzetməsi, 2. Vurğunun dəyişməsi və s.

Bunlardan hər birinin öz xüsusiyyətləri vardır ki, bunları aşağıdakı kimi səciyyələndiririk: Məhsuldar olanlar - Affiksasiya**."(3.p.123)**

Morfoloji struktur baxımından əsaslar törənən və törənməyən olurlar. Bunlann bir-birindən fərqi ondan ibarətdir ki, törənə bilən əsaslar morfemlərə bölünə bildiyi halda, törənməyən əsaslar morfemlərə bölünə bilmirlər. Məsələn, worker, darken, westward, behard, misdeed və s. bunlar törənə bilən əsaslardır, belə ki, west, dark, head, deed köklərinə -er, -ward, -en, -be, -mis affiksləri artırmaqla bunu misal çəkmək olar.

İngilis dilinin zənginləşdirilməsi yolları yalnız həmin dilin söz yaradıcılığı ilə deyil, həmçinin başqa dillərdən alınmalar vasitəsilə həyata keçirilir. Bu alınmalar dilin lüğət tərkibinə müxtəlif yollarla daxil ola bilir, müxtəlif dillərdə özünü müxtəlif formada göstərir. İngilis dilində alınan alınmalar ən çox cəmiyyətin inkişafı nəticəsində yeni fikirlərin izah olunması zəruriyyətindən doğurdu. Dil tərkibində ahnmalann davamiyyətli olması, onların dildə işlənməsinə olan tələbatdan irəli gəlir.

Müasir ingilis dilinin lüğət tərkibi bir-birindən az və ya çox dərəcədə müxtəlif tarixi qatlarına, köklərinə, xarakterinə və həcminə görə fərqlənir. Buna əsasən sözlər belə bölüşdürülür:Söz, şübhəsiz alınmadır, a) Skandinaviya dillərindən, b) fransız dilindən, c) latın və yunan dillərindən, ç) rus dilindən; d) başqa dillərdən.

Qədim ingilis dilinin leksik fondunun yuxanda göstərilən alınmalan hesabına müasir ingilis dilində yaranan söz məcmusu.

Sonrakı dövrlə və ya qədim materialla müqayisədə sözlər nə alınma, nə də qədimdir, lakin mədənidir. Bu kateqoriyanın əsası ondan ibarətdir ki, bu bölməyə aid sözlər bütövdür, hazırdır, əgər yalnız köklər bu kateqoriyadan yuxandakı müxtəlif qruplara aiddirsə. Məs: müasir ingilis dilində -eatable yeməli sözü, -eat felindən -able

suffiksi vasitəsilə düzəlmişdir, fransız dilindən alındığından bütövlükdə qədim söz ola bilməz, -eat Özü kökünə əsasən qədim leksik fonda aiddir.

.**Rastorguyeva A. A History of English**.əsərində qeyd edirlər:", qədim ingilis sözləri qərbi german dilləri yanmqrupundan olan alman dili ilə də etimoloji paralellik təşkil edir. Məsələn: ingiliscə - day -gun, almanca - Tag; ingiliscə - night - gecə, almanca - Nacht; ingiliscə - way - yol, almanca - rot və s.**(4.p.66-68)**

Məlum olduğu kimi orta ingilis dili uzun dövr ərzində arası kəsilməyən intensiv təsirlərə məruz qalmışdır. Bir tərəfdən XI-XII əsrlərdə Skandinaviya istilaçıları İngiltərəyə Skandinaviya dillərini, digər tərəfdən isə 1066-cı ildə Norman istilaçıları tərəfindən fransız dili gətirilmişdir. Skandinaviya dillərinin və fransız dilinin ingilis dilinə təsiri digər dillərdən daha çox olmuşdur.

Skandinaviya dillərinin ingilis dilinə təsiri hələ IX-XI əsrlərdə skandinaviyalılann İngiltərəni işğalı zamanından başlamışdır. Həmin dövrdən ictimai-iqtisadi və mədəni inkişaf öz əksini ingilis dilində də tapdı. Belə ki, dilə daxil olan yeni terminlər və sözlər bu inkişaf ilə bağlı idi.

Alınmalar bir dildən başqa dilə keçən, həmçinin 2 dilin mübarizəsindən üstün gələn xalqın dili ilə başqa dillərdə mövcud ola bilər. Bu mübarizədən biri mütləq qalib çıxır. Lakin öz qrammatik sırasını və lüğət fondunun əsasını saxlayan qalib dil bir qayda olaraq öz lüğət tərkibinin məğlub olmuş dildən alınma sözlər hesabına inkişaf etdirir.

Məlum olduğu kimi hər hansı bır dildə olan sözlərin cəmi əsas lüğət fonduna da daxil olmaqla o dilin lüğət tərkibini təşkil edir. Lüğət tərkibi dilin vəziyyətinin mənzərəsini əks etdirir. Lüğət tərkibi nə qədər zəngin və inkişaf etmiş olur.

Sözün yaranma mənbəyinə görə sözlər 2 qmpa aynlır: L Dilin öz sözləri; 2. Alınma sözlər.

1. Müasir ingilis dilinin öz sözləri diaxron dilçilər tərəfindən Hind-Avropa mənşəli və Ümumi German mənşəli sözlərə bölünürlər. Eyni kökdən ibarət olan sözlər başqa Hind-Avropa dillərində de mövcuddur. Qeyd olunmalıdır ki, dilin Öz sözləri müəyyən semantik qruplara ayrılırlar. Onların arasında qohum olan terminlərə təsadüf olunur. Məsələn: father, mother, daughter, son, brother və s. Təbiətin mühüm obyektlərinin, fəza cisimlərinin adlannı ifadə edən sözlər. Məsələn: sun, moon, star, wind, water, wood, hili, stone, tree və s.

Quş və heyvan adlarım ifadə edən sözlər. Məsələn: bull, cat, grow, goose, wolf və s,

insanın bədən üzvlərinin adlarım ifadə edən sözlər. Məsələn: arm, ear, eye, foot, heart və s,

Həmçımn bır çox ümumışlək fellər do bu qıupa aiddir. Məsələn: sit, stand, bear, come və s.

Bu qəbildən olan sifətlər isə aşağıdakılardır. Məsələn: hard, quick, slow, red, white və s.

ingilis dilinin özünün sözlərinin böyük bir hissəsi Ümumi German söz kökləri hesabına formalaşıb.

2. Alınma sözlər hər hansı bir xarici dildən götürülərək fonetik və yazı cəhətdən standart ingilis dilinə uyğunlaşmışlar. Dildəki alınma sözlər həmin dilin tarixi ilə əlaqədardır. Bu baxımdan xalqlar arasında olan mədəni, siyasi, iqtisadi və linqvistik əlaqələr zəruridir. İngilis xalqının tarixi belə əlaqələrlə olduqca zəngindir. Alınma sözlərin hər hansı bir dilin lüğət tərkibinə daxil olması tarixi faktlardan asıbdır. Dəqiq hesablamalara görə müasir ingilis dilinin lüğət tərkibində olan sözlərin 70%-i alınma sözlər, 30%-i isə əsl ingilis sözləridir.

ƏDƏBİYYAT:

1.Antrushina G.S. English Lexicology. Moscow, 1973.p.34-38
2.Ginzburg R.S. A Course in Modern English Lexicology. Moscow, p.179.
3.Koenin H. English Lexicology. Moscow, 1974.p.123.
4.Rastorguyeva A. A History of English. Moscow, 1984.p.66-68.

А.Гасанова

РОЛЬ СЛОВ ФРАНЦУЗСКОГО ПРОИСХОЖДЕНИЯ В ОБОГАЩЕНИИ АНГЛИЙСКОЙ ЛЕКСИКИ

РЕЗЮМЕ:

Словарь современного английского языка содержит большое количество военных терминов французского происхождения. Например: армия, доспехи, битва, война, мир, осада, оборона, отступление, поражение:, завоевание, победа, флот, офицер, солдат, сержант, гвардия, оружие, адмирал, штурм, дротик, драгун, прапорщик, копье, почта, войска, судно, помощь, вызов, опасность, побег, шпион, враг, галантный, марех, тюрьма и т. д. Поскольку французский язык был официальным языком Соединенного Королевства, в то время он также использовался в залах судебных заседаний. По этой причине словарный запас английского языка обогащается терминами французского происхождения. Например: суд, судья, правосудие, присяжный, обвинять, преступление, уголовное преступление, побои, дроуд, клевета, клевета, воровство, гонорар, хитрость, наследие, оправдание, штраф, привилегия, истец, заседание, иск и т. д. Производные слова взяты из любого иностранного языка и фонетически и письменно адаптированы к стандартному английскому языку. Производные слова в языке связаны с историей этого языка. В связи с этим необходимы культурные, политические, экономические и языковые отношения между народами. История британского народа очень богата такими связями. Включение производных слов в словарь любого языка зависит от исторических фактов. По точным подсчетам, 70 % слов в словаре современного английского

языка являются производными словами, а 30 % — настоящими английскими словами.

Ключевые слова: словотворчество, лексика, английский язык, лексика,французский язык.

A.Gassanova

THE ROLE OF WORDS OF FRENCH ORIGIN IN THE ENRICHMENT OF ENGLISH DICTIONARY

SUMMARY

The dictionary of modern English contains a large number of military terms of French origin. For example: army, armour, battle, war, peace, siege, defense, retreat, defeat :, conquest, victory, navy, officer, solider, sergant, guard, arms, admiral, assault, dart, dragoon, ensign, lance, mail , troops, vessel, aid, chalange, danger, escapc, spy enemy, gallant, mareh, prison, etc. Since French was the official language of the United Kingdom, it was also used in courtrooms at that time. For this reason, the vocabulary of the English language is enriched with terms of French origin. For example: court, judge, justice, jury, to accuse, crime, felony, battery, droud, libel, slander, larcency, fee, guile, heritage, justify, penalty, priviliege, plaintiff, session, suit, etc. Derived words are taken from any foreign language and phonetically and writtenly adapted to standard English. Derived words in a language are related to the history of that language. In this regard, cultural, political, economic and linguistic relations between nations are necessary. The history of the British people is very rich in such ties. The inclusion of derived words in the vocabulary of any language depends on historical facts. According to accurate calculations, 70% of the words in the dictionary of modern English are derived words, and 30% are real English words.

The Roman occupation, the spread of Christianity, the Scandinavian and Norman invasions, and the development of the British colonies and empires all contributed to the enrichment of the English vocabulary.

Açar sözlər: ***söz yaradıcılığı, lüğət fondu , İngilis dili,dilin lüğət tərkibi,Fransız dili.***

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: fililigiya üzrə fəlsəfə doktoru,dosent Natella Axundzadə tərəfindən çapa tövsiyə olunmuşdur

NİGAR HƏSƏNOVA
AYTƏN HACIYEVA
Azərbaycan Texniki Universiti
"Xarici Dillər" kafedrasının baş müəllimləri
H.Cavid pr.25
nigarayten@.mail.ru.

QƏDİM İNGİLİS DİLİNİN ALINMA SÖZLƏR VƏ DAXİLİ AMİLLƏR HESABINA ZƏNGİNLƏŞMƏSİ,İNKİŞAFI VƏ ONUN QOHUM DİLLƏRLƏ ƏLAQƏSİ

XÜLASƏ

Məlumdur ki, heç bir dil təkçə fəaliyyət göstərmir. O, həmişə başqa dillərlə əlaqədə olur. Bu dillər müxtəlif vasitələrlə bir-birinin mədəniyyətinə, dilinə ədəbiyyat və həyat tərzinə təsir edir. Heç bir dildə bu əlaqədən, bu kontaktdan yayına bilmir. Böyük alim V.V.Humboldta görə dil tamamlanmamış bir olmaqla həm də daim hərəkətdə olan bir adətdir. Xarici amillər aramsız olaraq dilə təsir edir və onda öz izlərini qoyub gedir. Odur ki, ingilis dilinin tarixində xarici təsir məsələsinə həmişə çox diqqət yetirilmişdir. Məlum olduğu kimi, dil içtimai hadisədir,o içtimai hadisə olmaqla yanaşı həmçinin başqa ictimai hadisələrlə də sıxı sürətdə bağlıdır. Hər bir dil, yavaş- yavaş da olsa, daim və durmadan inkişaf edir təkmilləşir.

Qədim ingilis dilinin lüğət tərkibi əsasən daxiili amillər hesabına zənginləşmiş, inkişaf etmiş və təkmilləşmişdir. Qədim ingilis dilinin lüğət tərkibi, əsasən german mənşəli sözlərdən ibarət olmuşdur. Halbuki, orta və yeni ingilis dilinin lüğət tərkibi çoxlu miqdarda ekstralinqvistik təsirlərə məruz qalmışdır və onların lüğət tərkibində alınma sözlər çoxluq təşkil etmişdir və bir çox xarici sözlərin mənisənilməsi nəticəsində doğma sözlərlə alınma sözlərin tarazlığı pozuldu.

Açar sözlər: İngilis dili,lüğət tərkibi, ekstranlinqvistika,inkişaf,alınma sözlər

Z.Verdiyeva,F.Ağayeva,MAdilov,"Azərbaycan dilinin semisiologiyası" kitabında müəlliflər yazırlar:"Qədim ingilis dilinin lüğət tərikibini nəzərdən keçirərkən ingilis tayfalarının Roma mədəniyyəti və romalılarla müəyyən əlaqələrinin olması məlum olur. Roma dillərində qədim ingilis dilinə ən çox təsir edən dil latın dili olmuşdur. Hələ qitədə yaşayərkən german tayfaları romalılarla, uzunmuddətli ticarət əlaqələrinə girmiş, onlarla sıx unsiyyətdə olmuş və bunun nəticəsində 50-yə qədər latın sözləri,onların dilinə daxil olmuşdur. Bu sözlər kənd təsərrufatı, ev əşyaları və hərbi işlərlə bağlı olan sözlərdir**.(1.s.36-42)**

Eramızın birinci əsrində germanlarda kənd təsərrufatı çox zəif inkişaf etmişdir. Buynuzlu heyvan əti və süd ən mühüm qida maddələrindən biri olduğuna baxmayaraq, germanlar yağ və pendir nə olduğunu bilmirdilər. Bir sıra meyvələri, o

cümlədən armud, gavalı, gilas və.s; bostan məhsullarından turp çuğundur, noxud istiot, nanə və s.-ni tanımırdılar. Yeni əmtəələrin germanlar arasında yayalmasında roma tacirlərinin böyük rolu olmuşdur.

Eramızın birinci əsrində Braitaniyam zəbt edən romalılar ölkəni öz müstəmləkərinə çevirib, orada bir sıra hərbi düşərgələr, daş döşənmiş yollar,strata , istehkamlar və.s qurdular.

Müdafiə və yaşayış məqsədilə tikilmiş bu cür tikintilər latınca "strata " küçə": castra düşərgə : vallum -kərpic divar : vicus - yaşayış qəsəbəsi və.s adlanırdı.

O zaman İngiltərənin yerli sakinləri Keltlər idilər. Onlar həmin latın sözlərini mənimsədilər, öz dillərində işlətdilər. Kelt dili vasitəsilə V əsrdən sonra qədim ingilis dilinə keçmiş bu cür sözlər latın dilində alınma sözlərinin ikinci qatını təşkil edir.

Latm "strata" sözü qədim ingilis dilində "straet " formasında işlənmişdir Bu söz əvvəlcə latm dilində olduğu kimi yol mənasmda işlənmiş, sonralar isə yolun hər iki tərəfində yaşayış qəsəbələri tkilidiyindən, həmin söz- **Street** -kücə mənası kəsb etdi.

Romalılann müdafiə məqsədilə kərpici hasara verdikləri ad **vallum** qədim ingilis dilində **"weall" (wall**) adlanmağa başladı.

Qeyd edək ki, Keht-german leksik əlaqələri məsələsi germanistikada o qədər də aydın müəyyənləşdirilməmişdir.

Kelt dilində qədim ingilis dilinə keçən sözlər təxminən aşağıdakılardan ibarətdir: **"dry" istehkam" təpə"** və.s bu sözlərin bəzilərinə coğrafi adlarda da təsadüf edilir.

Britanynın hərbi işlərilə yanaşı Roma tacirləri , Roma vətəndaşları axıb gəlməyə başladılar. Onların yaşadıqları qəsəbə "**vicus**" adlanırdı. Bu söz anglo-sakslar tərəfində mənimsənildi və qədim ingilis dilində "**wic"** forması mənasını kəsb etdi. **"Wic"** isimindən **"wician**"- yaşamaq , məskunlaşmaq" feili yarandı. Sonralar, daha doğrusu, orta dövrdə **wic** sözü fonetik dəyişikliyə məruz qalaraq **wich** forması aldı və bu söz aşağıdakı bir sıra yer adlarının tərkibində işlənməyə başladı: **Greenwich, woolwich, Norwich** (samitdən sonra "**w"** oxunmur).

F.Yadigar "German diliçiliynə giriş"əsərində qeyd edir:" Latın sözləri, əsasən, kilsə və dini sözlərdən ibarətdir. Eramızın VI -VII əsrlərində Romadan göndərilmiş monaxlar Britaniyada xristian dinini yaymağa və əhalini xristianlaşdırmağa başladılar. Xristian dininin ölkədə yayılması ilə əlaqədər olaraq ingilis dilinə, dinlə bağlı yeni məfhumlar, yeni sözlər axıb gəlməyə başladı.(**2.s.196-204)**

Latın sözləri kimi qədim ingilis dilinə daxil olmuş sözlər mənşəcə, əslində yunan sözləri idi. Tarixdən məlumdur ki, əvvəlcə dini kitabələr yunanca yazılmış,sonradan isə latın dilinə tərcümə edilmişdir. Latın dili kilsə dili olduğundan,həmin dilin sözləri bir çox xalqların lüğətinə keçmişdir. Tədqiqatçıların hesablamalarına görə,qədim ingilis dilində təxminən 500-ə qədər din və təlimlə bağlı alınma latın sözlərinə təsadüf edililr.

Kilsə ayinlərini icra etmək və müqqədəs mətnləri oxumaq savadlı dini xadimlərin olmasım tələb edirdi. Odur ki, VII əsrdən başlayaraq Britaniyadan monastr məktəbləri təsis edildi. Britaniyada məktəblərin açılması, adamların latın dilində savadlanması, qədim ingilis dilinin lüğət tərkibinə bir sıra latm sözlərinin daxil olmasına səbəb oldu . Onlar din və təlimlə bağlı sözlər idi.

Tarixi inkişaf prosesində hər bir dil müxtəlif dəyişmələrə məruz qalır. Dəyişmələr dilin ayrı-ayrı səviyyələrində özünü göstərir.Lakin ilkin dəyişmələr özünü bilavasitə dilin lüğət tərkibində biruzə verir. Dil tarixinin öyrənilməsi dilin mövcud olduğu müxtəlif dövrlərdə onda baş verən dəyişmələrin ümumi mənzərəsini açmağa imkan verir.

Dilin lüğət tərkibindəki alınmalar həm alınma mənbəinə, həm də alınma dövrünə görə fərqləndirilir.Müasir ingilis dilində müxtəlif dillərdən alınmalar vardır.İngilis dilindəki alınmaları beş əsas qrupa birləşdirmək olar:

1) kelt dilindən alınmalar; 2)latın dilindən alınmalar (ümumiyyətlə latın alınmalarının üç qatı göstərilir.I qat bizim eradan əvvələ təsadüf edib bizim eranın VI əsrinə qədər bir dövrü əhatə edir, II qat V-VI əsrlərə,xristianlığın İngiltərədə yayıldığı dövrə aid edilir, III qat intibah dövrü ilə əlaqədar XV-XVI əsrlərdə ingilis dilinə keçmiş latın sözləridir);

2) skandinav dillərindən alınmalar;

3) qədim fransız (XII-XVəsrlər) və yeni fransız (XVI əsrdən sonra) dilindən alınmalar;

4) başqa dillərdən (yunan,italyan,holland,ispan,rus,alman,fars və s.) alınmalar

Müasir ingilis dilində alınmalar sayca həm çoxluğu, həm də mənbə müxtəlifliyi ilə seçilir. Bu dildə dünyanın təqribən 50 dildən alınma sözlər vardır. Bu sözlər müasir ingilis dilinin lüğət tərkibinin, demək olarki, 70 %-ni təşkil edir.

Qeyd olunan alınma sözlər ingilis dilinə müxtəlif dövrlərdə müxtəlif tarixi mərhələlərdə keçmişdir. Hər bir dövr özünə görə tarixi, sosial, iqtisadi, mədəni əlaqələri əhatə edir. Dil elementlərinin qeyri-müntəzəm inkişafı haqqında ümumi qanuna görə dilin daha vacib elementləri təsirə tez məruz qalır.

Dildə belə elementlər dilin lüğət tərkibinə daxil olan sözlərdir. Dilin qrammatikası isə kənar təsirə qarşı davamlıdır. Bu və ya digər dilin təsiri tarixi səbəblərlə - müharibələr, ərazinin işğalı, səyahət və s.

3.Antusisina. B, Apha Syeva .O, V, Morozova .N N, Engilish lexicology"əsərində yazırlar:"Bu və ya digər dilin təsiri tarixi səbəblərlə - müharibələr, ərazinin işğalı, səyahət, ticarət və s. ilə əlaqədardır. Bütün bu hadisələr dillərarası əlaqələri sürətləndirir.Yeni alınma sözlərin intensivliyinin artması müxtəlif dövrlərdə fərqlidir. Konkret tarixi şəraitdən asılı olaraq alınma sözlərin sayı artır, ya da azalır. Bir dilin digərinə təsiri dil amili ilə bağlıdır. Qarşılıqlı əlaqədə olan dillərin yaxınlığı,yaxud uzaqlığı bu məsələdə əhəmiyyətli rol oynayır. Yaxın və qohum dillərin bir-birinə təsiri həmişə daha güclü və intensiv olur. Lakin dilin tarixi inkişaf prosesində dillərarası əlaqədə qohum dillər arasındakı əlaqə çox vaxt

dominant səviyyədə olmur. Nəticədə müxtəlif sistemli,yaxud qohum olmayan dillər arasındakı əlaqə ön plana keçir. İngilis dili də müxtəlif dillərdə qarşılıqlı əlaqədə olmuşdur. Bu əlaqələr ingilis dilinə təsir etmiş və bu dildə izini saxlamışdır.İngilis dilini tarixinə görə üç dövrə bölürlər:1)qədim ingilis dövrü:2) VII- XI);orta ingilis dövrü (XII-XV əsrlər);3) yeni ingilis-XVI əsrlər dövrü**"(3.s.123-134).**

Qədim ingilis dilinin leksik tərkibi əsasən bircinsli olub german mənşəli sözləri əhatə etmişdir. Bu sözlərin hind-Avropa dillərində oxşarları özünü göstərmişdir. Yartseva göstərir ki, ingilis dilinin qrammatik quruluşunda baş verən bəzi faktları latın dilinin qismən, yaxud tam təsiri ilə izah etmək olar. Məsələn :

1.Acc+inf (İ want you to come and dine with me) konstruksiyası: Non +Inf (sara is said to resemble me) konstruksiyası: 2.Absolute + participle (generally speaking , this novel is not very interesting) konstruksiyası, 3.Sequence of Tenses: 4.Bir köməkçi **to be** feilləri analatik passiv formada işlədilməsi, 5.“ Continuous Tenses zamanlarının əmələ gəlməsi ilə izah olunur.Skandinav dilləri ingilis dilinin sintaksisinə də təsir etmişdir. Müasir ingilis dilində modal mənalı **“should” və “would”** feillərinin köməyi ilə feilin analitik formasının yaranmasını (məs: İ should have spoken to him-Mən onunla danışmalı idim: Mən gərək onunla danışaydım)Feil —zərf birləşmələrinin (məs: to give up , to go on , to put out)geniş vüsət alınmasımda Skandinav dillərinin təsiri ilə izah edirlər.Alınma prefikslər məhsuldar və qeyri məhsuldar tekmənalı və çoxmənalı ola bilirlər .Məsələn ,alınma **”de”** prefiksi , Müller luğətinə əsasən o yüzə qədər feil əmələ gətirmişdir.Prefiks təkcə sözün mənasını dəyişdirmir, o sözü başqa leksik qrammatik sinifə aid etmək qabiliyətinə də malikdir.

Dilşünas Yartseva kalkaların iki müxtəlif növünü ayırır:a)sintaktik model mənimsənir, fransız tərkibli sözdə, söz ingilis dilinin quruluşunu saxlamaqla tərcümə edilir:

Fr:mettre son estude — Eng . to set one s study Fr:a mon pouvour —Eng. At one s might

Əgər qədim ingilis dilində sintaktik modellər , sintaktik kalkalar fransız, dilində edilirisə, orta ingilis dili dövründə fransız dilində **“sans**” kimi mənimsəniinirdi.

İngilis dili ilə skandinav dillərinin çarpazlaşması ingilis dilində qrammatik quruluşun dəyisməsinə səbəb oldu.Sintetik quruluşlu dil analitik-qrammatik quruluşla əvəz edildi.

Oruc Türksevər (Musayev), İngilis dilinin qrammatikası, Bakı-2007kitabında yazır:”Bu onu göstərir ki, İngilis dilində özündə feil əsasında ikimənalılığı inkişaf etdirməyə meyilli idi. Fransız alınmaları buna manə olmadıdılar, əksinə , qədim təsirli və təsirsiz feillərin dəyişməsi prosesinə, onun tezləşməsi prosesinə kömək etdilər. Dilin qrammatik quruluşunda dəyişmələr o zaman baş verir ki, ana dilinin öz rüşeymlərində bu xüsüssiyətlər mövcüddur, məsələn, qədim ingilis dilində zəif **“dental”** şəkilçili keçmiş zaman feilləri çox məhdud idi. Lakin orta dövrdə fransız alınma feillərinin təsiri nəticəsində,onların təkanı nəticəsində əvvəlki zəif sözlərin

təsrif forması ən məhsuldar növə çevrildi fransız dilinin təsiri ilə ingilis dilində yaranan analitik quruuluşla yanaşı sintaktik kalkalar da yaranmağa başladı.**(4.s.66-75)**

Bir şeyi qeyd etmək lazım bilirik ki, ümumiyyətlə ingilis dili sintaktik "yad"meyllərə qarşı çox sabitidir . Bu dəyişmələr o zaman baş verir ki, doğma dilin üz rüşeymində belə meyillər olsun. Fransız dili bu meyilləri hərəkətə gətirib inkişaf etdiridi.

1. Alınma sözlər və onların struktur – semantik xüsusiyyətləri.

Ictimai hadisə olmaq etibarilə dil daim inkişaf edir və zənginləşir. Qrammatikadan fərqli olaraq dilin lüğət tərkibi dəyişməyə daha çox meyillidir. Həm də hər bir canlı dilin leksikası kəmiyyətcə çox sürətlə artır, yeni anlayışlar, yeni məfhumlar, sözlər tələb edir, halbuki, köhnə sözlər isə bir qayda olaraq yeni sözzlərlə birlikdə qalır, onların yalnız az bir hissəsi dildə istifadədən çıxaraq arxaizimlərə çevrilir. Burada artma prosesi azalma prosesini əhəmiyyətli dərəcədə ötüb keçir, say daim artır. Məsələn, ingilis dilinə məxsus **ın«dok»** sözü dilimizə təzəcə daxil olmuş, azərbaycanın izahlı lüğətində «gəminin təmir olunduğu karxana» kimi verilmişdir. Bu alınma sözün alternativi olaraq dilimizdə «gəmi tərsanəsi» söz birləşməsi şəklində işlənmiş və bunların arasında elə bir məna fərqləri olmasa da, hər ikisi dilimizdə işlənməkdədir.Dilin lüğət tərkibini zənginləşdirən vasitələrdən biri ingilis dilinə məxsus alınma sözlər təşkil edir. Yeri gəlmişkən, qeyd etmək lazaımdır ki, ingilis dilinə məxsus söz və terminlər dilimizə zorakı yolla deyil, zərurət nəticəsində qəbul edilmişdir və dildə ana dili elementləri ilə ünsiyyətdə olmuş, onlarla qaqynayıb qarışmış, dildə bir növ özünə vətəndaşlıq hüququ qazanmışdır. Həqiqətən də əksər hallarda, hamı tərəfindən qəbul edilmiş elmi – texniki terminlərdən ibarət olan zəruri əcnəbi sözlər tərcümə edilsəydi, onların işlətmək lazım gəlməzdi. Deməli, bunların tərcüməsi yalnız mənasını təhrif edir, sözün düzgün başa düşülməsinə çətinlik törədir.

Ictimai hadisə olmaq etibarilə dil daim inkişaf edir və zənginləşir. Qrammatikadan fərqli olaraq dilin lüğət tərkibi dəyişməyə daha çox meyillidir. Həm də hər bir canlı dilin leksikası kəmiyyətcə çox sürətlə artır, yeni anlayışlar, yeni məfhumlar, sözlər tələb edir, halbuki, köhnə sözlər isə bir qayda olaraq yeni sözzlərlə birlikdə qalır, onların yalnız az bir hissəsi dildə istifadədən çıxaraq arxaizimlərə çevrilir. Burada artma prosesi azalma prosesini əhəmiyyətli dərəcədə ötüb keçir, say daim artır. Məsələn, ingilis dilinə məxsus **ın«dok»** sözü dilimizə təzəcə daxil olmuş, azərbaycanın izahlı lüğətində «gəminin təmir olunduğu karxana» kimi verilmişdir. Bu alınma sözün alternativi olaraq dilimizdə «gəmi tərsanəsi» söz birləşməsi şəklində işlənmiş və bunların arasında elə bir məna fərqləri olmasa da, hər ikisi dilimizdə işlənməkdədir.Dilin lüğət tərkibini zənginləşdirən vasitələrdən biri ingilis dilinə məxsus alınma sözlər təşkil edirIngilis dilində alman təsirli və təsirsiz fellər

mövcud idi, lakin bu kateqoriyalar üçün morfoloji göstərici mövcud deyildi. Eyni bir fransız feili həm təsirli, həm də təsirsiz feil kimi işlənirdi. Halbuki, qədim ingilis dili feilində təsirli feillər təsirsiz feillərdən fərqlənirdi.

Qədim ingilis dilinin lüğət tərkibi din və təlimlə əlaqədər alınma latın sözlərindən əlavə,kalka yolu ilə yeQni latın sözlərinin hərfi tərcümə etməklə də zənginləşmişdir.Buna misal olaraq hərfinin günlərinin adlarını göstərmək olar.

Ekstralingvistik amillərin təsiri özünü məhdud da olsa, dilin qrammatiksında da göstərir. Lüğət tərkibinin intensiv şəkildə dolğunlaşması , sözlərin axıb gəlməsi ingilis qrammatik quruluşunda xeyli dəyişikliklər baş verməinə səbəb oldu.

Adətən alınma sözlər onu mənimsəyən dilin inkişaf qanunlarına tabe olur, lakin onlar özlərini həmin dildə inkişaf etməyə meyilli olan inkişaf proseslərini sürətləndirir.

ƏDƏBİYYAT;

1.Z.Verdiyeva,F.Ağayeva,MAdilov,“Azərbaycan dilinin semisiologiyası” Bakı 1979.s.36-42.
2.F.Yadigar “German diliçiliynə giriş” Bakı 2003.s.196-204.
3.Antusisina. B, Apha Syeva .O, V, Morozova .N N, Engilish lexicology” M,1985.c.123-134.
4.Oruc Türksevər (Musayev), İngilis dilinin qrammatikası, Bakı-2007.s.66-75

N.Gasanova,A.Gadjiev

Semantical transformation in voratulary of old English and lingual relations

SUMMARY

The article deals with the role of extralinquistk factors in change of the English vocabulary.The article the touches problem of changes in grammatical of the English language as a result of the English language as a result of extralingistic factors as well. The article analyses some words of Latin origin in English, their comporation with other languages of Westem-European origin. Such terms as: “change”, “continue”, “sound”, “turn”, “join” are analysed duply in simple and compound sentences.No language can broadcast this connection, this contact. According to the great scientist W.W. Humboldt, language is not only incomplete, but also a habit that is constantly in motion External factors constantly affect the language and leave their mark on it. Therefore, in the history of the English language, the issue of external influence has always been given a lot of attention.

As is well known, language is a social phenomenon, and in addition to being a social phenomenon, it is also closely related to other social events. Every language, albeit slowly, is constantly evolving and improving. The vocabulary of Old English was enriched, developed and improved mainly due to internal factors.

The vocabulary of Old English consisted mainly of words of German origin. However, the vocabulary of the Middle and New English languages was subjected to a large number of extralinguistic influences, and their derived words in the dictionary were in the majority, and as a result of the assimilation of many foreign words, the balance of native and derived words was disturbed.

Key words: vocabulary stock, extranlinguisitic factors,to become rich,English,

Н.Гасанова,А.Гаджиева

Семантическая трансформация в словарном составе старинном английском языке и языковые связи

РЕЗЮМЕ

Статья посвящена изучению роли экстралингвистических факторов в изменении словарного состава английского языка.В статье так же затронуть грамматические изменение в результате экстарилингвистического фактора английского языка.В статье анализируются некоторые слова латинского происхождения в английском языке, их сравнение с другими языками западноевропейскими происхождения. Такие термины как: “change”, “continue”, “sound”, “tum”, “join” глубоко анализируются в простых и сложных предложениях. Ни один язык не может транслировать эту связь, этот контакт. По мнению великого ученого В. В. Гумбольдта, язык не только несовершенен, но и является постоянно находящейся в движении привычкой.

Внешние факторы постоянно воздействуют на язык и накладывают на него свой отпечаток. Поэтому в истории английского языка вопросу внешнего

Как известно, язык есть социальное явление, и кроме того, что это социальное явление, он также тесно связан с другими социальными явлениями. Каждый язык, хотя и медленно, постоянно развивается и совершенствуется.

Словарный запас древнеанглийского языка обогащался, развивался и совершенствовался в основном за счет внутренних факторов.

Ключевые слова:словарный состав, экстралингвистика. развитие, Английский язык, заимствование.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru,dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur

ELNURƏ MIRZƏCAN QIZI ŞIRINOVA
Bakı Slavyan Universitetinin doktorantı
ADPU Quba filialının
müəllimi
Email: elnure_ehmedova@mail.ru

TÜRK NAĞILLARINDA "DAŞ" LEKSEMİNİN KONSEPTUAL SAHƏSİ

Xülasə

Daş qədim zamanlardan türk mədəniyyətində və məişətində mühüm yer tutmuşdur. Türk mədəniyyətinin mühüm tərkib hissəsi olan xalq nağıllarında daş müxtəlif formalarda görünür.

Bu araşdırmanın mövzusu türk nağıllarında daş motivini araşdırmaq və bu leksemin konseptual sahəsini müəyyənləşdirməkdir. Türklərin inancları arasında mühüm yer tutan daşın nağıllarda necə yer aldığı, hansı xüsusiyyətlərə malik olduğu və daşın funksiyaları təhlil etməyə çalışılmışıq. Məqalədə nağıl anlayışı, onun ümumi xüsusiyyətləri, digər janrlarla əlaqəsi haqqında məlumat verildikdən sonra daşın türk mədəniyyətindəki yeri haqqında məlumat verilir.

Həmçinin bu hissədə türk nağıllarında daş və mübarək qaya obrazı, bu obrazın mətndaxili konseptual sahəsi haqqında məlumat verilir, türk mədəniyyətində mühüm yer tutan məzar daşlarından və onların nağıllarda mövqeyindən bəhs edilir, keçmişdə və günümüzdə hələ də canlı olan inanclar təhlil edilir.

Açar sözlər: Türk nağılları, "daş" leksemi, konsept, konseptual sahə.

Nağıl anonim xalq ədəbiyyatının nəsr janrlarından biridir. Nağıl yalnız ona aid olan "*biri var imiş, biri yox imiş*", "*zaman zaman içində, xəlbir saman içində*" ... kimi formalardan biri ilə başlayır və xəyali ölkədə baş verən hadisələrdən bəhs edir. Nağıl və obrazlar uydurma olmasına baxmayaraq, Çin, Hindistan, Yəmən, İstanbul kimi real toponimlərə də rast gəlmək olur. Nağıllarda qəhrəmanlar adətən qeyri-adi varlıqlardır və zaman anlayışı birmənalı deyil. Sadə və anlaşıqlı dildə yaradılmış nağıllar türk mədəniyyəti baxımından son dərəcə əhəmiyyətli olan xalq ədəbiyyatı nümunələrindən biridir.

Şifahi ənənə günümüzə qədər gəlib çatmış nağılların nəqlində mühüm vasitələrdən biri olmuşdur. Onların inandırıcılığı zəif olsa da, nağıllar bir çox ənənələrin nəsildən-nəslə ötürülməsində mühüm rol oynamışdır. Beləliklə, uşaqların dinləməkdən həzz aldıqları və hər dinlədiklərində inanmaqdan yorulmayan nağılları mühüm mədəni ənənələri ötürmə mənbəyi hesab etmək olar. Nağıllar ümumi xüsusiyyətlərin bir çox mədəniyyətdə tapıla biləcəyini göstərən universal mənbələrdr. Onların leksik tərkibi çox zəngindir və bu leksik vahidlər yüksək paradiqmatik imkanlara makildir. Türk nağıl leksikasında diqqətimizi çəkən dil vahidlərindən biri "daş"dır.

Daşlar tarix boyu türk mədəniyyətində və ənənəsində mühüm yer tutmuşdur. İnsanların daşlarla bağlı inancları və adətləri dövrümüzə qədər gəlib çatmışdır. Xüsusilə türk din tarixində ilk ağıla gələn "yağış", yaxud "daş"dır. Zamanla islamın qəbulu ilə türklər arasında daşla bağlı müxtəlif inanclar meydana çıxdı. Təbii ki, türklərdə daş mövzusu bununla məhdudlaşmır. Daşlar türk mədəniyyətində islamdan əvvəl və sonra müxtəlif formalarda meydana çıxmışdır: şəfa daşları, talisman daşları, qiymətli daşlar, səbr daşı, arzu daşı və s.

Türk mədəni həyatında rastlaşdığımız daş və daş növlərinin xalq dastanlarında, xüsusilə nağıl və əfsanələrdə daş motivlərinə tez-tez rast gəlinir. Bu məqalədə türk nağıl mətnlərindən topladığımız daş və daş növləri araşdırılmış və bu daşların nağıl mətnlərindəki konseptual sahəsini təhlil etməyə çalışmışıq.

Bərk və sərt maddə olaraq xarakterizə edilən daşlar qiymətli və adi olaraq ikiyə ayrılır. Tarixin ən ibtidai icmalarından tutmuş, ən qabaqcıllarına qədər dünya mədəniyyətləri arasında mühüm yer tutan daşlarla bağlı müxtəlif inanclar, adət və ənənələr mövcuddur. Bunlar: ibadət, sehr, tilsim, xeyir, dərman, məhsuldarlıq, şəfa, nəzir, and, uşaq dünyaya gətirmək, cinsiyyət müəyyən etmək, külək, yağış və qar gətirmək kimi...qruplaşdırmaq olar. Daşlardan türk mədəniyyət və ədəbiyyatında da istifadə olunur (2:11).

Türklərdə daşla bağlı inanclar qədim dövrlərdə əcdad kultu və ya torpaq, su ruhları ilə bağlı mövcud olmuşdur. Müsəlman olduqdan sonra köhnə inanclarından tamamilə əl çəkməyən türklər bu inanclarını islami ünsürlərlə birləşdirərək davam etdirmişlər. Xüsusilə İslamdan əvvəlki türk inanclarında rastlaşdığımız "iye" anlayışı Anadoluda daş və qaya sahibləri şəklində müəyyən qədər yaşamağa davam etmişdir (26: 203).

Müxtəlif mədəniyyətlərdə daşla bağlı inanclar tədqiq edildikdə, daşların tarixdən əvvəlki dövrlərdə əhəmiyyətli bir yerə sahib olduğu görülür. Şumer, Akkad və Babil kimi mədəniyyətlərdə yer alan və mühüm funksiyalar daşıyan daş sonrakı mədəniyyətlərdə də varlığını davam etdirmişdir (28: 1).

Türklər və başqa xalqlar qədim zamanlardan daşlara müxtəlif mənalar vermiş, müxtəlif məqsədlər üçün istifadə etmşlər. Əski türk adət-ənənələrindən və dinlərindən gələn daşla bağlı inanclar bu gün də öz izlərini qoruyub saxlayır. Daşla bağlı inanclara nəzər saldıqda bəzən yağış yağdırmaq məqsədi ilə, bəzən bolluq simvolu kimi bəzən də müxtəlif əməl və inanclarda istifadə edildiyini görürük. Türklər daşdan gündəlik həyatlarında tikinti materialı kimi müxtəlif funksiyalarda da istifadə edirlər. Bundan əlavə, kənd təsərrüfatında, xüsusilə dəyirmanlarda istifadə olunan bir material kimi mühüm yer tutur.

Müqəddəs olduğuna inanılan və rəvayətlərdə danışılan daşlarla bağlı bəzi adətlər mğvcuddur: daşı ziyarət etmək, daşın ətrafında gəzmək, daşa toxunmaq, daşı öpmək, üstə aparmaq, daşı evdə saxlamaq və ya saxlamaq və s. (27: 5).

Türklər təbiətdəki hər bir obyektin qoruyucu ruha malik olduğuna inanırdılar. Bu səbəbdən də hər bir obyektə müxtəlif mənalar daşımışdır. Bu əşyalardakı daşlara

müxtəlif mənalar aid edilmiş və nəticədə daşların müqəddəsliyi ilə bağlı bəzi inanclar və əməllər meydana gəlmişdir. Bu inanclarla yanaşı, daşlar sehr, xeyir və ya müalicə kimi istifadə olunur. Bundan əlavə, türklər gündəlik həyatda işlətdikləri atalar sözlərində və deyimlərdə daşdan tez-tez istifadə etmişlər (5: 42-43).

Qədim türklər təbiətdəki bir çox elementin ruhu olduğuna inanır və onları müqəddəs hesab edirdilər. Türk tayfalarında qədim zamanlardan gələn inanca görə, böyük türk tanrısı türklərin əcdadlarına və ya adlanan sehrli daş hədiyyə etmişdir. Bu daşla istənildikdə yağış, qar və dolu yağdıra, tufan da yarada bilərdi. Bu daş hər dövrdə türk sərkərdələrinin əlində olmuşdur. Şamanistlərə görə bu gün də böyük kamların və keşişlərin əlində bu daşdan var (15: 153).

Türklərdə daşla bağlı inancların ilk izləri Orta Asiyaya gedib çıxır. Müqəddəs hesab edilən daşlardan ən mühümü "yada" və ya "yad" daşı deyilən sehrli daşdır. Türk tayfalarında mövcud olan ümumi inanca görə, bu daşı türklərə böyük Türk Tanrısı vermişdir. Kaşqarlı Mahmut "ya" daşı haqqında belə məlumat verir: "Bir növ kahinliklə bağlıdır. Onun köməkliyi ilə yağış və qar yağdırılır və külək əsir. Bu, türklər arasında məşhur bir şeydir. Bunu Yağma torpaqlarda öz gözlərimlə gördüm. Yanğın var idi, yay idi; beləcə qar yağdı və od Ulu Tanrının lütfü ilə söndürüldü".

İslam qaynaqlarında da türklərin əlindəki qüdrətli daşdan - yağış daşı mənasını verən "Həccər-ül Mətar" və ya "Səng-i Cada" adlandırılan daşdan söhbət açılır. Məhəmməd bin Hüseyn, `Əl-Tusi` adlı əsərində yazır: `Türklərdə müxtəlif rənglərə və formalara malik Yada daşları olur. Bu daşlar Hıtay ve Tavgaç (Tabqaç) dağlarından götürülür. Onların köməyi ilə yağış və dolu yağdırırlar. Türklər, bu sənəti bilənləri "Yadaçı" adlandırırlar. Bu işlərin elə ustaları var ki, kəndin bir tərəfinə yağış, qar yağdıranda, o biri tərəfdə günəş olur. Türklər bu daşı yanlarında gəzdirirlər və onun köməyi ilə düşmənlərinə qalib gəlirlər`. Şaban Şifainin IV Mehmetə yazdığı "Risale-i Şifaiyye Fi Beycini Enva-i Ahcar" əsərində Yada daşının görünüşü ilə bağlı məlumat verilir: "Yada daşları... müxtəlif rənglərdə olur. Əksəriyyəti üzərində qırmızı çilləri olan qaraya çalan torpaq rəngindədir. Ağ rəngdə və üstündə qırmızı nöqtələri olanlara da rast gəlinir. Ən böyüyü quş yumurtası boyda olur".

Türklərin daşa, qayalara verdiyi önəm Kutlu dağı əfsanəsində də görünür. Dokuz Oğuzların yaranması belə təsvir edilir: "Göydən enən işıq yerdə daşlaşdı və nəfrit qayası əmələ gəldi. Bu qaya müqəddəs sayılırdı və ona Qutlu dağ deyirdilər. Buğu xanın yuxusuna ağsaqqallı bir qoca girərək oğuzların bu qayaya hörmət etdikləri müddətcə hakimiyyətdə qalacaqları müjdəsini verir". Lakin Buğu Xandan sonra taxta çıxan Yülun Tigin bu daşı qoruya bilmədi və "Köç əfsanəsi" meydana gəldi (13: 142).

Nağıllarda daş motivi qəhrəmanın içində olduğu vaxtı və ya hadisənin müddətini ifadə etmək üçün istifadə olunur. Maraqlıdır ki, daşın zamanla əlaqəsini təsvir edərkən ümumiyyətlə "iki daşın arasında" ifadəsi işlədilir.

Daş-zaman əlaqəsi üçün bəzi nümunələri təqdim edirik: "*Dediyini edir, Keloğlan! O, iki daşın arasından o yan-bu yana gedir və tac kürəyi və əyirəcəyi yunu qopardıqda, qaçmaq bir şey olacaq*". Nümunədə göründüyü kimi, Keloğlanın məqsədinə çatmaq üçün sərf etdiyi vaxtı ifadə edərkən "iki daşın arasında" ifadəsi işlədilmişdir.

Daş-zaman əlaqəsi baxımından başqa bir nümunə: "*Əmlik quzudan ağzı yandığından - yenidən yaş odun üstünə basanda, qulaqlarını onlardan ayırmadı. Nəhənglərinizi iki daş arasında bir az vaxt tapdıqda: Gəlin bu üçünün qanına girək, xüsusən qan bu gecə yuxuda ikən!*". Nümunəni araşdırdığımız zaman "iki daş arasında" ifadəsi yenidən zamanı ifadə etmək üçün istifadə olunduğunu görürük.

Konseptual sahə kimi daş-zaman əlaqəsini ümumi olaraq təhlil etdikdə, "iki daş arasında" ifadəsinin daşla zamanı ifadə etmək üçün işləndiyini görürük. Daşın nağılda vaxtı ifadə etməsi maraqlı faktlardan biridir.

Türk nağıllarında müşahidə etdiyimiz konseptual sahələrdən biri də daş-məkan əlaqəsidir. Gündəlik həyatımızda inanclarımızda, həyatımızı davam etdirərkən istifadə etdiyimiz materiallar arasında daş, müxtəlif məna və funksiyaları ifadə etmək baxımından əhəmiyyətli yer tutur. Nağıllarda daş və məkan əlaqəsi araşdırıldıqda: o, bəzən qəhrəmanların oturub dincəldiyi yer, bəzən qəhrəmanın evi şəklində, bəzən də qəhrəmanın axtardığı və ya çatmaq istədiyi bir şeyi tapmasına kömək edən element kimi görünür.

Nağıllarda fövqəladə varlıqların yaşadığı yer kimi keçən daş nümunələrindən bəzilərini nəzərdən keçirək.

"Nalıncı və Sultan" nağılında: "*Mehmet ağa sevinclə dağa gedir. Gündəliyi götürdüyü qayanın dibinə çatır. O, var gücü ilə qamçını daşa vurur. Bir dodağı yerdə, bir dodağı göydə o qayadan bir ərəb çıxır və deyir: "Əmirim, Aslanım*" (10: 212). Nümunədə Mehmet Ağanın qamçısını daşa vurması nəticəsində bir dodağı göydə, digəri yerdə olan ərəb görünür. Daş altında yaşayan bu varlıqların fərqli ortaya çıxma formalarından biri də bu nümunədə görünür.

Başqa bir misal "Qızıl xoruz" nağılındadır. Nağılda köhnə nağıl qəhrəmanının *"Off!" - deyəndə daş yerindən tərpəndi və qocanın oturduğu daşın altından tüstü qalxdı. Bu tüstüdən bir pəri xaç anası çıxdı* (16: 41).

Nağıllarda qəhrəman adətən çətin yollardan keçərkən və ya yorğun olanda dincəlmək üçün daşın üstündə oturur. Bəzən bir şey haqqında düşünmək üçün də yenə də qəhrəman özünə daş seçir.

Nağıllarda daş - məkan münasibətində qəhrəmanın oturduğu yer kimi çox görünür. "Mehmədin Hekəti" adlı nağılda daşa oturan qəhrəmanın düşüncəsi belə çatdırılır: "*Məhmətdə səs varmı? Qapının qarşısında bir daş var idi. O, sənin daşın üstündə oturub düşünməyə başladı ki, on gün gələndə spermam başımı ağrıdacaq*". (7: 79) Nağıl qəhrəmanı qapısının qarşısında bir daşın üstündə oturub orada fikirləşməyə başlayır. Beləliklə, nağılda daş qəhrəmanı müşayiət edir və onun bütün sirlərinin qoruyucusuna çevrilir.

Qəhrəmanın dincəlmək üçün seçdiyi yer kimi bəhs edilən daş elementin başqa bir nümunəsi "Üç qarpız gözəli" nağılında belə baş verir: "*Bir vaxtlar, bir sultanın oğlu olub. Bir gün o, laləsi ilə dünyanın gözəlliyini axtarmaq üçün səyahətə çıxır. O qədər yorulurlar ki, bir daşın üstündə otururlar* (23: 201). Bu nümunədən də göründüyü kimi, nağıl qəhrəmanları yorulanda istirahət yeri kimi daş seçirlər.

Qəhrəmanın müəyyən məqsədlə oturduğu daş elementli başqa bir nümunə "Keloğlan və Qoca" nağılındadır: "*Keloğlan hamamdan çıxandan sonra heç kimin olmadığı yerdə daşın üstündə oturdu: Toyuq yumurtası, yumurtası! Dedi*" (24: 465). Bu misalda Keloğlan daşın üstündə oturub toyuğunun yumurta qoymasını gözləyir.

Nağıl qəhrəmanının yatmaq üçün istifadə etdiyi yer məzar daşı ilə bağlı başqa bir nümunədə görünür. "İlan bəy" nağılındakı misalda: "*Sultanın evindən çıxan nağıl qəhrəmanı nə yolu bilir, nə də cığır. Özünə yol açır və yolun sonundakı qəbiristanlığa çatır. Qəbiristanlıqda gecələməyə qərar verən qız huşsuzca başını məzar daşına qoyub yuxuya gedir*". (23: 15). Bu misalda nağıl qəhrəmanı çətin yola qədəm qoyur və dincəlmək üçün qəbiristanlıq seçir. Yuxuya gedəndə onu məzar daşı müşayiət edir.

Verilən misallar araşdırıldıqda nağıl qəhrəmanlarının məkan olaraq daş seçmələrinin hadisələrin daha çox təbiətdə cərəyan etməsi ilə əlaqədar olduğu şərh oluna bilər. Məqsədlərinə çatmaq və ya mənfi vəziyyətdən xilas olmaq, dincəlmək, yatmaq və ya düşünmək üçün yola çıxan nağıl qəhrəmanını təbiətdə ən asan tapılan elementlərdən biri olan daşlar müşayiət edir.

Daş dedikdə ağlımıza təkcə sərt bir əşya - daş gəlmir. Fərqli rənglərə, fərqli xüsusiyyətlərə və vizual olaraq diqqəti çəkən daşlara rast gəlirik. Bu daşların fərqli mənaları var və fərqli xüsusiyyətlərə malik olduğuna inanılır. Bu daşlar çox vaxt nağılda müəyyən məna ifadə etmədən daşın rəngini vurğulamaq üçün istifadə olunur. Təhlil edilən nağıllarda müəyyən edilən rəngli daşlar və onların nağıllara necə daxil edildiyini təhlil edək:

Ak/beyaz - "Avcı Yusuf'un Oğlu Ġzzet" adlı nağılda: *"İhtiyar: „Ak koyunum ak taş ol, kara koyunum kara taş ol. Asam ben gelinceye kadar bunlara sahip ol." Diyerek bunların peşine düşer."* (8: 268, 269).

Kara - "İncili Yorgan" adlı nağılda: *"Devler kara taş üstünde kara bıçaklarını bilemeye gidince, Mıstık: -Fırsat bu fırsattır deyip kardeşlerine kaş göz etmiş"* (Güney, 1992: 27); "*Sana bir mehduf yazacam. Mehdufu götü, mağaranın içinde bir gara daş var. Daşın üsdüne goyarsan. Deyersen ki; ey Periler Padişahı, gızınız Derya Nurunnan size mehduf var. O zaman mağaradan bir gız çıhacah, menim bacımdı. Elini vurna ha, tilisim bozular."* (6: 165).

"Yusufcuk" nağılında: *"Öküzüm biz getmekte anamızı babamızı bulamayacağız, dilek dileyelim ikimizde, sen bir gara daş ol, ben de bir uçar guş olayım, demiş. Dilek dilemişler, öküz bir gara daş olmuş, gız da uçar guş olmuş."* (4: 466).

Yaşıl - *"Mehmet Bey der ki: „Ben o kızı isteyeceğim." Ertesi gün olur, Mehmet Bey gidip padişahın yeşil elçi taşına oturur. Gelip padişaha haber verirler ki: „Padişahım sağ olsun. Kızına elçi geldiler."* (23: 220).

Sarı - "*Vara vara sarı taşın yanındaki sarı çeşmeye varmış. Elinde iki tane testisi, önce testinin birini doldurmuş, koymuş yere. Diğer testiyi doldurmaya başlayınca, başını kaldırmış ne görsün. Ortalık toz duman olmuş, gökten bir toz bulutu üstüne çökmüş, içinden bir Arap çıkmış."* (9: 220).

Qırmızı - "Aye, he sana gurban olum aye. Hele o tepedeki gırmızı taşları helle. Bu bişey bilmir. Tepeden gırmızı daşı helledi aşağı, bunlara. Aye, di meni endirin. Aye, gıblasızın oğlu seni hardan endireh. Bu galdı kelleninbaşında. Deme, bütün altın imiş o daş." (7: 107,108).

Gördüyümüz kimi, nağıl dilində heç bir söz təsadüfi işlənmir. Bu sırada "daş" leksemi də nağılları təsadüfi gəlməmişdir. Bunu onun mətndaxili konseptual sahəsinin təhlili bir daha sübut etdi. Belə ki, "daş" leksik vahidinin konseptual sahəsinin təhlili onun nə qədər dərin köklərlə türk ənənələrinə bağlılığını göstərdi.

Ədəbiyyat

1. Acun H. TaŞ" - *TDV İslam Ansiklopedisi*, İst., 2011, ", s. 40.
2. Acun H. *Türk Kültüründe Taşlar,* Ankara: Atatürk Kültür Merkezi Başkanlığı, 2018.
3. Alptekin A. B. "Türk Halk Hikâyelerinde Halk Hekimliği", *Milli Folklor Dergisi*, (2010), Yıl: 22, Sayı: 86.
4. Alptekin A. B. "Türk Masal ve Halk Hikâyelerinde İki Taş: Binek Taşı, ġamşırak Taşı", *Türk Dünyası Dil ve Edebiyat Dergisi*, (2012), Sayı: 33, s. 35-48.
5. Alptekin A. B., Alptekin M. "Türk Halk Anlatılarında ve Folklorunda Taş", *Kültürümüzde Taş*. İstanbul: Dergâh Yayınları(2017).
6. Aslan A. A. Ardahan- Çıldır- Göle Masalları. Konya: Kömen Yayınları (2017).
7. Aslan A. A. Arpaçay Nağılları. Konya: Kömen Yayınları (2017).
8. Bakirci N. Niğde Masalları. Konya: Kömen Yayınları (2006).
9. Bekdik M. *Konya- Ereğli Masalları,* Konya: Kömen Yayınları (2017)
10. Boratav P. N. *Zaman Zaman İçinde,* Ankara: Ġmge Kitabevi Yayınları (2009).
11. Boratav P. N. Az Gittik, Uz Gittik. Ankara: Ġmge Kitabevi Yayınları (2015).
12. Demir N. *Anadolu Türk Masallarından Derlemeler*. Ötüken Yayınları İstanbul (2017*)*.
13. Dingil F. A. İslam Öncesi Türk Kültüründe Kutsallık İzafe Edilen Maddi Unsurlar. Ġstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Yüksek Lisans Tezi, İstanbul (2012).
14. Elçin Ş. Halk Edebiyatına Giriş. Ankara: Akçağ Yayınları (2004).
15. İnan A. Tarihte ve Bugün Şamanizm Materyaller ve Araştırmalar. Ankara: Türk Tarih Kurumu Yayınları (2017).

16. Kaya A. B. Has Bahçenin Gülleri (Sivas Masalları). Kitabevi Yayınları, İstanbul (2013).
17. Kiyak A. "Eski Türk Kültüründe TaĞ-Kaya Kültünün Elâzığ'daki Yansımaları", *Toplum Bilimleri Dergisi*, (2011), Sayı: 5(10), s. 129-144
18. Ögel B. Türk Mitolojisi. II cilt. Ankara: Türk Tarih Kurumu (1995)
19. Sakaoğlu S. *Anadolu Türk Efsanelerinde Taş Kesilme Motifi ve Bu Efsanelerin Tip Kataloğu,* Ankara: Ankara Üniversitesi Basımevi, (1980), s. 147
20. Sakaoğlu S**.** *Gümüşhane ve Bayburt Masalları,* Ankara: Akçağ Yayınları (2002).
21. Sakaoğlu S. *Masal Araştırmaları*, Ankara: Akçağ Yayınları (2016*)*
22. Sakaoğlu S., Kadriye T. "Efsanelerden Masallara Uzanan Taş Kesilme Motifinin Azerbaycan ve Anadolu Masallarına Yansımaları", *Türkbilig*, (2019), Sayı:38, s. 177-197.
23. Seyidoğlu B. *Erzurum Masalları,* Ġstanbul: Dergâh Yayınları (2016)
24. Tezel N. *Türk Masalları,* Ankara: Bilge Kültür Yayınları (1992)
25. Uca A. "Kaybolmuş Folklorik Değerlerimizden Biri: Delikli Taş". Atatürk Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü Dergisi, (2003), Sayı:21,s.163-167.
26. Uluişik Y. P. "Anadolu Halk İnançları ve Efsanelerinde Kaya/Taş Kültü: Analı Kızlı Kaya Örneği", *Kültürümüzde Taş.* İstanbul: Dergâh Yayınları (2017).
27. Yardımcı M. Taş Kültü ve Sosyal Yaşamımızdaki Önemi, Eğitim Bilimleri ve Sosyal Bilimler Sempozyumu Bildirisi, Bandırma (2017)
28. Yardımcı M. Geleneksel Kültürümüzde Taş, Zile'de Taşlarla ilgili inanmalar. Uygulamalar ve Oyunlar, *Tarih ve Kültürü ile Zile Sempozyumu* (2008), s. 1-16.

Эльнура Мирзаджан кызы Ширинова

Концептуальное поле лексемы "камень" в турецких сказках

Резюме

Камень с древних времен играл важную роль в турецкой культуре и жизни. В народных сказках, которые являются важной частью турецкой культуры, камень предстает в различных формах. Предметом исследования является изучение мотива камня в турецких сказках и определение kонцептуального поля этой лексемы.

Мы попытались проанализировать, как камень, занимающий важное место в верованиях тюрков, встречается в сказках, каковы его особенности и функции камня. В статье представлена информация о понятии сказки, ее общих чертах, ее соотношении с другими жанрами, а затем о месте камня в тюркской культуре. В этом разделе также приводится информация об образе камня и благословенной скалы в турецких сказках, понятийном поле этого образа в тексте, рассматриваются надгробия и их место в сказках, анализируются поверья, жившие до сих пор в прошлом и настоящем.

Ключевые слова: турецкие сказки, лексема «камень», концепт, понятийное поле.

Elnura Mirzajan girl Shirinova

The conceptual field of the lexeme "stone" in turkish fairy tales

Summary

Stone has played an important role in Turkish culture and life since ancient times. In folk tales, which are an important part of Turkish culture, the stone appears in various forms. The subject of the research is the study of the stone motif in Turkish fairy tales and the definition of the conceptual field of this lexeme. We tried to analyze how the stone, which occupies an important place in the beliefs of the Turks, is found in fairy tales, what are its features and functions of the stone. The article provides information about the concept of a fairy tale, its general features, its relationship with other genres, and then about the place of a stone in Turkic culture. This section also provides information about the image of a stone and a blessed rock in Turkish fairy tales, the conceptual field of this image in the text, considers tombstones and their place in fairy tales, analyzes the beliefs that still lived in the past and present.

Key words: Turkish fairy tales, lexeme "stone", concept, conceptual field.

HƏSƏNOVA GÜLNAR
Azərbaycan Dillər Universiteti
gulnar.qurbanli.1996@mail.ru

KOMMUNİKATİV DİL TƏLİMİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ PRİNSİPLƏRİ

XÜLASƏ

Yaşadığımız bu XXİ əsr üçün texnologiya, elm, səhiyyə, təhsil və digər bir çox sahələrin sürətli inkişafı xarakterikdir. Hazırda bütün bu sahələrlə birlikdə ingilis dilidə özünün ən böyük inkişafını yaşayır. Beynəlxalq dil status daşıyan ingilis dilini bilmək peşəsindən asılı olmayaraq hər bir kəs üçün prioritet halına gəlmişdir. Odur ki, dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda xarici dil kimi ingilis dilinin tədrisi xüsusi əhəmiyyət daşıyır. İngilis dili bilən işçi qüvvəsinə tələbat getdikcə daha da artır. Bu səbəbdən də, alimlər, dilçi və müəllimlər ingilis dilinin ən yaxşı şəkildə tədrisi üçün daima yeni vasitələr, metodlar, tədris strategiyaları işləyib hazırlayırlar. Hazırda ingilis dilinin tədrisi üçün bir çox metod və yanaşmalar mövcuddur. Günümüzdə bu metodlardan ən aktual olanlardan biri də kommunikativ yanaşmadır. Üstəlik, bu, təkcə ingilis dili üçün deyil, həm də digər dillər üçün dilin ən etibarlı və effektiv tədris üsulu hesab olunur. Son vaxtlara qədər ingilis dilinin dünyada xarici dil və ya ikinci dil kimi tədrisində kommunikativ dil tədrisinin tətbiqlərini və onların nəticələrini şərh etmək üçün bu sahədə bir çox tədqiqat işləri aparılmışdır. Aparılan araşdırmalara görə isə hələ də bu metodun tətbiqində bir sıra problemlər mövcuddur. Belə ki, bir çox müəllim bu metodun tətbiqində uğursuz olur. Bununbaşlıca səbəblərindən biri müəllimlərin kommunikativ yanaşmanı tam dərk etməmələri, onun əsas xüsusiyyətlərindən və prinsiplərindən xəbərdar olmamalarıdır. Bu səbəbdən də, bu məqalədə kommunikativ yanaşmanın əsas xüsusiyyət və prinsiplərini araşdıraraq müəyyənləşdirməyə çalışdıq. Məqaləni yazarkən əsasən, linqvistik, müşahidə və müqayisə metodlarından istifadə edilmişdir.

Açar sözlər: ingilis dili, kommunikativ dil tədrisi, əsas xüsusiyyətlər, əsas prinsiplər

İngilis dilinin tədrisi metodologiyasında istifadə olunan bir çox üsul və metodlar içərisində aparıcı rol kommunikativ yanaşma hesab edilir. Bir çox ölkədə olduğu kimi Azərbaycan Respublikasında da xarici dil tədrisində kommunikativ yanaşmadan istifadəyə daha çox yer verilir. Üstəlik, bu, təkcə ingilis dili üçün deyil, həm də digər dillər üçün dilin ən etibarlı və effektiv tədris üsulu hesab olunur. Lakin son vaxtlara qədər ingilis dilinin dünyada xarici dil və ya ikinci dil kimi tədrisində kommunikativ dil tədrisinin tətbiqlərini və onların nəticələrini şərh etmək üçün bu sahədə bir çox tədqiqat işləri apar ılsa da hələ də bu metodun tətbiqində bir sıra problemlər mövcuddur və bir çox müəllim bu metodun tətbiqində uğursuz olur.

Kommunikativ dil tədrisi metodologiyaları təkcə qrammatika öyrədilməsini təmin etməkdənsə, tələbələrin kommunikativ səriştəsini kommunikativ fəaliyyətlər vasitəsilə inkişaf etdirməyə yönəldir. Onlar ikinci dil səriştəsinin sadəcə qrammatik biliklərlə müəyyən edilə bilməyəcəyi anlayışına əsaslanır. O, həmçinin kommunikativ istifadələri əhatə edir. Buna görə də, kommunikativ təlim ənənəvi olaraq öyrədilmiş qrammatika, lüğət və tələffüz sahələrindən daha çox şeyləri əhatə edir. Kommunikativ dilin tədrisinin əsas məqsədi ikinci dilin real ünsiyyətinin kontekstual və məqsədyönlü xüsusiyyətlərini yerinə yetirməklə kommunikativ bacarıqlara nail olmaqdır. Bundan əlavə, kommunikativ dilin tədrisi sinfinin ən mühüm xüsusiyyəti onun ingilis dilindən real şəkildə istifadə edilməsidir ki, burada həm istifadə olunan fəaliyyətlər, həm də istifadə olunan materiallar mümkün qədər orijinal olmaq məqsədi daşıyır. Bundan əlavə, kommunikativ dil tədrisi dildən məna və ünsiyyət üçün daha autentik istifadəyə diqqət yetirir. Kommunikativ dilin tədrisi çərçivəsində dil ən yaxşı mənanın aktiv müzakirəsi vasitəsilə öyrənilir.

H.D.Braunun kommunikativ dil tədrisinin aşağıdakı bir-biri ilə əlaqəli xüsusiyyətləri faydalı icmal təmin edir:

1. Sinif məqsədləri kommunikativ səriştənin bütün komponentlərinə (qrammatik, diskurs, funksional, sosial-linqvistik və strateji) yönəldilmişdir. Buna görə də məqsədlər dilin təşkilati aspektləri ilə praqmatik aspektlərini birləşdirməlidir.
2. Səlislik və dəqiqlik kommunikativ texnikanın əsasını təşkil edən tamamlayıcı prinsiplər kimi qəbul edilir. Bəzən öyrənənlərin dildən istifadə ilə mənalı məşğul olması üçün səlis danışıq dəqiqlikdən daha çox əhəmiyyət kəsb edə bilər.
3. Kommunikativ sinifdə olan tələbələr, nəticədə, dildən sinifdən kənar kontekstlərdə də məhsuldar və qəbuledici şəkildə istifadə etməlidirlər. Buna görə də sinif tapşırıqları tələbələri həmin kontekstlərdə ünsiyyət üçün zəruri olan bacarıqlarla təchiz etməlidir.
4. Tələbələrə öz öyrənmə üslublarını başa düşmək və müstəqil öyrənmə üçün müvafiq strategiyaların işlənib hazırlanması yolu ilə öz öyrənmə prosesinə diqqət yetirmək imkanları verilir.
5. Müəllimin rolu hər şeyi bilən bilik bəxş edən deyil, onlar asanlaşdıran (fasilitator) və bələdçi rolunu oynayır. Beləliklə də tələbələr başqaları ilə həqiqi linqvistik qarşılıqlı əlaqə vasitəsilə məna qurmağa təşviq olunurlar [2, s.43].

Ümumiyyətlə, kommunikativ dilin tədrisinin əsas prinsiplərini aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Tələbələr dili ünsiyyət qurarkən istifadə etmək üçün öyrənirlər: Kommunikativ dil tədrisinin əsas prinsipi ondan ibarətdir ki, siniflərdə idarə olunan və həyata keçirilən bütün fəaliyyətlər ünsiyyət mərkəzli olmalı və ünsiyyət məqsədinə xidmət etməlidir. Müəllim və tələbələrin dərs zamanı

gördükləri işləri iki növə bölmək olar: biri bilavasitə kommunikativ fəaliyyətdir. Dinləmə ilə bağlı hava haqqında xəbərləri dinləmək olar; danışma ilə bağlı yeni bir şəhərdə yolları soruşmaq ola bilər; oxumaqla bağlı bir sıra təlimatları başa düşmək ola bilər; yazmaqla bağlı mehmanxanada otaq tutmaq üçün məktub yazmaq olar və sairə. Bu fəaliyyətlər tələbələrin dil səviyyəsinə görə qiymətləndirilir. Digəri isə dolayısı ilə ünsiyyət fəaliyyətləridir. Fəaliyyətin özü kommunikativ deyil, istifadə xarakteri daşıyır və kommunikativ tapşırıqlarla bağlıdır.

2. Həqiqi və mənalı ünsiyyət sinif fəaliyyətinin məqsədi olmalıdır: "Sərbəst seçim" insanların nəyi və necə dediklərini tamamilə özləri seçdiklərini ifadə edir. Real həyatda ünsiyyət zamanı natiq təkcə nəyi ifadə etmək niyyətində olduğuna deyil, həm də hansı dildən istifadə edəcəyinə özü qərar verir. Üz-üzə ünsiyyətdə onun seçimi zamanın təzyiqi altında edilir. Zaman təzyiqi altında dil formalarını seçmək bacarığı kommunikativ səriştənin mühüm aspekti olmaqla yanaşı, xarici dil öyrənənlər üçün çətin məqamdır. Bu arada, natiq kortəbii seçim etməli olduğundan, dinləyici qarşı tərəfin nə deyəcəyini proqnozlaşdıra bilməz. Yəni, hər iki tərəfin dili böyük ölçüdə özbaşına və gözlənilməzdir. Dil öyrətmək üçün şagirdlərin istifadə etdiyi dil müəllim tərəfindən idarə olunarsa, onların kommunikativ səriştəsini inkişaf etdirmək çətin olacaq. Orijinal materiallardan istifadə Kommunikativ Dil Tədrisinin mühüm xüsusiyyətidir. Həqiqi qəzet məqaləsinin surəti, canlı radio və ya televiziya yayımı, menyu, bədii mətn kimi müxtəlif orijinal materiallar var ki, bu da tələbələri dil öyrətmək üçün yazılmış materialdan daha çox təbii dil nümunələri ilə tanış edir. Beləliklə, kommunikativ dil tədrisi sinif təcrübəsini tələbələrə kommunikativ səriştənin inkişaf etdirilməsi məqsədinə çatmaq üçün nəyi və necə ifadə edəcəyini özləri qərar verməyə imkan verəcək şəkildə tərtib edir.

Tələbələrin kommunikativ səriştə əldə etmələri üçün nitq imkanlarının yaradılması vacibdir. Özünü başa düşülən, əsaslı, dəqiq və çox tərəddüd etmədən ifadə etmək bacarığı tələbələrə dəqiqlik fəaliyyətləri zamanı bildikləri və ya hətta öyrəndikləri dilin işarələrini yaratmaq və anlamaq imkanı verəcəkdir. Sərbəst nitqin inkişafına kömək edən fəaliyyətlər aşağıdakı xüsusiyyətlərə malikdir:

- Tələbələr yaradıcı olmaq və öz münasibətlərini, hisslərini, emosiyalarını, qorxularını və s. ifadə etmək şansı əldə edirlər.
- Şagirdlər diqqətlərini "necə" dediklərinə (və ya yazdığına) deyil, "nə dediklərinə (və ya yazdıqlarına)" yönəldirlər. Diqqət bütün digərlərindən daha çox sözlərin mənasına verilir.
- Şagirdlər vəziyyətin tələblərinə uyğunlaşma təcrübəsi əldə edirlər — nitqdə bu o deməkdir ki, fəaliyyət sinifdən kənar təbii dildən istifadə üçün xarakterik olan improvizə, parafraz, özünü korreksiya və gözlənilməzliyə imkan

verməlidir. Bir sözlə, kommunikativ dil tədrisi ünsiyyət məqsədi ilə ingilis dilini öyrətməkdir, yəni tələbələrə dilin strukturunu, qrammatikasını və lüğətini bilməkdənsə, ondan istifadə etmək bacarığını verməkdir. Fəal tələbə öyrənməsi kommunikativ dil tədrisinin müdafiə etdiyi əsas öyrənmə tərzidir [5, s.16].

3. Səlislik və dəqiqlik dil öyrənilməsində vacib məqsədlərdir: Ünsiyyət üçün həmişə bir məqsəd var. Bir tərəfin məqsədi dəvət etmək, rəy bildirmək, narazılıq bildirmək və kömək istəmək və s. ola bilər; digərininki isə müqavimət və ya tənəzzül ola bilər və s. Ünsiyyətdə olan insanlar həmişə məqsədi yadda saxlayır və ona çatmağa çalışırlar. Ona görə də o, nə deyirsə, məqsəd ətrafındadır; digər insanların ona ötürdüklərini də bu məqsədlə qiymətləndirir. Müvafiq tənzimləmə strategiyası dilin kommunikativ səriştəsində vacib bir məqamdır. Kommunikativ dilin tədrisinin sinif təcrübəsi tələbələrə kommunikativ tapşırıqlarını yerinə yetirmə prosesində kömək etməyə, hədəf dili, tonunu və münasibətini mühakimə etmək bacarığını və öz kommunikativ məqsədlərinə çatmaq üçün müvafiq dil reaksiyası vermək bacarığını inkişaf etdirməyə çalışır.
4. Ünsiyyət müxtəlif dil bacarıqlarının inteqrasiyasını nəzərdə tutur: Sinif məqsədləri kommunikativ səriştənin bütün komponentlərinə (qrammatik, diskurs, funksional, sosial-linqvistik və strateji) yönəlmişdir. Buna görə də məqsədlər dilin təşkilati aspektləri ilə praqmatik aspektləri birləşdirməlidir. Kommunikativ hadisələrdə iştirak dilin inkişafı üçün mərkəzi hesab edilsə də, bu iştirak mütləq formada diqqət tələb edir. İştirakçıların məna danışıqlarında əməkdaşlıq etmək istəyi ilə yanaşı, dilin necə işlədiyinə dair ümumi fərziyyələr toplusu, struktur və ya qrammatika olmadığı halda ünsiyyət baş verə bilməz. Kommunikativ səriştənin komponentlərini təklif edən diqqətlə tədqiq edilmiş və geniş istinad edilən məqalələrində M.Kanal və M.Svein qrammatikanın əhəmiyyətsiz olduğunu söyləmirdilər. Onlar daha çox qrammatik səriştəni daha geniş şəkildə müəyyən edilmiş kommunikativ səriştə daxilində yerləşdirməyə çalışırdılar [4, s.47].
5. Öyrənmə yaradıcı quruculuq prosesidir və sınaq və səhvləri ehtiva edir: Kommunikativ dilin tədrisinə əsasən, dil öyrənmə prosesində səhvlərə yol vermək normaldır və şagirdin dildən istifadə etməyə çalışdığını göstərir ki, bu da açıq-aydın pis deyil. Bundan əlavə, tələbələrin xarici dilləri öyrənmələrinin məqsədi işləri uğurla yerinə yetirmək və digər insanlarla ünsiyyət qurmaqdır. Əcnəbi tələbələrin hər aspektdə doğma danışan səviyyəsinə yaxınlaşmasına ehtiyac yoxdur (əslində bu çox çətindir). Əslində, bu, kommunikativ dil tədrisinin tələbələrin səhvlərini ümumiyyətlə düzəltməməsi deyil, müvafiq olaraq müxtəlif səhvlərə müdaxilə edir. Dinləyici və ya oxucunun səhv anlaya biləcəyi və tez-tez baş verən xətaların mütləq düzəldilməli olduğu vurğulanıb. Ancaq ciddi və ya kiçik olmasından

asılı olmayaraq, hər bir səhvi düzəltmək əks təsirə səbəb ola bilər. İndi xarici dil müəllimləri ümumiyyətlə razılaşırlar ki, şifahi və ya yazılı səhvlərə qarşı dözümlülük tələbələrə ünsiyyət üçün dildən inamla istifadə etməkdə fayda verəcəkdir.

Bu prinsiplərin mərkəzində ingilis dilinin tədrisinin həqiqi, mənalı və ingilis dilini öyrənənlərin səlis və dəqiq olması üçün istinad çərçivəsi dayanır. Kommunikativ səriştənin nəyi təşkil etdiyinə dair dəyişikliklər və reformasiyalar olsa da, kommunikativ yanaşma xarici dil öyrənənlərin hədəf dil mədəniyyətində tam iştirak etməsi üçün hədəf dilə əsaslanan kommunikativ səriştəni vacib hesab edir [1, s.58]. Müəllimlər ana dili danışanların mədəni biliklərini və danışıq qaydalarını öyrənənlərə ötürməklə, xarici dil sinifləri kimi ingilis dilində dil və mədəniyyəti inteqrasiya etməyə təşviq edilmişdir ki, onlar da öz növbəsində ana dilində danışanlar kimi hədəf dildən istifadə etməlidirlər. Belə bir anlayış üstüörtülü şəkildə təklif edir ki, xarici dil öyrənənlər özlərini hər hansı mədəniyyətlərarası qarşılıqlı əlaqədə öyrənənin sosial kimliklərini və mədəni səriştəsini tamamilə nəzərə almayaraq, adətən hədəf dilin standart çeşidində danışan kimi qəbul edilən doğma danışanlardan nümunə götürməlidirlər [3, s.8]. İngilis dilinin tədrisinin uğuru öyrənənlərin hədəf dili yerinə yetirməkdə öz doğma dilinə necə bənzəmələri ilə ölçülür.

Ədəbiyyat:

1. Alptekin C. “Towards intercultural communicative competence in elt”, ELT Journal, Oxford University Press, Oxford, 2002, p. 58
2. Brown H.D. Teaching by principles:An interactive approach to language pedagogy, Longman / Pearson Education, New York, 2001, p. 43
3. Byram M. Teaching and Assessing Intercultural Communicative Competence, Cambridge University Press,Cambridge, 1997, p. 8
4. Canale M., Swain M. “Theoretical bases of communicative approaches to second language teaching and testing”, Applied Linguistics, 1980, p. 47
5. file:///YksekLisansTez-EmrullahEKERVan-2010.pdf

ХАСАНОВА Г.М.

Основные особенности и принципы коммуникативного обучения языку

Резюме

XXI век, в котором мы живем, характеризуется бурным развитием технологий, науки, здравоохранения, образования и многих других сфер. В настоящее время, наряду со всеми этими направлениями, наибольшее развитие переживает английский язык. Знание английского языка, имеющего статус международного языка, стало приоритетом для всех, независимо от профессии. Поэтому преподавание английского языка как иностранного имеет особое

значение во многих странах мира, в том числе и в Азербайджане. Растет спрос на англоговорящую рабочую силу. По этой причине ученые, лингвисты и преподаватели постоянно разрабатывают новые инструменты, методы и стратегии обучения для лучшего преподавания английского языка. На сегодняшний день существует множество методов и подходов к обучению английскому языку. Одним из наиболее актуальных из таких методов на сегодняшний день является коммуникативный подход. Более того, он считается самым надежным и эффективным методом обучения языку не только английского, но и других языков. До недавнего времени в этой области было проведено много исследований, чтобы объяснить применение коммуникативного обучения английскому языку как иностранному или второму языку в мире и их последствия. Согласно исследованиям, существует еще ряд проблем в применении этого метода. Таким образом, многие учителя не применяют этот метод. Одна из основных причин этого заключается в том, что педагоги не до конца понимают коммуникативный подход, не знают его основных особенностей и принципов. По этой причине в данной статье мы попытались выявить основные черты и принципы коммуникативного подхода. При написании статьи в основном использовались лингвистические методы, методы наблюдения и сравнения.

Ключевые слова: английский язык, коммуникативное обучение языку, основные черты, основные принципы

HASANOVA G.M.

Basic features and principles of communicative language teaching

Summary

The 21st century in which we live is characterized by the rapid development of technology, science, healthcare, education and many other areas. At present, along with all these areas, the English language is experiencing the greatest development. Knowledge of English, which has the status of an international language, has become a priority for everyone, regardless of profession. Therefore, teaching English as a foreign language is of particular importance in many countries of the world, including Azerbaijan. There is a growing demand for an English-speaking workforce. For this reason, scholars, linguists and educators are constantly developing new teaching tools, methods and strategies to better teach English. Today, there are many methods and approaches to teaching English. One of the most relevant of these methods today is the communicative approach. Moreover, it is considered the most reliable and effective method of teaching not only English, but also other languages. Until recently, a lot of research has been done in this area to explain the application of communicative teaching of English as a foreign language or second language in the world and their consequences. According to research, there

are still a number of problems in the application of this method. Thus, many teachers do not apply this method. One of the main reasons for this is that teachers do not fully understand the communicative approach, do not know its main features and principles. For this reason, in this article we have tried to identify the main features and principles of the communicative approach. When writing the article, linguistic methods, methods of observation and comparison were mainly used.

Keywords: English language, communicative language teaching, main features, basic principles

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Sevil Qurbanova çapa tövsiyə etmişdir.

X.Ə.RƏFİYEVA
E-mail: xrefiyeva@gmail.com
ADPU-nun Şəki filialın
(Şəki şəh.,M.Rəsulzadə küç., 305)

ANALYSE COMPARATIVE DES PRÉPOSITIONS EN FRANÇAIS AVEC L'AZÉRI

Résultat

Le français étant une langue analytique, il n'y a pas de suffixe de casse. Des prépositions français sont utilisés pour exprimer ce suffixe. Les mots aident à compléter le sens en créant une connexion entre les mots d'une phrase. Par exemple : Le livre de Vugar, aller à pied, chez Ramiz, dans la cour, vers le soir, devant l'école. répartis dans les groupes suivants :

1.Simple-à, devant, de, chez, dans, vers, entre etc.

2.Composé-à côté de, en face de, au bord de, près de, au dessus de, au dessous de, à cause de etc.

Le mot n'est pas traité après les verbes aider, écouter, regarder, revoir.

Les mots de la langue azerbaïdjanaise correspondent aux suffixes de cas du nom ou à des mots individuels. Par example:

1. « à » correspond aux suffixes azerbaïdjanais -a, -a, -ya, -ya (cas directionnel), -da, -da (cas local). Par exemple : Où vas-tu ? –Sən hara gedirsən? - Je vais à la maison

Où es-tu ? – Sən hardasan?

- Je suis à la maison – Mən evdəyəm.

2. "de" - dans la langue azerbaïdjanaise remplace les suffixes -in, -in, -un, -ün cas possessif, -dan, -dən - cas de sortie.

Est-ce qui est ce livre ? – Bu kitab kimindir?

- C'est le livre de Nazim - Bu Nazimin kitabıdır.

D'où viens-tu ? "Sən hardan gəlirsən?"

- Je viens de la maison – Mən evdən gəlirəm.

3. "sous" - correspond au mot "altında".

Le chat est sous la table. – Pişik stolun altındadır.

4. "Sur" correspond au mot "üstündə".

Le livre est sur la table. – Kitab stolun üstündədit.

5. "pour" - "üçün"

J'achète des fleurs pour ma mère.-Mən anam üçün gül alıram

6. "avec" - correspond au suffixe "avec" ou aux suffixes "ilə".

Je vais au cinéma avec mes amis.-Mən dostlarımla kinoya gedirəm.

7. "près de" - "yanında"
- La chaise est à côté de la table.Stul stolun yanındadır.

Des mots français sont utilisés pour exprimer le suffixe. Les mots aident à compléter le sens en créant une connexion entre les mots d'une phrase.

Mots clés: formes des prépositions, les locutions prépositives, les prépositions simples.

La préposition est un mot-outil de la plus haute inportance dans la langue
Française.Elle n'a pas d'existence indépendente,mais elle sert de lien entre deux mots ou groupes de mots, entre deux termes de la proposition et indique le rapport qui unit ces mots.

Les rapports qui la préposition établit entre la complément et le mot complété sont infiniment varié :

rapports de lieu -Je demeure **dans** une grande maison.
de temps – Je me lève **à** 7 heures.
d'origine – fils **d**'ouvrier.
d'appartenance- un livre **à** moi.
de cause – Je pleure **de** joie
de but – Je viens **pour** vous aider.
de moyen – J'écrit **avec** un crayon
de manière - Je m'habille de noir.Je voyage **en** auto.

Dans la langue française, dans laquelle les noms, les adjectifs n'ont pas de flextions casuelles, les prépositions expriment les rapports qui dans une langue flexionnelle (telle que le latin, le russe, l'allemand) sont marqués par les cas. [5 s.277]

3. Toutes les prépositions n'ont pas la même valeur. Les unes sont plus concrètes et peuvent exprimer un où deux rapports bien détérminés,toujour les mêmes.Telles sont,par exemple les prépositions *derrière, devant, vers,après,avant* et surtout les nombrueses locution prépositives, telles que *à, à cause de, à côté de, en dehors de, le long de,* etc. où le mot significatif (nom, adjectif, adverbe)qui en fait parti indique le rapport qu'elle expriment.

D'autres sont plus abstraites : *à, de, par* ne signifient rien à elles seules, en dehors d'un groupe de mots où d'une proposition. Mais c'est pour cela justement qu'elles peuvent exprimer des rapports bien nombreux et bien divers.

4. Les prépositions les plus abstraites sont à et de ces deux prépositions, de surtout, n'exprement pas même toujours un rapport logique quelconque : souven devant un infinitif et dans quelques autres emplois, de n'est qu'un élément de liaison syntaxique formel, un instrument de rection.

Je ne veux pas répondre.

Je consens à répondre.
Je refuse de répondre.

Les prépositions sont des mots courts et invariables qui servent à relier un élément de la phrase à un autre. La préposition peut marquer :

- le temps : à, après, avant, pendant, depuis.
- le lieu : dans, sous, sur, vers, chez.
- la cause : par, de, à cause de.

Les prépositions les plus utilisées sont :
à, dans, part, pour, en, vers, avec, de, sans, sous, sur.

La préposition sert à introduire un mot ou groupe de mots qui a la fonction de complément. Il peut s'agir :

- d'un complément du verbe (COD, COI, complément d'agent, complément circonstanciel, etc). Exemples : « Le principal donne rendez-vous à cette nouvelle famille pour leur présenter. Complément d'objet second. ,l'établissement. » Complément d'agent :« Elle a été reçue par le principal adjoint hier après-midi » d'un complément d'un autre mot (complément du nom, complément de l'adjectif, etc). Exemple : Complément du nom « entretien ».« L'entretien de cette famille a duré trente minutes. » La locution prépositionnelle est un groupe de mots composé d'une préposition, d'un nom d'un verbe ou d'un adverbe. en train de, en vue de, à cause de, grâce à, à côté de, à travers, au bas de, aux environs de, jusqu'à, près de, avant de, etc

Une préposition est un mot invariable qui sert à marquer le rapport d'un mot avec un autre

Les prépositions ou locutions prépositives introduisent des mots ou des groupes de mots qui sont compléments du verbe, du nom, de l'adjectif ou de l'adverbe. **Les prépositions** sont : à, de, pour, sur, dans, avec, en, par [5s.278]

Exemples :
Il est allé chez le parmi.
Les locutions prépositives sont : afin de, à moins de, de la
Les prépositions importantes sont:
1.Les prépositions temporelles
2.Les prépositions spatiales
3.Autres prépositions importantes
4.Qu'est-il important de retenir ?
5.Les prépositions à, de et en
6.Les prépositions avant et devant

Il existe des prépositions simples (*à, chez,* etc…) et des locutions prépositionnelles (*d'après, près de,* etc…).

Je vais chez le coiffeur.
Elle habite près de Bordeaux.[3p.304]
Retenons :

1. Les prépositions ou locutions prépositives introduisent des mots ou des groupes de mots qui sont compléments du verbe, du nom, de l'adjectif ou de l'adverbe.

Les prépositions sont : **à, de, pour, sur, dans, avec, en, par, parmi, ...**

Les locutions prépositives sont : **afin de, à moins de, de façon à, par suite de, ...**

2. Les articles définis contractés **« au, aux, du, des »** contiennent une préposition qui introduit un complément.

3. Les pronoms relatifs **« auquel, auxquels, auxquelles, duquel, desquels, desquelles »** contiennent une préposition qui introduit un complément.[1p.186]

Les prépositions sont des éléments grammaticaux difficiles à traduire

d'une langue à l'autre. Pour établir une traduction en/à partir du français, il est important de vérifier dans le dictionnaire si l'emploi des prépositions est correct.

Simon a travaillé aujourd'hui de 8 heures à 16 heures. Après le travail, il est rentré à la maison.Devant la porte, il a remarqué qu'il avait oublié ses clés au travail. Pour pouvoir rentrer chez lui, il va donc chercher son double de clés caché sous le pot de fleurs au-dessus de la porte à l'arrière de la maison. Heureusement que les clés sont là ! Simon peut rentrer à la maison ! Qu'est-il important de retenir ?

Les prépositions à, de et en

Les prépositions *à*, *de* et *en* sont répétées dans les énumérations.

Exemples :

Elle a donné un mouchoir à Pierre et à Zoé.

Il faut de l'eau, de la farine et du sel pour faire une pâte à pizza.

Préfères-tu aller à Marseille en train, en avion ou en voiture ?

Les prépositions *avant* et *devant*

Tandis qu'*avant* a un sens temporel, *devant* a un sens spatial.

Exemples :

Elle se brosse les dents avant d'aller se coucher.

Il attend tous les jours devant la boulangerie.

Ne pas confondre...

1.Ne confondez pas les natures de « en »

a) Préposition :

Il se met **en** quatre pour vous aider.

b) Pronom personnel :

Il **en** met sur son pain. = Il met « en » sur son pain, en étant par exemple de la confiture, du beurre....

c) Adverbe :

Il n'**en** revenait pas = il ne revenait pas de cela.

2. Les articles définis contractés (au - aux - du - des) contiennent une préposition.

Certains oiseaux nichent **au** pied d'un arbre.

3. Les pronoms relatifs « auquel, auxquels, auxquelles, duquel, desquels, desquelles » contiennent également une préposition.

Les amis **auxquels** j'ai téléphoné viendront ce soir.

Attention, à l'écrit, à ne pas confondre:

à (préposition) et a (3e personne du singulier du verbe avoir au présent)

Exemple :

Il a pris froid.

Il est allé à Reims.

sur (préposition) et sûr (adjectif = certain)

Exemple :

Il est monté sur la table pour réparer la lampe.

Il est sûr d'avoir réparé la lampe hier.

On emploie la préposition à quand l'adjectif transmet l'idée d'une chose qui peut être réalisée. En général, l'adjectif est précédé de c'est:

C´est agréable à écouter. C´est passionnant à voir. On l'emploie avec deux adjectifs, prêt et disposé: Il est prêt à aider les autres. Nous sommes disposés à

voyager. Elle introduit un complément de lieu quand on emploie le verbe aller, habiter, vivre, être, rester, se trouver, etc:

1. Un nom de ville: Je vais à Paris. Je vis à Madrid. Je suis à Cordoue. Je reste à Budapest.

2. Un nom de pays masculin: Je vais/Je vis/Je suis/Je reste au Japon.

3. Le nom d'une île sans article (¡Cuba/la Sicile!): Je vais/Je vis/Je suis/Je reste à Cuba.

4. Un lieu: Je vais/Je suis/Je reste à la plage/au cinéma/à l´aéroport/à l´hôtel/aux concerts de jazz. Le plus intéressant se trouve au début du film. Elle introduit aussi un complément de temps, comme par exemple:

1. Un nom de fête: Il viendra à Noël.

2. Une heure: ¡Attention! N'oublie pas l'article contracté au, aux!

Une distance: Je serai à trois kilomètres de la ville. Il viendra à six heures.

3. Une saison (seulement devant le mot printemps): Il viendra au printemps.

Elle apparaît aussi devant un complément d'objet indirect si le verbe exige une préposition .Ex :

Je téléphone à Pierre.

1. Devant un infinitif : J´ai invité Lucie à manger.

2. Elle introduit un complément de mode : Il parle à voix basse. Ces sacs sont faits à la main, en revanche ceux-là sont faits à la machine.

3. Devant un moyen de transport si celui-ci n'est pas fermé : Je vais au marché à pied/à cheval/à moto/à bicyclette/à vélo, etc.

4. Elle peut remarquer la possession: C´est mon livre o Ce livre est à moi.

5. Dans la description, elle indique une caractéristique: L´homme à la voiture rouge est très réputé dans la région.

6. Elle décrit la composition: J´aime la tarte au chocolat et la glace à la vanille. Ou l'utilité d'un objet: C´est une assiette à dessert .

7. Elle remarque une idée ou une tendence: Il s´intéresse/pense à la situation de l´Espagne. Il est opposé/favorable à cette idée.

8. Parler d'un objectif: Il a réussi à le convaincre. Je suis arrivée à le comprendre.

9. Après le verbe jouer si celui-ci fait référence aux sports ou aux jeux : Je joue au ballon/aux cartes. [4p.257]

CHEZ - La préposition chez peut être suivie:

1. D'un pronom: Je rentre chez moi. Chacun chez soi!

2. D'un nom: On va chez Chantal ce soir.

3. D'une profession : J´ai rendez-vous chez le coiffeur à 11 h.

4. Elle peut être aussi précédée d'une autre préposition: Ils habitent derrière chez nous. Ou elle peut avoir le sens de groupe: De nombreuses fêtes avaient lieu chez les Romains.

DANS On enploie la préposition dans pour situer à l'intérieur d'un lieu: Il est dans le bureau/dans la chambre.

DE On emploie la préposition de:

1. À la forme impersonnelle il est + adjectif: Il est important, intéressant, difficile, etc., de faire cela.

2. Avec les adjectifs de sentiment: Je suis contente de partir. Et avec les adjectifs qui expriment un état d'esprit: Nous sommes sûrs de rester.

3. Pour introduire un complément de lieu quand celui-ci exprime la provenance. Le complément de lieu peut être un pays, une ville, une región, une île, etc.: J´arrive de France/de Bretagne/du travail/de l´hôtel/de vacances.

4. Après une expression de quantité ou contenu: Je voudrais un kilo de pommes et une bouteille d´eau.

5. Pour délimiter le temps: De 10h à 14h, je serai au travail.

Attention! Le mot rue est toujours précédé de la préposition dans, même si la rue n'est pas un lieu intérieur: Il est/se promène dans la rue. Il est à la rue signifie qu'il est dans la rue, car il n'a pas de foyer pour vivre. Dans introduit

aussi un complément de temps futur: Je partirai dans un mois. Ou pour indiquer la provenance: Je prends le document dans le dossier.

EN On emploie la préposition en pour introduire un complément de lieu avec les verbes aller, habiter, vivre, être, rester, se trouver, etc. Le complément de lieu peut être un pays, une región, une île: Je suis/ Je vais/ Je reste/ Je vis/ Je me trouve en Autriche, en Andalousie, en Corse. On emploie aussi en:

1. Pour introduire un complément de mode: Elle s´habille toujours en blanc. Elle est souvent en colère.

2. Devant un moyen de transport si celui-ci est fermé: Je vais à bordeaux en avion, en train, en autobus.

3. Pour indiquer la matière d'un object: Elle porte une chemise en coton, une jupe en lin, des chaussures en cuir et des bijoux en or.

4. Pour exprimer la durée pour faire quelque chose: Il va au bureau en un quart d´heure. [4p.254]

Les verbes sont des mots qui expriment les actions ou les circonstances du sujet et prennent des formes différentes en fonction du mode, du temps et du genre de nom. La partie du verbe examinée dans cet article concerne l'utilisation des prépositions à et de ou sans prépositions qui suivent le verbe. Les prépositions sont des mots qui relient des mots ou des parties de phrases et constituent généralement suivis de noms ou de pronoms. Les prépositions peuvent se présenter sous forme de mots, par exemple, dans et pour, ou une combinaison de mots, par exemple, ensemble ou jusqu'à. Lors de l'apprentissage du français, il est difficile d'écrire une phrase car les systèmes du français et de l'indonésien sont très différents. Les erreurs sont une raison pour apprendre une langue étrangère,mais elles doivent être réduites au minimum pour que la langue apprise puisse être plus facilement comprise. On trouve souvent des erreurs dans l'utilisation de prépositions à ou de suivis des verbes. Le fait que l'acquisition la plus difficile est la maîtrise du type de verbe, puis la structure du verbe. Les prépositions sémantiques sont un marqueur des diverses relations de sens entre les prépositions et les mots qui les précèdent. Considérant que l'utilisation de prépositions à ou de est très importantes pour différencier leur utilisation dans une phrase, il est donc très important d'expliquer et de réviser cet article. L'importance d'utiliser des prépositions dans une phrase ou dans le texte incite donc l'auteur à les étudier dans cet article.[2s.206]

Préposition à, c'est qu'il ne faut pas confondre la préposition (à) avec le mot (a) qui est la conjugaison du verbe (avoir) à la troisième personne du singulier au présent de l'indicatif. Il a 50 ans par exemple, ça, c'est le verbe (avoir). Je suis à Metz, ça, c'est la préposition. Déjà, il ne faut pas confondre les deux, le (à), la préposition et le (a) qui est une conjugaison du verbe (avoir). Quand on sait ça, on peut déjà se concentrer sur la préposition (à) en se disant qu'on l'utilise dans sept grandes catégories.

Les prépositions francaise sont soit héritées du latin (classique ou voulgaire) : de,à (lat :ad), en (in), par(per), pour (pro), sana (sine), entre (inter), sur(super), contre (contra), avec (apud hoc), avant (ab ante), derrière (de

retro) ;soit formée sur le sol français à des époques différentes.Ces nouvelles prépositions sont :

a)Des mots formés par composition, mais dont les éléments se sont tout à fais soudés : *parmi (par+mi=medium,milieu),malgré,hormis*

b)Des mots simples d'une autre espèce devenus prépositions par suite de certains emplois dans la proposition : telles sont les participes présents *durant,pendant,suivent,moyennant :*

Cf. La leçon durant (participe présent en construction absolue) , je n'osais

entrer dans la classe.[2s.210]
Je n'osais entrer **durant** dans la classe. (préposition)
Comparons aussi dans ces vers de La Fontaine :
Depuis tantôt six mois que l'affaire est **pendante** (adjectif verbal)
Nous voici comme aux premiers jours.
Pendant (préposition) cela le miel se gâte.
Les prépositions sont des instruments de rection très importants.

Littérature:

1. "Grammaire du Francais" (Cours de Civilisation Francaise de la Sorbonne)-Hachette-Paris 1991
2.Грамматика французского языка – Е.О.Костецкая и В.И.Кардашевский1973
3.J.Bady,I.Greaves,A.Petetin "Grammaire" (Cours de la Civilisation Francaise de la Sorbonne) - 350 exercices,Niveau debutant
4.Е.К.Николская,Т.Я.Гольденберг "Grammaire française "
5.Grammaire francaise. N.Steinberq I Leninqrad, - 1972

Х.Рафиева

Сравнительный анализ предлогов французского языка с азербайджанским

Резюме

Так как французский язык аналитический, в нем нет суффикса падежа, и французские слова используются для выражения этого суффикса. Слова помогают завершить смысл, создавая связь между словами в предложении. Предлог — это неизменное слово, которое не имеет самостоятельной функции в предложении. между двумя словами или группами слов, между двумя членами предложения и указывает на отношение, которое объединяет эти слова. Le livre **de** Vugar, aller **à** pied, **chez** Ramiz, **dans** la cour, **vers** le soir, **devant** l'école.

По своей структуре предлог делятся на следующие группы:

1.простые: **à,devant, de, chez,dans, vers,entre etc.**

2.сложные: **à côté de, en face de, au bord de, près de, au dessus de,au dessous de,à cause de etc.**

К этим же сложным предлогам могут быть отнесеты предложные выражения. Слова в азербайджанском языке соответствуют падежным суффиксам существительного или отдельным словам. Например:

1. **«à»** соответствует азербайджанским суффиксам -a, -ə, -ya, -yə (Родительный падеж), -da, -də (Творительный падеж). Например: Où vas-tu? - Куда ты идешь ? - Je vais à la maison - я иду домой

-Où es-tu? - Где ты ?

- Je suis à la maison - я дома.

2. "de" – azərbaycan dilində -ın, -in, -un, -ün yiyəlik hal, -dan, -dən – çıxışlıq hal şəkilçilərini əvəz edir.

À qui est ce livre ? – Bu kitab kimindir?

- C'est le livre de Nazim – Bu, Nazimin kitabıdır.

D'où viens-tu ? – Sən hardan gəlirsən ?

- Je viens de la maison – Mən evdən gəlirəm.

3. "sous" – "altında" sözünə uyğun gəlir.

Le chat est sous la table. – Pişik stolun altındadır.

4. "sur" "üstündə" sözünə uyğun gəlir.

Le livre est sur la table. – Kitab stolun üstündədir.

5. "pour" – "üçün"

J'achète des fleurs pour ma mère.

Mən anam üçün gül alıram.

6. «avec» — соответствует суффиксу «с» или суффиксам «с, с».

Je vais au cinéma с друзьями.

Я хожу в кино с друзьями.

7. «près de» — «около, рядом»

-La chaise est près de la table.

- Стул стоит рядом со столом.

После глаголов aider, écouter,regarde,rencontrer предлог не обрабатывается

Ключевые слова: формы предлогов, предложные словосочетания, простые предлоги.

X.Rəfiyeva

Fransız dilində sözönlərin Azərbaycan dili ilə müqayisəli təhlili

Xülasə

Fransız dili analitik dillərdən olduğu üçün hal şəkilçisi yoxdur.Həmin şəkilçisini ifadə etmək üçün fransız dilində sözönlərindən istifadə olunur. Sözönləri cümlədə sözlər arasında əlaqə yaradaraq mənanın tamamlanmasına kömək edir. Məs:Le livre **de** Vugar, aller **à** pied, **chez** Ramiz, **dans** la cour, **vers** le soir, **devant** l'école.Sözönləri fransız dilində çox böyük rola malik olub, cümlədə sözlər arasında əlaqə yaradır, mənanın bitkinliyinə kömək edir.Quruluşuna görə sözönləri aşağıdakı qruplara bölünür:

1.Simple-à,devant, de, chez,dans, vers,entre etc.

2.Composé-à côté de, en face de, au bord de, près de, au dessus de,au dessous de,à cause de etc.

Aider,écouter,regarder,rencontrer feillərindùn sonra sözönü işlənmir.

Sözönülər azərbaycan dilində ismin hal şəkilçilərinə və ya ayrı-ayrı sözlərə uyğun gəlir. Məs:

1. **“à”**- azərbaycan dilinə -a, -ə, -ya, -yə (yönlük hal), -da, -də (yerlik hal) şəkilçilərinə uyğun gəlir. Məs: Où vas-tu ? – Sən hara gedirsən ? - Je vais à la maison – Mən evə gedirəm

Où es-tu ? – Sən haradasan ?

- Je suis à la maison – Mən evdəyəm

2. “de” – azərbaycan dilində -ın, -in, -un, -ün yiyəlik hal, -dan, -dən – çıxışlıq hal şəkilçilərini əvəz edir.

À qui est ce livre ? – Bu kitab kimindir?

- C’est le livre de Nazim – Bu, Nazimin kitabıdır.

D’où viens-tu ? – Sən hardan gəlirsən ?

- Je viens de la maison – Mən evdən gəlirəm.

3. “sous” – “altında” sözünə uyğun gəlir.

Le chat est sous la table. – Pişik stolun altındadır.

4. “sur” “üstündə” sözünə uyğun gəlir.

Le livre est sur la table. – Kitab stolun üstündədir.

5. “pour” – “üçün”

J’achète des fleurs pour ma mère.

Mən anam üçün gül alıram.

6.“avec” - « ilə » qoşmasına və ya « -la,-lə » şəkilçilərinə uyğun gəlir.

Je vais au cinéma avec mes amis.

Mən dostlarımla kinoya gedirəm.

7.“près de” – “yanında”

La chaise est près de la table.

Sözönləri fransız dilində çox böyük rola malik olub, cümlədə sözlər arasında əlaqə yaradır, mənanın bitkinliyinə kömək edir.

Açar sözlər: sözönlərinin forması, sözönlərinin birləşmiş formaları, sadə sözönlər.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent
Ulduz Mürşüdova tərəfindən çapa tövsiyə olunmuşdur.

ƏHMƏDOVA SAMİRƏ TOFİQ QIZI
ADİU(UNEC), "Azərbaycan dili" kafedrası, baş müəllim
Ünvan: AZ 1001, Bakı, İstiqlaliyyət küç.6
samira-ahmadova@mail.ru

DETEKTİV ƏSƏRLƏRDƏ YARIMÇIQ SADƏ CÜMLƏ TİPLƏRİ

XÜLASƏ

Sadə cümlə müxtəlif prinsiplər əsasında təsnif olunur ki, onlardan biri də cümlə üzvlərinin iştirakına görədir. Bu əsasda cümlələr bütöv və yarımçıq olur. Yarımçıq cümlələr, bir tərəfdən, dilin ən mühüm prinsiplərindən olan qənaət meylinin məhsuludur ki, burada fikrin az sözlə daha böyük fikri ifadə etmək mühümdür. Bu isə, təbii olaraq, insanın özünün daxili tələbatı ilə həyata keçirilir. İkinci tərəfdən, dialoji nitqin xarakter xüsusiyyətlərindəndir; sualdan məlum olanı, yəni tema olan hissəni cavabda yenidən işlətməyə ehtiyac qalmır. Nəhayət, paralelizmin rolu da danılmazdır; eyni strukturlu konstruksiyalarda bir o qədər də aktual olmayan komponentlər ellipsisə uğrayır.

Detektiv əsərlər reallıqla, dinamik həyatla bilavasitə bağlı olduğundan burada məişət üslubuna aid elementlər dahaçox diqqəti cəlb edir ki , bunların içərisində yarımçıq cümlələr əhəmiyyətli yer tutur. Buradakı yarımçıq cümlələrin müxtəlif və zəngin struktur tipləri vardır. Hər şeydən əvvəl, silsilə yarımçıq cümlələr daha xarakterikdir. Bu zaman həm sual, həm cavab cümlələri yaraımçıq ola bilir. İkincisi, sual-cavab nitqində yarımçıq cümlələrlə elliptik cümlələr ardıcıl olur, biri digərini əvəz edir. Üçüncüsü, bəzi hallarda cavab olan yarımçıq cümlə qrammatik strukturu cəhətdən sual cümləsinin qrammatik strukturu ilə uyğun olmaya bilir. Nəhayət, detektiv əsərlərin dilində hər bir cümlə üzvlərinin iştirakı ilə formalaşan yarımçıq cümlələrlə yanaşı, bir neçə üzvü buraxılan və digər bir neçə üzvünün iştirakı ilə formalaşan yarımçıq cümlələr da vardır.

Açar sözlər: detektiv, dialoq, sual, cavab, yarımçıq cümlə

Detektiv əsərlər gerçəklik hadisələrini əks etdirib, həm mədəni, həm kriminal aləmin həyat tərzini, onların birgə yaşayışı zəminində baş verən həyat hadisələrini əks etdirir. Detektiv əsərlərin uğuru təkcə aktual mövzu seçimi deyil, habelə onun təqdim üsuludur. Həyat hadisələrinin bədii əsərdə uğurlu təqdiminin əsas vasitələrindən biri dil materialından dəqiq, üslubi baxımdan düzgün istifadə etməkdir. Bu əsərlərdə yazıçıçının öz dili dəənənəvi əsərlərin dilindən müəyyən fərqli səciyyəyə malikdir. Bu fərqlilik yazıçının hadisəyə münasibəti ilə, habeləəsərdəki hadisə və faktların bütünlükdə fərqli ictimai-sosial məcrada inkişaf etməsidir.

Detektiv əsərlər Azərbaycan ədəbi dilində qələmə alınır və təbii olaraq, burada ədəbi dilimizin normalarının qorunmasına maksimum riayət olunur. Buna baxmayaraq, hadisə və faktların düzgün qavranılması, onlarının mahiyyətinin dəqiq müəyyənləşdirilməsi, obyektiv gerçəkliyin əlaqələrinin müəyyənləşdirilməsi üçün dil

materialının da spesifik, sahə xüsusiyyətlərinə müəyyən yer verilməlidir. Bu cəhətdən detektiv əsərlərin sintaksisi, o cümlədən cümlə quruluşlarının özünəməxsusluğunun da əhəmiyyətli yeri vardır.

Hər şeydən əvvəl deyək ki, detektiv əsərlərin əksəriyyətində, xüsusən yazıçının dilindəədəbi dilin normativ cümlə quruluşlarından uğurla istifadə edilir. İstər quruluşuna, istər məqsəd və intonasiyasına, istərsə dəşəxsə münasibət əsasında növlərə görə, demək olar ki, bütün cümlə quruluşlarına rast gəlmək olur. Lakin məqsədimiz xüsusi sahə sintaksisini izləmək olduğu üçün spesifik hallardan daha çox bəhs etməyəçalışacağıq.

Bu cəhətdən ilk diqqəti çəkən yarımçıq cümlə tiplərinin işlədilməsidir. Obrazı fərdiləşdirməyin əsas üsullarından biri onun dilinin fərdiliyinə nail olmaqdır. Detektiv əsərlərdə də cəmiyyətin müxtəlif təbəqələri təmsil olunduğundan onların hər birinin cümlə tiplərinin istifadəsində fərdi məqamlar da vardIr. Buna baxmayaraq, detektiv əsərlərin dili əsas etibariləpraktik səciyyə daşıdığından şifahi dil materialı daha çox istifadə olunur. Şifahi dil sintaksisinin əsas xüsusiyyətlərindən biri lakonik cümlə quruluşlarından, xüsusən də, yarımçıq, elliptik cümlələrdən, söz-cümlələrdən istifadədir. Detektiv əsərlərdə müəllif dilində də, obrazların dilində bu tip cümlələrdən genişşəkildə istifadə olunur.

Məlumdur ki, yarımçıq cümlə sadə cümlənin struktur tiplərindən olub, mətndə xüsusən dialoji nitqdə reallaşır. Çünki yarımçıq cümlə hər hansıüzvü və ya üzvləri buraxılan, lakin asanlıqla bərpa edilə bilən cümlə tipidir. Demək lazımdır ki, cümlədə ellipsis faktının meydana çıxması obyektiv bir tələbdir. Hətta B.A.Serebrennikov qənaətin kökündə insan orqanizminin durduğunu qeyd edir. Müəllif göstərir ki, Dildə qənaət prinsipi özünümühafizə instinktinin bir konkret təzahür formasıdır. Bu fizioloji gərginliyin həddindən artıq işlənməsinə qarşıözünəməxsus reaksiyadır”(11,27). Qeyd edək ki, bəzi dilçilər formal cəhətdən tamlığa malik olmayan, lakin müəyyən fikir ifadə edən konstruksiyaların hamısını yarımçıq cümlə kimi təqdim edirlər. A.Muxinin fikrincə, komponent düşümü olan və olmayan, lakin formal ifadə tərzi cümləni xatırlatmayan konstruksiyalar yarımçıq cümlələrdir (9,178). Lakin konstruksiyanın yarımçıqlığı ilə yarımçıq konstruksiyaları qarışdırmaq olmaz. Yarımçıq cümlələrdə fikir ayrılıqda məlum olmur, lakin buraxılmış komponentlərin asanlıqla bərpası mümkündür ki, bununla da oradakı informasiya tam şəkildə anlaşıla bilir. Asanlıqla bərpa edilə bilmənin əsas səbəbi dialoji nitqdə daha çox sual-cavab vəziyyətində meydana çıxması ilə bağlıdır; belə ki, sual nitqindəki hər hansı komponentin cavabda təkrarlanmasına ehtiyac duyulmadığışəraitində buraxılır və sual cümləsi vasitəsilə bərpa edilir. “Yarımçıq cümlə” terminini dilçilikdə ilk dəfə işlədən N.İ.Qreç cümlənin strukturunun məntiqi mühakimənin strukturu ilaüyğun gəlib-gəlməməsini yarımçıqlığın müəyyənləşdirilməsindəəsas prinsip kimi təqdim etmişdir (10, 6). Maraqlıdır ki, dilçilik əsərlərində bu fakt üslubi fiqur kimi qiymətləndirilir (3,14). Cümləüzvlərinin buraxılması mətni və situativ deyəiki növə bölünür ki, bunlarda ellipsisin xarakteri

və məqsədi əsas götürülür. Əslində yarımçıq cümlələrin meydana çıxmasında aktual üzvlənmənin də rolu az deyil. Belə ki, cümlədə "məlum olan" və "yeni" komponent olur və birincilərin yeni informasiyanın verilməsində həlledici rolu olmadığından mətn içərisində buraxıla bilir. Q.Kazımov bu halın cümlədə saxlanılmışüzvün aktuallaşma imkanları ilə bilavasitə bağlı olduğunu qeyd edir: Danışan, yazan təkrara yol verməmək, məlum fikri təkrar etməklə vaxt almamaq, fikri daha sürətlə, aydın, emosional şəkildəçatdırmaq üçün nitq prosesində bir sıra üzvləri ixtisar edir. Zəruri, rasional fikri ifadə edən üzvləri saxlayır və nəticədə yarımçıq cümlələr yaranmış olur"(6, 203).

Detektiv əsərlərin dilində yarımçıq cümlə həm intensiv işləkliyə malikdir, həm də onun müxtəlif struktur-semantik tiplərindən istifadə olunur. Fikrimizcə, bunun əsas səbəbi detektiv əsərlərin özünün xarakteri ilə bağlıdır; belə ki, bu tip əsərlərdə, əvvəla, sual-cavab, yəni dialoq mühüm yerə malikdir. Digər tərəfdən, bu tip əsərlərdə emosional münasibət daha güclü olur ki, onun ifadəsi digər vasitələrlə yanaşı, yarımçıq cümlələrdə tapır. Yazıçının məqsədi və situasiyadan asılı olaraq, detektiv əsərlərin dilində müxtəlif səciyyəli yarımşıq cümlələr işlədilir. Onların bəzilərini diqqətdən keçirək.

Müasir dilimizdə elliptik sadə cümlələr var və onlarda ellipsisə uğramışüzvün bərpasına ehtiyac olmur. Bu barədə Z.Budaqovanın monoqrafiyasında ətraflı məlumat verilmişdir (4). Bu cümlələr ədəbi dilin faktı kimi qəbul edilir, ona görə ki onlarda hər hansı cümləüzvü ellipsisə uğrasa da, onun bərpasına ehtiyac duyulmur. Bu tip cümlələrə detektiv əsərlərin dilində də rast gəliirik. Detektiv əsərlərin dilindəki elliptik cümlələr müxtəlif xarakterlidir. Bunların əksəriyyətində xəbər iştirak etmir, lakin cümlənin ümumi məzmunundan məlum olur. Daha çox yönlük halda yer məzmunlu zərflik işlədilir. Zərflik yer məzmunu bildirdiyindən onun yer anlayışlı feili xəbərləəlaqəyə girdiyi məlum olur. Məsələn: *Timur sürücüyə: -- Bolşaya Sadovaya küçəsinə, "Don Plaza" mehmanxanasına,-dedi.(*V. Məmmədli. "Tunc mələyin yolu", s.174); *Ancelo qapını açıb oturduqdan sonra sürücüyə: - Mehmanxanaya*(V. Məmmədli. "Tunc mələyin yolu", s.105);*Ay əmi, hara? -- Rektorun yanına.*(Ə. Azayev. "İstintaq sirri", s.87); *Tələsin! Badamdar tərəfə! (*H.Seyidbəyli. "Cəbhədən cəbhəyə", s.8) və s.

Bu tip cümlə quruluşlarına gündəlik danışıqda, məişət üslubunda tez-tez işlədirik. Birinci və ikinci nümunələrdə maşının sürücüsünə müraciət olunduğundan cümlənin xəbəri *"sür"* feili ilə ifadə olunmalıdır: "*Don Plaza" mehmanxanasına sür*"; "*Mehmanxanaya sür".* Misaldan göründüyü kimi, ikinci nümunə də vasitəsiz nitqli konstruksiyadır, lakin bu nitq parçasıözü də bütövlüyə malik deyil; belə ki, müəllif təhkiyəsi bitməmiş qalır. Nümunənin sonunda müəllif təhkiyəsinin xəbəri olan "*dedi*" sözü olmalıdır, lakin işlədilmədiyindən bütünlükdə vasitəsiz nitqli konstruksiya yarımçıq qalmışdır, yəni *"dedi"* xəbərinin işlədilməməsinin nə elliptikliklə, nə yarımçıq konstuksiya iləəlaqəsi yoxdur, sadəcə, yersiz yerə işlədilməmişdir. Dördüncü nümunədə də məkanla bağlı getmək anlayışı vardır, lakin

birinci və ikinci nümunədən fərqli olaraq burada sürücüyə müraciət yoxdur. Ona görə də burada "sür" feili xəbərindən istifadə edilmir. Digər tərəfdən, burada kollektiv qrupa müraciət olunduğundan yenə həmin feil yerinə düşmür. Deməli, "*gedək"* sözüən uyğun variantdır. Üçüncü nümunə də birinci komponent elliptik cümlədir; burada sual şəklində məkana yönəlmə vardır: *hara?,* yaxud *haraya?* Bu cümlə müxtəlif mətn daxilində ayrı-ayrı formalarda təhlil oluna bilər, yəni həm elliptik, həm yarımçıq cümlə kimi işlədilə bilir. Yuxarıda verilmiş nümunəni mətn içərisində aldıqda *"Ay əmi, hara gedirsən?"* kimi anlaşılır. Bunu verilən cavab cümləsindən də asanlıqla ayırd etmək mümkündür. Düzdür, cavab əslində yarımçıq cümlədir. Belə ki, ayrılıqda bu formada cümlənin işlədilməsi mümkün deyil, bu, mövcud deyil, yalnız müvafiq suala cavab kimi meydana gəlmişdir.

Elliptik cümlələrin bir qismində başqa semantikalı xəbərin də işlədilməməsi faktı ilə qarşılaşırıq. Bunlarda da xəbərin hansı söz olduğu digər sözlərin məzmunundan bəlli olur. Məsələn: *"Qəssabın kef-əhvalı?(*E.Elatlı. "Qan ləkəsi", s.46) Bu cümlənin xəbəri əslində sual əvəzliyindən ibarət olmalıdır: *Qəssabın kef-əhvalı necədir?*Əslindəədəbi dil faktı kimi bütöv konstruksiya işlədilir, detektiv əsərdən gətirilən nümunə isə danışıq dili faktıdır, amma elliptik cümlə xarakterlidir.

Bəzi konstruksiyalarda isə ellipsisə uğramış söz və ya ifadənin ümumi məzmun istiqaməti məlum olur, lakin onu konkret sözlə ifadə etmək çətin olur, çünki həmin məqamda verilmiş ifadə ilə ayrı-ayrılıqda bir neçə feil əlaqəyə girə bilər. Məsələn: *Ancelo Ninaya oturmaq üçün yer göstərdi: --Çay, kofe? Ürəyiniz nə istəyir, buyurun.(*V.Məmmədli. "Tunc mələyin yolu", s.94) Bu nümunədə "*Çay, kofe"* hissəsi elliptik cümlədir, hətta ətrafındakı cümlələrdən də burada konkret olaraq hansı feilin işlədilməli olduğu anlaşılmır. Burada məzmundan asılı olaraq, "*istəyirsiniz", "gətirim"* və bunlara uyğun digər feillər işlədilə bilər. Bunların hər biri mətnə uyğun olsa da konkret hansının olması dəqiq deyil. Buna baxmayaraq, buradakı fikir aydındır və hər iki feil mətndəki yerinə görə bir-biri ilə sıx bağlıdır və eyni fikri ifadə etmək üçün hər ikisi düşünülə bilər.

Bu tipli elliptik konstruksiyalar bəzən silsilə xarakteri daşıyır, yəni bir dialoji nitqin içərisində situativ şəkildə ardıcıl olaraq bir neçə elliptik cümlə işlədilmiş olur. Məsələn: *Oğlan onu stol arxasına dəvət etdi. –Çay? –İçmirəm. –Kofe necə? --Sağ olun. –Bəlkə limonad, koka-kola?—Heç birindən.(*E.Elatlı. "Qan ləkəsi", s.16) Bu mikromətndəüç elliptik cümlə işlədilmişdir. Bunların hər biri, demək olar ki, avvəlcə verdiyimiz nümunəyə oxşayır, lakin ikinci cümlə quruluşuna görə fərqlənir. Digər tərəfdən isə, cavab cümləsi elliptik ifadəyə aydınlıq gətirmiş olur. Birinci cavab cümləsi *(İçmirəm*) konkret məzmunu bildirsə də, elliptik ifadənin tam halda həmin söz olması demək deyil, çünki bu zaman "*gətirsinlər*" müxtəlif qrammatik formalarda da ola bilərdi. Bu da bir daha göstərir ki, qeyd edilə konstruksiya yarımçıq cümlə yox, elliptik cümlədir. Buradakı ikinci elliptik formanın xarakteri isə başqa cürdür. Əslində "*Kofe necə?"* ifadəsi sadə cümlənin deyil, mürəkkəb cümlənin elliptik formasıdır. Belə ki, bu konstruksiyanın özündə mübtəda *(kofe)* vəxəbərlik

şəkilçisi ixtisar olunmuş xəbər (*necədir)* vardır. Bu baxımdan cümlə strukturu baxımdan bitkin təsir bağışlayır, lakin konstruksiyanın informativ yükü onun daha böyük konstruksiyanın bir hissəsi olduğunu düşünməyə haqq verir. Bu konstruksiyanın bütöv forması belə bərpa edilə bilər: *Kofe necədir, istəyirsənmi?(içirsənmi, gətirsinlərmi və s.)* Deməli, tabesiz mürəkkəb cümlənin bir komponenti ilə yanaşı birinci cümlənin xəbərlik şəkilçisi ixtisara uğramışdır, buna baxmayaraq, konstruksiyanın verdiyi informasiya tam şəkildə anlaşılır ki, ünsiyyət üçün də məhz bu lazımdır.

Konstruksiyanın sonuncu cümləsi haqqında bu fikirləri demək olmaz, ona görə ki, bu ifadəəvvəlki cümlələrin olmadığışəraitdə işlədilmir, yalnız əvvəlki cümlələrdəki müəyyən cümləüzvləri ilə qarşılıqlıəlaqədə həmin cümlə də bərpa edilə bilir: Heç birindən istəmirəm. (və ya içmirəm) Deməli bu konstruksiya elliptik yox, yarımçıq cümlədir.

Bu baxımdan detektiv əsərlərin dilində həm yarımçıq, həm də elliptik cümlələrin yanaşı, bir dialoqun müxtəlif komponentləri kimi işlədilməsi faktı tez-tez diqqəti cəlb edir. Məsələn: *Mənə yamanca tanış gəlirsiniz.—Ola bilər.—Siz hara belə?—Moskvaya.—Gəzməyə?—Yox, sərgiyə.—Dəvət ediblər?—Hə, qocaman neftçi kimi.—Maraqlıdır.—Bəs siz hara?—Mən turistəm.—Hardan gəlmişsiniz?—Ştatlardan.—Amerikadan?(*Ə.Azayev. İstintaq sirri, s.280) Bu mikromətn ardıcıl olaraq sual-cavab nitqindən ibarətdir. Birinci cavab cümləsi yarımçıq cümlədir; burada tabeli mürəkkəb cümlənin budaq cümləsi ellipsisə uğramışdır. Sual və cavabın qarşılaşmasından cavab cümləsinin bütöv forması belə bərpa oluna bilər: *Ola bilər ki, sizə tanış gəlim.* Deməli, burada cümləüzvü deyil, tabeli mürəkkəb cümlənin budaq cümləsi işlənməmiş və bununla da baş cümlədən ibarət yarımçıq cümlə yaranmışdır. Buna elliptik cümlə demək olmaz, çünki ayrılıqda—dialoqun ilk komponenti olmadan bu cümlənin işlədilməsi mümkün deyil.

İlk sual cümləsi olan üçüncü konstruksiya elliptik cümlədir: *Siz hara belə?* Düzdür, dialoji nitqin komponentidir, lakin cavab deyil, sual komponentidir, daha doğrusu, digər cümlənin iştirakı ilə bərpaya ehtiyacı yoxdur. Bu cümlədə"*gedirsiniz"* feili xəbərinin işlədilməsinə, deməli, həm də bərpasına ehtiyac yoxdur. Sonrakı cümlələrin, demək olar ki, hamısı yarımçıq cümlədir. "*Sən hara belə"* konstruksiyası elliptik cümlə kimi bərpaya ehtiyacı olmasa da, sonrakı cümlə ilə münasibətdə həmin sözün—feili xəbərin semantikası bir daha xatırlanır: "*hara?"* sualına "*Moskvaya"* yarımçıq cümləsi (*Moskvaya gedirəm*), bunun ardı kimi sualın özü də yarımçıq cümlə kimi formalaşır, onun bütöv cümlə kimi formalaşdırılmasına ehtiyac yoxdur, konstruksiyalar eyni struktur formada davam etdirilir. "*Gəzməyə*" yarımçıq cümləsi "*Gəzməyə gedirsən*" bütöv cümləşəklində bərpa olunur. Növbəti konstruksiya da bu struktur tipin davamıdır: "*Sərgiyə"(gedirəm).* Göründüyü kimi, dörd cümlədə "*getmək*" sözü feili xəbər kimi müxtəlif qrammatik formalarda ellipsisə uğramışdır.

Növbəti konstruksiyadan ellipsisin xarakteri dəyişir. "*Dəvət ediblər"* konstruksiyası yarımçıq cümlədir, çünki bu konstruksiyada informasiyanın dəqiqliyi

üçün cümləüzvünün bərpasına ehtiyac vardır ki, bu da əvvəlki cümlədən məlum olur. Belə ki, "*Sərgiyə"* ifadəsi özü yarımçıq cümlə olsa da, sonrakı yarımçıq cümləüçün açar rolunu oynayır. Əvvəlki cümlə ilə münasibətdə bərpa edilən "*Sərgiyə gedirəm"* cümləsindən çıxış edərək, növbəti cümlənin "*Sərgiyə dəvət ediblər?"* formada bərpası düzgün hesab edilə bilər. Bundan sonrakı cümlə də yarımçıq xarakterdədir; belə ki, "*Hə, qocaman neftçi kimi"* ifadəsi növbəti cümlədə zərflik funksiyasına malikdir. Bunu ifadənin həm struktut özəlliyi, həm də sual-cavabdan çıxan məzmun göstərir. Bu baxımdan cümlənin bütöv forması belə bərpa edilə bilər: Hə, qocaman neftçi kimi dəvət ediblər.

Sonrakı cümlə struktur cəhətdən bitkin xarakterə malik olsa da, əslində mətn içərisində onun da elliptik konstruksiya olduğu aşkara çıxır. Əvvəlki cümlə ilə qarşılaşdıranda "*Sənin sərgiyə dəvət edilməyin maraqlıdır"* cümləsi formalaşır ki, bununla da konstruksiyanın daşıdığı informasiya tam şəkildə aydın olur. Növbəti cümlə forması bir az əvvəldə var idi, lakin buradakı cümlənin konkretliyi artıqdır, daha doğrusu, onun bətpa ehtiyacı daha çoxdur: Bəs siz hara gedirsiniz? Buna verilən cavab artıq müstəqil cümləsəciyyəsindədir. İlk baxışda buradakı informasiya aydındır, lakin burada məlum olan yalnız cümlənin semantikasıdır ki, bu da oradakı sözlərin əlaqəsində meydana çıxır. Lakin mətndəki ardıcıllıq göstərir ki, həmin konstruksiya daha böyük informativ yükə malikdir. "*Bəs siz hara gedirsiniz?"* sualının mətnə görə bütöv cavabı belədir: *Mən turistəm, səyahət edirəm.*Əslində turist deyilən kəs Amerikadan gəlir(getmir). Lakin mətnin ümumi məzmunundan aydın olan bu komponentin bərpasına ehtiyac duyulmur. Ona görə də həmin konstruksiya elliptik cümlədir.

Nəhayət, sonuncu iki ifadə yarımçıq cümlədir, daha dəqiq desək, onlar ("*Ştatlardan"; Amerikadan")* eyni qrammatik formada olub, xəbərlik şəkilçisi iştisar edilmiş xəbərdir, lakin ikincisi birincinin əlavəsidir. Göründüyü kimi, kiçik bir dialoqda çoxlu sayda sual-cavab cümlələrindən istifadə edilmişdir ki, onların hamısı lakonik formadadır, lakin hər birində fikir aydındır. Maraqlı cəhət ondan ibarətdir ki, burada elliptik və yarımçıq cümlələr növbələşir ki, bu hal həmin cümlələrin əlaqəsinə ciddi təsir etmir.

Onu da demək lazımdır ki, bəzi konstruksiyaların elliptik və ya yarımçıq cümlə olduğunu dəqiq söyləmək çətin olur. Məsələn: *Fani dünyadı da. Belədə deyirlər, sən saydığını say.*(E.Elatlı. "İtmiş qızın axtarışı", s.31) Buradakı ikinci konstruksiya tabeli mürəkkəb cümlədir, lakin daha böyük konstruksiyanın—qarışıq tipli tabeli mürəkkəb cümlənin bir hissəsidir. Dilimizdə bu tipli konstruksiyalarda baş cümlənın ellipsisə uğradığı faktına daha çox təsadüf edilir. T.Müzəffəroğlu göstərir ki, "atalar sözü və zərb-məsəllər o qədər kütləviləşmiş, ümumxalq malı olmuş və indi də işlək xarakteri daşıyır ki, əlavə izaha, ifadənin mənbəyini göstərməyə--ona işarə edən ayrıca cümlə strukturunun (baş cümlənin) işlədilməsinə ehtiyac duyulmur"(8,130) M.Adilov elliptik formanın bütöv formaya nisbətən daha işlək olduğu və emosional-ekspressiv yükə malik olduğunu qeyd edir: "Göstərilən baş cümlələrsizatalar

sözlərinin təsiri daha qüvvətli olur (2,49).Yuxarıda verdiyimiz nümunədə isə başqa vəziyyətlə qarşılaşırıq; burada birinci komponent, yəni baş cümlə deyil, budaq cümləni təşkil edən tabesiz mürəkkəb cümlənin ikinci komponenti işlədilməmişdir. Məlumdur ki, əslində həmin atalar sözünün bütöv forması belədir: Sən saydığını say, gör fələk nə sayır. Demləli, atalar sözünün özündə ellipsis özünü göstərir. Atalar sözləri kütləvi anlaşıqlı olduğundan onun hər hansı komponentinin işlədilməməsi onun ifadə etdiyi informasiyanın dərk edilməsinə mane olmur, ona görə də asanlıqla ellipsisə uğrayır.

Detektiv əsərlərin dilində yarımçıq cümlə quruluşlarından daha çox istifadə olunur. Müxtəlif situativ vəziyyətlərdə, informativ tələbin tez-tez dəyişdiyi danışıq nitqində cümlə quruluşları da tez-tez bir birini əvəz edir. Q.Kazımov yarımçıq cümləni mətn vahidi, nitq vahidi adlandırır və onun ən çox dialoq nitqində funksionallaşaraq, məntiqi-intellektual, ekspressiv-üslubi funksiyaları yerinə yetirdiyini qeyd edir (7,32). Bəzi tədqiqatçılar bu mövqedə yarımçıq cümlənin mətnyaradıcılıq funksiyasının olduğunu da göstərirlər (5,73).

Dialoji nitqin tələbi olaraq nəinki cavab cümləsi, hətta sual cümləsinin özü də yarımçıq cümlə ola bilir. Burada aktual üzvlənmənin əsas xüsusiyyətlərindən bir--əsas fikrin lakonik ifadəsi mühüm rola malikdir. Məlumdur ki, aktual üzvlənmənin komponentləri olan tema və rema müəyyən situasiyalarda bir-birini əvəz edə bilir. Daha konkretləşdirsək, birinci cümlənin reması növbəti cümlənin reması ola bilər yaxud bir neçə cümlədə tema eyni qaldığı halda, remalar dəyişə bilər. Bu baxımdan yarımçıq cümlələrdə növbəti cümləüçün tema olan komponentin buraxılması təbiidir. Misala müraciət rdək: *Namazovun Ərəstundan başqa da övladı var? – Var...Bir oğlu da var. –Neçə yaşı var? –Elə siz yaşda olar. –Yəni neçə? –22-23. – Oğlanın adı nədir?—Zeynalabdin. –Harda işləyir? –Dəmir yolunda.*(H.Seyidbəyli. “Cəbhədən cəbhəyə”, s.95)

Bu kiçik dialoji nitqdə on bir cümlənin yalnız üçü yarımçıq deyil, qalanların hamısı yarımçıq cümlədir. Birinci cümlə, təbii olaraq bütöv cümlə formasındadır; belə ki, dialoji nitqin birinci cümləsi yarımçəq ola bilməz. İkinci cümlə cəmi bir sözdən ibarət olsa da, yarımçıq yox, üzvlənməyən, yəni şəxssiz cümlədir. Burada cümləüzvü yoxdur, *“var”* predikativi bütün cümləni əvəz etmişdir. Bu cavab nitqinin ikinci cümləsi yarımçıq cümlədir: *Bir oğlu da var.* Bu cümlədə*“Namazovun Ərəstundan başqa”*ifadələri ellipsisə uğramışdır. Bundan sonra gələn sual cümləsi də yarımçıq xarakterlidir: *Neçə yaşı var?* Əvvəlki cümlə ilə qarşılaşdırıldıqda bu cümlənin bütün forması belə bərpa oluna bilər: Bu oğlanın neçə yaşı var? Cavab cümləsində də eyni ifadənin işlədilməsinə ehtiyac qalmır, ona görə də cavab yarımçıq cümləşəklində ifadə olunur: *Elə siz yaşda olar.* Göründüyü kimi, verilən cavab da yarımçıq cümlədir, çünki burada da yenə eyni ifadə, lakin fərqli qrammatik formada ellipsisə uğramışdır: O oğlan elə siz yaşda olar. Lakin bu cümlədəki fikir tam aydın olmadığından növbəti yarımçıq sualın meydana çıxmasına şərait yaratmışdır: *Yəni neçə?(Yəni o oğlanın neçə yaşı var?).* Ona görə də bu sualın cavabı

da yarımçıq cümlə strukturunda olacaqdır: *22-23.* Söhbətin bu məqamı situativ informasiyanın bitdiyini göstərir, artıq yeni məzmunlu söhbət başladığından qeyri-müəyyənliyə yol vermək olmaz, fikir bütöv cümləşəklində ifadə olunmalıdır: *Oğlanın adı nədir?* Dialoqun yeni davamedici hissəsi meydana çıxır, ona görə də yenə fikirlər məhz yarımçıq cümlə strukturlarında davam edir. Təbii ki, bu zaman sual və ya cavab cümlələrində paralellik mühüm rola malikdir (1,92). Bu baxımdan bütün konstruksiyalarda—həm sual, həm cavab cümlələrində müəyyən mənada eyniquruluşluluq özünü göstərir. Cavab cümləsi: *Zeynalabdin.* Bu ifadə sual cümləsindən də göründüyü kimi, bütöv cümlənin xəbərlik şəkilçisi buraxılmış xəbəridir. Lakin burada cümlənin yalnız xəbəri deyil, üçüncü növ təyini söz birləşməsi ilə ifadə olunan mübtədası da(*oğlanın adı*) ixtisar edilmişdir. Növbəti cümlədə dəəvvəlki cümlələrdə ayrıca şəkildə verilməyən, lakin qeyd edilən cümləüçün mübtəda rolu oynayan ifadə ixtisar edilmişdir: *Oğlan harda işləyir?* Nəhayət, sonuncu cümlədə həm həmin mübtəda, həm də xəbər ixtisar edilməklə yarımçıq cümlə formalaşmışdır: *Oğlan dəmir yolunda işləyir.*

Qeyd edək ki, bu cür dialoji nitqə detektiv əsərlərin dilindəçox rast gəlmək mümkündür. Və bunların hər birində yarımçıq cümlənin müxtəlif xüsusiyyətləri özünü göstərir. Bu baxımdan detektiv əsərlərin dilində olan yarımçıq cümlələrin struktur modelləri haqqında, fikrimizcə, ayrı-ayrılıqda bəhs etməyə ehtiyac vardır.

Yarımçıqlıq faktı dilimizdə, xüsusən, sadə cümlələrdəözünü göstərir; bu cümlələrdə sual cümləsindən aydın olan komponentlərin cavab cümləsində işlədilməsinə ehtiyac qalmır. Bu zaman ancaq sual cümləsindən aydınlaşdırılmasına tələb olan cümləüzvü işlədilir. Bu baxımdan yarımçıq cümlələrin aşağıdakı struktur tiplərinə rast gəlmək olur.

1) Sual cümləsi ancaq qrammatik əsasdan ibarət olur və cavabda mübtəda düşür və yarımçıq cümlə yalnız xəbərdən ibarət olur. Belə halda adətən xəbərlik çəkilçisi də işlənmir. Məsələn: *Adı, familiyası nədir? –Serafima Kostrova.(*H.Seyidbəyli. "Cəbhədən cəbhəyə", s.163)

Bu tip cümlələrdə xəbər bəzən frazeoloji birləşmədən ibarət olur və cavabda hətta frazeologizm—xəbərin birinci komponenti qənaət nəticəsində də işlədilmir. Məsələn: *Artel müdirindən icazə almısan?—Almışam*(H.Seyidbəyli. "Cəbhədən cəbhəyə", s.218); *Sizcə, bu bir iş görə biləcək?—Biləcək—dostu cavab verdi.* **(**E.Elatlı. "Xəyanət", s.170); *O hardasa səhv edəcək. –Düzdür, edəcək.* (E.Kəlbiyev. "Şahmat qaydaları ilə qətl", s.112)

Birinci nümunədə"*icazə almışam*" frazeoloji birləşməsinin, ikinci nümunədə isə "*görə biləcək*" mürəkkəb feilinin, üçüncü nümunədə isə "səhv edəcək" mürəkkəb feilinin birinci komponenti buraxılmışdır. Məlumdur ki, hər iki halda ifadə mürəkkəb feildir və leksik vahid olaraq parçalanması və hansı bir komponentinin düşməsi dil norması baxımından buraxılması düzgün deyil. Verilən nümunələrdə belə bir ellipsisin baş verməsi sırf danışıq dilinin xüsusiyyətidir.

It is known that according to the laws of psychology, the degree of understanding depends on the organization ofthe utterance. If a writer wants to be really understood by the reader, and he/she wants it, then in order to exercise a proper influence on the reader, it is not enough for him/her to express convey only the meaning, the main idea of the work through a word, a statement; it is necessary to convey this word, a statement so that it necessarily 'activates' the reader's imagination and feelings, and not just his/her thought. And a writer always takes this into account consciously or unconsciously, otherwise his/her work will not reach the addressee, therefore, the action and specific communication in aesthetic field will not be realized. In other words, the communicative role here is small; the influential or pictorial role of speech which activates the reader's imagination and feelings is also needed.

.

Bibliography:

1. Cooper, Robert. 1989. Language Planning and Social Change Cambridge: Cambridge University Press. p.44-48
2. Crystal, David. 1997. English as a Global Language. Cambridge: Cambridge University Press.p.123-128
3. Edwards, John. 1994. Multilingualism. London: Routledge.p.66-69
4. Li, Shichao. "Globalization of Languages" June 15, 2002.p.242.

İ.İsgəndərzadə

Dil və qloballaşma

Xülasə

Məqalədə qloballaşmanin dillərə təsiri, dillərə olan fərqli təsiri, müxtəlif nəzəriyyəçilərin qloballaşmanın dilə təsiri haqqında olan fikirləri öz əksini tapıb. Media və telekomunikasiya kimi insan fəaliyatinin müxtəlif sahələri onlarin dilə olan təsiri və eyni zamanda istifadəsinə dair misallar göstərilmişdir. Məqalədə ən çox diqqət ingilis dilində olan qloballaşmaya və onun nəticəsində meydana gələn dəyişikliklərə yönəldilib.

Eyni zamanda qloballaşmanın dilə təsirinin mənfi və müsbət cəhədləri göstərilib. Qloballaşma insanların müxtəlif ölkələrdə yaşamasını asanlaşdırır və onların həmin mühütə tez uyğunlaşmasına yardımcı olur. Onların fərqli mədəniyyətlərlə tanışlığını asanlaşdırır və insanların dünya görüşünə müsbıt təsir edir. Mədəniyyətlərin biri birinə qarışıb tamamlamasına şərait yaradır. Qloballaşmanın mənfi cəhətləri isə varlılar və kasıblar arasında yaranan boşluq və milli fərqliliyin yavaş-yavaş itməsi kimi amillər qeyd edilir.

Beləliklə, yazılı mətni tədqiq etmək ənənəsi linqvistikaya cümlə anlayışını gətirdi, belə bir faktı dərk etməyə imkan verdi ki, səslənən nitqin köməkliyi ilə danışan bu və ya digər şəkildə cümlə strukturunu bölə və həmsöhbətinə onun üçün lazım olan informasiyanı ötürə bilər. Hazırda ifadə anlayışı bütün dilçilər tərəfindən tanınır, lakin onun cümlə ilə olan nisbəti problem olaraq qalır. Bu problemin mübahisəli olması obyektiv səbəblərlə izah edilir kiç onlardan daha mühüm olanı budur ki, cümlə və ifadə əksər hallarda eyni linqistika forması ilə ötürülür.

Daha çox ümumi olan şəkildə cümlə əsas sintaksis vahidi kimi xarakterizə edilir, hansı ki "fikrin formalaşmasıç ifadəsi və xəbər verilməsinin başlıca vasitəsi" kimi xidmət edir. Hazırda bu ümumi müddəa cümlənin üç əsas: struktur, nominativ və kommunitativ əlamətinin mövcud olmasının etiraf edilməsi ilə konkretləşir

Açar sözlər: qloballaşma, dil, mədəniyyət,inkişaf,İngilis dili

И.Исгендерзаде

Язык и глобализация

Резюме

В этой статье говориться о воздействие глобализации на языки рассматривается значение глобализации, приводятся мнения различных теоретиков касательно воздейсвия глобализации на язык. Рассматриваются различные сферы деятельности человека, такие как медия и телекоммуникация, воздействие их на язык, приводятся примеры касательно их употребления.

Акцентируеться внимание на глобализацию в английском языке, изменения в языке в результате этого воздействия. Также рассматриваются положительнные и отрицателные стороны воздействия глобализации на язык. Глобализация облегчает процесс адаптации человека в случае проживания его в другой стране. Облегчает знакомство с различными культурами и оказывает положительное влияние на мировозрение людей. Создает условия для межкультурной коммуникации и взаимо дополнению культур.

К отрицательным чертам относиться появления пропасти между богатыми и бедными людьми а также постепенная потеря национальной индивидуальности.Итак, традиция исследования письменного текста дала лншвистике понятие предложения, осознание же того факта, что с ломошью звучащей речи говорящий может так или иначе расчленить стукгуру предложения и передать собеседнику содержащуюся в предложении информацию в нужном для него.

В настоящее время лонятие высказывания признается всеми лингвистами, однако спорной мается проблема его соотношения с понятием предложеня, слпгнхть этой. проблемы объясняется объективными причинами, из кгторых наиболее важна та, что предложение и высказывание в большинстве случаев передаются одной и той же лингвистической формой

Ключевые слова: глобализация, язык, культура,развитие,Английский язык

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: Doctor of Philosophy in Philology, Associate Professor Rafig Jafarov tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

NƏZAKƏT MƏMMƏDLI
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun Türkdilli
əlyazmaların tədqiqi şöbəsinin aparıcı
elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru
ulya98@yahoo.com.tr
Tel. 0503127059

ƏTTAR VƏ NƏSİMİNİN FARSCA DİVANLARININ MÜQAYİSƏSİ

Xülasə

Təsəvvüf ədəbiyyatının formalaşmasında müstəsna xidmətləri olan Şeyx Fəridəddin Əttarın zəngin və çoxşaxəli yaradıcılığı öz dövründə və sonrakı əsrlərdə yaşayan şairlər üçün ilham qaynağı olmuş, şairin istər məsnəvilərinə, istərsə də divanındakı şeirlərinə çoxsaylı nəzirələr yazılmışdır. Bir çox hallarda müxtəlif şairlər Əttarın obraz və süjetlərindən faydalanmış, əsərlərinə təlmih və işarələr etmişlər. Əttar yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişaf və zənginləşməsində böyük rol oynamış, xüsusilə də təsəvvüf ədəbiyyatımız ən çox Əttarın əsərlərindən, rəmz və məcazlar sistemindən faydalanmışdır.

Nəsimi və Əttarın farsca divanlarında "Bebin", "Vəssalam", "Darəm", "Darəd" "Eşq", "Mast" və s. kimi ortaq rədifli qəzəllər vardır. Mənim qeyd etdiklərimi də əlavə et ki, tamamlansın. Bu qəzəllər müxtəlif vəznlərdə yazılsa da, məzmun, ideya və qafiyə sistemi baxımından bənzərdirlər.

Nəsimi də əksər mütəsəvvif şairlər kimi Sənai-Əttar-Rumi məktəbinə bələd olmuş, istər fars, istərsə də türkcə divanlarına bu məktəbə xas olan rəmz və məcazlar sistemindən, obraz və süjetlərdən yararlanmışdır.

Açar sözlər: Əttar, Nəsimi, Simurq, Şeyx Sənan, Məntiqüt-Teyr, sığmazlıq

Giriş

Təsəvvüf ədəbiyyatının formalaşmasında müstəsna xidmətləri olan Şeyx Fəridəddin Əttarın zəngin və çoxşaxəli yaradıcılığı öz dövründə və sonrakı əsrlərdə yaşayan şairlər üçün ilham qaynağı olmuş, şairin istər məsnəvilərinə, istərsə də divanındakı şeirlərinə çoxsaylı nəzirələr yazılmışdır. Bir çox hallarda müxtəlif şairlər Əttarın obraz və süjetlərindən faydalanmış, əsərlərinə təlmih və işarələr etmişlər. Əttar yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişaf və zənginləşməsində

böyük rol oynamış, xüsusilə də təsəvvüf ədəbiyyatımız ən çox Əttarın əsərlərindən, rəmz və məcazlar sistemindən faydalanmışdır.

Azərbaycan təsəvvüf ədəbiyyatının ən görkəmli şəxsiyyətlərindən olan Nəsimi özündən öncəki şairlərin yaradıcılığına dərindən bələd olmuş və onlardan bəhrələnmişdir. "Nəsimi dövrünün ədəbi ənənələrinin ən layiqli müdavimlərindən biri idi. Nəsiminin qəzəli Əttarın təsəvvüfi şeirindən, Nizaminin nəzmindən və Mövl ana və onun vəcdindən rəng və qoxu almışdır. Şeir sənətində Nizaminin məqamı Nəsiminin idealı olmuş, və o bu yüksək dərəcəyə çatmaq arzusunu daşımışdır" (Məmmədzadə 1997, s. 67)

Nəsimi də əksər mütəsəvvif şairlər kimi Sənai-Əttar-Rumi məktəbinə bələd olmuş, istər fars, istərsə də türkcə divanlarına bu məktəbə xas olan rəmz və məcazlar sistemindən, obraz və süjetlərdən yararlanmışdır.

Əttar və Nəsiminin farsca divanlarında poetik və irfani paralellər

Nəsiminin türkcə divanında da Əttar yaradıcılığı ilə bir çox paralellər tapmaq mümkün olsa da hər iki şairi arasında şeiriyyət və ideya baxımından bənzərliklərini ən bariz şəkildə müşahidə etmək üçün ilk növbədə Əttarın divanı və Nəsiminin farsca divanını müqayisəli şəkildə araşdırmaq gərəkdir.

Divan şairləri əsrlər boyunca şeirdə səs, ritm və harmoniyanı təmin etmək üçün şeirlərində rədif və qafiyədən sıx istifadə etmişlər. Çünki şeirdə rədif və qafiyənin olması onun həm qulağa xoş gəlməsini, həm də yaratdığı musiqi ahəngi ilə oxuyan şəxsin ədəbi zövqünü oxşayar. Şeirin hər beytinin sonunda olan səs və söz bənzərliklərinin təkrar edilməsi şəkil və ahəng baxımından ona etibar qazandırır. Belə ki, divan şeirində, xüsusilə də qəzəllərdə işlədilən rədiflər bir çox hallarda qəzəlin mövzusunu müəyyənləşdirir (Çinarcı, 2010,14).

Bizcə, bu fikir çox doğrudur. Çünki bir divan şairinin işlətdiyi rədiflərə baxdıqda onun poeziyasının mövzu və ideya xüsusiyyətləri barədə çox şey demək mümkündür.

Əttarın yaradıcılığında ən çox işlətdiyi rədiflərdən biri "Nəqoncəd(Sığmaz)dir. Şair 5 qəzəlində bu rədifdən istifadə edir. Bu rədif şairin dünyaya, maddi aləmə sığmayan böyük ruhunun harayını, dərin hisslərini, mistik yaşantılarını ifadə edir. Təsəvvüfi terminologiyada bədən, cisim lətif ruhun ayağına bağlanan qandallara (Seyid Yəhya 2014,22), bəzən də ruhun ayaqqabısına (nəleyninə) bənzədilir. "Kamillik dərəcəsinə yetişən və öz vücudunun cövhərini ərəzdən təcrid edən şəxslər müqəddəs vadidə nəfs və qəlb nəleynini ruhun ayağından çıxarırlar" (Məmmədli, 2011, 91). Ayaq böyük olduqca ayaqqabı onu daha çox sıxır. Böyük ruh sahibləri də bu maddi aləmin sərhədlərinə sığmır, dünya onlara dar gəlir.

"Məndə sığar iki cahan, mən bu cahana sığmazam" deyən Nəsimidə də maddi aləmə, dünyaya, şeirə, sözə sığmazlıq motivləri üstünlük təşkil edir. Hətta bu sığmazlıq şairin yaradıcılığının leytmotivini təşkil edir. Nəsimi irsinin yorulmaz araşdırıcısı, tanınmış nəsimişünas alim Səadət Şıxıyeva Əttarın "Nəqoncəd" (*Cana,*

hədise-hosnət dər dastan nəqoncəd; Rəmzi ze raze-eşqət dər səd zəban nəqoncəd) qəzəli ilə Nəsiminin məşhur *"Məndə sığar iki cahan, mən bu cahana sığmazam"* rədifli qəzəlini müqayisə edərək yazır: "Əttara görə "bəyan"a ("şərhə") sığmayan yarın eşqinin vəsfidir. ("Nişan" sözü ilə bağlı xüsusiyyət təkrarlanır). Nəsimi isə ayrı bir mövqedən – yer və göyün, eləcə də bu ikisinin arasında olanların əsl mahiyyətinin şərhə (bəyana) sığmadığını deyir" (Şıxıyeva, 2000, 49).

Əttar:

جانا شعاع رویت در جسم و جان نگنجد
وآوازه جمالت اندر جهان نگنجد (Əttar 1381,236)

Ey can, üzün şüası cismə və cana sığmır;
Camalının avazı bütün cahana sığmır.

Nəsiminin "Nəqoncəm" (Sığmaram) rədifli qəzəli də məna və məzmun etibarilə Əttarın "Nemigoncəd" (Sığmır) və "Nəqoncəd" rədifli qəzəli ilə səsləşir.

اسرار تو در زبان نمیگنجد
واوصاف تو در بیان نمیگنجد (Əttar, 1381, 236)

Sənin sirlərin dilə-ağıza sığmır,
Sənin vəsfin sözə-bəyanə sığmır

Nəsiminin türkcə divanındakı məşhur "Sığmazam" qəzəlinin farsca qarşılığı olan, məna, ideya, rədif baxımından bu qəzələ uyğun gələn "Nəqoncəm" (Sığmaram) rədifli qəzəlində də Əttrla səsləşən məqamlar vardır:

Nəsimi:

من گنج لامکانم در لامکان نگنجم
برتر ز جسم و جانم در جسم و جان نگنجم (Nəsimi,1972, 234)

Mən məkansız bir xəzinəyəm, məkansızlığa da sığmaram;
Cisimdən və candan üstünəm, cismə və cana sığmaram!

Hər iki şairdə sığmazlıq anlayışı bənzər mövqedən verilsə də Əttarda vəsf edilən, məkanın zamanın fövqündə duran subyektdir, üçüncü şəxsdə verilir; Nəsimidə isə vəsf olunan və vəsf edən arasında fərq ortadan qalxmışdır, şair məbudu ilə özünü ayırmır, şeirlərində ilahi vüsal məqamının hiss və həyəcanını ifadə edir.

Əttar və Nəsimidə rindlik və qələndərilik

Məşhur İran tədqiqatçısı Əbdülhüseyn Zərrinkub Əttarın qələndəriliklə bağlı qəzəlləri barədə yazırdı: "Əttarın əksər arifanə qəzəllərində də qələndərilik rəngi tapmaq mümkündür, şair ilahi şövq və məstlik sonsuzluqlarına baş vurur. Qələndərilik ruhu, bixudi (özündən, nəfsindən, cismindən uzaqlaşmaq, sıyrılmaq) sədası verir və insanı zahir aləmini xarab edir, onu bütün nəsihətlərdən və cismani bağlardan xilas edir. Qələndərə sovmiə pirinin yerini, yolunu nişan verən tərsabeçə obrazı olur; sovmiənin piri, yəni mürid əksər hallarda sərməst və özündən xəbərsiz halda məscidə və ya sovmiəyə daxil olur və zahidlər onun qarşısında heyran qalaraq zünnar bağlayırlar. Tamah, dünyəvi istəklərin rəmzi olan mənlik zaviyəsindən (zavieyi-xudi) xərabat dünyasına qədəm qoyurlar (Zərrinkub, 1373, 64).

Doktor Əbdülhüseyn Zərrinkubun qeyd etdiyi kimi və bizim də şəxsi qənaətimizə əsasən, Əttar bu qələndəriliyi içində yaşamış, sufilərin "zahirən baxəlq, batinən bahəqq" (zahirdə xalqla, batində Haqq ilə) konsepsiyasına əsasən, seyrü süluku, mənəvi kamilləşmə yolundakı yaşantılarını, daxili hisslərini insanlardan, kütlədən gizli yaşamışdır. "Bazarda, əczaxanada onunla həmsöhbət olan insanlar onun içindəki tufanlardan xəbərsiz olmuşlar" (Zərrinkub, 1371,65).

Nəsimi qəzəllərinin əksəriyyətinə isə daha çox Mövlana Cəlaləddin Ruminin "Divani-Kəbir" və ya "Divani-Şəms" adlı böyük divanındakı çoşqun ruh halı, ilahi vəcd, yüksək emosionallıq hakimdir.

Fikrimizcə, Əttarı xarakter olaraq təsvir etsək, onu daha çox təmkin əhli olan sufilərdən hesab edə bilərik. Şair yalnız bir sıra qəzəllərində "kəşfi-əsrar" edərək ilahi sirləri açıqlayır:

بار دگر پیر ما مفلس و قلّاش شد
در بنِ دیر مغان ره زن اوباش شد
میکدهٔ فقر یافت، خرقهٔ دعوی بسوخت،
در ره ایمان بکفر در دو جهان فاش شد.(Əttar,1381,285)

Yenə də müflis və qəllaş oldu,
Muğların məclisində yolkəsən oldu.
Fəqirlik meykədəsini tapdı, dava (döyüş) paltarını yandırdı.
İman yolunda küfr, kafirliklə ittiham edilərək hər iki aləmdə faş (rüsvay) oldu.

Maraqlıdır ki, şair bir çox hallarda rindlik və qələndərilik anlayışlarını ya birləşdirir, ya da paralel olaraq işlədir:

دل دست به کافری بر آورد
وآیین قلندری بر آورد
قرّایی و نایبی نمی خواست
رندیّ و مقامری بر آورد. (Əttar, 1381, 263)

Ürək kafirliyi tapdı,
Qələndərilik ayinini öyrəndi.
Qürrəlik və naibliyi istəmədi,
Rindliyi və dərvişliyi tapdı, seçdi.

Bir din alimi, Quran əhli olan Nəsiminin də müəyyən bir dövrdən sonra qələndərilik libası geydiyi (Bax: Şıxıyeva 1996, 65-66) məlumdur.

Nəsimi qəzəllərinin əksəriyyətinə isə daha çox Mövlana Cəlaləddin Ruminin "Divani-Kəbir" və ya "Divani-Şəms" adlı böyük divanındakı çoşqun ruh halı, ilahi vəcd, yüksək emosionallıq hakimdir.

Əttarın Divanında Haqqa qovuşmuş, mənəvi yolçuluğunu başa vurmuş bir salikin təmkinli ruh halı üstünlük təşkil etsə də məzmunca rindlik əhval-ruhiyyəsini ifadə edən bir çox şeirlər vardır:

ره میخانه و مسجد کدام است
که هر دو بر من مسکین حرام است
نه در مسجد گذارندم که رند است

نه در میخانه کین خمّار خام است...(Əttar, 1381,181)

Meyxanə və məscidin yolu hansıdır?
Ayıra bilmirəm, çünki hər ikisi mən yazığa haramdır.
Nə məscidə gedə bilirəm, nə meyxanəyə.
Məscidə gedəndə deyirlər ki, rinddir,
Meyxanədə isə deyirlər ki, bu xam sərxoşdur!

مرا کعبه خرابات است امروز
حریفم قاضی و ساقی امام است (Əttar 1381,181)

Mənim Kəbəm xərabatdır bugün;
(Hərifim) həmsöhbətim qazidir, imamım isə saqidir.

دوش درون صومعه دیر مغانه یافتم
راهنمای دیررا پیر یگانه یافتم (Əttar 1381,628)

Dünən sovmiə içində muğlara xas olan deyr tapdım;
Deyrin başçısının, yolgöstərəninin yeganə (tək, tayı-bərabəri olmayan) pir olduğunu öyrəndim.

Nəsiminin farsca şeirlərində Əttarda olduğu kimi, rindlik motivləri üstünlük təşkil edir:

ما مرید پیر دیر و ساکن میخانه ام
همدم دردی کشان ساغر و بیما نه ام
سافست و وصل یار و کنج میکده تا می
بی نیاز از خانه قاه و کعبه بتخانه ایم.(Nəsimi 1972, 214)

Biz deyr müridi və meyxanə sakiniyik,
Sağər və qədəh əhlinin dərd həmdəmiyik.
Nə qədər ki, saqinin meyi, yarın vüsalı və meyxanə küncü var,
Xanəgah, Kəbə və bütxanəyə ehtiyacımız yoxdu).

Göründüyü kimi, Əttar deyrin piri, "yeganə pir, tayı-bərabəri olmayan mürşid" obrazını canlandırır. Nəsimi isə özünün deyrdə mürid, başçı olduğunu bildirir. Əttar və Nəsiminin mövqeyi fərqli olsa da, *meyxanə, sovmiə, pir, deyr* anlayışları hər iki şairin şeirində bənzər məna və məzmunda təqdim edilir.

Əttar və Nəsimidə Nuri-Məhəmmədiyyə ideyası və Əhli-Beyt sevgisi

Şairə görə, Məhəmməd Peyğəmbərin nuru insanı həm bu dünyada, həm də axirətdə xoşbəxt edən başlıca amildir:

Nuri-cəmali-Mustafa canə verir səadəti,
Batinə xoş cila verir, zahirə həm səlaməti (Nəsimi 2004 I, 144)

Peyğəmbərimizi "Səadət əxtəri", "Əzəldə kamil insan", "səadət bürcünün əxtəri" (Nəsimi 2004, I, 144) adlandıran şair nuri-Məhəmmədiyyə ideyasını qəbul etdiyini qəti şəkildə bildirir:

Səcdeyi-nuri-Mustafa çünki Nəsimi eylədi,
Ayəti uscudu oxur, uş da edər tilavəti (Nəsimi 2004,144)

Şair burada "Səcdə" ayəsinin batini mənasına işarə edir. (Nəsimi 2004, I, 146-147) Qurani-Kərimdəki "Vəscud Vuaktarib" (Ələq, 19) (Səcdə et və yaxınlaş) ayəsini oxumağı tövsiyə edən şairin bu beyti eyni zamanda onun Quran tilavəti ilə məşğul olması, özü dediyi kimi, "səbexan, hafiz" olması faktını bir daha təsdiqləyir.

Nəsimi bəzi şeirlərində həzrəti-Məhəmmədlə həzrəti-Əlinin birliyini xüsusi vurğulayır, Peyğəmbərin həzrəti-Əli haqqında dediyi "Mən ondanam, o da məndəndir" hədisinə işarə edərək, Peyğəmbəri həqiqətən qəbul etmənin başlıca şərtini həzrəti-Əlini Peyğəmbərin vəsf etdiyi, qəbul etdiyi məqamda qəbul etmək olduğunu göstərir:

Həmdülillah ki, bu gün mərdi-Xuda meydanıdır,
Bəndeyi-övladi-Heydər, Mustafa meydanıdır.
Seyrini qətl eylədi, getdi aradan ikilik,
"Ləhmikə ləhmi", Əliyyül Murtəza meydanıdır (Göksal 2009, 95)

mətləli qəzəlində "Ləhmikə ləhmi" (Əti ətimdəndir"), "Mən ondanam, o da məndəndir" - deyən Məhəmməd Peyğəmbər (s.ə.s.) və həzrəti-Əlinin arasındakı mənəvi birliyə, qeyri-adi sirli bağa işarə edir.

Şairin "imamiyyə" adlandıra biləcəyimiz şeirləri, həmçinin "Cəmalın qibleyi-əhli Səfadur; Vüsalın Kəbeyi-rüknü mənadur" mətləli qəzəlində 12 imamı vəsf etdikdən sonra *"Əzəldən qul olan Ali-əbayə; Nəsimi tək gədayi-binəvadur"* deyərək mövqeyini açıq ifadə edir. "Nuri-Məhəmmədiyyə" kimi, "Ali-Əba" və həzrəti-Əli eşqinin də hələ dünya və içindəkilər yaranmamışdan öncə insana bəxş edildiyi fikrini irəli sürür. Təsəvvüfi şeirdə geniş yayılmış "Hənuz" rədifli qəzəllərdə ifadə edilən əsas məna "nuri-Məhəmmədiyyə" və həzrəti-Əlinin nurunun ilkin nur olaraq qəbul edilməsidir. Nəsimi də bu rədifə müraciət edərək, "nuri-Məhəmmədiyyə" və "həqiqəti-Məhəmmədiyyə" anlayışlarına fərqli məna çalarları qatır:

Düşdüm əzəldə zülfünə, dam olmadan hənuz,
İçdim ləbin şərabını, cam olmadan hənuz.

Gördüm üzünü Kəbədə əhli-Səfa ilə,
Qıldım təvafi-Kəbə, həram olmadan hənuz.

Ləlin meyi-ələst idi cam olmadan hənuz,
Xas idi söhbətim dəxi amm olmadan hənuz...

Didarını təcəllidə görmüşdü gözlərim,
Musa ilə arada kəlam olmadan hənuz. (Nəsimi I, 2004, 389-390)

Nəsiminin imamiyyələri və Şeyx Fəridəddin Əttarın "Məzhər", "Məzhərül-Əcayib" və s. əsərlərindəki əhli-Beyt sevgisinin müqayisəsini başqa bir məqalədə verəcəyimiz üçün burada bu mövzudan qısa şəkildə bəhs etdik.

Nəsiminin Şeyx Fəridəddin Əttar qəzəllərinə nəzirələri

"Azərbaycan-türk şeirində nəzirəçilik ənənəsinin möhkəmlənməsində Nəsiminin türk və farsca divanlarının yeri ayrıca qeyd olunmalıdır. Onun divanları sələf və xələfləri arasında əlaqələndirici mövqeyindədir. Sələflərinin şeirlərini sevə-sevə oxuyub öyrənən Nəsimi məlum olanı təkrarlamamış, yaradıcı təxəyyülün qüdrəti ilə özü yeni bir üslub yaradaraq, böyük şairlər nəslinin yetişməsi üçün münbit bir ədəbi-fəlsəfi zəmin hazırlamışdır. Ədəbi əlaqələr yönümündə öyrənə biləcəyimiz bu nəzirələr həm də Nəsiminin ədəbi-estetik və fəlsəfi anlayışlarının ayrı-ayrı ünsürlər deyil, axınlar şəklində digər şairlərin əsərlərinə gəlişini təmin edirdi" (Şıxıyeva 2000, 44).

Şeyx Fəridəddin Əttar divanındakı "Rixte" rədifli qəzələ də Nəsiminin yazdığı nəzirə çox diqqətəlayiqdir. Əttar divanındakı istər vəzn, istər məzmun baxımından Əttarın digər qəzəlləri ilə müqayisədə bir qədər zəif görünən bu qəzəlin Nəsiminin diqqətini çəkməsi, fikrimizcə, şeirdə işlədilən "Nəsime-sobhdəm" və "İmadəddin" sözünün kökü olan "omda" sözüdür. Nəsimi bu ifadəni öz təxəlllüsünə və təbinə bir işarə kimi qəbul etmişdir.

شب را ز تیغ صبحدم خون است عمدا ریخته
ابنک ییبن خون شفق در طشت مینا ریخته

لالا شب در هر قدم لؤ لؤ بر آورد ه بهم
وز یک نسیم صبحدم لؤ لؤ لالا ریخته (Əttar 1381, 567)

Gecənin (zülməti) gündüzün qılıncından indicə axan qan kimi tökülür,
Gör ki şəfəqin qanı(günəş doğarkən üfüqlərin qızarması, qan rəngli alması mina teştə tökülür.
Gecənin lalası (xidmətçisi, lələsi) hər qədəmdə bir ləl çıxarır, əldə edir
Və bir sübh nəsimi, səhər yelindən Lə, Lə (lə iləhə illəllah) ləli, incisi tökülür.

Nəsiminin şeirə yazdığı nəzirə Əttarın bu qəzəlindəki əsas istiqaməti qorumaqla bərabər ona orijinal məna çalarları qatmışdır:

ای خیال چشم مستست خون صهبا ریخته
زلف مشکین ترا سرهاش دریا ریخته

حلقهٔ منظوم مرجان تو پیش جوهری
از دو لب آب رخ لؤ لؤ لالا ریخته (Nəsimi 1972, 388)

Ey məst gözlərinin xəyalı (saf şərabın) səhbanın qanını tökmüş,
Sənin qara zülflərin dəryanın kənara çıxardığı, tökdüyü sirlərdir(?).

Sənin düzülmüş mərcanlarının həlqələri gövhərdən daha qiymətlidir.
İki dodağının arasından lə lə (Lə iləhə illəllah) ləli tökülür.

Əttarın bu qəzəldə işlətdiyi "Nəsime-sobhdəm" ifadəsini Nəsimi digər qəzəllərində də istifadə etmişdir:

Ey Nəsimi-sobhdəm, billah bu yarım xoşmıdur,

Şol həbibim, dilbərim, aləmdə varım xoşmıdur?
(Nəsimi 2004, I, 213)

Öz təxəllüsünü aldığı "nəsim" sözünü Nəsimi fərqli mənalarda işlətməsinə şairin divanında rast gəlirik:

Nə hüsn olur bu surət, bu nə surət, zəhi behişti-nəim?
Nə lütf olur, bu nə məni, zi rəbbi-ərşi-əzim?

Könül səba nəfəsindən dirildi, can buldu,
Qara saçının qoxusundan nə bu gətirdi nəsim.

Nəsimi-zülfünə baş ilə can nisar edərəm,
Nə simü zərimi layiqdir ol nəsimə nəsim (Nəsimi 2004,I, 93)

Əttar və Nəsiminin divanlarında "Oftad" rədifli qəzəllər də mövcuddur. Tədqiqatçı S.Şıxıyevanın da qeyd etdiyi kimi, bu qəzəlləri Nəsimi Əttara nəzirə yazmışdır (bax:Şıxıyeva 2000,47). Qəzəllər arasındakı qafiyə, rədif və vəzn xüsusiyyətlərindən əlavə, ruh və mövzu bənzərliyi də bunu deməyə əsas verir:

تا از لب لعل تو بعالم خبر اوفتاد
از کار بسی گوشه نشین پرده بر اوفتاد
بر طور دل اوفتاد شبی پرتو رویت
جان مست تجلی شد و از پاای در اوفتاد (Nəsimi 1972, 163)

Sənin dodağının ləlindən aləmə xəbər düşdü
Bu işdən çox güşənişinlərin pərdəsi düşdü.
Ürək Turuna br gecə üzünün şüası düşdü,
Can məst oldu, əldən-ayaqdan düşdü.

Nəsimidə pərdə motivi ilk plana keçir. Şairin daha bir "Oftad" rədifli beytində həm ilk, həm də son misrasında "pərdə" sözü işlədilir. Pərdənin açılmasından sonra gizli sirlər meydana çıxır:

تا پرده ز رخسار چو ماه تو بر اوفتاد
از پرده بسی راز نهای بدر افتاد (Nəsimi 1972, 161)

Elə ki sənin ay kim üzündən pərdə düşdü, Çox gizli sirlərin üzərindən pərdə düşdü.

Əttar yaradıcılığında da "pərdə" rəmzi geniş şəkildə qeyd edilir. Şair divan və məsnəvilərində insanı Allahdan ayıran maddi həvəsləri pərdə adlandırır. Şair bəzən bütöv bir qəzəli pərdə motivi üzərində qurur və bu sözün məna çalarlarından hərtərəfli istifadə edir:

عشق تو پرده صد هزار نهاد
پرده در پرده بی شمار نهاد
پس هر پرده آلمی پر درد
گه نهان و گاه آشکار نهاد
صد جهان خون و صد جهان آتش
پس هر پرده استوار نهاد

پرده بازی چنان عجایب کرد
که یکی در یکی هزار نهاد
پردۀ دل به یک زمان بگرفت،
پرده بر روی اختیار نهاد(Əttar 1381, 226)

Sənin eşqin araya yüz minlərlə pərdələr qoydu,
Pərdə üstündən saysız pərdələr qoydu.
Hər pərdənin arxasına dərdlə dolu bir aləmi
Gah gizli, gah aşkar qoydu.
Gah yüz cahan atəşdən, gah yüz cahan qandan,
Hər pərdənin arxasına yerləşdirdi.
Elə əcayib, qəribə bir pərdəbazlıq etdi ki,
Birinin yerinə minini qoydu.
Bir zaman qəlbin üzərindən pərdəni götürdü;
Üzün, surətin üzərinə pərdə qoymağı seçdi.

Xüsusən şairin "Üştürnamə" əsərində bu rəmz geniş şəkildə açıqlanır: "Üştürnamə" əsəri minacat, nət, "dər zato sefat" kimi bölümlərdən sonra "Hekayəti-ostade-tork və pərdebaziye-u" (Türk ustad və onun pərdəbazlığı) adlı bir hekayətlə başlayır:

پرده بازی بود استادی بزرگ
جابکی دانا ولی از اصل ترک
مثل خود در فن نقّایشی نداشت
هر کجا می رفت آنجا کار داشت
(Əttar 1380, 17)

Bir böyük türk pərdəbaz vardı; Ağıllı, bilgin, lakin əsli türk idi.Nəqqaşlıq-rəssamlıqda tayı-bərabəri yox idi. Hara getsə orda özünə iş tapırdı

Şair bu hekayədə hər kəsi yaratdığı əsərlərlə heyran edən bir türk əsilli Nəqqaşdan bəhs edir. Bu nəqqaş yaratdığı əsərləri yad gözlərdən gizləmək üçün onları bir-birindən gözəl və bəzəkli yeddi pərdə arxasında gizlədirmiş. Hər pərdənin arxasında öz işçilərini, şagirdlərini əyləşdirirmiş. Onlar da əsl əsərin surətini çəkirmiş. İkinci pərdədə oturan birinci pərdədəki əsərin surətini, digərləri də növbə ilə özündən əvvəlki surətin surətini çıxarırmış. Əsl əsəri isə heç kim görməyibmiş. Ustad öz sənətini inkişaf etdirdikcə surətlər də daha gözəl və keyfiyyətli olurmuş. İşdən xəbərsiz olanlar ən üstdə olan əsəri görüb heyran qalır onu ustadın işi zənn edirlərmiş. Halbuki pərdənin arxasındakı əsər daha gözəl imiş. Nəhayət, ustad bir gün o pərdələri bir-bir aradan götürdü. Surətləri sındırdı və əsl əsərin, Əslin gözəlliyi görən hər kəsin gözlərini qamaşdırdı" (Əttar 1380,19).

Əttar bu hekayəni alleqorik şəkildə mənalandıraraq insana müraciət edir: "Sən də pərdələri, səni əslindən ayıran maneələri ortadan götür, surətlərdən qurtul ki, əslə, Həqiqətə çatasan.

یک زمان در خویشتن بنگر تو هم
تا نباشی صورت و پرده به هم (Əttar 1380, 20)

Sən də bir dəfə də özünə nəzər sal ki
Pərdənin arxasındakı surət olmayasan

Şair burada bildirir ki, ustad sənin ruhun, onun şagirdləri isə sənin yeddi hissindir. Bu hiss və duyğuların əsiri olma, surətə bağlanıb qalma. Ruhunun üzərindən pərdələri götür.

Onu da qeyd edək ki, Nəsiminin türkcə divanında "Düşmüş" rədifli iki qəzəli də vardır ki, onlarda məna və məzmun baxımından Əttarın "Oftad" rədifli qəzəlləri ilə bənzərlik müşahidə etdik. İki beytə nəzər salaq:

گر پرده ز خورشید جمال تو بر افتد
گل جامه قبا کرده ز پرده بدر اوفتاد

چون چشم چمن چهره گلرنک تو بیند
خون از دهن غنچه ز تشویر بر افتد(Əttar 1381, 230)

Elə ki, Sənin günəş camalının üzərindən pərdə düşdü,
Gül öz köynəyini çıxararaq pərdədən çıxdı.
Çəmənin gözü sənin gülrəngli çöhrəni gördükdə,
Qönçənin ağzından qan püskürdü.

Bu beytdə də pərdə motivi və gül motivi əlaqələndirilir. Beytlərin məzmunu qəzəlin ümumi ahəngi ilə səsləşir və ilkin Yaranış, böyük partlama deyilən, aləmin bir zərrənin partlamasından alınan nurdan yaranması (müasir zamanda bu "Big Ben" adlanır) hadisəsinə işarə edir. Gül motivinin qabardılması isə Məhəmməd Peyğəmbərin nuruna, əzəllər əzəlində, hələ dünya və içindəkilər var olmamışdan öncə yaradılan nuri-Məhəmmədiyyəyə işarə edildiyini göstərir. Bu mənada pərdə sözü Nəsiminin digər qəzəllərində işlədilən pərdə terminindən fərqlənir. Məsələn, şair türkcə divanında:

Yüzünü bipərdə görmək istərəm daim vəli,
Münkirin görməz gözi, çün kəşfi-əsrar istəməz,
(Nəsimi 2004,I, 64)

- beytində "pərdə" dedikdə insanın Haqqı görməsinə mane olan maneələri, dünyəvi istəkləri, kəsrəti nəzərdə tutur. Haqqı inkar edənlərin ilahi sirləri açıqlamağı istəmədiklərini bildirir. "Münkirin görməz gözü" dedikdə isə Qurani-Kərimdə "Bəqərə" surəsində "Summun bukmun, umyun və lə yubsirun" (Bəqərə, 18) *Onlar kar, lal və kordurlar, dərk etməzlər* ayəsinə işarə edir.

Şair *"Zülfünü ənbərfəşan etmək dilərsin, etməgil; Qarəti-din, qəsdi-can etmək dilərsin, etməgil"* mətləli qəzəlinin məqtə beytində: "Ey Nəsimi, Həqdən istərsən götürmək pərdəyi; Bütpərəsti bigüman etmək dilərsin, etməgil".(Nəsimi, Əsərləri, I s.452) pərdə sözünə fərqli və daha geniş anlam qazandırır.

Nəsimi və Əttarın farsca divanlarında "Bebin", "Vəssalam", "Darəm", "Darəd" "Eşq", "Mast" və s. kimi ortaq rədifli qəzəllər vardır. Mənim qeyd etdiklərimi də

əlavə et ki, tamamlansın. Bu qəzəllər müxtəlif vəznlərdə yazılsa da, məzmun, ideya və qafiyə sistemi baxımından bənzərdirlər.

Ədəbiyyat

İMADƏDDİN NƏSIMİ (1973)Əsərləri, elmi-tənqidi mətnin tərtibi və müqəddimə Cahangir Qəhrəmanov, I c., Bakı
İMADƏDDIN NƏSİMİ(1973) Əsərləri, elmi-tənqidi mətnin tərtibi və müqəddimə Cahangir Qəhrəmanov, II c., Bakı
İMADƏDDIN NƏSİMİ(1973) Əsərləri, elmi-tənqidi mətnin tərtibi və müqəddimə Cahangir Qəhrəmanov, III c.Bakı
NƏSİMİ(2004)Seçilmiş əsərləri, I c, tərtib edən H. Araslı, Bakı
NƏSİMİ(2004) Seçilmiş əsərləri, II c, tərtib edən H. Araslı, Bakı
NAZMİ ÖZEROL(2013) "Seyyid Nesiminin şiirlerinde ahengi sağlayan edebi sanatlar. The Journal of Academic Social Studies: Doi number:http://dx.doi.org 10. 9761/ JASSS1614 Volume 6 İssuee 5, p. 981-1011 May
NƏZAKƏT MƏMMƏDLİ (2011)Füzulinin "Leyli və Məcnun" əsərində təsəvüf və onun bədii ifadə sistemi, Bakı, Elm və Təhsil
NEZAKET MEMMEDLİ(2018) Sadreddin Konevinin "Fatiha" suresi tefsiri ve Seyyid Yahya Şirvaninin Rumuzül-İşarat" eseri, Sadrreddin Konevi, Tasavvuf, Felseve ve Din (Məqalələr toplusu),Konya
NURI ÇINARÇI(2010) Nesiminin Farsça ve Türkçe divanında redif meselesi, Abant İzzet Baysal Üniversiteti, Sosyal Bilimlər Dergisi, Sayı 2
MEMMEDZADƏ H. Nesiminin hayatı ve Farsça Divanı, çeviren Turgut Karabey. http://www.turkiyatjournal.com/Makaleler/195437835_7.pdf s.67
SEYYİD YƏHYA ƏŞ-ŞİRVANI ƏL-BAKUVİ(2014) Risalələr, I, (Nəsr əsərləri, fars dilindən tərcümə edən: Nəzakət Məmmədli, Bakı
KONEVİ (2008) Vahdet-i Vücud ve Esasları, İz Yayıncılık
KONEVİ(1970) İcazü'l-Kuran fi Tefsir-i Ümmil-Kuran (Fatiha suresi Tefsiri)
FÜZULİ(1958) Əsərləri, Bakı, II c.
FATİH GÖKSAL(2009) Seyyid Nesimi'nin Yayımlanmamış Şiirleri, Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, s.77-139
ÖNER ŞENÖDEYICI, Nesiminin mahlası problemleri, file:///C:/Users/PK/Downloads/1447-Article%20Text-2975-1-10-20131212.pdf (www. Turkiyatjournal.com. Məqalələr 195437835. Pdf
ŞIXIYEVA S(2000) Nəsiminin sələfləi ilə mübahisələri, Elmi araşdırmalar, 1-2, Bakı, Elm
ŞIXIYEVA. S.(2013) Səfəvilər dövründə hürufilik və nöqtəvilik // Tarix və gerçəklik, Azərbaycan Tarix Qurumu, s. 13-34.

ŞIXIYEVA S.(2010) «Nəsimi-qələndəri münasibətləri», «Müasirə dəbiyyatşünaslığın problemləri» (tezislər), Bakı, s. 65-66.

ŞIXIYEVA S.(1996)Nəsimi düşüncə aləmində mifopoetik obrazların yeri(Elmi araşdırmalar, Bakı, Nurlan, №3-4, səh.13-21).

S.9, 640 s. 1381 ، تهران (شرح احوال عطار بديه الزمان فروزانفر) ديوان عطار نيشابورى

سيّد عماد الدين نسيمى، ديوان، نشريات دولتى آذربايجان، باكو 1972

شيخ فريد الدين عطار نيشابورى، منطق الطير، بتصحيح و اهتمام دكتر محمّد چواد مشكور، تبريز، 1958

سعيد نفيسى جستجو در احوال و آثار فريد الدين عطار،تهران، 1320ص 114

صداى بال سيمرغ – در بارهٔ زندگى و انديشهٔ عطار دكتر عبد الحسين زرين كوب، تهران، دكتر عبد الحسين زرّين كوب، تهران،س64 1378

عطّار پير اسرار، با كاروان حلّه مجموعهٔ نقد ادبى دكتر عبد الحسين زرينكوب تهران،1378 س. 205

شيخ فريد الدين عطار نيشابورى، اشتر نامه، تهران، ، 1380 س 7

مولانا حكيم ملّا محمّد فضولى بياتلى ، مقدّمه، تصحيح و تحييّه دكتر حسين محمّدزاده صديقّ تبريز 1387

ABSTRACT
COMPARISON OF NASIMI'S AND ATTAR'S PERSIAN DIWANS

Keywords: Attar, Nasimi, Simurg, Sheikh Sanan, Mantiqut-Teyr, uncontainable

Sheikh Fariduddin Attar's rich and diverse legacy which made exceptional contributions to the progress of Sufi literature has inspired both his contemporaries and the poets of the following centuries. As well, many *naziras* were written to his masnavis and poems of his *divan*. Different poets made use of Attar's characters and stories and made references to his works. Attar's legacy played a big role in the development of Azerbaijani literature. Mainly, Sufi literature benefited much from Attar's works, symbols, and metaphors. One of the greatest representatives of Azerbaijan's Sufi literature, Nasimi, had a deep knowledge of the works of poets who had lived before him and made use of such works. In Nasimi's and Attar's divans, there are ghazals with same radifs such as *"Bebin", "Vessalam", "Darem", "Dared" "Eshg", "Mast"*. Nasimi sometimes completes the ideas indirectly expressed in Attar's poem as if he understands and explains Attar's secret wishes. Nasimi sometimes discloses the hidden meaning of Attar's ghazal, sometimes interprets it from a different point of view, and sometimes makes additions. And sometimes he creates logical relations between his ghazal and the mystic things described in Attar's ghazals. The moral ties and sentimentalism between the two poets are noteworthy. Nasimi wrote naziras to 4 ghazals of Attar such as "Degar", "Oftad", "Rixte", "Ber amed". Nasimi traveled the inner world of Attar, and

sometimes disclosed and clarified the hidden meanings of Attar's poems and enriched them with his own emotions and mystic experiences, as well as keeping the idea, content, and poetics given in the original poems.

СРАВНЕНИЕ ПЕРСИДСКИХ ДИВАНОВ НАСИМИ И АТТАР

РЕЗЮМЕ

Ключевые слова: Аттар, Насими, Симург, Шейх Санан, Мантикут-Тейр, несовместимость

Богатое и разнообразное наследие шейха Фаридуддина Аттара, внесшее исключительный вклад в развитие суфийской литературы, вдохновляло как его современников, так и поэтов последующих столетий. Также на его маснави и стихи его дивана было написано много назиров. Разные поэты использовали персонажей и рассказы Аттара и ссылались на его произведения. Наследие Аттара сыграло большую роль в развитии азербайджанской литературы. В основном суфийская литература извлекла большую пользу из произведений, символов и метафор Аттара. Один из крупнейших представителей азербайджанской суфийской литературы Насими глубоко знал произведения живших до него поэтов и пользовался ими. В диванах Насими и Аттара встречаются газели с одинаковыми корнями, такими как «Бебин», «Вессалам», «Дарем», «Даред», «Эшг», «Маст». Насими иногда дополняет идеи, косвенно выраженные в поэме Аттара, как бы понимает и объясняет тайные желания Аттара, Насими то раскрывает скрытый смысл газели Аттара, то интерпретирует ее с иной точки зрения, то вносит дополнения, а иногда создает логические отношения между своей газелью и мистическими вещами, описанными в газелях Аттара. Примечательны нравственные связи и сентиментализм двух поэтов. Насими написал назиры на 4 газели Аттара, такие как «Дегар», «Офтад», «Рихсте», «Бер амед». Насими путешествовал по внутреннему миру Аттара, а иногда раскрывал и прояснял скрытые смыслы стихов Аттара, обогащая их собственными эмоциями и мистическими переживаниями, а также сохраняя идею, содержание и поэтику, заданные в оригинальных стихах.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya elmləri doktoru Paşa Kərimov tərəfindən çapa tövsiyə olunmuşdur

Doç. Dr. VESILE ŞEMŞEK
Ahi Evran Üniversitesi, İslami İlimler Fakültesi,
İslam Tarihi ve Sanatları Bölümü
Orcid: 0000-0002-9800-4557 Mail: vsemsek gmail.com

TÜRK-İSLAM ƏDƏBİYYATINDA PEYĞƏMBƏR TASVİRİNE BAĞLI ƏDƏBİ JANRLAR HAQQINDA BİR İNCELEME

Xülasə

İslam dini, cəmiyyəti, həyatı və əxlaqi dəyərləri tamamilə əhatə etdiyi üçün ədəbiyyat sahəsinə də öz təsirini göstərmişdir. Bu kontekstdə dini-ədəbi elementlər Türk İslam ədəbiyyatının əsas qaynaqlarını təşkil edir. Əvvəla, bu mənbələri birbaşa dini və dini olmayanlar kimi iki qrupa bölmək olar. Dini mənbələri aşağıdakı kimi sıralamaq olar; Quran, Hədislər, Yubiley, Sufi düşüncəsi, Qədim tayfalar haqqında tarixi məlumatlar. Türk-İslam ədəbiyyatının ən zəngin janrlarından biri olan tövhid və münəccətlər Quranın çatdırdığı əsas fikirdən yaranmışdır. Bunlara misal olaraq: Mevlit, Miraciye, Hilye, Qırx Hədis, Siyer, Mücazat-ı Nəbi (Kısas-ı Enbiya) növlərini göstərmək olar. Türk-İslam ədəbiyyatında hədis-i şəriflərin yerinə gəlincə, Türk-İslam ədəbiyyatında Hz. Peyğəmbər mövzusuna aid poetik və nəsr janrları, əsərlər üzə çıxdı. Bunların demək olar ki, hamısı peyğəmbər məhəbbətindən doğulmuşdur. Bu baxımdan türk toplumlarının digər İslam xalqlarından fərqli yeri və payı olmuşdur. Türk-İslam ədəbiyyatında bu mövzuda irəli sürülən əsərlərin istər janr, istərsə də say baxımından zənginliyi kifayət qədərdir. İslami elmlerin esas menbesi olarak gebul edilen (1. Tekeli Hamdi, 2011, s. 39) Quran, Türk İslam ədəbiyyatı üçün əsas mənbə hesab olunur. Bu kontekstdə geniş və zəngin məzmunu ilə demək olar ki, hər sahədə Türk İslam ədəbiyyatının əsas qaynağıdır. Quranın əski türk ədəbiyyatında yeri; Quran, formasından, məzmunundan, sənətin dəyərini müəyyən edən ədəbi sənətlərlə (bəlağətçilik) ölçülərdən, az qala hər sahədə İslam türk ədəbiyyatına öz mahiyyətini verən ilk və ən mühüm mənbədir. bəzi janrlar. Bundan əlavə, Quranın ritorik cəhəti olan fevka'l-besher olması, onu hər yönü ilə rəhbər götürən cəmiyyətlərin ədəbiyyatları üçün ən görkəmli örnək etmişdir. Türk-İslam ədəbiyyatında təsəvvüfün yeri nəzərə alındıqda, Türk-İslam ədəbiyyatı mətnlərinin əksəriyyətinin birbaşa və ya dolayısı ilə təsəvvüflə bağlı olduğu görülür. Bu məgalede Türk-İslam ədəbiyyatının mühüm mövzularından biri olan Hz. Peyğəmbərlə bağlı ədəbi janrlardan bəhs edilir.

Açar sözlər: ədəbiyyat, Hz. Peyğəmbər, ədəbi janrlar, İslam.

Türk ədəbiyyatı İslamdan əvvəlki, İslamdan sonrakı və Qərb ədəbiyyatı olaraq üç qrupa bölünür. Bu üç qrupun İslamdan sonrakı və İslamdan sonrakı təsirlərini və

İslamın ədəbi prosesini izah edəcəyik. Türk ədəbiyyatı baxımından edilən qiymətləndirmədə fərddə və cəmiyyətdə dəyişikliyə səbəb olan və buna görə də ədəbi mətnləri formalaşdıran ən mühüm amil İslamlaşmadır. İslamdan sonra yaranmış təsəvvüf ədəbiyyatı, istər dövlət, istərsə də hökmdar. ürəkdə hiss olunurdu və hər dəfə hiss ediləndə insanı özünə gətirir və silkələməklə sağa yönəldir. İslamlaşmanın türk ədəbiyyatına təsiri o qədər böyükdür ki, bu ədəbiyyatın adlandırılmasında və təsnifatında qismən də olsa fikir ayrılığına səbəb olur. Türk-İslam ədəbiyyatının tarixi prosesinin ilk illəri XI əsr divan ədəbiyyatının yaranma dövrüdür. Divan ədəbiyyatı dövründə əldə edilən mənəviyyat başqa heç bir dövrdə çatmayıb və bugün bu vəziyyət daha da ağırlaşıb və bugün insanlar böyük bir boşluq içindədirlər, bu boşluğu din və ədəbiyyat baxımından heç bir şəkildə doldurmaq mümkün deyil. Bu dövrdə poeziya ünsiyyət vasitəsi kimi istifadə olunurdu. Monqol istilasından qaçan türklər İran və İraqın təsiri altına düşmüş və bu qarşılıqlı təsir nəticəsində vilayətləri dəyişməyə başlamış və qərb türkcəsi formalaşmağa başlamışdır. Bu dövrdə Türk-İslam ədəbiyyatı da qərb türkcəsi ilə birlikdə inkişaf etmişdir. Təsəvvüf də ədəbiyyatımıza ilk olaraq Qurandan daxil olmuşdur. Bu ədəbiyyat özlüyündə üç başlığa bölünür. İlk islami əsərlər deyildiyi zaman "Kutadqu Bilig", "Divanü Lügati't-Türk", Atabetü'l-Hakayık, "Divan-ı Hikmət", "Muhakemetü'l-Lugateyn" və "Dədə Qorqud Hekayələri" gəlir. ağla. Bu əsərlərin bəziləri qrammatika, bəziləri ədəbi baxımdan daha üstünlük təşkil etdiyi halda, hamısında ortaq fikir Türk mədəniyyətini və İslam ədəbiyyatını, dolayısı ilə ərəb mədəniyyətini gücləndirməkdir. Bu düşüncəsi ilə o, iki mədəniyyəti bir-birinə qarışdırdı və onun təsirləri bugünkü Türkcədə görünür.

İslami elmlerin esas menbesi olarak gebul edilen (1. Tekeli Hamdi, 2011, s. 39) Quran, Türk İslam ədəbiyyatı üçün əsas mənbə hesab olunur. Bu kontekstdə geniş və zəngin məzmunu ilə demək olar ki, hər sahədə Türk İslam ədəbiyyatının əsas qaynağıdır. Quranın əski türk ədəbiyyatında yeri; Quran, formasından, məzmunundan, sənətin dəyərini müəyyən edən ədəbi sənətlərlə (bəlağətçilik) ölçülərdən, az qala hər sahədə İslam türk ədəbiyyatına öz mahiyyətini verən ilk və ən mühüm mənbədir. bəzi janrlar. Bundan əlavə, Quranın ritorik cəhəti olan fevka'l-beşer olması, onu hər yönü ilə rəhbər götürən cəmiyyətlərin ədəbiyyatları üçün ən görkəmli örnək etmişdir. Türk-İslam ədəbiyyatında təsəvvüfün yeri nəzərə alındıqda, Türk-İslam ədəbiyyatı mətnlərinin əksəriyyətinin birbaşa və ya dolayısı ilə təsəvvüflə bağlı olduğu görülür. Mistik təfəkkürün və həyat tərzinin əsası Qurandakı zahidlik və təqva məfhumları ətrafında formalaşmışdır. Siretü'n Nebi Hz. Peyğəmbərin bioqrafik həyatını təsvir edən əsərlərə verilən addır. (3. İbrahim Şener, Alim Yıldız, Türk İslam Edebiyatı, İstanbul, 2018, s. 186). Siyerin Türk-İslam ədəbiyyatına təsiri, Türkcədə Siyer tarix elminin mövzusu olmaqdan və bu sahədə inkişaf etməkdən daha əvvəldən, xüsusən də bu vadidə ədəbiyyat sahəsinə keçib və formalaşmış kimi görünür. Osmanlı dövründən Cümhuriyyətdən əvvəlki dövrə. Qisas-ənbiyanın ümumən Türk ədəbiyyatına, xüsusən də İslam türk ədəbiyyatına ən zəngin material verən ən

mühüm dini qaynaqlardan biri olması təsirli olmuşdur. İstər şifahi, istərsə də yazılı ədəbiyyata nəzər salsaq, Ədəbi janrlar Hz. Peyğəmbər sevgisindən yaranmış və zamanla inkişaf etmişdir.

Na't

Lüğətdə na't sözü sifət, nəyisə tərifləmək, onu səciyyələndirmək, xüsusiyyətlərini saymaq, təsvir etmək mənalarını verir. Hz. Məhəmmədi mədh etmək, onun maddi və mənəvi gözəlliklərini vəsf etmək, digər insanlar üçün yazılmış na'tlardan fərqləndirmək üçün yazılan şe'rlərə na't-ı şərif, na't-ı peyğəmbəri, na' t resul deyilir. (4. Türk dili və Edəbiyyatı Ensiklopediyası, 18, s. 30).Buxari və Müslim kimi bəzi din alimləri, Əbdülkadir Geylani və Mövlana kimi din rəhbərləri haqqında da na'tlar yazılmışdır. Halbuki Hz. Məhəmmədi tərifləmək üçün yazılmış şe'irlərdir.(1. Tekeli, 453.) Na't ilə əlaqəli digər anlayışlar bunlardır:

Nə't-han: Mövludlarda və digər dini məclislərdə və Hz. Peyğəmbərin anım məclislərində nat əlifbası ilə yazılmış şeiri mötəbər şəkildə oxuyan şəxsdir.

Na't-gû: Hz. Peyğəmbər üçün nat növündə çoxlu şeirlər yazan şairlər deyilir.

Bütün müsəlman xalqlarının ədəbiyyatında ortaq dini-ədəbi janr olan na'tın mənbəyi ərəb ədəbiyyatıdır. Daha çox Hz. Peyğəmbərin həyatında Həsən b. Sabit, Abdullah b. Rəvahə və Kəb b. Züheyr kimi adlar onu tərifləyən şeirlər oxuyurdular. Kəb b. Züheyr Kaside-i Banet Suad adlı şeirini Kaside-i Bürdə adı ilə məşhurlaşan bu şeir Məhəmmədin hüzurunda oxunaraq onu belindəki hırka ilə mükafatlandıraraq onun təqdirini qazanmış, nat janrının inkişafı üçün mənbə olmuşdur. Nə't türk ədəbiyyatında divan, xalq və təkkə şeirlərinin ümumi növüdür və türk ədəbiyyatında şairlərin demək olar ki, hamısı na't növündə şeirlər yazmışdır. Yunus Əmrə, Əziz Mahmud Hüdayi, Nəbi və b. misal göstərmək olar.

Hilye

Ərəb isim olan hilye sözü bəzək, bəzək, səciyyə, səciyyə, yaradılış, surət, sifət, qiymətli daş və metallarla işlənmiş bəzək və insanın zahiri görünüşünü ifadə edir. Lüğətlərdə yuxarıda mənalarını verdiyimiz hilye sözü zaman keçdikcə dilimizdə işlənmiş, Bu, Hz. Məhəmmədin bədən xüsusiyyətlərindən, bədən quruluşundan və orqanlarının fiziki vəziyyətindən bəhs edən kitablar və lövhələr üçün istifadə olunan bir termin halına gəldi. Hilye sözünün terminoloji məna daşıdığı hallarda; hilye-i şərif, hilye-i səadət, hilye-i nebî və ya hilye-i nebî kimi ifadələr kimi işlənir. Poetik hilye şairlərimizdən olan Âşık Qədri hilye sözünün konseptual mənasını belə ifadə etmişdir: ***"Hilyenin mənası, ey yaxşı mələk, Nəbi vücudun təsviri deməkdir"***

Quranda onun aləmlərə rəhmət olaraq göndərildiyi,(6. Enbiya suresi, 107) gözəl əxlaqı ilə tərifləndiyi (6. Kalem suresi, 4) və Müsəlmanlar üçün ən gözəl nümunə (usve-i hasene) olaraq təqdim edildiyi bildirilir. (6. Ahzap suresi, 21). Quranda Hz. Məhəmməd peyğəmbər olmamışdan əvvəl, yaşadığı cəmiyyətin üzvləri tərəfindən əl-Əmin (etibarlı) adlandırılan bir şəxs idi. (8. İbrahim Sarıçam, Hz. Muhammed ve Evrensel Mesajı, s. 24). O, malik olduğu maddi-mənəvi gözəlliklərə görə hər kəsin təqdirini qazanmış, möminlər onu sahib olduqları hər şeydən, o

cümlədən öz canlarından çox sevmişlər. Hz. Peyğəmbəri dünyanın gözü ilə görən və ona iman gətirən səhabə nəslinin sevgisi ''Ata-anam sənə fəda olsun" (fidake ebi ve ümmî) kəlamı ilə rəmzləşirdi. Bu Rəsulullahın vəfatı zamanı gənc yaşına görə onu yaxşı xatırlaya bilməyən gənc səhabələrin və peyğəmbərlərini dünyanın gözü. Bu hiss möminləri peyğəmbərlərinin həyatını hər yönü ilə bilməyə və ondan nümunə götürməyə vadar edirdi. Bunun nəticəsidir ki, Peyğəmbərin hilyəsi haqqında məlumatlar tərtib edilməyə və bu mövzuda əsərlər yazılmağa başlandı.

Mövlit

Ərəb sözü olan mövlud ism-i zaman, ism-i yer və məsdər şəklində velede felindən törəmə sözdür. İsm-i zaman olaraq doğum zamanı; Ad bir yer olaraq doğulduğu yer və məsdər kimi doğulmaq deməkdir. Bu sözün termin mənası ilə yanaşı leksik mənası da var. Termin mənasına gəlincə, mövlud sözü ilə Hz. Məhəmmədin doğum vaxtı, doğulduğu yer; onun doğulması; doğumundan və onunla bağlı mərasimlərdən bəhs edən əsərlər nəzərdə tutulur. Bu halda sözə nəbi, rəsul və ya şərif sözləri əlavə edilərək mövlud-i nəbi, mövlud-i rəsul və ya mövlud-i şərif kimi işlədilir. Mövlud mərasimlərində mövlud haqqında mətni müəyyən məqamla oxuyanlara mövlud-han (mövlud oxuyan) deyilir.

Hz. Məhəmmədin mövludunu qeyd etmək üçün rəsmi mərasimlər tarixdə ilk dəfə Fatimilər dövründə (297-567/909-1171) xəlifə Muiz-lidiniullah (972-975) tərəfindən qeyd olunmağa başladı. Misirdə hökmranlıq edən; Bu şiə dövlətində Hz. Əli və Hz. Fatimə üçün də mövlud mərasimləri keçirilib. Daha çox sarayda yaşayan insanlar arasında keçirilən bu mərasimlər ictimaiyyətə əks olunmayıb. Böyük kütlənin qatıldığı və bayram havasında keçən Mövlud-i Nəbi mərasimləri ilk dəfə 604/1207-1208-ci illərdə Ərbildə Mövlud şənliyi olaraq Səlcuqlu Atabəylərindən Müzəffərüddin Gökböri tərəfindən təşkil edilmişdir. d. 630/1233).

Türk-İslam Ədəbiyyatında ən mühüm dini-ədəbi janrlardan biri olan Mövludlar mahiyyətcə Hz. Peyğəmbərin həyatından bəhs edən siyer ədəbiyyatının bir qoludur. Türk Ədəbiyyatına Ərəb Ədəbiyyatı ilə daxil olan bu janr ədəbiyyatımızda digər xalqların ədəbiyyatından daha önəmli və inkişaf etmişdir. Süleyman Çələbinin öncül olduğu bir çox türk şairləri mövlud janrında əsərlər yazmışdır.

Miraciyye

Lüğətdə nərdivan, səmaya qalxma, yüksələcək yer, yüksəliş mənalarını verən möcüzə sözü Hz. Peyğəmbərin ən mühüm möcüzələrindən birinin adıdır. Bu hadisə hicrətdən təxminən bir il yarım əvvəl Rəcəb ayının 27-ci gecəsində baş verdi. Möcüzə möcüzəsinin baş verdiyi gecə Mirac Kandili adlanır və mübarək gecələrimizdən sayılır. Peyğəmbərimizin ən mühüm möcüzələrindən biri olan Merac iki mərhələdən ibarət bir hadisədir. Birinci mərhələ, St. Peyğəmbərin gecə yarısı Allah tərəfindən Məkkədəki Məscidül-Həramdan (Kəbə) Qüdsdəki Məscidül-Əqsaya aparılmasıdır. Quran'da "Bir gecə öz qulu (Məhəmmədi) ayələrimizdən bəzilərini göstərmək üçün ətrafını mübarək etdiyimiz Məscidül-Əqsadan Məscidül-Əqsaya aparan Allah pakdır. Həqiqətən, O, eşidəndir, görəndir".(6. İsra, 1).

Ayədə təsvir edilən möcüzənin bu ilk mərhələsi gecə gəzintisi mənasında isra adlanır. Səfərin bu mərhələsi vəhy mələyi Cəbrayılın yanında və Burak adlı dağda baş verdi. Bu möcüzənin ikinci mərhələsi Hz. Məhəmmədin yeddi göyü və Sidretül-Müntəha adlanan yeri keçərək Rəbbinin hüzuruna çatması və heç bir vasitəçi olmadan Ondan vəhy alması ilə səmaya qalxmasıdır. Hz. Peyğəmbərin səmaya ucaldıldığı bu ikinci mərhələyə mirac deyilir. Quran ayələrində bəhs edilən merac möcüzəsi haqqında hədis kitablarımızda daha ətraflı məlumat var. Hədis külliyyatımızda, xüsusilə Buxari və Müslimin "Səhih"lərində bu hadisənin hər mərhələsi bütün təfərrüatı ilə təsvir edilmişdir. İstər Quranda, istərsə də onun təfsirlərində və hədis-i şəriflərdəki məlumatlar daha əvvəl Hz. Peyğəmbərin həyatından bəhs edən siyer kitablarının müvafiq fəsillərində və mucizətu'n-Nəbi əsərlərində nəql edilmişdir. Sonralar miras hadisəsindən bəhs edən nəzm və ya nəsrlə ayrı-ayrı əsərlər yazılmışdır. Belə əsərlərə Miraciyye və ya Mirac-nâme deyilir. (8. Mustafa b. Şemseddin Karahisari, Abteri Kebir, s. 1007).

Qırx Hədis

Ədəbiyyatımızda toplanan qırx hədisdən bəziləri nəsrlə, bəziləri nəzmlə, bəziləri isə mənzum və nəsr qarışıq tərcümə və təfsirlərlə yazılmışdır. Qırx hədis jurnalının bəziləri müəyyən mövzularda, bəziləri isə müxtəlif mövzularda tərtib edilmişdir. Quranın fəzilətləri, Peyğəmbərimizin əxlaqı, İslamın şərtləri, Elm və Alim, Siyasət, Hüquq və Cihad qırx hədis məcmuəsində üstünlük verilən mövzulardandır. Türk Ədəbiyyatında çox mühüm dini-ədəbi janr olan bu sahədə yazılmış mühüm əsərlərdən bəziləri bunlardır: Mahmud b. Əlinin 759/1358-ci ildə yazdığı Nehcü'l-Ferâdis ədəbiyyatımızda bu janrın ilk nümunəsi kimi tanınır. Bu əsər hər biri on hədisdən ibarətdir və Hz. Peyğəmbərin fəziləti; Hulefâ-yı Rəşidin, Əhl-i Beyt, Dörd İmamın Fəzaili; Allah-Təalanın razı qaldığı əməllər və Allah-Təalanın razı olmadığı əməllər hədislərdən ibarət dörd fəsildə düzülmüşdür. Kamal Ümmi, Qırx hədiyyə: 815/1412-dən sonra tərcümə edilən bu əsər şairin Divanında bir fəsildir. İnsanın öldüyü andan on məsafədə hər biri dörd hədiyyədən ibarət qırx hədis şəklində tərtib edilmişdir. Füzuli Bu əsər Milli Təhsil Nazirliyi tərəfindən nəşr edilmişdir. Gelibolu Mustafa Əli (ö. 1005/1597), Tərcümə-i Hadis-i Ərbəin. Əlinin qırx hədisdən ibarət ayələrdən ikisi məlumdur və Həsən Aksoy tərəfindən nəşr edilmişdir. (5. Həsən Aksoy, Mustafa Əlinin Qırx Hədis Tərcüməsi, İstanbul 1991, s.25). Əli b. Hacı Mustafa, Əmail-i Fezail-i Cihad: XVI. 19-cu əsrə aid olan bu kitab cihadın fəziləti ilə bağlı türkcə ayə və hədislərin nəsr tərcümələrindən ibarətdir. On iki hissədə təqdim olunur. Yusuf Nəbi (v.1124/1712), Tərcümə-i Hədis-i Ərbəin. İranlı Əbdürrəhman Caminin qırx hədisinin türkcəyə ən uğurlu mənzum tərcümələrindən biridir. (2. Qara Mustafa, 2000, s. 78), Könül məktubları, Göy kaman. İstanbul. Hədislər Mola Cəmi əsərində olduğu kimi misralarla və əruz sayğacının feilatün mefâilün feilün naxışı ilə tərcümə edilmişdir.

Siretü'n- Nəbi

Siretü'n-Nebi adlı əsərlərdə mövzusu Hz. Peyğəmbərin dünyaya gəlişi Velalet, peyğəmbərliyini Risalət, Miracı, Hicrət, Qazavatı-Serial vs. kimi yazılmıştır. Ölüm haqqında ifadə edilen bölümler nəsr və nəzmlə yazılmışdır. Beytdəkilər daha çox məsnəvi formasındadır. (5. Həsən Aksoy, Mustafa Əlinin Qırx Hədis Tərcüməsi, İstanbul 1991, s.25).

Nəticə

Tarixi prosesdə ədəbiyyatla İslam arasındakı əlaqənin daha da möhkəm bağa çevrildiyi görünür. Təəssüf ki, bugün bu bağ zəifləyir və bu bağın qorunmasına, inkişaf etdirilməsinə ehtiyac var. İslamın yayılması və Türk-İslam əlaqəsinin başlaması ilə ədəbiyyat sahəsinin əsası qoyuldu. Xüsusilə Xalq ədəbiyyatı və Divan ədəbiyyatı dövründə özünün ən parlaq dövrünü yaşamış, sonra Qərbin və Qərb ədəbiyyatı dövrünün təsiri ilə zəifləməyə başlamış və bugün də qismən davam etmektedir.

Biblioqrafiya

1. Tekeli Hamdi, Tasavvuf Kültürüne Giriş, Ankara, 2011.
2. Qara Mustafa, (2000), Könül məktupları, Göy kaman. İstanbul.
3. Şener İbrahim, Yıldız Alim, Türk-İslam Ədəbiyyatı, Peşə Yayınları, İstanbul, 2018, 186.
4. Türk dili və Edəbiyyatı Ansiklopediyası, İstanbul, 1998, 8, 30-31.
5. Aksoy Həsən, Mustafa Əlinin Qırx Hədis Tərcüməsi, İstanbul 1991.
6. Kurani Kerim Meali Halil Altuntaş, Muzaffer Şahin, DİB, Ankara 2002).
7. Sarıçam İbrahim, Hz. Muhammed ve Evrensel Mesajı, TDV, Ankara, 2009.
8. Mustafa b. Şemseddin Karahisari, Ahteri Kebir, s. 1007.

Весиле ŞEMŞEK

ИЗУЧЕНИЕ ЛИТЕРАТУРНЫХ ЖАНРОВ, СВЯЗАННЫХ С ОПИСАНИЕМ ПРОРОКА В ТУРЕЦКО-ИСЛАМСКОЙ ЛИТЕРАТУРЕ

Резюме

Ислам также повлиял на область литературы, поскольку он полностью охватывает религию, общество, жизнь и моральные ценности. В этом контексте религиозные и литературные элементы являются основными источниками Тюрко-Исламской литературы. Во-первых, эти источники можно прямо разделить на две группы: религиозные и нерелигиозные. Религиозные источники могут быть перечислены следующим образом; Исторические

сведения о Коране, хадисах, юбилеях, суфийской мысли, древних племенах. Таухид и мунаджат, одни из самых богатых жанров Тюркско-Исламской литературы, основаны на основной идее, переданной Кораном. Примеры: Мевлит, Мираджийе, Хилье, Сорок хадисов, Сийер, Муджазат-и Наби (Кисас-и Энбия). Что касается хадисов в Тюрко-Исламской литературе, то в тюрко-исламской литературе появились поэтические и прозаические жанры и произведения на тему Пророка. Почти все это родилось из любви пророка. С этой точки зрения турецкие общины занимали иное место и долю от других исламских народов. Произведения на эту тему в Тюрко-Исламской литературе достаточно богаты как по жанру, так и по количеству. В этом исследовании обсуждаются литературные жанры, связанные с Пророком, одна из самых важных тем в Тюрко-Исламской литературе. В этом контексте ислам с его широким и богатым содержанием является основным источником Тюрко-Исламской турецкой литературы почти во всех областях. Коран является первым и наиболее важным источником, который придает сущность Тюрко-Исламской литературе почти во всех областях, от ее формы, ее содержания до ее литературного искусства (риторики), определяющего ценность искусства. некоторые жанры. Кроме того, риторический характер Корана, фаукаль-бешер, сделал его наиболее выдающимся образцом для литературы обществ, которые управляют им во всех его аспектах. Рассматривая место суфизма в Тюрко-Исламской литературе, видно, что большинство текстов Тюрко-Исламской литературы прямо или косвенно связаны с суфизмом. В основе мистического мышления и образа жизни лежат понятия аскетизма и благочестия в Коране. Сирету пророк — это название, данное трудам, описывающим биографическую жизнь Пророка. Влияние Сиера на Тюрко-Исламскую литературу, по-видимому, формировалось и формировалось в турецком языке до того, как оно стало предметом истории Сиера и развивалось в этой области, особенно в этой долине.

Ключевые слова: литература, Пророк, литературные жанры, Ислам.

Vesile ŞEMŞEK

THE STUDY OF LITERARY GENRES ASSOCIATED WITH THE DESCRIPTION OF THE PROPHET IN TURKISH-ISLAMIC LITERATURE

Summary

Islam has also influenced the field of literature as it fully embraces religion, society, life, and moral values. In this context, religious and literary elements are the main sources of Turkish Islamic literature. First, these sources can be directly divided into two groups: religious and non-religious. Religious sources may be listed

as follows; Historical information about the Koran, hadiths, anniversaries, Sufi thought, ancient tribes. Tawheed and munajat, one of the richest genres of Turkic-Islamic literature, are based on the basic idea conveyed by the Koran. Examples: Mevlit, Mirajiye, Khilye, Forty Hadith, Siyar, Mujazat-i Nabi (Kisas-i Enbiya). As for the hadiths in the Turkic-Islamic literature, poetic and prose genres and works on the theme of the Prophet appeared in the Turkic-Islamic literature. Almost all of this was born out of the love of the prophet. From this point of view, the Turkish communities occupied a different place and share with other Islamic peoples. The works on this topic in Turkish-Islamic literature are quiet rich both in genre and quantity. This study discusses the literary genres associated with the Prophet, one of the most important topics in Turkic-Islamic literature. The Quran is the main source of Islamic Turkish literature. In this context, Islam, with its broad and rich content, is the main source of Turkish literature in almost all fields. The place of the Koran in ancient Turkic literature;

The Qur'an is the first and most important source that gives essence to Islamic Turkish literature in almost every field, from its form, its content, to its literary art (rhetoric), which determines the value of art. some genres. In addition, the rhetorical nature of the Qur'an, the faukal-besher, has made it the most outstanding model for the literature of the societies that govern it in all its aspects. Considering the place of Sufism in Turkic-Islamic literature, it is clear that most of the texts of Turkic-Islamic literature are directly or indirectly related to Sufism. Mystical thinking and way of life are based on the concepts of asceticism and piety in the Qur'an. Siretü'n Nebi is the name given to works describing the biographical life of the Prophet. Sier's influence on Turkish-Islamic literature seems to have formed and formed in the Turkish language before it became the subject of Sier’s history and developed in this area, especially in this valley.

Keywords: literature, Prophet, literary genres, Islam.

Redaksiyaya daxil olma tarixi: 09.08.2021
Çapa qəbul olunma tarixi: 09.01.2022
Kastamonu Üniversiteti Fen Edebiyat Fakültesi
Öğretim Üyesi Prof. Dr. Vüsale Musalı
tərəfindən çapa tövsiyə olunmuşdur

Fil.f.d. TƏRANƏ ASLANOVA
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
XX əsr (s ovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsi
taranaibadova@gmail.com

NƏĞMƏKAR ŞAIR - NÜSRƏT KƏSƏMƏNLI

Yaşamaq yanmaqdır yanasan gərək
Həyatın mənası yalnız ondadır.....

misralarının müəllifi Bəxtiyar Vahabzadə öz ömrünü vətəninin, xalqının, millətinin tarixini, adət-ənənlərini yaşatmağa sərf etmiş, yaradıcılığı boyu əsərlərinin mövzu obyektinə çevirmiş bütün yazıçı və şairlərə şamil etmişdir. Bu misraları bu gün yaradıcılığına dərindən bələd oldugumuz xalq şairi Nüsrət Kəsəmənliyə də sözün tam mənasında şamil edə bilərik. İlk mətbu şeirləri ilə oxucu rəğbətini qazanan, oxucu ürəyinə yol tapmağı bacaran gənc şair sonrakı yaradıcılıq yolunda getdikcə püxtələşərək, könülləri fəth etməyə nail olmuşdur. Həyatda rastlaşdığı hadisələri, hiss və duğularını, poetik və obrazlı şəkildə poeziya dili ilə xalqa çatdirmağı uğurla bacarmışdır. Onun yaradıcılığı geniş və çoxşaxəli olmaqla yanaşı, həm də özünəməxsusluğu ilə də fərqli idi. Gənc yaşlarında yaradıcılığa başlayan N. Kəsəmənli "Azərnəşr" tərəfindən nəşr edilmiş ilk şeirləri ilə yaradıcılıgının ilk ugurlarını qazanmışdır. Şair sonralar məhsuldar çalışaraq oxucu ürəyinə yol tapmağı bacarır və öz dəsti-xətti ilə Azərbaycan ədəbiyyatının zirvələrini fəth etməyə nail olur. Onun ədəbi irsindən bəhs edərkən geyd etmək lazımdır ki, lirika, lirik qəhrman şairin ön plana çəkdiyi əsas obrazlardandır. Bildiyimiz kimi romantik əsərlərdə yazıçı və yaxud sair həyatı öz arzularında olduğu kimi tərənnüm edir. Hər şey onun xəyallarında olduğu kimi görünür. Həqiqət olmasa xəyal olurmu? deyən şair hər şeyin həqiqətdən doğduğunu romantik hisslərlə qüclü ruh yuksəkliyi ilə qələmə alır. Bu baxımdan romantik ruhlu şairin hər kəsin, hər gəncin arzu və istəklərindən bəhs edən, həyat eşqiylə dolu əsərlərində lirik qəhrəman sanki şairin özüdür. Bunu muəllifin yaradıcılıgının bir çox məqamlarında görmək, duymaq mümkündür.

O, daim öz qəhrəmanlarını izləyir, onların bütün çətinliklərə qalib gələcəyinə inanır. Müəllif lirik qəhrəmanını düzlük, təmizlik simvolu kimi oxucuya təqdim edir. Qeyd etmək lazımdır ki, şairin yaradıcılığında bədii təfəkkür pərvazlandıqca insansevərlik duyğuları qüvvətlənir. Bu səciyyəvi cəhət şairin yaradıcılığında öz bədii əksini tapır. Romantik sənətkarlarda insanı ictimai cəmiyyətin fövqündə saxlayan və müqqədəsləşdirən eşqdir. Məhəbbət aləmi daimi və ölməzdir. Nüsrət Kəsəmənli yaradıcılığında eşq, məhəbbət məfhumu ideal insanın nəcibliyini səciyyələndirən mühüm bir amil kimi qiymətləndirilir. ,, Qadın urəyi,, ,,Sən demə təzədən sevmək olarmış ,, ,,Dəli bir aglamaq keçir könlumdən ,, ,,Dunən toyun idi,, ,, İkimizin yerinə,, ,, Biri var idi, biri yox idi,, və s. bu kimi

lirik əsərlərində eşq, məhəbbət məfhumunun özündən doğan bir arzu, dilək vardır. Nakam eşq yaşamış şair məhəbbət yolunda agrı acının, iztirabın, ayrılıgın ürəyinə çəkdiyi dagların nə oldugunu hələ gənc yaşından yaşamışdı. İlk məhəbbəti olan SEVDAnın bu sevda yolunda ona yaşatdıgı və bütün həyatını cəhənnəmə çevirən eşq dolu, sevda dolu illəri sonda acı hicran, ömürlük ayrılıq və iztirabla əbədiyyətə qovuşdu. Yaşadıqlarından, çəkdiyi iztirablardan güc-qüvvət alan şair yeni bir nəfəslə , lakin agrı- acıya koklənmiş , niskilli ürəklə məhəbbət dolu şeirlərinə yeni nəfəs qataraq yazıb yaratmaga davam deyib yola çıxır. Qeyd edək ki, romantik şairlərdə ülvi məhəbbətdən bəhs edən lövhələr insanı daha qüvvətli tellərlə həyata bağlayır. Zaman keçdikcə insan idrakının məhsulu olan estetik ideal reallığa və həqiqətə çevrilir. Hər iki obraza görə eşq, məhəbbət olan yerdə insani xüsusiyyətlər dəyişməzdir. Eşq, məhəbbət olan yerdə ailə, birlik, cəmiyyət vardır. Şair bu incəlikləri duyduqca qəhrəmanının həyata bağlılığını eşqlə, "hər şey eşq üstündə durur dünyada" deyə mənalandırır. Cəmiyyət və təbiət hadisələrinin eşqlə bağlanması sənətkarın bədii idrakının məhsuludur. Adi sevgi macaralarını ustalıqla səciyyələndirən şair ülvi məhəbbəti, mənəvi eşqin vurğunu olan aşiqlə-məşuqun keçdiyi həyat səhnələrini heyrətamiz şəkildə qələmə almışdır. Hümanist hisslər, həyata bağlılıq, insana inamı və eşqin həyatiliyi şair üçün səciyyəvi cəhət idi. Şair real həyat həqiqətindən qidasını alan eşqin ecazkar səhnələrini yaratdıgı şeirlərdə böyük ustalıqla tərənnüm edir. İnsan bu şeirləri oxuduqca həyatı müşahidədən döğan romantik xəyalların pərvazlandığını, yerlərə, göylərə sığmayan istəklərin arzu şəklində daha qabarıq ifadəsinin şahidi olur.

Azərbaycan ədəbiyyatı özünə məxsus səciyyəvi xüsusiyyətlərə malikdir. Humanizm, insansevərlik, həyata bağlılıq ideyaları bu ədəbiyyatın əsası olmuşdur və daim xalqdan, ictimai həyat həqiqətindən, milli ədəbiyyatın şifahi və klassik qolundan qidalanmışdır. İnsan taleyi, bəşəri kədər, dünyəvi mövzular və s. bu lirikanın məzmununu, zamanın iztirablarından usanan, öz diləklərini reallaşdırmaq məqsədilə bilərəkdən özünü qurban verən insanın həyat faciəsi lirikanın əsas qayəsini təşkil edir. Haqqında danışdığımız Nüsrət Kəsəmənli yaradıcılıgında saf və təmiz məhəbbət ideal qəhrəmanın daxili aləmi ilə bağlı olub hər hansı xarici təzyiqdən azad olan məhəbbətdir. Şairin məhəbbət lirikasında təbiətin təsviri bədii vasitə rolunu oynayır. Lirik "mənin" daxili iztirabları çox zaman təbiətin füsünkar gözəliyinin tərənnümündə öz bədii ifadəsini tapır. Lirik qəhrəmanı estetik idealın səmimi və qüvvətli obyektinə çevirir. Məhz məhəbbət lirikası xalqın mənəvi, əxlaqi keyfiyyətlərini əks etdirməklə, cəmiyyətin yeni estetik idealını zənginləşdirir. Beləliklə, məhəbbət müəyyən məqsədə yönəldilmiş yeni insanın xarakterində daxili gözəllik və nəciblik əlaməti kimi təzahür edir. Lirikada məhəbbəti lirik qəhrəmandan ayrı təsəvvür etmək mümükün deyildir. Məhəbbət insanın dünyanı dərk etmək vasitəsidir.

Şairin yaradıcılığında daha bir xüsusiyyət nəzəri cəlb edir. Nəzərə çatdıraq ki, gözəllik məfhumu söz sənətkarının estetik idealının reallaşmasında bədii vasitə rolunu görür. Ümumiyyətlə, romantiklərə xas olan bu səciyyəvi cəhət Nüsrət Kəsəmənlinin yaradıcılığında, dilində, fikir və duyğularında geniş şəkildə öz təzahürünü tapır. İnsanın mənəvi təkmilləşməsində, əxlaqi cəhətdən saflaşmasında mənəvi gözəllik həledici amil kimi tərənnüm olunur. Lirik qəhrəmanı kamillik nümunəsi kimi vermək bacarığı gözəlliyə münasibət, ona yanaşma və təsvir üsulu, məna çalarları və s. tarixən özünü bütün romantik şair və yazıçıların əsərlərində müxtəlif boyalarla, müxtəlif yanaşma üsulu ilə öz əksini tapmışdır. Gəncliyin isti nəfəsini duyan güclü bir lirika mövcuddur. Şair N.Kəsəmənlinin yaratdığı lirik ,,mənin,, iç dünyasında bu lirika və lirik məqamlar daha güclüdür.Məhəbbət dünyasını əks etdirən lirik lövhələr onun bütün mənəviyyatını bürümüş, dünyaya baxışını dəyişmiş onu bu yolda daha da inamla addımlamağa sövq etmişdir. Həyat həqiqətlərinə obyektiv münasibət bəsləyən şair insan arzuları ilə mövcud quruluşun qanunları arasındakı zidiyyəti bədii ümumiləşdirmələr yolu ilə şeirlərində təsvir etmişdir. Şairin bütün şeirlərini diqqətlə mənimsədikdə düşüncələrini ifadə edən lirik qəhrəmanın sarsıntılarında da, istirablarında da həyata qarşı bir etiraz, mübarizlik motivləri duyulur. Real həyatın sərt qanunları şairin bədii təfəkkürünün,düşüncə qabiliyyətinin qetdikcə formalaşmasına, humanist duyğuları ilə bəşəri ideyalarının təsiri nəticəsində həmahəngliyinin sistmeləşməsinə imkan yaradır. Lirik qəhrəman öz ideallarını real həyatla qarşılaşdırır. Lirik qəhrəmana görə hər şey xəyaldır, hər şey istək və arzudur. Şairin yaradıcılıgının böyuk bir qismində sanki müəllifin lirik qəhrəmanı öz-özünü mühakimə edir.Bu da əbəs yerə deyildir. Yaşadigı agrı-acıları öz əksini sanki yanıqlı misralarda, qəlbinə çalın - çarpaz dag çəkilmiş urəyinin pıçıltısında yaşayir. Qəhrəmanın fikir və düşüncələrinə görə insanı səadət əvəzinə qara kölgə izləyir. Həyatda ruhunu sakitləşdirəcək heç bir qüvvə görməyən insan təsəllini xəyalla yaşamaqda tapır. Bu fikirlər isə öz əksini ,,Qadın ürəyi,, ,,Bəhanəsiz get,, ,,Etiraf,, ,,Mən səni unuda bilmirəm axı,, ,,Xəyanət,, ,,Sevdasiz illər,, ,,Dünən toyun idi,, ,, Sən demə təzədən sevmək olarmış,, və s. şeirlərində daha çox özünu təzahür etdirir. Nüsrət Kəsəmənlinin istənilən şeirində hər bir oxucu öz hiss və duygularina uygun olan məqamları tapa bilir ki, bu da şairin demək ki, hər bir ürəyə yol tapa bilməsi, və hər bir insanin şairin qəhrəmanina çevrilməsi deməkdir. Qeyd etmək lazımdır ki, yazıçı o zaman yazıçı, şair o zaman şair olur ki, özünü unudur, yalnız öz oxucusuna xidmət edir.Yəni onu düşünərək, onun nə istədiyini bilərək hər kiçik detalı nəzərə alıb onun öz diliylə onunla danışmağı bacarır. Qiz və gəlinlərin məsum baxışlarını,qəlbinin təmizliyini, abır və ismətini, nəcib duygularını, keçdiyi həyat yolunu şeirlərində yüksək poetik hisslərlə qələmə alan şair bir insan ömrünə sıgmayan neçə-neçə insan omrünü oz dünyasında yaşatmagı məharətlə bacarmışdı. Şairin yaratdıgı lirik qəhrəman obrazı öz gücü ilə həmişə həyat çətinliklərinə qalib gəlir. Demək məhəbbətin incəliyini duymaq, dərk etmək,

cəmiyyətdə xeyirxah fikirlərin yaranmasına səbəb olur. Nüsrət Kəsəmənli təkcə ag kagız üzərinə köçürdüyü misralarda deyil, həm də musiqi aləmində də özünü yaşatmagı bacarmışdı. Əbəs yerə onu nəgməkar şair deyə adlandırmamışdılar. Müəllifin qələmə aldığı bütün şeirlərində ülvi hisslərin tərənnümü çox güclüdür. Şairin ,, Bura qədərmiş,, adlı şeirində :

Bu dünyada əbədilik nə var ki,
Ömür kimi hər şey gəldi - gedərmiş.
Nə sevginin günahı var, nə bizim,
Bu sevgininn ömrü bura qədərmiş.

Digər bir ,,Səni unutsam ,, şeirinə nəzər salaq ,

Mən səni unuda bilmirəm axı,
Unutsam, nələri unudam gərək,
Göylərə baxmışıq aylı gecədə,
Unutsam göyləri unudam gərək.

Həsrət dolu misralarda bir daha müəllifin qəm, qüssə, yangı, ayrılıq hisslərinin hər bir fikir və düşüncəsində, hər addımında onu izlədiyinin şahidi oluruq. Ruhu poeziya ilə yogrulmuş şairin poetik düşüncə tərzi də öz yaşıdlarından fərqlidir. Sözlərin ahəngi, deyim tərzi, bütün varlıgı ilə eşq aləminə baglılıgı onun bütün əsərlərində oz əksini tapır. Xususilə bu musiqiylə vəhdət təşkil edəndə təsir qüvvəsini daha da artırır və insan ruhunun pərvazlanmasına xidmət edir. Məhəbbətdən aldığı ilhamla yazıb yaradan şair bəzən təbiətlə gözəli qarşı-qarşıya qoyaraq müqayisə edir və sonda sevgilisinin gözəlliyi qarşısında gecələr göyləri, əngin fəzaları işıqlandıran ayın gözəlliyindən üstün tutan qəhrəmanını əsl lirik qəhrəman kimi qələmə alır. Gözəlin tərənnümünü böyük ustalıqla verən yazıçı təbiətin gözəlliklərini tərənnüm etməkdən də böyük zövq alır. Şairin yaradıcılıgı boyu ilham pərisi bəşərin fövqündə duran məhəbbətdir. Məhəbbətdir onların incə ruhunun tellərini dindirən, həsrətindən inlədən, yandıran və şirin əlçatmaz xəyyallarla yaşadan. Həyatda adi görünən ən xırda detalı məhəbbətin dili ilə romantikləşdirib qələmə alan şair bədii təyinlərdən ustalıqla istifadə edərək lirik qəhrəmanını daha da oxucuya sevdirməyə nail olur. Sanki qəlbi onun qəlbi ilə bir vurur, onun kimi sevmək və sevilmək istəyir.Romantik şair və yazıçılarda dövrün mövcud qanunları ilə birləşməsində doğan ideyalar özündən qabağkı əsrin ideyalarını qarşılayır. Şairin təbirincə desək nəcib məhəbbət olmayan yerdə etiqad da, inam da acizdir. Nəinki acizdir hətta hər cür xəyanət və riyakarlıq üçün zəmin yaradır. Şairə görə nəcib məhəbbət insani hisslərdən doğan, həyati qarşılaşmanın qovuşmasından qidalanan yaşamaq və yaşatmaq rəmzi olan azad məhəbbət daxili tellərlə bir-birinə bağlanır ki, xaricdən olan bütün hücumlara müqavimət göstərir. Butun yaradıcılıqları boyunca məhəbbətin həyatiliyini, paklığını əyaniləşdirmək üçün real həyat səhnələrini şairlər və yazıçılar diqqətlə izləyir. Bu məqsədlə ümidi qırılmış, ilk məhəbbətini itirmiş və onu bir daha

bərpa etməyə çalışan insanın hiss və duyğularını məharətlə tərənnüm edir.Bəlkə də Kəsəmənlini lirik qəhrəmana çevirən, yangı, həsrət dolu misralarin bilavasitə obyekti olan bir eşq pərvanəsinə bənzəməsinin kökündə elə nakam məhəbbəti dayanirdı. Adi həyat səhnələrini, adi görüntüləri, ani hərəkəti duyğusallıqla dilə gətirmək bacarıgı şair qəlbli Nüsrətin iç dünyasi idi, şair incə qəlbləri duyğu və hisslərlə bərabərləşdirir. Onun şeirlərini oxuyan hər bir insan sanki eyni həyatı məqamları yaşayır, eyni düşünür və eyni cürə sevir. Bu da şairin usatlıqla qələmə aldığı bütün əsərlərində olan duyğuların eyni nöqtədə birləşməsi,eyni ürək döyüntüləri ilə vurması deməkdir. Beləliklə, şair bütün sevənləri öz lirik qəhrəmanına çevirərək onalrın qəlbində pak,təmiz,ülvi bir məhəbbətin kök salmasına nail olmaq istəyir. Romantikləri ümumi bir nöqtədə birləşdirən xarakter cəhət dinindən, milliyyətindən asılı olmayaraq ümumi məhəbbət ideyasına olan inamdır. Bəzən onu kədərli şair deyə adlandırırlar. Gəncliyinin ilk çaglarından həyatın ona hazırladıgı və heç kimsənin nakam eşqinə bənzəməyən eşq yaşaması bəlkə də onun həyatının dönuş nöqtəsi idi. Onun lirik qəhrəmanları əsasən kədərli insanlar olmuşlar. Çünki digərlərindən fərqli olaraq agrı-acı çəkən insanın fəryadı daha təsirli olur. Bu baxımdan lirik şeirlərində od olaraq könulləri yandiran misralarinin təsir gucu də digərlərindən fərqlidir.

60-70-ci illərdə fasiləsiz olaraq televiziya və radioda müxtəlif mövzularda çıxış edən şair yazıb yaratdıgı şeirləri ilə geniş xalq kutləsinin maragina səbəb olmaqla yanaşı, həm də xalqın, xüsusən də gəncliyin sevgi və rəgbətini qazanmaga nail olurdu.

,,Oyatma mürgülü xatirələri,, adlı şeiri Nüsrətin həqiqətən mürgülü xatirələrinin sözdə mürgülü, əslində isə daim oyaq olaraq onu mənəvi qida kimi yaşatmasına, yazıb yaratmasına sövq edirdi. Nüsrət əsasən gənclərin şairi idi. Çünki odlu , alovlu hisslərlə sevmək gəncliyin qisməti idisə, oz şirin xəyallarının, xatirələrinin sevgi dolu anlarına qayıtmaq, onları yenidən yaşamaq həvəsi, məhəbbət çiçəyini yenidən qoxlamaq, ,,,, onun ətrindən bihuş olmaq istəyi ahıl nəslin ömür karvanının sonuncu, bir də geriyə dönməyəcək şirin nagil dünyasıydı, Nüsrət Kəsəmənli yaradıcılıgı. Nagıl kimi bir ömür yaşadı Nüsrət Kəsəmənli, elə bir ömür ki, bir ömürdə neçə-neçə müxtəlif taleləri, öz məhəbbəti ugrunda şam təki əriyib dillərdə, könüllərdə əbədi məskən salan, məhəbbət alovuyla yanan bir ömür.....bu ömür ,, Nüsrət Kəsəmənlinin məhəbbət dünyası,, adlanirdı. Əsl şairlər ölmür, sevən, duyan urəkləri fəth edən sətirlərdə, mahnılarda yaşayan Nüsrət Kəsəmənli.....75 YAŞIN MUBARƏK.

РЕЗЮМЕ
Поэт- песенник - Нусрат Кесеменли

КЛЮЧЕВЫЕ СЛОВА. Поэт, лирика, юбилей, любовь, человек, юность, писать, ценность, вершина, читатель, чувство, переживание, Азербайджан, душа, образ, поэзия, природа, единство, жизнь, мысль.

Народный поэт Азербайджана Нусрат Кесеменли является одним из поэтов, сказавших свое слово в азербайджанской литературе. Его творчество всегда с интересом и любовью воспринималось читателями. Н. Кесеменли окончил факультет журналистики Азербайджанского Государственного Университета. В течение этих лет он занимался творчеством. В статье речь идет о жизни и творчестве поэта. В основном обращались к лирическим стихам, играющим ключевую роль в его творчестве. Н. Кесеменли известен как общественный деятель, сценарист и поэт-песенник. В 60-х и 70-х годах он был автором нескольких теле- и радиопередач. Произведения,написанные поэтом, полюбились читателям и живут в их сердцах. Его стихи, написанные на лирические темы, воспевают чувства и переживания любящих сердец. В статье показано, что лирика и лирический герой является одним из главных образов, выдвигаемых на первый план в творчестве поэта. Описание явлений природы, события, происходящие в обществе, искусно представлены в стихотворениях поэта. С этой точки зрения творчество поэта всегда нравилось народу. Н. Кесеменли был одним из любимых поэтов молодежи. Поэт-песенник и сегодня любим и живет в душе каждого.

Summary
Lyricist - Nusrat Kasamanli

People’s poet of Azerbaijan N. Kasamanli had major role in Azerbaijan literature. His activity was always observed and loved by the readers. He graduated from the faculty of journalism, Azerbaycan State University. Over these years he activly worked on his poetry. This article investigates life and creative legacy of N. Kasamanli. This research paper appeals to lyric poems which encloses the major parts of his professional heritage. During his life he was a public figure, worked as a screen-writter, and he was also recognized as a poet whose poems structure and poetic language were originally laid for song forms. He was author of several television programs in 60s and 70s. Moreover poems that were written by him were loved by the readers, have played a significant role and inspired love experience of the readers. Created lyric poems thrilled and pulled hearts feeling and emotions out of the readers. The research reveales that poet’s lyric hero is the most figurative. His activity on the foreground includes a mood through vivid images. Description of natural scenes, narrative conflict of interest is the basic topics which used in his poetry. Therefore, N. Kasamanli’s verses were always loved by young generation. The lyric poet is still have been quoted and remembered by the most of his readers.

Key words: Poet, lyric, anniversary, love, human, youth, to write, worthy, top, reader, filling, emotion, Azerbaijan, heart, image, poetry, nature, life, thoughts.

İstifadə olunmuş ədəbiyyat:

1.Xəlilov Qulu. Sənət və sənətkar. Bakı: Azərnəşr,1966, 161 s.
2.Hüseyn Mehdi. Ədəbiyyat və sənət məsələləri. Bakı: Azərnəşr,1958,609s.
3.Rəsul Rza.Mənim fikrimcə.Bakı: Azərnəşr, 1967,420 s.
4.Yusifli Vaqif.Poeziyanın yolları və illəri(1960-2000).Bakı:Adiloglu,2009

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNAY ƏKBƏROVA
Filologiya üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universiteti,
Akademik Zahid Xəlilov küçəsi.
e-mail: agvereq@gmail.com

ŞƏVKƏT SÜRƏYYA AYDƏMIRIN QƏLƏMI ILƏ ADNAN MENDERES

Xülasə

Bu məqalədə Şəvkət Sürəyya Aydəmirin nəzərində Adnan Menderesin uşaqlıq illərindən başlayaraq ilk siyasi görüşlərinədək, həmçinin, türkiyənin təkpartiyalı sistemdən çoxpartiyalı seçimə keçməsindən bəhs olunur. XX əsrin 40-cı illərinədək Türkiyə Cümhuriyyətində təkpartiyalı sistem hökm sürürdü. Yeganə partiya CXP partiyası idi. Həmin dövrdə ölkədə iqtisadi böhran hökm sürürdü. Məhz bu iqtisadi böhran yavaş-yavaş CXP-yə inamı zəiflədirdi. Bundan istifadə edən Adnan Menderes və yoldaşları yeni partiyanı – Demokrat Partiyanı yaratdılar. Bu partiyanın yaranması ilə ölkədə təkpartiyalı sistemdən çoxpartiyalı sistemə keçildi. 1950-ci ildə Demokrat Partiya seçkilərə qoşuldu. Səs çoxluğu ilə qalib gələrək hakimiyyətə keçdi. Cəlal Bayar yeni hökumətin prezidenti, Adnan Menderes isə Baş naziri oldu. A.Menderes 1950-54-cü illərdə iqtisadi sahədə, ələlxüsüs da kənd təsərrüfatı sahəsində müvəffəqiyyət əldə etmiş, kənd təsərrüfatı mallarının qiymətlərini tənzimləmişdi. Bu dövr Aydəmirin də dediyi kimi, yüksəliş dövrü idi. Bu dövrdə milli gəlir 15% artmışdı. Həmçinin işsizlik səviyyəsi aşağı düşmüş, kənd təsərrüfatı mallarının saxlanılması üçün olan anbarların sayı artırılmış, yollar çəkilmiş, şəkər və toxuma sənayesində inkişaf qeydə alınmışdı. Buna baxmayaraq Demokrat partiyanın bəzi nöqsanları onları yavaş-yavaş zəiflədirdi. Məhz elə buna görə də 1957-ci il seçkisində Demokratik Partiyanın geriləməsi və növbəti seçkilərdə Cümhuriyyət Xalq Partiyasının qazanma ehtimalı iki partiya arasındakı gərginliyi artırdı. 1960-cı il 27 may inqilabı nəticəsində iqtidarda olan Demokratik Partiya devrildi və öz fəaliyyətini sonlandırdı. Hakimiyyətdə olan dövlət adamlarına Milli Birlik Komitəsinin verdiyi qərara əsasən Ədalət Divanında hökm oxundu və nəticədə Konstitusiyanın qanunlarını pozmaq cinayəti ilə Adnan Menderes və iki nazirə edam hökmü oxundu.

Açar sözlər: *Adnan Menderes, Ş.S.Aydəmir, Demokrat Partiya, Hərbi çevriliş, Cümhuriyyət Xalq Partiyası, Cəlal Bayar, Adnan Menderes, Fuad Köprülü və Rəfiq Koraltan, İsmət İnönü.*

Şəvkət Sürəyya Aydəmir üçün Adnan Menderes "öz üzərində daima çalışan millətin taleyinə təsiri olan bir tarixi şəxsiyyət" idi. [5,7]

A.Menderes geniş mülkiyyət sahibi olan bir ailədə dünyaya göz açsa da, uşaqlıq illərində bütün yaxınlarını itirmiş, gənclik illərini isə ağır xəstəliklərlə keçirmişdir. Sərbəst Firqədəki qısa təcürbədən sonra Cümhuriyyət Xalq Partiyasında (CXP) siyasi fəaliyyətə başlamış, lakin Demokrat Partiyası qurulanadək çox da ön plana çıxmamışdır. Bildiyimiz kimi Türkiyə Cümhuriyyəti qurulduqdan sonra ölkədə təkpartiyalı sistem hökm sürürdü. Adnan Menderes isə XX əsrin 40-cı illərində Demokrat Partiyasını yaratmaqla ölkə çoxpartiyalı sistemə keçid etdi. Menderesin 40-cı illərdəki mübarizəsini Ş.S.Aydemir belə dəyərləndirir: "... bir həqiqəti də vurğulamaq yerinə düşər. O da Menderesin davasını müdafiədə irəli sürdüyü dəlillərin, gətirdiyi arqumentlərin asanlıqla rədd edilə bilməyəcək qədər güclü olmasıdır." [5, 118]

Bu dövrdə Adnan Menderes yavaş-yavaş Cümhuriyyət Xalq Patiyasından uzaqlaşmağa başladı. Bu partiyanın içərisindən dörd millətvəkili, Cəlal Bayar, Adnan Menderes, Fuad Köprülü və Rəfiq Koraltanın imzalarıyla irəli sürülən "Dörtlü Takrir" ilə yerlərdə demokratik üsulların daha geniş tətbiqinə keçilməsi tələb olundu. Bu tələbə Cümhuriyət Xalq Partiyasının cavabı isə çox sərt oldu. Belə ki, Adnan Menderes və Fuad Köprülü, daha sonra isə Rəfiq Koraltan partiyadan uzaqlaşdırıldılar. Bunların ardıyca isə Cəlal Bayar öncə millətvəkilliyindən, sonra isə partiyadan istefa verdi. Cəlal Bayar 1945-ci ilin dekabr ayında yeni partiyanını qurulacağını açıqladı və İ.İnönünün razılığını aldıqdan sonra 1946-cı ilin Yanvarın 7-də Demokrat Partiya rəsmən quruldu və Türkiyə Cümhuriyyəti təkpartiyalı sistmdən, çoxpartiyalı sistemə keçdi.

Yeni bir partiyanın qurulabiləcəyinə dair ilk fikirləri İsmət İnönü 1945-ci ilin may ayındakı çıxışında dilə gətirmişdir. Bundan əlavə həmin ilin noyab ayının 1-də etdiyi çıxışda açıq-aşkar demişdi: " Bizim çatışmayan cəhətimiz hökumət partiyasının qarşısında bir partiyanın olmamasıdır..."

Türkiyədə dərinləşən iqtisadi böhran Cümhuriyyət Xalq Partiyasına inamı azaltmışdı. Bu yandan isə Demokrat Partiyanın nüfuzu günü-gündən artırdı. Elə bunun nəticəsində də 1950-ci il seçkilərində Demokrat Partiya səs çoxluğu ilə hakimiyyətə gəldi. Cəlal Bayar yeni hökumətin prezidenti, Adnan Menderes isə Baş naziri oldu. Adnan Menderes ilk çıxışında –,"Tariximizdə ilk dəfədir ki, yüksək heyətiniz milli iradənin tam və sərbəst təcəllisi nəticəsində millətin müqəddəratına hakim olmaq mövqeyinə gəlmişdir..." – dedi. Menderesin bu çıxışı bütün çıxış boyu M.K.Atatürkün adının bircə dəfə belə çəkilməməsi Ş.S.Aydemirdə məyusluq yaratdı. Halbuki yeni bir dövrün başlanğıcı olan çoxpartiyalı sistem Atatürk demokrtaiyasının təkmilləşmiş forması kimi sayıla bilərdi. Atatürkün xatırlanmaması, bir növ inkar edilməsi heç də yaxşı bir başlanğıc sayıla bilməzdi. Bir yandan da Adnana Menderesin bu çıxışına Cəlal Bayarın göz yumması, heç bir reakiya verməməsini də Aydəmir üçün başa düşülən deyildi.

Ş.S.Aydəmir üçün A.Menderes 1950-54-cü illərdə iqtisadi sahədə, ələlxüsüs da kənd təsərrüfatı sahəsində müvəffəqiyyət əldə etmiş, kənd təsərrüfatı mallarının qiymətlərini tənzimləmişdi. Bu dövr Aydəmirin də dediyi kimi, yüksəliş dövrü idi. Bu dövrdə milli gəlir 15% artmış, işsizlik səviyyəsi aşağı düşmüş, kənd təsərrüfatı mallarının saxlanılması üçün olan anbarların sayı artırılmış, yollar çəkilmiş, şəkər və toxuma sənayesində inkişaf qeydə alınmışdı. Bundan əvvəlki dövrlərdə yalnız dövlət tabeliyində olan torpaqlarda işləyən traktorlardan artıq kəndlilərin şəxsi təsərrüfatlarında da istifadə edə bilirdilər. Buna baxmayaraq Demokrat partiyası hükumətinin torpaq bölgüsü, kredit şərtləri, kənd təsərrüfatı avadanlıqlarının alışının asanlaşdırılması hamıdan əvvəl mülkiyyət münasibətləri dəyişdirilmədiyindən iri mülkiyyətçilərin xeyirinə oldu. Effektiv bir vergitutma sistemi tətbiq olunmadığına görə bunların qazancları sənayeyə köçürülməmiş, yol və körpü tikintiləri layihələr əsasında salındığından maliyətlər şişirdilmiş və yeyinti halları çoxalmışdı. Ş.S.Aydəmir isə bu şişrdilmiş rəqəmlərə əsaslanaraq həmin dövrü dolğun dəyərləndirə bilməmiş, orada olan yeyintiləri görməmiş və yaxud görə bilməmişdi.

Ş.S.Aydəmir 1954-cü ildən sonrakı iqtisadi vəziyyəti müsbət və mənfi tərəfləri ilə "İkinci adam" əsərinin üçüncü cildində Demokratik Partiyanın iqtidarda olduğu dövrünü əhatə edəcək bir şəkildə rəqəmsal cədvəllərlə dəyərləndirmişdir. Bu cədvələ əsasən Türkiyə kənd təsərrüfatı sahəsində, onun mexanikləşdirilməsində, məhsul yığımında mədən sənayesində, yol və körpü inşaatlarında əhəmiyyətli dərəcədə inkişaf etmiş, lakin buna baxmayaraq gerçəklikdə səmərə əldə edilməmiş, xarici yardım və kreditlər ölkəni iqtisadi əsarətə sürükləyən bir sistem halına gəlmişdi. İqtisadi irəliləmələr göstərən sənədlərin pərdə arxasında isə layihələrdən qaynaqlanan yeyintilər həddini aşmışdı. A.Menderes bir görüş əsnasında Aydəmirə belə demişdi: "Çalıyorlar, birader, çalıyorlar. Ne diyeyim, Allah belalarını versin! Ama ben ne yapayım? Ben başvekilim, müfettiş değilim ki..."

Şəvkət Sürəyya Aydəmirə görə Demokrat Partiya dörd nəfər tərəfindən qurulsa da əsas yük Menderesin üzərindədir. "Doğru və yanlış, bütün manevrləri ilə Demokrat Partiyanın öndə gələn söz sahibi daima o oldu".[5,142]

Demokrat Partiyanın qurucularından olan və 1950-ci ildə Türkiyə Cümhuriyətinin prezidenti seçilən Cəlal Bayar isə Şəvkət Sürəyya Aydəmirə görə "əmr alan və əmr altında çalışan siyasətçilər" sırasında idi. Demokrat partiyanın yaradılmasından etibarən Cəlal Bayar və Adnan Menderes in ətrafında olan Cihat Baban da müxtəlif nümunələrlə bildirir ki, əslində hakim elə Menderesin özü idi: "Menderes gah birbaşa özünü ortaya ataraq vəziyyətə hakim olurdu, gah da Bayarı öz arzularına vasitə edərək partiyada söz sahibi olurdu." [7,45]

1957-ci il seçkisində Demokratik Partiyanın geriləməsi və növbəti seçkilərdə Cümhuriyyət Xalq Partiyasının qazanma ehtimalı iki partiya arasındakı gərginliyi artırmışdı. Aydəmirin fikrincə Menderes Hakimiyyəti öz onillik dövründə partiyalararası münasibətlərdə yersiz davranışlar, öndərlər arasında və Məclisdə normal dialoq qurulmaması, İsmət İnönünün səyahətlərinə mane olmalar(Uşakda

daşlanması, Topqapıda ölümdən sönməsi) Demokratik Partiyanın təkpartiyalı zehniyyətdən qurtula bilməməsi, Demokratik Partiyanın hakimiyyətə gələrkən verdiyi vədləri unutması və s. səbəblər üzündən köhnəlmişdi, zəifləmişdi. Xarici siyasətdə təslimiyyətci bir mövqe tutması, Koreyaya göndərdiyi əsgərlər görə NATO-ya üzv olmaqdan əlavə ABŞ ilə imzalanan qarşılıqlı saziş partiyanı zəiflədən digər bir səbəb idi. Nəticə olaraq deyə bilərik ki, Demokratik Partiyanın hakimiyyəti dövründə Türkiyə bu qarşılıqlı sazişlərlə mahiyyətləri, nəticələri bəlli olmayan təslimiyyətci bir siyasi-hərbi kontrol altına salınmışdır.

Şəvkət Sürəyya Aydəmirə görə iki Adnan Menderes vardı: biri kiçik, digəri isə böyük. Kiçik Menderes sözünə güvənilməz, qərarsız biri idi. Böyük Menderes isə, böyük hədəfləri olan, böyük bir mübariz idi. O bu Menderesin iqtidarda olduğu müddətcə ən önəmli xarakterini böyük rəqəmlərdən, böyük inşa qərarlarından qorxmamaqda görürdü. Aydəmirə görə Menderesin ən böyük xətası İnönü fobiyası idi. Bu mövzuda Ş.S.Aydəmirin sözləri çox maraqlıdır: "İstər Bayar, istərsə Menderes əvvəldən Atatürk və İnönü təsiri altında qaldılar. Bu təsir biraz da fobiya şəklini aldı. Yəni nəticə etibarı ilə İnönünün davamlı olaraq qorxusu altında qaldılar.

1957-ci il seçimlərindən sonra Bayar gündəlik münaqişələrlə məşğul olur, prezidentliyi bir kənara qoyaraq bir Demokrat Partiyalı kimi davranmağa başlamışdır. Bu isə Aydəmirə görə Menderesi daha çox məşğul etməkdən, onu yormaqdan başqa bir işə yaramırdı. Bir yandan da Bağdadda 1958-ci ildə inqilab ilə krallığın devrilməsi kral və ətrafı ilə yaxın münasibətdə olan Menderesdə inqilab qorxusu yaratdı. Aydəmirin fikrincə Menderesin narahatlığından əlavə ölkədəki iqtidar və müxalifət arasında olan gərginlik inqilab üçün zəmin hazırlayırdı. Hələ 1955-ci ildə ordu içində Demokrat Partiyaya qarşı bir sıra inqilabçılar çıxmağa başladı. 1960-cı ildə İ.İnönüyə olunan hücumlar, universitetlər üzərindəki təzyiqlər inqilabçıları daha da qızışdırdı. Aydəmirə görə ehtimal olan bir inqilabın önünə keçmək üçün seçkinin yenilənməsi, və ya hakimiyyətin bütünlüklə dəyişilməsi lazımdır. Belə də oldu. 1960-cı il 27 may inqilabı nəticəsində iqtidarda olan Demokratik Partiya devrildi və öz fəaliyyətini sonlandırdı. Hakimiyyətdə olan dövlət adamlarına Milli Birlik Komitəsinin verdiyi qərara əsasən Ədalət Divanında hökm oxundu və nəticədə Konstitusiyanın qanunlarını pozmaq cinayəti ilə Adnan Menderes və iki nazirə edam hökmü oxundu. Şəvkət Sürəyya Aydəmir tətbiq edilən bu hökmə "Menderesin Dramı" əsərində öz mövqeyini belə bildirir: "... bu mövzuda mövqeyimizi bildirmək lazımdırsa, mövqeyimiz budur: türk ictimai rəyi bu hökmləri və hökmlərin icrasını heç vaxt düzgün hesab etməmişdir".

Ədəbiyyat siyahısı

1. Aydemir Şevket Süreyya. İhtilalın mantığı. ve 27 Mayıs ihtilali, İstanbul: Remzi kitabevi, 2000
2. Aydemir Şevket Süreyya. İkinci adam, C.II İstanbul: Remzi kitabevi, 2000
3. Aydemir Şevket Süreyya. İkinci adam, C.III İstanbul: Remzi kitabevi, 2000
4. Aydemir Şevket Süreyya. Kırmızı Mektuplar ve son yazılar, İstanbul: Çağdaş yayınları, 1979
5. Aydemir Şevket Süreyya. Menderesin dramı, İstanbul: Remzi kitabevi, 2000
6. Baskı Oran, "1945-1960 Dönemin Bilançosu", Türk dış politikası C.I İstanbul: İletişim yayınları, 2003.
7. Cihad Baban, Politika Galerisi, İstanbul: Remzi kitabevi, 1970.
8. Eroğul Cem. Demokrat Parti Tarihi ve ideolojisi, Ankara: İmge kitabevi, 2002
9. Taner Timur, "Demokrat Parti ve kalkınma politikası: Şehirliler, köylüler, alacaklılar", Ankara: İmge kitabevi, 2004.

ГЮНАЙ АКБАРОВА

АДНАН МЕНДЕРЕС В ТВОРЧЕСТВЕ ШЕВКЕТ СУРАЯ АЙДЕМИР

РЕЗЮМЕ

В данной статье рассматривается переход Аднана Мендереса от детства к его первым политическим собраниям, а также переход Турции от однопартийной системы к многопартийной. До 1940-х годов в Турецкой Республике правила однопартийная система. Единственной стороной была CXP. В то время в стране был экономический кризис. Именно этот экономический кризис постепенно ослабил доверие к CXP. Воспользовавшись этим, Аднан Мендерес и его товарищи сформировали новую партию — Демократическую партию. С созданием этой партии страна перешла от однопартийной системы к многопартийной. В 1950 году к выборам присоединилась Демократическая партия. Он победил большинством голосов. Джалал Баяр стал президентом нового правительства, а Аднан Мендерес стал премьер-министром.

В 1950-54 годах Мендерес добился успехов в экономической сфере, особенно в сельском хозяйстве, регулировал цены на сельскохозяйственные товары. Этот период, как сказал Айдемир, был периодом подъема. За этот период национальный доход увеличился на 15%. Сократилась и безработица,

увеличилось количество складов для сельскохозяйственных товаров, были построены дороги, процветала сахарная и текстильная промышленность. Однако некоторые недостатки Демократической партии постепенно ослабляли их. Вот почему упадок Демократической партии на выборах 1957 года и возможность победы Народно-республиканской партии на следующих выборах усилили напряженность в отношениях между двумя партиями. В результате революции 27 мая 1960 г. правящая Демократическая партия была свергнута и прекратила свое существование. Правящие государственные деятели были приговорены к смертной казни Комитетом национального единства в Суде, а Аднан Мендерес и два министра были приговорены к смертной казни за нарушение Конституции.

Ключевые слова: *Аднан Мендерес, Ш.С. Айдемир, Демократическая партия, Военный переворот, Республиканская народная партия, Джалал Баяр, Аднан Мендерес, Фуад Копрулу и Рафик Коралтан, Исмет Инону*

GUNAY AKBAROVA

ADNAN MENDERES IN THE WORKS OF SHEVKET SURAYYA AYDEMIR

SUMMARY

This article deals with the transition of Adnan Menderes from his childhood to his first political meetings, as well as Turkey's transition from a one-party system to a multi-party system. Until the 1940s, the Republic of Turkey was ruled by a one-party system. The only party was the CXP. At that time, the country was in economic crisis. It was this economic crisis that gradually weakened confidence in the CXP. Taking advantage of this, Adnan Menderes and his comrades formed a new party - the Democratic Party. With the establishment of this party, the country moved from a one-party system to a multi-party system. In 1950, the Democratic Party joined the election. He won by a majority of votes. Jalal Bayar became the president of the new government, and Adnan Menderes became the prime minister. In 1950-54, Menderes was successful in the economic sphere, especially in agriculture, and regulated the prices of agricultural goods. This period, as Aydemir said, was a period of rise. During this period, national income increased by 15%. Unemployment also fell, the number of warehouses for agricultural goods increased, roads were built, and the sugar and textile industries flourished. However, some shortcomings of the Democratic Party gradually weakened them. That is why the decline of the Democratic Party in the 1957 elections and the possibility of the Republican People's Party winning the next elections increased tensions between the two parties. As a result of the revolution of May 27, 1960, the ruling Democratic Party was

overthrown and ceased to exist. The ruling statesmen were sentenced to death by the National Unity Committee in the Court of Justice, and Adnan Menderes and two ministers were sentenced to death for violating the Constitution.

Key words: *Adnan Menderes, Sh.S. Aydemir, Democratic Party, Military coup, Republican People's Party, Jalal Bayar, Adnan Menderes, Fuad Koprulu and Rafig Koraltan, Ismet Inonu.*

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi filologiya üzrə elmlər doktoru, prof. Firuzə Abdulla qızı Ağayeva: tərəfindən çapa tövsiyə olunmuşdur

MƏMMƏDOVA RUHƏNGİZ YELMAR QIZI
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Bakı şəh.Ayna Sultanova 5
ruhengiz.mammadova86@mail.ru

MÜDRİKLİK VƏ HİKMƏT ŞAİRİ DAHİ NİZAMİ GƏNCƏVİ

Xülasə

Dahi şair və mütəfəkkir Nizami Gəncəvinin insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyəti var. Bu əhəmiyyətli məsələni nəzərə alaraq anadan olmasının 880 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliğinə çox böyük töhfədir.
Nizami Gəncəvi yalnız ədəbiyyatın və sənətin yox, ümumiyyətlə, bəşəri sivilizasiyanın tarixindəki nadir simalardan biridir. Onun yaradıcılığına verilən qiymət və ona bəslənilən ehtiram heç bir milli, irqi, dini, coğrafi sərhəd tanımır. Bu böyük şair üçün zaman çərçivəsi də mövcud deyil və bu gün onun yazıb-yaratdığı dünya şöhrətli əsərlər onun daimiliyinin yalnız bir epizodudur.

Bütün dünyanın "Gəncəli dahi" kimi tanıdığı Nizaminin yaradıcılığı qlobal hadisə idi. Azərbaycan şairinin irsində təkcə Şərq ədəbi-mədəni dəyərləri deyil, eyni zamanda, Qərb ədəbi-mədəni dəyərləri də öz kamil sintezini tapmışdır. Nizami yaradıcılığını tam mənası ilə klassik dövrün yeni mərhələsi kimi qiymətləndirmək olar. Nizaminin yaradıcılığı, onun söz ordusu elə bir ilahi qüvvəyə malikdir ki, dünyanın heç bir ordusu ona qalib gələ bilməz.

Nizami Gəncəvini "Azərbaycan şairi" adlandıranlar haqlıdır. Onun 1500 illik İslam mədəniyyətinin yetirməsi, dünya şairi adlandıranlar da eyni dərəcədə haqlıdır. Amma bu gəncəli dahini kainat şairi adlandırsalar daha doğru olar.

Nizami sənətinin ölməzliyini təmin edən bir sıra elementlər var. Bu elementlərdən biri də budur ki, mütəfəkkir, öz yaradıcılığında dövrünün və gələcək dövrlərin humanist istiqamətli fikirlərini, həmçinin sosial ədalət ideyalarını parlaq şəkildə təbliğ edib. Belə ki, insan haqlarının təbliği və onların müdafiəsi, şəxsiyyətin azadlığı, şəxsiyyətin iradə müstəqilliyi ədalət hissəsində öz parlaq təcəssümünü tapıb

Qüdrətli söz ustadının bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir.

Açar sözlər: Xəmsə, qəzəl, qəsidə, rübai, sintez, lirika, divan, poeziya, poetik fikir, təməl, epizod

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni və parlaq səhifə açmış nadir şəxsiyyətlərdən biridir. Dahi sənətkarın Azərbaycan xalqının mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq ədəbi irsi əsrlərdən bəri Şərqin mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamışdır(4, səh54).

Nizami yaradıcılığı xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir. Nizami Gəncəvinin şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Dahi şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin təməlini qoymuşdur. Nizaminin ən məşhur kitabxanaları bəzəyən əsərləri həm də Şərq miniatür sənətinin inkişafına təkan vermişdir.

Dahi Azərbaycan şairi, filosof Nizami Gəncəvinin yaradıcılığı bəşəri təfəkkürün elə bir fəth olunmamış zirvəsidir. Bu zirvə sənət aləmində "Nizami zirvəsi" adlanır. Nizaminin təfəkkür və kamillik zirvəsi o zaman kəşf olunacaq ki, dünyada ağıl və kamal hər şeydən üstün olacaq(3,səh 89).

Nizami Gəncəvi yalnız ədəbiyyatın və sənətin yox, ümumiyyətlə, bəşəri sivilizasiyanın tarixindəki nadir simalardan biridir. Onun yaradıcılığına verilən qiymət və ona bəslənilən ehtiram heç bir milli, irqi, dini, coğrafi sərhəd tanımır. Bu böyük şair üçün zaman çərçivəsi də mövcud deyil və bu gün onun yazıb-yaratdığı dünya şöhrətli əsərlər onun daimiliyinin yalnız bir epizodudur.

Bütün dünyanın "Gəncəli dahi" kimi tanıdığı Nizaminin yaradıcılığı qlobal hadisə idi. Azərbaycan şairinin irsində təkcə Şərq ədəbi-mədəni dəyərləri deyil, eyni zamanda, Qərb ədəbi-mədəni dəyərləri də öz kamil sintezini tapmışdır. Nizami yaradıcılığını tam mənası ilə klassik dövrün yeni mərhələsi kimi qiymətləndirmək olar. Nizaminin yaradıcılığı, onun söz ordusu elə bir ilahi qüvvəyə malikdir ki, dünyanın heç bir ordusu ona qalib gələ bilməz.

Nizami Gəncəvini "Azərbaycan şairi" adlandıranlar haqlıdır. Onun 1500 illik İslam mədəniyyətinin yetirməsi, dünya şairi adlandıranlar da eyni dərəcədə haqlıdır. Amma bu gəncəli dahini kainat şairi adlandırsalar daha doğru olar(1, səh 49).

Nizami sənətinin ölməzliyini təmin edən bir sıra elementlər var. Bu elementlərdən biri də budur ki, mütəfəkkir, öz yaradıcılığında dövrünün və gələcək dövrlərin humanist istiqamətli fikirlərini, həmçinin sosial ədalət ideyalarını parlaq şəkildə təbliğ edib. Belə ki, insan haqlarının təbliği və onların müdafiəsi, şəxsiyyətin azadlığı, şəxsiyyətin iradə müstəqilliyi ədalət hissəsində öz parlaq təcəssümünü tapıb.

Qüdrətli söz ustadının bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir. Müdrik sənətkar öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvinin dünyanın ən zəngin kitabxanalarını bəzəyən əsərləri Şərqdə incəsənətin, xüsusən də miniatür sənətinin inkişafına təkan vermişdir.

Nizami Gəncəvi milli mənsubiyyətindən, dilindən, dinindən, cinsindən, irqindən asılı olmayaraq bütün bəşəriyyət üçün tükənməz bir xəzinə yaratmışdır.

Nizami Gəncəvi söz sənətini yüksəldən bir sənətkar olmaqla yanaşı öz əsərləri ilə həm Azərbaycan ədəbiyyatını, həm də dünya ədəbiyyatını zənginləşdirmişdir.

Mənbələrdə Nizami Gəncəvinin lirik əsərlərinin toplandığı divanının 20.000 beytə yaxın olduğu göstərilsə də, onun çox kiçik bir hissəsi dövrümüzə qədər gəlib çatmışdır. Bütün yaradıcılığı boyunca Nizami epik əsərlərində Divanını xatırlatmış, lirik şeirləri və qəzəlləri ilə fəxr etmişdir. Şair qəzəllərindən birinin sonunda Şirvanşah I Axsitanı öz divanının sahibi adlandırmışdır.

Nizaminin lirik irsindən əldə olunan nümunələr klassik Şərq şeirinin ancaq üç şəklini – qəsidə, qəzəl və rübai şəkillərini əhatə edir. Bu nümunələr şairin zəngin lirik irsinin çox az bir hissəsini təşkil etsə də, onlar sənətkarın lirik yaradıcılığının ümumi ideya istiqaməti, bədii xüsusiyyətləri haqqında danışmağa, müəyyən elmi nəticələrə gəlməyə imkan vermişdir. Bu əsərlər göstərir ki, insan, onun həyatı, taleyi, arzu və istəkləri Nizami lirikasının əsas mövzusu olmuşdur.

Nizami divanının öyrənilməsi daha gec başlanılsa da, şairin divanı haqqında hələ təzkirə müəllifləri müəyyən fikirlər söyləmişlər. Divanın bəzi hissələri müxtəlif orta əsr cüng və təzkirələrində yaşamışdır. Nizami divanının əldə edilmiş hissələri göstərir ki, o, özündən əvvəl yazıb-yaratmış Rudəki, Nasir Xosrov Qubadyani, Sənai, Ənvəri, Qətran Təbrizi və Xaqani kimi şairlərin ənənələrini davam və inkişaf etdirmişdir.O, öz poeziyasını həyata, insanın arzu və əməllərinə daha da yaxınlaşdırmışdır(2,səh 20).

Nizaminin "Xəmsə"sində külli miqdarda atalar sözlərindən, zərbi-məsəllərdən, aforizmlərdən istifadə etmiş və bununla da öz əsərinin bədii dəyərini daha da artırmışdır. Onun xalq yaradıcılığından, folklordan aldığı ifadələr əsasən Azərbaycan xalqı ilə bağlı olmuşdur.

Dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvi Azərbaycanın iqtisadi fikrinin inkişafında da önəmli yer tutur. Nizami Gəncəvi öz dövrünün ictimai-iqtisadi münasibətlərinə, ziddiyyətlərinə də biganə qalmamış, öz əsərlərində iqtisadi baxışlarını əks etdirmişdir. Humanizm və demokratizm dahi mütəfəkkirin iqtisadi ideyalarının əsasını təşkil etmişdir(5,səh 145). Nizami Gəncəvi cəmiyyətin ictimai-iqtisadi quruluşu, əmək, əmək bölgüsü, sərvət və onun mənbələri, bölgü, istehlak, mübadilə, ticarət, qiymət, pul və s. məsələlər üzrə qiymətli fikirlər irəli sürmüşdür.

Nizami Gəncəvinin əmək və sərvət haqqında yaratdığı təlimə görə, əmək maddi və mənəvi sərvətləri artıran əsas mənbədir. Nizami əsərlərində əməyin ancaq insana xas olan bir fəaliyyət olduğunu göstərir. İnsanın başqa canlılardan fərqini və üstünlüyünü də onun əmək fəaliyyətində, çalışmağında görürdü. O, əməyin yüksək nəticələr verməsi üçün hər şeydən əvvəl onun azad əmək olması, hər kəsin öz qabiliyyətinə görə işlə təmin olunması ideyalarını irəli sürmüşdür(6,səh70). Əmək və əməkçi surətləri demək olar ki, onun bütün əsərlərinin başlıca qayəsini təşkil edir. Nizami tənbəlləri, ikiüzlüləri tənqid etmiş, halal zəhmətlə yaşayan sadə adamlara öz yüksək məhəbbətini bildirmişdir. Nizamiyə görə, sənətə, sənətkara, əkinçi əməyinə

qayğı göstərilməsə, hər kəsin öz peşəsinə görə işləmək imkanı yaradılmasa, sərvət azalar, vergilər ödənilməz, xəzinə də boş qalar.

Gəncəvi yaşadığı cəmiyyətin ictimai ziddiyyətlərini dərindən qavramış, mövcud quruluşdakı ədalətsizliklərlə razılaşmamış, cəmiyyətdəki sosial ədalətsizliyin aradan qaldırılması və cəmiyyətin yenidən qurulması üçün yollar axtarmışdır. Cəmiyyətin ədalət və təbii qanunlar əsasında qurulması və idarə edilməsi kimi həyati məsələlər onun əsərlərində əsas yer tutur.Gəncəvinin iqtisadi fikir və ideyaları iqtisadi fikir tariximizi zənginləşdirən qiymətli töhfədir(7,səh29).

Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. Onun qəhrəmanları ədalət, xalqın xoşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparırdılar. İnsan şəxsiyyətinə, insan əməyinə ehtiram şairin yaradıcılığının aparıcı mövzularındandır. Nizami Gəncəvi həm də vətənpərvər şair idi. O, təsvir etdiyi bütün hadisələri Azərbaycanla əlaqələndirməyə, Vətəninin keçmiş günlərini tərənnüm etməyə çalışmışdır. Nizami Gəncəvi yaradıcılığında vətən məhəbbəti doğma xalq yolunda qəhrəmanlıq ideyası ilə birləşir(internet resursları). Dahi şairin əsərlərində qadın haqlarının təbliği də xüsusi yer tutur. Böyük filosofun yaradıcılıq meyarlarının əsasını da qadın obrazları təşkil edir. Nizami daim qadın azadlığını təbliğ etmişdir. Onun qadın qəhrəmanları fəal həyat mövqeyi seçən, kişilərlə bərabər səviyyədə dayanan, hətta, bəzi məqamlarda öz ər və qardaşlarından daha tədbirli və uzaqgörən insanlardır.

Рухангиз Елмар кызы Маммадова
Азербайджанский Архитектурно-Строительный Университет

Резюме

Низами Гянджеви – одна из редких фигур в истории не только литературы и искусства, но и человеческой цивилизации в целом. Признание и уважение к его работе не знает национальных, расовых, религиозных или географических границ. Для этого великого поэта нет временных рамок, и сегодня всемирно известные произведения, написанные им, являются лишь эпизодом его постоянства.

Творчество Низами, известное во всем мире как «Гянджальский гений», стало событием мирового масштаба. В наследии азербайджанского поэта нашли свой совершенный синтез не только восточные литературно-культурные ценности, но и западные литературно-культурные ценности. Творчество Низами можно рассматривать как новый этап классического периода в полном смысле этого слова. Творчество Низами, его армия слов обладает такой божественной силой, что никакая армия мира не может победить ее.

Правы те, кто называет Низами Гянджеви «азербайджанским поэтом». Его 1500 лет исламской культуры в равной степени верны тем, кто называет

его мировым поэтом. Но правильнее было бы назвать этого гянджинского гения поэтом вселенной.

Есть ряд элементов, обеспечивающих бессмертие искусства Низами. Одним из таких элементов является то, что мыслитель в своем творчестве блестяще продвигал гуманистические идеи своего времени и будущего, а также идеи социальной справедливости. Таким образом, поощрение и защита прав человека, свобода личности, независимость воли личности воплощаются в части правосудия.

Бессмертные произведения могучего мастера слова, открывшие новую яркую страницу в летописи художественной мысли человечества, и по сей день служат несравненной службе духовному и нравственному совершенствованию людей.

Ключевые слова: Хамса, газель, стих, рубай, синтез, лирика, диван, поэзия, поэтическая мысль, основание, эпизод.

Ruhangiz Yelmar Mammadova
Azerbaijan Architecture and Construction University

Summary

Nizami Ganjavi is one of the few figures in history, not only in literature and art, but also in human civilization as a whole. Recognition and respect for his work does not know national, racial, religious or geographical borders. There are no time frames for this great poet, and today there are world-famous works written by him, only episodes of his permanence.

Nizami's work, known throughout the world as the "Ganja genius", has become an event of world scale. In the legacy of the Azerbaijani poet we have found our perfect synthesis not only of eastern literary and cultural values, but also of Western literary and cultural values. Nizami's work can be considered as a new stage of the classical period in the full sense of the word. The creativity of Nizami, his army of words has such a divine power that no army of the world can defeat him.

The truth is that Nizami Ganjavi calls him an "Azerbaijani poet." His 1500 years of Islamic culture at the level of faith are those who call him a world poet. But it would be more correct to call this genius of the genius poet of the universe.

There are a number of elements that ensure the immortality of Nizami's art. One of these elements is that the thinker in his work brilliantly promoted humanistic ideas of his time and the future, as well as the idea of social justice. Thus, the protection and protection of human rights, the freedom of the individual, the independence of the will of the individual are embodied in parts of the judiciary.

Immortal works of the mighty master of words, which opened a new bright page in the annals of artistic thought of man, and on this day serve an incomparable service to the spiritual and moral perfection.

Keywords: Khamsa, ghazal, qasida, rubai, synthesis, lyric, divan, poetry, poetic thought, foundation, episode

Ədəbiyyat:

1. Həbibbəyli İsa. Böyük Azərbaycan şairi Nizami Gəncəvi. Bakı, "Elm", 2021
2. Kərimli Teymur. Nizami Gəncəvi və tarix. Bakı, "Elm", 2021, 240 s.
3. Vəlixanlı Nailə . Nizami Gəncəvi və Azərbaycan Atabəyləri dövləti (kataloq). Bakı, 2021
4.Ələkbərov Məmməd. Nizami Gəncəvi və Azərbaycan xalq yaradıcılığı. Gəncə, "Elm", 2021
5. Abayeva T. Nizami Gəncəvinin ədəbi irsində şəxsiyyət problemi. Bakı: 2000
6. Kərimli T. Nizami və tarix. Bakı: Elm, 2002
7. Rzasoy S. Nizami poeziyası: Mif-tarix konteksti. Bakı: Ağrıdağ, 2003
8. İnternet resursları

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: A.N.Hacıyev Azərbaycan Memarlıq və İnşaat Universitetinin dosenti tərəfindən çapa tövsiyə olunmuşdur

RƏSULZADƏ XƏYALƏ RƏSUL QIZI
Azərbaycan Memarlıq və İnşaat Universiteti,Ayna Sultanova,5
rasulzadex82@mail.ru

NİZAMİ GƏNCƏVİNİN "SİRLƏR XƏZİNƏSİ" ƏSƏRİNƏ QISA BAXIŞ

XÜLASƏ

"Sirlər Xəzinəsi" Nizami Gəncəvinin ilk iri həcmli əsəridir. Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunəsi olan bu əsər şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi idi. Əsər miladi təqvimilə 1174-1175-ci illərə uyğun gəlir. "Sirlər Xəzinəsi" zahirən Nizamiyə qədər Yaxın və Orta Şərq ədəbiyyatında geniş yayılan didaktik əsərlər silsiləsinə daxildir. Mövzuca, məqsədcə müəyyən dərəcədə "Kəlilə və Dimnə", "Qutadqu bilik", "Hədiqətül-həqiqə", "Siyasətnamə", "Qabusnamə", "Cəhar məqalə" və sair kimi əsərlərə yaxın olan "Sirlər Xəzinəsi" həm də onlardan fərqlənir. Nizami sanki özünəqədərki didaktik ədəbiyyatı yekunlaşdırıb ona daha yüksək humanist və demokratik istiqamət vermişdir.

"Sirlər Xəzinəsi"nin müəyyən fəsilləri söz, cəmiyyətdə onun rolu, şer və onun nəsrdən yüksəkliyi, dövrün feodal saraylarında yaradılan şeir, ümumiyyətlə ictimai-əxlaqi fikirlər, aşılamaqda şerin böyük təsir qüvvəsinə malik olması kimi problemlərə həsr edilir. Nizami sözü ilahi vəhylə bağlayıb qeyd edir ki, ilk yaranan varlıq söz olmuşdur. Fikir sözlə ifadə olunduğu üçün həyatda baş verən bütün yeniliklərin səbəbi yalnız sözdür. Nizaminin xəmsəsində külli miqdarda atalar sözlərindən, zərbi-məsəllərdən, aforizm və idiomatik ifadələrdən istifadə etmiş və öz əsərinin bədii dəyərini artırmışdır. Həm də onun xalq yaradıcılığından, folklordan aldığı ifadələr, əsasən Azərbaycan xalqı ilə bağlı olmuşdur. Elə buna görə də, Azərbaycan xalqının adət və ənənələrini, dil və ifadə xüsusiyyətlərini bilmədən "Sirlər xəzinəsi"ndə aforizm və zərbi-məsəllərlə ifadə edilmiş dərin mənanı tamamilə qavramaq qeyri-mümkündür.

Açar sözlər: didaktik, poema, janr, müraciət, humanist, demokratik, epik, lirik,orijinal, mövzu

"Sirlər Xəzinəsi" Nizami Gəncəvinin ilk iri həcmli əsəridir. Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunəsi olan bu əsər şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi idi. Əsər miladi təqvimilə 1174-1175-ci illərə uyğun gəlir. "Sirlər Xəzinəsi" zahirən Nizamiyə qədər Yaxın və Orta Şərq ədəbiyyatında geniş yayılan didaktik əsərlər silsiləsinə daxildir. Mövzuca, məqsədcə müəyyən dərəcədə "Kəlilə və Dimnə", "Qutadqu bilik", "Hədiqətül-həqiqə", "Siyasətnamə", "Qabusnamə", "Cəhar məqalə" və sair kimi əsərlərə yaxın

olan "Sirlər Xəzinəsi" həm də onlardan fərqlənir(1, səh67). Nizami sanki özünəqədərki didaktik ədəbiyyatı yekunlaşdırıb ona daha yüksək humanist və demokratik istiqamət vermişdir.

"Sirlər Xəzinəsi"nin müəyyən fəsilləri söz, cəmiyyətdə onun rolu, şer və onun nəsrdən yüksəkliyi, dövrün feodal saraylarında yaradılan şeir, ümumiyyətlə ictimai-əxlaqi fikirlər, aşılamaqda şerin böyük təsir qüvvəsinə malik olması kimi problemlərə həsr edilir. Nizami sözü ilahi vəhylə bağlayıb qeyd edir ki, ilk yaranan varlıq söz olmuşdur(3,səh 96). Fikir sözlə ifadə olunduğu üçün həyatda baş verən bütün yeniliklərin səbəbi yalnız sözdür. Elm, bilik söz vasitəsiylə ifadə edilir, sözün gördüyü işləri nə qızıl xərcləmək, nə də qılıncla, zor işlətməklə əldə etmək olmaz. Söz vasitəsiylə isə ölkələr almaq olar:

"O söz qələbə əldə etmək üçün bayraqdan daha əsadır,
Və ölkələr almaq üçün qılıncdan daha artıqdır."

Nizami xüsusən bədii sözü, nəzmi sözün ən qiymətli və təsirli hissəsi hesab edib, “Nəzm və qafiyəsiz sözlər sərraflar yanında qiymət almışsa, qafiyəli sözlər daha qiymətlidir” – deyir. Lakin Nizaminin fikrincə, hər cür şer qüvvətli və təsirli şer yalnız böyük zəhmət bahasına başa gəlir(2,səh 75). Hər qafiyəli söz yaradana şair demək olmaz. “Şairlik sənəti çox incə və qüdrətli sənətlərdən biri olmuşdur.” “İlham vaxtı şairlər söz vasitəsi ilə xəzinələr açarlar, şer yaradarkən onu dərindən fikirləşməli, hər sözün məftunu olmamalı, əgər belə olrsa şer də dəyərli olar.” Nizami göstərir ki, şer yaradarkən sözləri seçmək, bir söz yaratmaq üçün yeddi göyü gəzib axtarmaq lazımdır.

"Bir gövhər əldə etsən, döşünü irəli vermə,
Sinəndə ondan daha yaxşısını axtar."

Nizami özünün ədalətli insan cəmiyyəti haqqında arzularında dövrün şah və hökmdarlarına böyük əhəmiyyət verirdi. Şairə görə, şah xalqın dərdinə şərik olan, xalqı üçün çalışan, zülmü məhv edən olmalıdır. Özü əziyyət çəksə belə, şah, rəiyyətin əziyyətinə razı olmamalıdır. Nizami şah və hökmdarın vəzifələrini müəyyənləşdirərkən qeyd edir:

"Günəş süvarilərinin kölgəsini təqib et,
Öz əziyyətini və dostlarının rahatlığını istə.
Dərmanverənlik, dərdalanlıq et
Ki, səni fərmanverənliyə çatdırsınlar.
Məhəbbətlə qızın, gündən uzaqlaş
Ay və günəş kimi cavanmərd ol. "

Lakin Nizami görür ki, onun arzuladığı sifətlər zəmanəsinin şah və hakimlərində yoxdur.

"Bu dövrdə ədalət göyə uçub
Simurq quşunun qanadında vətən düzəltmişdir.
Bu mavi çardaqda şərt qalmamışdır,
Bu asılı torpaqda su qalmamışdır."

Nizami özünün ədalətli quruluş haqqındakı fikirlərinin ilk bədii ifadəsi olan "Sirlər Xəzinəsi"ndə hələ şah və hakimlərə nəsihət etmək yolu ilə onların islah ediləcəyini güman edirdi. Buna görə də, tarixdən və əfsanələrdən aldığı şahları özünün idealı kimi verib, müasiri olan şahlara təsir etmək istəyirdi. Nizaminin tarixdən alıb ideallaşdırdığı şah obrazlarından biri, adı ədalətli şah kimi xalq arasında yayılmış Nuşirəvandır. "Sirlər Xəzinəsi"ndə təsvir edilən Nuşirəvan hakimiyyətinin ilk dövründə zülmkar bir şahdır. O, çox zülm etdiyi üçün ölkəsi dağılıb, rəiyyəti zülm və əziyyətlə yaşayır. Lakin hökmranlığının sonrakı mərhələsində oxucu bu zülmkar şahın dəyişikliyinin şahidi olur. Şah, quşların dili ilə deyilmiş bir neçə kəlimə sözdən ibrət alıb, ədalətli bir hökmdara çevrilir.

Şair göstərir ki, şah və zülmkar hakimlər onun nəsihətlərinə qulaq asmayıb öz zülmkarlıqlarını davam etdirsələr, bu heç də onlar üçün yaxşı nəticə verməz. Xalqın hümməti şahlar və zülmkarlar üçün qorxuludur. Bir neçə adamın birlikdə hümməti şah və hakimi yerindəb oynada bilər. Şah şərab və başqa vasitələrlə sərməst olarsa, onda onun vəzirləri və saray adamları bundan istifadə edib, xalqın başına olmazın oyunar aça bilərlər, xalq isə günahı şahda görər. Ölkənin və şahın müdafiəsi zəifləyər. Düşmənlər bu ölkənin üzərinə baş qaldırar. Şair bu fikirlərini təsdiq etmək üçün "Sultan Səncər və qarı" hekayəsini yaradır. Sultan Səncər Səlcuqlular sülaləsindən olan, Nizamidən bir neçə il əvvəl vəfat etmiş, eyş-işrətə başı aludə olduğundanölkənin idarəsini öz yaxın adamlarına tapşırmış zülmkar şahdır. Ona vergi verən bir tayfaya ədalətsizlik edib, onlardan alınan vergini artırdığı üçün həmin tayfa tərəfindən əsir edilir, bunun nəticəsində şahlıq əlindən çıxır, əsirlikdən qaçdıqdan sonra isə ölkəsinin qarət və talan edildiyini görərək, çox yaşaya bilməyib ölür. Nizami bu tarixi hadisələrdən istifadə edib, Sultan Səncəri öz müasirlərinə nümunə kimi təqdim edir(4,səh 90).

" Ey torpaqdan saxta şəkildə düzəldilmiş, nə qədər qürurlanırsan?
Ey iki-üç batmanlıq sümük, nə qədər mənəm-mənəm deyəcəksən?"

Nizami Gəncəvi "Sirlər Xəzinəsi"ni yazarkən özünə qədər şərq ədəbiyyatında sabitləşmiş bir sıra ənənələri təkmilləşdirərək orijinal mövqedən çıxış etmişdir. Həmin cəhət birinci dəfə hind alimi Ə. A. Əhmədin diqqətini cəlb etmişdir. O, qeyd edir: "Xacə Nizami Gəncəvi qədim üslubu dəyişərək məsnəvi deməkdə yeni bir tərz ixtira edib, sözü bəzəmiş və birinci olaraq o, bu nazik, çətin yolla getməklə namünasib sözün sir-zibilini, xoşagəlməz, daş-kəsəkli və bəyənilməz qafiyələri bu yoldan təmizləyərək, şer mülkünü nizama salmışdır."

Ümumiyyətlə XX əsrdə "Sirlər Xəzinəsi"nin tədqiqi məsələsində ilk ciddi addımları İran alimləri atmış, əsər haqqında bir sıra yeni mülahizələrin meydana çıxmasına və yeni problemlərin irəli sürülməsinə səbəb olmuşlar. V. Dəstgirdi Nizaminin bütün əsərlərinin tənqidi mətninin hazırlanmaqla qalmayıb, "Sirlər Xəzinəsi"nin tədqiqi sahəsində də əhəmiyyətli mülahizələr irəli sürmüşdür. O, özünün "Gəncineyi-Gəncəvi" adlı əsərində "Sirlər xəzinəsi" haqqında bir sıra əhəmiyyətli məsələlər qoymuşdur. Onun tədqiqatının ən qiymətli cəhəti "Sirlər

Xəzinəsi”ndə işlənmiş, lakin, lüğətlərdə az təsadüf edilən sözlərin izahına geniş yer verməsi, şairin bəzən çətin anlaşılan təşbeh və bənzətmələrini, beyt və misralarını təhlil və izah etməsidir. Vəhid bir sıra tədqiqatçıların mübahisəsinə səbəb olmuş “Sirlər Xəzinəsi”nin yazılması tarixi üzərində dayanıb, əsərin 1174-cü ildə başlandığı və 1176-cı ildə tamamlandığı fikrini irəli sürmüşdür.

XX əsrdə “Sirlər Xəzinəsi” Türkiyə tədqiqatçılarının da diqqətini cəlb etmiş və Nizami haqqında danışarkən “Sirlər Xəzinəsi”ndən də söhbət açmışlar. M. F. Köprülü özünün “Türk ədəbiyyatı tarixi”ndə Nizami məsnəvilərinin Şərq ədəbiyyatında bir dönüş olduğunu qeyd edir, məsnəvi janrının Nizami tərəfindən ən mükəmməl formaya salınması fikrini irəli sürür və bu sahədə Nizaminin böyük novator olduğunu qeyd edir.

XX əsrdə Avropa və ABŞ-da “Sirlər Xəzinəsi” haqqında nisbətən geniş bəhs edən alimlər içərisində italyan alimi A. Poqliaro, ingilis-amerikan alimləri A. Y. Arberi və M. Y. Makdonaldın tədqiqatları diqqət çəkir. A. Poqliaro qeyd edir ki, “özünə qədərki bütün məsnəvilərdən fərqlənən “Sirlər Xəzinəsi” tamamilə yeni üslubda yazılmışdır." (5, səh 84)M. V. Makdonald isə “Nizaminin dini və sosial görüşləri” məqaləsində bir tərəfdən əsəri dini poema adlandırıb, Nizaminin “Sirlər Xəzinəsi”ni yazarkən dinin təsiri altında olduğunu qeyd edir, digər tərəfdən isə şairin dindən öz fikirlərini təbliğ etməkdə bir vasitə kimi istifadə etdiyini və cəmiyyətdə mütərəqqi dəyişikliklər tərəfdarı olduğunu söyləyir.

Nizaminin xəmsəsində külli miqdarda atalar sözlərindən, zərbi-məsəllərdən, aforizm və idiomatik ifadələrdən istifadə etmiş və öz əsərinin bədii dəyərini artırmışdır. Həm də onun xalq yaradıcılığından, folklordan aldığı ifadələr, əsasən Azərbaycan xalqı ilə bağlı olmuşdur. Elə buna görə də, Azərbaycan xalqının adət və ənənələrini, dil və ifadə xüsusiyyətlərini bilmədən “Sirlər xəzinəsi”ndə aforizm və zərbi-məsəllərlə ifadə edilmiş dərin mənanı tamamilə qavramaq qeyri-mümkündür.

Y. E. Bertels “Sirlər Xəzinəsi”nin bədii dilindən danışarkən göstərir ki, şair bu əsərində bədii sözün bütün həqiqi və məcazi mənalarından istifadə edir. Buna görə də, “Sirlər Xəzinəsi”ni dərindən başa düşmək üçün hərtərəfli, universal biliyə malik olmaq lazımdır. Y. E. Bertels “Sirlər Xəzinəsi”nin bir sıra beytlərinin Qərb və Şərq tədqiqatçıları tərəfndən doğru şərh edilmədiyini göstərmiş, dərin mənalı aforizmlərlə ifadə edilmiş beytləri açıb təhlil etmişdi. Bununla birlikdə Y. E. Bertels “Sirlər Xəzinəsi”ndə çətin anlaşılan təşbih və tərkiblərin işlədildiyini, şairin əsərin dilini bilərəkdən çətinləşdirdiyini qeyd edir. “Sirlər Xəzinəsi” xalq yaradıcılığından gələn çoxmənalı ifadələrlə, idiomlarla, frazeoloji birləşmələrlə zəngin olduğu üçün onun dərin mənasını başa düşmək doğrudan da bəzi çətinliklər törədir. Y. E. Bertelsin poemanın dili haqqındakı mülahizələri onu bu nəticəyə gətirir ki, “Sirlər Xəzinəsi” sadə xalq kütlələri üçün deyil, yüksək savadlı zadəgan təbəqə üçün yazılmışdır(internet resursları).

Расулзаде Хаяла Расул кызы
Азербайджанский Архитектурно-Строительный Университет

РЕЗЮМЕ

«Сокровище тайн» - первая масштабная работа Низами Гянджеви. Это произведение, являющееся наиболее ценным образцом жанра дидактического стихотворения в литературе Ближнего и Среднего Востока, было первым опытом пера в области эпической поэзии в творчестве поэта. Работа соответствует 1174–1175 годам нашей эры. «Сокровище тайн», по-видимому, является частью серии дидактических произведений, которые были широко распространены в литературе Ближнего и Среднего Востока до Низами. «Сокровище тайн», что несколько близко по тематике и назначению таких произведений, как «Калила и Димна», «Кутадгу билик», «Хадикатул-правда», «Политика», «Габуснаме», «Джахарская статья» и другие, также отличается от них. Как будто Низами дополнил свою предыдущую дидактическую литературу и придал ей более гуманистическую и демократическую направленность.

Стихотворение состоит из введения, статей по различным вопросам и рассказов, отражающих эти статьи на досках эпоса. Стихотворение завершается кратким обсуждением завершения книги. Вначале поэт говорит о Боге и Пророке под заголовками единобожия, молитвы и хвалы и восхваляет их в рамках исламского учения. Поэт, действуя в соответствии с требованиями времени, затрагивает очень серьезные социальные проблемы, хотя и такими традиционными религиозными выражениями.

Он использовал большое количество пословиц, притч, афоризмов и идиоматических выражений в поэме Низами, что повысило художественную ценность его произведения. Также и выражения, полученные им из народного творчества и фольклора, в основном относились к азербайджанскому народу. Вот почему невозможно до конца постичь глубокий смысл, выраженный в афоризмах и пословицах в «Сокровищнице тайн», не зная обычаев и традиций, языка и самовыражения азербайджанского народа.

Ключевые слова: дидактика, стихотворение, жанр, обращение, гуманист, демократизм, эпос, лирика, оригинал, тема.

Rasulzadeh Khayala Rasul
Azerbaijan Architecture and Construction University

SUMMARY

"Treasure of Secrets" is the first large-scale work of Nizami Ganjavi. This work, which is the most valuable example of the didactic poem genre in the literature of the Near and Middle East, was the first pen experience in the field of epic poetry in the poet's work. The work corresponds to 1174-1175 AD. The "Treasure of Mysteries" is apparently one of a series of didactic works widely spread in the

literature of the Near and Middle East before Nizami. The "Treasure of Mysteries", which is somewhat close to the subject and purpose of such works as "Kalila and Dimna", "Qutadgu bilik", "Hadiqatul-truth", "Politics", "Gabusname", "Jahar article" and others, also differs from them. It is as if Nizami completed his previous didactic literature and gave it a higher humanistic and democratic direction.

The poem consists of an introduction, articles on various issues, and short stories that reflect these articles on epic boards. The poem concludes with a short discussion about the completion of the book. In the beginning, the poet talks about God and the Prophet under the headings of monotheism, prayer, and praise, and praises them within the framework of Islamic teachings. The poet, acting in accordance with the requirements of the time, touches on very serious social proble He used a large number of proverbs, parables, aphorisms and idiomatic expressions in Nizami's poem and increased the artistic value of his work.

Also, the expressions he received from folk art and folklore were mainly related to the Azerbaijani people. That is why it is impossible to fully comprehend the deep meaning expressed in aphorisms and proverbs in the "Treasure of Mysteries" without knowing the customs and traditions, language and expression of the Azerbaijani people.ms, albeit with such traditional religious expressions.

Keywords: didactic, poem, genre, appeal, humanist, democratic, epic, lyric, original, topic

Ədəbiyyat

1. Nizami Gəncəvi - Sirlər Xəzinəsi, Önsöz, Bakı, 2004
2. X. Hüseynov – Nizaminin “Sirlər Xəzinəsi”, Bakı, 1983
3. H. Araslı – Sirlər Xəzinəsi (müəddimə), Nizami, Sirlər Xəzinəsi, Bakı, 1947
4. Е. Э. Бертельс – «Сокровищница тайн» (передисловие), Низами Гянджеви, Сокрови Сокровищница тайнщница тайн, Москва, 1959
5. X. Hüseynov - Nizaminin “Sirlər Xəzinəsi”, Bakı, 1983
6. İnternet resursları.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: Ramizə Xanəhməd qızı Rəcəbova,
Azərbaycan Memarlıq və İnşaat Universitetinin dosenti
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏLİYEVA LEYLA ASTAN QIZI
Azərbaycan Dillər Universiteti
info@adu.edu.az
rleyla83@gmail.com

FİLİP ROT YARADICILIĞINDA YƏHUDİ KİMLİYİ PROBLEMİ

Xülasə

İkinci Dünya müharibəsindən sonra Amerika ədəbiyyatı yeni istiqamətdə inkişaf etməyə başlamışdır. Amerika ədəbiyyatının zənginləşməsində yəhudi əsilli amerikan yazıçıların təsiri danılmazdır. Bu yazıçılar əsərlərində milli kimlik məsələsini qabartmış, fərdin özgələşmə problemini vurğulamışlar.

Yəhudi əsilli amerikalı yazıçılar Sol Bellou, İsaak Başevis Zinger, Bernard Malamud yaradıcılığı ilə yüksəliş yaşayan yəhudi-amerikan ədəbiyyatı nailiyyətlərini Filip Rot yaradıcılığı ilə davam etdirmişdir.

XX əsr yəhudi-amerikan ədəbiyyatının önəmli simalarından sayılan Filip Rot əsərlərində identiklik məsələlərini araşdıraraq mədəni parçalanma problemini ortaya qoyur. Filip Rot 1950-ci illərin ortalarından Amerikada yaşayan yəhudilərin həyatından bəhs edən hekayələri ilə ədəbi fəaliyyətə başlamışdır. 1969-cu ildə "Portnoyun şikayəti" adlı romanının nəşr olunması Filip Rotun şöhrətinin artmasına səbəb olmuşdur. Əsərlərində avtobioqrafik elementlərə yer verən müəllif özünütəyinetmə probleminə istehza ilə yanaşır. Onun yaratdığı obrazlar Amerika ənənələrinə assimilyasiya olmaq üçün yəhudi dəyərlərindən qaçırlar. Yəhudi identikliyinin şüurlu, yaxud şüursuz şəkildə dərk olunmasından imtina qəhrəmanların mənliyinin bütövləşməsinə mane olur. Yazıçının yaratdığı "özünə nifrət edən yəhudi" anlayışı həm yəhudi ənənələri ilə əhatələnən, həm də yəhudiliyə aid hər bir şeydən uzaqlaşan obrazları xarakterizə edir.

Açar sözlər: Filip Rot, yəhudi-amerikan ədəbiyyatı, yəhudi kimliyi, antisemitizm, "Əlvida, Kolumb", "Portnoyun şikayəti"

Yəhudi-amerikan ədəbiyyatı Amerika tarixində mühüm hadisələrdən sayılır. XVII əsrdən etibarən Amerikaya gələn immiqrantların yazıya aldıqları xatirələri əsasında Amerikada yəhudi ədəbiyyatı formalaşmağa başlayır. İstər din, istər mədəniyyət baxımından ikrah hissi ilə yanaşılan yəhudilər dilemma qarşısında qalaraq hibrid kimliklərini dərk etməyə çalışırlar. Yeni mühitdə yeni kimliklərini yaratmağa çalışan immiqrantlar eyni zamanda Amerika cəmiyyətinə assimilyasiya olmağa can atırlar.

İkinci Dünya müharibəsindən sonra yəhudi-amerikan ədəbiyyatında yüksəliş baş verir ki, Sol Bellou, Bernard Malamud, İsaak Başevis Zinger və başqaları bu ədəbiyyatın görkəmli nümayəndələri sırasında yer alırlar. Onların əsərlərində etnik

problemlər, yəhudi kimliyinə mənsub insanların yad mühitə uyğunlaşması öz əksini tapmışdır. Sol Bellou və Bernard Malamud ənənələrini davam etdirən Filip Rot da yəhudi-amerikan ədəbiyyatının inkişafına öz töhfələrini verən yazıçılardan olmuşdur.

Yaratdığı yəhudi obrazlar ilə amerikan yəhudilərinin həyatını ironik şəkildə təsvir edən Filip Rot yaradıcılığının ilk dönəmində öz nəsil-kökünə nifrət edən yəhudi kimi qiymətləndirilmişdir. Nyu-Cersi ştatında yəhudi ailəsində böyüyüb boya-başa çatan yazıçının ilk əsərlərini amerikalı tənqidçi İrvinq Hou yüksək qiymətləndirsə də sonralar onun *"yəhudilərə qarşı təcavüzkar kimi"* [2, s. 129] çıxış etdiyi fikrini irəli sürmüşdür. Yazıçının özü kimi canlandırdığı obrazlar da yəhudi kimliyindən uzaqlaşmış, amerikan kimliyini qəbul etmişdir.

F.Rotun yəhudi-amerikan kimliyi diqqət mərkəzində olmuşdur ki, o, yəhudi yazıçı kimi tanınmaqdan narahat olduğunu dilə gətirərək *"yəhudilər haqqında yazan amerikalı yazıçı"* [2, s. 127] olaraq özünü təqdim etmişdir. Müəllifin özünü amerikan yazıçısı kimi tanıtması yəqin ki, şüur altında Amerikaya uyğunlaşmaq istəyindən xəbər verir.

Filip Rot amerikan yazıçısı olduğunu iddia etsə də demək olar ki, bütün yaradıcılığı boyu yəhudi obrazlar yaratmışdır. Müəllif dilemma qarşısında qalan obrazların köməyilə qara yumorun prinsiplərindən istifadə edir. *"F.Rot bizə gülmək, yoxsa ağlamaq lazım olduğunun fərqinə varmayaraq yaşadığımız cizgi film dünyasında qara yumorun peyda olduğunu bildirir"* [4, s. 1]. Şəxsiyyət problemi yaşayan üsyankar xarakterlərin meydana çıxmasında yazarın şəxsi təcrübəsinin təsiri güclüdür.

Yazıçının yaradıcılığında avtobioqrafik elementlərə rast gəlinir ki, əsərlərində hadisələrin Nyu Cersi, Nyuarkda cərəyan etməsi, yaratdığı qəhrəmanların həyatlarının özününkü ilə üst-üstə düşməsi buna misal ola bilər.

F.Rotun Milli kitab mükafatına layiq görülən və uğur qazanan ilk əsəri "Əlvida, Kolumb" ("Goodbye, Columbus", 1959) olmuşdur. Əsərdə Amerikadakı yəhudi sistemi satirik şəkildə təsvir edilir. Ümumiyyətlə, bu əsəri ilə yazıçı yaradıcılığının özəlliklərini, Amerikada yəhudi olmaq məsələsini açıb göstərir.

Təhkiyəçi – Nyuarkda yaşayan Nil Klaqmen özü kimi yəhudi-amerikan kimliyinə mənsub Brenda Patimkin ilə sevgi macərası yaşayır. Onların hər ikisinin eyni irqdən olmasına baxmayaraq, aralarındakı uçurum böyükdür. Bu uçurum onların ayrı sosial təbəqələrə aid olması ilə izah oluna bilər. Nilin və Brendanın yaşadığı bölgələrin də (Nyuark və Şort Hils) bir-biri ilə təzad təşkil etməsi onlar arasındakı fərqi göstərir. Bəlkə də Brendanın artıq Amerikaya uyğunlaşması Nilin ona sitayiş etməsinin səbəbidir.

Əsərdə yuxarı və aşağı təbəqələrin həyat tərzini göstərməklə yazıçı yəhudilərin şüurundakı ziddiyyətləri açmağa çalışır. "Lənətlənmiş" mənasını verən Nilin soyadı da ümumiləşmiş şəkildə yəhudilərin kəşf etdiyi yeni dünyada çəkdiyi əzab-əziyyətləri simvolizə edir.

Əsərin adı Brendanın qardaşı Ronun Ohayoda oxuduğu vaxtlardakı hadisələri nəqlinin sonunda söylədiyi "Əlvida, Kolumb" mahnısı ilə səsləşir. Bu ifadə tələbəlik həyatı ilə vidalaşan gənclərin gerçək dünyaya qədəm qoymalarını xarakterizə edir. Bununla yanaşı, ad Xristofor Kolumba istinad edir. Nil Klaqmen Xristofor Kolumb kimi yeni dünyanın kəşfinə çıxır.

Amerikan xülyasına qapılan personaj Şort Hilsdəki anlarını işlədiyi kitabxanada afro-amerikan uşağın daim Qogenin "Taiti" əsərinə heyranlıqla baxması ilə əlaqələndirir. Şort Hilsdə utopik həyatın olduğuna inanan qəhrəmanın *"No sense carrying dreams of Tahiti in your head if you can't afford the fare"* [3, s. 103] – *"Gediş haqqını ödəyə bilmirsənsə, Taiti xəyallarına qapılmağın mənası yoxdur"* deyərək zənci oğlana müraciət etməsi, əslində, öz arzusunu həyata keçirməkdə çəkdiyi çətinliyi təcəssüm etdirir.

O, yuxusunda zənci uşaqla birgə okeandan uzaqlaşan gəmidə olduğunu canlandırır. *"...the Negresses moved slowly down to the shore and began to throw leis at us and say "Goodbye, Columbus… goodbye, Columbus… goodbye…" and though we did not want to go, the little boy and I, the boat was moving and there was nothing we could do about it..."* [3, s. 68] – *"Zəncilər yavaşca sahilə doğru irəliləyərək bizə gül atmağa başladılar və "Əlvida, Kolumb... Əlvida, Kolumb... Əlvida..." söylədilər. Biz getmək istəməsək də, gəmi hərəkət edirdi və bizim əlimizdən gələn bir şey yox idi."*

Nil röyasında X.Kolumb kimi çıxış edir ki, onun kəşf edərək tərk etməyə məcbur olduğu yer Brendanın dünyasıdır. O, Patimkin ailəsinin cazibədar dünyasına daxil olmaq istəsə də sonda bu fikrindən daşınır. Nil Brendanın sahib olduğu dünyada öz yeni kimliyinin axtarışına cəhd etsə belə nəticə etibarilə əsl kimliyindən qaça bilmir.

Nilin Brendadan ayrılıb Nyuarka gəlib çatması yeni ilin ilk gününə təsadüf edir. Yeni həyatın başlanğıcı yəhudi identikliyinə geri dönüşü simvolizə edir. Bununla da Nil yəhudi irsini mənimsədiyini nümayiş etdirir.

Əsərin maraq doğuran digər bir hissəsi fiziki əlamətlər vasitəsilə yəhudiliyin təsvirinin verilməsidir. Brenda ilə münasibətə başlayan Nil öz burnunun formasından utanır. Burun əsərdə yəhudilərin səciyyəvi əlamətlərindən sayılır ki, yuxarı təbəqədən olanlar mütləq burunlarını əməliyyat etməlidir. Patimkin ailəsi də bu dəbə riayət edir. Onlar burunun formasının yəhudilikdən işarə verdiyini və dərhal bu problemin ortadan qalxmalı olduğunu düşünürlər. Onlar gerçək amerikalı olmaq üçün yəhudiliyə məxsus bütün izlər itirilməlidirlər.

Beləliklə, F.Rot əsərdə müxtəlif təbəqələrdən olan yəhudi ailələrinin özəlliklərini xarakterizə edir. Aşağı təbəqədən olan Nil Klaqmen kökünə bağlı yəhudi kimi xarakterizə olunursa, cəmiyyətə daha çox assimilyasiya olan yuxarı təbəqəyə məxsus yəhudilər isə öz mədəniyyətlərinə istehza ilə yanaşırlar.

Filip Rotun tənqidçilərindən biri kimi Debra Şostak yazıçının yəhudi kimliyindən qurtulmaq iqtidarında olmadığını vurğulayır. Əsərlərində yəhudilərə

qarşı olan yanaşmasından çıxış edərək onu antisemitizm ideyalarının tərəfdaşı kimi qələmə verənlər də olmuşdur.

Antisemitizm yəhudilərə qarşı yönəlmiş, onları nifrət ediləsi millət kimi göstərən ayrı-seçkiliyin formalarından biridir. Tarixi qədimlərə gedib çıxan antisemitizmin səbəbi kimi milli azlıq olaraq yaşayan yəhudilərin ictimai-iqtisadi sahədə müvəffəqiyyət qazanması göstərilir. Hitlerin hakimiyyəti dövründə antisemitizm ən yüksək səviyyəsinə çatmışdır ki, İkinci Dünya müharibəsində yəhudilərin məhv edilməsi buna sübut ola bilər.

Filip Rotun 1969-cu ildə qələmə aldığı "Portnoyun şikayəti" ("Portnoy's Complaint") adlı romanında antisemitizm ideyalarını görmək mümkündür. Müəllif baş qəhrəman Aleksandr Portnoyun timsalında Amerikada yaşayan yəhudilərin həyatından bəhs edərək yəhudi-amerikan kimliyini sorğuya çəkir. *"F.Rot təxəyyülünün dərinliklərinə enən və amerikan yəhudi mühitini yenidən yaratmaq üçün keçmiş xatirələri gündəmə gətirən arxeoloqa bənzəyir"* [6].

Romanda ilk olaraq, Portnoyun atasının obrazı ilə yəhudilərə olan münasibəti sezmək olur. Ata təhsilsiz, aşağı statusa malik gücsüz biridir. İnsanların ona gülməsi, onu dinləməməsi məhz yəhudi kimliyinə sahib olmasından irəli gəlir. Portnoy atasını intellektual cəhətdən geri qalan, öz adət-ənənələrinə ilişib qalmış biri kimi təsvir edir. Bəzən o, oxuduğu kitablarda məntiqi bir şey gördükdə atasının da həmin məqamları oxuyub dərk etməsini xəyal edir.

Kiçik yaşlarında pəncərədən yağan qara baxaraq qəfildən anasından qışa inanıb-inanmadığını soruşan Portnoy yəhudi inanclarına kinayə ilə yanaşır. Günahkarlıq hissi, qorxu, dəhşətə gətirən duyğular qəhrəmanı uşaqlığından bəri izləyir. O, valideynlərinin həyata qarşı qorxu içində yanaşmalarının, həyatdan zövq ala bilməmələrinin səbəbini yəhudi olmaları, yəhudi inanclarına hədsiz bağlılığı ilə izah edir. Həmçinin yəhudi olduğu üçün öz həyatını doya-doya yaşaya bilməməsindən şikayət edir. Uzun illər boyu yəhudilərə qarşı edilmiş zorakılıqların, təhqirlərin ona miras qalmasından hiddətlənən təhkiyəçi ailəsinin isterik və zəif xüsusiyyətlərini önə çəkməklə yəhudi xalqının çəkdiyi iztirabların, əslində, acizlik olduğu fikrindən çıxış edir.

Xristianların İsa Məsihi müqəddəs hesab edərək Tanrı səviyyəsinə qaldırmalarından bəhs olunan hissədə onun yəhudi kimliyi xüsusi diqqət çəkir. Məhz yəhudi kimliyinə sahib olan İsa Məsihin Tanrıya bərabər tutulmasına baxmayaraq, yəhudilərə qarşı mənfi münasibət, onlara qarşı törədilən zülmlər canlandırılır. Bununla F.Rot ironik şəkildə bir "yəhudi"yə edilən sitayişin təsvirini verir.

Antisemitizmə görə Nyu-Cersidən köçdüklərini qeyd edən qəhrəman nasistlərin yaxınlıqda yaşadığını, atasının daim onlara qarğış etdiyinin, nasistlərin yəhudilərin qapısına svastika çəkdiklərinin şahidi olmuşdur. Antisemistlərin məktəbdən evə qayıdan bacısının təqibindən valideynləri narahatlıq duymağa başlayanda Haymi əminin dili ilə Filip Rot yəhudilərin yalnız yəhudilər arasında yaşaya biləcəyini ironik şəkildə vurğulayır.

Eyni zamanda Portnoyun yəhudilərin yeni il bayramı sayılan "Roş-Ha-Şana" barədə atası ilə etdiyi mübahisə F.Rotun düşüncələrini ifadə etməyə yardımçı olur. "Roş-Ha-Şana" günü yəhudilər sinaqoqa üz tutur, yeni ilin uğurlu keçməsi üçün ibadət edirlər. Bayramın onun üçün heç bir məna ifadə etmədiyini söyləyən Portnoy bu ənənələrə əməl etməkdən boyun qaçırır. Tanrıya, həmçinin yəhudilərin dininə inanmamasının səbəbini atası yəhudi xalqının tarixindən, onların çəkdiyi iztirablardan xəbərsiz olmasında görür. Amma Portnoy inadından dönmək istəmir. Atasını cahil adlandıraraq yəhudi kimliyi ilə barışmayan Portnoy ona sanki sillə vurur.

"If it's bad it's the goyim, if it's good it's the Jews! Can't you see, my dear parents...that such thinking is a trifle barbaric?" [7, s. 48] – *"Pisdirsə, yəhudilərdən deyil, yaxşıdırsa, yəhudidir. Əziz valideynlərim, bunun barbar bir düşüncə olduğunu başa düşmürsünüzmü?"* Portnoy ailəsindən gördüyü yəhudi olanlar və yəhudi olmayanlar arasındakı ayrı-seçkiliyə qarşı çıxaraq yəhudi zehnini tənqid edir. Yəhudilərin çəkdiyi əzab-əziyyətləri eşitməkdən təngə gələn təhkiyəçi artıq dözmür: *"Jew Jew Jew Jew Jew Jew! It is coming out of my ears already, the saga of the suffering Jews!... I happen also to be a human being!"* [7, s. 48-49] – *"Yəhudi Yəhudi Yəhudi Yəhudi Yəhudi Yəhudi! Hər tərəfimi əzab çəkən yəhudilərin dastanı əhatələyib! Mən eyni zamanda bir insanam!"*

Əgər Portnoy Amerikada doğulmuş olmasaydı, yəhudi olduğunu inkar etməsinə baxmayaraq, digər yəhudilər kimi ya güllələnmiş, ya tikə-tikə doğranmış, yaxud da diri-diri basdırılmış olacaqdı. Bacısının Portnoya çıxışlarına rəğmən yəhudi olduğunu xatırlatması yazarın özü kimi əbəs yerə nəfəsini tükətməsi ilə səsləşir.

Əsərin maraq doğuran hissələrindən birini Portnoyun ailəsinin yeməklər barəsində olan fərqli düşüncələri təşkil edir. Portnoyun ailəsinin mətbəxi mədəni sərhədləri əks etdirir, məhz yəhudi ailəsi olaraq hazırladıqları yeməklər mədəni dəyərləri təmsil edir. Bu sərhəddi aşmaq qəbuledilməzdir. Yəhudilərə görə qida qəbulu insanın özünü idarəsinin açarıdır. Yəhudilərə məxsus olmayan yeməklər protaqonistin ailəsinin zənnincə, bütün yəhudi kimliyinə sahib olanlar üçün təhdiddir. Filip Rot ananın acı şəkildə bir yəhudinin Hitlerin adını çəkəcəyi tərzdə hamburger söyləməsini Holokosta bənzədir.

Romanın "Sürgündə" adlanan fəslində Portnoyun İsrailə səyahəti öz kimliyinin fərqinə varmasına təkan verir. Bir tərəfdən o, yəhudi xalqının meydana gəldiyi İsrail torpaqlarına baxır, digər tərəfdən Nyuarkda keçirdiyi xatirələri gözündə canlandırır. Təhkiyəçi sanki əvvəldən planlamış şəkildə ölkəni gəzməyə başlayır. Bir çox yerə baş çəkib yəhudi xalqına məxsus təbiət ilə, tarixi və sənət abidələri ilə tanış olduqdan sonra gördüklərini anladığının fərqinə varır. Tərəddüd içində olan qəhrəman yəhudi genetikasına bağlı olsa da özünü amerikalı hiss edir. Portnoy *"I am in a Jewish country. In this country, everybody is Jewish"* [7, s. 162] – *"Mən yəhudi ölkəsindəyəm. Bu ölkədə hər kəs yəhudidir"* söyləyərkən sanki ona tamamilə yad mühitdə olduğunu vurğulayır.

İsraildə yəhudilər arasında özünü möcüzələr diyarında hesab edən Portnoy əvvəlcə bundan zövq alır. Lakin sonradan "onlar" kimi biri olmaq fikri onu dəhşətə gətirir, yəhudilərin arasında özəlliyini itirəcəyindən qorxuya düşür, dərhal "normal" vəziyyətinə qayıtmaq istəyir. Bu baxımdan bir qrup yəhudinin ona yaxınlaşaraq saatı soruşan zaman qəhrəmanın keçirdiyi hisslər maraq doğurur. Belə ki, Portnoy yəhudilərin onu incidəcəyindən qorxuya düşür: *"I look at my watch and realize that they are not going to permit me to pass. They are going to assault me! But how can that be? If they are Jewish and I am Jewish, what motive can there be for them to do me any harm?... I quicken my pace and continue rapidly to the hotel, unable to understand why they should have wished to frighten me so, when we are all Jews."* [7, s. 163] – *"Saatıma baxıram və keçməyimə icazə verməyəcəklərini düşünürəm. Üstümə cummağa hazırlaşırlar! Bu necə ola bilər? Onlar yəhudidir, mən də yəhudiyəm, bəs mənə xətər yetirmək üçün nə kimi səbəbləri ola bilər?... Hamımız yəhudi olduğumuz halda niyə məni qorxutmaq istədiklərini başa düşmədən addımımı sürətləndirərək mehmanxanaya doğru irəlilədim".*

Portnoyun qorxusunun səbəbi yəhudilərin içində yəhudi olduğunu qəbul etməməsidir. Amerikada olarkən yəhudi olduğu üçün həmişə fərqləndirilən xarakter İsraildə olan zaman "hər kəs" kimi olmaq istəmir, fərqlilik statusunu geri qazanmaq istəyir.

Portnoyun amerikalı kimi davranması yerli israillilər tərəfindən qəbul olunmur. Bu səbəbdən onun buraya aid olmaması fikri daha da qüvvətlənir. *"Temptation and disgrace! Corruption and self-mockery!.. Whining, hysteria, compromise, confusion, disease!.. I am soiled, oh, I am impure-and also pretty fucking tired, my dear, of never being quite good enough for The Chosen People!"* [7, s. 170] – *"Tamah və utanc! Soysuzlaşma və özünü ələ salma!.. Mızıldanma, isteriya, kompromis, çaşqınlıq, xəstəlik!.. Mən kirli və murdaram, seçilmiş insanlar üçün heç zaman yetərincə yaxşı olmamaqdan çox təngə gəlmişəm!"* fikirləri ilə çıxış edərək yəhudilərə qarşı olan məyusluğunu nümayiş etdirir. Onu da qeyd etmək lazımdır ki, "seçilmiş insanlar" deyərkən təhkiyəçi artıq bütün yəhudiləri deyil, yalnız İsraildə yaşayan yəhudiləri nəzərdə tutur.

Portnoy yəhudi köklərinə dayanaraq bir toplumun üzvü olmaq fikrini qətiyyətlə rədd edir. Deməli, o, İsraildə eynilə Amerikada olduğu kimi "tək"dir. Hətta Amerikadakı durumunu İsraildə olduğu durumdan üstün tutur.

Hər fürsətdə yəhudi dini ayinlərinin uyğunsuzluğunu qabartmasına baxmayaraq, qəhrəman qarşı çıxdığı adət-ənənələrə dərindən bələd olduğunu göstərməyə çalışır. *"Portnoy yəhudi tərbiyəsi ilə böyüməkdə heç bir müsbət cəhət görə bilmir və yəhudi irsi haqqında məlumatlı olmağın yük olduğunu iddia edir"* [1, s. 495].

İsrailə gələn "amerikalı" protaqonist özünü "sürgün"də hiss edir. Bunu romanın adı çəkilən hissəsinin simvolik xarakter daşıdığı fikrindən çıxış edərək Portnoyun öz yəhudi kimliyindən qaçmaq, amerikan olduğunu təsdiqləmək cəhdləri

fonunda təhlil etmək mümkündür. Lakin qeyd etmək lazımdır ki, uzaqlaşmaq istədiyi bu kimliyin onun şüurunun alt qatlarında özünəməxsus yeri vardır və bu da həmişə ona bütünlüklə amerikalı kimi hiss etməyə mane olur.

Amerikan kimliyinə assimilyasiya olmağa çalışan qəhrəmanlar əcdadlarının sitayiş etdiyi din olmadan Amerika mühitində yəhudilikdən tamamilə kənarda yaşayır, yəhudi identikliyini inkar edirlər. Amma yəhudi mənşəyi bu qəhrəmanları addımbaşı izləyir.

Filip Rotun demək olar ki, bütün yaradıcılığında yəhudilərin ikili kimliyi, protaqonistin dini və etnik köklərini önəmsəməməsi ön planda verilir. Onun qəhrəmanları mövcud normalardan uzaqlaşmaq üçün kəskin mübarizə aparır. Lakin onların mədəni sərhədləri dağıdaraq sərbəst olmaq cəhdi uğursuzluqla nəticələnir.

Ədəbiyyat siyahısı:

1. Nilsen, H. N. Rebellion against Jewishness: Portnoy's Complaint // English Studies, – 1984, 65.6, – pp. 495-503.
2. Parrish, T. The Cambridge Companion to Philip Roth. Roth and Ethnic Identity. // – Cambridge: Cambridge University Press, – 2007. – pp. 127-141.
3. Roth, Ph. Goodbye, Columbus / Ph. Roth. – Houghton Mifflin Company, – 1989. – 235 p.
4. Safer, E. B. The Double, Comic Irony, and Postmodernism in Philip Roth's 'Operation Shylock.' (Ethnic Humor) // Oxford University Press, – 1996. – Vol. 21, № 4, – pp. 157-172.
5. Shostak, D. Philip Roth – Countertexts, Counterlives / D. Shostak. – Columbia, South Carolina: University of South Carolina Press, – 2004. – 332 p.
6. Rudin, A. J. Philip Roth and his Jewish people: [Electronic resource] / Religion News Service – October 11, 2016. URL: https://jewishweek.timesofisrael.com/philip-roth-and-his-jewish-people/
7. Roth, Ph. Portnoy's Complaint: [Electronic resource] / URL: http://public.gettysburg.edu/~franpe02/files/Readings%20for%20Jewish%20Humor/Portnoy's%20Complaint%20(Roth%20Philip).pdf

АЛИЕВА Л. А.

РЕЗЮМЕ

ПРОБЛЕМА ЕВРЕЙСКОЙ ИДЕНТИЧНОСТИ В ТВОРЧЕСТВЕ ФИЛИППА РОТА

После окончания Второй мировой войны американская литература начала развиваться в новом направлении. Неоспоримо влияние американских писателей еврейского происхождения, на обогащение американской литературы. Писатели поднимали вопрос национального самосознания, подчеркивая в своих произведениях проблему индивидуального отчуждения.

Еврейско-американская литература, процветающая благодаря произведениям американских писателей еврейского происхождения, Сола Беллоу, Исаака Башевиса Зингера, Бернарда Маламуда, продолжила достижения произведениями Филипа Рота.

Филип Рот, является одной из самых важных фигур в еврейско-американской литературе двадцатого века, исследуя концепцию идентичности в своих трудах, и поднимает проблему культурной фрагментации. Литературная карьера Филипа Рота началась в середине 1950-х годов с рассказов о жизни евреев в Америке. Публикация романа «Жалоба Портного» в 1969 году принесла настоящую популярность Филипу Роту. Автор, используя в своих произведениях автобиографические элементы, высмеивает проблему самоопределения. Его персонажи стараются избежать еврейские ценности для лучшей ассимиляции с американскими традициями. Сознательный или бессознательный отказ принять еврейскую идентичность, препятствует интеграции идентичностей главных героев. Созданная автором концепция «самоненавистный еврей», характеризует героев, окруженных еврейскими традициями и далеких от всего, что связано с иудаизмом.

Ключевые слова: Филип Рот, Еврейско-американская литература, еврейская идентичность, антисемитизм, «Прощай, Колумб», «Жалоба Портного»

ALIYEVA L. A.

SUMMARY

THE PROBLEM OF JEWISH IDENTITY IN PHILIP ROTH'S CREATIVITY

After World War II American literature began to develop in a new direction. The influence of American writers of Jewish origin on the enrichment of American literature is undeniable. These writers raised the issue of national identity, emphasized the problem of individual alienation in their works.

Jewish-American literature, flourishing with the works of American writers of Jewish origin Saul Bellow, Isaac Bashevis Singer, Bernard Malamud, has continued the achievements with Philip Roth's works.

Philip Roth, one of the most important figures in XX century Jewish-American literature, explores the issue of identity in his writings and raises the issue of cultural fragmentation. Philip Roth began his literary career in the mid-1950s with stories about the lives of Jews in America. The publication of the novel "Portnoy's Complaint" in 1969 increased Philip Roth's popularity. The author who includes autobiographical elements in his works, mocks the problem of self-determination. His characters escape Jewish values in order to be assimilated into American traditions. The conscious or unconscious refusal to understand Jewish identity hinders the integration of the identities of the protagonists. The notion of "self-hating

Jew" created by the author characterizes heroes that are both surrounded by Jewish traditions and far removed from everything related to Judaism.

Key words: Philip Roth, Jewish-American literature, Jewish identity, anti-Semitism, "Goodbye, Columbus", "Portnoy's Complaint"

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya elmləri doktoru, professor
Aynur Zakir qızı Sabitova
tərəfindən çapa tövsiyə olunmuşdur

:

İSMAYILOVA ƏZİZƏ
AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu
Email: a.ismailova78@mail.ru

CÜRCİ ZEYDAN YARADICILIĞINDA XƏLİFƏ VƏ VƏZİR SƏXAVƏTİ

Xülasə

İslam mədəniyyətinin formalaşmasına, zənginləşməsi və yayılmasına xidmət edən bir sıra amillər mövcud olmuşdur. Şeir, əruz və musiqi islamın zəngin mədəniyyət xidmətlərinin içərisində öncül yerlərdən birini tutmuşdu. Bu mənada belə incəsənət nümunələrinin inkişafında xəlifə, vəzir, vali, yüksək rütbəli varlı qoşun sərkərdələri kimi bir çox nüfuzlu şəxsiyyətlərin əliaçıqlığının, səxavətliliyinin rolu olmuşdur. Xüsusilə, xəlifə və vəzirlərin əliaçıqlıq, səxavətlilik kimi müsbət xüsusiyyətləri islam mədəniyyətinin formalaşmasına, yayılmasına, əhali tərəfindən maraqla qarşılanmasına səbəb olmuşdur. Bunların sırasında Abbasi xəlifələri və Bərməki vəzirləri xüsusi yer tuturdu. Onlar topladığı sərvətləri ilə hakimiyyətdə olduqları dövrün elm və incəsənət adamlarının da yaşayışlarını təmin etmişlər. Maddi cəhətdən təmin edilmiş sənət adamları, xüsusilə, şairlər həvəslə yazıb-yaratmışlar və nəticədə islam mədəniyyətinin zənginləşərək inkişaf etməsinə əhəmiyyətli təsir göstərəcək töhfələr vermişlər.

Xəlifə və vəzir səxavəti tədqiqat əsərlərində, folklor nümunələrində və tanınmış ədiblərin bədii əsərlərində geniş şəkildə öz əksini tapmışdır. Tanınmış ərəb yazıçılarından olan, ərəb ədəbiyyatında tarixi roman janrının əsasını qoyan Cürci Zeydan (1861-1914) öz tarixi romanlarında və "İslam mədəniyyəti tarixi" adlı beşcildlik əsərində xəlifə və vəzir səxavətini vəsf etmişdir. Səxavət və kəramət Cürci Zeydanın nəzərincə ümumi mədəniyyətin, xüsusilə, müsəlman cəmiyyətində mədəniyyətin başlıca simvoludur və elmin, ədəbiyyatın, musiqinin inkişafında müstəsna rolu olan başlıca bir amildir.

Məqalə Cürci Zeydan yaradıcılığında xəlifə və vəzirlərin səxavətliliyinə həsr olunmuş, onların əliaçıqlılıq, səxavətlilik kimi yüksək xarakterik xüsusiyyətlərinin ərəb mədəniyyətinin çiçəklənməsində yeri və rolu müəyyənləşdirilmişdir.

Açar sözlər: *ədib,əsər, xəlifə, vəzir, səxavətlilik, islam, mədəniyyət.*

Tanınmış ərəb yazıçısı və tarixçisi dövrünün ən populyar jurnalisti, dərin ensiklopedik biliyə malik olan Cürci Zeydan (1861-1914) yaşadığı əlli dörd illik həyatında çox zəngin bir yaradıcılıq yolu keçmişdir. Bu əlli dörd illik həyatının cəmi iyirmi iki ilini yaradıcılığa həsr edən Cürci Zeydan (10) biri digərindən daha zəngin olan əsərlər silsiləsi yaratmışdır. O, gecə-gündüz mütəmadi çalışmaqla ərsəyə çatdırdığı bu əsərləri gələcək nəsillərə bir ərməğan kimi qoyub getmişdir. Qısa olaraq bu əvəzsiz əməyin bir neçə nümunəsini sadalamaqla elə guman etmək olar ki, Cürci

Zeydanın bu ölçüyə gəlməz əməyinin elmi dəyərini sərgiləmək olar. Bunlar ədibin iyirmi iki ilə yazdığı tarixi romanları, dörd cildlik "Tarixu ədəbi-l-arabiyyi" ("Ərəb ədəbiyyatı tarixi"), iki cildlik "Tərixu Nəcd" ("Nəcdin tarixi"), iki cildlik ərəb dilçiliyinə dair əsəri, beş cildlik "Tarixu təmədduni-l-islami" ("İslam mədəniyyəti tarixi") və 1892-ci ildən hər ayda bir nömrəsi çapdan çıxan "əl-Hilal" ("Aypara") jurnalıdır. Onu da qeyd edək ki, Cürci Zeydanın adını çəkdiyimiz əsərləri vaxtı ilə bu jurnalın səhifələrində çap olunmuşdur. Bu jurnala gəldikdə isə o, istər Şərqdə, istərsə də Qərbdə çox yaxşı tanınan bir jurnaldır. O, artıq 130 ildən çoxdur ki, dünya ərəbşünaslarının maraq dairəsində adını əbədiləşdirmiş bir jurnaldır.

Cürci Zeydana görə, tarix bəzi tarixçilərin düşündükləri və yazdıqları kimi müharibələrdən, döyüş səhnələrindən, bir dəstənin, qrupun dar mənada, geniş mənada isə xalqların, orduların bir-birinə etdikləri hücumlardan ibarət deyildir. O eyni zamanda xalqların, millətlərin adət-ənənəsini, dünyagörüşünü, mədəniyyətini özündə ehtiva edən bir elmdir (8,12). Bunlarsız tarixi bitgin, dolğun bir elm sahəsi kimi şərh etmək, onun haqqında konkret fikir söyləmək Cürci Zeydanın qənaətinə görə mükəmməl ola bilməz.

Bu baxımdan görkəmli ədib, tarixçi alim, istedadlı jurnalist islam tarixinin mədəni həyatda oynadığı rolu çox təqdir edir və mədəniyyəti, onun qayda-qanunlarını bəşər cəmiyyətinin formalaşmasında başlıca amil kimi səciyyələndirərək yazır ki, ümumi tarixi mədəniyyətdən kənarda təsəvvür etmək mümkün deyildir. Ona görə də ərəb mühitində Cahiliyyətdən sonra formalaşan yeni ideologiyanı ərəb cəmiyyətinin yeni bir idarə sistemi və yeni bir tərbiyə forması hesab edir və bu səbəbdən islamiyyətin məişətdə əqidə, inam vəhdətində mühüm rola malik olduğunu xüsusi vurğulayır. Curci Zeydanın beş cildlik "İslam mədəniyyəti tarixi" əsərini qayə, məqsəd və məzmununa görə tarixin fövqündə duran ümumi bir istiqamətverici mayak rolunda dəyərləndirmək olar. Bu baxımdan Cürci Zeydan yeni idarə sisteminin tərkibində formalaşan mərhəmətlilik məktəbinin yaranmasını mədəniyyətin inkişafında müstəsna rola malik bir amil kimi çox bəyənir və onu səxavət, kəramət simvolu kimi dəyərləndirir. Səxavət və kəramət Cürci Zeydanın nəzərincə ümumi mədəniyyətin, xüsusilə, müsəlman cəmiyyətində mədəniyyətin başlıca simvoludur və elmin, ədəbiyyatın, musiqinin inkişafında müstəsna rolu olan başlıca bir amildir. İslamın nəşətindən sonra müsəlmanlarda imkansız insanlara əl tutmaq, imkanlı müsəlmanların öz imkanı müqabilində ehtiyacı olanlara yardım etməsi müsəlman mədəniyyətinin ümumi sferasına daxil olan vacib amillərdən hesab olunmağa başladı. Məsələn, belə bir faktı qeyd etmək lazımdır ki, müsəlman cəmiyyətində ilkin olaraq səxavət, kəramət, əliaçıqlıq Mədinə müsəlmanlarının Məkkə müşrikləri ilə olan müharibələrindən sonra özünü biruzə verməyə başladı. Belə ki, Bədr, Ühüd, Xəndək kimi döyüşlərdə həlak olan islam mücahidlərinin yerdə qalan əhli-əyalı imkansızlaşdı, dolanmaq üçün əvvəlcə peygəmbər həzrətlərinə, sonra isə Raşidi xəlifələrinə müraciət etməli oldu. Belə olan halda ümumi islam şurası ərləri döyüşlərdə qətlə yetirilmiş dul qadınlara, yetim qalmış uşaqlara yardım etmək

barədə qərar qəbul etdi və müharibələr zamanı əldə olunmuş qənimətlərdən onlara da pay ayrıldı. Ayrı-ayrı fərdlər isə yenə də imkanı daxilində bu insanlara müəyyən sədəqələr verməyə başladılar.

Bu gün Azərbaycanda geniş yayılmış belə bir ifadə vardır: "Əl tutmaq Əlidən qalıb!" Bu zərbməsəl xəlifə Əlinin başqaları ilə müqayisədə daha çox səxavətli olmasına görə məşhurlaşmışdır.

İslam xilafəti yarandıqdan sonra bu sədəqə verməyin, təltif etməyin mahiyyəti dəyişdi. Əməvilərin (661-750) və Abbasilərin (750-1258) dövründə bu ənam, mükafat xüsusən şairlərə, müğənnilərə verildi. Abbasilər dövründə bu təltiflər, bəxşiş vermələr özünün pik həddinə çatdı. Burada isə Abbasi xəlifələri ilə Bərməki vəzirləri az qala yarışa çıxdılar.

Cürci Zeydanın "İslam mədəniyyəti tarixi"nin beşinci cildində bu barədə çox maraqlı məlumatlar vardır. Məsələn, o yazır ki, ilk Bərməki vəziri Xalid kor şair Bəşşar bin Burdun hər beytinə min dirhəm verirmiş (4, 230). Onun oğlu Yəhya ata minib qoşunla harasa gedəndə ondan sədəqə istəyənlərin hər birinə 200 dirhəm verər, üstündə pul olmayanda isə mindiyi atı ona bağışlarmış (12).

Abbasilər zamanında Bərməkilər, xüsusən də Fadl bin Yəhya şairlərə hədiyyə və maaş verməkdə xəsislik etməzmiş. Hətta şairlərdən biri aşağıdakı beytlə - Fəzlin comərdliyi bütün xalqı şair etmişdir - fikrini iddia edir:

ما لقينا من جود فضل بن يحيى ترك الناس كلهم شعراء

Fədl bin Yəhyanın səxavətliliyi
Bütün insanların hamısını şairliyə sövq etdi (9, 146).

Burada bir haşiyə çıxaraq qeyd etməliyik ki, əliaçıqlıq ərəb ədəbiyyatı tarixində ilkin olaraq məşhur Hatəm ət-Taiyə isnad edilir. Bu şəxs o qədər də varlı olmasa da özünün kəraməti ilə böyük ad-sana nail olmuşdur. Əbul Fərəc əl-İsfahaninin "Nəğmələr kitabı"nda Hatəm ət-Tai haqqında hekayədə də onun və anası Utbənin hədsiz dərəcədə səxavətli olmalarının şahidi oluruq: " Hatimin anası Afifin qızı Utbə oğlu Hatəm ət-Tai kimi çox səxavətli idi" (5, 137).

Hatəm ət-Taidən sonra isə Abbasilər dövründə bu nüfuzlu ada, rütbəyə dövrün bir sıra vəzifə sahibləri nail olmuşlar. Onların sırasında isə tanınmış bəzi ərəb xəlifələri, 50 il islam xilafətində baş vəzir kimi çalışan Bərməkilər, bir sıra qoşun komandanları, sərkərdələr və s. kimi imkanlı şəxslər necə deyərlər özlərinin qızıl torbalarının ağzını açaraq xəsislik etmədən imkansız adamlara əl tutmuşlar. Bu barədə çox nümunələr, misallar çəkmək olar.

Amma Cürci Zeydan əliaçıq xəlifə və vəzirlərdən danışarkən, bu sahədə birinci yeri Bərməki vəzirlərinə verir. Bunların sırasında isə Bəlxdən olan Xalid Bərməki, oğlu Yəhya Bərməki, onun oğlu Cəfər Bərməki, Yəhya Bərməkinin digər oğulları Musa, Fədl və s. adları çəkilir.

Cürci Zeydanın tarixi romanlarında Bərməkilərin ünvanına çox sözlər yazılmışdır. Məsələn, bu mənada onun "Əmin va Məmun" ("Əmin və Məmun") (6), "Abbasə uxt ər-Rəşid" ("Rəşidin bacısı Abbasə") (7), "Ərus Fərqanə" ("Fərqanə gəlini") (3) kimi romanlarında Bərməkilərin xilafətin idarəçiliyində, ölkədə islam mədəniyyətinin çiçəklənməsində, xarici təhlükələrin, hücümların qarşısının alınmasında Yəhyanın, onun oğlanları Cəfər və Fədlin, hərbçi Musanın, ümumiyyətlə Bərməki nəsillərinin müstəsna xidmətlərinin olduğu birmənalı şəkildə xatırladılır. Bunlar digər ərəb tarixçilərinin əsərlərində də qeyd olunur. Cürci Zeydanın "Abbasə uxt ər-Rəşid" ("Rəşidin bacısı Abbasə") romanında Abbasilərin islam mədəniyyətinin çiçəklənməsindəki müstəsna xidmətlərindən xüsusi bəhs edilir, Bərməkilərin xilafətin tarixində oynadıqları rol, onların Abbasilər dövlətindəki xidmətləri isə belə səciyyələndirilir: "Bərməkilər xilafətə sülh və əminamanlıq gətirmişlər. Onlar idarə sisteminin dəqiq təməlini qoymuş, şəhərdə ictimai təhlükəsizliyi tam təmin etmişlər. Onların gərgin əməyi və təşəbbüsləri ilə kitabxanalar, məktəblər, xəstəxanalar tikilmiş, xilafətdə ilk dəfə kağız istehsalının təməli qoyulmuşdur. Onlar elmi, fəlsəfəni, ədəbiyyatı, tibbi yüksək inkişaf mərhələsinə çatdıraraq, ona əbədi yüksəliş təkanı vermişdilər" (7, 139-140).

Cürci Zeydan adı çəkilən romanında islam mədəniyyətini yaşadan digər səxavətli insanlar sırasında xəlifələrin, sərkərdələrin, valilərin və başqa vəzifə sahiblərinin adlarını da çəkir və onların dolayısı ilə də olsa mədəniyyətin inkişafındakı xidmətlərini xüsusi dəyərləndirir. Burada isə birinci yerdə xəlifələr gəlir. Cürci Zeydanın apardığı araşdırmalara görə, xilafət tarixində müəyyən qəddarlıqlarla yanaşı, özləri hiss etmədən kef-damaq çəkmək naminə olsa belə əliaçıqlıq, səxavət və kəramət, yoxsula, kasıba əl tutmaq kimi xoşniyyətli tədbirlərin mahiyyətində islam mədəniyyətini inkişaf etdirib yaşatmaq məqamı, istəyi dayanırdı. Bu adamların sırasında isə birinci yerdə xəlifələr, sonra isə qoşun başçıları, valilər və s. gəlirdi.

Əliaçıq xəlifələr sırasında isə Əməvi xəlifələrindən bir-iki nəfərlə yanaşı Abbasi xəlifələrindən ən az hakimiyyət taxtına çıxan, qəddar Səffahdan başqa ilk on xəlifə dayanırdı – ilk on xəlifənin sırasında isə 762-ci ildə İraqda, Dəclə çayı sahilində Bağdadın əsasını qoyduran Abbasilərin ikinci xəlifəsi Əbu Cəfər əl-Mənsur (xəlifəlik dövrü 755-775), üçüncü xəlifə Mehdi (775-785), dördüncü xəlifə, cəmi bir il hakimiyyət sükanı arxasında əyləşən Hadi, beşinci yerdə məşhur Harun ər-Rəşid (786-809), onun üç oğlu Məhəmməd Əmin (809-813), Məmun (813-832), Mötəsim (832-842) və başqaları dayanırdı.

Ərəb islam tarixində bu xəlifələrin dövründə bir növ "əl-Asr əz-Zəhəbi"nin ("Qızıl əsr") bünövrəsi qoyulmuşdur. Bu xəlifələrin dövrü islam mədəniyyətinin çiçəklənmə dövrü kimi xarakterizə olunur. Həqiqətən də bu dövrdə adları çəkilən xəlifələr ölkədə fəlsəfi, ilahi, astronomiya elmlərinin, eləcə də dil, ədəbiyyat, dini təlimlərin inkişafına xüsusi önəm vermişdilər. Məsələn, təkcə Harun ər-Rəşidin şairlər arasında keçirdiyi şeirləşmələr, məclislərdə müğənnilərlə apardığı

müsabiqələr onun ərəb mədəniyyətinin inkişafına verdiyi diqqət və qayğıdan xəbər verirdi.

Xəlifə Harun ər-Rəşidin ərəb islam taxtının sükanı arxasında əyləşib xilafətə rəhbərlik etdiyi təqribən 25 illik dövr ərəb islam tarixinin həqiqətən də qızıl dövrü hesab olunur. İstər xilafət taxtına yiyələnməzdən əvvəl bir vali kimi, xilafətin müəyyən ərazilərinə rəhbərlik etdiyi, istərsə də bir xəlifə kimi islam məmləkətinin sükanı arxasında əyləşdiyi dövrdə Harun ər-Rəşid qədər ölkənin hərbi, iqtisadi, elmi, humanitar və s. sahələri ilə yaxından təmasda olan bir xəlifə tapmaq çətindir. Təkcə onu demək lazımdır ki, Harun ər-Rəşid humanitar sahədə də az iş görməmişdir. O, ədəbiyyat yönümlü raviləri ərəblərin keçmişləri ilə bağlı folklor nümunələri toplamağa cəlb etmiş, musiqi mədəniyyətinin inkişafı ilə bağlı 25 cildlik "Nəğmələr" kitabının yaranmasının təşəbbüsçüsü olmuşdur.

Orta əsr ərəb folklor ədəbiyyatının şedevr nümunələri olan "Min bir gecə" hekayətlərinin baş qəhrəmanına çevrilən Harun ər-Rəşid orta əsr ərəb poeziyasının musiqi mədəniyyətinin də əvəzolunmaz baş münsifi və baş dirijoru olmuşdur. Onun Əbu Nuvas (756-813), Əbu-l-Ətahiyə (748-825) və digər şairlərə nədən yazmaq, necə yazmaq barədəki nəsihətləri, musiqi nəhəngləri İbrahim (742-804) və İshaq (767-849) əl-Mosulilərə ərəb musiqisinin, ərəb nəğmə və muğamat janrının dinləyicisinin necə ruhunu oxşaması barədəki nəzəri tövsiyə və göstərişləri ərəb mədəniyyətinin ümumi inkişafına göstərdiyi xidmətlərin əyani parlaq təzahuridir.

Qeyd edək ki, Harun ər-Rəşid və Məmun dövrünün bu məşhur musiqiçiləri haqqında çoxsaylı əhvalatlar "Min bir gecə" nağıllarında yer almışdır. Musiqiçilərlə bağlı hekayətlər təkcə "Min bir gecə" abidələrində deyil, digər orta əsrlər abidələrində, xüsusilə Əbu-l-Fərəc əl-İsfahaninin "Nəğmələr kitabı"nda da geniş yer tutur (2, 106-107).

Harun ər-Rəşidin ərəb dilçiliyinin də inkişafına göstərdiyi diqqət və qayğı çoxlarının dərk edə bilmədiyi müstəsna bir xidmətin uğuru kimi dəyərləndirilməlidir. Onun ərəb filologiyasının inkişafında əvəzsiz rolu olduğu üçün folklor nümunələrinin əsas obrazı rolunda çıxış etməsi haqqında oxuyuruq: ""Min bir gecə"dəki tarixi əhvalatların ən böyük qismi təbii olaraq Abbasi xəlifələrinə, ilk növbədə, abidənin sevimli personajı Harun ər-Rəşidə (xəl.dövrü: 786-809) və onun yaxın ətrafına, eləcə də ərəb-müsəlman mədəniyyətinin qızıl əsrində yaşamış şair ədib və alimlərə həsr olunmuşdur" (1, 123).

Adı çəkilən xəlifələr içərisində Harun ər-Rəşid qədər ərəb ədəbiyyatını, ərəb folklorunu, ərəb dilçiliyini, ərəb musiqi mədəniyyətini sevən, onun inkişafı ilə maraqlanan elə bir xəlifə tapmaq çətindir ki, onun kimi keçmiş məşhur islam mücahidlərinin hər hansı birisi onun dövründən qabaq kimlərinsə əlində toplanmış və ya cəmlənmiş olsun. Bu mənada deməliyik ki, peyğəmbərin, qədim islam sərkərdələrinin, imam Əlinin məşhur qılıncları, peyğəmbərin müxtəlif adamlarda qalan əşyaları və s. Harun ər-Rəşid tərəfindən toplanaraq əvəzsiz bir töhfə kimi hifz olunub qorunmuşdur. Məsələn, o, hakimiyyət sükanı arxasında əyləşdiyi ilk andan

peyğəmbərin bugün təbərrük kimi saxlanan əşyalarını - onun qılıncları, saçının saqqalının tükləri, şairlərin şeirlərində vəsf olunan və ədəbiyyat tarixində "əl-Burdə" (Əba) kimi tanınan əbası, dişi və s. - müxtəlif insanlardan pulla satın alaraq öz sarayında saxlamışdır.

Cürci Zeydanın yazmasına görə, şairlərə bəxşiş, ənam verilməsi islamın ilk illərindən dəbdə olmuşdur. Təbiidir ki, bunlar əvvəl-əvvəl mədhiyyə və mərsiyyə tipli qəsidələrə verilə bilərdi. İslamın gəlişindən sonra isə bu islam ideologiyasını, təkallahlığı, islamın ayin və vacibatlarının aydın, fəsih bir dil ilə nəzmə çəkilməsinə görə hədiyyə, şirnikləndirmə şəklində ola bilərdi. Əməvilər və Abbasilər dövründə belə şeirlər xəlifələrə və yüksək rütbə sahiblərinin mədhinə yönəldi, onların islam yolunda, ümumi millətin rifahı, xilafətin çiçəklənməsi və s. yolunda yürütdükləri siyasətin təbliğinə yönəldi.

Şairlərin rəsmilər tərəfindən mükafatlandırılması Əməvilər dövrünə təsadüf edir. İlkin olacaq bu missiyanı bir növ xəlifə Vəlid ibn Yəzid öz üzərinə götürübmüş. O, xoşuna gələn hər bir qəsidənin beytlərini sayaraq hər beytə görə şeirin müəllifinə 1000 dirhəm pul verərmiş. Ondan sonra hakimiyyətə gələn Əməvi xəlifələri onun bu ənənəsini davam etdirmişlər (12).

Abbasilər dövründə isə bu qiymət xeyli dərəcədə qaldırılmışdır. Abbasilər onların mədhinə yönəlmiş hər bir qəsidəyə 100.000 dirhəm verirlərmiş. Onların dövründə bu məbləğlə mükafatlandırılan ilk şair Mərvan ibn Əbi Hafsa olmuşdur (4, 236-237).

Xəlifə Harun ər-Rəşidin oğlu Məhəmməd Əminin beyət məclisində şair Səlim Hasır bu barədə bir qəsidə yazır. Bu zaman Əminin anası Zibeydə xatun şairə ağzının içi dolana qədər ləl-cəvahirat verir. Səlim isə bu cəvahirləri 20.000 qızıla satıbmış. Daha sonra Cürci Zeydan qeyd edir ki, xəlifələrin içərisində Əbu Cəfər əl-Mənsur xəsis idi və o, onun şairi hesab olunan Mərvan bn Əbi Hafsı mükafatlandırmaq üçün Haşimilər nəslinin hər bir fərdindən 2 dinar yığıb onu təltif edərmiş. Təbiidir ki, Haşimi nəsli isə bütün Abbasilərdən ibarət idi. Bu minvalla Rəşid Mərvana atası Mehdi kimi yüz min dirhəm, Əbu-l-Ətahiyəyə isə digər təltiflərdən əlavə ildə 50000 dirhəm maaş verirdi. Xəlifə Mütəvəkkil şairi Hüseyn ibn Dəhhaka qəsidəsinin hər beytinə min dinar verirmiş. Mötəsim hansı şairin şeirini bəyənərmişsə, onun ağzını ləl-cəvahirlə doldurarmış (4, 237-238). Xəlifə Mehdi isə müğənni Dəhmana mahnı oxuduqda bir gecəsinə əlli min dinar, xəlifə Əmin İbrahim Mosulinin oğlu İshaq əl-Mosuliyə isə onu şeir və nəğmə ilə mədh etdiyinə görə bir milyon dirhəm pul veribmiş. Bunu isə 100 fərras onun evinə daşıyıbmış. Xəlifə Hadi isə bir illik xəlifəliyi dövründə İbrahim Mosuliyə ayda on min dirhəm verirmiş. Yenə də Harun ər-Rəşid mahnıları onun xoşuna gəldiyi üçün müğənni İsmayıl ibn Salehi Misirə vali təyin etmişdi (4, 239).

Cürci Zeydan bu siyahı ilə göstərir ki, bu təltiflər özü ona dəlalət edir ki, xəlifələrin sənətkarlara belə sərvət vermələri islam mədəniyyətinin təbliğinə və onun

inkişafına müsbət təsir etmiş və bu da ərəb ədəbiyyatı və mədəniyyətini yaşadıb sonrakı nəsillərə ötürməkdə misilsiz rol oynamışdır.

Beləliklə, xəlifə və vəzirlərin səxavəti, sənətkarların əməyini qarşılamaları, onların yaşayışının maddi cəhətdən təmin etmələri, bir sözlə, şairlərə qarşı əliaçıq, səxavətli davranıb sərvət vermələri, onların elm, ədəbiyyat və sənətin inkişafına göstərdiyi misilsiz qayğı və diqqət ümummüsəlman mədəniyyətinin təbliğinə, inkişafına təkan verdi.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Bayramova Lalə. “Min bir gecə” ümumşərq ədəbiyyatının mədəni-tarixi abidəsi kimi”. Bakı, MBM, 2009, 200 s.
2. Səlimova S. Ərəb bədii nəsrində ilkin Abbasilər dövrünün təsviri. Bakı, Araz nəşriyyatı, 2015, 274 s.
3. Zeydan Cürci. Fərqanə gəlini (tarixi roman). Ərəb dilindən tərcümə edəni Vilayət Cəfər. Bakı: Gənclik,1966, 292s.
4. Corci Zeydan. İslam Medeniyeti Tarihi (mütercimi Zeki Megamiz). İstanbul, 1966, beşinci cilt, 341 s.
5. Ал-Исфахани абу-л-Фарадж. Книга песен / Абу-л-Фарадж ал-Исфахани. – Москва: Издательство «Наука» главная редакция восточной литературы, 1980, 670 с.
6. Зейдан Джирджи. Аль-Амин и аль-Мамун. Роман, Л: Худож. лит., 1977, 328с.
7. Зейдан Джирджи. Сестра Харуна Ар-Рашида. Роман. Л: Худож. лит., 1970, 232с.
8. جرجي زيدان, تاريخ التمدن الاسلامي , الجزء الاول, القاهرة,56 19
9. جرجي زيدان, تاريخ التمدن الاسلامي , الجزء الخامس, القاهرة,1958
10. https://www.hindawi.org/books/72973614/
11. https://az.wikipedia.org/wiki/Cürci Zeydan
12. https://archive.org/details/dr_960

Исмаилова Азиза Хикмет
НАНА Институт Востоковедения
Email: a.ismailova78@mail.ru

ТЕМА ЩЕДРОСТИ ХАЛИФОВ И ВИЗИРЕЙ В ТВОРЧЕСТВЕ ДЖИРДЖИ ЗЕЙДАНА

Резюме

Как известно, в период арабского Халифата в формировании, развитии и распространении исламской культуры огромную роль сыграли ряд факторов. Следует заметить, что одно из ведущих мест среди ценностей культур ислама занимали поэзия, Аруз и музыка. Этому способствовали щедрость и великодушие таких влиятельных личностей, как халиф, визирь, наместник, высокопоставленные богатые военачальники и т.п. Подобные положительные качества халифов и визирей оказали огромное содействие в деле формирования и распространения исламской культуры. Среди них своей щедростью особо отличались аббасидские халифы и их визири из известнейшего рода Бармакидов. Благодаря накопленному богатству, они щедро вознаграждали поэтов и ученых, покровительствовали их старания в развитии и распространении науки и искусства. Чувствуя поддержку халифов, поэты и ученые с огромным энтузиазмом создавали свои шедевры, в результате чего исламская культура заняла достойное место в развитии общечеловеческой культуры.

Щедрость халифа и визиря восхваляется в образцах фольклорного творчества, упоминается в исследовательских работах и в художественных произведениях известных писателей. Один из известных арабских писателей, основоположник жанра исторического романа в арабской литературе Джирджи Зейдан (1861-1914) неоднократно упоминает о щедрости халифов и визирей в своих исторических романах и в пятитомной работе «История мусульманской цивилизации». По словам Джирджи Зейдана, в развитии самых разных сфер культуры, особенно в мусульманском обществе, щедрость и благородство являются главным символом, а также ключевым фактором в развитии науки, литературы и музыки.

В предлагаемой статье наряду с описанием щедрости и великодушия халифов и визирей, нашедшие свое отражение в произведениях ученого, определяется место и роль великодушия в период расцвета арабской культуры.

Ключевые слова: *писатель, произведение, халиф, визирь, щедрость, ислам, культура.*

Ismailova Aziza Hikmet
ANAS Institute of Oriental Studies
Email: a.ismailova78@mail.ru

THE GENEROSITY OF CALIPHS AND VIZIERS IN THE WORK OF JURJI ZAYDAN

Summary

During the time of the Arab Caliphate, a number of factors played a huge role in the formation, development and spread of Islamic culture. It should be noted that one of the leading places among the values of Islamic culture took poetry, Aruth and music. The generosity and magnanimity of such influential persons as the caliph, vizier, governor, high-ranking rich military leaders, etc. contributed to the development of these values. Such positive qualities of caliphs and viziers led to the formation and spread of Islamic culture. Among them, the Abbasid caliphs and their viziers from the famous family of Barmakids were especially generous. Thanks to the accumulated wealth, they generously rewarded poets and scientists and patronized their efforts in the development and spread of science and art. Feeling the support of the caliphs, poets and scientists created their masterpieces with great enthusiasm, as a result of which Islamic culture took its rightful place in the development of human culture.

The generosity of the caliph and the vizier was praised in folklore samples, described in research papers and in different forms of literary art by famous writers. One of the famous Arab writers, the founder of the genre of the historical novel in Arabic literature Jurji Zaydan (1861-1914) praised the generosity of the caliphs and the viziers in his historical novels and in the five-volume work "History of Muslim Civilization". According to Jurji Zaydan, in the development of various areas of culture, especially in Muslim society, generosity is the main symbol, as well as a main factor in the development of science, literature and music.

The article describes the generosity of the caliphs and viziers, which is reflected in the works of Jurji Zaydan, and also determines the place and role of magnanimity in the period of flourishing of Arab culture.

Key words: *writer, work, caliph, vizier, generosity, islam, culture.*

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent
Lalə Məzahir qızı Bayramova çapa tövsiyə etmişdir.
tərəfindən çapa tövsiyə olunmuşdur

İMAMOVA SONAXANIM QURBAN QIZI
Azərbaycan Texniki Universiteti
"Humanitar fənnlər"kafedrasının baş müəllimi
H.Cavid pr.25
sonaxanım@com.ru

DÜNYA TÜRK XALQLARININ TƏŞƏKKÜLÜ, MASŞTABI,ƏHALİSİ, DİN VƏ MƏDƏNİYYƏTİ

XÜLASƏ

Türk xalqları

Türk xalqları — Etnolinqvistik qrup; Avrasiya ərazisində yaşayan türkdilli xalqlar. Dünyada türk xalqlarının sayı 280 milyondan çoxdur. "Türk" sözünə ilk dəfə Bizans

mənbələrində və VII əsrin "Orhon-Yenisey" abidələrində rast gəlinir.Qədim Çin

mənbələri türk tayfalarının b.e.ə II minillikdə mövcudluğu haqqında məlumat verir.

Türk xalqlarının dinləri fərqlidir. Böyük bir hissə İslam dininə etiqad edərkən, çuvaşlar və qaqauzlar — Xristian, yakutlar, dolqanlar və xakaslar — Şamanizm, karaimlər və qrımçaklar — İudaizm dininə inanır. Türk xalqlarının hazırda 7 müstəqil dövlətivardır. (Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr). Türk dünyası ölkələrinin hamısı, demək olar ki, çoxmillətlidir. Türklər Asiya qitəsində Əfqanıstanda (əfşarlar,qızılbaşlar və s.), İraqda (türkmənlər), Suriyada (əsasən Türkiyə ilə sərhəddə), Gürcüstan və İranda (Azərbaycan türkləri) yaşayırlar. Avropa qitəsində isə türklər Bolqaristanda (bolqar türkləri),Ruminiyada (qaqauz- qıpçaq), Yunanıstanda, Ukraynada (Krım tatarları), Litvada (karaimlər) və Rusiyada yaşayırlar.

Müstəqil türk dövlətlərindən başqa, Rusiya Federasiyasının tərkibində Tatarıstan,

Başqırdıstan, Çuvaşıstan, Saxa (Yakutiya), Tıva, Xakasiya, Kabarda-Balkariya, Qaraçay-Çərkəz, Altay Respublikaları və Taymır (Dolqan-Nen) milli mahalı, Çin Xalq Respublikasının tərkibində Sintzyan-Uyğur Muxtar Rayonu, Moldovanın tərkibində Qaqauziya Muxtar Respublikası vardır.

Açar sözlər: türk xalqları,din,mədəniyyət,inkişaf,Türkiyə,Azərbaycan

Yeraltı sərvətləri

Geoloji baxımdan türk xalqları Alp qırışıqlığı zonasında (Türkiyə, Azərbaycan, Cənubi Azərbaycan, Türkmənistanın bir hissəsi, Şimali Qafqaz, türk qurumları), Mərkəzi Asiya və Cənubi Sibirin fəal seysmik zonasında (Özbəkistan, Qırğızıstan, Qazaxıstanın bir hissəsi, Xakasiya, Altay, Tıva), Şərqi Asiya mezozoy qırışıqlığı zonasında (Saxa-Yakutiya), Şərqi Avropa (Tatarıstan, Başqırdıstan, Çuvaşiya), Turan (Özbəkistan, Qazaxıstan, Türkmənistan), Sibir və Çin platformalarında yerləşir.

Neft-qaz yataqlarına görə Azərbaycan, Özbəkistan (Fərqanə-qaz), Qazaxıstan (Tengiz və Turqay-neft), Türkmənistan, Özbəkistan (Qazlı və Mübarəkqaz), Tatarıstan (Elxon) və Başqırdıstan seçilir.Türk dünyasının əsas daş kömür yataqları Türkiyədə (Zonquldağ-Ereğli), Özbəkistanda (boz kömür-Anqren və Sarqun), Qazaxıstanda (Qaraqanda, Ekibastuz), Tıvada (Ulufim), Sintzyan-Uyğurda (Bay kömür) və Saxadadır (Lena).Dəmir filizi Türkiyədə, Qazaxıstanda (Kustunay), Saxada, Altayda, Azərbaycanda (Daşkəsən) və Xakasiyadadır.

Mis filizi Qazaxıstanda (Balxaş, Cezqazan), sink Qazaxıstan (Ust Kamenqorsk), Özbəkistanda, Azərbaycanda, xrom yataqları isə Türkiyədədir. Polimetal

filizləri Qazaxıstanda, Azərbaycanda, Özbəkistanda, Türkiyədə, Altayda, qızıl yataqları Özbəkistanda (Muruntau), Qazaxıstanda, Azərbaycanda,Altayda və Saxadadır. Almaz Saxada çıxarılır.

Türk mədəniyyəti 1.

Vəli Osmanlı. "Qədim türk ədəbiyyatı" (VI-X əsrlər). Bakı, "Sabah",əsərində qeyd edirki" Dil ümumiliyi, el sənətləri, tarixi–coğrafi məkan, şifahi xalq ədəbiyyatı *("Kitabi Dədə Qorqud", "Koroğlu dastanı", "Alpamış", "Manas"*), adət-ənənələr, oxşar toponimlər türk xalqlarını birləşdirən ümumi oxşar xüsusiyyətlərdir. Türklərin ana vətəni Mərkəzi Asiya hesab olunur. Tarixən türklər miqrasiya edən xalqlar olmuşlar. VII əsrdən başlayaraq üç istiqamətdə — Şimali-Şərqi Asiya,Ural dağları və Qərb tərəfə köç etmişlər."(**1.s.125)**

TÜRK MASŞTABI

Əhalinin sürətli artımı, heyvandarlıq üçün əlverişli yerlərin axtarılması, varisliklə bağlı hakimiyyətdə olmayanların boş ərazilərdə yeni dövlətlər qurması (Şato, Tavqas və s.), iqlim dəyişiklikləri (Böyük hun köçü), daha güclü dövlətlərin təzyiqi altında köçüb getmə (Çin dövlətinin güclənməsi ilə "Tyuku" (türk) dövlətinin iki yerə parçalanması və köç etməsi), yeni ölkələrin zəbt edilməsi türk xalqlarının geniş ərazilərdə yayılmasına səbəb olmuşdur. XX əsrdə də məcburi miqrasiyalar (krım tatarları, axıska türkləri, azərbaycanlılar) olmuş və son vaxtlar yüksək həyat səviyyəsi axtarmaq məqsədilə Avropaya və Şimali Amerikaya miqrasiyalar da mövcuddur.

Türk dilləri

ELMAN QULİYEV : TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 80 İLLİYİNƏ İTHAF OLUNUR. TÜRKİYƏ, TÜRK ƏDƏBİYYATI (XIX – XX ƏSRLƏR);kitabında yazır:"Türk xalqları Altay dil qrupuna məxsusdular. Dil və mənşə fərqinə görə dörd qola bölünürlər:

1. **Oğuzlar** – Azərbaycan türkləri (türkmanlar, Xorasan türkləri, Qaşqaylar və s. kimi qolları vardır), Anadolu türkləri, qaqauzlar, türkmənlər, axısqa türkləri, krım tatarları, türkmanlar, Xorasan türkləri və s.
2. **Uyğurlar** – özbəklər, həzaralar, salarlar, uyğurlar, tuvalar, şorlar, komasin-tobollar, baraba tatarları, çulumlar və s.

3. **Qıpçaqlar** –
qazaxlar, qaraqalpaqlar, qumıqlar, qırğızlar, altaylar, noqaylar və s.
4. **Bulqarlar** – tatarlar, başqırdlar, qaraçaylılar, qaraimlər və s.**"(2.66-69)**

Türklərdə din anlayışı

Türk xalqlarının inanclarında tanrı əsas yer tutar. VII əsrdən etibarən İslam dininə inanc daha çoxdur (hazırda təxminən 80%). İndiki dövrdə qeyri müsəlman yakutlar (şaman və xristian), cuvaş və qaqauzlar (xristian), karaim və krımçaklardır (yəhudi dini). Tarixin müxtəlif mərhələlərində bəzi türk dövlətləri Avrasiyada geniş ərazilər tutmuş, Afrikanın şimal hissəsini fəth etmişlər. Türk xalqlarının bəziləri müstəqil dövlət qurmuş, bəziləri müəyyən dövlət daxilində muxtar qürumlar yaratmış, bəziləri isə heç bir özünüidarə hüququna malik deyil və müxtəlif dövlətlərin ərazilərində, Asiyada Əfqanıstan, İran, İraq, Suriya, Avropada Bolqarıstan, Rumıniya , Yunanıstan, Ukrayna, Moldova, Gürcüstan, Rusiya və sairə ölkələrdə yaşayırlar. Belə türk xalqlarına qumıqlar, krım tatarları, qaraçaylar, şahsevənlər, türkmənlər, sibir tatarları, bolqar türkləri, əfşarlar və sairə aiddir. Bu xalqların çoxu gəlmə xalqlar içərisində assimilyasiya olunmaqdadırlar.Bunlardan başqa aşağıdakı xalqları da əlavə edərsək durumun nə yerdə olduğu açıq şəkildə gözlər önünə sərilir.

a) RF-da,Sibirdə yaşayan və ruslaşmış türklər

b)Ob (qədim adı Ümer) tatarları(tağabitlər,kalmaklar,şağarlar,oroslar,çaldonlar,-kulundinlər,kumuçlar,tuğullar,itiberlər və s)

c)Tur tatarları(kurlaklar,qumruqlar və s)

d) Verxoyon tatarları(çuvanlar,anadurlar və s)

RF-nın Şərqi Avropa düzənliyində ruslaşmış Türk xalqları(sayanlar,çukanlar,kara muşlar, və s)

Əhalisi

Türklərin ümumi sayı müstəqil türk dövlətlərində 170 milyondan çoxdur. 50 milyon nəfərə yaxını isə Rusiya və Çin ərazisində yaşayır.80 milyondan çox türk isə dünyanın müxtəlif ölkələrində məskunlaşmışdır.Türk dünyasında təbii artımın orta göstəricisi 2%-ə yaxındır.Müstəqil dövlət qurumuna malik olanlar

Dövlət qurumuna malik olmayanlar:

Axısqa türkləri – *500 min;*Sarı uyğurlar – *20,719 nəfərdən çox;*Urum-Qıpçaqlar – *106,768 nəfərdən çox;* Altaylılar – *67,239 nəfərdən çox;* Xorasan türkləri – *830 min*; Balkarlar – *108,426 nəfərdən çox*; Başqırdlar – *1.705.053 nəfərdən çox;* Çulumlar – *1 min*; Çuvaşlar – *1.8 milyon;* Krım tatarları – *500 min;*Dolqanlar – *10 min* Qaqauzlar – *300 min;* Qaraçaylılar – *300 min;* Qəraimlər – *50 min*;Qaraqalpaqlar – *550 min*

Bayraq	Ölkə	Quruluş	əhali	Ərazi	Paytaxt	Rəsmi dil	Pul vahidi	Türklərin faiz göstəricisi	Yaşayan türklər(mln)
Azərbaycan	Azərbaycan	1991	10.100.000	86.600	Bakı	Azərbaycan dili	Azərbaycan manatı	92.3%	9.3
Qazaxıstan	Qazaxıstan	1991	18.014.200	2.274.900	Astana	Qazax dili	Qazaxıstan tengəsi	73.8%	13.1
Qırğızıstan	Qırğızıstan	1991	6.586.600	199.900	Bişkek	Qırğız dili	Qırğızıstan somu	80.6%	4.4
ŞKTR	Şimali Kipr türk respublikası	1983	286.257	3.355	Lefkoşa	Türk dili	Türk lirəsi	99%	0.3
Özbəkistan	Özbəkistan	1991	33.570.609	447.400	Daşkənd	Özbək dili	Özbəkistan somu	87%	25.7
Türkiyə	Türkiyə	1923	83,154,997	783.562	Ankara	Türk dili	Türk lirəsi	89.5%	67.5
Türkmənistan	Türkmənistan	1991	5.450.000	491.210	Aşqabad	Türkmən dili	Türkmənistan manatı	90%	4.9

Xakaslar – *90 min*; Krımçaqlar – *1.5 min*; Qumuqlar – *500 min*; Noqaylar – *110 min*

Qaşqaylar – *1.757 milyon;* Salar – *125 min*; Tatarlar – *6.755.000*Naqaybaklar – *9.600*

Sibir Tatarları – *9.611;* Türkmanlar – *3 milyon*; Kipr türkləri – *750.000-1.000.000*

Qərbi Frakiya türkləri – *150.000*; Tuvinlər – *264,400*; Uyğurlar – *11 000 000*

Çelqanlar – *1,700;* Kumandılar – *2900*; Telengitlər – *3,712*Teleutlar – *3 000*

Güney Azərbaycan türkləri – *35-40 milyon*

Əhali sıxlıƏhalisinin orta sıxlığına görə dövlət və qurumlar bir-birindən fərqlənir.Azərbaycan və Türkiyədə orta sıxlıq hər km^2 -də 85–105 nəfər, Şimali Kipr və Özbəkistanda 55–60 nəfər, Çuvaş, Kabarda-Balkariya və Tatarıstan respublikalarında 60–70 nəfərdir.Digər dövlət və qurumlarda isə əhalinin sıxlığı hər km^2 -də 30 nəfərdən azdır.

SƏNAESİ

Milli gəlirin yarıdan çoxunu çoxsahəli inkişaf etmiş sənaye verir.Bir çox respublikalarda- Özbəkistan, Türkmənistan, Qırğızıstan, Saxa, Altay kimi respublikalarda sənaye ilə yanaşı, kənd təsərrüfatı da iqtisadiyyatın əsasını təşkil edir. Bütövlükdə türk dünyası ölkələrində sənayenin ən başlıca sahələri olan energetika, maşınqayırma, metallurgiya, kimya sənayesi,xeyli inkişaf edib.

Türk Adət və Ənənələri

Cəfərov Nizami Qulu oğlu.:" Qədim türk ədəbiyyatı" Nəşriyyat, AzAtaM. Nəşr yeri, Bakı. Nəşr ili, 2004.kitabında qeyd edir ki,at, Orta Asiya-Anadolu yolunda köçəri yaşayan Türklərin həyatında və mədəniyyətində xüsusi əhəmiyyətə malik idi. At sevgisinin tarixi qədimdir. Tarixə nəzər yetirsək, hər dövr türklərin həyat tərzində və yaşadıqları ərazidə atların olduğunu görərik. Türklər və atlar daima bir yerdə olub. Həyat tərzi, yaşayış əraziləri, döyüşlər bu əlaqəni daha da möhkəmləndirib. Türk mədəniyyət əsərlərində at motivlərinin çoxluğu bu səbəbdəndir. Çin mənbələrində "Türklərin həyatı atlarına bağlıdır" məsəli var**.(s.123)**

Həqiqətən də at türk mədəniyyətində və xalq inancında müqəddəs heyvandır. Türk mifologiyasına əsasən "atın gücü Tanrıdan gəlir". O, insanın ən yaxın dostu, ölümün və uzaqgörənliyin simvoludur. Şamanlarda at, Şamanın göyə çıxmaq və qurban üçün heyvanı sayılırdı. Şamanlar at ilə yerin altına və digər dünyaya gedə biləcəklərinə inanırlar. Türk adətlərinə əsasən atların bəzi xüsusiyyətləri olmalıdır. Məsələn, yaxşı at uçan quşa çatmalı, yorulmamalı, düşməni hiss etməli, sahibinə xəbər verməli, sahibini başa düşməli, ölən sahibini yolda qoymamalı və onu vətəninə gətirməli, yaralı sahibini isə xilas etməlidir. At Türkün ən sadiq dostu, sahibinin qoruyucusu və qələbə yoldaşı sayılırdı.

Türk adətlərinə əsasən atların bəzi xüsusiyyətləri olmalıdır. Məsələn, yaxşı at uçan quşa çatmalı, yorulmamalı, düşməni hiss etməli, sahibinə xəbər verməli, sahibini başa düşməli, ölən sahibini yolda qoymamalı və onu vətəninə gətirməli, yaralı sahibini isə xilas etməlidir. At Türkün ən sadiq dostu, sahibinin qoruyucusu və qələbə yoldaşı sayılırdı.

a) Karasuk mədəniyyəti; b) Afayesnova mədəniyyəti; c) Andrenova mədəniyyəti;

d) Anav mədəniyyəti olaraq adlandırılan dörd ana bölgədən bəhs edilməkdədir. Ön-Türklər

Ön-Türklər haqqında Şölgəndaş, Kurgan, Pazırık qalıntıları bulunmaqdadır.Orta Asiyadakı iqlim dəyişikləri üzündən oturaq həyatdan, köçəri - yörük həyata keçmək məcburiyyətində qalmışdırlar. Özlərinə yazlıq və qışlıq bölgələr təyin etmişlərdir.

Ön-Türklər ilə əlaqəli edilen araşdırmalarda oturaq mədəniyyətə aid əşyalara rastlanılmaqdadır. Ön-Türklərdə geyik ön plana çıxmaqdadır. Türk qövümləri atla köçəri həyata keçdikdən sonra tanışmışdır. Ön-Türklərə aid mağara şəkillərində "geyik buynuzu taxmış at fiqurlarına" rastanılmaqdadır. Bu durum, Türklərin ata keçid dönəmi yaşadıqlarını göstərməktədir.**(4.s.93-99)**

Ə D Ə B İ Y Y A T :

1. Vəli Osmanlı. "Qədim türk ədəbiyyatı" (VI-X əsrlər). Bakı, "Sabah", 2008.s.125

2.ELMAN QULİYEV : TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 80 İLLİYİNƏ İTHAF OLUNUR. TÜRKİYƏ, TÜRK ƏDƏBİYYATI (XIX – XX ƏSRLƏR); səh: 66-69

3.Cəfərov Nizami Qulu oğlu.:" Qədim türk ədəbiyyatı" Nəşriyyat, AzAtaM. Nəşr yeri, Bakı. Nəşr ili, 2004.səh123.

4. Müasir Türk Ədəbiyyatı - Alinino.az Müasir Türk Ədəbiyyatı. Əsas · Türk Dilində Kitablar ·M.F.Axundov ad.kitabxana, "Bədii Ədəbiyyat" şöbəsi.səh:93-99.

С.Имамова

ОРГАНИЗАЦИЯ, МАСШТАБ, НЕЛЕНИЕ, РЕЛИГИЯ И КУЛЬТУРА ТУРКСКИХ НАРОДОВ МИРА

РЕЗЮМЕ

Древние тюркские племена Азербайджан Исторические источники свидетельствуют о том, что на территории древнего Азербайджана возникло множество государств, некоторые из которых даже поднялись до уровня империй. Согласно письменным источникам, первое племенное объединение на территории Азербайджана сформировалось в конце бронзового века.

В этих источниках неоднократно отмечалось существование тюркоязычных этносов в Азербайджане с древних времен и то, что эти районы являются древней родиной тюрков. К тюркским племенам, составившим основу азербайджанского народа, относятся:

Аратталылар

Первые письменные источники о племенах, проживающих в Азербайджане и соседних землях, относятся к н.э. Они относятся к XXV-XXIII векам и были написаны на аккадском языке в районе Урмии.

Однако история турецкого правления на землях Азербайджана восходит к н.э. Он насчитывает 4000 лет. В источниках есть сведения об Араттали, Гуте (ящики), Луллуби и Хурри. Однако, согласно научным источникам, первым тюркским государством, созданным в Азербайджане, была Аратта. Сведения об араттинцах зафиксированы в шумерской саге. Государство Аратта

Ключевые слова: тюркские народы, религия, культура, развитие, Турция, Азербайджан.

S.Imamova

ORGANIZATION, SCALE, POPULATION, RELIGION AND CULTURE OF THE WORLD TURKISH PEOPLES

SUMMARY

Ancient Turkic tribes of Azerbaijan

Historical sources prove that many states were established in the territory of ancient Azerbaijan, some of which even rose to the level of empires. According to written sources, the first tribal unification in the territory of Azerbaijan was formed at the end of the Bronze Age.

These sources have repeatedly noted the existence of Turkic-speaking ethnic groups in Azerbaijan since ancient times and that these areas are the ancient homeland of the Turks. The Turkic tribes that formed the basis of the Azerbaijani people are:

Arattalılar

The first written sources about the tribes living in Azerbaijan and neighboring lands date back to BC. They belong to the XXV-XXIII centuries and were written in Akkadian in the Urmia region. However, the history of the Turkish government in the lands of Azerbaijan dates back to BC.

It goes back 4,000 years. The sources contain information about Arattali, Gut (boxes), Lullubi and Khurri. However, according to scientific sources, the first Turkish state to be established in Azerbaijan was Aratta. Information about the Aratta people is recorded in the Sumerian saga.

The state of Aratta b.c. It appeared in the first half of the third millennium. Its lands covered the southern and southeastern parts of Lake Urmia. The territory of modern Zanjan-Qazvin was also on the lower borders of Aratta.

Key words: Turkic peoples, religion, culture, development, Turkey, Azerbaijan

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: pedağoji elmlər namizədi,dosent Elmira Ağahüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

ARİFƏ TAPDIQ QIZI YUSUBOVA
Azərbaycan Tibb Universiteti
Bakı, Səməd Vurğun, 167
e-poçt: aytenyusubova123@gmail.com

NİZAMİ POEZİYASINDA İNSANIN MƏNƏVİ KAMİLLİYİ

Xülasə

Nizami göstərir ki, insan biganə, işsiz gəzməməli, qeybətlə gününü keçirməməli, başqa sözlə, ömrünü xoş keçirməyə çalışmalıdır. Lakin insan səadəti özgələrin hesabına deyil, öz səyi, öz əməyi ilə əldə etməlidir.XII yüzillikdə Gəncədə öz tənha hücrəsinin sakitliyinə çəkilib düşüncəsinin odu, könlünün çırpıntılarını hikmət dolu zərif misralara çevirdi Nizami Gəncəvi.Biz Nizami Gəncəvini mütəfəkkir şair adlandırmaqda haqlıyıq, yaşadığı dövrün əxlaqi şüurunun sərvət meylini düzgün qiymətləndirmişdir, ədalətdən uzaq şahların öz nüfuzunu xalqın nəzərində itirməsində tamamilə haqlı olmuşdur.Şairin öz dövrü üçün mütərəqqi fikirlər irəli sürdüyü bu ilk böyük əsəri – "Sirlər xəzinəsi" şəkilcə yeni olduğu kimi, öz bədii xüsusiyyətləri ilə də orijinaldır. Əsərdə şairin sonrakı poemalarında gördüyümüz vahid süjet xətti yoxdur, quruluş etibarı ilə Xəqaninin "Töhfətül – İraqeyn" əsərinə bənzəyir. Nizami bu poeması ilə ədəbiyyatda böyük dönüş yaratdı. Gələcək poemalarına zəmin hazırladı. Şair bu əsərində nəsihətçi kimi çıxış edirsə "Xosrov və Şirin", "Leyli və Məcnun", "İsgəndərnamə" poemalarında insanın daxili aləmini mükəmməl şərh edən bir psixoloq kimi göstərdi.Şair yaratdığı surətlərin xarakterini onların yalnız iş və hərəkətlərini təsvir etməklə deyil, daxili aləmlərini açmaqla göstərir.Nizami Gəncəvi poeziyası əsrlər keçdikcə yeni-yeni qatları üzə çıxacaq, yeni ideyalar aşılayacaq. Ədəbiyyatşünas – pedaqoqlar Allahverdi Eminov və Polad Mədədovun yeni çapdan çıxmış "Nizami Gəncəvi haqqında oçerklər " monoqrafiyasında yazmışlar ki, şair yaradıcılıq kredosuna sadiq qalmış, tarixi yaddaşında yaratdığı obrazlarında insanlığı görmüş, humanizmin tərənnümçüsü olmuşdur, bu, Qərbdən fərqli olaraq "İnsan konsepsiyası" idi və insan dünyagörüşündə sələflərini qabaqlamışdır.- Böyük filosof – mütəfəkkir sənətkar Nizami, insanlığın yüksək cəmiyyətə doğru inkişafını öz dühası ilə dərk etmişdir. Nizami Gəncəvi öz ölməz beş poeması ("Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə") ilə dünya ədəbiyyatına tamamilə yeni bir poetik səs, nəfəs gətirmişdir. Nizaminin beş poeması sonralar "Xəmsə" ("Beşlik") adı altında birləşdirilmiş və bu adla da Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatlarında məşhur olmuşdur. Nizami məktəbinin bir çox ardıcılları ölməz ustad kimi "Xəmsə" yaratmaq arzusunda olmuş, ancaq bu arzuya az şair çatmışdır.

Açar sözlər: poeziya, sirlər xəzinəsi, humanizm, konsepsiya, insan faktoru, eşq,

Nizami Gəncəvi dahi sənətkar və mütəfəkkirdir. Böyük şəxsiyyət yaradıcılığında İnsan faktoruna həssaslıqla yanaşmış və azadlığı, ədaləti, əməyi, saflığı tərənnüm etmiş, dünya poeziyasının zirvəsini fəth etmişdir. Şübhəsiz şairin insanlığı mənəvi

kamilliyə çağırmışdır. Buna görə də Nizami yaradıcılığından tədris prosesində, sinifdənxaric məşğələlərdə insan və onun kamilliyə çağırışı məsələsi xüsusi əhəmiyyət kəsb etmişdir (1. səh. 116.).

Şərqşünas, professor A.Krımski yazmışdır ki, Nizami doğma Azərbaycan şairidir və Azərbaycan qanuni olaraq onunla fəxr edə bilər. Ancaq o, həm də dünya ədəbiyyatının iftixarı və bəzəyidir. Bu qiymətvermə XII əsrdə Azərbaycan poeziyasının İntibah dövrünə ciddi işarədir, eyni zamanda poeziyamızın idraka, fəlsəfəyə kökləndiyinə işarədir. İnsan o halda kamilləşir – idrakdan, onun təlqin etdiyi İnsanlıqdan ayrılmır: zülmün insanlara tuşlanmasını pisləyir və hökmdarları nəticə çıxarmağa çağırır. "Sirlər xəzinəsi" poemasında oxuyuruq:

Zülm edib bir qarıya çox uddurmuşdular qan
O da Sultan Səncərin tutaraq yaxasından,
Dedi ki: "Səndə insaf az görmüşəm, qulaq as!
Səndən gördüyüm zülm əsla hesaba sığmaz. –

Bu, dövrünün sultanlarına verilən xarakter idi!

Nizami "Xəmsə"sinin birinci əsəri "Məxzən ül-əsrar"ı ("Sirlər xəzinəsi") bu baxımdan bəzi xüsusiyyətləri ilə diqqəti cəlb edir. Poemaya daxil olan hekayətlər ("Sultan Səncər və qarı", "Kərpickəsən kişinin dastanı", "Yaralı bir uşağın dastanı" və sair) poetik məzmunca insan və onun yaşam tərzi tərənnüm olunmuşdur (4 səh 242).

Belə ki, İnsan anlamı şair əxlaqı üçün müqəddəsdir, İnsanın ismindən söz açmaq şərəflidir: "İnsanlıq gövhəri itirilmişdir", – deyən Nizami vurğulayır ki, "dövlət başçılarında insanlıq şərəfi qalmamışdır" qənaətini irəli sürür. Və əxlaqi şüuru – təkamülü qabarıq verir.Nizami gözəl və şərəfli olan insanı kainatın bəzəyi sayır və onun mənliyini qorumağa səsləyir. Bu, İntibah dövrünün kredosu idi:

Sən ki hüma quşusan, şərəfli iş gör, əlbətt
Az ye, az danış, vermə kimsəyə əziyyət.

"Sirlər xəzinəsi"nə qayıdaq. Zəhmətsevərliyi tərənnüm edən şair qoca kərpickəsən kişinin surətini yaradır. Qızmar günün altında, qışın çovğununda, qarında kərpic kəsib çörək əldə edən məğrur və namuslu qoca yüksək mənəviyyata malikdir. Ümumiyyətlə, "Sirlər xəzinəsi" bir əxlaq dərsliyi, oxucunu dözməyə, əməyi sevməyə, saflığa, nəcibliyə çağıran öyüdlər xəzinəsidir .

Hümanist şairin dühası ictimai – sosial həyatın bütün sahələrinə işıq salır, cəmiyyətin sağlam qüvvələrinin gözəl arzularını həyata keçirmək üçün yollar arayır. Mövcud vəziyyətlə mübarizədə mətin olmağı lazım bilir:

Məyus olma qara gündə, həyatın bir qanunu var,
Qatı qara buludlardan inci kimi yağış yağar...
Bir danəni öz qoynunda gizləməsə qara torpaq,
Nə torpaqda danə olar, nə gül – çiçək, nə bağça – bağ, –

deyən şair insanın qiyməti haqqında yeni təsəvvürlər yaradır, əxlaqın tələblərini gözləməyi zəruri sayır. Ədalət haqqında təsəvvürü təzələməyə çalışır, Soltan Səncərlər feodal əxlaqi münasibətlərdə şəxsi maraqlarına üstünlük verirlər. Sərvətə, mal – dövlətə ifrat meyillilik qarıların güzaranını dilənçi kökünə gətirir ki, hökmdarların qabağını kəsir, yalvarır. Bu isə ictimai ədalətin pozulması deməkdir. Şair şah surətini yaratmışdır.

Şah ölkənin işini nizama salsın gərək,
Hər zaman rəiyyətin qeydinə qalsın gərək.
Ta ki, hamı hökmünə etsin hörmət, əysin baş,
Könüllər onu bilsin özünə bir dost, sirdaş.

"Xosrov və Şirin" insan, onun mənəviyyatı, hər şeyə qalib gələn qüdrətli əməyi və eşqi haqqında yazılmış gözəl bir dastandır. Bu mövzunu işləyərkən şair namuslu əməyin xariqələr yaradan qüdrətini göstərməyə, saf, təmiz eşqin möhtəşəm abidəsini yaratmağa can atır. Eşqə, məhəbbətə həyatın əsas hərəkətverici qüvvəsi kimi baxır.

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya nədir dəyərin?
Eşqsiz olsaydı xilqətin canı
Dirilik sormazdı böyük cahanı.

Bu əbədi mövzuya qədər isə şair "Xosrov və Şirin"də orijinal forma axtarışında idi ki, fikirləri oxucu səviyyəsində çatdırsın, seçdiyi poetik vasitə məqsədinə çatmaqda optimal olsun, amma belə seçim müəllif olaraq təmin etmirdi, əbəs təşəbbüs idi. Lakin Nizami özünə təskin tapdı.

Hər kəsi mədhlə etdim sərəfraz,
İndi də özümdən söyləyim bir az.
Nə qədər şair var, söz var, şeir var,
Dünyada onlardan mənəm yadigar.
Mənimlə canlandı, söz tapdı qüvvət,
Elə də mənimlə edər qənimət.

Bu müraciətlə şair demək istəyir ki, onun sözləri əbədi yaşayacaqdır, qiymət verə bilən oxucu yoxsa da, gələcəkdə tapılacaqdır, fədakar əməyi öz yerini tapacaqdır. Nizami öz adının əbədi yaşayacağına heç bir şübhə etmirdi və yaradıcılığına inanırdı.

Yeddi göy pərgarı etmədən covlan,
Ömrümün xəttini parçalamadan
Vursun barmaqlarım mizrabıma dəm,
Öz varlıq səsimi saxlayım möhkəm.

N.Gəncəvi bu poemasında məhəbbətin ülviliyinə qayıdır və bu hissi Fərhadın Şirinə olan sevgisində tərənnüm edir. İnsan qəlbinin rəng çalarlarına toxunur, eyni

zamanda mənəvi aləmlərini təqdim edir: Fərhad pak eşqi ilə Şirinin qəlbində özünə yer tapardı, lakin Şirinin öz sevgi idealı mövcuddur, Fərhadın şəxsiyyətinə hörmət bəsləyir, ona görə də bu eşqə cavab verməkdə acizdir."Xosrov və Şirin"dən yazanlar da hər iki qəhrəmanın hisslərini düzgün qiymətləndirirlər. Biz də çalışmışıq bu xətti gözləyək (3 səh 341). Şirin Bərdə gözəlidir. O, İran şahzadəsi Xosrovu sevir. Məhəbbət coşqun və sonsuzdur. Lakin o hər cür iztiraba dözərək namusunu, şərəfini və heysiyyatını qoruyur. Xosrov zahirən gözəl, lakin səbatsız, qadın gözəlliyinə əyləncə kimi yanaşan bir varlıqdır. Xosrov şıltaq hərəkətləri ilə Şirinin qəlbini sızladır. O, poema boyu inkişafda verilir. Şair onu Şirinin vasitəsilə tərbiyələndirir və əsərin sonunda müsbət şəxsiyyət səviyyəsinə qaldırır. Yüngül xasiyyətli Xosrov da Şirinin təsiri ilə dəyişir, ölkəni yad əllərdən qurtarır, alicənablığa yiyələnir. Şirinin ömrünün sonuna qədər məhəbbətinə sadiq qalır. Şuriyyənin xəyanəti ilə sevgilisi öldürüldüyü zaman isə intihar edir. Nizami ülvi məhəbəti və ölümü alqışlayır:

Alqış bu ölümə, əhsən Şirinə,
Öldürən Şirinə, ölən Şirinə.
Məhəbbət yolunda ölüm budur, bax,
Canana belədir canı tapşırmaq.

Bununla Şirini ən ağır günündə dönməz – vəfalı, nəcib məhəbbətli bir insan kimi ideallaşdırmışdır.Nizaminin sevərək təsvir etdiyi Fərhad surəti də xarakterikdir. Şair Fərhadı bir çox rakursdan "rəqibi" Xosrova qarşı qoyur və əməkçi insanlara məxsus müsbət xüsusiyyətləri onun simasında ümumiləşdirmişdir.Fərhad dağ gövdəli igiddir. Sağlam qamətli, hünərvər gəncin yüksək mənəvi aləmi vardır, yenilməzdir. Şirinin eşqindən ilham və enerji alır, buna görə də qəhrəmanın külüngü qarşısında sıldırım qayalar tab gətirməyərək parçalanır.Şair Fərhadla Xosrovun deyişməsini elə məharətlə, incəliklə vermişdir ki, Fərhadın mənəviyyatı Xosrovdan yüksəkdə durur və parlaq şəkildə nəzərə çarpır.

Xosrov əvvəl sordu: "Hardansan cavan?"
Fərhad cavab verdi: "Dost diyarından".
Dedi: "O diyarda hansı sənət var?"
Dedi: "Qəmi alıb, canı satırlar".

Bu mükalimədə Fərhad eşqinin dərin olması görünür. Şirinin ölüm xəbərini eşidəndə, dilində sevgilisinin adı səslənir və torpağı qucaqlayıb can verir.Xosrov uzun təkmilləşmə yolu keçdikdən sonra eşqin ucalığını dərk edir. Fərhad əksinə, ilk dəqiqədən Şirini ən böyük ideal kimi sevir, qiymətləndirir.Nizami Xosrov surətini yaradarkən onun şahlığını deyil, mənəvi kamilləşmə, əxlaqi şüura malikolma prosesini təsvir etməyi əsas götürür. Əgər hökmdar şəxsiyyətində kommunikativlik (insanlarla ünsiyyət qurmaq) yoxdursa, O, əxlaqi – davranış funksiyasını itirmiş olardı. Bunu Şirin aydınlığı ilə dərk edir...Xosrov Şirini görüb ona vurulur. Bu isə Şirinin mənəvi iztirablarına səbəb olur, çünki Xosrov həyatın mənasını eyş – işrətdə görür. O, uzun müddət belə vəziyyətdə –

ovqatda qalmır, Şirinin təsiri altında tədricən dəyişməyə çalışır. Təbii ki, Nizami Xosrovu öz siyasi – sosial görüşlərini büruzə verən bir şəxsiyyət kimi görmək istəmişdir – bunu tərbiyədə axtarmışdır. Xosrov əsər boyu inkişafda verilir.

Xosrov əvvəllər mənəvi ehtiyacların üstünlüyünü qiymətləndirə bilmirdi, Fərhad kimi ecazkar sənət adamını məhv etmək üçün xəyanətə əl atır, ruhən dəyişən insanlıq xarakterinə yiyələnir və o, alicənablaşır, ədalətli hökmdar səviyyəsinə qalxır.

Bir müdət keçmədi, açıldı gözü,
Bu kefçil həyatdan utandı özü. –

ən səmimi etiraf!

Beləliklə, Xosrov keçirdiyi iztirabların və özünütərbiyənin nəticəsində saflaşır, əzabları qüruruna üstün gəlir və məğrurluq şahı dəyişdirir. Əsərin sonunda Xosrov dünya, həyat, ölüm məsələləri ilə maraqlanır, alimləri və biliciləri dinləməyə başlayır.Nizami "Xosrov və Şirin"lə Yaxın Şərqdə böyük ədəbi məktəbin əsasını qoydu. Poemanın belə şöhrətlə yayılması göstərdi ki, yalnız didaktik – hikmətli əsərlə deyil, qəhrəmanlıq və məhəbbət dastanı ilə də oxucunu yüksək hisslərlə tərbiyə etmək mümkündür. İnsan və onun humanist – mənəvi yardımı ideyası əxlaqın tərəqqisinə zəmanət verməyə qadirdir: poeziya budur, mütaliə et və saflaş! Nizami yüksək ideyaları təbliğ etməkdə qüdrətli sənətkardır. "Leyli və Məcnun" poemasında gəncləri mübariz və iradəli görmək istəmişdir. O, gənclərin məhəbbətini yüksək qiymətləndirir. Leyli və Məcnun dini – feodal cəmiyyətin əxlaq normalarına tabe olmurlar, insan və onun ülvi hsslərini üstün tuturlar, amansız əxlaqi münasibətlər nəticəsində məhv olurlar. Poemanın hər bir hissəsi lirik ovqata köklənir. Eşq mübtəlasına düçar olan aşiqlər qəlbin coşğunluğunu gizlətmirlər, məktublarla, qəzəl – şeirlərlə özlərinə təskinlik verirlər. Nizami bu baxımdan həm də şair kimi təqdim edir, eləcə də Leyli. O, aşiqinə nəğmələr göndərir: Leylinin son vida səhnəsində anasına vəsiyyəti, Məcnunun qəbri üstə söylədiyi monoloqu. Əslində misralar ah – nalə edən oxşamalar deyilmi?

Sən, ey xəzan görmüş körpəcə gülüm!
Dünyanı görməmiş ölən sevgilim.
Ey xəraba qalan bağı – gülüstan,
Bar verib, barını yeməyən canan!
Torpağın zülmünə dözürsənmi sən?
Bu dərə dibində söylə necəsən?

Nizaminin poeziyasında böyük qüdrət var, obrazını müəyyən hissilə səciyyələndirir. Bu hiss coşğunluğu ilə oxucunu ovsunlayır (2, Səh 70). Dördüncü poeması "Yeddi gözəl" böyük yaradıcılıq qələbəsi idi, şair insan psixologiyasına təsir göstərmək ustalığını bir daha təsdiqlədi.Nizami poeziyasında dost xalqlara məhəbbətlə yanaşmış, onların tarixinə, ənənələrinə hörmət bəsləmişdir. Nəcib insan hansı xalqa mənsub olursa-olsun, hansı dinə mənsubluğundan asılı olmayaraq səmimiyyətlə təsvir və tərənnüm etmiş,

müasirlərinə nümunə kimi göstərmişdir. Şairin əsərlərində rus, ərəb, yunan, çin, hind, fars, gürcü və başqa xalqların həyatından bəhs edildiyinin şahidi oluruq. Digər tərəfdən Şərq ədəbiyyatına güclü təsir göstərmişdir, bu proses XIII əsrin birinci yarısından etibarən başlamışdır. Belə ki, Sədi və Hafis istisna olmaqla Nizami Gəncəvinin ədəbi təsiri əyaniləşmişdir. Bəzi faktorları xatırlamaq kifayətdir:

– "Xosrov və Şirin"i III Toğrula sifarişlə yazılmış, onun həbsindən sonra Qızıl Arslana verilmişdir.

– "Leyli və Məcnun" Səlcuq xanəndanının süqutundan sonra Şirvanşahlardan Axsitanın hökmdarlığı dövründə qələmə alınmışdır.

– "Yeddi gözəl" Xarəzm şahlarından Ələddin Təktəşinin fatehliyi zamanı yazılmışdır.

– "Sirlər xəzinəsi" və "İsgəndərnamə"də Bəhram şaha, Əbubəkr Nusrəddinə itham edilmişdir.

Bu faktlar onu göstərir ki, Nizaminin böyük ədəbi nüfuzu varmış, "Xəmsə"nin təsirinə qapılmamaq qeyri – mümkün olmuşdur. Nizaminin yaratdığı Bəhram surəti tarixi şəxsiyyət deyil, ümumiləşdirilmiş tipdir, bədii təxəyyülünün məhsuludur, adil olsa da xudbin ömür yaşayır, gözəllərlə əylənir, bunun nəticəsidir ki, xain, ikiüzlü və qəddar vəzir dövləti öz çirkin əməllərilə idarə edir, ölkə acınacaqlı vəziyyətə düşür. Şairin qənaəti budur: Cəmiyyətin maddi bolluq və rifahı yalnız başçıdan asılı olmur, onu əhatə edən əyanlardan da asılıdır...Bəhramı oxucuya sevdirən, onun mərhəməti, ədaləti və həyata olan eşqidir. Bu hissləri çox zəngin boyalarla, təbii və inandırıcı qələmlə vermişdir. O, həmişə köməyə ehtiyacı olanları düşünür. Dövlət işlərində islahata başlarkən vəzirdən, əmirdən, saray adamlarından əvvəl camaata müraciət edir. Dustaqlar şahın bu təd-birini görəndə sevinirlər, cəsarətlənirlər. Bəhram həssas adamdır. Vəzirin camaatı qorxutduğunu, buna görə də onun bir çox cinayətlərinin örtülü qaldığını duyur və dərhal onu həbs edir. Sonra onun haqqında xalqın rəyini soruşur. Bəhram hara gedir getsin, nə ilə məşğul olursa olsun, rəiyyəti yadından çıxmır, bilir ki, camaatın həyatı, asayişi, ehtiyacı hökumət adamlarından asılıdır. Bu duyğu həmişə Bəhramı xalqa bağlayır, dövlət işlərində vəzir – vəkillərdən çox, sadə insanları dinləmək istəyir. Böyük şair, şahın gözəllərlə görüş gecələrində söylənən nağıllarda da bu cəhəti unutmamışdır. Nizami şahı kef aləmində belə, öz vəzifəsindən, ölkə həyatından, insan və onun mənəvi ehtiyacından ayırmağa qoymur. O, eşitdiyi hər bir sərgüzəştdə xalqın möhtacını duyur və qüvvəsini xalqa xidmət etməyə sərf edir. Beləliklə, təmkinli olmağı ona Fitnə aşılayırsa, şahlığı, ədaləti çoban öyrədir.Bu günkü gənc nəslin daha kamil yetişməsində Nizaminin əsərləri böyük rol oynayır.

Ədəbiyyat

1. Eminov.A, Mədədov P. Nizami Gəncəvi haqqında oçerklər. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2021, səh. 116.
2. Nizami Gəncəvi "Leyli Məcnun" poeması Bakı, "Lider" nəsriyyatı 2004 səh 70.
3. Nizami Gəncəvi "Xosrof və Şirin" poeması Bakı, Adiloğlu nəsriyyatı 2011 səh 341.
4. Nizami Gəncəvi "Sirlər xəzinəsi" Bakı "Elm" nəşriyyatı 2008 səh 242..

Арифа Юсубова

НРАВСТВЕННОЕ СОВЕРШЕНСТВО ЧЕЛОВЕКА В СТИХАХ НИЗАМИ ГЯНДЖЕВИ

Резюме

Низами показывает, что человек не должен быть равнодушным, праздным, сплетничать, иными словами, стараться жить хорошо. Однако человеческое счастье должно быть достигнуто собственными усилиями, а не за счет других.

В XII веке уединившийся от других Низами Гянджеви своей одинокой жилище в Гяндже превратил огонь своих мыслей, биения своего сердца - в нежные стихи, полные мудрости. Мы правы в названии Низами Гянджеви мыслителем-поэтом, он правильно оценил тенденцию богатства нравственного сознания того времени, в которое он жил, и был абсолютно прав, что несправедливые короли лишились их авторитета в глазах народа. Первое великое произведение поэта, выдвинувшего прогрессивные для своего времени идеи - «Сокровище тайн» - столь же новое, так и оригинальное по своим художественным особенностям. В произведении нет единой сюжетной линии, которую мы видим в более поздних поэмах поэта, оно структурно похоже на «Тохфатул-Иракейн» Хагани. Этим произведением Низами произвел большой поворот в литературе. Он подготовил почву для своих будущих поэм. Если в этом произведении поэт выступает наставником, то в поэмах «Хосров и Ширин», «Лейли и Меджнун», «Искендернаме» он проявил себя как психолог, прекрасно интерпретирующий внутренний мир человека.Поэт показывает характер создаваемых им образов, не только описывая их работы и действия, но и раскрывая их внутренний мир. Поэзия Низами Гянджеви откроет новые пласты и новые идеи на протяжении веков. В отличие от Запада, это была «человеческая концепция» и превосходила своих предшественников в человеческом мировоззрении. Великий философ - мыслитель Низами со своим гением понимал развитие человечества по направлению к высшему обществу. Низами Гянджеви своими пятью бессмертными поэмами («Сокровище тайн», «Хосров и Ширин», «Лейли и Меджнун», «Семь красавиц», « Искендернаме») внес в мировую литературу совершенно новый поэтический голос и дыхание. Пять стихотворений Низами впоследствии были объединены под названием «Хамса» и под этим названием стали популярны в литературе Ближнего Востока. Многие последователи школы Низами мечтали создать «Хамсу» как бессмертного мастера, но немногим поэтам удалось осуществить эту мечту.

Ключевые слова: *поэзия, сокровищница тайн, гуманизм, концепция, человеческий фактор, любовь,*

Arifa Yusubova

THE MORAL PERFECTİON OF MAN İN NİZAMİ`S POETRY

Summary

Nizami shows that a person should not be indifferent, idle, gossip, in other words, try to have a good life. However, happiness must be achieved through human's own efforts, not at the expense of others.In the 12th century Nizami Ganjavi turned the fire of his thoughts,heartbets into the elegant verses full of wisdom as being left alone.

We are right to call Nizami Ganjavi a thinker-poet, he correctly assessed the tendency of wealth of the moral consciousness of his time, and he was absolutely right in losing the authority of unjust kings in the eyes of the people.This first great work of the poet, which put forward progressive ideas for his time - "Treasure of Mysteries" is new figuratively, as well as original in its artistic features.

The work does not have a single plot line that we see in the poet's later poems, it is structurally similar to Khagani's "Tohfatul-Iraqeyn".Nizami made a great turn in literature with this poem. He prepared the base for his future poems. If the poet acts as a mentor in this work, in the poems "Khosrov and Shirin", "Leyli and Majnun", "Iskendername" he portrayed himself as a psychologist who perfectly interprets the inner world of man.

The poet shows the character of the images he creates not only by describing their works and actions, but also by revealing their inner worlds.Nizami Ganjavi's poetry will reveal new layers and new ideas over the centuries. Unlike the West, it was a "human concept" and surpassed its predecessors in the human worldview.The great philosopher and thinker Nizami, understood the development of mankind towards a higher society with his genius.

Nizami Ganjavi brought a completely new poetic voice and breath to world literature with his five immortal poems ("Treasure of Secrets", "Khosrov and Shirin", "Leyli and Majnun", "Seven Beauties", "Iskendername"). Later Nizami's five poems were combined under the name "Khamsa" ("Five") and became popular in the literature of the Middle East under this name. Many followers of the Nizami school dreamed of creating "Khamsa" as an immortal master, but few poets achieved this dream.

Keywords: poetry, treasure of secrets, humanism, concept, human factor, love

Redaksiyaya daxil olma tarixi: 14.12.2021
Çapa qəbul olunma tarixi: 15.01.22
Filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

UOT: 821.512.162

XATUN CƏFƏRLİ
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru
hatya5@hotmail.com

ƏBÜLHƏSƏN VAQİF ŞEİRLƏRİNİN MÖVZU DAİRƏSİ VƏ JANR XÜSUSİYYƏTLƏRİ BARƏDƏ

Xülasə

İstedadlı Azərbaycan şairi Əbülhəsən Vaqif Kamranzadə 1845-ci ildə Salyanda, yoxsul bir ailədə dünyaya gəlmişdir. Atası Məhəmməd Həsən bərədə fəhlə işləsə də bir müddət oğlunu mədrəsədə oxutdura bilmişdir. Gənc Əbülhəsən mədrəsədə fars dilini, klassik poeziyanı, xüsusilə Xaqani Şirvani, Nizami Gəncəvi, Sədi, Cami, Nəvai, Füzuli əsərlərini öyrənmişdir.

Klassik ədəbiyyatla bu tanışlığın onun gələcəkdə şair kimi formalaşmasında mühüm rol oynamışdır. Gənclik illərindən şeirə böyük həvəsi olan Əbülhəsən Əmir Xosrov Dəhləvi, Sədi Şirazi, Əbdürrəhman Cami şeirlərinə cavablar yazmışdır.

Əbülhəsən Vaqif lirik-aşiqanə şeirlər yazmaqla bərabər dövrünün ədalətsizliklərini də tənqid edir, maarifçilik ideyalarını təbliğ edirdi. Şairin riyakar mollaları tənqid etdiyi şeirləri yerli fanatiklərin xoşuna gəlmir, onu təqib etməyə başlayırlar. Əbülhəsən bir müddət gizlənir, sonra isə 1888-ci ildə birdəfəlik Bakıya köçür. Burada təxminən 60 yaşlarına qədər gəmidə işləyir. Ə.Vaqif Bakıda yaşadığı zaman yerli şairlərlə tanış olub, dostlaşır. Bakı şairlərinin "Məcməüş-şüəra" ədəbi məclisinin fəal üzvlərindən birinə çevrilir. Ə.Vaqif bu dövrdə bir sıra gənc şairlərin formalaşmasında mühüm rol oynamışdır. Dövrün istedadlı lirik, satirik şairi Əliağa Vahid şeirlərində onu hörmətlə bir ustad kimi yad etmişdir.

Əbülhəsən Vaqifin ən kamil lirik şeirlərində Məhəmməd Füzulinin güclü təsiri hiss olunur. Ümumiyyətlə, bu dövrdə şairlər Füzuli ənənələrini davam etdirirdilər.

Ə.Vaqif Füzuli qəzəllərinə bir sıra diqqətəlayiq nəzirələr, təxmislər yazmışdır. Şair Füzuli ədəbi məktəbinin istedadlı ardıcıllarından olmuşdur. Ə.Vaqif bir sıra şeirlərini, o cümlədən, Füzuli şeirlərinə yazdığı nəzirə və təxmisləri XX əsrin əvvəllərində dövri mətbuatda, "İqbal" qəzetində çap etdirmişdir.

Əbülhəsən Vaqif cəmiyyətin inkişafına mane olan qüvvələri tənqid edən bir sıra şeirlər yazmışdır. Onun vətənpərvərlik mövzusunda yazdığı şeirlər də böyük maraq doğurur. Ə.Vaqif görkəmli türk sərkərdəsi, Osmanlı dövlətinin müdafiə naziri Ənvər paşaya ilk şeir həsr edən şairlərimizdəndir.

Şair 1914-cü ildə Bakıda vəfat etmişdir. Onun qəzəl, təxmis, növhə, qitə janrlarında yazdığı şeirləri əlimizə çatmışdır. Filologiya elmləri doktoru, professor Cənnət Nağıyevlə bu əsərləri 2000-ci ildə bir kitab halında nəşr etdirmişdir.

Açar sözlər: *Əbülhəsən Vaqif, Salyan, Bakı, qəzəl, təxmis*

Giriş

XIX əsrin sonları-XX əsrin əvvəllərində Salyan kiçik bir məkan olsa da buradakı canlı mədəni həyat diqqəti cəlb edirdi. Salyanda geniş bilik dairəsinə malik ilahiyyat alimləri, peşəkar xəttatlar, musiqişünaslar, şair və yazıçılar yaşayır və fəaliyyət göstərirdilər. Buradakı mədrəsələrdə xəttatlıq, ədəbiyyat, fars dili, təcvid (Quran qiraəti) və s. fənlərdən dərs deyilirdi. Mütərəqqi görüşlü şəxslər övladlarını Sankt-Peterburqa, Tiflisə və s. yerlərə təhsil almağa göndərirdilər. Bu dövrdə Salyandan olan görkəmli ziyalılardan yazıçı Əli bəy Hüseynzadə, şair Miskin Nağı, "Asi" təxəllüsü ilə şeirlər yazan Dəlil, "Boşboğaz", "Tifil", "Boş-boş danışan" və "Pərişan" imzaları ilə mətbuatda satirik məqalələri ilə çıxış edən Molla İbrahim, "Molla Nəsrəddin" jurnalında "Telefon Xeyransa", "Salyan qumarbazı" imzası ilə çıxış edən Ağa Əli Qasımov və başqalarını göstərmək olar. Azərbaycanın digər yerlərində olduğu kimi, Salyanda da poeziya xüsusi bir vüsətlə inkişaf edirdi. Tədqiqatçılar haqqında danışdığımız dövrdə ölkəmizin, demək olar ki, bütün məkanlarında şeirin inkişafının özünəməxsus xüsusiyyətləri barədə yazırlar: "Ədəbiyyatın başqa sahələri kimi poeziya da yüksəliş mərhələsinə qalxır, şeirdə maarifçilik və demokratizm ideyaları, xəlqilik və humanizm ruhu tənqid pafosu və satira güclənir. Bununla belə, həmin dövrdə klassik romantik şeirin üslub modeli və problemləri hələ dəyişmir. Əksinə, poeziyada Füzuliyanəlik kütləvi şəkil alır. Füzuliyanə yazmaq uğrunda qızğın yarış gedir. Şairlər öz oxucularını Füzulidən uzaqlaşdırmaq, ondan fərqlənmək yolu ilə deyil, Füzuliyə yaxınlaşmaq, ona bənzəmək yolu ilə heyrətləndirməyə çalışırlar(1,s. 281-282).

Bu deyilən xüsusiyyətlər istedadlı salyanlı şair Əbülhəsən Vaqifə də aiddir. Əbülhəsən Vaqif Kamranzadə 1845-ci ildə Salyanda, yoxsul bir ailədə dünyaya gəlmişdir. Atası Məhəmməd Həsən bərədə usta işləmişdir. Ailəsini çətinliklə dolandıran bu şəxs oğluna yerli mədrəsədə yarımçıq da olsa təhsil verə bilmişdi. Oxuduğu Salyan mədrəsəsində gənc Əbülhəsən fars dilini, klassik ədəbiyyatı, xüsusilə də Xaqani, Nizami, Sədi, Cami, Nəvai və Füzulinin əsərlərini öyrənmişdi. Aldığı biliklər onun gələcəkdə şair kimi formalaşmasında mühüm rol oynamışdır. Maddi çətinliklər üzündən mədrəsədəki təhsilini yarımçıq qoyan Əbülhəsən gündüzlər bərədə işləmiş, gecələr isə klassik poeziyanı öyrənməkdə davam etmiş, şeirlər yazmışdır. Onun xüsusilə Füzuli təsiri ilə yazdığı şeirlər diqqətəlayiqdir.

Əbülhəsən Vaqif lirik şeirlərlə bərabər dövrün eybəcərliklərini tənqid edən, riyakar din xadimlərini ifşa edən əsərlər də yazırdı. Bu yazılarına görə dini fanatiklər

onu təqib etməyə başlayırlar. Ə.Vaqif bir müddət gizlənib, sonra isə, 1888-ci ildən birdəfəlik Bakıya köçür. Bakıda şair yerli şairlərlə tanış olur, Bakı şairlərinin "Məcməüş-şüərə" ədəbi məclisinin fəal üzvü olur.
Əbülhəsən Vaqif 1914-cü ildə Bakıda vəfat etmişdir.

Əsas hissə

Əbülhəsən Vaqifin şairlik istedadı həqiqi mənada Bakıda, yerli şairlərin "Məcməüş-şüəra" ədəbi məclisinin üzvü olduğu illərdə planlamışdır. Təsadüfi deyil ki, mərhum tədqiqatçı Nəsrəddin Qarayev "XIX əsr Azərbaycan ədəbi məclisləri" monoqrafiyasında Ə.Vaqifdən danışarkən onu həmin məclisin üzvləri sırasında yad etmişdir. Alim şairin əsərlərinin dili, yaradıcılıq üslubu barədə yazır: "Füzuli məktəbinin nümayəndələrindən olan aşiqanə qəzəllər müəllifi Vaqifin işlətdiyi ifadə və təşbehlərdə Füzuli təsiri açıq görünsə də, şeir özünəməxsus axıcı dilə, orijinal üsluba malik olmuşdur. Orta əsr qəzəl şairlərindən fərqli olaraq XIX əsr şairlərinin əksəriyyətində olduğu kimi, Vaqif də ərəb-fars tərkiblərinə az təsadüf edilir" (2,s.297).

Əbülhəsən Vaqifin şeirlərində obrazlı, oxucuların ürəyinə yatan bir ifadə tərzi görünür. Filologiya elmləri doktoru, professor Cənnət Nağıyeva onun şeirlərini təhlil edərkən yazır: "Həqiqətən, bu misralar ifadə cəhətdən çox sadə, ürəyə yatımlı olmaqla bərabər necə də obrazlıdır"(3,s.6). Şairin yaradıcılığında qəzəllər mühüm yer tutur. Bu şeirlərdə klassik poeziya ənənələri ilə bağlılıq, klassik poeziyadan gələn obrazların daha çox işlənməsi diqqəti cəlb edir. Bundan başqa, o, lirik şeirlərini məşuqəyə mraciətən yazmağı sevir. Bir qəzəlində şair sevgilisinin uca qəddini sərv ağacına bənzədir, onu görüşə dəvət edir:

Ey qədi sərvi-rəvan, gəl bir xuraman naz ilə,
Sərvi-azadi-qədin tək nəxl gələməz hasilə.
Xaneyi-könlümdə eşqin saxlamadım eldən nihan,
Göz yaşım bir tifltək faş eylədi eldən-elə.
Sən qənisən hüsndə, mən fəqrəm eşqdə,
Mən sənə qurban olum, lütf et təsəddüq aşiqə(4,s.17).

Şairin lirik qəhrəman-aşiq özünü günahkar hesab edir ki, məşuqəsini sevdiyini gizlədə bilməmiş, aləmə faş etmişdir. Lakin bunun əsas günahkarı bu eşqi hər kəsə yayan göz yaşlarıdır.

Başqa bir qəzəlində Əbülhəsən Vaqif ona söz verib aldatmış vəfasız gözəldən şikayət edir. Bu vəfasızlıq onun könlünü para-para etmiş, dərdə salmışdır.

Verdim könül, inandım bir bivəfa nigarə,
Aldatdı, cövr qıldı, dil oldu parə-parə.
Zövrəq kimi vücudum qərq olmaq istər indi,
Qəm mövci başdan aşdı, çək, ey Xuda, kənarə.
Göz yaşım oldu cari şəb ta səhər üzümdən,
Yoxdur göy üzrə, billah, böylə axan sitarə.

Yoxdur təbibi-haziq, avarə qalmışam mən,
Bu dərdimə kim eylər xaliqdən özgə çarə (4,s.19).

Göründüyü kimi, şair burada klassik ədəbiyyatda çox işlənən göz yaşı obrazından geniş istifadə etmişdir.

Şairin təxmisləri də diqqətəlayiqdir. Əlimizə onun Füzuli və Osmanlı şairi Nabinin şeirlərinə təxmisləri çatmışdır. Füzulinin "Gördüm" rədifli qəzəlində yalnız məşuqədən deyil, zəmanədən, insanlardan da şikayət vardır. Ə.Vaqif Füzuli şeirlərini elə dərindən əxz etmişdir ki, tərəfindən yazılmış müxəmməs təəssüratı oyadır:

Könül, bel bağlama dünyayə, dünyanı fəna gördüm,
Həqiqət, əhli-eşqi dəhrdə əhli-bəqa gördüm,
Vəfalı kimsənin daim işin ahü nəva gördüm
Vəfa hər kimsədən kim, istədim, ondan cəfa gördüm,
Kimi kim, bivəfa dünyada gördüm, bivəfa gördüm"

Füzuli qəzəlinin birinci beytində yer üzündə vəfalı kimsəni görmədiyini, xəyal qırıqlığına uğradığını deyir. Vaqif bu beyti əlavə etdiyi bu fikri misralarında inkişaf etdirir.

Əbülhəsən Vaqif qəzəlinə təxmis yazdığı ikinci şair böyük Osmanlı sənətkarı Nabidir. Azərbaycanda Nabi şeirlərinə nəzirə və təxmis yazan şairlər olmuşdur. Nabi qəzəlinə yazdığı təxmis göstərir ki, şair Osmanlı sənətkarın yaradıcılığına dərindən bələd olmuşdur.

Əbülhəsən Vaqifin Osmanlı dövlətinin müdafiə naziri, görkəmli türk sərkərdəsi Ənvər paşaya həsr etdiyi şeir böyük maraq doğurur. Məlum olduğu kimi Ə.Vaqif 1914-cü ildə vəfat etmişdir, şair 1918-ci ildə Azərbaycanda baş verən hadisələri, Bakıdakı daşnak-bolşevik genosidini, Qafqaz-İslam ordusunun gəlişini görməmişdir. Buna baxmayaraq, elə bil ki, gələcək hadisələri hiss etmiş, Ənvər paşaya hörmət və ehtiramını bildirən şeir yazmışdı. Əsər sərkərdənin tərifi ilə təntənəli surətdə başlanır. Burada Ənvər paşa qəhrəman bir sərkərdə kimi təqdim olunur:

Ey olan dava günündə çün pələng, Ənvər paşa!
Görməyib ömründə Rüstəm böylə cəng, Ənvər paşa!
Deyir tək dünyayə saldın qəlqələni qövsvar,
Bu səda, bu sulətü topu tüfəng, Ənvər paşa!(4,s.48).

Hiss olunur ki, şeir Birinci Dünya müharibəsi illərində yazılmışdır. Müəllif Ənvər paşanın, Osmanlı ordusunun qələbəsinə inanır, bunu Qurandan ayələrlə izah edir. Rusiya imperiyasının işğalı altında yaşayan, bir Azərbaycan türkü olan Ə.Vaqifin Osmanlı ordusunun uğurları ilə sevinməsi təbii idi:

Ayeyi-fəthü zəfər səndə göründü aşkar,
Qüdrəti-Xaliq sənə oldu pəşəng, Ənvər paşa!
Mərhəba, canım fəda ol dəst-bazuna bu gün,

Gərdəni-ədaya saldın pələng, Ənvər paşa!
Külli-rubahiyan qaçdı qabağından sənin,
Şir tək açdı əduya onda cəng Ənvər paşa!
Yaşasın Ənvər paşa, millət yolunda cəhd edib,
Şişeyi-əğyarə vurdu çərəngi-səng, Ənvər paşa!(4,s.48).

İlkin dövrlərindən Osmanlı sərkərdələri islam, millət uğrunda cihad edənlər kimi tərifləmişlər. Bu şeirdə də Ənvər paşa millət yolunda cəhd, cihad edən ordu başçısı kimi təqdim edilir.

Ə.Vaqifin Qacarlar dövlətinin hökmdarı Əhməd şahın hakimiyyətə gəlişinə həsr etdiyi kiçik bir şeiri də vardır. Şair hökmdarı təbrik etdikdən, dualar oxuduqdan sonra onun ölkəni ədalətlə idarə etməsini arzulayır: "Ədl ilə ömr eləsin sübhü məsavü salü mah"(4,s.47).

Əbülhəsən Vaqifin əlimizə çatmış az saylı şeirləri içində dini mövzulu əsərlər, məhərrəm ayında oxunan növhə və əfəradlar da vardır. Şair bu əsərlərini Kərbəla səhrasında baş verən faciəli hadisələrin iştirakçılarının dilindən yazmışdır ki, bu da buları daha da təsirli etmişdir. Məsələn, müəllif Zeynəbin dilindən Fatimeyi - Zəhraya müraciət edir. Bu müraciətdə,o, başına gələn müsibətləri danışır

Günümü Şamda Şam əhli edib şam mənim,
Bu qara zülfim ağ etmədi ənam mənim.
Gətirib Şama nə halilə məni Şümri-dəğa,
Tutub əfratımı yüz növ qəmü dərdü bəla.
Quru yerlərdə yatır, ey ana can, ali-əba,
Qəm mənim, qüssə mənim, möhnətü alan mənim(4,s.42).

Nəticə

XIX əsrin ikinci yarısı-XX əsrin əvvələrində yaşamış istedadlı Azərbaycan şairlərindən biri də Əbülhəsən Vaqif Kamranzadə Salyani olmuşdur. O, 1845-ci ildə Salyanda dünyaya gəlmiş, natamam mədrəsə təhsili görmüş, fars dilini, klassik poeziyanı mükəmməl öyrənmişdir. Dövrünün bir çox sənətkarları kimi Əbülhəsən daha çox Füzuli yaradıcılığından bəhrələnmişdir. 1888-ci ildən Bakıya köçən sənətkar yerli yeni şairlərlə yaxınlaşmış, Bakı şairlərinin "Məcməüş-şüəra" ədəbi məclisinin fəal üzvlərindən olmuşdur. Şair bir sıra yerli sənətkarların yetişməsində mühüm rol oynamışdır.

Əbülhəsən Vaqifin ədəbi irsinin az bir hissəsi əlimizə çatmışdır. Onun bəzi şeirləri XX əsrin əvvəllərində mətbuatda çap olunub. Filologiya elmləri doktoru, professor Cənnət Nağiyeva 2000-ci ildə onun əsərlərini kitab halında çap etdirmişdir.

Əbülhəsən Vaqif qəzəl, təxmis, növhə, əfrad janrlarında əsərlər yazıb. Onun qəzəlləri lirik-aşiqanə mövzudadır, bu əsərlərdə klassik poeziyanın obrazları, Füzuli təsiri özünü aşkar göstərməkdədir. Şair Füzuli və Osmanlı şairi Nabi qəzəllərinə təxmis yazıbdır. Ə.Vaqifin dövrünün ədalətsizliklərini tənqid edən, riyakar din xadimlərinin iç üzünü açan şeirləri də vardır. Ə.Vaqifin Osmanlı sərkərdəsi Ənvər

paşaya həsr etdiyi şeiri böyük maraq doğurur. Ümid edirik ki, yeni axtarışlar şairin yenin əsərlərinin aşkar edilməsinə səbəb olacaqdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. Dördüncü cild. Bakı: "Elm", 2011,860s.
2. Qarayev Nəsrəddin. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı: "Nurlan", 2012,325s.
3. Nağıyeva Cənnət. Əbülhəsən Vaqif Salyani haqqında/ Əbülhəsən Vaqif Kamranzadə Salyani. Şeirlər. Bakı, 2000. s.3-10.
4. Əbülhəsən Vaqif Kamranzadə Salyani. Şeirlər. Tərtib edən və ön söz müəllifi: Cənnət Nağıyeva. Bakı, 2000,55s.

Хатун Джафарли

Темотика и жанровые особенности стихов Абулгасана Вагифа

(Резюме)

Талантливый азербайджанский поэт Абулгасан Вагиф Кямранзаде родился 1895 году в Сальяне, в бедной семье. Его отец работал рабочим в пароме. Несмотря на это он смог дать сыну неполное образование в местном медресе. Молодой Абулгасан изучил в медресе персидский язык, классическую поэзию, произведения Хагани Ширвани, Низами Гянджеви, Джами, Наваи, Физули. Это знакомство с классической литературой сыграла в дальнейшем важную роль в становлении его как поэта. Абулгасан с юношеских лет очень интересовался поэзией, писал назире (подражания) к стихам Амира Хосрова Дехлави, Сади Ширази, Абдуррахмана Джами.

Абулгасан Вагиф наряду с лирическо – любовными стихами писал стихи, критикующие несправедливости своего времени. Пропагандировал просветительские идеи. Стихи поэта, где разоблачающие двуличных религиозные деятели не понравились местным фанатикам, они начали его преследовать. Абулгасан некоторые время скрывался, а с 1888 года навсегда переехал в Баку. Здесь он почти до 60 лет работал на корабле. Во время проживания в Баку. А. Вагиф знакомится и дружит с местными поэтами, становится активным членом «Маджмауш – шуара» - литературным собранием бакинских поэтов. В это время А. Вагиф сыграл важную роль в формировании местных молодых поэтов. Один из талантливых поэтов того времени. А.Вагид уважительно называет А. Вагифа своим учителем. В произведениях А. Вагифа больше всего чувствуется влияние М.Физули. В это время поэты больше всего были продолжателями традиций М. Физули. Поэт написал ряд интересных

назире и тахмисов на стихи Физули. В начале XX века он опубликовал ряд своих стихов в газете «Игбал».

А. Вагиф написал ряд стихов, критикующие силы, которые мешали развитию общества. Вызывают большой интерес его стихи, написанные в патриотическом духи.

Поэт посвятил стихи выдающемуся полководцу, министру обороны Османского государства Энвер паше. Поет умер в 1914 году в Баку. До нас дошли его стихи, написанные в жанрах газель, тахмис, новха, кыта. В 2000 году доктор филологических наук, профессор Джаннет Нагиева собрав эти стихи издала их отдельной книгой.

Ключевые слова: *Абулгасан Вагиф, Сальян, Баку, газель, тахмис.*

Khatun Jafarli

Themes and genre features of Abulgasan Vagif's poems (Summary)

Talented Azerbaijani poet Abulgasan Vagif Kamranzade was born in 1895 in Salyan, in a poor family. His father worked as a ferry worker. Despite this, he was able to give his son an incomplete education at a local madrasah. Young Abulgasan studied the Persian language, classical poetry, the works of Hagani Shirvani, Nizami Ganjavi, Jami, Navai, Fuzuli at the madrasah. This acquaintance with classical literature played an important role in his further development as a poet. Abulgasan was very interested in poetry from his youth, wrote nazira (imitations) to the poems of Amir Khosrov Dehlavi, Saadi Shirazi, Abdurrahmani Jami.

Abulgasan Vagif, along with lyrical and love poems, wrote poems criticizing the injustices of his time. Propagandized educational ideas. The poet's poems, where two-faced religious figures were exposed, did not like the local fanatics, they began to persecute him. Abulgasan was in hiding for some time, and since 1888 he moved permanently to Baku. Here he worked on a ship for almost 70 years. While living in Baku, A. Vagif meets and befriends local poets, becomes an active member of the "Majmaush - shuar" literary collection of Baku poets. At this time, A. Vagif played an important role in the formation of local young poets. One of the talented poets of that time, A. Vagid respectfully calls A. Vagif his teacher. A. Vagif's influence is felt most of all by M. Fuzuli. At that time, poets were most of all continuers of the tradition of M. Fuzuli. The poet wrote a number of interesting nazirs and tahmis based on Fuzuli's poems. At the beginning of the twentieth century, he published a number of his poems in the newspaper “Igbal”.

A. Vagif wrote a number of poems criticizing the forces that hindered the development of society. His poems written in a patriotic spirit are of great interest.

The poet dedicated poems to the outstanding commander, the Minister of Defense of the Ottoman state Enver Pasha. The poet died in 1914 in Baku. His poems written in the genres of gazelle, tahmis, nova, kata have come down to us. In 2000, Doctor of Philology, Professor Janet Nagieva collected these poems and published them in a separate book.
Keywords: *Abulgasan Vagif, Salyan, Baku, gazelle, tahmis.*

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya elmlər doktoru professor
Tərlan Quliyev tərəfindən çapa tövsiyyə olunmuşdur.

KƏRIMOVA NƏRMIN YALÇIN QIZI
Azərbaycan Dillər Universiteti
info@adu.edu.az
narminbabazadeh@mail.ru

APOKALİPTİK ƏDƏBİYYATDA ZORAKILIĞIN TƏZAHÜRÜ (KORMAK MAKKARTİ YARADICILIĞI ƏSASINDA)

Xülasə

İkinci Dünya müharibəsindən sonra apokaliptik ədəbiyyat janr kimi formalaşmağa başlamışdır. Apokalipsis mövzusunda yazan yazıçıların əsərlərində cəmiyyətin məhv olması, dünyanın tanınmaz hala düşməsi öz əksini tapır ki, bu müəlliflərdən biri də Kormak Makkartidir.

Çağdaş Amerika ədəbiyyatının görkəmli simalarından olan Kormak Makkartinin yaradıcılığı ilə bağlı tənqidçilər bir çox fikirlər səsləndirərək onun əsərlərinin sirli elementlərlə zəngin olduğunu, dərin fəlsəfi məzmunu ilə seçildiyini qeyd edirlər. Özgələşmə, azadlıq, yaşam mübarizəsi və s. kimi problemlər yazıçının yaradıcılığında əsas mövqe tutur.

Kormak Makkartinin əsərlərinin bir çoxunda çətinliklərlə üzləşən, özgələşmiş, cəmiyyətlə ziddiyyət təşkil edən, düşüncəsilə deyil, instinktlərilə hərəkət edən obrazlar görmək mümkündür. İnsanların sağ qalmaq şanslarını artırmaq üçün birgə cəhd göstərmələri vacib olduğu apokaliptik dünyada Kormak Makkarti instinktlərin insan məntiqini necə əvəzlədiyini göstərməyə çalışır. İnsanların təcavüzkar instinktlərini dəyişdirməyin mümkünsüzlüyü ideyasından çıxış edən müəllif qan tökülmədən həyatın mövcud ola bilməyəcəyi düşüncəsini irəli sürərək hər kəsin harmoniya içərisində yaşamasını təhlükəli fikir hesab edir. Yazıçı romanlarında daim insan təbiətinin ən qaranlıq tərəflərini araşdırır ki, məqalədə bəhsi keçən "Qanlı meridian" və "Yol" romanları bu istiqamətdə tədqiqata cəlb olunmuşdur.

Açar sözlər: Kormak Makkarti, apokalipsis, zorakılıq, "Qanlı Meridian", "Yol", Holden, ata, oğul

XX əsrdə baş verən müharibələr Qərb mədəniyyətində apokalipsis mövzusunda əsərlərin yazılmasına şərait yaratmışdır. İkinci Dünya müharibəsindən sonra janr kimi formalaşmağa başlayan apokaliptik ədəbiyyat 1980-ci illərdə hibridləşdirilmiş, 2000-ci ildən etibarən isə geniş şəkildə istifadə olunmağa başlanılmışdır. Çağdaş Amerika ədəbiyyatında apokaliptik düşüncə tərzinin müəyyənləşdirilməsi yazı üslubuna görə Uilyam Folkner və Herman Melvillə müqayisə olunan Kormak Makkarti yaradıcılığında da əksini tapmışdır.

Zaman axışı və müəyyən mərhələdə bu axışın sona çatması apokaliptik düşüncə tərzinin əsasını təşkil edir ki, Kormak Makkarti yaradıcılığında bu ideologiyanı işıqlandırır.

Edvin Arnold "Adlandırma, bilmə və heçlik: Makkartinin mənəvi məsələləri" (*"Naming, Knowing and Nothingness: McCarthy's Moral Parables", 1993*) adlı məqaləsində iddia edir ki, müəllifin yaratdığı obrazlar hamımızın paylaşdığı sevgi, yalnızlıq, günahkarlıq, utanc, ümid və ümidsizlik kimi hissləri yaşayır. *"Onun romanlarında oxuculara obrazların müvəffəqiyyətsizliyə uğramasını, yaxud xırda bir uğura sahib olmalarını mühakimə etmək imkanı yaradan mənəvi ölçü vardır"* [1, s. 44].

Kormak Makkartinin əsərlərində özgələşmə və tənhalıq kimi motivləri görmək mümkündür ki, cəmiyyətdən kənarda yaşamaq şəxsiyyətin bütövləşməsinin yeganə yoludur. Onun qəhrəmanları tənha qaldıqları zaman mənəvi təkamülə nail olmaq imkanı əldə edirlər. Müəllif əsərlərində *"qanın tökülmədiyi bir həyat mövcud olmadığı"* [8, s. 31] fikrindən çıxış edir.

Müəllifin "Bağça gözətçisi" (*"The Orchard Keeper", 1965*), "Çöldəki qaranlıq" (*"Outer Dark", 1968*), "Tanrının övladı" (*"Child of God", 1973*), "Satri"(*"Suttree", 1979*) adlanan ilk romanlarında hadisələr Cənubda, özünün böyüyüb boya-başa çatdığı Tennessi ştatında cərəyan edir. İlk əsərlərində onun qrotesk və qotika ənənəsinə bağlılığı daim tənqidçilərin diqqət mərkəzində olmuşdur. "Qanlı meridian" (*"Blood Meridian", 1985*) romanında isə coğrafi məkanı dəyişən yazıçı Cənub-Qərb bölgəsində hadisələri təsvir etməyə yönəlir. Buna baxmayaraq, mövcudluq problemi, insan təbiətinin qaranlıq tərəfləri bu əsərdə də aktuallığını qoruyub saxlayır.

Kormak Makkarti yaradıcılığının tədqiqatçılarından olan Leo Doherti "Qanlı meridian"ı qnostik baxış bucağından təhlil edir və ümidsiz dünyada axtarılan ümidi sorğuya çəkir. Romanda "qan" həqiqi mənasında çıxış etməklə yanaşı, həm də emosional, psixoloji yara kimi dərk olunur.

Əsərdə "uşaq" adlandırılan yeniyetmə, əslində, Qərb tarixindəki gənc qanunsuz silahlı şəxsləri simvolizə edir. Hakim Holden yerli amerikalıların, meksikalıların yox edilməsi fikrini müdafiə edir. Hakim Holden ilə uşağın münasibəti tarixi model yaradaraq apokaliptik transformasiyaya gətirib çıxarır.

Uşağın Tennessidəki keçmişindən imtina edərək qərbə doğru yol alması yeni dünyada şəxsiyyət yaratmaq istəyini göstərir. *"His origins are become remote as is his destiny and not again in all the world's turning will there be terrains so wild and barbarous to try whether the stuff of creation may be shaped to man's will.."* [5, s. 4-5]. – *"Onun kökləri taleyi kimi uzaqlardadır və yeni dünyada bir daha heç vaxt yaradılışın insan iradəsinə görə formalaşıb-formalaşmadığını müəyyənləşdirmək üçün bu qədər vəhşi və barbar yerlər olmayacaq".*

İlk olaraq kapitan Uaytın ordusuna qoşularaq Meksikanın işğalında iştirak edən protaqonist həbsə düşdükdən sonra Qlantonun dəstəsinə daxil olur. Burada o,

qatil kimliyini təsdiq etməyə müvəffəq olur. Lakin dəstə üzvlərində mərhəmət duyğusu tamamilə yoxa çıxmışdısa, uşaq qəlbinin dərinliyində bu hissi qoruyub saxlamışdı. Dəstə üzvlərini xilas etmək üçün həyatını təhlükəyə atması, Qlantona qarşı çıxaraq Dik Şelbini bağışlaması səhnələrində bu fikri təsdiqləmək mümkündür. Məhz bu səbəbdən hakim onu müharibənin mənəvi dəyərlərinə uymamaqda günahlandırır.

Müəllif öz protaqonistini yaxşı və ya pis olaraq şərh etmir, sadəcə uşaq həyatda qalmaq üçün lazımi şərtləri yerinə yetirməlidir. Deməli, insan hərəkətlərini onu çevrələyən mühit tənzimləyir.

Yazıçı "Qanlı meridian"da ölümdən simvol kimi istifadə edərək zorakılığın təsvirini verir. Protaqonistin cəsədlə dolu maşınla qarşılaşdıqdan sonra mübahisə əsnasında bir insanın həyatına son qoyması buna misal ola bilər. Eyni zamanda uşağın kapitan Uayt ilə görüşü zamanı ölüm zənglərinin səsinin eşidilməsi xəbərdarlıq məqsədi daşıyır ki, Uaytın yanında olanların sonunu simvolizə edir.

İblisin alleqoriyası kimi çıxış edən Holden tarix üzərində hakimliyini tətbiq etməyə cəhd göstərir. *"The man who sets himself the task of singling out the thread of order from the tapestry will by decision alone have taken charge of the world... and thus dictate the terms of his own fate"* [5, s. 199] – *"Qobelendən nizamlı şəkildə sapı ayırmağı qarşısına məqsəd qoyan şəxs öz qərarı ilə yalnız dünyanı idarə edəcək... Beləliklə, öz taleyinin şərtlərini diktə edəcək"* fikrindən çıxış edən hakimin iri bədəni tarixə qarşı yönələn müqaviməti təcəssüm etdirir. Qeyd dəftərində çəkdiyi eskizlər ilə hakim dünyanı anlamağa və dünyaya hakim olmağa səy göstərir. Onun yaratdığı situasiya xaosu daha da artırır, kin və nifrət hissini aşılayır.

Apaçilərin qətlinə yardım edən, sadist Holden müharibəni dəstəkləyən xarakter kimi çıxış edərək insanların, xüsusilə gənclərin müharibəyə olan sevgisindən bəhs edir. Uşağın Qlantonun başçılıq etdiyi baş dərisi ovçularının dəstəsinə qoşulmaq həvəsi bu fikri təsdiqləyir. Onu da qeyd etmək lazımdır ki, tarixi şəxsiyyət kimi tanınan Con Coul Qlanton müstəqillik uğrunda mübarizə aparmış, Meksika-Amerika müharibəsindən sonra Amerikanın cənub-qərbində baş dərisi ovçularına rəhbərlik etmişdir. Romanda Qlanton ailəsini tərk edən, qana susayan biri kimi təsvir edilir.

Holden qeyd edir ki, müharibə iradə döyüşünə bənzəyir. Bəşəriyyəti idarə etmək gücünə malik olduğu üçün müharibə Tanrıya bərabər tutulur. Buna görə də müharibəyə xidmət edən şəxslər bütün dünyaya hakim olan tanrılara çevrilir. Lakin müharibəyə lazımınca xidmət göstərə bilməyənlər hökmranlıqlarını itirir və unudulmağa məhkum olurlar.

Uşaq və hakim arasında müqayisə aparılsa, hakimin daha qəddar olduğunu vurğulamaq olar. Ceyms Dorsenin "Hakimin sirrinin açılması: Kormak Makkartinin "Qanlı meridian"ında qanun və mifik zorakılıq" (*"Demystifying the Judge: Law and Mythical Violence in Cormac McCarthy's Blood Meridian", 2013*) məqaləsində hakim obrazının xarakteristikasını verərkən dediyi kimi hakim zorakı dünyanın

yaratdığı şiddətə meyl edən insan deyil, o, dünyaya zorakılığı təbliğ edən biridir. *"Hakim və zorakılıq əlamətləri romanda bir-birilə elə sıx bağlıdır ki, onlardan birini başa düşmədən digərini təhlil etmək çətindir"* [3, s. 107].

K.Makkartinin 2007-ci ildə Pulitzer mükafatına layiq görülmüş, bəşəriyyətin taleyi fikrindən çıxış edən "Yol" (*"The Road", 2006*) romanında isə həyatda qalmaq üçün şiddətə əl atıb mübarizə aparan insanların yaşadığı, qanunların olmadığı dünya təsvir edilir. Yazıçı tənəzzülə uğramış cəmiyyəti canlandıraraq naməlum gələcək haqqında sual qaldırır, qiyamətdən sonra dünyanın gəldiyi vəziyyətin *"insan hərəkətlərinin nəticəsi"* [4, s. 100] olaraq qiymətləndirir.

Əsərdə səbəbi bəlli olmayan hadisələr nəticəsində məhv olan dünyada ata və oğulun yaşam mübarizəsi əks etdirilir ki, onlar Cənuba doğru üz tutaraq qurtuluş yolu axtarırlar. Cənuba doğru gedən yolda talan edilmiş yanacaqdoldurma məntəqələri, marketlər, dağılmış reklam lövhələri, boş qalmış evlər təsvir olunur.

Ata və oğul arasındakı münasibət romanın əsasını təşkil edir. Qaranlıq və soyuq meşədə yuxudan oyandıqda atanın görəcəyi ilk iş oğlunun yanında olub-olmadığını yoxlamaqdır. Çünki oğlunun mövcudluğu sayəsində ata yaşamaq, ölümə müqavimət göstərmək iqtidarındadır.

Oğul viran qalmış dünyada ümidi əks etdirir, məhz ata da bu "ümidi" qorumaq məcburiyyətindədir: *"My job is to take care of you. I was appointed to that by God"* [6, s. 65]. – *"Mənim vəzifəm sənin qayğına qalmaqdır. Mən Tanrı tərəfindən bu vəzifəyə təyin olunmuşam"*.

Oklahoma Baptist Universitetinin dosenti Alan Nobl "Kormak Makkartinin "Yol" romanında ümidin absurdluğu" (*"The Absurdity of Hope in Cormac McCarthy's The Road", 2011*) adlı məqaləsində *"inam və inamsızlıq atanın düşüncəsində hibridlik təşkil edir"* [7, s. 102] kimi fikir irəli sürür ki, atanın dilemma qarşısında qalaraq bir tərəfdən özü və oğlunun qurtula bilməyəcəyi haqqında ümidsiz fikirlər yürütməsi, digər tərəfdən isə daha parlaq gələcək təsəvvür etməsi bu fikri təsdiqləyir.

Körpünün üstündə dayanıb suya tamaşa edən ata bir vaxtlar balıqların bu sularda üzdüyünü düşünərək balıq ovu ilə bağlı xatirələrini çox böyük məyusluq hissi ilə vurğulayır: *"He stood on a stone bridge where the waters slurried into a pool and turned slowly in a gray foam. Where once he'd watched trout swaying in the current, tracking their perfect shadows on the stones beneath"* [6, s. 21]. – *"O, suyun gölməçəyə axdığı və yavaş-yavaş boz köpüyə çevrildiyi daş körpünün üstündə dayandı. Bir zamanlar alabalıqların sudakı daşlarda əksini izlədiyi yer."*

Aclıqdan əziyyət çəksələr belə digərləri kimi adamyeyənlərə çevrilməyən, mübarizə aparan qəhrəmanların özləri də müəyyən mənada şiddətə əl atırlar. Onları öldürəcəyindən narahatlıq keçirən atanın oğlunun həyatını qurtarmaq naminə adamyeyənə atəş açması buna misal ola bilər. Həmçinin ata və oğulun əşyalarının oğurlanması səhnəsində bu motiv ön plana çıxır. Belə ki, yuxudan oyandıqdan sonra içində əşyalarını daşıdıqları əl arabasının yoxa çıxdığını görən ata oğrunu tapmağa

nail olur və həmin insanın onlarla eyni situasiyada olduğunu, həyatda qalmaq üçün mübarizə apardığının fərqinə varır. Buna baxmayaraq, ata silahı oğruya doğru tutaraq əşyalarını onlara geri qaytarmasını, üstəlik intiqam almaq üçün əynindəki geyimlərini də tələb edir. Ata mövcud olduqları dünyada xilas olmaq üçün bu cür davranmağın vacib olduğunu hesab edir.

Boş qalmış evlərin birinə girən zaman atanın güzgüdə öz əksini görərək dərhal silaha əl atması maraq doğuran hissələrdən biridir. Ata güzgüdə əks olunan insanın başqası olduğunu zənn edir. Bu səhnə insanın yaşam mübarizəsi verdiyi yeni mühitdə tanınmaz hala düşməsi, "necə olmalıyam" düşüncəsini əks etdirir.

Romanda atanın ölümündən sonra oğluna sahib çıxacaq başqa bir obrazın peyda olması hələ də bəzi insanların qəlbində yaxşılığı daşıdığını xarakterizə edir. Atası öldükdən sonra dağılmış dünyada tək qalan oğlan ona yad olan bu insandan uzaqlaşmağa can atır. Lakin onun da "atəşi" daşıdığını öyrəndikdən sonra getməyə razılıq verir. Bununla da Kormak Makkarti bəşəriyyətin xilas olacağına ümid bəsləyir.

"Atəşi daşımaq" fikri oğul və atanın söhbətində özünü göstərir ki, ata oğluna nə olursa olsun, atəşi qoruyub saxlamasını tapşırır. *"You have to carry the fire. I don't know how to... Is it real? The fire? Yes it is... I don't know where it is... It's inside you. It always was there. I can see it"* [6, s. 220]. – *"Atəşi daşımalısan. Necə edəcəyimi bilmirəm... Atəş gerçəkdirmi? Bəli. Harada olduğunu bilmirəm... O sənin içindədir. Həmişə orada olub. Onu görə bilirəm".* Məhz "atəş" yolu davam etmək üçün bir ümiddir. Viran qalmış dünyada yeganə işıq oğulun daim qəlbində daşımalı olduğu "atəş"dir. "Atəş" insan yaxşılığının təcəssümü kimi çıxış edərək mərhəmət yolunu tutmağa xidmət edir.

Romanda oğlan bütün obrazlardan fərli olaraq günahsızlığı, məsumluğu, xeyirxahlığı ilə seçilir. Qarşılaşdıqları insanların onlarla birgə sahilə gəlməsini istəyən oğlan hətta onu aclıqdan xilas edəcək yeməyini belə paylaşmağa hazırdır. Mövcud vəziyyətdə oğulun bu cür davranışı onun mərhəmətindən xəbər verməklə yanaşı, zəifliyini də göstərir.

Postapokaliptik dünyada ata və oğul dəyərsizləşdiklərini hiss etdikləri an belə bir vəziyyətdə yaşamağın mənasız olduğunu anlayırlar. Oğulun söylənilən hekayələrin yalan olduğu fikrindən çıxış edərək hekayə danışmaqdan imtina etdiyi səhnə bu cəhətdən maraq doğurur. Ata oğluna hekayələrin uydurmalardan ibarət olduğunu söyləyir ki, oğul da cavab olaraq hekayələrdə insanların həmişə bir-birinə kömək etməsini, lakin indi bu köməkdən söhbət belə gedə bilməyəcəyini qeyd edir.

Roman geri qaytarılması mümkün olmayan hadisələrin təsvir olunması fonunda dağlarda axar sularda alabalığın bir vaxtlar mövcudluğuna işarə verilməsi ilə yekunlaşır. Kormak Makkarti alabalığı əbədilik hissi ilə əlaqələndirərək bəşəriyyətin yaranmasından çox əvvəl mövcud olan həyat sirlərinə işarə edir. *"They smelled of moss in your hand... On their backs were vermiculate patterns that were maps of the world in its becoming. Maps and mazes. Of a thing which could not be put back... In*

the deep glens where they lived all things were older than man and they hummed of mystery" [6, s. 251]. – *"Yosun iyi verirdilər... Onların kürəyində dünyanın yaranma xəritəsini göstərən vermikulyar naxışlar vardı. Xəritələr və labirintlər. Geri qaytarılması mümkün olmayan bir şeydən... Yaşadıqları dərin vadilərdə hər şey insandan daha qədim idi və sirlərlə dolu idilər".*

Kormak Makkartinin qəhrəmanlarının yaxşı və ya pis xüsusiyyətlərə malik olmasından asılı olmayaraq, onların hər birinin insan taleyini müəyyən etməsində rolu var. Əsərlərində xeyir və şəri qarşılaşdıran yazıçı şiddət motivlərinin istifadəsini yaşamaq üçün vasitə kimi dəyərləndirir.

Ədəbiyyat siyahısı:

1. Arnold, E. T. Naming, Knowing and Nothingness: McCarthy's Moral Parables. Perspectives on Cormac McCarthy // University Press of Mississippi, – 1993. – pp. 43-69.
2. Daugherty, L. Gravers False and True: Blood Meridian as Gnostic Tragedy. Perspectives on Cormac McCarthy // University Press of Mississippi, 1993. – pp. 157-172.
3. Dorson, J. Demystifying the Judge: Law and Mythical Violence in Cormac McCarthy's Blood Meridian // Journal of Modern Literature, – 2013, – Vol. 36, № 2, – pp. 105-121.
4. Kunsa, A. Maps of the world in its becoming: Post-apocalyptic naming in McCarthy's The Road // Journal of Modern Literature, – 2009. Vol. 33, № 1, – pp. 57-74.
5. McCarthy, C. Blood Meridian / C. McCarthy. – New York: Random House, – 1985. – 337 p.
6. McCarthy, C. The Road / C. McCarthy. – New York: Alfred A. Knopf, – 2006. – 251 p.
7. Noble, A. The Absurdity of Hope in Cormac McCarthy's The Road // South Atlantic Review, – 2011. Vol. 76, № 3, – p. 93-109.
8. Woodward, R. B. Cormac McCarthy's Venomous Fiction. New York Times Magazine // 1992. – pp. 28-31.

КАРИМОВА Н.Я.

ПРОЯВЛЕНИЕ НАСИЛИЯ В АПОКАЛИПТИЧЕСКОЙ ЛИТЕРАТУРЕ
(по мотивам творчества Кормака Маккарти)

Резюме

После окончания Второй мировой войны апокалиптическая литература начала формироваться как самостоятельный жанр. Разрушение общества и неузнаваемость мира нашли отражение в произведениях писателей, изображающих его как апокалипсис, одним из них является Кормак Маккарти.

Критики творчества Маккарти, одного из самых видных деятелей современной американской литературы, отмечали, что его произведения богаты мистическими элементами и глубоко философичны. Такие проблемы, как отчуждение, свобода, борьба за выживание и др., занимают центральное место в творчестве писателя.

Во многих произведениях Кормака Маккарти можно увидеть персонажей, которые сталкиваются с трудностями, отчуждаются, противостоят обществу и действуют скорее инстинктивно, чем разумно. В апокалиптическом мире, где людям важно работать совместно, чтобы увеличить свои шансы на выживание, Кормак Маккарти стремится показать, как инстинкты заменяют человеческую логику.

Опираясь на мысль о невозможности изменить агрессивные инстинкты людей, автор утверждает, что жизнь не может существовать без кровопролития, и считает опасной для всех идею жить в согласии. В своих романах автор постоянно исследует самые темные стороны человеческой натуры, и в статье анализируются романы «Кровавый меридиан» и «Дорога» проводя исследования в этом направлении.

Ключевые слова: Кормак Маккарти, апокалипсис, насилие, «Кровавый меридиан», Холден, «Дорога», отец, сын

KARIMOVA N. Y.

MANIFESTATION OF VIOLENCE IN THE APOCALYPTIC LITERATURE
(based on Cormac McCarthy's creativity)

Summary

After World War II, apocalyptic literature began to take shape as a genre. The destruction of society and the unrecognizability of the world are reflected in the works of writers on the apocalypse, one of them is Cormac McCarthy.

Critics of McCarthy's works, one of the most prominent figures in contemporary American literature, have commented that his Works are rich in

mystical elements and deeply philosophical. Problems such as alienation, freedom, struggle for survival, etc. occupy a central place in the writer's work.

In many of Cormak McCarthy's works, it is possible to see characters that face difficulties, become alienated, contradict society, and act on instincts rather than thoughts. In an apocalyptic world where it is important for people to work together to increase their chances of survival, Cormac McCarthy seeks to show how instincts replace human logic. Based on the idea that it is impossible to change people's aggressive instincts, the author argues that life cannot exist without bloodshed and considers it a dangerous idea for everyone to live in harmony. In his novels, the author constantly explores the darkest aspects of human nature, and the novels "Blood Meridian" and "The Road" discussed in the article are involved in research in this direction.

Key words: Cormac McCarthy, apocalypse, violence, "Blood Meridian", "The Road", Holden, father, son

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya elmləri doktoru, professor
Aynur Zakir qızı Sabitova
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏMİRASLANOVA AYNURƏ TAHİR QIZI
AMEA Gəncə bölməsi Nizami Gəncəvi Mərkəzi
Heydər Əliyev prospekti, 419
Kiçik elmi işçi
amiraslanova-79@mail.ru

NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA DOVĞA TƏAMI MİLLİ MƏNSUBİYYƏTİN CARÇISI KİMİ

XÜLASƏ

"Dovğa" haqqında bir cox başqa mənbələrdə də məlumat verilir . Və bizim bütün rayonlarımızda "ayran aşı" və "duğba" da, "dovğa" da bu gün də hazırlanır. "Dovğanın" adı qədim tarixi kitablarımızda, orta əsr kitablarımızda da, müasir dövrdə də bütün mətbəx kitablarımızda cəkilir.

Məqalədə həm "dovğanın", həm "duğbanın", həm də "döyğanın" XIX əsrdə verilmiş reseptləri təqdim olunur. Sarayda Nadir Mirzə Qacarın "Kərnamə" kitabında onun bərdəli həyat yoldaşı, bərdə şəhzadəsi tərəfindən verilmiş "doğba" və "duğba" reseptləri nəzərimizə çatdırılır. Və o "dovğa"nın məhz bərdə yeməyi olduğunu söyləyir.

Məqalədə XII əsrdə Nizami Gəncəvi dovğanın türk xörəyi olduğunu deməklə bərabər, həm də dovğa yeyənin də türk olduğunu və bu cür milli mətbəx vasitəsilə milli kimliyin identifikasiya edildiyi araşdırılır.

Araşdırmada təkcə tutmacın deyil, həm də dovganın türkün kimlik faktoru oldugunu ilk dəfə olaraq isbat edilir. Maraqlı burasıdır ki, Nizami Gəncəvidən əvvəl hec kim dovğanın da tutmac kimi türkün kimlik faktoru olduğuna toxunmamışdır.

Bundan başqa burada "dovğa" və "dugba" ümumi oxşarlıqlarına baxmayaraq, başqa-başqa xörəklər olduğu araşdırılır, filoloji təhlil aparılır və isbat olunur.

Məqalədə "Munisnamə"də saray mətbəxində verilən yeməklərin arasındakı "doğba"nın əslində dovga, "douga" olduğu ehtimal olunur.

Beləliklə, belə qənaətə gəlirik ki, saraylarda daha yüksək keyfiyyətli, bol kərə yağlı yeməklər verildiyi ücün, saray mühitində "doyga" - dovğaya üstünlük verilirdi, dugba – ayranaşı isə daha çox rəiyyət yeməyi hesab edilirdi.

Açar sözlər: Nizami Gəncəvi yaradıcılığı, dovğa, milli mənsubiyyət, milli mətbəximizin ünsürləri.

Gəncə Azərbaycanın qədim və gözəl şəhərlərindən birdidir. Və Azərbaycanın müxtəlif dövrlərində yaranmış, bir-birinin davamı olan ayrı-ayrı dövlətlərin mərkəzi olmuşdur. Təbii ki, o dövrlərdə bir çox söz adamları, sənətkarlar saraylara toplaşırdılar. Saraylarda ədəbiyyat, elm və incəsənət kimi, həm də peşakar saray mətbəxi böyük təşəkkül tapmışdır. Məhz buna görə də Azərbaycan milli mətbəxinin

Gəncə saraylarında inkşafı, təbii ki, ədiblərin şairlərin, alimlərin, həkimlərin yaradıcılığında da öz əksini tapmışdır. Bu nöqteyi-nəzərdən XII əsr saray mətbəxinin öyrənilməsində, dəqiqləşdirilməsində Nizami Gəncəvi başda olmaqla, bir çox mütəfəkkirlərin, şairlərin bizə gəlib catmış ədəbi irsi cox böyük mahiyyət kəsb edir. Məsələ ondadır ki, Azərbaycan milli mətbəxi beş əsas istiqamət üzərində formalaşmışdır:

1.Dövlət olan yerdə mütləq saraylarda calışan peşəkar aşpazların yarattıqları saray mətbəxi.

2.Dövlət olan yerdə mütləq ordu mövcuddur, orduda isə peşəkar hərbi aşpazların yaratdıqları ordu mətbəxi.

3.Əsasən sufi təriqətləri tərəfindən formalaıdırılmış mənəvi mətbəx.

4.Xalq arasında formalaşdırılmış, anadan qıza keçən, ailə, rəiyyət mətbəxi (кухня простолюдия)

5.Satış uçun hazırlanan bazarlarda, dükanlarda, yeməkxanalarda, aş evlərdə karvansaralarda hazırlanan kütləvi iaşə, kommersiya mətbəxi.

Əlbəttə ki, bu təsnifat şərtidir. Və bu elementlər bir-birinə keçə bilir.

Bu nöqteyi-nəzərdən bu mətbəxlərin öyrənilməsi milli mətbəx tədqiqatlarında xüsusi rol oynayır. Qeyd etmək lazımdır ki, həm Nizami Gəncəvinin, həm də digər şairlərin əsərlərində mətbəxə aid məlumatlar peşəkar mətbəxlərindəki kimi verilmir. Məsələn şəkər, bal, qaymaq kimim ifadələr daha çox sevgili gözəlin dodaqlarına aid edilir. Yəni bir çox yemək, meyvə adları şairlər tərəfindən ibarə kimi işlədilir.

Bunu bir çox şairlərin əsərlərindən görürük. “Arpa çörəyi” ifadəsi kasıbçılığın, yoxsulluğun simvolu kimi, ağ buğda çörəyi isə varlılığın simvolu kimi göstərilir və s. Biz Nizami Gəncəvinin “dovqa”nın milli kimlik simvolu kimi işlənildiyini görürük.

Dovqa isti ikən şorba əvəzi açar yeməklərdən sonra verilir. Soyuq halda isə yeməyin sonunda

Nizami Gəncəvi yaradıcılığında mənsub olduğu türk boyunun tarixi, ədəbiyyatı, mədəniyyəti, adət ənənələrinin ətraflı şəkildə işıqlandırılması ilə yanaşı, milli mətbəximizin ünsürləri olan təamların təsvirinə də geniş yer verilmişdir. Bu təsvirlər həm o, həm də bu dövr üçün o qədər əhəmiyyətlidir ki, dahi mütəffəkir bu elementlərlə mill i kimliyini ifadə etmişdir.

Məhz bu məqaləmizdə Nizami Gəncəvi yaradıcılığında xüsusi vurğulanan dovğa təamının etimoloji, bədii-linqvistik təhlilindən bəhs edəcəyik.

Nizami Gəncəvinin “Yeddi Gözəl” (“Həft Peykər”) əsərində Milli identifikasiya etmək üçün XII əsrdə yeməkdən istifadə edilir.

Türkimi yox nə bu Həbəşdə alan
Dovğamı yox yeyən, nə razı qalan”

(1. səhifə 53) 1. Nizami Gəncəvi "Həft Peykər" Mütərcim Mircəlal Zəki. B. "Parlaq İmzalar" nəşr. 2021 504 səh.

Bir beytdə dovğanın türk xörəyi olduğunu deməklə bərabər, həm də dovğa yeyənin türk olduğunu göstərməklə, milli mətbəx vasitəsilə milli kimliyi identifikasiya edir.

Adətən, elmi ədəbiyyatda "tutmacı" Türkün idendifikasiya faktoru kimi göstərirlər.

Türk alimi Farig Sumər Səlcuqların Türk olduğunu göstərmək üçün bir neçə dəfə "onlar hələ də tutmac yeyirdilər" deyə sübut gətirir. (2 Farıq Sumer "Oğuzlar", B. "Yazıcı" 1992. 432 səh.)

Bir çox tədqiqatçılar tutmacı Türk kimlik faktoru kimi göstərirlər.

Bu barədə Tahir Əmiraslanov "Tutmac haqqında Dastan" məqaləsində geniş yazır. (3. Tahir Əmiraslanov "Mətbəx Dastanı" kitabında "Tutmac haqqında dastan" Bakı. Şərq-Qərb 2012. 212 səh 34-38. səhifələr)

Əlbəttə ki, türkün kimliyini bildirən tutmac xörəyi də Nizami Gəncəvinin əsərlərində olmalı idi. Nizami Gəncəvi "Həft Peykər" əsərində yazır.

Hər kimin qarnı təbl tək ki, şişir

Gülü tutmac bərginə dəyişir (1. səh 52 *1. Nizami Gəncəvi "Həft Peykər" Mütərcim Mircəlal Zəki. B. "Parlaq İmzalar" nəşr. 2021 504 səh*)

R. Əliyevin filoloji tərcüməsində bu belə oxunur:

Bəli, qarnı təbil olan üçün

Tutmac yarpağı gül yarpağından yaxşıdır. (4. səh 43 N. Gəncəvi. "Yeddi Gözəl" Filoloji tərcümə R.Əliyev B. "Elm"1983 505 səh. s.4 (2-3 cümlələr))

Maraqlı burasıdır ki, Nizamidən əvvəl kimsə dovğanın da tutmac kimi türkün kimlik faktoru olduğunu yazmayıb.

Nizami ilə eyni dövrdə yaşamış Əbu Bəkr ibn Xosrov əl Ustad da dovğanın adını çəkir.

"Munisnamə"ni Azərbaycana gətirən və onu ilk dəfə tərcümə edən mərhum alimimiz Rüstəm Əliyev kitabın rus dilinə tərcüməsində bu sözü rusca "Dovqa" kimi verir. (5. səh 244. Abu Бakr ибн Хосров ал Устад "Мунис-Наме" перевод примечания R.M.Aliyev B. языкы, 1991- 58 страница.) O yazır ki, "принесли овощной суп; довгу" (5. səh 244. Abu Бakr ибн Хосров ал Устад "Мунис-Наме" перевод примечания R.M.Aliyev B. языкы, 1991- 58 страница.)

Rus dilindən bu tərcümədə süfrəyə həm tərəvəz şorbasının, həm də dovğanın verildiyi anlaşılır. Digər tərəfdən həm də tərəvəz şorbası (овощной суп) sözündən sonra nöqtə vergül qoyulması yalnız dovğa verildiyini və onun tərəvəz xörəyi olduğunu göstərir.

Lakin "Munisnamə"ni Azərbaycan dilinə çevirən hörmətli Rəna Rzayevanın tərcüməsində mətndə "Tərəvəz şorbası;" ifadəsi yoxdur və yalnız "dovğa" var.

Dilçi alimlərimizlə aparılan araşdırmalar mətndə "Şorba və dovğa, Qəndomba" yazıldığını göstərdi. Yəni "Şorba və dovğa və duğda şorbası" (6. səh 390 Əbu Bəkr ibn Xosrov əl Ustad "Munisnamə" müqəddimə, qeydlər və Lüğət Rəna Rzayevanındır. "Adiloglu" 2021. 764 səh.)

XII əsr mətnlərinin köhnəlməsi, o dövrdəki yazılış, təsadüfi ləkənin qaranın oxunuşa təsiri və s. mətnlərin yazılışında çətinlik yaradır. Həm də tərcüməçilər mətbəx mədəniyyətimizi, xörək texnologiyalarını dərindən bilmədikləri üçün də bəzən xörək adlarının tərcüməsinə səthi yanaşırlar.

Məsələn mərhum Rüstəm Əliyev Munisnaməyə verdiyi qeydlərdə yazır ki, "burada və sonra orta əsr şərq yeməklərinin adları çəkilir, lakin bugün bu xörəklərin idedifikasiyası mümkün deyil". (5. səh 573. Abu Бакр ибн Хосров ал Устад "Мунис-Наме" перевод примечания R.M.Aliyev B. языкы, 1991- 58 страница.)

Təəssüf ki, hətta böyük tərcüməçi alimlərimiz belə, başqa sahələri bilmədikləri üçün səhv edirlər.

"Munisnamə"də adları çəkilən bir çox xörəklər, mütəncənlər, abkame, boraçılov sabuni, mamuni və s. Tahir Əmiraslanov tərəfindən artıq identifikasiya edilmiş (3. Tahir Əmiraslanov "Mətbəx Dastanı" kitabında "Tutmac haqqında dastan" Bakı. Şərq-Qərb 2012. 212 səh 34-38. səhifələr) və edilməkdədir.

Munisnamədə yeməyin adının Dovğa yazılması onun dugba, yəni dug, ayran şorbası kimi və həm də dovğa kimi başa düşməyə imkan yaradır.

Lakin dovğa və dugba ümumi oxşarlıqlarına baxmayaraq başqa-başqa xörəklərdir.

Təbriz valisi Nadir Mirzə Qacarın 1875-1883-cü illərdə yazdığı Karnamə kitabında bu iki yemək başqa-başqa adlarla göstərilir. Aşı doyğə (dovğa) və Aşı dug (ayran şorbası) (7. səh 59-60; 8. səh78-79. Nadir Mirzə Qacar "Karnamə" Tərcümə Rauf Şeyxzamanlı. B. Elm və təhsil 2013. 2010 səh.)

Aşi-douğə (dovğa və ya dovğa şorbası). Dovğa bərdəlilərə məxsusdur. *Evin xanımı dedi:* - Bu şorbanı bizim yerdə və bizim ölkədə yazda bişirərlər və bizim camaatımız arasında şorbaların padşahı sayarlar, mən də o fikirdəyəm. Mən dedim: - Yaxşı dedin və mən də səni öz şəhərini və həmşəhərlilərini sevdiyin ücün bəyənirəm. Öz şəhərini və həmşəhərlilərini sevdiyin ücün bəyənirəm. Öz şəhərini sevməyənin özü heç nəyə dəyməz. Tanrının afərini sənə və sənin südünə olsun. İndi isə bu yeməyin bişirmə yolundan danış görək ki, onu necə və haçan bişirərlər *Xanəxuda dedi:*- (7. səh 59-60; 8. səh78-79. Nadir Mirzə Qacar "Karnamə" Tərcümə Rauf Şeyxzamanlı. B. Elm və təhsil 2013. 2010 səh.)

Südəmər quzunun ətini əldə etməli və qızılbaldır, gəlinbarmağı, əvəlik (buna Mazandaranda "silif" deyərlər) və çəməndə dağıdılmış dinar pullarına bənzər məstəki çiçəyi kimi ətirli dağ göylərindən yığıb lazımi migdarda bir qazana qoymalı üstünə qoyun qatığı ilə suyu töküb qarışdırmalı və kəfgirlə ehmallıca alt-üst etməlisən. Oraya hələ bir dəstə kəklikotu da atarlar. Əlin altında narınc olsa, onu

ortadan kəsib qoyarlar və təzə kərə yağından da əlavə edərlər. Yaxşı bişəndən sonra bir az sarıkökdən və xoşətirli ədvalardan, istiotdan və duzdan da üstünə tökərlər. Sarıkök rəngə sarılıq gətirdiyinə və xüsusi tam verdiyinə görə istənilən bir şeydir. Bunları asta-asta qarışdırıb çalmaq lazımdır ki, qatıq yanmasın və çürüməsin. Bu xörəyi isti-isti, mümkün qədər isti halda yeyərlər, onda yaxşı olar və bütün şorbaların ən dadlısıdır. (7. səh 59-60; 8. səh78-79. Nadir Mirzə Qacar "Karnamə" Tərcümə Rauf Şeyxzamanlı. B. Elm və təhsil 2013. 2010 səh.).

Aşi-duğ (ayran şorbası) Bu təqdirəlayiq şorbanı qatıq şorbası kimi bışirərlər, lakin qatığın yerinə turş qoyun ayranından tökərlər. (8. S'h 78-79 T.İ.Əmiraslanov O.N.Əliyev. A.T.Əmiraslanov və başqaları "Azərbaycan Mətbəxi" "Qacarlar dövrünün bərpa edilmiş xörəkləri" Bakı "Elm və təhsil". 2018. 392 səh)

Bu xörəkləri fərqləndirən əsas inqridient birinin qatıqda digərinin isə dugda (ayranda) bişirilməsidir.

Qatıqda bişirilən yemək daha yağlı daha zərif olur. Qaynama zamanı qatıq çevrilməsin, çürüməsin deyə onu vam odda oxlov və ya ağac çömçə ilə daimi bulayır, qarışdırır, döyürlər. Buna görə də Nadir Mirzə xörəyin adını daha doğru yazır "douğə". Gəncəbasarda da bu xörəyə "döyğa" deyilir. Yəni "döyülən ağ (artıq-qalıq)" mənasında. "V" hərfi Türk dillərinə "y" hərfindən daha gec gəlib və onu əvəzləyib. Türkiyə türkcəsində bu gündə "döymək" sözü "dövmək" kimi işlədilir.

Dugba termini isə fars dilindəki "dug" (ayrılan, artıq, tullantı, ayran və ya pendirdən qalan maye) və ya şorba mənasında işlədilir. Əslində bu xörəklərə biz qatıq aşı və ya ayran aşı da deyirik.

Nəzərə alsaq ki, ayran - məğzi yağı alınmış qatıqdır və o qatıqdan daha aşağı keyfiyyətli hesab edilir. Buna görə də atılama - qatıqla suyun qarışmasından alınan içki ayrandan (yağı alınmış) daha üstün sayılır.

Ayrana bu münasibət "Qara kişmişi cibə, ağ ayranı itə tökərlər", "İtin qarnı yağ götürmür" (ayran yağsızdır) kimi ifadələrdə də özünü göstərir.

Tərkibi kərə yağı ilə zəngin yeməklər daha xeyirli, daha keyfiyyətli, ləziz idi.

"Ərəbdən soruşanda ki, cənnətdə nə verirlər, dedi kərə yağlı plov" kimi məsəllərimizdə kərə yağına yüksək qiymət verilir.

Buna görə də saraylarda daha yüksək keyfiyyətli, bol kərə yağlı yeməklər verildiyindən, saray mühitində "doyga" - dovğaya üstünlük verilirdi, dugba – ayranaşı isə daha çox rəiyyət yeməyi hesab edilirdi.

Nadir Mirzənin xanımı da Qacarlardan Bərdəli şəhzadədir və təbii ki, onun da atasının sarayında duğba yox "doyğa" hazırlanırdı ki, Nadir Mirzə də mətndə bunu qeyd edir. (7. səh 59 Nadir Mirzə Qacar "Karnamə" Tərcümə Rauf Şeyxzamanlı. B. Elm və təhsil 2013. 2010 səh.)

Həm Nizami Gəncəvi, həm də Əbu Bəkr eyni dövrdə, eyni sarayda yaşayıb yaratdıqlarından, sarayda məhz "dovğa" verildiyini bilirdilər.

Buna görə Munisnamədə saray mətbəxində verilən yeməklərin arasındakı "doğba"nın əslində dovga, "douga" olduğunu ehtimal edirik.

ƏDƏBİYYAT

1. Nizami Gəncəvi "Həft Peykər" Mütərcim Mircəlal Zəki. B. "Parlaq İmzalar" nəşr. 2021 504 səh

2. Farıq Sumer "Oğuzlar", B. "Yazıcı" 1992. 432 səh

3. Tahir Əmiraslanov "Mətbəx Dastanı" kitabında "Tutmac haqqında dastan" Bakı. Şərq-Qərb 2012. 212 səh 34-38. səhifələr

4. N. Gəncəvi. "Yeddi Gözəl" Filoloji tərcümə R.Əliyev B. "Elm"1983 505 səh. s.4 (2-3 cümlələr)

5. Abu Бakr ибн Хосров ал Устад "Мунис-Наме" перевод примечания R.M.Aliyev B. языкы, 1991- 58 страница.

6. Əbu Bəkr ibn Xosrov əl Ustad "Munisnamə" müqəddimə, qeydlər və Lüğət Rəna Rzayevanındır. "Adıloglu" 2021. 764 səh.

7. Nadir Mirzə Qacar "Karnamə" Tərcümə Rauf Şeyxzamanlı. B. Elm və təhsil 2013. 2010 səh.

8. T.İ.Əmiraslanov O.N.Əliyev. A.T.Əmiraslanov və başqaları "Azərbaycan Mətbəxi" "Qacarlar dövrünün bərpa edilmiş xörəkləri" Bakı "Elm və təhsil". 2018. 392 səh

Амирасланова Айнура Тахир гызы
amiraslanova-79@mail.ru

РЕЗЮМЕ
ДОВГА КАК ВЕСТНИК НАЦИОНАЛЬНОЙ ПРИНАДЛЕЖНОСТИ В ТВОРЧЕСТВЕ НИЗАМИ ГЯНДЖАВИ.

О «довге» дается информация и во многих других источниках. Во всех наших регионах до сих пор готовят и «айран аши», и «дугбу», и «довгу». Название «Довга» упоминается в наших древних и средневековых книгах по истории, и во всех наших кулинарных современных книгах.

В статье представлены рецепты «довгана», «дугбы» и «дойгана», данные в XIX веке. Во дворце, в книге Надира Мирзы Гаджара «Карнаме» его жена принцесса Барды знакомит нас с рецептами «догба» и «дугба». Так же здесь она отмечает, что «довга» — это блюдо из Барды.

В этой статье рассматривается не только утверждение 12 века Низами Гянджеви о том, что «довга» была турецким блюдом, но также и то, что тот, кто ест «довгу» является турком, и что национальная идентификация определялась таким образом.

Здесь мы впервые доказываем, что не только «тутмадж», но и «довга» является фактором идентификации тюркского происхождения. Интересно, то что до Низами никто не писал, что блюдо "довга" является фактором идентификации тюркского происхождения так же, как и блюдо "тутмадж".

Кроме того, несмотря на общее сходство довги и дугбы, в статье исследуется и проводится филологический анализ и доказывается, что это разные блюда.

В статье предполагается, что «догба» между блюдами, подаваемыми на дворцовой кухне в «Мунисname», на самом деле является довга, «доуга».

Таким образом мы приходим к выводу, что во дворцах отдавалось предпочтение «дойге» - довге, а дугба - айранаши считалась скорее подсобным блюдом, потому что во дворцах подавали более качественные блюда, обильные маслом.

Ключевые слова: Творчество Низами Гянджеви, довга, национальная принадлежность, элементы нашей национальной кухни.

Amiraslanova Aynura Tahir
amiraslanova-79@mail.ru

SUMMARY
THE DISH DOVGA AS A HERALD OF NATIONAL BELONGING IN THE WORKS OF NIZAM GANJAVI.

There are many information about "dovga" in many other sources. In all our regions, they still cook “airan ashi”, “dugba”, and “dovga”. The name "Dovga" is mentioned in our ancient and medieval history books, and in all our modern cookbooks.

The article presents recipes for “dovga”, “dugba” and “doiga”, given in the 19th century. In the palace, in Nadir Mirza Gajar's book "Karname", his wife Princess of Barda gives the recipes of "dogba" and "dugba". Also here she notes that “dovga” is a dish of Barda.

This article examines not only Nizami Ganjavi's 12th-century claim that "dovga" was a Turkish dish, but also that one who eats "dovga" is a Turk, and that national identification was defined in this way.

Here we prove for the first time that not only "tutmaj", but also "dovga" is a factor in the identification of Turkic origin. Interestingly, that before Nizami, nobody wrote that the dish "dovga" is a factor in the identification of Turkic origin, just like the "tutmaj" dish.

In addition, despite the general similarity of dovgi and dugba, the article investigates and conducts a philological analysis and proves that these are different dishes.

The article suggests that the "dogba" between the dishes served in the palace kitchen in “Munisname” is actually dogga, "douga".

Thus, we come to the conclusion that in the palaces preference was given to "doige" - dovge, and the dugba - ayranashi was considered more likely for the lower strata of the population, because the palaces served better dishes, rich in oil.

Key words: Creativity of Nizami Ganjavi, dovqa, national identity, elements of our national cuisine.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: tarix üzrə fəlsəfə doktoru Tahir Əmiraslanov
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏFSANƏ ZAMANXAN QIZI BAYRAMOVA
AMEA Nəsimi adına Dilçilik İnstitutu
BAKI ŞƏHƏRİ, H.CAVİD PROSPEKTİ, 115
ecabrayilzade@gmail.com

ATALAR SÖZLƏRINDƏ VƏ ƏFSANƏLƏRDƏ "ALOV" KONSEPTI

Xülasə

Dil elə bir dinamik sistemdir ki, cəmiyyətimizin inkişafı ilə birlikdə irəliləyir. Müasir dilçilikdə tədqiqatın konsept baxımından araşdırılmasına maraq artmaqdadır. Və bununla bağlı yeni mövzular tədqiq olunur. Bu baxımdan məqalə Azərbaycan dilçiliyində alov, od konseptlərinin sifahi xalq ədəbiyyatının əsrarəngiz nümunələri olan Atalar sözləri və Əfsanər üzərində araşdırma aparılmışdır. Məqalə Atalar sözləri və Əfsanələrdə od-alov konseptinin hansı mənada və hansı səkildə yer almasının tədqiqinə həsr olunmuşdur. Həmçinin tədqiqat işində od və alov leksemlərinin eyni mənalı sinonimlər olduğu da diqqət mərkəzinə çəkilmişdir. Alov konsepti tədqiqatlar üçün vacib bir anlayışdır və bir çox mənaya malikdir. Bunu da nəzərə alaq ki, dogma Vətənimiz tarixən odlar yurdu adlandırılmışdır. Bu baxımdan da dilçilik baxımından da alov od konseptlərinin tədqiqi çox böyük əhəmiyyət təşgil edir. Bu səbəbdəndə məqalədə nümulərlə birlikdə alov-od leksik vahidləri konsept baxımından əsaslı bir şəkildə nəzərdən keçirilmişdir. Od konseptinin həm məcazı mənada, həm də həqqiqi mənda işləndiyi atalar sözləri seçilmişdir. Bu baxımdan məqalədə Atalar sözləri od-alov konseptinin məczi mənalı və həqqiqi mənalı olmasına görə qruplaşdırılmışdır Eyni zamanda şifahi xalq ədəbiyyatının digər nümunsi olan əfsanələr də araşdırılmışdır. Alov, od, atəş kimi leksik vahidlərin hansı mənarda işləndiyi nümunələr əsasında göstərilmışdir. Bir çox dünya xalqlarının ədəbiyyatında yer almış odla əlaqəli olan Simurq quşu əfsanəsinə toxunulmuşdur. Simurq quşu Azərbaycan sifahi xaq ədəbiyyatında "Səməndər quşu" adı altında yer almışdır. Məqalədə "Səməndər əfsanəsi " və "Səməndər quşu" əfsanərəninə nəzər salınmışdır. Hər iki əfsanədə alov-od kosepti təqdiq olunmuşdur. Həmçinin məqalədə alov və od leksik vahidlərinin etimoloji və leksik izahı da verilmişdir. Beləliklə, məqalədə alov və od, həmçinin onların kosept olaraq ifadə etdikləri məna xüsusiyyətləri tədiqiq olunmuş və müəyyənləşdirilmişdir.

Açar sözlər: alov, konsept, leksem, əfsanə, dilçilik

Azərbaycan xalqının yüzilliklər boyu yaratdığı şifahi xalq ədəbiyyatı onun tarixi, mədəniyyəti, mənəviyyatı, həyat tərzi, adət-ənənələri haqqında zəngin məlumat verən əsas qaynaqlardan hesab olunur. Folklor nümunələri xalq zəkasının qüdrətinin, bədii təfəkkürünün gücünü parlaq əks etdirən, məzmun cəhətdən maraqlı, ideya baxımından zəngin, əsrlərin sınağından çıxmış əsərləridir. Bu sənət inciləri janr əlvanlığı, dil-üslub aydınlığı, poetik tutumu və xəlqiliyi ilə seçilir. Şifahi ədəbiyyatda xalqımızın insan taleyi ilə bağlı düşüncələri, vətənpərvərliyi, humanizmi, arzu və istəyi, sevgisi, nifrəti, müxtəlif tarixi dönəmlərdə üzləşdiyi mühüm ictimai-siyasi hadisələrə münasibətibəti geniş bədii əksini tapmışdır.

Sifahi xalq ədəbiyyati nümunələrində yer alan əsas anlayışlardan biri də *od alov* ünsürüdür. Bir şeyi də qeyd etmək lazımdır ki, dilimizdə od və alov leksemləri eyni mənalı sinonim hesab olunur. Bu səbəbdəndə biz bu tədqiqat işində od və alov konseptini eyni leksik vahidlər kimi tədqiq etmişik. Bunu od və alov leksemlərinin etimoloji və leksik izahlarına nəzər salmaqla da müşahidə etmiş olacağıq. Mövzu ilə daha yaxından tanış olmaq üçün ilk növbədə *alov* sozünün etimalogiyasın anəzər salaq. Bu baxımdan görkəmli pedoqoq, metodost alim, prof. Bəşir Əhmədovun Etimologiya lüğətində alov və od leksemlərinin etimoloji izahına diqqət yetirək.

"Dilimizdə yalğım (ilğım), altun (yaltun), ulduz (yalduz), alov (yalov) sözləri var və hamısı "od, işıq, istilik, parıltı"anlamını verən al (ul) etimonu zəminində əmələ gəlmiş kökdaş sözlərdir."[6,19]

Bu baximdam od sozünün etimologiyası da maraqlıdır**.** ***"****Ütüləmək sözünün kökü olan üt sözü ilə eyni olub. Görünür ad-feil omonimi kimi işlədilib . Od sözü üt sözünün dəyişmiş formasıdır. Ütmək, ütü, otaq kəlmələri də həmin ut sözü ilə qohumdur".* [6, 100]

Azərbaycan dilinin izahlı lüğətində isə alov və od sözləri bu şəkildə izah olunmuşdur . "ALOV is. Yanan birşeydən çıxan od. *Tonqalın alovu uzaqdan görünür.Yanğının alovu hərtərəfi işıqlandırır*. - *Qığılcımdan alov törər*. (Məsəl). *Hər tərəfdən od yağırdı alov və tüstü çıxırdı.*M.İbrahimov. *Alovdan səmaya çəkilir hasar; Hər addım başında başında bir təhlükə var*. M.Rahim.
// Məc.mənada. *Muharibə alovu.Məhəbbət alovu*. -[Mirzə:] .Ə.Haqverdiyev. A*lovlar dağıdan xoş nəfəsindən; Hər əsgər qəlbinə min qüvvət axdı*. S.Vurğun. *Hamının üzündə nifrət alovu yanırdı*. M.Hüseyn." [2,106]

"OD is . 1. Yanan bir şeydən çıxan qazlar ; atəş . *Odu söndürmək . Odda yanmaq . Odda qızdırmaq . Kömür odu* . // məc . Obrazlı təşbehlərdə şiddətli hissiyyatın , ehtirasın , coşqunluğun , ruh yüksəkliyinin rəmzi kimi işlənir . *Qəlbi od dənizi, gözüdür Bakı; Doğma Vətənimin gözüdür Bakı* . B.Vahabzadə . 2. *Çox bərk isti . Göydən sanki od yağırdı . Nəfas almaq çətin idi* . S.Vəliyev . 3. məc . Qızartı , qırmızılıq ; hərarət ... *Ya naqlarının odu hələ də sönməyən qız .. anası nın üzünə baxa bilmirdi* . B.Bayramov . Od parçası - çox zirək , diribaş , bacarıqlı adam haqqında . [Canəli :] *Ay maşallah , san lap od parçasısan ki ... Mən bu andırın dilini bir aya güclə öyrəndim* ... İ.Məlikzadə . // Nadinc , yıxıb - dağıdan , daim hərəkətdə olan

uşaq haqqında . *Uşaq deyil , od parçasıdır* . 4. mac . dan . E*v , ailə , ocaq . Bu kənd üç yüz oddan ibarətdir . Od qonşusu - yaxın , qa pibir qonşu . Gardanlar çəkili , baxışlar soyuq ; Sanki xəbərsizik , od qonşusuyuq* . M.Araz .” [3,509]

Od konseptin mifologiyada da tez-tez rast gəlinir. Türk mədəniyyətində od çox əhəmiyyətli bir məhvumdur. Oda, alova hörmət göstərmək lazımdır. *Onun yatağı qurum və quru hisdir; nəfəsi dumandır, yeməyi quru odundur. Köz kisəsi, kül yorganıdır. Odla əlaqəli olaraq duman və qor, köz, kül, alov, qığılcım üçün belə ayrı iyelerin olduğuna dair əfsanələr var. Atəşə qoyulan sac üç ayaqlıdır: Bunlar keçmişə, bu günə və gələcəyə işarələrdir. Odu insanlara Tanrı vermişdir. Bəzi əfsanələrdə Günəş, Ay və Od qardaşdırlar. Və hamısı da İldırımın oğludurlar. Od İldırımdan yaradılmışdır. Atəş məcazi fərqli tərkib saxlayar, məsələn eşq odu anlayışı, eşq ilə insanın bədənində meydana gələn enerjini və yenidən doğuşu ifadə edər. Qədim türk inanclarına görə od "Ülgen tərəfindən göydən endirilmiş biri qara, biri ağ iki daş arasına quru otlar qoyulması və daşları bir-birinə vurması nəticəsində otların yanmasıyla əldə edilmişdir". Bu ruhun dünyanın yaradılmasından bəri var olduğuna inanılar. O, kiri, kini, pisliyi, pisliyi sevməz. Yer üstündəki bütün ruhlara dua edə bilmək üçün ilkin atəşin ruhuna əhd vermək lazımdır. İnanca görə atəş insana hər şeyi söyləyə, onları xəbərdar edə bilər, onlara öyrədər. Yaxşılıq istəyən insanları qoruması, onlara köməkçi olması, mümkündür. Od üçə ayrılar:*

- ***Ayıhı Od:*** *Yaxşı ruhlara məxsusdur. Yıldırım düşməsiylə əldə edilən və tanrının göndərdiyi qəbul edilən atəşdir.*
- ***Abahı Od:*** *Pis ruhlara məxsusdur. İsti verməyən soyuq bir atəşdir. Soyuğun yandırıcı xüsusiyyəti ilə də əlaqəlidir. Soyuq yandırdı sözü ilə bu izah edilər.*
- ***Uluğ Od:*** *Tanrı odudur. [8]*

Nümənələrdən də məlum olduğu üzrə alov və od anıayışları istər məcazi , istərsə də həqiqi mənalarda dilimizin demək olar ki hər sahəsində istifadə olunur.

Biz mövzuya uyğun olaraq Atalar sözlərində və Əfsanələrdə alov və od konseptinin hansı mənalərda işləndiyini nəzərdən keçirək.

“Qanadlı sözlər ”, “ İpə- sapa düzülmüş icilər ” adlandırılan Atalara sözləri xalqımızın həyat tərzini özündə ehtiva edən, xaqın təcrübüəsinə dayanan elə bir şifahi xalq ədəbiyyatı nümunəsidir ki, hər bir atalar sözündə onu yaradan xalqın insanı keyfiyyəti, adət-ənənəsi, inam və etiqatlarını, dostluq, qardaşlıq, mehribanlıq, igidlik, mərdlik kimi xüsusiyyətlər geniş mənada ifadə olunmuşdur.

Mövzu ilə əlaqəli araşdırdığımız od-alov konseptine dair atalar sözlərindəki məna xüsusiyyətlərinə də nəzər salaq:

Alovdan çıxdıq, yalova düşdük. Insanlar bir problemdən qurtulmamış ikinci bir problemlə qarşılaşır. Sırf bu tipli problemlərin nəticəsində meydana gəlmiş atlar sözləri qrupuna daxıldir. Buarda *alov* məcazi mənada işlənmişdir.

Ana bala ucundan canını oda yaxar. [1, 34] Bu atlar sözü isə ana övlad münasibətlərini özündə ehtiva edir. Əsasən də ana müqəddəsliyi əks olunmuşdur.

Yəni bir ana övladı üçün hər bir təhlükədən keçməyə hazırdır. Bu atalar sözündə də *od* məcazi mənada işlənmişdir.

Bir sıra Atalar sözləri isə qədim azərbaycanlıların təbiətə cəmiyyətə təsərrüfata aid təcrübələri əsasında meydana gəlmişdir. burada təşbehdən istifadə edilmiş.

Biri od olanda biri su olsun gərək. [1, 61]. Anlayış, barış ruhunu aşılayan bu atalar sözündə isə yenə də bənzətmədən istifadə olunmuşdur. Od konsepti burada anlaşmayan, barışa gəlməyən tərəfi izah edir.

Böhtana düşən odsuz yanar. [1, 64] Şər, böhtanın agır bir məhvum olduğunu ifadə edən bu atlar sözündə od elə öz mənasında işlənmişdir.

Beləliklə atlar sozlərində od-alov konseptinin məna baxımdan iştirakına görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Od-alov konsepti həqiqi mənada işlənmiş atalar sözləri.

Oddan, sudan yenə qar amandı [1,192]
Sevgi od deyil, amma oddan yamandır. [1, 206]
Yalançının evi od tutdu yandı heç kim inanmadı [1, 236]
Od, düşdüyü yeri yandırar. [1,191]
Meşəyə od düşəndə quru da yanar, yaş da. [1, 179]
Odu söndürüb külü ilə oynamazlar. [1, 191]
Quru oduna yaş yanar, alışar dağlar yanar.[1, 175]
Oddan köl törərər, küldən nə törər

2. Od-alov konsepti məcazi mənada işlənmiş atalar sözləri.

Alovdan çıxdıq, yalova düşdük [1,33]
Böhtana düşən odsuz yanar. [1, 64]
Barıt ilə odun dostluğu olmaz.[1,50]
Odla pambığın nə al veri.?! [1, 50]
Od olmasa tüstü çxmaz.[1, 192]

Od - alov konsepti Əfsanərdə də öz əksini tapmışdır. Beləki, “Səməndər quşu”, “Səməndər əfsanəsi” bu baxımdan daha xarakterikdir. Səməndər quşu əfsanəsində Səməndər guya qarlı - buzlu ölkələrdə yaşayan qar quşudur . Özü də gödək ömürlü quşdur ... Bu quşun dimdiyi polad, caynaqları çaxmaqdaşı , tükü isə qovdur . Səməndər quşunun iki balası olur . Balalar bir ilə pərvazlanır. Səməndər quşu balaları pərvazlanıb uçan gün sevincindən hər şeyi unudur, dimdiyini caynağına vurub od saçır, onun qov tükü həmin oddan alışır. Səməndər quşu yanıb kül olur. [5, 168]

Eyni motiv əsasında digər əfsanə şəklində formalaşan örnəkdə isə quşun adını daşıyan Səməndər və onun istəklisi olan Qönçə obrazı canlandırılmışdır. Sevdiyi qızdan ayırmaq məqsədi ilə üzərinə böhtan atılıb oda atılan oğlan Səməndər quşu kimi alovdan çıxıb sevgilisi Qönçə-pərvanə ilə qoşalaşır. Onlar ölməzlik, əbədilik keyfiyyəti qazanıb alovun ətrafında fırlanmağa başlayırlar.

Xatırladaq ki, Səməndar quşu obraz Zümdrüd quşu, Simurq quşu obrazları ilə oxşar personajlardır.

Simurq - Qədim İran əsatirində Qaf dağında yaşayan böyük bir quşdur. Bu quşa cənnət quşu da deyirlər. *Simurq quşu obrazına Azərbaycan nağıllarında da rast gəlinir. O, sevdiyi insanlara, köməyə ehtiyacı olan günahsız bəndələrə öz lələklərindən verir, onlara çətinliyə düşəndə bu lələkləri yandırıb onu köməyə çağırmalarını tapşırır. Azərbaycan mifologiyasında isə bu quş xeyirxahlığın, yeni həyatın və dirçəlişin rəmzidir.* Simurqun ikinci adı Zümrüdü-Anka olmuşdur. Bu ad altında folklor nümunələrində obrazlaşdırılan quş da əfsanəvi mahiyyət daşımışdır. Etimoloji baxımdan si-mürğ (otuz quş), sə-mürğ (üç quş), siyah-mürğ (qara, ən böyük quş) kimi anlamlarda şərh edilən Simurq Zümrüd adı ilə "Məlikməmməd" nağılında da obrazlaşdırılıb.[7]

Əfsanəyə görə, Simurq quşu Qaf dağında yaşayırmış. O, beş yüz ildən bir uçub Misirə gedər, "Ra"nın məbədini ziyarət edərmiş. Lakin bir dəfə onun bəxti gətirmir. Məbədə çatar-çatmaz onu tutub *oda* atırlar. Simurq isə oddan-atəşdən qorxmur. O, dəfələrlə *atəşə* atılsa da yanmır, sönən *odun* külü içərisindən dirilib çıxır. Öldükdən sonra yenidən dirilmənin rəmzi hesab olunur. Qırx gün Misirdə qaldıqdan sonra Hindistana üz tutur. [4, 34]

Bir başqa əfsanəyə görə isə ilk dəfə məhz Simurq quşu göydən, yaxud müqəddəs dağdan yer üzünə "həyat ağacının" kökünü gətirmişdir. Qədim Misir mifologiyasında "Feniks" adlanan bu əfsanəvi mistik quşun gözyaşları şəfa və dərman hesab edilirdi. "Simurq" quşu bəzi mənbələrdə ilahi gözəlliyin simvolu kimi təsvir olunur. Simurq (və ya Zümrüdü-Anka) bütün quşların şahı sayılır və gizli (kod ad) mənalarında ilanların şahı "Şahmaran"la eyniləşdirilir.

İstər Atlar sözləri, istərsə də Əfsanələrlə bağlı verilən nümunəlrdən də göründüyü kimi alov və od konseptləri eyni mənalı leksik vahidlər kimi istifadə olunmuşdur.

Ədəbiyyat.

1. Atalar sözü . Bakı, "Öndər nəşriyyat", 2004, 264 səh.
2. Azərbaycan dilinin izahlı lüğəti:Dörd cilldə. I cild Bakı , "Şərq-Qərb, 2006, 744 səh.
3. Azərbaycan dilinin izahlı lüğəti Dörd cilldə. III cild. Bakı , "Şərq-Qərb, 2006, 672 səh.
4. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. I cild. Xalq ədəbiyyatı. Tərtib edənlər: T.Fərzəliyev, İ.Abbaslı. Bakı: Elm, 1982, s.34.
5. AZƏRBAYCAN TÜRKLƏRİNİN XALQ ƏFSANƏLƏRİ Toplayan və tərtib edəni: S.Paşayev. Bakı: "Azərnəşir," 2009 . 485 səh.
6. Əhmədov Bəşir. Etimologiya Lüğəti Bakı . "Altun nəşriyyat" 2017 .287 səh
7. https://az.wikipedia.org/wiki/Simurq_qu%C5%9Fu
8. (https://az.wikipedia.org/wiki/Od_iy%C9%99si)

AFSANA BAYRAMOVA

THE CONCEPT OF "FLAME" IN PROVERBS AND LEGENDS

Keywords: flame, concept, lexeme, legend, linguistics

Summary

Language is such a dynamic system that moves forward with the development of our society. There is a growing interest in conceptual research in modern linguistics. And new topics are being explored in this regard. From this point of view, the article is researched on Proverbs and Legends, which are mysterious examples of the concepts of flame and fire in the oral literature of Azerbaijan. The article is devoted to the study of the meaning and form of the concept of fire in proverbs and legends. The research also draws attention to the fact that the lexemes of fire and flame are synonymous with the same meaning. The concept of flame is an important concept for research and has many meanings. Let us also take into account that our dogma has historically been called the land of fire. From this point of view, from the linguistic point of view, the study of the concepts of flame is of great importance. For this reason, the article provides a conceptual basis for the lexical units of flame and fire, along with examples. Proverbs in which the concept of fire is used both figuratively and literally have been chosen. In this regard, the proverbs are grouped in the article according to the metaphorical and real meaning of the concept of fire and flame. At the same time, legends, which are another example of oral folk literature, are studied. Lexical units such as flame, fire, fire are shown on the basis of examples in which sense they are used. The legend of the Simurg bird, which is associated with fire, is mentioned in the literature of many peoples of the world. The Simurg bird is included in the Azerbaijani oral literature under the Samandar bird. The article looks at the "Legend of Samander" and the legend of "Samander Bird". In both legends, the concept of flame was studied. The article also provides etymological and lexical explanations of the lexical units flame and fire. Thus, the article examines and identifies the features of flame and fire, as well as their meaning as a concept.

АФСАНА БАЙРАМОВА

ПОНЯТИЕ « ОГОНЬ » В ПОСЛОВИЦАХ И ЛЕГЕНДАХ

Ключевые слова: огонь, концепт, лексема, легенда, языкознание.

Резюме

Язык – это такая динамичная система, которая движется вперед вместе с развитием нашего общества. В современной лингвистике растет интерес к концептуальным исследованиям. И в этом отношении изучаются новые темы. С этой точки зрения в статье исследуются пословицы и легенды, которые являются загадочными примерами понятий пламени и огня в устной литературе Азербайджана. Статья посвящена изучению значения и формы

понятия огня в пословицах и легендах. В исследовании также обращается внимание на то, что лексемы огня и пламени являются синонимами одного и того же значения. Понятие пламени является важным понятием для исследования и имеет много значений. Примем также во внимание, что наша догма исторически называлась страной огня. С этой точки зрения, с лингвистической точки зрения, изучение понятий пламени имеет большое значение. По этой причине в статье приводится понятийная база лексических единиц пламя и огонь вместе с примерами. Были выбраны пословицы, в которых понятие огня используется как в переносном, так и в буквальном смысле. В связи с этим в статье сгруппированы пословицы по метафорическому и реальному значению понятия огня и пламени, в то же время исследуются легенды, являющиеся еще одним образцом устной народной литературы. Такие лексические единицы, как пламя, огонь, огонь показаны на примерах, в каком значении они употребляются. Легенда о птице Симург, которая связана с огнем, упоминается в литературе многих народов мира. Птица Симург входит в азербайджанскую устную литературу под птицей Самандар. В статье рассматриваются «Легенда о Самандре» и легенда о «Бёрд Самандер». В обеих легендах изучалось понятие пламени. В статье также дается этимологическое и лексическое объяснение лексическим единицам пламя и огонь. Таким образом, в статье рассматриваются и выявляются признаки пламени и огня, а также их значение как понятия.

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent, Aqil Cəfərov tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏMSİ PƏNAHOĞLU
AMEA akad. Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru

DÖVLƏT XADİMİ, ALİM, ARİF VƏ ŞAİR HACI MİRZƏ ABBAS AĞASI FƏXRİ İRƏVANİ

Xülasə

Təəssüflər olsun ki, Azərbaycan tarixində olduqca çoxlu sayda şəxsiyyətlər var ki, onlar obyektiv və subyektiv səbəblər üzündən bu günə qədər öyrənilməmiş, adları ədəbiyyat və mədəniyyət tariximizə düşməmişdir. Bunlardan bir qismi müəyyən bir sahədə böyük uğurlara imza atsalar da, əksəriyyətinin istedadı bir çox sahədə parlamışdır. Belə çoxsahəli yaradıcılıq irsinə malik olanlardan biri də dövlət xadimi, alim, arif və şair Hacı Mirzə Abbas Ağası Fəxri İrəvanidir.

Bir çox sahələrdə fitri istedada malik olmuş Ağası İrəvani Məhəmməd şah Qacarın dövründə 13 il (1835-1848) İranın (Azərbaycanın) baş naziri-sədr-əzəmi olmuş və böyük işlər görmüşdür.

Bu yazıda məqsəd Ağası İrəvani ilə bağlı apardığımız araşdırmanın yığcam xülasəsini ortaya qoymaq, bununla da, bu böyük tarixi şəxsiyyət haqqında araşdırmalara rəvac vermək və onları təşviq etməkdir.

Gəlinən nəticə odur ki, Ağası İrəvaninin həyat və yaradıcılığının öyrənilməsi, fars və ərəbcə olan əsərlərinin ana dilinə tərcüməsi, türkcə olan əsərlərinin isə transfoneliterasiya edilərək çap olunması və hərtərəfli araşdırılması həyata keçirilməli, bu böyük şəxsiyyətin adının ədəbiyyat, mədəniyyət və dövlətçilik tariximizə salınması üçün zəmin hazırlanmalıdır.

Açar sözlər: *Ağası İrəvani, Maku, dövlət xadimi, alim, arif, şair*

Hacı Mirzə Ağası adı ilə məşhur olan Abbas xan (1784-1849) İrəvanın bayat tayfasındandır. Atası Mirzə Müslüm İrəvani Qüdsi zamanının alim və şairlərindən biri olmuşdur (3, 306).

XVI əsrdə Maku dərəsi qaçaq və quldurların, eləcə də, yolkəsənlərin at oynatdığı bir məkan olanda Şah Abbas (1587-1629) bu vəziyyəti aradan qaldırmaq üçün Bayat tayfasından olan 300 ailəni İrəvandan Maku dərəsinə köçürmüşdür. Mirzə Müslüm Qüdsi İrəvani də bu tayfadan idi və bəzi məlumatlara görə, o da İrəvanı tərk edərək Makuya köçmüş və Mirzə Ağası Makuda anadan olmuşdur (4). Ancaq elə müəlliflər də var ki, onun İrəvanda anadan olduğunu, uşaqlıq və yeniyetməliyini burada atasının yanında keçirdiyini yazırlar. Abbas babasının adı olduğundan, onu Ağası kimi çağırmışlar. Bu kimi ənənələr indi də türk dünyasının

bəzi regionlarında yaşamaqdadır. Məsələn, Ərzurum, Təbriz və Naxçıvan bölgələrində belə hallara rast gəlinir ki, yeni doğulan uşağa babasının adını qoyur və onu qoyduqları adla deyil, "Dadaş" adı ilə çağırırlar (1, 163).

Mirzə Ağası ilk təhsilini Makuda almış, sonra atası ilə birlikdə İraqa getmiş və yenidən Makuya qayıtmış və təhsilini Xoyda davam etdirmişdir. 1798-ci ildə 14 yaşında olarkən atası ilə birlikdə Kərbəla ziyarətində olmuş, daha sonra Həmədana gələrək orada zamanının böyük sufi alimi Əbdülsəməd Həmədanidən (Səadətnuri) dərs almış, onun yanında suluk mərhələlərini (40 mərhələ) keçmiş, onu özünə mürid seçmiş və dərviş olmuşdur. Şairliyə meyl edən Ağası "Fəxri" ləqəbini ustadı Əbdülsəməd Həmədaninin "Fəxrəddin" ləqəbindən götürmüş və şeirlərini bu təxəllüslə yazmışdır.

XIX əsrin əvvəlində (1801) vəhabilərin Kərbəlaya hücumu zamanı Əbdülsəməd Həmədani öldürüləndən sonra, Ağası, ustadının ailəsini də götürərək İrəvana üz tutur. Ancaq ustadının vəsiyyətinə uyğun olaraq yolda Həmədana dönür və onun ailəsini Həmədanda yerləşdirir, özü isə İrəvana gedir və çox keçmədən İrəvanın axundu olur. Bir müddət sonra Makuya, daha sonra isə Təbrizə gəlir. Burada hörmətli bir alim kimi qarşılanır. Çünki o, artıq bir çox böyük sufilərin məqamını dərk etmiş, onların həyat fəlsəfəsini tamamilə mənimsəmiş, ədəbiyyat, dilçilik, riyaziyyat, ilahi hikmət, hüquq, təsəvvüf və irfan sahələrində məşhurlaşmış və "Mollabaşı" ləqəbi qazanmışdı. Təbrizdə Naibüssəltənə Abbas Mirzənin vəziri Mirzə İsa Qaimməqamla yaxın münasibəti yaranır. Qaimməqam, oğlu Mirzə Musanın təlim və tərbiyəsini ona tapşırır. Daha sonra Məkkə ziyarətinə gedir və qayıdandan sonra Fətəli şahın nəvələrinin təlim-tərbiyəsi ilə məşğul olur. Naibüssəltənə Abbas Mirzə, oğlu Məhəmməd şahın təlimini ona həvalə edir. Hacı Mirzə Ağası, digər tələbələri kimi, Məhəmməd şahı təsəvvüf və irfanla yaxından tanış edir.

Haqqında yazırlar ki, həm də kəramət sahibi olmuşdur. Belə ki, ömrünün sonlarında tam sağlam olduğu halda, bir həftədən sonra öləcəyini söyləmiş və doğrudan da, bir həftə sonra dünyasını dəyişmişdir. "Hədiqət üş-şüəra"nın müəllifi yazır ki, illərdir dünyadan getməsinə baxmayaraq, onun kəramətləri haqqında söhbətlər davam edir. Məhəmməd Mirzə şahlığa yetişəcəyi barədə muştuluğu ondan almış, onda bir çox qeyri-adi hallar görünmüşdü. Bu, o zaman idi ki, Məhəmməd Mirzənin atası Abbas Mirzə sağ idi və onun çoxlu oğlanları var idi. Məhəmməd şah onu "şəriət mülkünün bilicisi" hesab edirdi. Məhz elə qeyri-adi savadına, səmimiyyətinə və dərviş təbiətinə görə qarşılaşdığı hər kəsdə özünə qarşı bir hüsnü-rəğbət oyadarmış (3, 155).

1835-ci ildə Fətəli şahın vəliəhdi Abbas Mirzə dünyasını dəyişir. Abbas Mirzənin oğlu Məhəmməd Mirzə Qazi atasının yerinə taxta əyləşir. Məhəmməd şah Qayimməqam Mirzə Əbülqasım Fərahanini işdən uzaqlaşdırır, qətlinə fərman verir və Hacı Mirzə Ağasını özünə vəzir təyin edir. Bu arada Ağası Fətəli şahın qızı,

Məhəmməd şahın bibisi və Fətəli şahın qardaşı oğlu Musa xanın sabiq arvadı İzzətnisa xanımla evlənir (4).

Az sonra Hacı Mirzə Ağası sədrəzəm (baş vəzir) məqamına irəli çəkilir. Hacı baş nazir olmağa əvvəl razılıq verməmiş, Məhəmməd şahın təkidindən sonra razılıq vermiş və 13 il (1835-1848) bu vəzifədə çalışmışdır. O, ingilis siyasətinə tərəfdar olan bir neçə nəfəri iş başına gətirdi. Beləliklə, Mirzə Ağa xan Nuri ordu naziri, Mirzə Nəsrullah Ərdəbili isə kadr naziri təyin edildi.

Hacı Mirzə Ağası İrəvani Məhəmməd şahın baş vəziri olduğu müddətdə əslində ölkəni özü idarə edirdi. Çünki o, Məhəmməd şahın etimadını elə qazanmışdı ki, şah onun bütün təkliflərini sözsüz qəbul edirdi və ona külli ixtiyarat vermişdi. Məhəmməd şah Hacı Mirzə Ağasını tənqid edənləri cəzalandırar və hətta sürgünə göndərirdi. Şahın özü Ağasıya yazdığı məktublarda ona "Cənab Hacı Sələmullahi-Tala", "Cələt fədak" ("Fədakar ruh") və "Cənab Pak Ruh" deyə müraciət edirdi. Bunlar onu göstərirdi ki, Hacı Mirzə Ağası hər zaman Məhəmməd şah üçün bir mürşid olmuşdur. Məhəmməd şaha görə, Hacı Ağasının bütün əməlləri və gördüyü işlər savab idi. Hacı Mirzə Ağası isə özünün bəzi məktublarında Məhəmməd şaha "Vəliyi-Xuda"("Allahın vəlisi") deyə müraciət edirdi.

Hacı Mirzə Ağası o qədər narahat və işlək adam olubdur ki, xalq arasında hər zaman ora-bura qaçan və işləri yerinə yetirməyə çalışan adama Hacı Mirzə Ağasının ixtira etdiyi işlək çarx mənasında "Hacı Mirzə Ağasının çarxıdır" idiomatik deyimi meydana çıxmışdır.

Sənaye, kənd təsərrüfatı və mədəniyyət məsələlərinə çox diqqət yetirib. Kənd təsərrüfatının inkişaf etdirilməsi və əkin torpaqlarının dirçəldilməsi, paytaxtın su ilə təminatını yaxşılaşdırmaqdan ötrü Kərəc çayının istiqamətini Tehrana döndərilməsi, tut əkini sahələrinin genişləndirilməsi və baramaçılığın inkişafı, Qurxanada top tökmə və silah istehsalı sənayesi yaradıb. 1846-cı ildə işgəncələri qadağan edib. Sənaye təhsili üçün 50 nəfəri Misirə göndərib. Fransanın o zamankı xarici işlər nazirindən xahiş edib ki, Fransadan İrana sənaye mütəxəssisləri göndərilsin. Məhəmməd Həsən bəyi billur istehsalı və şəkər sənayesini öyrənmək üçün Rusiyaya göndərib.

Onun zamanında İranda ilk qəzet Mirzə Saleh Şirazi tərəfindən 1837-ci ildə nəşr olunmağa başlayıb və 2 il çap olunub.

H.M.Ağasının vaxtında dövlətdən maliyyələşənlərin, o cümlədən, ordu mənsublarının maaşları xarici ölkələrdəki analoqları ilə müqayisə edilməz dərəcədə yüksək olmuşdur.

H.M.Ağası İranın kənd təsərrüfatı ehtiyaclarının qarşılanması, əhalinin suya olan tələbatının qarşılanması və abadlıq məqsədləri ilə ölkədə, xüsusən, Tehranda çoxlu sayda su quyuları qazdırmış, kəhrizlər inşa etdirmiş və kanallar çəkdirmişdir. Hətta quyulardan suyu daha asan və sürətli çıxarmaq üçün daim hərəkətdə olan dəlv (vedrə) sistemini icad etmişdir. Bu gün də onlardan bir çoxu qalmaqdadır. Bundan başqa, o, İranın Rusiya ilə müharibədə uduzmasının əsas səbəbini Rusiyanın tüfəng,

top və topxanasında gördüyü üçün İranda tüfəng sənayesinin və topxananın yaradılması və topların təkmilləşdirilməsi məsələsinə ciddi əhəmiyyət vermişdir (3).

H.M.Ağası Türkmənçay müqaviləsindən sonra rus çarı Nikolayın Rusiyanın ixtiyarına keçən torpaqlara səfəri çərçivəsində Qafqaza getmiş və Məhəmməd şahın çar I Nikolayla görüşmək istədiyini bildirmişdi. Məhəmməd şah I Nikolayla Qafqazda görüşü zamanı ikinci ona Herata qoşun çəkməyinə etiraz etmədiyini bildirmişdir. İngilislər şahı Herata hücumdan çəkindirmək istəsələr, də buna nail ola bilmədilər. Lakin Herata hücum heç bir müsbət nəticə vermədi. Şəhər bir müddət mühasirə edilsə də, onu tutmaq mümkün olmadı. Qoşun geri çağırıldı.

Bu vaxtlar da Rusiya, hər zaman olduğu kimi, ikiüzlü siyasət yeridirdi. Əvvəl İranı ingilislərə qarşı Herata hücuma təşviq edən Rusiya, Heratdakı uğursuzluqdan sonra İranın yenidən İngiltərə ilə əlaqələr qurması üçün ona təzyiqlər etməyə başladı. Bu təzyiqin sonu olaraq İngiltərənin səlahiyyətli nümayəndəsi Ser Can Meknil İrana gəldi. Onunla İranın Xarici İşlər naziri Mirzə Əbülhəsən xan Şirazi arasında bağlanmış müqaviləyə görə, Türkmənçay müqaviləsi ilə Rusiyaya verilmiş bütün hüquq və imtiyazlar İngiltərəyə də şamil edildi.

H.M.Agası haqqında mənfi fikir formalaşdırmaq istəyənləri iki qrupa bölmək olar: iranlılar və qeyri-iranlılar. Tarixin araşdırılması onların hər ikisinin qeyri-səmimi olduğunu ortaya çıxarır. İranlı müəlliflərdə daha çox antitürk əhvali-ruhiyyəsi, qeyri-iranlı, daha doğrusu, Avropa müəlliflərində isə antişərq əhvali-ruhiyyəsi H.M.Ağasıya qarşı xoşagəlməz və reallıqdan uzaq fikirlərin ortaya atılmasına səbəb olmuşdur. Məsələn, bəzi mənbələrdə onun, guya, qohumbaz olduğu, Azərbaycandan, xüsusən də, doğulduğu Makudan çoxlu sayda insanları hərbi və mülki işlərin başına gətirdiyi, onlara hər cür səlahiyyət verdiyi və onların özbaşınalıq etdikləri qeyd olunur. Əgər, doğrudan da, Hacı qohumbaz idisə, o zaman öz doğma atası, zamanının alim və şairi Mirzə Müslüm Qüdsini niyə paytaxta gətirməmiş və o, ömrünün sonlarına kimi maddi sıxıntılar içində yaşamışdı?! Yaxud da ondan sonra öldürülmüş bir çox tarixi şəxsiyyətlərin aradan qaldırılmasında, guya, H.M.Ağasının nəslinin əli olduğu yazılır. Halbuki, Hacı Mirzə sonsuz olmuşdur.

Səxavətli adam olub. Ona ağız açanlara "yox" deməzmiş. 1848-ci ildə özünün 1437 kənddən ibarət mülkünü Məhəmməd şaha bağışlamışdır. Bu kəndlərdən çoxunu o, özü tikdirmiş və abadlaşdırmışdı.

H.M.Ağası həm də böyük alim və şair olmuşdur. Rzaqulu xan Hidayət, Ağasının əsərlərinin sıradan çıxdığını yazsa da, onun bəzi əlyazmaları Təbrizdə Məhəmməd Naxçıvani adına Mərkəzi Kitabxanada və Tehranın Mülk kitabxanasında saxlanılır. Onlardan aşağıdakıları sadalamaq olar:

1. "Sultanlığın 40 fəsli"-Ağasınım gəncliyində Xoyda yazılıb, əxlaq, fəlsəfə və irfandan bəhs edir. Bu əsər 1945-ci ildə seçilmiş şeirləri ilə birlikdə Əli şah və Zəfərüddövlə tərəfindən çap edilmişdir;
2. "Səhame Abbasiyyə";
3. "Kələmat" iki yığcam fəsildə;

4. “Negarname dər elme coğrafiya”;
5. “Dövlət qanunu”;
6. “Məsabehe Məhəmmədi”;
7. “Təfsire bəzi ayate moşkele Qoran”;
8. Şeirləri.

Məhəmməd şah öləndən sonra oğlu Nəsirəddin şah taxta çıxır. Bir müddət sonra Hacı Ağası şahdan onu ziyarətə göndərməsini istəyir. Qalan mal və mülkünü də dövlətə bağışlayıb Bağdada və Kərbəlaya gedir, oradakı müqəddəs yerləri bir daha ziyarət edir və 1 avqust 1849-da Kərbəlada dünyasını dəyişərək orada dəfn olunur. Hər halda zamanının hər iki böyük şəxsiyyəti, yəni həm Məhəmməd şah və həm də onun vəziri Hacı Mirzə Ağası sufi idilər. Əslində Hacı Mirzə Ağasının verdiyi təlim Məhəmməd şahı sufi eləmişdi. Ağası onu zahid kimi yetişdirmişdi.

Nəticə

Dövlət xadimi, hüquqşünas alim, arif, şair Hacı Mirzə Ağasının həyat və yaradıcılığının ətraflı öyrənilməsi, adının ədəbiyyat, mədəniyyət və dövlətçilik tariximizə salınması şərqşünaslıq elmimiz qarşısında öz həllini gözləyən vacib məsələlərdən biridir. Bunun üçün bir an öncə fars və ərəbcə olan əsərlərinin ana dilinə tərcüməsi, türkcə olan əsərlərinin isə transfoneliterasiya edilərək çap olunması və araşdırılması həyata keçirilməlidir.

Ədəbiyyat

1. Şəmsi Pənahoğlu. Mirzə Müslüm Qüdsi İrəvani və onun “Divan”ı. Bakı: Elnar-2016. 2017. 196 s.
2. عتمادالسلطنه. صدرالتواریخ.تهران. نشریه نی. 246 ص.
3. عزیز دولت آبادی.سرایندگان شعر پارسی در قفقاز ، ص. 306
4. www.zinati.de/Images/Haji 15/08/2011

Шемси Ахмедов

ГОСУДАРСТВЕННЫЙ ДЕЯТЕЛЬ, УЧЕНЫЙ, ЗНАТОК ИРФАНА И ПОЭТ ГАДЖИ МИРЗА АББАС АГАСИ ФАХРИ ИРЕВАНИ

Аннотация

С чувством сожаления нужно отметить, что в истории Азербайджана есть много видных личностей, которые в силу объективных и субъективных причин изучены недостаточно, их имена не вошли в историю нашей литературы и культуры. Некоторые из них добились больших успехов в какой-либо определенной сфере, однако большинство представителей истории и культуры Азербайджана блеснули незаурядными способностями во многих областях. Одним из обладателей такого многогранного творческого наследия является государственный деятель, ученый, знаток ирфана и поэт Гаджи Мирза Аббас Агаси Фахри Иревани. Имея природный дар во многих сферах Агаси

Иревани во времена Мухаммед шаха Каджара на протяжении 13 лет (1835-1848) был садр-азамом и, занимая пост премьера министра претворил в жизнь много важных государственных дел. Целью этой статьи является представить краткое резюме проведенного нами исследования, связанного с Агаси Иревани, и, таким образом, способствовать популяризации и изучению этой исторической личности. Мы пришли к заключению, что изучение жизни и творчества Агаси Иревани, осуществление перевода его персо- и арабоязычных трудов на родной язык, а также трансфонелитерация и публикация, всестороннее изучение тюркоязычных произведений создаст предпосылки для включения имени этой яркой личности в историю нашей литературы, культуры и государственности.

Ключевые слова: *Агаси Иравани, Маку, государственный деятель, ученый, поэт*

Shemsi Ahmedov

STATE OFFICER, SCIENTIST, WISEMAN AND POET HAJI MIRZA ABBAS AGHASI FAKHRI IRAVANI

Summary

Unfortunately, there are many personali

ties in the history of Azerbaijan who have not been studied so far due to objective and subjective reasons, and their names have not presented to our literary and cultural history. Although some of them have achieved great success in a certain field, they were talented in many areas. One of those with multifaceted creative heritage is the statesman, scientist, wiseman and poet Haji Mirza Abbas Aghasi Fakhri Iravani.

Aghasi Iravani was the Prime Minister-Chairman-in-Chief of Iran (Azerbaijan) for 13 years (1835-1848) during the reign of Mahammad Shah Gajar, and had innate talent in many fields and great contributions.

The goal of this article is to provide a brief overview of survey on Aghasi Iravani, and thus to promote and encourage research on this great historical figure.

Thus, we can conclude that Aghasi Iravani's life and works should be studied, his works in Persian and Arabic should be translated into his native language, and his works in Turkish should be transphoneliterated and published and thoroughly researched. The introduction of the name of this great personality to literature, cultural and statehood history should be substantiated.

Key words: *Agasi Iravani, Maky, state figure, scientist, poet*

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: *akademik Möhsün Zellabdin oğlu Nağısoylu*
tərəfindən çapa tövsiyə olunmuşdur

İLAHƏ ORUCOVA,
ADPU-nun magistri

BƏDII ƏSƏRLƏRIN TƏHLILI MƏSƏLƏSINƏ TƏHSIL PROQRAMINDA MÜNASIBƏT

XÜLASƏ

Məzmunca zəngin olan ədəbiyyat fənninin əhatə etdiyi məsələlər həm çoxcəhətli, həm də inteqrativ mahiyyətlidir. Təbiidir ki, öyrənilən məslələrin sırasında birinci yerdə bədii əsərlər dayanır. Bədii əsərlər həm birinci mərhələdə (IV-IX siniflərdə), həm də ikinci mərhələdə (X-XI siniflərdə) diqqət mərkəzində saxlanılır. Bu mərhələlər üçün əsərlərin seçilməsinə fərqli mövqedən yanaşılır. Bədii əsərlər ədəbiyyat tarixinin müxtəlif dövrlərindən seçilərək ümumi başlıq – mövzu altında V-VII siniflərin dərsliklərinə daxil edilir. Bu məqamda, təbiidir ki, şagirdlərin yaş və bilik səviyyəsinə önəm verilir. Dərsliklərdəki ümumi başlıqlar – mövzular fərqli şəkildə ifadə edilmişdir.

Məktəb ədəbiyyat kursu məzmunca zəngindir.Tərcümeyi-hal materialları, icmal mövzuları, monoqrafik movzular, ədəbiyyat nəzəriyyəsi anlayışları və s. bu fənnin əhatə etdiyi təlim materiallarının bir qismidir. Lakin fənnin tədrisində daha çox diqqət yetirilən məsələ bədii əsərlər, onların öyrədilməsidir.Bu, təsadüfi deyildir.Fənnin qarşısında duran vəzifələrin yerinə yetirilməsində bədii əsərlərin öyrədilməsi önəmli yer tutur.Təhsil proqramında (kurikulumda) bədii əsərlərə xüsusi diqqət yetirilməsinin mühüm səbəbi də budur.Ədəbiyyat fənn kurikulumun da müəyyənləşdirilmiş üç məzmun xətti ya birbaşa, ya da dolayısı ilə bədii əsərlərin tədrisi ilə bağlıdır.

V-IX siniflərin proqramlarında bədii əsərlərin təhlili məsələsinə münasibət məqalədə ətraflı aydınlaşdırılmış, məzmun standartları, onların sinifdən-sinfə dərinləşdirilməsi nümunələr əsasında şərh edilmişdir**.**

Açar sözlər: təhsil proqramı, kurikulum, məzmun xətti, məzmun standartı, əsas standart, alt standart, bədii əsər, təhlil.

Məzmunca zəngin olan ədəbiyyat fənninin əhatə etdiyi məsələlər həm çoxcəhətli, həm də inteqrativ mahiyyətlidir. Təbiidir ki, öyrənilən məslələrin sırasında birinci yerdə bədii əsərlər dayanır. Bədii əsərlər həm birinci mərhələdə (IV-IX siniflərdə), həm də ikinci mərhələdə (X-XI siniflərdə) diqqət mərkəzində saxlanılır. Bu mərhələlər üçün əsərlərin seçilməsinə fərqli mövqedən yanaşılır. Bədii əsərlər ədəbiyyat tarixinin müxtəlif dövrlərindən seçilərək ümumi başlıq – mövzu altında V-VII siniflərin dərsliklərinə daxil edilir. Bu məqamda, təbiidir ki, şagirdlərin yaş və bilik səviyyəsinə önəm verilir. Dərsliklərdəki ümumi başlıqlar – mövzular

fərqli şəkildə ifadə edilmişdir. Məsələn V sinifdə mövzular aşağıdakı kimi müəyyənləşdirilmişdir:

"1. Şifahi xalq ədəbiyyatı inciləri .
2. Yurd sevgisi, ana məhəbbəti.
3. Mənəvi dəyərlər, həmişəyaşar hikmətlər.
4. Müharibə və insan haqqı.
5. Uşaq dünyası, uşaq taleyi.
6. Əməyə məhəbbət, zəhmətə çağırış.
7. Təbiətin gözəlliyi, təbiətə qayğı." [28 s 4-5]

VIII-IX siniflərdə isə ədəbiyyat tarixinin xronoloji ardıcıllıqla öyrədilməsi məqsədəuyğun sayılmışdır. Daha dəqiq deyilsə, ədəbiyyatın qədim dövrdən keçdiyi inkişaf yolu diqqət mərkəzində saxlanmışdır. Dərsliyə tanınmış sənətkarlar daxil edilmiş, onların bir əsərinin tədrisi nəzərdə tutulmuşdur.

Deyilənlərdən aydınlaşır ki, ədəbiyyat fənninin ən mühüm təlim materialı bədii əsərdir. Bu, təsadüfi deyildir və iki mühüm səbəbi var.

– Ədəbiyyat fənninin qarşısında duran vəzifələrin yerinə yetirilməsində bədii əsərlər müstəsna rol oynayır.

– Təhsil proqramında (kurikulumda) bədii əsərlərin öyrədilməsinə önəm verilir.

Bədii əsərlər şagirdlərin həm elmi, həm də bədii inkişafına əhəmiyyətli dərəcədə təsir edir. Ədəbiyyat fənni, məlumdur ki, bir tərəfdən elmi-nəzəri anlayışların mənimsənilməsini (bu, elmi istiqamətdir), digər tərəfdən isə söz sənəti nümunələrinin öyrənilməsini (bu, bədii-estetik istiqamətdir) həyata keçirir. Fənnin mənimsənilməsinin bir çətinliyi də bununla izah olunur.

Bədii əsərlərin öyrənilməsi şagirdlərin dünyagörüşünün inkişafına, əqli və mənəvi cəhətdən zənginləşməsinə əhəmiyyətli dərəcədə təsir edir. Məktəblilərin nitqunun inkişaf etdirilməsi də daha çox bədii əsərlərin öyrənilməsi prosesində gerçəkləşdirilir. Bütün bunlar ədəbiyyat fənninin vəzifələri sırasına daxildir, və bədii əsərlərə daha çox diqqət yetirilməsinin səbəbin aydınlıq gətirir.

Məslənin ikincə tərəfinə diqqət edək. Təhsil proqramında bədii əsərlərin öyrədilməsi, deyildiyi kimi, ön plana çəkilmişdir. Birinci məzmun xətti – ədəbiyyat və həyat həqiqətləri bütövlükdə bədii əsərlərin öyrədilməsi ilə bağlıdır. İkinci məzmun xətti (şifahi nitq) üzrə müəyyənləşdirimiş standartlar ya birbaşa, ya da bilvasitə ədəbi əsərlə əlaqəlidir. Eləcə də üçüncü məzmun xətti – yazılı nitq ya bilavasitə, ya da dolayısı ilə bədii əsərlə bağlıdır.

Konkret olaraq bədii əsərin təhlilinə məzmun standartlarında münasibət necədir?

Bunu V sinfin proqramı əsasında nəzərdən keçirək.

"Ədəbiyyat və həyat həqiqətləri" məzmun xəttinin iki əsas standartı vardır. Onlar aşağıdakılardır:

– "1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir."

– "1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir."

Birinci əsas standart, göründüyü kimi, bədii əsərin məzmununun öyrənilməsi ilə bağlıdır. Beş alt standartı vardır və onlar bədii əsərin təhlilinə etibarlı zəmin hazırlayır. Başqa sözlə, həyata keçirilən ilkin ifadəli oxu (1.1.2.), bədii nümunələrin hissələrə ayrılması (təhlildə süjet, kompozisiyanın öyrənilməsinə təsir edir), məzmunun nağıl edilməsi (1.1.3.), bədii nümunələrin janrlara görə fərqləndirilməsi (1.1.4.), bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi (1.1.5.) sonrakı mərhələnin – təhlilin əhatəli aparılmasına imkan yaradır.

Bilavasitə təhlillə bağlı olan ikinci əsas standartın dörd alt standartı vardır. Birinci alt standart aşağıdakı şəkildə ifadə edilmişdir: "1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir."Bu standart çox əhəmiyyətli olub, bütün janrlardan olan əsərərin təhlilində tətbiq oluna bilər.Standartın əhəmiyyəti didaktik müqayisə priyomunun faydası ilə də dəyərləndirilməlidir.Müqayisə cisim və hadisələri ən xırda incəliklərinə qədər dərk etməyə imkan yaradan mühüm fikri əməliyyatdır. Hər hansı obyekt ayrılıqda öyrənilərkən onun nəzərdən qaçan cəhətləri ola bilər və olur. Həmin obyekt digər bir obyektlə müqayisə edildikdə onun alt qatına nüfuz edilir, ilk baxışda, öyrənmədə sezilməyən cəhətlər aşkara çıxarılır və əsaslı şəkildə mənimsənilir.Müqayisənin mahiyyəti, xüsusiyyətləri, tətbiqi qaydaları şagirdlərə tədricən mənimsədilməlidir.Şagirdlər bilməlidirlər ki, müqayisə o vaxt baş tutur, səmərəli olur ki, obyektlər müqayisəyə gələn olsunlar.Obyektlər eynu əsaslar üzrə müqayisə edilməlidir. Bu əsaslar müqayisəyə

başlamazdan əvvəl müəyyənləşdirilməlidir. Məsələn, M.F.Axundzadənin "Aldanmış kəvakib" əsərinin təhlilində Yusif Sərrac və Şah Abbas surətlərini müqayisəli səciyyələndirməyi planlaşdıran müəllim əvvəlcədən aşağıdakı əsasları müəyynləşdirə bilər. Bu obrazların:

1. Vətənə münasibətləri.
2. Xalqa münasibətləri.
3. Dövlət işlərinə münasibətləri.
4. Dinə münasibətləri.
5. Din xadimlərinə münasibətləri.

Müqayisə üçün əsaslar müəyyənləşdirilməzsə, obyektlərin ayrı-ayrı xüsusiyyətləri sadalanmış olar.

Standartın qiymətli olmasının bir səbəbi də budur ki, ədəbiyyat dərslərində müqaiysə imkanı genişdir. Onlar, əsasən, aşağıdakılardır:

1. Əsərlərin mövzu və ideya baxımından müqayisəsi.
2. Əsərlərin ədəbi növ və janr baxımından müqayisəsi.
3. Şifahi və yazılı ədəbiyyat nümunələrinin janr baxımından müqayisə edilməsi.
4. Ədəbi qəhrəmanların müqayisəsi.
5. Obrazın prototipi ilə müqayisə edilməsi.
6. Əsərdəki əhvalat və hadisələrin müqayisəsi.

7. Sənətkarın müxtəlif dövrlərdə yazdığı əsərlərin müqayisəsi.

8. Ədəbi əsəri səhnə həyatı ilə müqayisə və s.

İkinci alt standart aşağıdakı məzmundadır: "1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir."Göründüyü kimi, təhlilin mühüm komponenti diqqət mərkəzində saxlanmış, V sinif şagirdlərinin yaş və bilik səviyyələrinə uyğun tələb irəli sürülmüşdür.Ədəbi qəhrəmanın xarakterindəki başlıca xüsusiyyətlərin müəyyənləşdirilməsi, münasibət bildirilməsi ciddi fikri fəallıq, müstəqil düşüncə tələb edir.Başlıca olanları, əsas olanları ayırmaq və onları dəyərləndirmək müstəqilliyin mühüm göstəricisidir.Təbiidir ki, şagirdlər obrazları təhlil edərkən yalnız xarakterlərindəki başlıca xüsusiyyətləri müəyyənləşdirməklə məhdudlaşmır, onların davranış və əməllərinə də münasibət bildirmiş olurlar.Bu cəhətlər, sadəcə, qiymətləndirmə məqamında görülmür.

Növbəti standart belədir: "1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır." Standart zahirən sadə görünsə də, əsərin bədiiliyinin başa düşülməsi və aydınlaşdırılması baxımından çox

əhəmiyyətlidir. V sinifdə bünövrəsi qoyulan bu iş yuxarı siniflərə qalxdıqca dərinləşdirilir və genişləndirilir, şagirdlərin bədii-estetik inkişafında ciddi rol oynayır.

Sonuncu standart belədir: "1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır.Münasibət bildirir."Mövzu və ideyanın aydınlaşdırılması bədii əsərlərin təhlilinin ən mühüm məqamlarındandır.Mövzu, məlumdur ki, məzmunda ifadəsini tapır.Deməli, mövzunun aydınlaşdırılması, əslində, məzmunun öyrənilməsi mərhələsində, hətta təhlildə belə diqqət mərkəzində saxlanılır.Məzmunun mövzuya nə dərəcədə uyğun olması, onunla səsləşməsi əhvalat və hadisələrdə, obrazların nitq və əməllərində, bütövlükdə süjetdə ifadəsini tapır.İstər məzmunla, istərsə də təhlillə bağlı təşkil edilən işdə məsələnin bu cəhətinə ayrıca diqqət yetirilir.

Məlumdur ki, təhsil proqramında inkişafyönümlülük mühüm tələb kimi qəbul edilmişdir.Bunun bir nümunəsi standartların tələbləridir.Sinifdən sinfə keçdikcə standartların tələblərinin artmasını müşahidə etmək mümkündür.Təhlillə bağlı standartların VI sinifdığəki vəziyyətinə baxaq.

Birinci məzmun xəttinin ("Ədəbiyyat və həyat həqiqətləri") ikinci əsas standartının ilk alt standartı belədir: "1.2.1. Bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətləri baxımından müqayisə edir." Təbiidir ki, bu istiqamətdə aparılan müqayisədə janrın özəlliyi, təsvir üsulları, təsvir imkanları və s. diqqət mərkəzində saxlanılır. Müqayisələr çoxtərəfli olur. Başqa sözlə, əfsanə nağılla, nağıl hekayə ilə və s. müqayisə edilir. Şagirdlər müqayisə prosesində janrların özəl xüsusiyyətlərini və digər cəhətlərini nümunələr əsasında dərindən mənimsəyir və bütün bunlara şəxsi münasibətlərini bildirirlər.Bu standart V sinifdə reallaşdırılmış standart (1.2.1.) əsasında yaradılmış bacarıqların inkişafına əlverişli imkan yaradır.

İkinci alt stnadart (“1.2.2.Bədii nümunələrdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir) V sinifdə reallaşdırılmış standartın (1.2.1.) davamı və inkişafı kimi dəyərləndirilməlidir.İndi şagird obrazın xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqla yanaşı, onun davranış və əməllərinə də diqqət yetirməli, bu əsasda onu səciyyələndirməlidir.Bu, şagirdi inkişafa aparan yoldur.

Növbəti standart – “1.2.3.Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet təşbeh, mübaliğə, bədii sual) rolunu aydınlaşdırır” məzmunca zənginləşdirilmiş, ona iki yeni anlayış (mübaliğə, bədii sual) əlavə edilmişdir.Bu, işin daha geniş istiqamətdə qurulmasına şərait yaradır.

Sonuncu standartda (“1.2.4.Bədii nümunələrin mıvzusunu, ideyasını şərh edir, əsaslandırılmış münasibət bildirir”) əsaslandırılmış münasibətin bildirilməsi yeni tələb kimi təzahür edir.Deməli, bu, şagirdlərdən dəlil və sübutlar tələb edir, məsələyə daha məsuliyyətlə yanaşmağa səbəb olur.

Bu inkişafı VII sinif üçün müəyyənləşdirilmiş standartlarda da müşahidə etmək olur. Bu sinifdə yeni bir janrın (mənzum hekayə) öyrədilməsi (1.2.1.) məqsədəuyğun

sayılmış, “növ” anlayışının mənimsədilməsi tələbi irəli sürülmüşdür. Təbiidir ki, mənzum hekayənin təhlili, janr baxımından digər janrlarla müqayisə edilməsi şagirdin təlim fəaliyyətini genişləndirir və zənginləşdirir.

İkinci standart (“1.2.2.Digər obrazlarla müqayisə etməklə və yazıçının münasibətinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir”) şagirdlərin təlim fəaliyyətini daha yüksək tələb əsasında təşkil etməyə yönləndirir.Bu standart təhlilin daha dərin əsaslarla aparılmasına imkan verir; obrazların müqayisə edilməsi, ümumiləşdirmənin həyata keçirilməsi, nəticənin çıxarılması, yazıçıın münasibətinin aşkara çxarılıb ona istinad edilməsi ciddi idrak fəallığı, təfəkkür müstəqilliyi sayəsində mümkün olur.

Digər alt standart da (“1.2.3.Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğı, bədii sual, təkrir, litota”) zənginləşmiş məzmunda təqdim edilmişdir. Şagirdlər iki yeni nəzəri anlayışla (təkrir, litota) tanış olmalı, onlarla bağlı mənimsədikləri bilikləri tətbiq etməklə müvafiq bacarıqlar qazanmalıdırlar.

Yeddinci sinif müəyyənləşdirilmiş sonuncu təhlil standartı da (“Bədii nümunələrin mövzusunu, ideyasını və başlıca problemini şərh edir, əsaslandırılmış münasibət bildirir”) əvvəlki sinifdən fərqli tələblə zənginləşdirilmişdir.Şagirdlər bu sinifdə əsərin başlıca problemini də aydınlaşdırmaq tələbini yerinə yetirməli olurlar.

VII sinfin dərsliyində təhlil üzrə işlər bu deyilənlərlə məhdudlaşmır. “Tətbiq və ümumiləşdirmə” adlandırılan dərslərdə (tədris ili boyu beş belə dərs keçilir) şagirdlərə bilik və bacarıqlarını tətbiq etməyə imkan yaradan müstəqil iş icra etdirilir.

Səkkizinci sinfin proqramında əhəmiyyətli irəliləyişin olduğunu müşahidə etmək olur.Məsələn, obrazların təhlilində onlarla bağlı məişət təsvirlərinə əsaslanmağın vacib olduğu bir tələb kimi irəli sürülmüşdür.Bu, şagirdlərin müşahidə qabiliyyətinin, ümumiləşdirmə bacarığının inkişaf etdirilməsi baxımından faydalıdır.

Bu sinifdə şagirdlər yeni janrlarla (novella, dram, poema), təsvir və ifadə vasitələrilə (metafor, bədii təzad, kinayə) tanış olurlar ki, bu da ədəbi əsərin təhlilində daha dərinləşmiş istiqamətdə işin aparılmasını zəruri edir.

Sonuncu standart isə ("1.2.4.Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir") təhlil prosesində iki yeni anlayış üzrə (süjet, kompozisiya) işin aparılmasını nəzərdə tutur.

Bədii əsərlərin təhlili üzrə bacarıqların dərinləşdirilməsi IX sinfin proqramında da müşahidə eilir. Məsələn, ədəbi qəhrəmanların təhlilində digər obrazların və müəllifin mühakimələrinə əsaslanmq mühüm tələb kimi ön plana çəkilmişdir: "1.2.2. Digər obrazların və müəllifin münasibətlərinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir."Bu tələb bədii mətnin dərindən öyrənilməsi və şagirdlərin məntiqi təfəkkürünün inkişaf etdirilməsi baxımından çox faydalıdır.

Bu sinifdə yeni təsvir və ifadə vasitələrinin mənimsənilməsi üzrə təklif edilən anlayışlar (metonimiya, inversiya, simvol) bədii əsərin əhatəli təhlili, onun bədii keyfiyyətlərinin başa düşülməsi və dəyərləndirilməsi baxımından məqsədəuyğundur.

Artıq deyildiyi kimi digər iki məzmun xəttinin standartlarında da bədii əsərlərin təhlilinə yönəlik tələblər (təqdimatların edilməsi, problemlərin aydınlaşdırılması, yazı işlərinin icra edilməsi və s.) öz əksini tapmışdır.

Məlumdur ki, ədəbiyyat dərslərində yalnız məzmun standartlarının reallaşdırılması kifayətlənilmir.Əslində, bu, heç mümkün də deyildir.Birbaşa standartla bağlı tapşırıqların icrasından əvvəl hazırlıq işlərinin aparılması və bu prosesdə müəyyən sualların verilməsi vacib olur.Yaxud istiqamətləndirici sualların verilməsinə, eləcə də əlavə tapşırıqların icrasına ehtiyac yaranır.Lakin proqramların araşdırılmasından bu da aydınlaşır ki, hər üç ədəbi növdən olan əsərlərin təhlili ilə bağlı mühüm məsələlərin hamısı standartlarda əhatə olunmuşdur.Başqa sözlə, təhlilin komponentlərinin (mövzu, ideya, obrazlar, problematika, bədii xüsusiyyətlər və s.) araşdırılması ya birbaşa, ya da dolayısı ilə standartların tələbləri sırasına daxildir.

Attitude to the matter of analysis of artistic works in the academic program

Ilaha Orujova

SUMMARY

Issues which are covered by the literature subject, which is rich with content, are both multi-functional and integrative. It is fact that, artistic works stay on the first place among the studied issues. Artistic works are remained in the center of attention both in first stage (IV-IX grades) and second stages (X-XI grades). Approach to the election of works for such stages is performed from the various positions. Artistic works, by being chosen from the various periods of the history of literature, are included in the textbooks of V-VII grades under the general heading- topic. In this point of view it is fact that, attention is given to the age and knowledge level of students. General headings-topics in the textbooks are expressed differently.

School literature course is very rich in point of its content view. Autobiography, materials, review topics, monographic texts, literature theory and conceptions and others are some parts of the training materials covered by this subject. But, the case on which special attention should be made in the teaching of subject is an artistic works and their teaching. It is not incidental. Teaching of the artistic works takes the significant place in the execution of duties in relation with this subject. It is a significant reason for the attention to the artistic pieces in the curriculum. Three content lines determined in the curriculum of the literature subject are related with the teaching of the artistic works directly or indirectly.

The attitude to the case of the analysis of the artistic works in the academic program of V-IX grades has been clarified in details and the content standards and examples of their deepening from the grade to grade have been interpreted in this article.

Key words: academic program, curriculum, content line, content standard, main standard, sub-standard, artistic work, analysis

Отношение в программе обучения к вопросу анализа художественных произведений

Илаха Оруджева

РЕЗЮМЕ

Вопросы, охваченные предметом литературы с богатым содержанием не только являются многогранными, а также обладают интегративным содержанием. Естественно, что среди изученных вопросов первое место занимают художественные произведения. Художественные произведения находятся в центре внимания не только на первом (IV-IX классы), а также, на втором этапе (X-XI классы). Выбору произведений для данных этапов подходят с различных позиций. Выбор художественных произведений начинается с различных периодов истории литературы, и вводятся с учебные пособия V-VII классов под общим заглавием – тематикой. В этом смысле весьма естественным является то, что большое значение придается уровню знаний и возрастным особенностям учащихся. Общие заглавия – тематики в учебниках выражены в различной форме.

Курс школьной литературы отличается богатым содержанием. Материалы автобиографии, обзорные тематики, тематики монографии, понятия по теории литературы и. др. Это часть материалов обучения, которые охвачены данным предметом, Но, тот вопрос, которому выделяется большое внимание в процессе преподавания предмета это вопрос, который касается художественных произведений и их изучения. Это не случайно. Изучение художественных произведений при выполнении задач данного предмета

занимает важное место. Это является важнейшей причиной наделения особого внимания художественным произведениям в программе обучения (куррикулуме). Три сюжетные линии, установленные в куррикулуме предмета литературы прямо или косвенно связаны с пропедевтикой художественных произведений.
Отношение вопросу анализа художественных произведений в программе V-IX классов подробно разобраны в статье, и на основе примеров изложены стандарты содержания и их углубление по классам.
Ключевые слова: программа обучения, курикулум, сюжетная линия, стандарт содержания, основной стандарт, подстандарт, художественное произведение, анализ.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni kurikulumu.V-XI siniflər.(Təlim Azərbaycan dilində olan məktəblər üçün).Bakı, “Azərbaycan müəllimi” qəzeti, 24 dekabr, 2010, № 50.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan müəllimi” qəzeti, 25 oktyabr, 2013. №41.
3. Həsənli B. ədəbiyyatın tədrisi metodikası. Bakı, 2016.
4. Hüseynoğlu S. Yeni təlim texnologiyalarının tətbiqi məsələsinə ədəbiyyat fənn kurikulumunda münasibət. “Azərbaycan dili və ədəbiyyat tədrisi” jurnalı, 2015, № 1.
5. Hüseynoğlu S. Fənn kurikulumunun tələblərinin ədəbiyyat dərsliklərində reallaşdırılması. “Azərbaycan dili və ədəbiyyatın tədrisi”, 2020,

Redaksiyaya daxil olma tarixi: 11.01.2022
Çapa qəbul olunma tarixi: 29.01.2022
Rəyçi: ADPU-nun dosenti
Soltan Əliyev tərəfindən çapa tövsiyə olunmuşdur

Bilal Hüseynağa oğlu HÜSEYNOV,
Filologiya üzrə fəlsəfə doktoru,
ADPU Cəlilabad Filialının müəllimi,
Naxçıvan Dövlət Universitetinin
elmlər doktorluğu üzrə dissertantı
bilalalarli58@mail.ru

AZƏRBAYCAN FOLKLORUNDA DRAMATİK NÖVÜN JANRDAXİLİ DƏYİŞMƏLƏRİ
OYUNLAR

Özət

Azərbaycan folklorunda dramatik növün janrlarının öyrənilməsində, sistemləşdirilməsində, janr təyinatının dəqiqləşdirilməsində fikir müxtəlifliyi mövcuddur. Bunun birinci səbəbi dramatik növə aid olan janrların həm folklorşünaslar, həm də teatrşünaslar (sənətşünaslar) tərəfindən fərqli yanaşmalarla nəzərdən keçirilməsi ilə bağlıdır. İkinci əsas səbəb isə oyunlarla xalq tamaşaları arasında konkret "səddin" olmamasıdır. Müxtəlif bölgələrdən toplanmış oyun və xalq tamaşası nümunələrinin rəngarəngliyi onları qruplaşdırmağa imkan verir. Əyləncəli, şənlik və tamaşa (teatral) xarakterli oyunlarla yanaşı, musiqili-rəqs xarakterli, ritual-dini xarakterli, həmçinin yarış-idman xarakterli oyunlar da geniş yayılmışdır.

Oyunların janrdaxili dəyişmələrini bir neçə mərhələdə qruplaşdırmaq mümkündür. Birinci mərhələyə daxildir:

-təsviri oyunlar (Tərəkəmə oyunları və sair)

-hərəki oyunlar (Şatır oyunları və sair)

İkinci mərhələdə oyunlar iki qrupa bölünür:

-intellektual (əqli) oyunlar;

-ritmik (əyləncəli) oyunlar.

Üçüncü qruplaşdırma mərhələsi nəzm və nəsr mətnləri ilə fərqlənən oyunlardır:

-oyunlara hazırlıq oyunları (sanamalar, uralamalar, barmaqhesabları);

-xalq tamaşalarına hazırlıq oyunları;

-tamaşa ünsürlü oyunlar;

-xalq tamaşaları (nəzm mətnli və nəsr mətnli).

Nəzərdən keçirdiyimiz mənbələr imkan verir ki, oyunların bölgüsündə vahid bir prinsip yaradılsın. Beləliklə, oyunları üç qismə bölmək mümkündür:

-Tamaşa ünsürlü oyunlar;

-Əyləncə xarakterli oyunlar;

-Yarış xarakterli oyunlar.

Azərbaycan folklorunda oyunların janrdaxili dəyişmələrinin öyrənilməsi bu folklor örnəklərinin assiqnmentativ təyinatını nəzəri cəhətdən dəqiqləşdirməyə imkan verir.

Açar sözlər: ***Azərbaycan folkloru, oyunlar, oyunların janrdaxili dəyişmələri.***

Folklorun janr xüsusiyyətlərini əhalinin etnik tərkibi, dini təfəkkürü və mifik inamları, bölgənin coğrafi və iqlim şəraiti, həmçinin təsərrüfat həyatı müəyyən edir. Azərbaycan folklorunda dramatik növün janrlarının öyrənilməsində, sistemləşdirilməsində, janr təyinatının dəqiqləşdirilməsində fikir müxtəlifliyi mövcuddur. Bunu birinci səbəbi dramatik növə aid olan janrların həm folklorşünaslar, həm də teatrşünaslar (sənətşünaslar) tərəfindən fərqli yanaşmalarla nəzərdən keçirilməsi ilə bağlıdır. İkinci əsas səbəb isə oyunlarla xalq tamaşaları arasında konkret "səddin" olmamasıdır. Əlbəttə, bu münasibət teatr sənətindəki reallıqla bağlıdır, ümumiyyətlə, sənətşünaslar üçün bütün oyunlar və tamaşalar teatr nümunəsidir, buna görə də oynanılan hər hansı səhnə aktyorluq məharətinə əsaslanır. Folklorşünaslıq bu məsələnin araşdırılmasını bir qədər fərqli yanaşma üzərində həyata keçirir. Əsas mərhələlər bunlardır: Oyuna hazırlıq oyunları, oyunlar və xalq tamaşaları. Oyunlar quruluşuna, məqsədinə, məzmununa, ifa tərzinə görə müxtəlifdir. Yaranmış vəziyyət darmatik növün janrlarını müqayisəli şəkildə təhlil etməyi qarşıya ilkin məqsəd kimi qoyur.

Azərbaycan folklorunda dramatik növün janrları (tamaşa folkloru) fərqli xüsusiyyətlərə malikdir. Bu janrlar *ifa formasına* (oyun-nəğmə, oyun-tapmaca, püşkatma, qıfılbənd şəkilli deyişmələr və sair), *ifaçı tərkibinə* (uşaq oyunları, yeniyetmə oyunları, qızlar üçün oyunlar, oğlanlar üçün oyunlar, qızlar və oğlanlar üçün oyunlar və sair), *ifa məqamına* (mərasim və mövsüm oyunları və sair), *ifa tərzinə* (zorxana, qaçdı-tutdu, gözbağlayıcı, mərəköçdü, turnavurdu, dirədöymə və sair), *ifa məqsədinə* (dilaçmalar-öyrətmələr, barmaq hesabları), *quruluşuna görə* (hərəki oyunlar, zehni oyunlar, xalq tamaşası və sair) bir-birindən fərqlənir.

Müxtəlif bölgələrdən toplanmış oyun və xalq tamaşası nümunələrinin rəngarəngliyi onları qruplaşdırmağa imkan verir. Əyləncəli, şənlik və tamaşa (teatral) xarakterli oyunlarla yanaşı, musiqili-rəqs xarakterli, ritual-dini xarakterli, həmçinin yarış-idman xarakterli oyunlar da geniş yayılmışdır. Atüstü oyunların keçirilməsinə də maraq böyükdür. Bundan başqa, oyunların qruplaşdırılmasında iştirakçıların yaş və cins tərkibi də nəzərə alınır. Uşaqlar və yeniyetmələr üçün oyunlar sadəliyi, böyüklər üçün oyunlar isə mürəkkəb tərkibi və iştirakçılarının çevikliyi, cəldliyi ilə fərqlənir. Qadınlar üçün olan oyunlar, əsasən, rəqs elementləri ilə zəngin olur.

Oyun mədəniyyətinin öyrənilməsi və araşdırılması ümumilikdə folkloru, etnoqrafiyanı və tarixi kompleks halda tədqiq etməyə imkan verir. Təsərrüfat və məişət həyatı, birgəyaşayış qaydaları, tarixi-ictimai hadisələr folklora təsirsiz ötmür. Milli mədəni irsimizin bir qolunu təşkil edən oyunların öyrənilməsi və bəzi hallarda bərpa olunması Azərbaycan mənəvi sərvətinin qorunmasına xidmət edir. Belə ki, oyunların tam araşdırılması onların elmi şəkildə qruplaşdırılmasına imkan yaradır.

İfa formasına və ifaçı tərkibinə görə fərqləndirilən *oyun-nəğməyə (oyun-mahnıya)* "Hop-hop", "A Yel Baba" folklor nümunələri, *oyun-tapmacaya* qıfılbənd və bağlama şəkilli uşaq folkloru nümunələri daxildir. Dini tamaşalar ifa məqsədinə görə tamaşa ünsürlü oyunlar və xalq tamaşaları sırasına daxildir. Tamaşa ünsürlü dini oyunlar, adətən, bir pərdəli olur, deyişmə, sözgüləşdirmə, qılıncoynatma səhnələri ilə yadda qalır. Dini tamaşalar (şəbihlər) isə xüsusi meydançalarda və məscidlərin həyətlərində nümayiş etdirilir. Belə tamaşalarda iştirakçıların sayı çox olur, tamaşanı maraqlı etmək üçün dəvə və atlardan istifadə olunur, bəzi hallarda isə xeymələr (çadırlı daldanacaqlar) qurulur.

Oyunların janrdaxili dəyişmələrini bir neçə mərhələdə qruplaşdırmaq mümkündür. Birinci mərhələyə daxildir:

-təsviri oyunlar (Tərəkəmə oyunları və sair)

-hərəki oyunlar (Şatır oyunları və sair)

İkinci mərhələdə oyunlar iki qrupa bölünür:

-intellektual (əqli) oyunlar;

-ritmik (əyləncəli) oyunlar.

Üçüncü qruplaşdırma mərhələsi nəzm və nəsr mətnləri ilə fərqlənən oyunlardır:

-oyunlara hazırlıq oyunları (sanamalar, uralamalar, barmaqhesabları);

-xalq tamaşalarına hazırlıq oyunları;

-tamaşa ünsürlü oyunlar;

-xalq tamaşaları (nəzm mətnli və nəsr mətnli).

Oyunlar yaş tərkibinə görə iki qrupa bölünür: uşaq oyunları və böyüklər üçün oyunlar. Uşaq oyunları geniş yayılmışdır. "Mozu-mozu", "Mərəköçdü", "Beşdaş", "Bənövşə", "Dəsmalaldıqaç", "Gizlənpaç", "Gözbağlıca", "Qələndər", "Siçan-pişik", "Evcik-evcik", "Eşşəkbelixırç" və başqa bu tipli oyunlar əyləncə xarakteri daşıyır. İdman-yarış xarakterli oyunların məqsədi isə uşaqlarda və yeniyetmələrdə cəldlik, çeviklik və cəsurluq kimi keyfiyyətlər formalaşdırır. "Cilingağac", "Telbir", "Sürməağac" və başqa uşaq oyunları sağlamlıq məqsədilə təşkil olunur və yeniyetmələrin idman hazırlığını artırır. Fiziki və əqli cəhətdən daha güclülərin seçilməsi, qalib elan edilməsi bu oyunların böyüklərin də diqqət mərkəzində olduğunu göstərir. Bu cür oyunlar yeniyetmələrin cəsurluq tələb edən peşə hazırlığı məqsədilə icra olunur və ardıcıl xarakter daşıyırdı. Məsələn, orta yüzilliklərdə qasidlik funksiyasını yerinə yetirən şatırlar bu yolla hazırlanırdılar **(5, 69-76)**.

Oyunlara hazırlıq oyunları sanamalar və uralamalar üzərində qurulur, oyunçular dəstələrə bölünür, ələnirlər. Sanama da, uralama da oyunçuları seçməyə və qruplara bölməyə xidmət edir. Oyun başçısının uralamanı deyib qurtaran zaman əli ilə kimi işarələsə, həmin oyunçü müəyyən edilmiş qrupa daxil edilir:

Hap-hapı,
Harpı sapı.
Beş barmağı,

Bir yarpağı.
Vur dirnağa,
Çıx qırağa (**7, 375**).

Yaxud:
Handa-hunda,
Tülkü yatıb bunda (**7, 375**).

Yarış xarakterli oyunlar nəticələrə hesablanır, qaliblər müəyyən edilir. Yarış xarakterli oyunların içərisində şatıroyunları keçirilmə qaydalarına və əməli nəticələrinə görə fərqlənir. Belə yarışları kadr hazırlığı mərhələsi də saymaq olar. Müxtəlif oyunlar, o cümlədən itboğuşdurmalar, xoruzdöyüşdürmələr, atçapmalar, gücsınamalar, oxatmalar və qılıncoynatmalar tamaşa ünsürlü oyunların rəngarəngliyini göstərir. Muğan bölgəsində itqusdular, aldatmalar, eşşəkçullamalar, uçanauçurtmalar, daşyeritmələr, ovucdagizlənənitapmalar, qaçdıqovdular, küsmələr, haylanmalar, çimdikləmələr xüsusi mətnlə müşayiət olunan yarış xarakterli oyunlardır (**7, 372-376**). Oyun mətnləri oyunçuların fiziki hərəkətlərə üstünlük verdiyini göstərir:

İtqusdu nümunəsi:
İtqusdu, ay itqusdu,
İtim dərədə qusdu.
Pəncərədən baxırsan?
Qapıdan çıxırsan? (**7, 372**).

Haylanma nümunəsi:
Gözü bağlanan:
-Hardasınız?
Oyunçular:
-Gəlirik haylana-haylana.
-Mən hardayam?
-Qalmısan boylana-boylana (**7, 373**).

Oxşar oyunlar digər bölgələrdə də keçirilir. Masallı folklorunu öyrənən Fərahim Sadıqov yazır ki, bu oyunlarda yeni dünyagörüş qazanmaq, qələbə əzmi əldə etmək, udaraq sevinmək, başqasını məğlub edərək qürrələnmək kimi mənəvi keyfiyyətlər qorunub saxlanılır: "Çox qədim tarixə malik olan "Şuppu-şuppu", "Mərə-mərə", "Dirədöymə", "Yoldaş, səni kim apardı", "Bənövşə bəndə düşə", "Beş daş", "Aşıq-aşıq", "Aşıq-toxan", "Siçan-pişik", "Gözbağlayıcı", "Gizlənpaç", "Dəsmal aldı, qaç", "Qələndər", ""Lal-dinməz", "Ay hoppanı-hoppanı", "Xan-vəzir", "Bəhməngizar", "Təkləncüt", "Quş göstərdi", "Fincan-fincan", "Çillik ağac

oyunu", "Evcik-evcik", "Qızılquş", "Xala-xala", "Eşşək beli sındırdı" kimi oyunların bir qismi oğlanlara, bir qismi isə qızlara aiddir" (**19, 29**).

Bir çox uşaq oyunları tarixi əhəmiyyət daşıyır, böyüklərin qədim təsərrüfat, məişət və dini mərasimlərini, inanc sistemlərini yamsılama xarakteri ilə fərqlənir. Elçin Aslanov yarış, idman xarakteri daşıyan hərəkətli uşaq oyunları ilə yanaşı, özündə söz, deyişmə, oxuma, rəqs, tamaşa ünsürlərini birləşdirən süjetli uşaq oyunlarının da mövcud olduğunu yazır: "Bu oyunlar bir adət olaraq, vaxtilə yaşlıların ciddi surətdə icra etdiyi qədim mövsüm və mərasim oyunları və yaxud həmin oyunların pərakəndə düşmüş tör-töküntüsüdür... Evlərarası, həyətlərdə, çayır-çəməndə oynanılan uşaq oyunlarının bir başqa qismi yaşlıların həyatından alınmışdır, lakin kiçiklərin ifası üçün uyğunlaşmış variantlar, yamsılamalardır. Həmin oyunlar tarixdə "çağa oyunları" adı ilə də bəllidir" (**6, 9**). Belə oyunların bəziləri "yalançı oyun" adlanır. Məsələn,"Qamış at", "Qarğı at", "Atdıbaş" oyunlarında böyüklərin atüstü oyunları yamsılanır. Bölgələrdə heyvandarlıq təsərrüfatı ilə bağlı olaraq atüstü idman oyunları, xüsusən, çapar yarışları və cıdır oyunları geniş yayılmışdır. Atüstü oyunlar el şənliyində, toy mərasimlərində at belində oynanılan müxtəlif yarışlardan ibarətdir. Buraya at üstə akrobatik hərəkətlər, at üstə qılıncoynatma və nizəatma, at üstə kütləvi meydan oyunları və atı bir neçə yerişlə yeritmə kimi idman yarışları daxildir (**6, 7**). At yerişləri (yortma, yorğa, dördəmə, dördnal, löhrəm, yanıyanı və sair) idman yarışlarının ən əyləncəli şəkilləridir. Yardımlı rayonunda "Gərdəkqaçırtdı" atüstü oyunu geniş yayılıb. Muğanda bu oyun "Pərdəapardı" da adlanır. Toy günü bir dəstə atlı gənc, oğlan evindən qız evinədək çapır və gərdəyi alıb geriyə, oğlan evinə çatdırır (**4, 113**). Uşaqlar bu tipli oyunları qarğı atla yamsılamağı xoşlayırlar. Fərq bundadır ki, uşaqlar gərdək deyil, yaylıq alıb qaçırlar və bu oyun "Yaylıqaldıqaç" adlanır. Uşaqların atüstü idman yarışlarını yamsılayan digər oyunu "Yortma" adlanır və bu, atın löhrəm yerişini xatırladır. Dəvə yerişini yamsılama oyunlarından biri "Lökləmə" adlanır.

Qız uşaqları daha çox "Beşdaş", "Yelləncək", "Xana-xana" kimi oyunlara maraq göstərirlər. "Yelləncək" oyunu böyüklərin küfdibi oyunlarını yamsılama məqsədilə icra olunur. Bir-birini yelləncəkdə yelləyən balaca qızlar böyüklər kimi nəğmələr də oxuyurlar. Küfdibi şənliyi bağçılıq təsərrüfatı ilə bağlıdır: "Küf – ağacın budaqlarından kəndirlə asılan yelləncəkdən ibarətdir. "Küfdibi" dedikdə, küfün (yelləncəyin) ətrafında keçirilən şənlik nəzərdə tutulur, bu şənlikdə oxunan nəğmələr "küyellilər" adlanır" (**2, 104**). Azərbaycanın müxtəlif bölgələrində çayçılığa, üzümçülüyə (şərabçılığa), tərəvəzçiliyə, alma və nar təsərrüfatına aid oyun xarakterli küfyelli mərasimləri keçirilmiş və bu oyunlarda həmin təsərrüfat sahələrinə aid küfyellilər oxunmuşdur (**2, 104-111**). Küfyellilərin oyun nəğmələri olması mətnlərdən də görünür. "Bala, yellənə-yellənə" mətni bostançıların oyununda oxunur:

Yarım gəlir biçindən,

Bala, yellənə-yellənə.
Keçir bostan içindən,
Bala, yellənə-yellənə.
Birini dərib gedir,
Bala, yellənə-yellənə
Qovunların içindən (**3, 97**).

"Küf asmışıq yellənək" nəğməsi isə həm bostançıların, həm də bağbanların oyununda oxunur:

Məhsulumuz bol idi,
Küf asmışıq yellənək.
Bostan üstü yol idi,
Küf asmışıq yellənək.
Ağa nədi, bəy nədi,
Küf asmışıq yellənək.
Bağda hamı qul idi,
Küf asmışıq yellənək.
Bu küf o küfdən deyil,
Küf asmışıq yellənək.
Bu kef o kefdən deyil,
Küf asmışıq yellənək (**3, 97-98).**

"Nar ağacı gül açdı" küfyellesi nar becərənlərin bu oyunu daha əyləncəli şəkildə icra etdiklərini göstərir:

Göyçayın gülöyşəsi,
Küf asmışıq yellənək.
Bir aləmdi nəşəsi,
Küf asmışıq yellənək.
Qızların oğlanlara,
Küf asmışıq yellənək,
Nar atmaqdı peşəsi (**3, 98).**

Təsərrüfat həyatı ilə bağlı oyunlar içərisində "Tərəkəmə oyunları" xüsusi yer tutur. Belə oyunlarda adətlər, ənənələr, tarixin müxtəlif dövrlərindəki yaşam tərzləri qorunub saxlanılır. Tərəkəmə oyunlarına Qarabağdan qələmə alınmış "Papax oyunu", "Dəsmal oyunu", "Keçipapax oyunu" və "Çoban oyunu"nu nümunə gətirmək olar **(14, 171-172).**

Qızların oyunlarına "Cicibacı", "Qayçıdançıxdı", "Fal oyunu", "Qapıpusdu", "Gülümey", "Yordu-yordu", "Gəlin-gəlin", "Fincan-fincan", "Üzükgizlətdi" və başqaları daxildir. Adətən, el şənliklərində və bayramlarda icra olunan belə

oyunlarda balaca qızlar da iştirak edir, yaxud tamaşaçı qismində fəaliyyət göstərirdilər. Onlar sonra bu oyunları yamsılayır, təqlid edirdilər. Musiqili yarışmalar, rəqs nümayişi, məzəli tamaşa ünsürləri yeniyetmə qızlara maraqlı görünürdü.

Kukla oynatmaqla başlayan tamaşalar (oyuncaq/oyuq tamaşaları) kukla teatrının özülündə dayanır. Məsələn, Novruz bayramı ərəfəsində Təkəoynatma mərasimi keçirilər, bəzən belə oyunlarda təkəni ağacın başına keçirilmiş keçi buynuzları əvəz edərdi. "Təkəçi" xalq tamaşası "Kosa-Kosa" oyununa bənzəyir: "Kosa-Kosa" oyununda keçi, "Təkəçi" tamaşasında isə təkə baharın gəlişindən xəbər verən obrazlardır. Lakin bu oxşarlığa baxmayaraq. "Təkəçi" oyunu müstəqil xalq tamaşası təsiri bağışlayır. "Kosa-Kosa" oyununda keçi obrazını məzhəkəçi yaradır. "Təkəçi"də isə təkə oyuncaqdır. Təkəçi bu oyuncağı hərəkət etdirə-etdirə mətni özü deyir. Kosa-kosa" bayram ərəfəsində, əsasən adamların toplaşdığı yerdə oynanılır. Təkəçi isə həyətləri gəzir, bayram sovqatını yığandan sonra camaatın toplaşdığı yerə gəlir və burada cəmi bir neçə bayatı deyir (**2, 51-52**). "Təkəçi" oyunu Azərbaycanda kukla tamaşasının meydana çıxmasında müəyyən rol oynamışdır.

İlham Rəhimli "Xalq oyun-tamaşaları" adlı araşdırmasında Azərbaycan mərasim, şənlik oyun-tamaşalarını mövzümi mərasimlər və məişət mərasimləri olmaqla iki qrupa bölür: "Əslində mövsümi mərasimlər də məişətlə sıx bağlıdır. Mövsümi mərasimlər yazın gəlişi, əkinin başlanması, məhsulun yığılması, elin-elatın yaylağa çıxması, qoyun qırxımına başlanması ilə əlaqəlidir. Məişət mərasimlərinə aşıq toyları, dərviş düyünləri, ölən igidlərin şəninə ağılar deyib bayatı çağırmaq, yuğlama (ağlama) məclisi qurmaq, vəsfi-hal oyunları aiddir (**18, 17**). Bu bölgüdə "Qodu-Qodu", "Kəvsəc", "Cütçü şumu", "Yel Baba", "Güdül", Novruzla bağlı oyun-tamaşalar, "Yuğ", "Sayaçı", "Qaravəlli", "Məzhəkə", "Məsxərə", "Dərviş", "Hoqqa" və sair oyun-tamaşalar nəzərdən keçirilir (**18, 17-112**). Bölgüdəki oyun-tamaşaların variantları, növləri sadalanaır. Məsələn. "Məsxərə" adı altında lağbaz (Lağ oyunu), şəbədəbaz (şəbədə oyunu), loda, dünbal, dübbə, tənnaz kimi məsxərəçilərdən danışılır (**18, 103-105**). Kitabda məişət oyunları kimi təqdim olunan "Toy-mağar oyunları" əsasən gəlin-qaynana deyişmələri üzərində qurulmuşdur (**18, 114-117**). İlham Rəhimli "Kəndirbaz" oyununu, "Bağbelləmə" kimi lal (pantomim) oyununu da əyləncəli səhnə oyun-tamaşaları sırasına daxil edir (**18, 164-175**). "Bəbək", "İpdəoyuq", "Kosagəlin" kimi kilimarası oyunlarını ayrıca təyinatla təqdim edir. Kilimarası "Kukla oyunu"nun yerli adıdır, el arasında "Oyuq tamaşası" deyirlər (**18, 214-229**).

Azərbaycan xalq oyunlarını folklorşünaslıq elmi baxımından qruplaşdıran Azad Nəbiyev oyunu etnosun həyatında baş verən ilk kulturoloji hadisə sayır: "Xalq oyunları cəldlik, qıvraqlıq aşılayan, yüksək humanist duyğular təlqin edən, şəri cəzalandırmağı, yaxşını qorumağı, ona kömək etməyi tərənnüm edən folklor janrlarındandır" (**Nəbiyev Azad. Azərbaycan xalq ədəbiyyatı. I kitab. Li məktəblər üçün dərslik. Təkrar nəşr. Bakı, Çıraq, 2009, 640 s. sit.375**). Azad

Nəbiyev Azərbaycan xalq oyunlarını aşağıdakı kimi qruplaşdırmış və hər biri haqqında geniş məlumat vermişdir: "1.Rəqsdaxili oyunlar; 2.Mərasim oyunları; 3.Məişət oyunları; 4.İctimai məzmunlu oyunlar; 5.Uşaq oyunları" (**17, 374**). Rəqslərdən başlayıb sözsüz oyunlarla davam edən oyunlar hərəkətlə sözün vəhdətindən ibarət üçüncü və əsas mərhələyə qədəm qoyur (**17, 377-381**). Azad Nəbiyev müəyyənləşdirdiyi bölgü daxilində müxtəlif oyunların məzmununu verir, obrazların dilindən söylənilən şeir parçalarını nümunə gətirir. İctimai məzmunlu oyunlara isə cəmiyyətdə ədalət tələb edən "Arvadı kəndxuda apardı", "Kankan oyunu", "Xan-xan", "Xan-vəzir", "Xan və cütçü Vəli" oyunlarını misal gətirir (**17, 401-403**).

Azad Nəbiyev digər oyunları xalq tamaşaları qrupuna daxil edir. Onun "Meydan tamaşaları" siyahısına cıdır tamaşaları, zorxana tamaşaları, əyləncə tamaşaları, Qaraçı tamaşaları və fərdi tamaşalar daxildir (**17, 407**).

Azad Nəbiyev "Qaraçı tamaşaları" bölgüsündə ayıoynatmaları, Qaraçı qızlarının rəqslə əyləncəli oyunlarını verir, buğadöyüşdürmə, nərdöyüşdürmə, qoçdöyüşdürmə, itboğuşdurma, xoruzdöyüşdürmə, yumurtadöyüşdürmə kimi oyunları "Fərdi tamaşalar" qrupuna daxil edir. (**17, 436-455**). Uşaq oyunları "Uşaq folkloru" bölməsində ayrıca qruplaşdırılır. Buraya cəldlik, çeviklik və hərəkətlə bağlı oyunlar ("Qaçdı-tutdu", "Çilik ağac", "Topaldıqaç" və s.), ayin, mərasim və etiqadla bağlı uşaq oyunları ("Qodu", "Yel Baba", "Od üstündən atdanma" və s.), gözbağlayıcı oyunları ("Qızılgülüm kimdədi", "Xan babamın adını de", "Yaylığı kim apardı" və s.) aid edilmişdir (**17, 588-592**).

Oyunlara idman növlərindən biri kimi yanaşan tədqiqatçılar onları iki qrupda təsnifləşdirirlər. Oyunlar mütəhərrikliyinə və idman növlərinə görə fərqlənir. Bundan başqa, oyunlar həm də sadə və mürəkkəb olur. Xalq oyunları "teatrlaşdırılmanın dərəcəsinə" görə də təsnif olunur (**21, 38-39**). Püşkatma oyununun qaydalarını təsvir edən kitabda oyunlar uşaqların yaş qruplarına görə təsvir olunur (**21, 25-33).** Burada ən sadə və ibtiai sayılan oyunlardan ən mürəkkəb oyunlara doğru təsnifat verilir, oxuculara 29 "xalq oyunu", 10 "teatrlaşdırılmış və mərasim oyunu" təqdim olunur (**21, 42-103).** Oyunları yaş qrupuna görə qruplaşdıran "Azərbaycan xalq oyunları" kitabçasında orta yaş dövrü (3-7-ci siniflərin şagirdləri) üçün nəzərdə tutulan "Ənzəli", "Bənövşə", "Baharbənd", "Papağını bərk saxla" kimi otaqda və açıq havada keçirilən oyunlar, həmçinin uşaq oyun nəğmələri verilmişdir (**8, 2-5).** "Azərbaycan uşaq mütəhərrik oyunları" adlı kitabda da oyunlar yaş qruplarına görə xarakterizə olunur: 1.Orta yaş qrupu uşaqları üçün komandalı oyunlar; 2.Böyük yaş qrupu uşaqları üçün komandasız oyunlar; 3.Məktəbə hazırlıq qrupu uşaqları üçün komandalı oyunlar (**1, 34-89**). Kitabda verilmiş oyunlar haqqında məlumatlar maraqlı bir quruluşa malikdir. Burada oyunun yeri, lazım olan vəsaitlər təsvir olunur, sonra oyuna hazırlıq mərhələsi, bundan sonra isə oyunun qaydaları verilir. Sonda oyunun keçirilməsi üçün metodik göstəriş təqdim olunur (**1, 34-90**).

Türk xalqlarının oyunları ilə bağlı fundamental araşdırma aparan Füzuli Bayat 2017-ci ildə işıq üzü görmüş "Şamandan səmazənə. Oyun və oyunçu" kitabında oyunların tarixi, fəlsəfəsi, təsnifatı məslələrinə aydınlıq gətirən təhlillər aparır. Füzuli Bayatın fikrincə, biz dünyanı, əhatəmizdəki təbiəti, özümüzü və Tanrımızı oynayaraq dərk edirik: "Oyun bizi bizə tanıdan, bizi biz edən, hətta bizi bizdən alıb başqa bir aləmə götürən əsas insan məşğuliyyətidir" (**12, 8**). Onun diqqət çəkdiyi digər məqam Azərbaycanda və Türkiyədə yazıya alınmış oyunların "regional variantlaşma səviyyəsində" olması, oxşar və eyni oyunların bölgə xüsusiyyətlərini özündə daşımasıdır: "Nəşr olunan oyunların böyük əksəriyyəti nəinki Azərbaycanın digər bölgələrində, həmçinin türk dünyası üçün də müştərəkdir. Məsələn, "Aşıq oyunu", "Evcik", "Halay", "Cirit" və digər savaş oyunları, "Dirədöymə", "Eşşəkbeli" və s. variant xarakterli nümunələrdən ibarətdir" (**12, 9**). Özündən əvvəlki fikirləri və təsnifatları nəzərdən keçirən F.Bayat oyunları məzmumuna görə dini oyunlara, sosial oyunlara, əyləncə, savaş və yarış oyunlarına ayırır və bu növlər daxilində təsnif edir. Dini oyunlar üçün şaman oyunları və şəbihlər əsasdır. Karnavallar, kütləvi törənlər, nərd, şahmat oyunları, bayramlarda göstərilən oyunlar, həmçinin doğum, evlənmə və müharibələrdəki qələbə ilə bağlı oyunlar sosial mahiyyət daşıyır. Rəqs və atletik oyunlar əyləncə oyunlarıdır. Savaş oyunlarına Çovqan, Gökbörü, Cıdır, Bayqa, at üstündə güləş və sair daxildir. Futbol, boks, karate yarışları, əlbəyaxa və yasaqlanan bəzi döyüş növləri yarış oyunlarıdır (**12, 34**). Yaş qruplarına görə və cinsi fərqlərə görə də oyunları qruplara bölürlər. F.Bayat bu oyun çeşidləri içərisində "çaşıb qalmamaq üçün" sadə bir təsnifata ehtiyac olduğunu yazır: "Beləliklə, geniş mənada oynanılan, göstərilən və seyr edilən oyunu a) təhkiyəli, dialoq və monoloqlardan qurulan, süjetli və b) təhkiyəyə dayanmayan, yəni teatr elementləri olmayan oyunlar olmaqla iki hissəyə bölmək mümkündür (**12, 31-32**). Məsələn, dərviş hekayələrini, qaravəlli tamaşalarını, meydan oyunlarını, oyuncaq/oyuq/kukla oyunlarını, şəbihləri təhkiyəli və süjetli oyunlar kimi xarakterizə etmək olar. Təhkiyəyə dayanmayan və teatr elementləri olmayan oyunlara zorxanaları, kəndirbazları, xalq rəqslərini, uşaq oyunlarını, canbazları, atüstü oyunları daxil etmək mümkündür (**12, 32**). Xalq oyunlarının qaynağına nəzər salan, meydan oyunlarının semantik funksiyasını araşdıran, uşaq oyunlarının təsnifatını verən, ritualla bağlı oyun və şənlikləri təhlil edən F.Bayat janr və janrdaxili dəyişmələrə də diqqət çəkir, türk xalqlarının oyunlarındakı məzmun, struktur, məqsəd, ifa oxşarlığını və fərqini nəzərdən keçirir.

Türk xalqları içərisində İraq türkmənlərinin oyunları Azərbaycan xalq oyunları ilə oxşarlıq təşkil edir, hətta eyni oyunların müxtəlif variantları mövcuddur. İraq türkmənlərinin cocuq (uşaq) oyunlarını araşdıran Savaş M.Abdülmecit oyun sözünün yaranma tarixinə nəzər salır, onun türk, qırğız və qazax dillərindəki "çukur" (fikir-düşüncə-rəy) mənasını verən "oy" həm isim, həm də fel kökü olan sözdən törəndiyini və "un" şəkilçisi ilə "çukur açmaq" (eglenmek, oynamak, aldatmak) anlamını qazandığını bildirir. Bu söz Türkiyə, Azərbaycan, qazax, qırğız, özbək, türkmən, uyğur türkcələrində "oyun", Makedoniya, başqırt və tatar türkcələrində "uyın,

uynav" şəkillərində işlədilir (**20, 19-21**). İraq və Türkiyə türklərində oyunların təsnifatı da çoxsahəlidir. Savaş M.Abdülmecitin verdiyi informasiyaya görə, Mehmet Yardımçı və Hüseyin Tuncer birlikdə yazdıqları "Çocuk Edebiyatı" dərsliyində "Türkiyede oynanılan çocuk oyunlarını: "1.Aşık Oyunları; 2.Atlamalı Oyunlar; 3.Değnek (çelik) Oyunları; 4.Göz Bağlananarak Oynanan Oyunlar; 5.Oturarak Oynanan Oyunlar; 6.Şarkılı Oyunlar; 7.Koşma ve Kovalamaya Dayalı Oyunlar; 8.Saklambaç; 9.Taş Oyunları; 10.Bilye Oyunları; 11.Evcilik Oyunları; 12.İp Oyunları 13.Top Oyunları; 14. Zeka Oyunları olarak gruplara ayırmışlar" (**20, 43**). Savaş M. Abdülmecit İraq türkmənlərinin cocuq (uşaq) oyunlarını "yapılarına göre", "konularına göre" və "diğer özelliklerine göre" qruplara ayırır və təsnifləşdirir. Birinci qrupa təkərləməli ("Deve Deveci", "Evelleme Develleme", "Ha Börü Börü", "Köse Geldi", "Aleylim Buleylim" və s.), təkərləməsiz ("Aşuğ", "Bel (Sirt) Üzerindən Atlamak", "Çukura Atma", "Çuvala Girmek", "Göz Bağlama", "Sap Sap", "İp-İp (İp Atlama)" və s.) və yalnız təkərləmədən ibarət ("Ene Pene", "Mennen Sen Yoldaşığ", "Hecceler Hece Gider", "Qonşu Qonşu", "Peş Peş" və s.) oyunlar daxildir (**20, 48-52**). Təkərləmələrdən, qəlib sözlərdən, ninnilərdən və türkülərdən ibarət uşaq oyunlarında nəğmə mətnlərindən istifadə olunur. Oyunların böyük bir qismi hər hansı bir oyun alətindən istifadə olunmadan həyata keçirilir. Alətli oyunlar top, ip, daş, muncuq, ağac və digər vasitələrin köməyi ilə icra olunur. Alətli oyunların Azərbaycan variantları da mövcuddur. "Beş Taş Oyunu" ("Beşdaş"), "Çukura Atma" ("Mərəyə daşatma"), "Aşuğ Oyunu" ("Aşıq-aşıq") və sair bənzərliklər eyni kökdən qaynaqlanır (**20, 48-52**). Bu cür oxşarlıqlar oyun zamanı söylənilən mətnlərdə də özünü göstərir. "Ha Börü-Börü Oyunu" Azərbaycan türklərinin "A teşti-teşti" düzgüsünün mətninə bənzəyir:

İraq türkmən variantından:
He boru boru boru
İçinde var iki qoru
İki xoruzum salıştı
Birsi qana bulaştı
Qan diledim dilimçin
Kemer yoxtu belimçin... (**20, 48-52**).

Azərbaycan varinatından:
A teşri, teşti, teşti,
Vurdum Gilanı keçdi.
İki xoruz dalaşdı,
Biri qana bulaşdı.
Qan getdi çaya düşdü,
Çaydan göyərçin uşdu.
Göyərçin alabaxta,
Yuvası qəlbi taxta.

Görüm onu kim vursa,
Qan qussun laxta-laxta **(16, 99).**

Bəzi oyunların mətnləri dualar, bəddualar, düzgülər, sanamalar şəklində olur. Eynilə Azərbaycan variantını xatırladan "Köse Geldi Oyunu" zamanı oxunan nəğmələr yağmur dualarıdır. Belə nəğmələrə müsəlla duaları da deyirlər. Müsəllaya çıxan adamlar Tanrıdan Yağış yağdırmağı, Günəş çıxarmağı, Küləyi kəsməyi, Zəlzələni dayandırmağı xahiş edirlər. Maraqlıdır ki, "Köse Geldi Oyunu" zamanı uşaqlara verilmiş heybələr vasitəsi ilə kasıblara, imkansızlara ərzaq paylanılır və yeməkdən sonra elə həmin uşaqlar yağmur duası edirlər:

Allah bir yağış ele
Dam duvarı yaş ele (**20, 142**).

